AZƏRBAYCAN UNİVERSİTETİ

Vəfaddin Ələm oğlu İbayev

BEYNƏLXALQ HUMANİTAR HÜQUQ

(DƏRSLİK)

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ali məktəblərin tələbələri üçün dərslik kimi təsdiq edilmişdir
(06 mart 2001-ci il tarixli 202 saylı əmr)

"Hüquq ədəbiyyatı" nəşriyyatı
Bakı-2001

2

İ (14) 2001

341
İ 13

Rəyçilər: **Xanlar Hacıyev** — Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri namizədi
Rövşən Mustafayev — Azərbaycan Respublikası Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun direktoru, siyasi elmlər doktoru
Lətif Hüseynov — Azərbaycan Respublikası Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri, hüquq elmləri doktoru

Dərslik Beynəlxalq Hüquq Assosiasiyasının 16 fevral 2001-ci il tarixli 11 saylı iclas protokolu ilə təsdiq edilmişdir.

İ (14) 2001 V.İbayev. Beynəlxalq humanitar hüquq.
"Hüquq ədəbiyyatı" nəşriyyatı. B., 2001. 496 səh.

Dərslikdə beynəlxalq humanitar hüquq fənni proqramına daxil olan mövzular əhatə olunmuşdur. Beynəlxalq humanitar hüquqa dair beynəlxalq hüquqi sənədlər şərh edilmiş, Azərbaycan Respublikası qanunvericiliyində beynəlxalq humanitar hüququn implementasiyası məsələləri araşdırılmışdır.
Dərslik hüquqşünaslıq, beynəlxalq hüquq və beynəlxalq münasibətlər ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

İ $\frac{1207000000—002}{\text{h (062)—2001}}$ elansız

© "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2001

ÖN SÖZ

Dünyada sülhün və təhlükəsizliyin tə'mininin beynəlxalq hüquqi vasitələri hələ ki, dövlətlər arasında dinc münasibətlərin tam tə'minatı kimi çıxış edə bilmir. Müasir beynəlxalq münasibətlərdə silahlı münaqişələrə səbəb olan mənbələr mövcud olmaqda davam edir. Müharibə aparılması vasitələrinin inkişafındakı texniki tərəqqi müharibələrin dağıdıcılıq qüvvəsini daha da gücləndirir. Son dövrlərin silahlı münaqişələri daha çox mülki əhalinin müharibə qurbanlarına çevrilməsinə səbəb olur.

Yeni dünya müharibəsi kabusu artıq keçmişdə qalsa da, xalqların təhlükəsizliyi və sülhün əsaslı tə'mindən danışmaq hələ tezdir. Müharibə və Sülh Beynəlxalq İnstitutunun hesablamalarına görə başa çatmaqda olan əsrin son onilliyinin hesabına 100-dən artıq fəal silahlı münaqişə düşür. Bu isə silahlı münaqişələr zamanı zorakılığın cövlan etməsinin qarşısının alınması zəruriliyini, deməli, beynəlxalq humanitar hüquq normalarına riayət olunmasını tələb edir. Bəşəriyyət hələlik müharibənin qarşısını almaq iqtidarında olmasa da, onun qanun və adətlərinin humanistləşdirilməsi yolu ilə gedir. Bu cür humanizm ideyalarına xidmət edən Cenevrə Konvensiyalarına qoşularkən dövlətlər fərdi maraq güdməməli, hamısı bir yerdə ümumi məqsədə-Konvensiyanın müddəalarının həyata keçirilməsinə nail olunmasına çalışmalıdır.

Son illər Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə intensiv surətdə qoşulması ilə səciyyəvidir. Dövlətin beynəlxalq müqavilələr üzrə öhdəliklərini vicdanla yerinə yetirməsi (pacta sunt servanda) beynəlxalq hüququn hamılıqla qəbul edilmiş (jus cogens) prinsiplərindəndir. Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsinə əsasən Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Respublikamız pacta sunt servanda prinsipinə sadiq qalaraq beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirir.

12 avqust 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyalarının icrasını nəzərdə tutan normalarda (I Cenevrə Konvensiyası mad. 47; II Cenevrə Konvensiyası mad. 48; III Cenevrə Konvensiyası mad. 127;

IV Cenevrə Konvensiyası mad. 144) iştirakçı dövlətlərin üzərinə qoyulmuş öhdəliklərdən biri də Konvensiya mətninin həm dinc, həm də müharibə dövründə öz ölkələrində bacardıqca geniş yaymaq, o cümlədən onun öyrənilməsini hərbi və mümkün qədər mülki tədris proqramlarına daxil etməkdir. Azərbaycan Respublikası 21 aprel 1993-cü ildə Cenevrə Konvensiyalarına qoşulmuş və üzərinə götürdüyü öhdəliyin yerinə yetirilməsini tə'min edir. Respublikamızın hərbi və mülki ali təhsil müəssisələrində "Beynəlxalq humanitar hüquq" fənninin tədris olunması məhz bu öhdəliyin yerinə yetirilməsinin təzahürü kimi qiymətləndirilməlidir. Müxtəlif ali tədris müəssisələrində "Beynəlxalq humanitar hüquq" fənninin tədris olunmasına baxmayaraq Azərbaycan dilində dərsliyin olmaması tədrisin səmərəliliyini xeyli azaldır. Tərəfimizdən yazılmış "Beynəlxalq humanitar hüquq" dərsliyi predmetin öyrənilməsində mövcud boşluğun aradan qaldırılmasına xidmət edir.

Dərslik iyirmi fəsildən ibarət olmaqla predmetin ən aktual məsələlərini əhatə edir. Dərsliyin birinci fəsli humanizm ideyalarının yaranması və inkişafı məsələlərinə həsr olunmuşdur. Dərslikdə Azərbaycanda humanizm ideyalarının yaranması və inkişafı, islamda humanizm məsələlərindən bəhs edilməklə həmin ideyaların azərbaycan xalqı üçün yad olmaması əsaslandırılmışdır. Beynəlxalq humanitar hüququn dövlətdaxili hüquq, insan hüquqları, beynəlxalq ekologiya hüququ, beynəlxalq təhlükəsizlik hüququ, beynəlxalq cinayət hüququ ilə qarşılıqlı əlaqəsinin dərslikdə öz əksini tapması beynəlxalq humanitar hüququn bir elm kimi yerinin müəyyənləşdirilməsində əhəmiyyət kəsb edir.

Dərslikdə hərbi əməliyyatların iştirakçıları, yə'ni kombatantlar, qeyri-kombatantlar, hərbi əsirlər, casuslar, hərbi kəşfiyyatçılar, muzdlular, könüllülər, hərbi müşavir və tə'limatçıların hüquqi statusunun müəyyənləşdirilməsi, Cenevrə Konvensiyaları ilə onlara verilmiş mühafizə müqayisəli şəkildə təhlil edilmişdir. Dərslikdə müharibə qurbanlarının beynəlxalq hüquqi mühafizəsinə daha ətraflı yer ayrılmışdır. Bu sahədə tarixi ardıcıllıqla beynəlxalq hüquqi sənədlər araşdırılmış, mühafizənin müasir səviyyəsi hüquqi sənədlər əsasında təhlil olunmuş, beynəlxalq konvensiyaların müvafiq maddələrinə istinad edilmişdir. Yaralı və xəstələrin, gəmi qəzasına düşənlərin, hərbi əsirlərin, mülki şəxslərin mühafizəsinə həsr olunmuş beynəlxalq konvensiyalarla yanaşı, onların kommentariyasına da müraciət olunması mövzunun daha asan dərk olunmasına kömək edir.

Beynəlxalq humanitar hüququn mühüm tərkib hissəsini təşkil edən Haaqa hüququ — müharibə aparılması metod və vasitələrinin məhdudlaşdırılması barədə beynəlxalq hüquqi müqavilələri əhatə edir. Bu sahədə də mövcud konvensiyalar tarixi ardıcıllıqla araşdırılmış, tələbələrin zəruri biliklər alması üçün lazımi mə'lumatlar dərsliyə daxil edilmişdir.

Silahlı münaqişələr zamanı neytrallıq məsələləri, neytral dövlətlərin silahlı münaqişələr zamanı hüquq və vəzifələri, yaralı və xəstələrə neytral dövlətlər tərəfindən göstərilən yardımın hüquqauyğunluğu, quru müharibələri, dəniz müharibələri zamanı neytrallıq, hava məkanında neytrallıq və daimi neytrallığın səciyyəvi cəhətləri beynəlxalq hüquqi sənədlərə əsasən şərh olunmuşdur.

BMT tərəfindən həyata keçirilən əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn tətbiqi məsələləri beynəlxalq hüquqi doktrinada son vaxtlar öyrənilən problemlərdəndir. BMT və BQXK-nin həmin məsələyə münasibətində olan fərqli cəhətlər dərslikdə ifadəsini tapmışdır. Dərslikdə beynəlxalq humanitar hüququn implementasiyası, onun yerinə yetirilməsində dövlətlərin rolu, beynəlxalq humanitar hüquqa riayət olunması məsələləri, Azərbaycan Respublikası CM-də beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə məs'uliyyət məsələlərinə də xüsusi yer verilmişdir.

Beynəlxalq humanitar hüququqda fiziki şəxslərin cinayət məs'uliyyəti məsələsi, beynəlxalq cinayətlərin qarşısının beynəlxalq səviyyədə alınmasında Nürnberq, Tokio, Ruanda və Yuqoslaviya Beynəlxalq Hərbi Tribunallarının rolu, Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması, onun yurisdiksiyası, məhkəmənin beynəlxalq humanitar hüquq normalarının pozulmasının qarşısının alınmasında əhəmiyyəti dərslikdə öz ifadəsini tapmışdır.

Müəllif "Beynəlxalq humanitar hüquq üzrə altıncı seminar"(Moskva, Sneqiri — 2-9 fevral 2000-ci il) və Regional konfrans (Moskva — 29-31 may 2000-ci il) zamanı dərsliklə əlaqədar verdikləri faydalı məsləhət və tövsiyələrə görə BQXK-nin vitse-prezidenti C. Forsterə, BQXK-nin əməkdaşları L. Olsona, M. T. Dutliyə, S. Şallerə, Ruanda Beynəlxalq Cinayət Tribunalının hakimi Y. A. Ostrovskiyə, hüquq professorları A. Buvyeyə, U. Şabasa, BQXK-nin Bakı nümayəndəliyinin əməkdaşları K. Folettiyə, Y. Feala, P. Apraksinə, G. Kərimova, "Международное гуманитарное право" (Minsk-2000) dərsliyinin müəl-

lifləri V. Kaluqin və İ. Fisenkoya, həmçinin Azərbaycan Universiteti "Beynəlxalq hüquq" və Bakı Dövlət Universitetinin "Beynəlxalq hüquq və xarici ölkələrin dövlət hüququ" kafedrasının əməkdaşlarına minnətdarlığını bildirir.

Qeyd etmək istərdik ki, təqdim olunan "Beynəlxalq humanitar hüquq" dərsliyi yalnız respublikamızda deyil, həm də MDB məkanında tədris olunan predmetə dair ilk dərsliklərdəndir. Sözsüz ki, dərslik nöqsanlardan xali deyil. Beynəlxalq humanitar hüququn inkişafı dərsliyin gələcəkdə yeni nəşrinin zəruriliyini şərtləndirir. Bu cəhətdən müəllif tənqidi qeyd və təkliflərinizi gözləyir.

Fəsil I

HUMANİZM İDEYALARININ YARANMASI VƏ İNKİŞAFI

1. Bəşər tarixində humanizm və müharibə ideyalarına münasibət

Bəşər tarixi qanlı müharibələrin fasiləsiz zəncirini xatırladır. Müharibələrin fasiləsiz olaraq baş verməsi ona dəlalət edir ki, onları bəşər cəmiyyətində dərin kökləri olan səbəblər doğurur. Bu səbəbləri aradan qaldırmadan isə əbədi sülh utopiyadır. Lakin müharibələrə heç bir qanuna tabe olmayan hadisə kimi də baxılmamalıdır. Cəmiyyət sivilizasiyasının yüksəlişi, müharibənin məhvedici dəhşətinin dərki, həmçinin beynəlxalq hüququn müsbət tə'siri müharibələrin qarşısının alınması üçün mühüm şərtdir.

Müharibəyə münasibətdə alman mütəfəkkirləri İ. Kant və F. Hegelin fikirləri də diqqəti cəlb edir. Kant belə hesab edirdi ki, ictimai inkişafın müəyyən səviyyəsi üçün müharibə dövlətlər arasında münasibətlərdə hüququn həyata keçirilməsi üçün yeganə vasitədir. Lakin bəşərin inkişafı nəticəsində müharibələr getdicə azalır və müəyyən vaxtda onlar tamamilə aradan qalxacaqdır. Kant "Əbədi sülhə doğru" traktatında sülhə doğru hərəkatı müharibəni beynəlxalq münasibətlərin forması kimi son nəticədə istisna edən qarşısıalınmaz mütərəqqi proses, özünəməxsus tarixi zərurət kimi xarakterizə etmişdir. O, belə hesab edirdi ki, müharibənin qarşısını beynəlxalq müqavilə yolu ilə almaq mümkün olmasa, onda bizim sivilizasiyanı məhvedici müharibədən sonra "bəşəriyyətin nəhəng qəbristanlığında" əbədi sülh gözləyir.[1]

Kantın nəzəriyyəsini tənqid edərək Hegel faktiki olaraq müharibələrin zəruriliyi qənaətinə gəlir. O, yazırdı ki, "dövlətlər arasında mübahisə xüsusi iradələr sazişə gəlmədikdə ancaq müharibə vasitəsi ilə həll edilə bilər." Hegel hətta müharibədə müsbət cəhət də görürdü: "Müharibədə xalqlar təkcə möhkəmlənmir, həm də beynəlxalq müharibələr

1 Кант Иммануил. Соченение. Т.6. М., 1965, с.257

nəticəsində aralarında antiqonizm olan millətlər belə daxili sakitlik əldə edirlər".[2]

Fransız filosofu P.J.Prudon (1809-1866) müharibəni ilahiləşdirir, onu insanın özü, cəmiyyət və həyat üçün mühüm bir hadisə kimi qiymətləndirirdi. O, müharibəni ədalət mühakiməsinə bərabər tutur, "müharibə bizim tariximiz, bizim həyatımız, bizim ruhumuzdur; o — qanunverici, siyasət, dövlət, vətən, ictimai quruluş, beynəlxalq hüquq, poeziya, ilahiyyat, bir daha hər şeydir", — deyirdi. Prudona görə güc kimin tərəfindədirsə həqiqət də oradadır.

Müharibənin səbəb olduğu dağıntılar, onların mə'nasızlığı çoxdandır ki, insanların müharibələrə tamamilə son qoyulması, xalqların biribirinə məhəbbəti, inamı və dostluğu şəraitində yaşaması mümkünlüyü üzərində düşünməyə vadar edir. Həqiqətən də, qədim zamanlardan başlayaraq hal-hazırkı dövrə qədər bu sahədə müəyyən cəhdlər edilmişdir. Lakin bu cəhdlərin xeyirxah nəticələri, təəssüf ki, çox azdır.

Müharibələrə son qoyulması düşüncəsi bə'zi mütəfəkkirlər tərəfindən daha da inkişaf etdirilərək "əbədi sülh" ideyası kimi irəli sürülmüşdür. Bu məsələ ilə bağlı abbat Sen Pyer, İmmanuel Kantın traktatları xüsusilə diqqəti cəlb edir.

Sülh uğrunda aparılan təbliğat sözsüz ki, özünün müəyyən bəhrələrini vermişdir. İctimai şüurda tədricən müharibənin bəyənilməsindən onun pisləmməsinə doğru dönüş baş vermiş, müharibələr bir çox beynəlxalq hüquqi sənədlərdə, müqavilələrdə dövlətlərarası münasibətlərin həlli vasitəsi kimi qadağan olunmuşdur.

F.F.Martens müharibələrin beynəlxalq mübahisələrin həlli vasitəsi kimi tanınmasının qadağan olunması sahəsində dönüşü yüksək qiymətləndirərək qeyd edirdi ki, əgər vəhşi xalqlarda müharibə düşmənin, onun əmlakının tamamilə tələf olunmasının qanuni vasitəsidirsə, əgər onlar üçün müharibə şərəfli bir məşğuliyyət, insana layiq bir vəziyyətdirsə, sivilizasiyalı xalqlarda isə əksinə, müharibə bəla, bədbəxtlik, uzun illərin sülh fəaliyyəti nəticəsində əldə edilmiş nailiyyətin məhvi, milyonlarla insanı həyatdan məhrum etmək kimi qiymətləndirilir.

Əgər ibtidai xalqlar müharibəni dəstəkləyir, qədim dünyanın şanlı döyüşçüləri — romalılara görə nizə mülkiyyət hüququnun rəmzidirsə, əgər orta əsrlərdə müharibə "feodalizmin qanunu", beynəlxalq və döv-

2 Гегель. Соченение. Т.7. М-Л., 1934. с. 351, 344

lət həyatının normal vəziyyətidirsə, müasir xalqlarda isə heç bir xalq açıq sürətdə müharibəni yaranmış mübahisələrin həlli üçün məqsədəmüvafiq vasitə kimi qiymətləndirmir.[3]

İngilis filosofu F.Bekonun (1561-1626) fikirlərinə istinad edərək beynəlxalq hüquqşünaslar Filimor və Blyunçli müharibəni döyüşən tərəflər kimi dövlətlər arasında ümumi hüquq haqqında mübahisə hesab edirdi. Faktiki olaraq onlar dövlətlər arasında müharibəni ayrı-ayrı şəxslər arasında mülki proseslə bərabərləşdirirdilər.

Əslində isə müharibə barışmaz əks tərəflərin və maraqların nəticəsidir. Digər tərəfdən hüquq barədə mübahisə ancaq hüquq dairəsində həll olunmalıdır. Lakin buna çox vaxt nail olmaq mümkün olmur.

Müharibə və silahlı münaqişələr döyüşən tərəflər arasında, döyüşən tərəflərlə münaqişədə iştirak etməyən tərəflər arasında müəyyən münasibətlər yaradır. Hazırda müharibənin bəşər cəmiyyətinin həyatından tamamilə, bir hadisə kimi silinməsindən danışmaq sadəlövhlük olardı. Bununla belə müharibələrin müəyyən qaydalara uyğun aparılmasına nail olmaq, onların doğurduğu ağır nəticələrin qarşısını müəyyən qədər almaq və onları yüngülləşdirmək mümkündür. İnsanın müharibə dəhşətlərindən müdafiə edilməsi ideyası müharibələrin özü qədər qədimdir. Bəşər tarixinin inkişafına nəzər salsaq bir tərəfdən müharibənin ağır dəhşətləri, onların insanlara yetirdiyi ağlasığmaz əzablarla, digər tərəfdən bu dəhşət və əzabların qarşısının alınması, silahlı münaqişələrin müəyyən qanunlara uyğun aparılması, silahlı münaqişələr zamanı belə humanizm prinsiplərinin rəhbər tutulması kimi fikirlərə, adətlərə, qayda və qanunlara rast gələrik. Bir tərəfdən silahlı münaqişələr zamanı humanizm ideyalarına riayət olunması barədə çağırış və bu sahədə formalaşan adətlər, digər tərəfdən isə yeni-yeni silahlı münaqişələrin doğurduğu dəhşətlər getdikcə silahlı münaqişələr zamanı tətbiq olunan hüquq normalarının inkişafına təkan vermişdir.

Mark Tuli Siseron eramızdan əvvəl 52-ci ildə yazırdı ki, silahlar toqquşan zaman qanunlar susur. O, dövlətlər arasında mübahisələrin həllinin müzakirələr və zor tətbiq edilməsi yolunu fərqləndirir, ikinci yolun vəhşilər üçün səciyyəvi olduğunu qeyd edirdi.

Xalq tribunu Metell müharibə məqsədilə Sezarın dövlət xəzinəsin-

---

3 Пустогаров В.В. Феодор Феодорович Мартенс. Юрист дипломат. М., "Международные отношения" 1999.с.106-107

dən pul götürməsinə imtina etdikdə Sezar ona demişdir: "Silahlar və qanunlar biri-biri ilə uzlaşmır. Əgər sən mənim hərəkətimdən razı deyilsənsə, yaxşı olar ki, kənara çəkiləsən, çünki müharibə heç bir e'tiraz tanımır. Sülh bağlandıqdan sonra isə mən silahı kənara qoyacağam, sən yenidən qayıdıb xalq qarşısında natiqlik edə bilərsən".[4]

Müharibə və hüququn qarşılıqlı münasibətlərindən bəhs edərək H. P. Qasser yazır: "Müharibə ibtidai, qaba zorakılıq təzahürüdür. Dövlətlər fikir ayrılıqlarını və ya mübahisələri sülh danışıqları masası arxasında həll edə bilmədikdə, yaxud etmək istəmədikdə, silahlar işə düşür. Müharibə labüd surətdə ölçüyə gəlməyən əzablara və ağır maddi itkilərə gətirib çıxarır. Bununla belə dövlətlər biri-biri ilə müharibə aparır, insanlar isə hökumətdən ədalətli rəftara ümidini itirdikdə, ona qarşı silaha əl atırlır. Heç kim də, məsələn, kiçik bir dövlətin onun müstəqilliyinə edilən qəsdi ("təcavüzkar müharibə"ni) dəf etməyə cəhd göstərərək apardığı müharibəni, yaxud istibdada qarşı ayağa qalxmış xalqı qınamaz.

Hüquq və müharibə. Hüquq sülh yolu ilə, yə'ni insan tələfatı olmadan və maddi itkilərsiz, dövlətlər arasındakı münaqişələrin, insanların qoyduğu istənilən qayda-qanunlar şəraitində labüd olan bu münaqişələrin nizamlanmasına kömək edə bilərmi? Başqa sözlə hüquq müharibənin qarşısını almağa qadirdirmi? Tez-tez meydana çıxan daha bir sual: əgər müharibənin qarşısının alınması baş tutmursa, o zaman hüquq müharibə ilə, onun nəticələrinin aradan qaldırılması ilə məşğul olmalıdırmı? Bu, bə'zilərinin düşündüyü kimi müharibəyə nə isə bir mö'təbərlik görkəmi vermək deyildirmi? Döyüş meydanında və ya həbsxana divarları arasında hüququn faydası nədir? Yaxud müharibə zamanı qanunların susduğunu deyən Siseron haqlı idimi?"[5]

Bununla belə bəşər cəmiyyətinin ilk inkişaf mərhələlərindən başlayaraq müharibə dəhşətlərinin yüngülləşdirilməsinə yönəldilmiş tədbirlərin izlərilə rastlaşmaq mümkündür. "Hətta müasir naturalistlər heyvanat aləminin inkişaf etməmiş intellektini öyrənərkən, müharibənin ibtidai qaydalarını aşkar etmişlər".[6]

---

4 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 467

5 Hans-Peter Qasser. Beynəlxalq humanitar hüquq. Giriş. Bakı. BQXK. 2000. s.7-8.

6 Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. Bakı. BQXK. 1999.s.12

İlk vaxtlar müharibələrin güclünün qanunu və "məğlubların bəlası"(lat. vae victis) prinsipindən başqa heç bir qaydası mövcud olmamışdır. Eramızdan əvvəl 390-cı ildə romalılar üzərində qazanılmış qələbədən sonra qalların sərkərdəsi Bern romalıların şəhərdən çıxmaq üçün ödəməli olduğu qızılı çəkən tərəzinin daşlar qoyulmuş gözünə qılıncını əlavə edərək "vae victis" ifadəsini işlətmişdi.

Qeyd etmək lazımdır ki, həmin dövrün qaydaları ilə müqayisədə Bern böyük mərhəmət göstərmişdi. Çünki qədimdə müharibə çox vaxt total xarakter daşıyır, məğlub olanlar ya məhv edilir, ya da ən azı qula çevrilirdilər. Bu öz dövrünün tanınmış mütəfəkkirlərinin irəli sürdüyü fikirlərlə də təsdiq olunur. Ksenofont "müharibə zamanı düşməndən alınan şəhərdə bütün adamlar və əmlakın qalibə mənsub olmasını ümumi və əbədi qanun" hesab edirdi.

Platon isə "Respublika" əsrində belə bir nəticəyə gəlirdi ki, "düşmənin əlinə diri düşmüş şəxslə, düşmən qənimət kimi istədiyi rəftarı edə bilər". Roma Respublikasının ilk dövrlərində ictimai və sosial münasibətləri tənzimləyən XII cədvəl qanunu "düşmənə qarşı hər şeyə icazə verilir" müddəasını da nəzərdə tuturdu.

Bibliyada Musanın adından belə bir fikir səslənir: "Şəhəri fəth etmək üçün ona yaxınlaşanda sülh təklif et. Əgər o sənինlə sülhə razılaşsa və onu fəth etmək üçün qapılarını üzünə açsa, onda orada olan bütün xalq sənə xərac verib, sənə xidmət edəcəkdir. Əgər o, sənինlə sülhə razı olmasa və müharibə aparsa onda onu mühasirəyə al. Və nə vaxt Allah onu sənin əlinə versə oradakı kişi cinsindən olanları qılıncla məhv et. Ancaq qadınları və uşaqları, heyvanları və şəhərdə olan hər şeyi qənimət kimi özünə götür. Sənin Allahının sənə verdiyi düşmənlərinin qənimətindən istifadə et". Bizim eradan əvvəl IV əsrdə diktator Kamill hərbi əsirlərə qarşı mərhəmət səsini ucaldanda Roma senatı onu sürgün etmişdi.

Lakin ictimai fikir düşüncəsinin inkişafı, döyüşən tərəflərin düşməni tamam məhv etmənin səmərəsizliyini dərk etməsi və qisas qorxusu tədricən məğlub tərəfə olan münasibəti dəyişdirdi. Əlbəttə, müharibələr yenə də dağıntı və dəhşətlər gətirməkdə idi. Lakin insanpərvərlik və humanizm sədaları getdikcə yüksəlməkdə idi. Sözsüz ki, bu dəyişikliklər eyni vaxtda və daim yüksələn xətlə getməmiş və dünyanın bütün ərazisini eyni qaydada əhatə etməmişdir. Şumerlər hərbi əməliyyatlara başlamamışdan əvvəl hökmən düşmən tərəfi xəbərdar edir,

düşmən müharibəyə hazır olmadıqda hərbi əməliyyatları başlamırdılar. Müharibə zamanı barışıq üçün imkanlar axtarılır, vasitəçilər toxunulmazlıq hüququna malik olur və çox vaxt müharibələr sülh sazişləri ilə bitirdi.

Babilistan hökmdarı Hammurapi qanunları qədim hüquq abidəsi kimi tanınır. Bu abidədə də müasir humanitar hüququn ilk başlanğıclarını tapmaq mümkündür. Abidənin birinci hissəsində Hammurapi bəyan edir ki, Allahlar ona hökmdarlığı "güclülərin zəifləri sıxışdırmasına imkan verməmək üçün" bəxş etmişlər. Qanunların 26-41-ci maddələrində döyüşçülərin hüquq və vəzifələri tənzimlənir.[7]

Hammurapi hökmranlığı dövründə hərbi əsirlər öldürülmür, yalnız qula çevrilirdilər.[8] Qanun əsir düşən döyüşçünün qayğısına qalır, əsirlərin geri alınması üsullarını da nəzərədə tuturdu.[9]

Qədim misir mədəniyyətində ("Həqiqi şəfqətin yeddi əməli") də acı doyurmaq, susayana su vermək, çılpağı geyindirmək, qəribə sığınacaq vermək, əsiri azad etmək, xəstəni müalicə etmək, ölünü dəfn etmək təbliğ olunurdu.

Beynəlxalq müqavilələr sistemi Het hökmranlığı dövründə xüsusi inkişaf etdi. Qədim Misirdən bizim dövrümüzə kimi cəmi bir müqavilə gəlib çatmışdır. Bu 2-ci Ramses ilə het şahı Hattusili arasında bağlanmış müqavilədir. Het dövləti həm ondan asılı olan, həm də asılı olmayan dövlətlərlə müqavilə bağlamışdır. Bu müqavilələrdə daxili düşmənə qarşı və asılı ərazilərdə üsyanın yatırılmasında qarşılıqlı hərbi kömək, ümumi hərbi qənimətin bölünməsi qaydası(məsələn, razılaşmış tərəflərdən biri ərazini, digəri isə qula çevirmək üçün əhalini əldə edirdi), qaçqınların, hərbi əsirlərin qarşılıqlı dəyişdirilməsi, üçüncü ölkələrdən olan hərbi əsirlərin verilməsi qaydaları öz əksini tapırdı.[10]

Hindistanda Manu qanunları qalibin məğluba rəhm etməsini, yaralı və təslim olanların həyatdan məhrum edilməməsini, yaralı hərbi əsirlər sağaldıqdan sonra onların vətənlərinə qaytarılmasını, məğlub tərəfin qanunlarına hörmət edilməsini tələb edirdi. Döyüş zamanı alovlu oxlar-

7 Bax. Məlikova M., Nəbiyev E. Xarici ölkələrin dövlət və hüquq tarixi. Birinci hissə. Bakı. "Qanun". 1997. s. 43-44; Всемирная история. В десяти томах.Т.1. М., 1955. с.294-295.

8 Всемирная история. В десяти томах.Т.1. М., 1955.с. 292

9 Всемирная история. В десяти томах.Т.1. М., 1955.с. 297

10 Всемирная история. В десяти томах.Т.1. М., 1955. с.399-400

dan və dişəkli silahlardan istifadə edilməsi qadağan edilirdi.[11]

Qədim hind epik ədəbiyyatı e.ə. 1-ci minillikdə Hindistandakı ictimai və iqtisadi münasibətləri, mədəniyyəti öyrənmək üçün əsas mənbələrdir. Qədim hind eposunun əsas abidələri Mahabharta və Ramayanadır. Mahabharatanın ("Bharat nəslinin böyük müharibəsi") əsas süjetini Şimali Hindistanın tanınmış şah nəsli daxilində hakimiyyət uğrunda müharibə təşkil edir. Dhritaraştra və Pandu qardaşlarının oğlanları hakimiyyət uğrunda apardıqları mübarizədə Dhritaraştranın 100-dən çox oğlu öldürülür. Pandu oğlanları əmi oğlanlarının hamısını öldürməklə şərəfsiz bir qələbə əldə edir. Eposda bu cür qələbənin həm ölkə, həm də həmin nəsil üçün böyük rüsvayçılıq olması öz əksini tapır.

Ramayana poemasında da hakimiyyət uğrunda gedən mübarizədə qan tökülməsi, insanların əzab və məhrumiyyətlərə düçar olması pislənilir. Hər iki poema insanlara məhəbbət, müharibələrə nifrət, mərhəmət hisslərini aşılamaqla hazırda da Hindistanda çox populyardır.[12]

Çində bizim eradan əvvəl V əsrdə Sun Tszı bəyan edirdi ki, qələbəni düşməni məhv etməkdən və həddən artıq zorakılıqdan imtina etməklə əldə etmək lazımdır. E. ə. IV əsrin mütəfəkkiri Se-Ma mə'nasız dağıntıları pisləyir, vətəndaşların xilasına qayğı göstərilməsinə, özünü müdafiə etmək iqtidarında olmayanlara hücum etməkdən çəkinməyə, yaralılara qayğı göstərilməsinə çağırırdı.

Qədim Çin ədəbiyyatında göstərilirdi ki, hərbi sərkərdələr döyüş əməliyyatları zamanı ilk növbədə humanizm, cəsarət və ləyaqət nümayiş etdirməlidir. Spartada ictimai həyatın əsas münasibətləri "Likurqa qanunları" ilə tənzimlənirdi. "Likurqa qanunları"na görə fiziki qüsuru olan körpələr məhv edilirdi. Oğlanlar 7 yaşından 20 yaşa kimi ictimai tərbiyə alır, bu tərbiyə özünün ciddiliyi ilə fərqlənirdi. Onun əsas məqsədi gənc spartalıları müharibəyə hazırlamaq idi. Onlar həddi büluğa çatandan sonra Sparta qoşunlarının tərkibinə daxil edilirdi və yaşa dolana kimi hərbi xidmətdə qalırdılar.[13]

Eramızdan əvvəl IV əsrdə qul əməyindən istifadə geniş vüs'ət almışdı. Qullar isə bir qayda olaraq hərbi əsirlər və işğal olunmuş ərazilərdə yaşayan mülki əhalidən ibarət idi. Ksenofont "Gəlirlər haqqında"

---

11 Məlikova M., Nəbiyev E. Xarici ölkələrin dövlət və hüquq tarixi. Birinci hissə. Bakı. "Qanun". 1997. s.72-73

12 Всемирная история. В десяти томах. Т.1. М., 1955. с.602

13 Всемирная история. В десяти томах.Т.1. М., 1955. с. 669

traktatında hər bir qulun sahibi üçün gündəlik gəlir gətirməsinə istinad edərək hər kəsin qulların sayını artırmaqda maraqlı olduğunu göstərirdi.

Ksenofont qullara heyvanlar üçün istifadə olunan "tərbiyə" üsullarının tətbiqini, yə'ni "onların mə'dələrinin ehtiyacına əsaslanıb qullardan daha çox şey əldə etmək" mümkün olması fikrini irəli sürürdü. Yunan filosofu Platon "Qanun" əsərində qullara e'tibar edilməməsi və onlara yalnız "biz və qamçı" ilə tə'sir etməyi məsləhət görürdü.

Aristotel isə hətta adamların təbiətinə görə azad insanlara və qullara ayrılması nəzəriyyəsini hazırlamışdı. O yazırdı: "Bir qism insanlar təbii olaraq azaddırlar, digərləri isə təbii olaraq quldur... axırıncılara münasibətdə qul vəziyyəti faydalı olduğu qədər də ədalətlidir". Qul tamamilə iradədən, mə'nəvi hisslərdən məhrumdur, "əgər qullarda şəxsi ləyaqət hissi qəbul olunsa onda onların azad adamlardan fərqi nədə olar?"[14]

Görkəmli sərkərdələrin həyatını qələmə alan Plutarx onların silahlı münaqişələr zamanı fəaliyyətini təsvir edərkən beynəlxalq humanitar hüquqla bağlı bə'zi məqamlara toxunur. O, İsgəndərin həyatından bəhs edərkən, bir çox hallarda onun humanizm prinsipləri əsasında fəaliyyətini qeyd etmişdir. Belə ki, Daranın əsir düşmüş anası, arvadı və qızlarına İsgəndərin xüsusi qayğı ilə yanaşması, onlara əvvəlkindən fərqlənməyən yaşayış tə'min etməsini xüsusi vurğulayır. Əsir düşmüş qadınlar onların şərəfinə toxunan heç bir faktla rastlaşmamışdılar.[15]

Daranın arvadı əsirlik vaxtı öldükdə o İsgəndərin əmri ilə hökmdar arvadına layiq dəfn olunmuşdu. İsgəndərin döyüşdə qorxulu olduğu qədər, məğlub etdiklərinə qarşı rəhmli olması barədə Daraya mə'lumat verilmişdi. Dara İsgəndərin onun ailəsinə qarşı münasibətini bildikdən sonra Allaha yalvararaq əvvəlki qüdrətinin qaytarılmasını diləyir və eyni zamanda İsgəndərin ailəsinə qarşı münasibətinə görə ona təşəkkür etməyi arzulayırdı.[16] Əks halda fars hökmranlığına son qoyulacağı təqdirdə Kir tacında İsgəndərdən başqa heç kəsin oturmasını arzulamırdı. Hətta ölüm ayağında belə Dara anası, arvadı və uşaqlarına gös-

14 Всемирная история. В десяти томах.Т.2. М., 1955.с.65-66

15 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 381-382.

16 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 391-393.

tərdiyi münasibətə görə İsgəndərə təşəkkür etməyi xahiş etmişdi.[17]

Plutarx tərəfindən verilən mə'lumatlarda İsgəndərin bir tərəfdən döyüşdə ölənlərin dəfn edilməsi barədə, digər tərəfdən onun bütün əsirləri öldürmək barədə sərəncam verməsi qeyd edilir.[18] Bu isə böyük sərkərdənin hərəkətlərində humanitar hüquqa münasibətdə ziddiyyətlərin olmasından xəbər verir.

İsgəndərin elçilərə qarşı xoş rəftarı da humanitar hüquq nöqteyi-nəzərindən dəyərlidir.[19]

Plutarx İsgəndər üçün şərəfsizlik gətirən və müasir humanitar hüquqla qadağan edilən bir halı da qeyd etmişdir: Cəsur hind muzdlularından biri İsgəndərlə vuruşlarda xüsusilə fərqlənmiş və ona çox ziyan vurmuşdur. Şəhərlərin birində İsgəndər onunla sülh bağlamış, dəstəsi ilə şəhər divarlarını tərk etdikdən sonra isə hücum edib onları əsir götürmüş və bir nəfərə kimi öldürmüşdü". Bu hadisə İsgəndərin müharibədəki davranışına ləkə gətirən yeganə biabırçı hərəkət idi. Çünki qalan bütün hallarda İsgəndər ədalətli, əsil şaha layiq hərbi əməliyyat aparmışdı".[20]

Plutarx Sezarın məhkəməsiz adamların öldürülməsini ədalətsiz hesab etməsi, əsirlərə qarşı olduqca mərhəmətli olmasından xəbər verir.[21]

Sezarından həyatından bəhs edən mə'lumatlarda onun əsirləri öz legionuna daxil etməsi də humanimtar hüquq baxımından maraqlıdır. Müasir beynəlxalq hüquq bu cür halları qadağan edir.[22]

Sezar Misirdə Pompeyin əsir götürdükdən sonra Romalılara yazırdı: "Qələbədə mənim üçün ən xoş olanı mənimlə vuruşanlara həyat bəxş etmək imkanıdır".[23]

---

17 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 406

18 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 382, 400

19 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 419

20 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 420

21 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 466

22 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 475

23 Плутарх. Избранные жизниописания. Том второй. М., "Правда". 1990. с. 476

Yaponiyada eramızın 200-cü ilində hökmranlıq edən Dzinqu Koreya ilə münaqişə zamanı əsirlərin öldürülməsini qadağan etmişdi. Müxtəlif hərbi strategiyaçılar — Sako Yamaqa(1622-1685), Oqyu Sorai(1668-1728), Nobuxiro Sato(1789-1850) elmi əsərlər və hərb sənəti haqqında traktatlarda bu qaydaları inkişaf etdirib dəqiqləşdirmişdilər. Sako Yamaqa belə bir prinsip irəli sürmüşdü ki, birinci strateji vəzifə ədaləti, humanizmi, sülhü və ictimai qaydanı tə'min etmək, həmçinin lazımsız qurbanlardan qaçmağa cəhd etməkdir. Afrikanın müstəmləkəyə qədərki bir sıra adətlərində hərbi əməliyyatların aparılması və düşmənin hakimiyyəti altına düşən şəxslərlə davranış qaydaları tənzimlənirdi: tamtamlar döyüşdən əvvəl müxtəlif vasitələrlə düşməni xəbərdar edir, rəqib döyüşə hazır olmayınca döyüşə başlamırdılar. Qərbi Afrikanın bir sıra xalqları silahlı münaqişələr zamanı zəhərli oxlar və nizələrdən istifadə etməyi qadağan edirdi.

Kenuyada qadına əl qaldırmaq döyüşçü üçün şərəfsizlik sayılırdı.

Şərqi Afrikada "vur, ancaq öldürmə" bantu xalq məsəli də humanizmi əks etdirir. Yunanıstanda Polibey yazırdı ki, müharibənin məqsədi qeyri-həqiqi olanı cəzalandırmaq deyil, həqiqəti bərpa etməkdir. Qalib məğluba qarşı səbrli olmalı, dözümlülük nümayiş etdirməli və hər cür qəddarlıqdan çəkinməlidir. Avqustinin sözləri də düşmənə humanizm münasibəti nöqteyi-nəzərindən maraqlıdır: "Əgər döyüşən düşmən ölməlidirsə, qoy bu sənin iradəndən deyil, zərurətdən baş versin... məğlub olmuşun da, əsirin də hüququ vardır".

X-XI əsrlərdə müxtəlif kilsələr tərəfindən, kilsələrin, monastırların, kasıbların, ruhanilərin, ziyarətçilərin, əkinçilərin və onların əmlaklarının toxunulmazlığının e'lan edilməsi, həmçinin xristian bayramları vaxtı hərbi əməliyyatların qadağan edilməsi humanitar hüquq baxımından olduqca əhəmiyyətlidir.

1749-cu ildə Monteskye yazırdı: "Fəth başa çatdıqdan sonra qalib daha öldürməməlidir. Belə ki, onun özünü müdafiə və özünü qoruma təbii hüququnu həyata keçirməyə ehtiyacı qalmır".

Jan-Jak Russonun 1762-ci ildə çap olunmuş "İctimai müqavilə haqqında" tarktatında irəli sürülən ideya humanitar hüququn ruhunu əks etdirir: "Müharibə heç bir halda insanlar arasında münasibət deyil, dövlətlər arasında münasibətdir, fərdlər isə təsadüfən, həm də adi insan kimi yox, hətta vətəndaş kimi də yox, əsgər kimi düşmənə çevrilirlər... Əgər müharibənin məqsədi düşmən dövləti məhv etməkdirsə, onda digər tərəfin həmin dövlətin müdafiəçilərinin əllərində silah tutub dö-

yüşdükləri halda onları məhv etmək hüququ var, lakin silahı ataraq təslim olan kimi onların düşmən, yaxud düşmənlərin əlində alət olması başa çatır və onlar yenidən adi adamlara çevrilirlər və onları həyatdan məhrum etməyə heç kəsin ixtiyarı yoxdur".

Göstərilənlərlə yanaşı onu da qeyd etmək lazımdır ki, dünyada, o cümlədən Avropada baş vermiş Yüzillik müharibə, Otuz illik müharibə və dini müharibələrin heç biri kombatant və mülki əhaliyə münasibətdə xüsusi humanizm nümunəsi hesab edilə bilməz.

Avropa dövlətlərində bir tərəfdən humanizm prinsiplərini nəzərdə tutan dekretlər verilməklə yanaşı, digər tərəfdən hər cür amansızlıqla fərqlənən silahlı münaqişələr baş verirdi. Belə ki, 1793-cü ildə Vandeydə royalistlər üzərində inqilabçı qoşunların qələbəsinə rəhbərlik edən general Vesterman yazırdı: "Vandey artıq mövcud deyil. O, özünün qadın və uşaqları ilə birlikdə bizim azadlıq gətirən qılınclarımızın zərbəsi ilə məhv oldu. Mən onu sizdən aldığım əmrə uyğun olaraq Saveno bataqlıqları və meşələrində dəfn etdim. Mən uşaqları at dırnaqları altında tapdaladım, qadınları tələf etdim ki, bir daha quldurlar dünyaya gətirə bilməsinlər. Özümü heç olmasa bir nəfər də olsun əsir götürməməkdə qınaya bilmirəm. Mən hamını tələf etdim, yollar meyitlərlə doludur. Onlar o qədər çoxdur ki, bə'zi yerlərdə piramidalar yaratmışdır".[24]

Bununla bərabər 25 may və 2 avqust 1793-cü ildə Konvent əsirlər və qeyri-kombatantlarla humanist rəftarı da nəzərdə tutan dekret qəbul etmişdi.

Bütün bu ziddiyyətləri araşdırdıqdan sonra E.David belə bir nəticəyə gəlir ki, işin vəziyyətinin necə olmasından asılı olmayaraq humanitar doktrina mövcuddur və onun qədim kökləri vardır. Bu doktrina müasir silahlı münaqişələr hüququnun 4 əsas prinsipini əhatə edir:

— kombatantlarla qeyri-kombatantlar arasında həmişə fərq qoyulmalı, deməli qeyri-kombatantların toxunulmazlıq hüququna riayət olunmaq vəzifəsi;

— düşmənə qarşı hərbi əməliyyatlar aparılması vasitələrinin seçilməsində məhdudiyyət vəzifəsi;

— hərbi əməliyyatlara tətbiq olunan normaların pozulmasının qarşısının alınması imkanı;

---

24 Давид Эрик, Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с.43

— yaralı və xəstələrə qayğı göstərilərkən hər cür ayrı-seçkilikdən imtina edilməsi".[25]

2. Azərbaycanda humanizm ideyalarının yaranması və inkişafı

Humanizm (lat. humanus — insana məxsus, insani) insan dəyərini şəxsiyyət, onun azadlığa, xoşbəxtliyə, inkişafa, öz qabiliyyətini nümayiş etdirməyə hüququ kimi tanıyan, insan rifahını sosial institutların me'yarı, bərabərlik, ədalətlilik, insanpərvərlik prinsiplərini isə insanlar arasında arzuolunan münasibət norması kimi qiymətləndirən, tarixən dəyişkən dünyabaxışı sistemidir.[26]

Azərbaycanda humanizm ideyalarının yaranması və inkişafı öz kökləri ilə qədim tarixə bağlıdır. Azərbaycan xalqına məxsus xüsusiyyətlər — böyüyə, ağsaqqala hörmət, imkansıza əl tutmaq, acı doyurmaq, ən əziz ne'məti qonaq üçün saxlamaq, xəstəyə, əlilə yardım etmək, aman istəyəni bağışlamaq uzun illərdən bəri xalqın təfəkkür və yaşayış tərzində mövcud olmuş, formalaşmış və daim yeni əlamətlərlə zənginləşmişdir. Bu ideyalar insanların davranışında, məişətində, qarşılıqlı münasibətlərində illərlə tətbiq olunaraq bu günümüzə gəlib çatmışdır. Xalqın milli adəti kimi formalaşmış humanizm ideyalarının bir qismi şifahi xalq yaradıcılığında, bir qismi isə şair və yazıçılarımızın bədii yaradıcılığında öz əksini tapmışdır. Sözsüz ki, insana humanist münasibətin təzahürü bir çox sahədə xalqın davranışında, əməlində, adət və ən'ənəsində özünü göstərir. Bə'zən elə olur ki, bu adət və ən'ənələrlə yaşaya-yaşaya onlara o qədər öyrəşirsən ki, onlardakı ali, ülvi, saf, təmiz münasibətlərin mövcudluğunu sezmirsən. Yə'ni həmin davranış, hərəkət, əməllər insanların yaşayış, həyat tərzinə çevrilir. Bu həyat tərzində olan humanist cəhətlər daxildən hiss olunmur. Çox vaxt kənardan gələnlər bunu daha yaxşı görür. Ona görədir ki, Azərbaycana gələn qonaq xalqımızın insanpərvərliyini, humanistliyini, böyük hisslərə sahibliyini daha tez duyur. Xeyirxahlıq, hamıya yaxşılıq hissi xalqımızın ayrılmaz, özünəməxsus xüsusiyyətidir.

---

25 Давид Эрик, Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с.43

26 Философский энциклопедический словарь. М., Советская энциклопедия. 1983. с. 130.

S.Rüstəmxanlı qədim azərbaycanlıların əxlaqi keyfiyyətləri haqqında danışarkən yazır:

"Qədim azərbaycanlıların əxlaqı üç sözlə ifadə olunurdu: xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl. Yə'ni insan bütöv olmalıdır, düşüncəsi ilə əməli, sözü ilə işi arasında ayrılıq olmamalıdır: "Ya göründüyün kimi ol, ya da olduğun kimi görün!" (C.Rumi).

Neçə min illik əxlaq dərsinin nəticəsidir ki, bu gün də xalqımızın ən başlıca mə'nəvi özümlülüyündən söz düşəndə dilimizə ilkin bu sözlər gəlir: xeyirxahlıq, nəciblik, mərdlik!"[27]

Müasir mütəfəkkirlərimiz də xeyirxahlığı, yaxşılığı, insana məhəbbəti təbliğ edirlər:

"Allah o insanları sevir ki, onlar başqasına, xalqa, cəmiyyətə fayda verməkdən çəkinmirlər, təmənnasız yaxşılıq edir, günahsız adamları incitmir, onlara əzab-əziyyət vermir, daim yaxşılıq etməyə, xidmət və qulluq göstərməyə, əl tutmağa çalışır. Məhz bu kimi cəhətlər xeyir sayılır və dində təbliğ olunur. Yeri gəlmişkən deyək ki, islamda Məhəmməd peyğəmbərin ləqəblərindən biri elə Xeyrülbəşər adlanır (yə'ni bəşərə, insanlara xeyir verən, insanların ən yaxşısı)".[28]

Xalqa məxsus olan ən yüksək keyfiyyətlər onun adət və ən'ənələrində yaşayıb nəsildən-nəsilə ötürülməklə yanaşı öz əksini ilk növbədə şifahi xalq yaradıcılığında tapır. Azərbaycan nağılları, dastanları, əfsanə və rəvayətləri xeyirxahlıq, insanpərvərlik, humanizm, ədalət prinsipləri üzərində köklənmişdir. Onların hər biri insanı mərdliyə, düzlüyə, ədalətə, xeyirxahlığa, yaxşılığa çağırır, insana məhəbbət aşılayır.

"Koroğlu", "Qaçaq Nəbi" kimi dastanlarda qoçaqlıq, igidlik, qəhrəmanlıq tərənnüm edilməklə yanaşı humanizm, insana xeyirxah münasibət, kasıba əl tutmaq, acı doyurmaq və s. bu kimi humanist ideyalar öz əksini tapmışdır.

Şifahi xalq yaradıcılığının mühüm tərkib hissəsi olan Azərbaycan atalar sözləri, xalqın düşüncəsinin, əxlaqının, mə'nəviyyatının təzahürüdür. Atalar sözlərinin hər birində bir fəlsəfi fikir, bir xalq düşüncəsi ifadə olunub. Atalar sözləri həyatın bütün sahələrini əhatə edir. Humanizm ideyalarını əks etdirən atalar sözləri də saysızdır. Onlardan bə'zilərini göstərmək istərdik:

---

27 Rüstəmxanlı Sabir, Ömür kitabı. Bakı. Gənclik. 1988. s. 28-29.

28 Qasımzadə F. İki fenomen və islam ("Dədə-Qorqud"da və Füzulidə islam ən'ənələri). Bakı. 1999. s.74

Qələm qılıncdan itidir.
Qələm yazanı qılınc poza bilməz.
Söz verdin yerinə yetir.
Söz qılıncdan kəskindir.
Təqsiri bağışlamaq qüdrətin böyüyüdür.
Qocaya hörmət elə, sən də qocalacaqsan.
Kiçiklərə hörmət elə böyüklərdən hörmət qazan.
Xain xəyanətinin cəzasını mütləq çəkər.
Xəyanətkardan xəta əskik olmaz.
İnsaf qanunların anasıdır.
Aman deyənə əl qaldırmazlar.
Aman deyənə qılınc qalxmaz.
Aman deyəni öldürməzlər.
Aman deyənin boynunu vurmazlar.
Zalıma rəhm etmək, məzluma zülm etməkdir.
Zalımın ömrü az olar.
Zülm ilə abad olan, bir gün gələr bərbad olar
Zülm yerdə qalmaz.
Yırtıcı aslan zülmkar şahdan yaxşıdır.
Vur deyənlə vuran şərikdir.
Qanı qan ilə yumazlar.
Qanlıdan qada əskik olmaz.
Qanlını qan tutar.
İgid basdığını kəsməz.
Güclü gücsüzdən qisas almaz.
Adət qanun deyil, ancaq qanun qədər hökmü var.
Acizə toxunmazlar.
Acizin zalmi olma.[29]

Azərbaycan xalqının sənət abidələrindən danışarkən ilk növbədə "Kitabi-Dədə Qorqud" yada düşür. Kitabın 1988-ci il nəşrinin "Tükənməz xəzinə" adlanan ön sözündə deyilir:

"Türkdilli xalqların ədəbiyyat tarixində səsi uzaq əsrlərdən gələn, gur işığı ilə tarixləri yarıb keçən yenilməz bir kitab var: "Kitabi-Dədə Qorqud"! Bu adla yaddaşımıza həkk olunmuş qədim oğuz dastanları

29 Atalar sözləri. Bakı. Yazıçı. 1981. s. 20-22, 41, 51, 53, 58, 66, 90, 94, 98, 99, 127, 151, 156.

həqiqətən də bir çox türk xalqlarının yaratdığı milli mədəniyyətin ən zəngin, ən ulu qaynaqlarından biridir.

"Kitabi-Dədə Qorqud" çiçəkləri solmaq bilməyən əbədi təzə-tər qalan bir sənət nümunəsidir. Bu "kitab"ı cəsarətlə Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası adlandırmaq olar. Qədim ədəbiyyatımızın təqlin və təqdir etdiyi müdrik, mə'nalı fikirlər, zərif, bəşəri duyğular öz başlanğıcını böyük "Kitabi-Dədə Qorqud" nəhrindən götürür".[30]

"Kitabi-Dədə Qorqudun hər bir boyu sanki insana məhəbbət, ədalət, xeyirxahlıq, nəciblik, düzlüklə yoğrulub. Hər bir boyda xalqın düşüncəsi və əxlaqını əks etdirən təmiz və ülvi hisslər, bəşəri duyğular, insanpərvərlik, humanizm aşılanır. Bu hisslərlə yaşayan və davranan insanın xeyirə, səadətə çatacağı dönə-dönə təkrarlanır.

"Dirsə xan oğlı Buğac xan" boyunda Dirsə xanın xatunu ona belə məsləhət görür:

"Ac görsən, toyurğıl! Yalıncıq görsən, tonatğıl!
Borcluyı borcından qutarğıl!"

Dirsə xan "ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyı borcından qurtardı"

Bu yaxşılıqların müqabilində "Bir ağzı dualının alqışilə allah-təala bir əyal verdi. Xatını hamilə oladı. Bir neçə müddətdən sonra bir oğlan toğurdı".[31]

Burada göstərilir ki, heç bir yaxşılıq, xeyirxahlıq itmir, yaddan çıxmır və sonda xoş nəticə verir.

"Salur Qazanın evinin yağmalandığı" boyda kafərlərin qeyri-insani hərəkətləri ilk öncə onlara uğur gətirsə də, sonda fəlakətlə nəticələnir. Burada yenə də eyni fikir, lakin əks müstəvidə verilmişdir. Yə'ni pisliyin faydası yoxdur, rəzalət və nifrət doğurur, xeyirlə, fayda ilə nəticələnmir:

"Kafərin casusı casusladı. Vardı kafərlər arğunı Şökli Məlikə xəbər verdi. Yeddi bin qaftanının ardı yırtıxlu yarımından qara saçlu, sası dinlü, din düşməni alaca atlu kafər bindi yılğadı, dün burcuğunda Qazan bəgin ordısına gəldi. Altun ban evlərin kafərlər çapdılar, qaza bənzər qızı gəlini çığırışdırdılar. Tölə-tölə şahbaz atlarını bindilər. Qatar-qatar qızıl dəvələrini yetdilər. Ağır xəzinəsini, bol aqçasını yağmaladılar.

30 Zeynalov F., Əlizadə S. Tükənməz xəzinə // Kitabi - Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s. 5.

31 Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s.35

Qırq incə bellü qız ilə Boyı uzun Burla xatun yesir getdi. Qazan bəgün qarıcıq olmış anası qara dəvə boynında asılu getdi".[32]

Bu sətirlərdə xəyanatkarlıqla döyüş aparılması ilə pislənməklə yanaşı əmlakın dağıdılması, xüsusən də silahlı münaqişədə iştirak etməyən mülki əhalinin qadın və qocaların girov götürülməsi də pislənilir. Azərbaycanın görkəmli filosofu F. Qasımzadə "Kitabi-Dədə Qorqud" əsrindəki əxlaqi dəyərlərdən bəhs edərkən həmin hərəkətlərə sadə çobanın verdiyi qiyməti oğuz övladının humanizm ruhunun təcəssümü kimi qeyd edir: "Pak və müqəddəs işlərin, savab və nəcib hərəkətlərin, halal əməllərin xoş nəticələr verəcəyinə və əksinə, murdar və rəzil hərəkətlərin, çirkin və haram əməllərin pisliklə qurtaracağına inanan, Allahı haqqı sevən, əqidəli çoban kafirlərə nifrət və qəzəbini bildirərkən deyir ki, sizin tutduğunuz alçaq əməllər üzündən təbiət da ağlayır, dağlar otsuz, çaylar susuz qalmışdır".[33] Beynəlxalq humanitar hüquq hərbi əsirlərin kütlənin marağından mühafizə edilməsini tələb edir. Kafər Şökli Məlikin əməlləri bu cəhətdən də nifrət doğurur. O, əsir götürdüyü Qazan xanın arvadı Burla xatunu kef məclisinə gətirməklə rüsvay etmək istəyir: "Şöklü Məlik kafərlərlə şən-şadman yeyüb-içüb oturardı. Aydır: "Bəglər, bilürmisiz, Qazana necə heyf eləmək gərək: Boyı uzun Burla xatunını gətürib, sağraq sürdürmək gərək!"-dedi. "Qırx incə belli qız içində Burla xatunu tapmaq mümkün olmadıqda isə kafər daha bir qəddarlığa əl atmaq qərarına gəlir". Mərə, varın Qazanın oğlı Urızı tartun çəngələ asun. Qıyma-qıyma ağ ətindən çəkün, qara qaurma bişürüb, qırq bəg qızına ilətün. Hər kim yedi, ol degil, hər kim yemədi, oldur. Alun gəlün sağraq sürsün!"[34]

Qazan oğlu Uruz qıyma-qıyma doğranmasına, ətindən qara qovurma bişirməsinə razı olur, anasına tövsiyə edir ki, qızlar ətindən bir tikə yeyəndə o iki tikə yesin ki, düşmən onu tanımasın. Lakin haqq — ədalət yenə də zəfər çalır. Qazan xan özünü yetirib ailəsini qurtarır. Burada da Qazan xan əsil oğuza xas humanizmini nümayiş etdirir. "Qaçanını Qazan bəg qomadı, aman deyəni öldürmədi".[35]

"Qazan bək oğlı Uruz bəkin tustaq oldığı" boyda əsirlərlə qəddar rəftar pislənilir. Kafərlər tərəfindən Uruz bəyə qarşı edilən rəftar ikrah

---

32 Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s.42-43

33 Qasımzadə F. İki fenomen və islam ("Dədə-Qorqud"da və Füzulidə islam ən'ənələri) Bakı. 1999. S.60-61.

34 Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s.46

35 Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s.50

hissi oyadır: "Qanlu qara Dərvənddə kafər dəxi qonmış idi. Oğlana qara kəpənək geyindirmişlərdi. Qapu eşigi üzərində arqurı yer qomışlardı. Girən basar, çıqan basardı: "Qarı düşmən, tatar oğlı əlümüzə girmişkən cəza ilə öldürəlim".[36] "Əsər boyu pislik edənlər məğlub olur, cəzalarına çatırlar... Ümumi şəkildə onu qeyd edək ki, kafirlər (Şöklü Məlik, onun tərəfdarları) satqın, xain və qisasçılar(Daş oğuz bəyləri) son nəticədə məğlub olur, öz layiqli cəzalarını alırlar. Çobanın öz şəhvəti naminə günah işlətməsi, pislik etməsi Oğuza baha oturur, el-obaya adam yeyən Təpəgözün simasında bəla göndərilir və.s".[37]

"Dədə-Qorqud"un alturist etikası, xalqa xeyir ver, adamlara faydalı ol, günah işlərlə məşğul olma, pis əməllər yapma çağırışları öz dövrü üçün son dərəcə mütərəqqi əxlaqi qayələrdir və təriflənməyə, təqdirə layiqdir.

"Dədə-Qorqud" etikasının əsas qayəsi nədir: Xeyir, yaxşılıq insanlara bacardıqca xeyir verəsən, yaxşılıq edəsən. "Dədə-Qorqud"u mübaliğəsiz xeyirnamə, yaxşılıqnamə adlandırmaq olar. O azəri xalqının yaxşılığa çağırışının, insanlara xeyir vermək çağırışının parlaq nümunəsidir. Xeyirnamədir "Dədə-Qorqud", "Yaxşılıqnamədir" "Dədə-Qorqud."[38]

Azərbaycanın dahi şairi Nizami Gəncəvi yaradıcılığında da ədalət, yaxşılıq, insanpərvərlik, sülh, humanizm ideyaları bariz şəkildə öz ifadəsini tapmışdır. Nizami deyimlərinin heç bir şərhə ehtiyacı yoxdur. Ona görə də, biz ancaq böyük sənətkarın yaradıcılığından bə'zi nümunələri gətirməklə kifayətlənmək istərdik:

Yer üzünün fatehi ədalətdir, ədalət!...
Ədalətlə nəsibin səadətdir hər zaman.[39]
Ağıl kamal bəsləməz igidliyə ədavət,
Hünər də, igidlik də ədalətdir, ədalət.[40]
Nahaq qanlar zalımı qərq edər göz yaşına.[41]
Yaxşılığı əzəldən adət etsən özünə,

36 Kitabi-Dədə Qorqud. Bakı. Yazıçı. 1988. s.74

37 Qasımzadə F. İki fenomen və islam ("Dədə-Qorqud"da və Füzulidə islam ənənələri). Bakı. 1999.s.72

38 Qasımzadə F. İki fenomen və islam ("Dədə-Qorqud"da və Füzulidə islam ənənələri). Bakı. 1999. s.79

39 Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı. Yazıçı. 1981. s.76

40 Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı. Yazıçı. 1981. s.84

41 Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı. Yazıçı. 1981. s.77

Yaxşılığın hər yanda qapı açar üzünə.
Hər əməlin üstündən sanma keçəndi dövran,
Hər yaxşını, yamanı yaxşı seçəndi dövran.[42]
Əhdə dönük insanda sədaqət görməmişəm.[43]
Yamanlıq eyləsə özgəyə hər kəs,
Çıxar qabağına, hədərə getməz.[44]
Yaxşı iş də görsən, pis iş də inan,
Unutmaz onları bu qoca dövran.[45]
Yaxşılıq gəlməsə əllərinizdən,
İntiqam almayın qılıncla bizdən.[46]
Kim salsa dünyada zülm bağını,
Deməli bağlar öz əl-ayağını.[47]
Yaxşısan, pis işə əsla qoşulma,
Vəhşilik eyləyib, gəl, vəhşi olma.[48]
Pisdən yaxşılıqdan qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün.[49]
Haqsızlıq haqq ilə olursa düşman,
Haqq tutar yerini, haqsız peşiman.[50]
O şəxsə dünya ram olmuş əzəldən,
Döyüşdə mərdliyi verməmiş əldən.[51]
Yetməsin kimsəyə səndən qəm, kədər,
Az ziyan verənlər az ziyan çəkər.[52]
Kim tikan əkərsə, tikan dərəcək,
Kim nicat verərsə, nicat görəcək.[53]

Azərbaycan ədəbiyyatının qəlb, məhəbbət şairi Məhəmməd Füzuli yaradıcılığı da humanizm ideyalarını təbliğ edir.

42 Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı. Yazıçı. 1981. s.79
43 Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı. Yazıçı. 1981. s. 82
44 Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı. Yazıçı. 1983. s.212
45 Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı. Yazıçı. 1983. s.214
46 Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı. Yazıçı. 1982. s.212
47 Nizami Gəncəvi. Yeddi gözəl. Bakı. Yazıçı. 1983. s.296
48 Nizami Gəncəvi. Yeddi gözəl. Bakı. Yazıçı. 1983. s.304
49 Nizami Gəncəvi. İsgəndərnamə. Bakı. Yazıçı. 1983. s.39
50 Nizami Gəncəvi. İsgəndərnamə. Bakı. Yazıçı. 1983. s.107
51 Nizami Gəncəvi. İsgəndərnamə. Bakı. Yazıçı. 1983. s.125
52 Nizami Gəncəvi. İsgəndərnamə. Bakı. Yazıçı. 1983. s.195
53 Nizami Gəncəvi. İsgəndərnamə. Bakı. Yazıçı. 1983. s.213.

Cəhd eyləvü qılma bir işə əhd,
Vər əhd eləsən vəfayə qıl cəhd![54]

— deyən Füzuli xəyanətkarlığa e'tirazını bildirir. Verilən əhdi yerinə yetirməyi tələb edir.

Eşq və məhəbbət dastanı kimi tanınan "Leyli və Məcnun" poemasında da humanizm ideyaları öz əksini tapıb. Məhəbbət, eşq dəlisi olan Məcnun ovçunun tələsinə düşmüş ahuları qurtarmaq üçün hər şeyə hazırdır. Səhrada Məcnunla rastlaşan Novfəl Məcnuna heç bir təmannasız yardım göstərmək istəyir, varından belə keçməyə hazırdır:

"Gər olsa zər ilə iş sərəncam,
Yük-yük tökəlim zər, alalım kam".[55] Bunu insana qayğı, insana məhəbbətin əsil nümunəsi kimi qiymətləndirmək lazımdır.

Sülh yolu ilə, var-dövlətlə Məcnunun dərdinə çarə tapılmadıqda Novfəl müharibə aparmağa da razı olur:

"Vər olsa ğərəz müsafə möhtac
Biz qan tökəlim, sən eylə tarac" — deyərək müharibəyə başlayır. [56]

"Eylərdi zəbani-təni şəmşir
Əhvali-ədəm vücuda təqrir.
Əhvalına xalqın ağlayıb zar,
Çeşmi-zireh olmuş idi xunbar".[57]

Şair göstərir ki, xalqın əhvalına ağlayaraq zirehin gözləri qan tökürdü. Yə'ni döyüşənlərin bədəni yaralanmış və yaralardan qanlar axırdı. Məcnun isə qan axıdılması ilə vüsalə çatmasına e'tiraz edir:

---

54 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s.97

55 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s. 98

56 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s. 98

57 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s.104

"Bu mərəkədə nişatməndəm,
Ol silsilədə əsiri-bəndəm.
Müşkül işə olmuşam giriftar,
Əğyarım yarü yarım əğyar.
Gər qətlimə dust çəksə şəmşir,
Yox məndə rizadən özgə tədbir
Xoşnud deyilmiyəm bu halə
Kim, canı verəm, yetəm visalə".[58]

Füzuli düşmən üzərində qələbənin böyük fəlakətlər bahasına başa gəlməsini arzulamır, səadəti onda görür ki, ağır nəticələr baş vermədən düşmən təslim olsun. Bu ideya şairin "Bəngü-badə" əsrində öz təzahürünü tapmışdır:

"Dövlət oldur ki, düşmən ola zəbun,
Olmadan bir şərarə şölə füzun".[59]

Əsil humanizm ideyası. Humanitar hüququn da qayəsi budur. Az ziyan vurmaq, az əzabla müharibənin məqsədinə nail olmaq.

Füzuli müharibələri, fitnə fəsadı pisləyir, bunlardan çəkinməyi məsləhət görür:

Nə təğafül, nə cəng qıl pişə,
Bu işə qıl bir özgə əndişə...
Nə məsaf eylə kim, yaman ola ad,
Nə təğafül ki, gün-gün arta fəsad.[60]

Şair hər hansı münaqişəyə başlamamışdan əvvəl mübahisənin sülh yolu ilə həll edilməsini tövsiyə edir:

Qılmayam irtikabi-cəngü cədəl,
Göndərəm qasid ilə, pənd verəm,
Bir neçə pəndi-sudimənd verəm.

---

58 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s.105

59 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s. 231

60 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s. 232

Pənd ilə tabe olsa, yarımdır,
Olmasa, cəng xud şüarımdır.[61]

Füzuli məhşur "Padşahi-mülk" qit'əsində müharibələr, fitnə fəsadlarla qazanılan qələbələrin axırının puç olduğunu,söyləməklə yenə də mübahisələrin ilk növbədə söz ilə, danışıqlar yolu ilə əldə edilməsini üstün tutur və göstərir ki, zor və fitnə-fəsadla əldə edilən ölkə də, qoşun da hər hansı bir hadisədən məhv ola bilər:

Padşahi-mülk dinarü dirəm rüşvət verib
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.
Yüz fəsadü fitnə təhrikiylə bir kişvər alır,
Ol dəxi asari-əmnü istiqamətdən bəri.
Göstərən saətdə dövrani-fələk bir inqilab
Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.

Şair sözlə sənətkarın əldə etdiyi zirvəni hər şeydən üstün tutur və bunun heç kəsə ziyan yetirmədiyini bəyan edir:

Qanda kim əzm etsə mərsumi məvacib istəməz,
Qansı mülki tutsa, dəyməz kimsəyə şüri-şəri.[62]

Azərbaycanda humanizm ideyalarının ilk başlanğıcları özünü bu ərazidə yayılmış din və hərəkatların tə'limlərində də göstərir.

Qədimdə Azərbaycan əhalisinin dini dünyagörüşü səma qüvvələrinə, oda, suya, müxtəlif bütlərə inamla bağlı olmuşdur. Azərbaycanın cənubunda Zərdüşlük daha geniş yayılmışdı. Zərdüşt tə'limində təkallahlılıq əsasdır. Zərdüştlükdə Ahuramazdan(Hörümüz) yeganə ali allah kimi qələmə verilir, o, kainatın və canlıların yaradıcısı e'lan edilirdi. Zərdüşt tə'liminə görə, şərlə xeyir, yalanla həqiqət arasında ölüm-dirim mübarizəsi gedir, lakin son məqamda xeyir və həqiqət şər və yalana qalib gəlir.

Zərdüşt torpaq üstündə ali insanın yaşamasını istəyirdi. İnsanı tanrıdan qorxmamağa, özünə güvənməyə çağırırdı.

Zərdüşt deyirdi: "Bütün yaradılışa, hər şeydən əvvəl sülh və əmniyyət diləyirəm"...

---

61 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı. 1988. s. 232

62 Məhəmməd Füzuli. Seçilmiş əsərləri. İki cilddə. Birinci cild. Bakı. 1988.

Zərdüşt özünü belə təqdim edir: "Öz içimi nurlu işıqla dolmuş gördüm. Sən məndən soruşanda "Sən kimsən, kiminləsən:" Mən dedim: "Mən Zərdüştəm — düzlük carçısı!" Sənin "Sən nə etmək istəyirsən:" sorğuna belə cavab verdim: "Hər dəfə oda sitayiş edəndə yaxşı şeylər fikirləşmək istəyirəm!"

Zərdüşt demişdi: Mən o adamı sevirəm ki, böyük insana ev yapmaq, ona torpaq, heyvan və bitki hazırlamaq üçün çalışır və kəşflər edir".[63]

Zərdüştlükdən sonra Azərbaycanda yayılmış tə'lim məzdəkilik idi.

Məzdək tə'liminin əsas müddəası ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq idi. Qaynaqların birində bu ideya belə şərh olunmuşdu: "Allah insanlara ona görə əmlak vermişdir ki, onlar bunu öz aralarında bərabər bölüşdürsünlər. Lakin insanlar biribirini ağır ədalətsizliyə düçar edirlər. Onlar(məzdəklər) deyirlər ki, (əmlakı) varlılardan alıb yoxsullara vermək və bununla da varlıların hesabına onlara öz mülkiyyətini qaytarmaq istəyirlər". Məzdək tə'liminə görə Xeyrin şər üzərindəki qələbəsini allahın və işıqlı qüvvələrin köməyilə tə'min etmək olar. Məzdək mübarizə yolu ilə ədalətli cəmiyyətin qurulmasını mümkün hesab edirdi.[64]

Azərbaycanın istiqlaliyyətini bərpa etmək, onu yadellilərin tapdağından qurtarmaq xürrəmilərin əsas ideyası idi. Xürrəmilər belə hesab edirdilər ki, dünya daim mövcud olduğu kimi, insanların ruhu da əbədidir. Dünyada iki qüvvə — xeyir və şər arasında fasiləsiz mübarizə gedir. Həm də bu mübarizədə xeyrin şərə qalib gələcəyi labüddür.[65]

XIV əsrin 2-ci yarısında Azərbaycanda və Şərqdə Nəiminin yaratdığı tə'lim-hürufilik geniş yayılmışdı. Hürufiliyin əsas ideyası insanı müqəddəsləşdirmək, allahlaşdırmaq və ona qovuşdurmaq idi.

Hürufiliyə görə Mütləq Varlığın təzahür forması olan kainat öz kamalını insanda tapmışdır. Kainatın bütün inkişaf yolu insana doğru olmuşdur və onun simasında öz ali formasına dolmuş, öz zirvəsinə yetişmişdir. Hurifizm istismara, zorakılığa, istilaçılağa qarşı çevrilmişdi. Nəimi və Nəsimi kimi dühaların yaradıcılığında insan ən yüksək, ən ali təcəssümünü tapmışdı.

Azərbaycan ədəbiyyatında əsirə, yaralıya, xəstəyə, qadına uşaqlara və qocalara humanist rəftar bəslənilməsi nümunələri saysızdır. Əsirlər-

63 Rüstəmxanlı Sabir. "Ömür kitabı" Bakı. Gənclik. 1988.s.27-28.

64 Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Bakı.1994. s.175-176

65 Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Bakı.1994. s.258

lə humanist rəftarın də Azərbaycan tarixində qədim izləri vardır. Salman Mümtaz "Şah Xətai" məqaləsində Səfəvi nəslinin şöhrət tapmasının əsasını qoymuş Şeyx Səfiyyəddin Ərdəbilidən bəhs edərək yazır: "Şeyx Səfi yalnız Azərbaycanda deyil, bütün islam aləmində zöhdü təqvası ilə məşhur və əazimi-sufiyundan məqud bir zatdır. Öz nagahı yüz minlərlə müridlərin Kəbeyi-amalı idi. Şeyx Səfiyə ibadət yetirənlər yalnız xalq olmayıb, hətta dünyanın ən böyük alimləri, hökmdarları belə ərzi-ixlas edərdilər... Əmir Teymur Şeyx Səfiyə ayrıca bir ehtiram bəslərdi. Bütün müvərrixlərin təsdiqi ilə əmir Teymur Anqaradakı fəthlərindən sonra xanigaha gələrək Şeyx Səfinin hər bir xahişini yerinə yetirəcəyini ərz etmişdi. Şeyx Səfi isə "Rumdan götürdüyün əsirləri azad et" əmrini verdiyindən əmir Teymur da filfövr bütün əsirləri əfv və azad etmişdi".[66]

Hüseyn Cavidin "İblis" dramından bir parçaya istinad etməklə Azərbaycan ədəbiyyatından humanizm ideyası nümunəsi kimi misal gətirməyi bitirmək istərdik:

"Bu sırada Vasiflə arxadakı kiçik zabit, silahsız olaraq yaralı bir rus zabiti gətirirlər.

Vasif

(kiçik zabitə)

Daha dur, tabı qalmamış artıq.

İxtiyar

(onların arxasınca yetişib yardım edər)

Yaralanmışdırmı: Ah zavallı, yazıq...

Gətirin, bir qədər rahatlasın.

Arif

Ya əsir olmalı o, ya qaçqın.

Vasif

Xəstə bir rus əsiri, həm yaralı...

İxtiyar

Gəl, qızım, tez sarıb da bağlamalı.

(İxtiyarla Xavər yaralının alnını və qolunu sarıb içəri odaya götürürlər)

Arif

(Vasiflə kiçik zabitə)

66 Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı. Yazıçı. 1986.s.296.

Ah, nə munis, nə mərhəmətlisiniz;
Nərdə rast gəldiniz şu zabitə siz:
Vasif
Pək yaxınlarda, yol kənarında,
Baxdım əhvalı xeyli pərmüjdə.
Kiçik zabit
Bir əsir iştə, düşmən olsa bizə
Yenə lazım müavinət edilə.
Arif
Həp siz xislətində olsa cinsi-bəşər,
Heç görülməzdi bunca vəhşətlər.[67]

Bəli, "cinsi-bəşər həp birlikdə" bu ideyaları qəbul etsə, onlara əməl etsə bu qədər "vəhşətlər" baş verməz. Humanist ideyalar məhz buna xidmət edir. Təqdirəlayiq haldır ki, hazırkı dövrdə də Azərbaycanın azad fikir sahibləri məhz humanizm ideyalarının carçısı kimi çıxış edirlər: "Bəşəriyyət tarixindəki müharibələr göstərir ki, mə'nəvi cəhətdən səfərbər olmayan ordu düşmənlə müqayisədə daha yaxşı və daha müasir silahlarla təchiz edilsə də, yenə məğlubiyyətə uğrayır. Həm də bunun üçün düşmənə qarşı birbaşa düşmənçilik hissi tərbiyə etmək də vacib deyildir. Əslində yüksək vətəndaşlıq, vətənpərvərlik, humanizm tərbiyəsinin özü dolayısı yol ilə irticaya, qəsbkarlığa qarşı mübarizə tərbiyəsi deməkdir.[68]

3. İslamda beynəlxalq humanitar hüquq məsələləri

İslam (ərəbcə-itaətetmə), müsəlmanlıq — ən yayılmış dinlərdən biridir. İslam VII əsrin əvvəllərində Qərbi Ərəbistanda, Hicazda meydana gəlmiş və həmin dövrdə də onun prinsipləri formalaşmağa başlamışdır. Ərəbistan yarımadasında VII əsr cəmiyyətində sosial — iqtisadi və ümumbəşəri dəyərlərin müasir anlamı demək olar ki, mövcud deyildi. Mə'lumdur ki, həmin dövr bəşər tarixinin cəmiyyətin həyat şəraiti baxımından ən ağır dövrü kimi xatırlanır. Bu dövrdə silahlı münaqişələr də vəhşi xarakter daşıyırdı. Dağıntılar, amansızlıq, canlıların və ölülərin bədən üzvlərinin kəsilməsi, əmlakın məhv edilməsi həmin dövrün yayılmış hadisələri idi. Döyüşçülər və qeyri-döyüşçülər arasın-

67 Hüseyn Cavid. Dram əsərləri. Bakı.1975. s.209-210
68 Mustafayev R. Fikir azaddır. Bakı. 2000.s.239.

da heç bir fərq qoyulmur; qadınlar, uşaqlar, qocalar, yaralılar heç bir mühafizədən istifadə etmirdilər. Əmlakın xarakterindən asılı olmayaraq dağıdılmasına heç bir məhdudiyyət nəzərdə tutulmurdu. Hərbi əməliyyatların əsas prinsipi "zərurət qanun tanımır" qaydası idi. İslam cəmiyyət və onda davranış haqqında öz baxışlarını irəli sürdü. Bu baxışların mənbəyi Qur'an və sünnə idi. Qur'an sözünün mə'nası "oxumaq", "tələffüz etmək", daha doğrusu Allahdan Məhəmməd əleyhissəlama nazil olan sözlərin oxunması, tələffüz edilməsi deməkdir. Müsəlmanlar Qur'anı Allahın kəlamı, ilahi vəhy hesab edirlər. Qur'ani-Kərim müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir ədəbi-tarixi sənamədir. Sünnə (ərəbcə adət, hərəkət tərzi, davranış) — Məhəmməd Peyğəmbər və onun kəlamları haqqında hədisləri təşkil edən müqəddəs rəvayətlər məcmusu, sünnilik məzhəbinə e'tiqad edən müsəlmanların müqəddəs kitablarıdır. Sünnə Qur'ana izahlı əlavələr verir və dini əhəmiyyətinə görə Qur'andan sonra ikinci yeri tutur.[69] Artıq Qur'anın ilk ayələrində hərbi əməliyyatlar aparılması haqqında göstərişlər öz əksini tapmışdı.

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüququn prinsipləri kimi çıxış edən mərhəmət və humanizm islam üçün səciyyəvi olan cəhətlərdir.

İslam tə'limi insana düzgün yol göstərmək işində kobudluq və zor işlətməyi qətiyyətlə rədd edir. Bunu tarixi hadisələrlə səsləşən bir sıra sənədlərin timsalında açıq-aydın görmək olar. Məsələn, islam qoşunlarının Mavərəül vilayətlərinin, Ermənistanın, Şirvanın, Muğanın və s. əhalisi ilə bağladıqları müahidələrdə yerli sakinlərin təkcə əmin-amanlığın tə'min edilməsi, mülkiyyətinin qorunub-saxlanması deyil, həm də dini e'tiqad azadlığının, öz mə'bədlərində və səcdəgahlarında dini ayin və mərasimləri sərbəst icra etmək haqqının toxunulmazlığı xüsusi bəndlə qeyd olunurdu. Digər tərəfdən, Peyğəmbərə mö'təbər hədisləri, həmçinin erkən müsəlman icmasının nüfuzlu nümayəndələrinin həyat və əməllərinə dair mə'lumatlar sübut edir ki, o vaxt hərbi əməliyyatların aparılması belə insaniyyət mülahizələri əsasında ölçülüb-biçilirdi. Allahın elçisi əmirlərə və sərkərdələrə tapşırırdı ki, özbaşnalığa, uşaqların, qadınların, qocaların və xəstələrin öldürülməsinə, tarlaların, zəmilərin, bağ və bostanların talan edilməsinə, ibadət yerlərinə və xey-

69 Bunyadov Z. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı. 1997. s. 69-72, 107-109, 204

riyyə tikililərinə ziyan vurulmasına yol verməsinlər. Fəcrülislam dövrünə dair mənbələrdə xəlifə Əbu-Bəkr əs-Siddiqin belə bir ibrətamiz nəsihətinə tez-tez rast gəlmək olur: "Yaralı adamla vuruşmayın, axı onun şərəfi artıq əlindən getmişdir".[70]

İbn-əl Əsir göstərir ki, Əbu Bəkr islam döyüşçülərinə belə öyüd nəsihət verirdi: "Düşmənləri şikəst etməyin; nə kiçik uşaqları, nə də çox qoca adamları, nə də qadınları öldürməyin; xurma ağaclarını qırıb yandırmayın; meyvə ağaclarını tələf etməyin, yemək üçün lazım olandan başqa qoyun, inək və dəvələri kəsməyin. Siz hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz: onları rahat buraxın və məşğələlərinə mane olmayın".[71]

A. Paşazadə qeyd edir ki, hətta düşmənin təhlükəsiz sığınacaq istəməsinə rədd cavabı verilməməlidir — islam düşmənə də himayədarlıq göstərməyi tövsiyə edir.[72] "Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə ona aman ver, ki, o, Allahın kəlamını (Qur'anı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!" (ət-Tövbə surəsi, ayə 6).[73]

Əli Hümmət Bərki və Osman Kəskioğlu İsra və Nəcm surəsinin ayələrindəki təbliğatı 12 hökm halında cəmləşdirmiş, onlardan 7-cisi belə ifadə olunmuşdur: "Nahaq yerə heç kimi öldürməyin. İnsan qanı tökmək ən böyük günahdır. İnsanı öldürmək ən pis canavarlıqdır. İnsanların mədəni səviyyəsi, həyatı təhlükəsizliyi ilə ölçülür. Mədəni insan, insan öldürməz.[74]

Yaxud belə rəvayət olunur ki, günlərin birində bir ərəb Peyğəmbərin bir uşağı qucağına alıb, öpdüyünü görmüş və təəccüblə: "On uşağım var, heç birini öpməmişəm", — demişdi. Məhəmməd əleyhissəlam ona "Mərhəmət etməyənə mərhəmət olunmaz" deyə cavab vermişdi.[75] Beynəlxalq humanitar hüquq müharibənin qadağan edilməsini

70 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı 1991.s.54-55

71 Bunyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı. 1989. s.79

72 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı. 1991.s.190

73 Qur'ani-Kərim. Bakı- Ankara.1997. s.188

74 Əli Hümmət Bərki., Osman Kəskioğlu, Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara. 1996. s. 1561

75 Bunyadov Z. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı. 1997. s.153

qarşısına bir məqsəd kimi qoymasa da, hər bir halda himayədə olan şəxslərin vəziyyətinin yaxşılaşdırılması üçün döyüşən tərəflər arasında sülh müqavilələrinin bağlanmasını dəstəkləyir. Beynəlxalq humanitar hüquq normaları ilə nizamlanmayan məsələlər barəsində və ya himayədə olan şəxslər üçün daha əlverişli şərtlər nəzərdə tutulan hallarda tərəflər arasında müqavilələr bağlanması beynəlxalq humanitar hüquqa dair sənədlərdə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, islamda həmişə sülhə meyl, mübahisəli məsələlərin müqavilələrin bağlanması yolu ilə həlli və müqavilə öhdəliklərinin yerinə yetirilməsi zəruriliyi tövsiyə olunur. Müharibələrdən çəkinmək, sülhə meyl etmək, sülh təklifinə hörmətlə yanaşmaq, barışığa gələnləri bağışlamaq, ancaq özünə qarşı döyüşənlərlə döyüşmək kimi müddəalar Qur'anın müxtəlif ayələrində öz təsbitini tapmışdır.

İslamiyyətdən əvvəl, ərəblər arasında ardı-arası kəsilməyən müharibələr olurdu. Onların içində ən qanlı və təhlükəlilərindən biri Fisar müharibəsi olmuşdur. Haram ayları(Məhərrəm, Rəcəb, Zilqədə, Zilhiccə) baş verdiyi üçün bu hərbi belə adlandırmışdılar. Bu müharibə Qüreyş ilə Kaus qəbiləsi arasında baş verərək dörd il davam etmiş və nəhayət sülh sazişi ilə başa çatmışdır.

"Həzrəti Peyğəmbər də bu müqaviləni bağlayanlar arasında olmuşdur. Ona Peyğəmbərlik verildikdən sonra bu müqavilədən bəhs edərkən belə demişdir:

— "Bu gün də, elə bir müqaviləni bağlamağa də'vət olunsam, onu tərəddüdsüz qəbul edərəm".[76]

Beynəlxalq hüququn əsas prinsiplərindən biri də müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsidir. Bu müddəa Qur'ani-Kərimdə öz ifadəsini tapmışdır: "Müqavilə bağladıqdan sonra sizə qarşı bir naqislik etməmiş(onun şərtlərini pozmamış) və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər (müddəti bitənədək) vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri (əhdi nahaq yerə pozmaqdan çəkinənləri) sevər." (ət-Tovbə surəsi, ayə 4).[77]

"Onlar sizinlə doğru-düzgün davrandıqca(əhdi pozmadıqca) siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri(xəyanətdən, əhdi pozmaqdan çəkinənləri) sevər". (ət-Tovbə surəsi, ayə 7).[78]

---

76 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s.46-47

77 Qur'ani-Kərim. Bakı- Ankara. 1997. s.188

78 Qur'ani-Kərim. Bakı- Ankara.1997. s.189

"Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr, (sözlərinin üstündə durmayan) küfr başçıları ilə vuruşun". (ət-Tovbə surəsi, ayə 12).[79]

"Kim bağışlasa və barışığa gəlsə, onun əcri Allahın öhdəsindədir" (əş-Şura surəsi, ayə 40). "Əgər onlar (düşmənlər) sülhə meyl edirlərsə, sən də ona meyl et" (əl-Ənfal surəsi, ayə 61).

"Kim ki, sizə qarşı təcavüz etdi, siz də ona qarşı təcavüz edin, eynən o sizə qarşı təcavüz etdiyi kimi" (əl-Bəqərə surəsi, ayə 194)".Kim ki, sizə səlami-sülh dilədi, bu dünya həyatının təsadüfləri (mal-dövlət, mənfəət) ardınca qaçaraq, ona deməyin ki, "Sən mö'min deyilsən". (ən-Nisa surəsi, ayə 94) "İzn verildi(döyüşə) o kəslərə ki, onlarla vuruşanlar(düşmənin hücumuna məruz qalan mö'minlərə), ona görə ki, onlara zülm edilmişdir. Həqiqətən, Allah onlara kömək etməyə qadirdir. O kəslərə ki, haqsız yerə, təkcə "Rəbbimiz Allahdır" deyirlər deyə öz yurdlarından çıxarılmışlar" (əl-Həcc surəsi, ayə 39-40). "Sizinlə döyüşənlərlə Allah yolunda siz də hərb edin. Təcavüz etməyin, zira Allah təcavüz edənləri heç sevməz" (Bəqərə surəsi, ayə 190).

İslamşünaslar bu ayəni "müharibə aparılmasına yalnız özünümüdafiə məqsədilə, həm də dəqiq müəyyənləşdirilmiş sərhədlər çərçivəsində yol verilməsi kimi şərh edirlər".[80]

"Vicdan azadlığı pozulduqda, insan hüquqları tapdalandıqda, vətən torpağı təhlükə qarşısında qaldıqda islam müqavimət göstərməyə çağırır. Başqasını öz ev-eşiyindən məhrum etməyə çalışan, onu öz torpağından didərgin salmağa, ona mə'nəvi kölələk aşılamağa sə'y göstərən adam dəhşətli bir cinayət işlətmiş olur və onu rədd etmək zəruridir".[81]

"İslam müharibəni yalnız o vaxt məqbul hesab edir ki, adamların həyatı təhlükə qarşısında qalmış olsun və onları müdafiə etmək üçün başqa bir yol olmasın. İslama görə, müharibə o vaxt "qanuni" sayılır ki, o, müdafiə olunmaq məqsədilə aparılsın".[82]

---

79 Qur'ani-Kərim. Bakı- Ankara.1997. s.189

80 Значение и смысл Корана. 1-я том. Сура 1-5. Сура аль - фатиха до Сура аль- ма'ида. 1999. Alle Rechte vorbehalten.c.99; Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s. 231

81 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı. 1991.s.50-51

82 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı. 1991.s.192

Qur'anda silahlı münaqişələrlə bağlı hüquqi tənzimini tapmış məsələlərdən biri əsirlərlə davranışdır. Əsir problemi və onun həllinə islamın ilk illərində baş vermiş silahlı münaqişələr zamanı daha çox təsadüf olunur.

İslamda ilk hərb olan "Bədir döyüşü" zamanı çoxlu əsir götürülmüşdü. Həzrəti Peyğəmbər əsirləri müsəlmanlar arasında böldü. Onları incitməməyi əmr etdi. Müsəlmanlar bu əmrə itaət edərək, onları incitmir, özləri xurma yedikləri halda, çörək və xörəklərini onlara verirdilər... Əsirlərə təmiz paltar verilməsini söyləyən Peyğəmbər onlara qarşı nə ediləcəyini hələ bilmirdi. Əsirlərin arasında Şüheyl ibni Əmr adında birisi var idi ki, bu adam çox məşhur xətib idi və Peyğəmbərin əleyhinə hər zaman nitq söyləyərdi. Həzrəti Ömər bu adamın bundan sonra Peyğəmbərin əleyhinə danışmasının qarşısını almaq üçün iki dişinin çəkilməsini təklif etmiş, Peyğəmbərimiz, mən bir adama cəza versəm, Allah da mənə Peyğəmbər olsam da, eyni cəzanı verər, demişdi".[83]

Bədir döyüşü zamanı əsir götürülənlərin taleyi ilə əlaqədar Peyğəmbər və onu müşayət edənlər arasında müzakirə keçirildi. Bə'ziləri əsirlərə görə xərac almağı təklif etdi. Sonradan xəlifə olmuş Ömər "allahsızları" e'dam etməyi tələb edirdi. Peyğəmbər onu müşayət edənlərin əksəriyyətinin fikrini qəbul edib hərbi əsirlərə görə xərac alıb onları azadlığa buraxmağı qərara aldı.[84] N. V. Jdanov Bununla da əsirlərlə davranış sahəsində presedent yarandığını qeyd edir.[85]

Beynəlxalq humanitar hüquq döyüş əməliyyatları başa çatdıqdan sonra əsirlərin repatriasiyasını tələb edir. Bu müddəalar Qur'anın ayələrində öz əksini tapmışdır. Belə ki, cilahlı münaqişə başa çatdıqdan sonra əsirlərin fidyə əvəzinə azad edilməsi və ya pulsuz-parasız buraxılması Məhəmməd surəsinin 4-cü ayəsində təsbit olunmuşdur:

"(Ey möminlər!) Kafirlərlə (döyüş meydanında) qarşılaşdığınız zaman boyunlarını vurun. Nəhayət, onları məğlub (əzib şilküt) etdikdə, (qaçmasınlar deyə, əl-ayaqlarını) kəndirlə möhkəm bağlayın. Sonra da müharibə bitdikdə onları ya (boyunlarına minnət qoyub) məccani, ya

---

83 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s. 248

84 Mustafa Sibai. Həzrəti Məhəmmədin həyatı. Bakı. Göytürk. 1995. s. 53; Əliyev R. İslam. Bakı. 2000. s.195-198

85 Жданов Н. В. Исламская концепция миропорядка. М., Международные отношения. 1991. с. 130-131

da fidyə müqabilində azad edin!(İstəsəniz əsirləri bağışlayıb pulsuz-parasız azad edər, ya onları mübadilə edər, ya da müəyyən məbləğ pul, mal müqabilində buraxarsınız). (Əmr) belədir! Əgər Allah istəsəydi, onlardan (başqa cür-müharibəsiz də) intiqam ala bilərdi. Lakin O sizi bir-birinizlə imtahana çəkmək üçün (vuruşmağınızı əmr etdi)".[86]

Bəqərə surəsinin, 177-ci ayəsində əsirlərin azad edilməsinə malını sərf edən şəxslərin əməli alqışlanır:

"Allaha ibadət və yaxşılıq üzlərinizi şərqə və qərbə döndərməkdə deyil. Əsl xeyir və yaxşılıq o adamın ibadət və xeyridir ki, Allaha, Axirət gününə, mələklərə, kitaba, peyğəmbərlərə inanır. Malını qohumlara, yetimlərə, yoxsullara, yolda qalanlara bir şey istəyənlərə, əsirləri azad etməyə sevə-sevə verir".

Beləliklə, Qur'ani-Kərimi hərbi əsirlərlə bağlı aşağıdakıları nəzərdə tutur: hərbi əsirlər döyüş əməliyyatları qurtardıqdan sonra azad edilməli və ya düşmənin hakimiyyəti altında olan həmvətənlərlə dəyişdirilməli və ya xəracla azadlığı buraxılmalıdır. Burada qərar qəbul etmək siyasi rəhbərin öhdəsinə buraxılır. Göstərilən nəticələr islamşünasların həmin məsələlərə həsr edilmiş əsərlərində də öz əksini tapıb. Belə ki, Vahbat əz-Zəhyalinin "Müsəlman hüququnda müharibənin nəticələri", Əli Mənsurun "İslam və beynəlxalq hüquq", Məhəmməd Kamal Addin İmamın "İslam beynəlxalq hüquqda müharibə və sülh" əsərlərində həmin müddəalar də öz ifadəsini tapmışdır.[87]

Humanitar hüququn əsas qayələrindən biri də yaralı və xəstələrə döyüş meydanında ölənlərin cəsədlərinə hörmətlə yanaşılmasıdır. Ölülələrə hörmət islamda mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Müsəlmanlar bütün döyüşlərdən sonra ölülərin hansı tərəfə mənsub olmasından asılı olmayaraq onları dəfn edirdilər.[88]

Bədir zəfərindən sonra "müşrik ordusu müsəlmanlarla vuruşda bir gün belə tab gətirmədən qaçmış, ölülərini toplayıb götürməmişdilər. Müsəlmanlar onları dəfn etdilər".

Əli Hümmət Bərki və Osman Kəskioğlu Hicrətin üçüncü ilində baş vermiş Uhud hərbi zamanı döyüş meydanlarında qalmış ölülərə qarşı törədilən hərəkətləri bu cür təsvir edirdi: "Qüreyş qadınları bu davada

86 Qur'ani-Kərim. Bakı- Ankara.1997. s. 508

87 Ben Ashoor Y. Islam and International Humanitarian Law // International Review of the Red Cross (Geneva) 1980-March-Apr. P.3.

88 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s.246

insanlığa yaraşmayan vəhşi hərəkətlər etmiş, ölülərə sataşaraq, şəhid müsəlmanların burun və qulaqlarını kəsmişdilər. Əbu Sufyanın arvadı Hind ölülərin bu üzvlərindən bir sıra boyunbağı qayırıb bağlamışdı. Hind bundan daha betərini edərək, şəhidlərin böyüyü Seyyidü-Şühəda Həmzənin qarnını deşərək ciyərini qoparmış və onu yemək istəmiş, ağzında çeynəsə də uda bilməmişdi".[89]

Müsəlmanlar ölülərini dəfn etmək üçün oraya gəldikləri zaman qarşılaşdıqları mənzərə ürək parçalayan idi. Qüreyş ölülərinin qulaq və burunlarını kəsərək onları elə buraxmışdılar. Peyğəmbərimiz əmisi Həmzəni axtarmağa başladı. Onu görəndə ürəyi parçalandı. Burnu, qulaqları kəsilmiş, qarnı deşilmiş, ciyəri çıxarılmış bir halda idi. Aslanlar aslanı Həmzəni bu halda görən Peyğəmbər çox pis oldu və "mənim üçün bundan daha böyük bir müsibət ola bilməz", dedi. Sonra bu tə'sirin oyatdığı hisslə:

— And olsun ki, bir gün onlara qalib gələcək, onların ölülərini elə bir hala qoyacağam ki, ərəblərdə misli görünməmiş olsun!

Bunun üzərində bu ayələr nazil oldu və Allah Peyğəmbərinə insanlığa nümunə olacaq bir dərs verdi:

"Əvəzində bir cəza verəcəksinizsə, sizə verilənin eynisi ilə cəzalandırın. Əgər səbir edəcəksiniz, səbr etmək, xeyirli olur. Ya Məhəmməd! Sən səbr et. Sənin səbrin Allahın lütfüylədir. Onlar üçün qəmgin olma, onların etdikləri işlər üzündən narahat olub sıxılma". (Naxl surəsi, ayə: 126-127) Bundan sonra Məhəmməd səbr etmiş və ölülərə təcavüz etməyi müsəlmanlara qadağan etmişdir.[90]

İslam Şurası tərəfindən hazırlanmış və 1981-ci ildə Parisdə YUNESKO-da keçirilən Beynəlxalq konfransda e'lan edilmiş İnsan hüquqlarının Ümumislam Bəyannaməsi insan hüquqlarının mühafizəsi sahəsində qəbul edilmiş dəyərli sənədlərdəndir. Həmin bəyannamənin "Yaşamaq hüququ"nu nəzərdə tutan bölməsində meyidə hörmət öz ifadəsini tapmışdır: "İnsanın bədəni həm yaşadığı dövrdə, həm də öləndən sonra müqəddəs və toxunulmazdır. Mö'min bəndələrin borcu mərhuma ehtiram göstərilməsinə riayət etməkdən ibarətdir".[91]

89 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s.271

90 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s.272

91 İnsan hüquqlarının Ümumislam Bəyannaməsi // İslam qəzeti. 3 yanvar 1991-ci il

Beynəlxalq humanitar hüquq dini e'tiqadın qadağan olunmasının yolverilməzliyini e'lan edir. Belə ki, hərbi əsirlərin, işğal olunmuş ərazilərdə nəzarət altında saxlanılan mülki şəxslərin öz dini ayinlərinə riayət etmələri üçün şərait yaradılması beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuşdur. Qur'an ayələrində bu ideyaların mənbəyi öz əksini tapmışdır:

"(Ya Məhəmməd!) Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır, lakin Allah yolunu(insanların üzünə) qapamaq onu inkar etmək, Məscidülhərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır"(əl-Bəqərə surəsi, ayə 217)

Müqəddəs aylarda insanlar biri-birinə hücum etməmək barədə öhdəlik götürür, zorakılıqdan uzaq olurlar. Həmin aylarda toxunulmazlığa riayət etmək digər tərəfin bunu qiymətləndirdiyi vaxta kimi vacibdir. Lakin digər tərəf buna əməl etmirsə, müsəlmanlar bütün qüvvə ilə müdafiə olunmaq hüququ və vəzifəsinə malikdirlər.[92]

"Allah onlara necə əzab etməsin ki, onlar Məscidi Haramı qadağan edib dururlar" (əl-Ənfal surəsi, ayə 34)

Silahlı münaqişələr zamanı qadın, uşaq, qocalara hörmətlə yanaşılması Qur'ani-Kərimin tələblərindən olmaqla, islamın yayılmağa başladığı ilk illərdə aparılan müharibələr zamanı xəlifələrin sərkərdələrinə verdikləri göstərişlərdə də öz əksini tapmışdır:

Hicrətin 8-ci ili baş vermiş Mutə hərbi zamanı Həzrəti Peyğəmbər döyüşçülərinə bu nəsihəti verdi: "Qadınları, uşaqları, kölələri, əsla öldürməyin. Evləri yandırıb xarabaya çevirməyin, ağacları kəsib korlamayın".[93]

Peyğəmbərin vida xütbəsində də bə'zi mə'qamlar beynəlxalq humanitar hüquqla bilavasitə bağlıdır. Məhəmməd əleyhissəlam hicrətin 10-cu ilinin zilqə'də ayının 25-də(632-ci ilin 21 fevralında) özünə canidildən bağlı olan 100 minlik bir əshabə ordusu ilə Həccə getmək qərarına gəldi. Tarixə Vida Həcci kimi daxil olmuş bu səfər əsnasında Məhəmməd əleyhissəlam öz yaxın əhsabələrinə həccin bütün əməllərini,

---

92 Значение и смысл Корана. 1-я том. Сура 1-5. Сура аль- фатиха до Сура аль- ма'ида. 1999. Alle Rechte vorbehalten.c.102,113

93 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara.1996.s.342; Bax.Mustafa Sibai. Həzrəti Məhəmmədin həyatı. Bakı. Göytürk. 1995.s.65.

həcc ziyarətinin qayda-qanunlarını lazımınca öyrətdi. Həcc əsnasında Ərəfatda və Həccdən Mədinəyə qayıdarkən Qədiru-xumm adlanan yerdə vida xütbəsi söyləyən Peyğəmbər əleyhissəlam bu tarixi xütbəsində islam dininin gələcək inkişaf yollarını müəyyənləşdirdi... Peyğəmbər öz xütbəsində müsəlmanların bir-biri ilə qardaş olduqlarını, bir-birinin canlarına və mallarına qəsd etməmələrini, qohumluq, ailə tellərinin müqəddəs olduğunu, hər bir müsəlmanın qadınlarla, kölələrlə yaxşı davranmalı, nəzakətlə rəftar etməli olduğunu bildirdi.[94]

"Bir ərəbin ərəb olmayan yabançıdan, bir başqasının isə hər hansı bir ərəbdən üstün cəhəti yoxdur. Çünki, bütün insanlar Adəm oğullarıdır, Adəm də torpaqdandır...

Kölələrə öz yediklərinizdən yedirin və geyindiklərinizdən geyindirin... Onlar da Allahın qullarıdır və pis münasibətə layiq deyillər.

Nə zülm edin, nə də zülm görün".[95]

İmam Əli bin Əbi Talib Əleyhissəlam zəiflərə, uşaqlara, qadınlara və qocalara mərhəməti dindarlığın xüsusiyyətlərindən hesab edirdi.[96]

"Zəiflərin və ya savaşda iştirak etməyən rəqib qadın, yaşlı uşaqların, fermerçi və işçi kimi döyüşməyə məcbur edilənlərin öldürülmələrini qadağan etmə, savaş tarixində təkcə İslama məxsus bir xüsusiyyətdir. Nə islamdan qabaq, nə də ondan sonra heç bir sistem İslam kimi rəhmət və ya insanpərvərliklə təchiz olunmamışdır. Qəbul edilən odur ki, bütün millətlər, düşməndən hər kim ilə qarşılaşsalar, öldürürlər. Bunu haqq bilirlər.[97]

Əlbəttə ki, döyüş əməliyyatlarında iştirak etməyənlərin, o cümlədən qadın, yaşlı və uşaqların öldürülməsinin qadağan edilməsi mütərəqqi və beynəlxalq humanitar hüquqla səsləşən bir prinsipdir. Lakin bu prinsipin İslamdan başqa digər sistemlər tərəfindən qəbul edilməməsi fikri ilə razılaşmaq olmaz. Çünki təkcə Cenevrə Konvensiyalarına dünya dövlətlərinin demək olar ki, hamısının qoşulması bu fikrin əsassızlığına dəlalət edir.

---

94 Bunyadov Z. Dinlər, təriqətlər, məzhəblər., (Arayış kitabı). Bakı. 1997. s.151

95 Əli Hümmət Bərki., Osman Kəskioğlu., Xatəmül Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Ankara. 1996. s. 410

96 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı 1991.s.55

97 Mustafa Sibai. Həzrəti Məhəmmədin həyatı. Bakı. Göytürk. 1995.s.90

Xəlifələrin öz ordularına verdikləri göstərişlərdə humaninst prinsiplərə riayət edilməsi barədə müddəalar öz əksini tapırdı. Məsələn, xəlifə Əbu Bəkr islam qoşunlarına belə bir göstəriş vermişdi: "Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz və'dlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar. Onlarla aranızda bir hədd olmaq üçün bac qoyun ki, onlar öz din və öz torpaqlarında qalsınlar".[98]

İmam Əli Əleyhissəlam Ziyad bin Əbihini Fars əyalətinə canişin tə'yin edəndə ona belə tapşırıq vermişdi: "Ədalət işlət, zorakılıqdan və zülm etməkdən çəkin, çünki zorakılıq etsən geri çağırılarsan, zülm etsən üstünə qılınc qaldırarlar."[99]

Misir valisi Malik ibn əl-Haris əl-Əştərə imam belə bir göstəriş vermişdi: "Düşmənin sənə təklif etdiyi sülhü rədd etmə, — Allah bundan razı qalar, — çünki sülhdə sənin döyüşçülərin üçün dinclik, qayğıların üçün rahatlıq, ölkən üçün əmin amanlıq var".[100]

İslam insanlar arasındakı mövcud təbii irqi, milli fərqləri, dil, adətən'ənə xüsusiyyətlərini inkar etmir və göstərir ki, Allah Özü bu xalqları belə yaratmışdır ki, bir-birini yaxşı tanısınlar. Ancaq dil və rəng fərqləri, mədəniyyət xüsusiyyətləri heç vaxt bərabərsizlik üçün əsas ola bilməz.[101]

Qur'an surələrindəki müddəaların və xəlifələrin dediklərinin analizi belə bir nəticəyə gəlməyə əsas verir ki, beynəlxalq humanitar hüququn bəzi prinsip və müddəaları onlarda düzünə və ya yanakı formada öz ifadəsini tapmışdır. Məsələn, yalnız qarşılıqlı döyüşlərdə iştirak etmək (əl-Bəqərə surəsi, ayə 190), haram aylarında qarşılıqlı olaraq döyüşdən imtina etmək (ət -Tövbə surəsi, ayə 2, 3, 5), bəşər əhlinə zülm etməkdən çəkinmək (Ali-İmran surəsi, ayə 108).

Dinin yayıldığı ilk vaxtlarda silahlar kütləvi və məhvedici olmadığına görə islamda silah tətbiq edilməsi problemi demək olar ki, nəzərdən keçirilməmişdir. İslam humanitar hüququ üzrə mütəxəssis olan Ben

---

98 Bunyadov Z.Azərbaycan VII-IX əsrlərdə. Bakı. 1989. s. 79

99 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı 1991.s.44

100 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı 1991.s.44

101 Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirlik. Bakı 1991.s.172

Aşur isə göstərir ki, "hərbi hiylələlər də daxil olmaqla qələbənin əldə edilməsi üçün bütün vasitələr qanuni hesab olunurdu".[102]

Beynəlxalq humanitar hüquq qeyri-qanuni əmri yerinə yetirməyi qadağan edir və belə əmrin yerinə yetirilməsinə görə şəxsin məs'uliyyət daşıdığını müəyyənləşdirir. Bunun ilk rüşeymləri Qur'ani-Kərimdə öz ifadəsini tapıb: "(Günah etməklə) həddi aşanların əmrinə tabe olmayın(onlara boyun əyməyin)!" (əş-Şuəra surəsi, ayə 151). Göründüyü kimi islamda humanizm prinsipləri, döyüşlərdə iştirak etməyən şəxslərin mühafizəsi, döyüş aparılması metodlarının məhdudlaşdırılması, işğal edilmiş ərazilərdə mülki əhalinin vəziyyətinin tənzimlənməsi, müqavilə öhdəliklərinə riayət olunması və hətta bu öhdəlikləri pozanların cəzalandırılması məsələləri də öz əksini tapmışdır. Bu cəhətdən islam və onun mənbələri beynəlxalq humanitar hüququn inkişafına müsbət tə'sir göstərmişdir.

102 Bax.Ben Ashoor Y. Islam and International Humanitarian Law // International Review of the Red Cross (Geneva) 1980-March-Apr. P.3.

Fəsil II

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN ANLAYIŞI

Beynəlxalq hüquq ədəbiyyatında "beynəlxalq humanitar hüquq" anlayışı nisbətən təzə yaranmışdır. Çox vaxt hüququn həmin sahəsi "silahlı münaqişə hüququ", "müharibə hüququ" anlayışları ilə ifadə olunur. "Beynəlxalq humanitar hüquq" anlayışı altında bə'zən insan hüquq və əsas azadlıqları və onların həyata keçirilməsi mexanizmini nəzərdə tutan beynəlxalq hüquq normaları bütövlükdə əhatə edilir. Məsələn, O. İ. Tiunovun 1999-cu ildə Moskvada "NORMA-İNFRA. M" nəşriyyatında çapdan çıxmış "Международное гуманитарное право" dərsliyində insan hüquq və azadlıqlarının beynəlxalq hüquqi tənzimlənməsi, insan hüquq və azadlıqları sahəsində dövlətlərin götürdükləri öhdəliklərin tə'mini məsələləri öz əksini tapmışdır. Dərsliyə "Silahlı münaqişə zamanı şəxsiyyətin hüquqlarının müdafiəsi" məsələlərinə həsr olunmuş fəsil də daxil edilmişdir.

"Beynəlxalq humanitar hüquq" anlayışı "müharibə hüququ" və ya "silahlı münaqişə hüququ" anlayışının sinonimi kimi ilk dəfə 50-ci illərdə Jan Pikte tərəfindən işlədilmişdir. Sonradan getdikcə bu anlayış beynəlxalq-hüquqi sənədlərdə hazırda başa düşülən hüquq sahəsi kimi öz inkişafını tapmışdır. Məsələn, 1989-cu ildə qəbul edilmiş "Uşaq hüquqları" Konvensiyasının 38-ci maddəsində göstərilir ki, "iştirakçı dövlətlər silahlı münaqişələr zamanı onların barəsində tətbiq edilə biləcək və uşaqlara aid olan beynəlxalq humanitar hüquq normalarına hörmət bəsləməyi və onlara əməl olunmasını tə'min etməyi öhdələrinə götürürlər".[1] 1992-ci il ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə qəbul edilmiş "Helsinki bəyannaməsi"ndə dövlətlərin beynəlxalq humanitar hüquqa hər bir halda hörmət edəcəyi və hörmət olunmasını tə'min edəcəkləri bəyan edilir.[2]

Beynəlxalq humanitar hüququn məzmununun tam başa düşülməsi üçün ilk növbədə hər ikisi "müharibə hüququ" mə'nasını verən-"jus ad

---

1 Права человека. Сборник международных документов. М., Юридическая литература. 1998. с. 376.

2 Права человека и судопроизводство. Собрание международных документов. Варшава. 1998. с.88

bellum" və "jus in bello" ifadələri üzərində dayanmaq məqsədəmüvafiq olardı.[3] "Yus ad bellum" dövlətin güc tətbiq etmək hüququnu nəzərdə tutur. Uzun əsrlər boyu müharibələr xalqlar tərəfindən pislənmişdir. Beynəlxalq münasibətləri nizama salan qanunlar isə silahlı qüvvələrin tətbiqinə dövlətlərarası münasibətlərin həllinin adi vasitəsi kimi baxmış və son nəticədə müharibələrə haqq qazandırmışdır. Köhnə beynəlxalq hüquqa görə müharibə hüququ dövlətin suverenliyinin bir əlaməti kimi nəzərdə tutulurdu. Yə'ni suverenliyinin pozulmasını güman edən dövlətin müharibə hüququ tanınırdı. Bu beynəlxalq hüquqi aktlarda da öz əksini tapmışdı. 1899 və 1907-ci illərdə Haaqada keçirilmiş sülh konfranslarında qəbul olunmuş Beynəlxalq münaqişələrin sülh yolu ilə həlli haqqında Konvensiyada mübahisələrin sülh yolu ilə həlli vasitələri ilə yanaşı, beynəlxalq münasibətlərdə hərbi qüvvələrdən istifadə edilməsi də nəzərdə tutulurdu. Konvensiyada münaqişədə olan tərəflərin silaha əl atmazdan əvvəl imkan dərəcəsində sülh vasitələrindən istifadə etmələri tələb olunurdu.[4] "İmkan dərəcəsində sülh vastələrindən istifadə etmə" ifadəsi dövlətə istədiyi mərhələdə mübahisəni silahlı qüvvə tətbiq etməklə həll etməyə imkan yaradırdı.

Millətlər Cəmiyyətinin 1919-cu ildə qəbul olunmuş Statutunda da beynəlxalq mübahisələrin sülh yolu ilə həllinin dinc vasitələri ilə yanaşı müharibələr də qanuni vasitə hesab olunurdu.[5]

İlk dəfə 27 avqust 1928-ci ildə 63 dövlət tərəfindən imzalanmış Paris müqaviləsi (Brian-Kolleq Paktı) beynəlxalq mübahisələrin müharibə vasitəsi ilə həllini qadağan etdi. Paris müqaviləsinə əsasən dövlətlər "aralarında baş vermiş mübahisə və münaqişələrin xarakter və mənşəyindən asılı olmayaraq onların nizama salınmasında ancaq sülh vasitələrindən istifadə etmək" barədə razılığa gəldilər.[6] Beləliklə, Paris müqaviləsində təcavüzkar müharibənin qadağan edilməsi və beynəlxalq mübahisələrin sülh yolu ilə həlli prinsipi beynəlxalq hüquqi təsbitini tapdı. Bundan sonra müharibələrin qadağan olunması beynəlxalq hüquqda adət norması kimi təşəkkül tapmışdır. Bu fikir Nikaraquanın

3 Бах. Робер Кольб. О происхождении терминологической пары jus ad bellum / jus in bello // Международный журнал Красного Креста. Сентябрь-октябрь 1997. № 18.с. 643-653

4 Международное публичное право. Сборник документов. М., БЕК.1996.т.1. с.414-415.

5 Курс международного права. М., 1967. т. 2. с.149-151.

6 Международное право в документах. М., 1982. с. 669

ABŞ-a qarşı olan işində BMT Beynəlxalq Məhkəməsi tərəfindən də təsdiq olunmuşdur. Məhkəmənin qərarında göstərilir ki, zor tətbiq etməmə prinsipi BMT Nizamnaməsi qəbul edilənə qədər beynəlxalq hüququn adət norması kimi mövcud olmuşdur.[7]

BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində beynəlxalq münasibətlərdə zor tətbiq etmək və zor tətbiq etməklə hədələməmənin qadağan edilməsi beynəlxalq hüququn əsas prinsipi kimi nəzərdə tutulmuşdur. Bu prinsip özündə silahlı təcavüzü və zor tətbiqinin digər formalarını nəzərdə tutur.

BMT Nizamnaməsi qəbul edilərkən VII fəsilə təcavüzün tə'rifinin daxil edilməsi barədə müzakirələr aparılmasına baxmayaraq sülh üçün təhlükə, sülhün pozulması və təcavüz aktlarının nədən ibarət olmasının müəyyən edilməsinin Təhlükəsizlik Şurasının səlahiyyətlərinə aid edilməsi ilə kifayətlənilmiş, təcavüzün tə'rifi BMT Nizamnaməsində verilməmişdir. Həmin vaxtdan təcavüzün tə'rifinin müəyyən edilməsi məsələsi dəfələrlə həm BMT çərçivəsində, həm də BMT-dən kənarda müzakirə edilmişdir.[8]

"Təcavüz" anlayışı köhnə beynəlxalq hüquq üçün yad olmuşdur. "Təcavüz" termininin beynəlxalq hüquqi kateqoriyaya çevrilməsi beynəlxalq hüquqda zor tətbiq etməklə hədələməmənin qadağan edilməsi prinsipinin meydana çıxması və inkişafı ilə bağlı olmuşdur.

Nizamnamədə bu prinsipin öz əksini tapması isə təcavüzün qeyri-hüquqiliyini şərtləndirir. Digər tərəfdən isə zor tətbiq etmək və zor tətbiq etməklə hədələməmənin qadağan edilməsi prinsipinin mövcudluğu təcavüzün qeyri-hüquqiliyi ideyasının inkişafı ilə bağlıdır. Keçmiş beynəlxalq hüquqda jus ad bellum dövlətin suverenliyinin əlamətinin bir növü hesab olunur və bu hüquq qadağan olunmurdu. Hüquqla qadağan olunmayana isə hüquqi cəhətdən yol verilirdi. Yə'ni köhnə beynəlxalq hüquqda müharibəni qadağan edən normalar olmadığına görə müharibəyə yol verilirdi. Ona görə vəzifə təcavüzə icazə verən hər hansı normanın ləğv edilməsində deyil, təcavüzkar müharibələrin qeyri-hüquqiliyinin, cinayət olmasının müəyyən edilməsində idi. Təcavüzün dövlətin beynəlxalq hüquqa zidd olan fəaliyyəti kimi tövsif olunması üçün normativ əsas BMT Nizamnaməsinin 2 maddəsininin 4-cü bəndində

---

7 International Crout of Justice Reports. 1986. P. 184.

8 Донской Д. Агрессия вне закона. М., 1976 с.6-50; Менжинксий В.И. Непременеие силы в международных отношениях. М., 1976. с.18-48.

təsbit olunmuş zor tətbiq etmə və zor tətbiq etməklə hədələmənin qadağan edilməsi prinsipidir.

Təcavüzün 1974-cü il BMT Baş Məclisinin XXIX sessiyasında qəbul edilmiş tə'rifində[9] təcavüz bir dövlətin digər dövlətin suverenliyi, ərazi toxunulmazlığı və siyasi müstəqilliyinə qarşı və ya BMT Nizamnaməsinə uyğun olmayan hər hansı başqa tərzdə silahlı qüvvə tətbiq etməsidir. Bu tə'rifdən görünür ki, orada ilk növbədə söhbət silahlı təcavüzdən, yə'ni bir dövlətin digərinə qarşı qeyri-qanuni silah tətbiq etməsindən gedir. Beləliklə, başqa dövlətə iqtisadi və ya siyasi təzyiqlər silahlı qüvvələrin tətbiqi ilə müşayət olunmursa dövlətin bu cür fəaliyyəti təcavüzün tə'rifindən kənarda qalır. Onu da qeyd etmək lazımdır ki, hər cür silahlı zor tətbiq etmək də təcavüz hesab edilə bilməz. Tə'rifin birinci maddəsində işlədilən "və ya hər hansı başqa tərzdə" ifadəsinin mahiyyətinin açılması da təcavüz anlayışının başa düşülməsi üçün əhəmiyyətlidir. Ona görə də, həmin ifadənin BMT Nizamnaməsinə əsasən hansı mə'nanı kəsb etməsinin və bu ifadənin tə'rifin başqa müddəaları ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməsi zəruridir. Bu ifadənin (və ya hər hansı başqa tərzdə BMT Nizamnaməsi ilə uyğun olmayan) BMT-nin məqsədləri ilə müqayisəli şəkildə nəzərdən keçirilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, həmin ifadə BMT-nin məqsədləri, o cümlədən BMT Nizamnaməsində təsbit olunmuş müddəalarının həyata keçirilməsinə maneçilik törədən silahlı qüvvələrin tətbiqinin qadağan edildiyini nəzərdə tutur. Təcavüzün tə'rifinin hüquqi məzmununun BMT Nizamnaməsində əks edilmiş müddəalar əsasında aydınlaşdırılması üçün tə'rifin 1-ci maddəsi və onu konkretləşdirən sonrakı maddələrin BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndi, 39-cu, 51-ci maddələri ilə müqayisəsi əhəmiyyət kəsb edir. BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndi və 39-cu maddəsi təcavüzü sülhün pozulmasının daha təhlükəli forması kimi xarakterizə edir. Tə'rifin 5-ci maddəsində bu nəzəri müddəa daha da dəqiq təsbitini tapıb. Burada göstərilir ki, "təcavüzkar müharibə beynəlxalq sülhə qarşı cinayətdir. Təcavüz beynəlxalq məs'uliyyət doğurur". Bu maddənin təcavüzün tə'rifinə daxil edilməsi ilə "təcavüz" termini mahiyyət e'tibarı ilə sülhə qarşı cinayətin sinonimino çevrilir. E. İ. Skakunov düzgün olaraq qeyd edir ki, "təcavüz aktı" BMT Nizamnaməsinin 1-ci maddə-

9 Действующее международное право. М., 1997. т. 2. с.199.

sinin 1-ci bəndinin dəqiq mə'nasına əsasən "sülhün pozulması" növü kimi qiymətləndirilir. Bu isə təcavüzün ergo omnes öhdəliklərinə zidd olan hüquq pozğunluğu qrupuna, beynəlxalq cinayətlərə şamil edilməsinə imkan verir.[10] Təcavüzün beynəlxalq cinayət kimi tövsifi 1998-ci ilin iyun ayında imzalanmış Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinə əsasən məhkəmənin yurisdiksiyasına aid edilməsində də öz ifadəsini tapmışdır.[11] Silahlı qüvvələrin tətbiqinin konkret hallarının təcavüz aktı kimi qiymətləndirilməsi üçün bir sıra kriteriyaların mövcud olması zəruridir. Çünki bə'zən dövlətin eyni cür hərəkətləri törətməsi hüquqi əsaslarına görə tamamilə müxtəlif hüquqi tövsif ala bilər. Təcavüz hərəkətləri ilə özünümüdafiə qaydasında və ya Təhlükəsizlik Şurasının sanksiyalarının həyata keçirilməsi üçün qəbul edilmiş tədbirlərin fiziki eyniliyi silahlı qüvvələrin tətbiqinin qeyri-qanuni kriteriyalarının müəyyən edilməsində xeyli çətinliklər meydana çıxarır. Bu problemin həlli öz əksini tə'rifin 2-ci maddəsində tapmışdır. Burada göstərilir ki, Nizamnaməni pozaraq dövlətin birinci olaraq silahlı qüvvə tətbiq etməsi prima facie təcavüz aktına sübutdur. Lakin elə həmin bənddə nəzərdə tutulur ki, təcavüz aktının mövcud olub olmamasını müəyyən edərkən Təhlükəsizlik Şurası silahlı hücumun və onun nəticələrinin kifayət qədər ciddi xarakter daşımamasına görə onu təcavüz aktı kimi qiymətləndirməyə bilər.

Bu müddəanın ümumi mə'nası ondan ibarətdir ki, dövlətin təcavüz kimi tövsif olunan konkret hərəkətinin əsasında birincilik durur. Lakin bu birincilik yalnız Təhlükəsizlik Şurası Nizamnaməsinin 39-cu maddəsinə əsasən üzərinə qoyulmuş səlahiyyətə müvafiq olaraq başqa qərar qəbul etmədiyi halda həlledici amilə çevrilir.

Silahlı qüvvələrdən birinci istifadə olunması ancaq o zaman təcavüz kimi tövsif oluna bilər ki, bu "BMT Nizamnaməsinin məqsəd, prinsip və müddəaları ilə" bir araya sığmasın. Yə'ni BMT Nizamnaməsinin müvafiq müddəalarına əsaslanaraq dövlət birinci silahlı qüvvədən istifadə etməsin. Məsələn, Təhlükəsizlik Şurasının kollektiv özünümüdafiə hüququnu reallaşdırması üçün məcburiyyət tədbirlərini həyata keçirməsi, təcavüz kimi tövsif edilə bilməz.

---

10 Скакунов Э. И. Самооборона в международном праве. М., 1973 . с. 126.

11 Basic Facts About the United Nations. New York . 1998. p.268

Birincilik prinsipi təcavüz aktının müəyyən edilməsi üçün yeganə me'yar olmasa da silahlı qüvvə tətbiq edilməsinin konkret hallarının təcavüz kimi qiymətləndirilməsində hökmən mövcud olmalıdır. Tə'rifin 2-ci maddəsinin mətnindən görünür ki, "müvafiq aktlar və ya onların nəticələrinin kifayət qədər ciddi xarakter daşımaması faktı silahlı qüvvələrin birinci tətbiq edilməsinin təcavüz kimi qiymətləndirilməməsinə əsas verir. Başqa sözlə desək, tərifin 2-ci maddəsi silahlı qüvvə tətbiq edilməsinin bu və ya digər halının təcavüz kimi qiymətləndirilməsi üçün birincilik me'yarı ilə yanaşı hərəkətin təhlükəlilik me'yarını da nəzərə alınmasını zəruri hesab edir. Bu me'yar Təhlükəsizlik Şurasına imkan verir ki, təcavüz aktı ilə, miqyasının məhdudluğu, tək və ya təsadüfi xarakter daşıdığına görə təcavüz kimi qiymətləndirilməyən silahlı qüvvə tətbiq edilməsi hallarını biri-birindən fərqləndirsin. Onu da nəzərə almaq lazımdır ki, bu cür hallar sülhün pozulması və ya sülh üçün təhlükə kimi qiymətləndirilə bilər. Adətən silahlı hücumun belə halları sərhədlərin pozulması kimi qiymətləndirilir. Dövlətin fəaliyyətinin təcavüz kimi qiymətləndirilməsində təcavüzkar niyyətin (animus aggressiois) müəyyən edilməsi də mühüm şərtlərdən biridir. Zahiri cəhətdən bu me'yarın tə'rifin 2-ci maddəsində nəzərdə tutulması gözə çarpmır. Lakin maddədə əks olunmuş "başqa müvafiq hallar" ifadəsi məhz təcavüzkar niyyəti əhatə edir. Əgər təcavüz beynəlxalq məs'uliyyət doğuran cinayət kimi qiymətləndirilirsə, onda niyyət ünsürünü qəbul etməmək mümkün deyildir. Hüquq nəzəriyyəsinin ümumi prinsiplərinə əsasən niyyət və məs'uliyyət qarşılıqlı surətdə biri-biri ilə bağlı olan anlayışlardır.

Təhlükəsizlik Şurası tərəfindən təcavüz aktının müəyyən edilməsi zamanı niyyətin nəzərə alınması bu orqanın qərarına əsaslı surətdə tə'sir göstərən mühüm amil hesab edilməlidir. Belə ki, münaqişədə olan tərəflərin niyyətinin müəyyən edilməsi fiziki və zahiri cəhətləri ilə oxşar olan fəaliyyətin təcavüz və ya nizamnamənin tələblərinə müvafiq tətbiq olunan tədbir olmasını fərqləndirməyə əsas verir.

Tə'rifdə təcavüzün ümumi anlayışı ilə yanaşı, bu anlayışa daxil olan, yə'ni təcavüz hesab edilən ayrı-ayrı hallar da nəzərdə tutulmuşdur. Təcavüz kimi qiymətləndirilən halların siyahısını bitmiş hesab etmək olmaz, çünki Təhlükəsizlik Şurası ümumi formul əsasında siyahıda nəzərdə tutulmamış aktları da təcavüz kimi qiymətləndirə bilər. Təcavüzün tərifinin 3-cü maddəsi giriş hissədən və 7 bənddən ibarətdir. On-

lardan beşi (a, b, s, d, e) düzünə təcavüzə aiddir. f bəndi təcavüzdə iştirakçılığa, g bəndi isə yanakı təcavüzə həsr olunub.

3-cü maddənin a bəndində təcavüz "dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisinə müdaxiləsi və ya hücumu və ya bu cür müdaxilə və ya hücumun nəticəsi olan və necə müvəqqəti xarakter daşımasından asılı olmayaraq hər hansı işğal və ya onun bir hissəsinin bu cür ilhaqı" kimi əksini tapmışdır.

Tə'rifin 3-cü maddəsinin b bəndinə əsasən "dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisini bombardman etməsi və ya dövlətin başqa dövlətin ərazisinə qarşı hər hansı silah tətbiq etməsi" təcavüz aktı kimi təsvif olunur. "Bombardman" terminindən istifadə olunması onu göstərir ki, bu halda dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə daxil olması nəzərdə tutulmur. Bombardman dövlətin ərazisinin artilleriya və ya raket və ya başqa vasitələrlə bu hərəkətlərin tətbiq olunduğu dövlətin sərhədlərindən kənarda yerləşən silahlı qüvvələr tərəfindən atəşə tutulmasıdır. Tə'rifin 3-cü maddəsinin s bəndində "dövlətin liman və sahillərinin başqa dövlətin silahlı qüvvələri tərəfindən mühasirəsi" təcavüz hesab olunur.

3-cü maddənin d bəndində "dövlətin silahlı qüvvələrinin digər dövlətin quru dəniz və ya hava qüvvələrinə, dəniz, hava donanmasına hücumu" təcavüz hesab olunur. Bu təcavüzkar aktların obyekti hər şeydən əvvəl harada yerləşməsindən asılı olmayaraq dövlətin silahlı qüvvələridir. Bu cür hərəkətlər çox vaxt tə'rifin üçüncü maddəsinin a və v bəndlərində nəzərdə tutulmuş təcavüz aktları ilə əhatə olunur. Lakin silahlı qüvvələr mənsub olduqları dövlətin ərazi yurisdiksiyasından kənarda olduğu vaxt onlara hücum edildikdə öz xarakterinə görə müstəqil təcavüz aktına çevrilir.

"Qəbul edən dövlətlə bağlanmış saziş əsasında başqa dövlətin ərazisində yerləşən bir dövlətin sazişdə nəzərdə tutulmuş şərtləri pozmaqla silahlı qüvvə tətbiq etməsi və sazişin qüvvədə olan müddəti qurtardıqdan sonra bu cür ərazilərdə olmanın hər cür davam etdirilməsi" təcavüzün tə'rifinin 3-cü maddəsinin e bəndində nəzərdə tutulmuş bir növüdür.

"Düzünə" və "yanakı" təcavüz terminləri şərti xarakter daşıyır. Düzünə təcavüz ilə yanakı təcavüzün fərqi ondadır ki, əgər düzünə təcavüz zamanı silahlı qüvvə tətbiq edilməsinin subyekti kimi özünün nizami qüvvələri qismində dövlət çıxış edirsə, yanakı təcavüz zamanı dövlət silahlı bandalar, muzdlular və ya qeyri-nizami hərbi birləşmələrdən

gizli yolla istifadə edir. 3-cü maddənin g bəndində yanaxı təcavüz: "başqa dövlətə qarşı yuxarıda sadalanan aktlara bərabər ciddi xarakter daşıyan silahlı qüvvə tətbiqi aktını həyata keçirən silahlı banda, qrup, qeyri-nizami qüvvələr və ya muzdlu əsgərlərin dövlət adından və ya dövlət tərəfindən göndərilməsi və ya dövlətin bu cür hərəkətlərdə mühüm iştirakı" kimi ifadə edilmişdir.

BMT Nizamnaməsinin 39-cu maddəsi kollektiv təhlükəsizliyin universal sistemini nəzərdə tutur. Maddədə deyilir ki, "Təhlükəsizlik Şurası sülhə hər hansı təhlükəni, sülhün hər hansı formada pozulmasını və ya təcavüz aktının mövcud olmasını müəyyən edir və beynəlxalq sülh və təhlükəsizliyin bərpa edilməsi və ya qorunması üçün 41-ci və 42-ci maddələrə müvafiq olaraq hansı tədbirlərin tətbiq edilməsini həll edir və ya bu barədə təkliflər verir".

BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən təşkilatın üzvünə silahlı hücum edildiyi halda onun fərdi və kollektiv surətdə özünümüdafiə hüququ vardır. Başqa sözlə BMT Nizamnaməsi silahlı hücumu cavab xarakterli silahlı fəaliyyət üçün əsas kimi qəbul edir. Belə hallarda silahlı fəaliyyət hüquqauyğun xarakter alır.

Aydındır ki, silahlı hücum anlayışı BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində ifadəsini tapmış norma ilə əlaqədardır. Bu əlaqə onda ifadə olunur ki, silahlı hücum başqa dövlətin ərazi toxunulmazlığı və siyasi müstəqilliyinə qarşı zor tətbiq edilməsi forması olmaqla BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində ifadə olunmuş öhdəliyin pozulması deməkdir. Bunun nəticəsi olaraq özünümüdafiə bu növ beynəlxalq hüquq pozğunluğuna sanksiyanın realizasiya vasitəsi kimi çıxış edir. Beynəlxalq hüquq ədəbiyyatında özünümüdafiənin BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə nəzərdə tutulmuş öhdəliklərdən istisna kimi nəzərdə tutulması barədə fikirlər də mövcud olmuşdur.[12] Lakin özünümüdafiəyə zor tətbiqinin qadağan edilməsi prinsipindən istisna kimi deyil, onun pozulmasına qarşı mübarizə vasitələrindən biri kimi baxılmalıdır.

Q. V. Şarmazanaşvili yazır: "zor tətbiq etməmə və zor tətbiq etməklə hədələməmə prinsipinin aydın məqsədli tə'yinatı vardır və burada heç bir istisna nəzərdə tutulmur. Bu prinsipə müvafiq olaraq söhbət zor tətbiq edilməsi və onunla hədələmənin tətbiq edilməsinin ümumiyyət-

12 Brownlie I. International Law and the Use of Force by States. Oxford. 1963.p. 298.

lə qadağan olunmasından gedir. Buradan belə bir nəticə çıxır ki, təcavüz məqsədi ilə zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələməni qadağan edən prinsip heç bir istisnaya yol verə bilməz və yol vermir. Bununla əlaqədar özünümüdafiəyə münasibətdə məsələnin bu cür qoyuluşu qeyri-hüquqidir"[13].

Silahlı hücumun hüquq pozğunluğu kimi, özünümüdafiənin isə sanksiya kimi qiymətləndirilməsi BMT Nizamnaməsinin 51-ci maddəsinin öz məzmunu ilə təsdiq olunur. Belə ki, həmin maddədə özünümüdafiənin meydana çıxması üçün "əgər silahlı hücum baş verirsə" şərti irəli sürülür. Buradan da özünümüdafiə ilə silahlı hücum kriteriyalarının fərqləndirilməsi üçün ilkinlik prinsipi özünü göstərir.

İlkinlik prinsipi öz növbəsində silahlı hücum və zor tətbiq etməklə hədələmə arasında da fərqin müəyyənləşdirilməsinə imkan yaradır. Silahlı hücumun ilkinliyi və buna müvafiq olaraq özünümüdafiənin ikinciliyi, özünümüdafiə üçün əsasın ancaq real hücum olmasını nəzərdə tutur. Buradan da zor tətbiq etməklə hədələmənin özünü müdafiə üçün əsas ola bilməyəcəyi meydana çıxır, əks halda özünümüdafiə özünün cavab tədbiri olmaq xarakterini itirir və silahlı hücuma çevrilir.

Onu da qeyd etmək lazımdır ki, hər bir "silahlı hücum"u təcavüzlə eyniləşdirmək olmaz. Silahlı hücumun təcavüz kimi qiymətləndirilməsi üçün o elə təhlükəlilik dərəcəsinə malik olmalıdır ki, sülhün pozulması, beynəlxalq sülhə qəsd etməsinə dəlalət etsin. Yə'ni silahlı hücum anlayışı təcavüz anlayışına nisbətən dar həcmə malikdir. Bundan başqa silahlı hücum və təcavüz həmin hüquq pozğunluğunu müəyyən edən subyektlərə görə də fərqləndirilir. Belə ki, faktın təcavüz kimi qiymətləndirilməsi yalnız BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə aid olduğu halda, silahlı hücum faktını isə zərər çəkmiş dövlət özü müəyyən edir.

Tə'rifin 6-cı maddəsində göstərilir ki, "həmin tə'rifdə heç nə, o cümlədən silahlı qüvvə tətbiq edilməsinin qanuni hallarına aid müddəalar da daxil olmaqla, Nizamnamənin fəaliyyət dairəsini hər hansı tərzdə genişləndirilməsi və ya məhdudlaşdırılması kimi tövsif edilə bilməz." Fikrin bu cür ifadə olunması Nizamnamənin üstünlüyünü göstərməklə, onda zor tətbiq edilməsinin qanuniliyi haqqında müddəalar olmasını təsdiq edir.

---

13 Шармазанашвили Г. В. Самооборона в международном праве. М., 1973. с. 45

Tə'rifə zor tətbiq edilməsinin qanuniliyi haqqında 6-cı maddənin daxil edilməsi qüvvədə olan hüquq qaydasına yeni heç nə əlavə etməsə də tə'rifə istinad edilməklə Nizamnamədən kənarlaşma hallarına yol verilməsinin qarşısını alır. Bu 6-cı maddənin 3-cü maddə ilə müqayisəsində özünü daha aydın göstərir. 3-cü maddədə nəzərdə tutulmuş hərəkətlər silahlı hücumun müxtəlif formalarıdır. Bu hərəkətlər Nizamnamənin 51-ci maddəsinə müvafiq olaraq təcavüz qurbanının özünümüdafiəsinə (fərdi və ya kollektiv) və ya Təhlükəsizlik Şurası tərəfindən məcburiyyət tədbirlərinin tətbiqinə əsas verir.

"Nikaraqua ABŞ əleyhinə" işi üzrə Beynəlxalq Məhkəmənin 1986-cı il qərarında göstərilirdi ki, "özünümüdafiə hüququ hücuma məruz qalmış dövlətə məxsusdur. O, bu hüquqdan istifadə etmək qaydasını müəyyənləşdirir".[14] Əgər silahlı hücumdan zərər çəkmiş dövlət tərəfindən silahlı hücuma dərhal cavab verilməmişdirsə və ya özünümüdafiə tədbirlərinin kifayət qədər səmərəli olmaması nəticəsində dərhal qarşısı alınmamışdırsa, silahlı hücum uzanan və ya davam edən xarakter, yə'ni işğal və ya ilhaq forması alır. Belə hallarda zərər çəkmiş dövlət silahlı hücum vaxtı özünümüdafiə hüququndan istifadə edib etməməsindən asılı olmayaraq hər an özünümüdafiə huüququna müraciət edə bilər. Bu mövqe E. İ. Skakunovun fikirləri ilə də təsdiq olunur.[15] Nəzərə almaq lazımdır ki, qüvvə tətbiqinin qanuni aktları zahiri əlamətlərinə görə silahlı hücuma oxşasa da təcavüz aktı kimi qiymətləndirilə bilməz. Çünki bu hərəkətlər təcavüzün tə'rifinin 6-cı maddəsinin tə'siri altına düşür.

Beləliklə, müasir beynəlxalq hüquq beynəlxalq münasibətlərdə zor tətbiq edilməsini və zor tətbiq etməklə hədələməni qadağan edir. Lakin BMT Təhlükəsizlik Şurasının qərarına əsasən kollektiv sanksiya kimi və dövlətə silahlı hücum olduqda kollektiv və fərdi özünümüdafiə tədbiri kimi silahlı qüvvələrdən istifadə edilməsinə yol verilir.

Yus in bello, jus ad bello-dan fərqli olaraq dövlətin güc tətbiq etmək hüququ ilə bağlı məsələləri əhatə etmir. Yus in bello silahlı münaqişə ilə əlaqədar tətbiq olunan hüquq normalarının məcmuyudur. Bu normalarda silahlı münaqişə iştirakçılarının davranış qaydaları, onların hüquq və vəzifələri öz əksini tapır. Bir qayda olaraq həmin normalar silahlı münaqişənin başlanması ilə fəaliyyətə başlayır. Yus in bello gü-

---

14 International Court of Justice Reports.1986.Para. 199.

15 Скакунов Э. И. Самооборона в международном праве. М., 1973 . с. 107.

cün qanuni tətbiq edilib edilməməsindən asılı olmayaraq münaqişənin iştirakçıları üçün silahlı münaqişənin aparılması qaydalarını müəyyən edir. Beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən silahlı münaqişənin başlanmasının səbəbi əhəmiyyətli deyildir. Eyni zamanda müharibənin başlanmasında kimin təşəbbüs göstərməsi, kimin təcavüzkar və ya təcavüzün qurbanı olması əhəmiyyət kəsb etmir. Yə'ni beynəlxalq humanitar hüquq üçün silahlı münaqişə faktının olması kifayətdir. Həmin hüquq sahəsi münaqişənin səbəblərini nəzərə almır.

Beynəlxalq humanitar hüquq normaları bütün hallarda silahlı münaqişənin iştirakçılarına bərabər səviyyədə tətbiq olunur. Beynəlxalq humanitar hüquq silahlı münaqişələrə siyasi qiymət vermir, onu müasir həyatın reallığı kimi qəbul edir. Beynəlxalq humanitar hüquq belə hesab edir ki, silahlı münaqişələr real bir proses kimi müəyyən qaydalara tabe olmalı, müəyyən normalara müvafiq aparılmalıdır. Lakin bunlar heç də, o demək deyildir ki, beynəlxalq humanitar hüquq müharibəni qanuni hal kimi qəbul edir. Beynəlxalq humanitar hüququn müharibənin başlanması ilə fəaliyyətə başlaması faktı müharibələrin qadağan olunmasının ümumi prinsipinin şübhə altına alınmasına dəlalət etmir. Cenevrə Konvensiyalarına I Əlavə Protokolun preambulasında BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndi demək olar ki, olduğu kimi öz əksini tapmışdır. Preambulada "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, hər bir dövlətin öz beynəlxalq münasibətlərində hər hansı digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı zor işlətməklə hədələməkdən və ya zor işlətməkdən və Birləşmiş Millətlər Təşkilatının məqsədlərinə zidd olan hər hansı digər hərəkətlərdən çəkinməli olduğu" xatırlanır. Qeyd olunur ki, "1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarında və bu Protokolda heç bir müddəa Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə zidd olan hər hansı təcavüz aktını və güc tətbiqini qanuniləşdirən və ya buna icazə verən müddəa kimi təfsir edilə bilməz".

Hüquq ədəbiyyatında beynəlxalq humantitar hüquqa müxtəlif tə'riflər verilmişdir.

BQXK tərəfindən verilən tə'rifdə göstərilir ki, "silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq humanitar hüquq dedikdə, müqavilə və adətlərlə müəyyən edilmiş, xüsusi olaraq beynəlxalq və qeyri-beynəlxalq münaqişələr nəticəsində yaranmış, humanitar problemlərin həllinə yönəldilmiş və humanitar düşüncələrə istinad edərək münaqişədə olan tərəflərin müharibə aparmağın istənilən metod və vasitələ-

rindən istifadə etmək hüququnu məhdudlaşdıran və ya münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi adamları və əmlakı mühafizə edən beynəlxalq qaydalar başa düşülür.

"Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq humanitar hüquq" ifadəsi çox vaxt "beynəlxalq humanitar hüquq" və ya "humanitar hüquq" söz birləşməsi ilə ifadə olunur.[16] Kristof Svinarski beynəlxalq humanitar hüquqa belə tə'rif verir: "Beynəlxalq humanitar hüquq beynəlxalq və qeyri-beynəlxalq münaqişələr zamanı tətbiq edilməsi üçün nəzərdə tutlmuş və düşmən tərəfin hərbi əməliyyatlar aparmaq vasitə və metodlarını seçmək azadlığını məhdudlaşdıran (Haaqa hüququ) və hərbi əməliyyatların zərər vurduğu əhali və əmlakı mühafizə edən (Cenevrə hüququ) adət və müqavilə beynəlxalq hüquq normalarının məcmuyudur.[17] İ. İ. Lukaşuk qeyd edir ki, "beynəlxalq humanitar hüquq beynəlxalq hüququn hərbi əməliyyatlar aparılmasının yol verilməyən metod və vasitələrini müəyyən etməyə və müharibə qurbanlarını mühafizə etməklə müharibənin əzablarını məhdudlaşdırmağa xidmət edən bir sahəsidir.[18]

Minskdə nəşr olunmuş "Beynəlxalq humanitar hüquq" dərsliyinin müəllifləri tərəfindən beynəlxalq humanitar hüquqa belə tə'rif verilir: "Beynəlxalq humanitar hüquq dedikdə, hüquq norma və prinsiplərinin elə bütöv sistemi başa düşülür ki, həm beynəlxalq, həm də qeyri-beynəlxalq silahlı münaqişələr zamanı tətbiq olunur, beynəlxalq hüquq subyektlərinin silahlı mübarizə aparılmasının müəyyən vasitə və metodlarını tətbiq etməsini qadağan etmək və məhdudlaşdırmaq, mübarizə gedişində münaqişə qurbanlarının mühafizəsini tə'min etmək üzrə qarşılıqlı hüquq və vəzifələrini yaradır və həmin norma və prinsiplərin pozulmasına görə məs'uliyyət müəyyən edir.[19]

L. H. Hüseynov tərəfindən beynəlxalq humanitar hüquqa verilən anlayış aşağıdakı kimidir: "Beynəlxalq humanitar hüquq — silahlı müna-

16 Commentary on the Additional Protocols, ICRC, Geneva. 1987.p.27.

17 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. М., МККК. 1997.с.16.

18 И.И.Лукашук. Международное право. Особенная часть. М., БЕК. 1998. с. 270.

19 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей.1999.с.26.

qişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmuyuna deyilir".[20]

Göstərilən anlayışların hər birinin oxşar və müəyyən qədər fərqli cəhətləri vardır.

Hüquq tarixi inkişafın zərurəti kimi meydana çıxmışdır. Bu zərurilik ictimai münasibətlərin daim inkişaf etməsi, həmin münasibətlərin hamı üçün ümumi olan normalarla tənzim edilməsi tələbatından irəli gəlirdi. S. S. Alekseyev haqlı olaraq qeyd edir ki, hüquq "cəmiyyətin müəyyən inkişaf mərhələsində iqtisadi bazisin tələblərinə müvafiq olaraq hüquqi vasitələrin köməyi ilə ictimai münasibətləri nizama, müəyyən çərçivəyə salmaq, onların gələcək inkişafını tə'min etmək, bir sözlə, müəyyən tərzdə hüquqi vasitələrlə onlara tə'sir etmək üçün yaranır".[21] Tarixi inkişafla əlaqədar olaraq yeni ictimai münasibətlərin yaranması onların nizama salınmasını da tələb edir. Hüquqi nizama salma ictimai nizamasalmanın bir sahəsi kimi ictimai münasibətlərin genişlənməsi ilə əlaqədər olaraq inkişaf edir. Bu da hüquqi nizama salma sahələrinin çoxalmasına və beləliklə də, hüququn yeni-yeni sahələrinin yaranmasına səbəb olur. Hüququn çoxsahəliliyi və hər sahənin özünəməxsus cəhətlərinin olmasına baxmayaraq hüquqi anlayışların tədqiqi ümumi hüquq nəzəriyyəsinə əsaslanmalı, özünün başlanğıcını məhz oradan almalıdır. Çünki "hüquq nəzəriyyəsinin nəticələri, müddəaları bütün hüquq elmləri üçün ümumi xarakter daşıyır".[22] C. Kərimov bu barədə yazır: "Dövlət və hüququn ümumi nəzəriyyəsi tərəfindən hazırlanmış nəticə, müddəa və anlayışlar hüquq elminin bütün və ya bir sıra xüsusi sahələri üçün ümumidir... bu nəticələr, müddəa və anlayışlar sahəvi hüquq elmləri üçün təməl və başlanğıcdır".[23]

Lakin ümumi hüquq nəzəriyyəsindən kateqoriyaların hüququn xüsusi sahəsinə mexaniki keçirilməsi yolverilməzdir. Hər hansı hüquqi ka-

---

20 Hüseynov L. H. Beynəlxalq humanitar hüquq. "Hüquq ədəbiyyatı". Bakı. 2000. s.198.

21 Алексеев С.С. Механизм правового регулирования в сосиалистическом государстве. М., "Юридическая литература" 1966. с.5.

22 Məlikova M. Dövlət və hüquq nəzəriyyəsi. Bakı. Maarif.1979.s.17.

23 Керимов Д.А. Обшая теория государства и права. Предмет. Структура. Функции. М., "Юридическая литература". 1977. с. 65.

teqoriya və anlayışın müəyyən edilməsində ümumi nəzəriyyə müddəaları ilə yanaşı hər bir hüquq sahəsinin özünün xüsusiyyətləri nəzərə alınmalıdır. Bu cəhətdən beynəlxalq hüquq da istisna təşkil etmir. Beynəlxalq hüquqa aid anlayışların müəyyənləşdirilməsində ümumi hüquq nəzəriyyəsi müddəaları ilə yanaşı bu hüquq sahəsinin, onun nizama saldığı ictimai münasibətlərin özünəməxsus cəhətləri qarşılıqlı vəhdətdə tədqiq olunmalıdır.

Beynəlxalq hüququn ayrı-ayrı sahələrinə aid kateqoriyaların anlayışının müəyyən edilməsində digər zəruri cəhət həmin kateqoriyaların beynəlxalq hüquqdakı eyni kateqoriyalar ilə müqayisə edilməsi və bununla da hər bir hüquq sahəsinin həmin anlayışının xarakterik cəhətlərinin müəyyən edilməsidir. Çünki kateqoriyanın anlayışının müəyyənləşdirilməsində məhz həmin hüquq sahəsi üçün xarakterik əlamətlərin anlayışa daxil edilməsi vacibdir. Hər hansı kateqoriyanın anlayışının müəyyən edilməsinə bu cür yanaşma onun mahiyyət və məzmununun düzgün açılmasına kömək edir.

Nəhayət, nəzərdən keçirilən hər hansı hadisənin, anlayışın daha tam açılması üçün onun məzmununu, tərkib hissələrini xarakterizə etmək zəruridir. Mahiyyət həmin hadisənin nə olması sualına cavab verdiyi halda, məzmun onun nədən ibarət olduğunu göstərir. Mahiyyət və məzmun biri-birinə qarşı qoyulmamalıdır. Məzmunda mahiyyət açılır, konkretləşdirilir, genişləndirilir.[24]

Beləliklə, beynəlxalq humanitar hüquq anlayışının müəyyən edilməsi üçün ilk növbədə ümumi hüquq nəzəriyyəsinin müddəaları əsas götürülməklə beynəlxalq humanitar hüquq və beynəlxalq hüququn əsas tərkib hissələri müqayisəli şəkildə öyrənilməli, beynəlxalq humanitar hüququn özünün spesifikliyi nəzərə alınmalı, anlayaşın mahiyyəti və onun məzmunu tədqiq edilməlidir.

Bizə elə gəlir ki, beynəlxalq humanitar hüququn aşağıdakı əlamətlərini fərqləndirmək lazımdır:

1. Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn tərkib hissəsidir. Beynəlxalq humanitar hüququn beynəlxalq hüququn bir sahəsi olmasını onların mənbələri, subyekt və obyektlərinin eyniliyi təşkil edir. Beynəlxalq humanitar hüquq normaları eyni zamanda beynəlxalq hüququn mənbəyini təşkil edir. Beynəlxalq hüququn mənbələri kimi bey-

24 Керимов Д.А.Философские проблемы права. М.,Мыслъ, 1972. с.196-197

nəlxalq humanitar hüququn mənbələri də xüsusi qanunvericilik orqanı tərəfindən deyil, dövlətlərin iradələrinin razılaşdırılması yolu ilə beynəlxalq hüququn subyektləri olan dövlətlər tərəfindən yaradılır.

Beynəlxalq humanitar hüquq subyektləri də eyni zamanda beynəlxalq hüququn subyektləridir. Beynəlxalq humanitar hüquq subyektləri suveren dövlətlər, azadlıq və istiqlaliyyəti uğrunda mübarizə aparan xalq və millətlər, beynəlxalq dövlətlərarası təşkilatlardır.

Beynəlxalq Qeyri-Hökumət Təşkilatlarının beynəlxalq hüququn subyekti olması məsələsi hüquq ədəbiyyatında mübahisəlidir.

Bir qrup müəlliflər belə hesab edir ki, Beynəlxalq Qeyri-Hökumət Təşkilatları beynəlxalq hüququn subyekti deyildir.[25] Digər müəlliflərin fikrinə görə, Beynəlxalq Qeyri-Hökumət Təşkilatları beynəlxalq hüququn subyekti deyil, lakin beynəlxalq hüquq münasibətlərinin subyektidirlər və ola bilsin ki, onlar gələcəkdə beynəlxalq hüququn subyektinə çevriləcəklər.[26] Üçüncü qrup müəlliflər isə belə fikirdədirlər ki, Beynəlxalq Qeyri-Hökumət Təşkilatları məhdud hüquq subyektliliyinə malik beynəlxalq hüquq subyekti kimi fəaliyyət göstərir.[27]

Fikrimizcə, Beynəlxalq Qeyri-Hökumət Təşkilatları hazırda beynəlxalq hüququn məhdud hüquq subyektliliyinə malik olması, onların gələcəkdə beynəlxalq hüququn tam hüquqlu subyektinə çevriləcəyinə zəmin yaradır.

Fiziki şəxslərin beynəlxalq hüququn subyekti kimi tanınması məsələsi çox mübahisəlidir. Bə'zi müəlliflər fiziki şəxslərin beynəlxalq hüququn subyekti olmasını rədd edir, digərləri isə onların beynəlxalq hüququn subyekti kimi bə'zi xüsusiyyətlərə malik olmasını qəbul edirlər. Məsələn, V. M. Şurşalov belə hesab edir ki, qüvvədə olan beynəlxalq hüquq normalarına müvafiq olaraq fərdlər beynəlxalq hüququn subyekti olmasalar da bə'zən konkret hüquq münasibətlərinin subyekti kimi çıxış edirlər.[28] Beynəlxalq humanitar hüquq sahəsində xidmətləri ilə

---

25 Бах. Актуальные проблемы деятельности межународных организации. Отв. Ред. Г.И.Морозов. М., Международные отношения. 1982.с. 306-340; Коваленко И.И. Международные неправительственные организации. М., Международные отношения. 1976.

26 Шибаева Е.А. Исследование статуса международных организаций в работах ученых Болгарии.// Вестник МГУ, Право, сер.II 1987. № 4. с.76

27 Нешатаева Т.Н. Международные организации и право. Новые тенденции в международно-правовом регулировании. М., 1998. с.86.

28 Шуршалов В.М. Международное правоотношения.М.,1971.с.77.

tanınmış F. F. Martens də vaxtilə bu mövqedən çıxış etmişdir.[29] Y. Brounli (İngiltərə), E. Areçaqa (Uruqvay), belə hesab edirlər ki, fiziki şəxslərin beynəlxalq hüququn subyekti kimi tanınması məqsədəmüvafiqdir.[30] Ş. Oda (Yaponiya) İkinci Dünya müharibəsindən sonra fiziki şəxslərin beynəlxalq sülh və hüquq qaydasını pozduqlarına görə beynəlxalq proseduralar əsasında cinayət məs'uliyyətinə alınmasını onların beynəlxalq hüququn subyekti kimi tanınması üçün əsas hesab etmişdir.[31] L. P. Anufriyeva belə hesab edir ki, fiziki şəxslər beynəlxalq hüquq və vəzifələrə, həmçinin beynəlxalq hüquq subyektlərinin beynəlxalq hüquq normalarını yerinə yetirməsini tə'min etmək qabiliyyətinə (məsələn, beynəlxalq məhkəmə orqanları vasitəsi ilə) malikdirlər, bu isə fiziki şəxslərin beynəlxalq hüququn subyekti kimi tanınması üçün tamamilə kifayətdir.[32]

Beynəlxalq humanitar hüququn obyektini silahlı münaqişə aparılması gedişində döyüşən tərəflər arasında yaranan ictimai münasibətlər təşkil edir. Buradan da biz beynəlxalq hüququn subyektləri ilə beynəlxalq hüququn nizama saldığı ictimai münasibətlərin subyektləri arasında fərqlərin olması mümkünlüyünü görürük. Belə ki, beynəlxalq humanitar hüquq təkcə beynəlxalq münaqişələrə deyil, eyni zamanda qeyri-beynəlxalq xarakterli münaqişələrə də tətbiq olunur. Qeyri-beynəlxalq münaqişələr zamanı dövlətin nizami silahlı qüvvələrinə qarşı mübarizə aparan dəstə milli azadlıq hərəkatıdırsa onda bu cür münaqişə beynəlxalq silahlı münaqişəyə çevrilir. Əgər həmin münaqişə milli azadlıq hərəkatı ilə bağlı yaranmayıbsa onda dövlətin nizami silahlı qüvvələri ilə mübarizə aparan qüvvələr beynəlxalq hüququn subyekti hesab edilmir. Bu cür vəziyyətdə beynəlxalq humanitar hüququn nizama saldığı ictimai münasibətin subyektlərindən biri artıq beynəlxalq hüququn subyekti deyildir. Məsələn, Əfqanıstanda yaranan vəziyyətdə münaqişə dövlətin daxilində gedir. Bir tərəfdən Taliban hərəkatı üzvləri, digər tərəfdən isə

29 Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов.Т.I.М., 1996.с.220-221.

30 Броунли Я. Международное право.Пер. с англ. Кн. 1,М,, 1977. с.117; Аречага Э.Х. Современное международное право. Пер.с исп. М.,1983. с.259

31 Oda Sh. The Individual in International Law. In: Manual of Public International Law / Ed. By Max Sorensen. London, 1978. P. 471.

32 Международное публичное право. Под. ред. К.А.Бекяшева. М., Проспект. 1999.с.120.

rəsmi dövlət qüvvələri vuruşur. Bu silahlı münaqişəni milli azadlıq münaqişəsi kimi qiymətləndirmək olmaz. Lakin beynəlxalq humanitar hüquq həmin münaqişədə tətbiq olunmalı və onun normalarına riayət edilməlidir. Yaxud, Azərbaycanda 1993-cü il iyun ayında baş verən hadisə silahlı münaqişə kimi beynəlxalq humanitar hüququn obyektini təşkil edir, həmin münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarına — Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddəyə (Azərbaycan Respublikası CK-larına II Əlavə Protokola qoşulmadığına görə onu qeyd etmirik) riayət olunmalı idi.

Beynəlxalq humanitar hüquq normaları dövlətlər arasında onların iradələrinin razılaşması ilə yaransa da, çox vaxt dövlətlərin öz aralarında yaranmış münasibətləri deyil, hər hansı dövlətlə digər dövlətin vətəndaşları (hərbi əsir, işğal edilmiş ərazidə qalan mülki əhali), dövlətlə Beynəlxalq Qeyri-Hökumət Təşkilatı məsələn, BQXK arasında münasibətləri nizama salır. Göstərilənlər beynəlxalq humanitar hüququn beynəlxalq hüququn bir sahəsi olması faktına heç bir xələl gətirmir.

2. Beynəlxalq humanitar hüquq silahlı münaqişələrlə əlaqədar tətbiq olunan beynəlxalq hüquq normalarının məcmuyudur. Beynəlxalq humanitar hüquq silahlı münaqişə yarandıqda fəaliyyətə başlayır. J. Piktenin obrazlı ifadəsi ilə deyilsə beynəlxalq humantar hüquq "ilk güllə atılan kimi fəaliyyətə başlayır". Silahlı münaqişələr beynəlxalq və qeyri-beynəlxalq xarakterli münaqişələr ola bilər. Beynəlxalq silahlı münaqişələr iki və daha artıq dövlət arasında gedən müharibələrdir. Bir dövlətin ərazisi hüdudlarında baş vermiş münaqişələr isə qeyri-beynəlxalq silahlı münaqişələr hesab olunur. 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyalarına qeyri-beynəlxalq münaqişələr zamanı tətbiq olunan 3-cü maddənin daxil edilməsinin böyük əhəmiyyəti olmuşdur. Çünki insanın bir dövlətin ərazisi daxilində baş vermiş silahlı münaqişə zamanı bu münaqişənin əzablarından mühafizə edilməməsi ilə iki və daha artıq dövlət arasında baş vermiş silahlı münaqişə zamanı mühafizə edilməsi əslində heç bir real əsasa söykənmirdi. 1977-ci ildə Cenevrədə keçirilən Diplomatik Konfrans zamanı bu sahədə irəliyə doğru daha mühüm addımlar atıldı. I Əlavə Protokolun qəbul edilməsindən sonra milli azadlıq müharibələri beynəlxalq silahlı münaqişələrə aid edildi. Ən mühüm nailiyyət isə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı tətbiq olunan II Əlavə Protokolun qəbul edilməsi oldu.

Lakin qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüquq silahlı münaqişələrdən kənarda da fəaliyyət göstərir. Məsələn, CK-ya əsasən,

dövlətlər beynəlxalq humanitar hüquq normalarının həm dinc dövrdə, həm də müharibə dövründə öz ölkələrində bacardıqca geniş yayılması, o cümlədən onun öyrənilməsini hərbi və mümkün qədər mülki tədris proqramlarına daxil edilməsini öhdələrinə götürmüşlər. Bu öhdəliyin həyata keçirilməsi silahlı münaqişə dövründən daha çox dinc dövrü əhatə edir. Tərəflər daim bu öhdəliyi yerinə yetirməlidirlər. Yaxud silahlı münaqişələrlə əlaqədar beynəlxalq humanitar hüquq normaları əsasında yaradılan Mərkəzi Axtarış Agentliyi silahlı münaqişə qurtardıqdan sonra da öz fəaliyyətini davam etdirir. Bir qayda olaraq hərbi əsirlərin və mülki şəxslərin repatriasiya edilməsi silahlı münaqişələr başa çatandan sonra həyata keçirilir. Mədəni sərvətlərin mühafizəsi ilə əlaqədar dövlətlərin həyata keçirdiyi tədbirlər, mədəni sərvətlərin qeydə alınması, reyestrə salınması və sair məsələlər sülh dövründə həyata keçirilir. Müharibə aparılması vasitələrinin məhdudlaşdırılması sahəsində son dövrlərdə qəbul edilmiş konvensiyalarda həmin vasitələrin ayrı-ayrı növlərinin tətbiq edilməsinin qadağan edilməsi ilə yanaşı, eyni zamanda həmin silahların istehsalı, yığılması, verilməsinin qadağan edilməsi, həmçinin onların məhv edilməsi barədə öhdəliklər də öz əksini tapır. Bu öhdəliklərə isə silahlı münaqişə dövründə olduğu kimi sülh dövründə də əməl olunmalıdır. Nəhayət, beynəlxalq humanitar hüququn ciddi pozuntularını törətmiş şəxslərin cinayət məs'uliyyətinə alınması məsələləri beynəlxalq humanitar hüquq normalarında da əks olunmasına baxmayaraq, həmin müddəalar bir qayda olaraq dinc dövrdə həyata keçirilir. Lakin göstərilənlərin heç biri belə bir faktı təkzib etmir ki, beynəlxalq humanitar hüquq normaları silahlı münaqişələrlə bağlı, onlarla əlaqədar meydana çıxan münasibətləri tənzimləyir. Fikrimizcə, beynəlxalq humanitar hüququn silahlı münaqişələr zamanı fəaliyyət göstərən hüquq sahəsi olmasından daha çox, həmin hüquq sahəsinin silahlı münaqişələrlə əlaqədar fəaliyyət göstərməsini qeyd etmək daha məqsədəmüvafiq olardı.

3. Beynəlxalq humanitar hüququn mənbəyini beynəlxalq müqavilələr və beynəlxalq adət normaları təşkil edir.

4. Beynəlxalq humanitar hüquq silahlı münaqişə qurbanlarının mühafizəsi və müharibə aparılmasının metod və vasitələrini məhdudlaşdırılması ilə əlaqədar meydana çıxan münasibətləri tənzimləyir.

Beynəlxalq humanitar hüququn nizama saldığı münasibətlər xarakterinə görə iki qrupa ayrılır. Bunlardan birincisi silahlı münaqişə qurbanlarının və yaxud himayədə olan şəxslərin mühafizəsi ilə əlaqadar olan

normalardır. Bu normalar bir çox müəlliflər tərəfindən Cenevrə hüququ adlanır. Bu hər şeydən əvvəl həmin normaların bir qayda olaraq Cenevrədə keçirilən konfranslarda qəbul edilməsi ilə əlaqədardır. Digər qrup normalar isə müharibə aparılması metod və vasitələrini məhdudlaşdıran normalardır. Həmin normalar Haaqa hüququ kimi tanınır. Düzdür, müharibə aparılması vasitələrinin məhdudlaşdırılması haqqında ilk beynəlxalq konvensiya 1868-ci ildə Sankt-Peterburqda qəbul edilmişdir. Bu sahədə sonradan Haaqada qəbul edilmiş konvensiyalar əksəriyyət təşkil etdiyinə görə beynəlxalq humanitar hüququn həmin sahəsi Haaqa hüququ kimi tanınır.

F.Kalsxoven BMT çərçivəsində beynəlxalq humanitar hüquqa aid qəbul edilmiş beynəlxalq hüquqi aktları Nyu-York hüququ kimi ayırmışdır.[33] Lakin bu cür bölgü beynəlxalq humanitar hüquq mütəxəssisləri tərəfindən tam yekdilliklə qəbul olunmur.[34] Fikrimizcə, beynəlxalq humanitar hüquq normalarının normativ aktların qəbul edildiyi yerlər üzrə bölgüsünün davam etdirilməsi məqsədəmüvafiq deyildir. Beynəlxalq humanitar hüququn Cenevrə və Haaqa hüquq sahələrinə ayrılması bu hüquq sahəsinin tənzimlədiyi ictimai münasibətlərin ayrı-ayrı xarakterini tam əks etdirir.

5. Beynəlxalq humanitar hüquq onun norma və prinsiplərinin pozulmasına görə məs'uliyyət müəyyən edir. Heç bir şübhə yoxdur ki, hər hansı hüquq sahəsi özünün subyektlərinin davranış qaydalarını müəyyən edir, yə'ni onların hüquq və vəzifələrini nəzərdə tutur. Beynəlxalq humanitar hüquq da bu cəhətdən istisna təşkil etmir. Lakin burada bir cəhətə diqqət yetirilməlidir ki, beynəlxalq humanitar hüquq öz subyektləri olan dövlətlərlə yanaşı hələlik onun subyekti statusunu almamış fiziki şəxslər üçün də onun norma və prinsipləri pozmağa görə məs'uliyyət müəyyənləşdirmişdir. Yə'ni beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə dövlətlər maddi və siyasi məs'uliyyət daşıdığı halda, fiziki şəxslər cinayət məs'uliyyəti daşıyırlar. Məhz bu cəhətdən beynəlxalq humanitar hüququn onun norma və prinsiplərini pozan şəxslər üçün məs'uliyyət nəzərdə tutmasını xüsusi bir əlamət kimi qeyd olunması məqsədəmüvafiqdir. Çünki həmin hüquq sahəsində

---

33 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994. с.22-26.

34 Бах. Ханс-Петер Гассер. Международное гуманитарное право. Ведение. М., МККК. 1995

onun subyetkləri üçün hüquq və vəzifələrin müəyyənləşdirilməsi fiziki şəxslərin cinayət məs'uliyyətini əhatə etmir.

Göstərilən əlamətləri vahid bir anlayışda cəmləşdirməklə beynəlxalq humanitar hüquqa bu cür tə'rif vermək olar:

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir sahəsi olub, həm beynəlxalq silahlı münaqişələr, həm də qeyri-beynəlxalq silahlı münaqişələrlə əlaqədar beynəlxalq hüququn subyektləri arasında yaranmış münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi adamların və əmlakın mühafizəsi və müharibənin aparılmasının metod və vasitələrinin məhdudlaşdırılması sahəsindəki münasibətləri tənzimləyən, həmçinin onun norma və prinsiplərinin pozulmasına görə məs'uliyyət müəyyənləşdirən beynəlxalq adət və müqavilələrdə ifadə olunmuş beynəlxalq hüquq normalarının məcmuyudur.

Fəsil III

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN PRİNSİPLƏRİ VƏ MƏNBƏLƏRİ

1. Beynəlxalq humanitar hüququn prinsipləri

Prinsip (lat. "principium" — başlanğıc, əsas) fəaliyyətin başlıca müddəası, rəhbər ideyası, davranışın əsas qaydası kimi izah edilir.[1] Fəlsəfi mə'nada prinsip insan fəaliyyətinin müxtəlif sahələrində rəhbər tutulmalı olan bə'zi faktların və ya biliyin məcmusunun əsasını, özəyini təşkil edən müddəalar kimi başa düşülür. Hazırda "prinsip" terminindən müxtəlif fəaliyyət sahələrində istifadə edilsə də onun ilkin, başlanğıc, əsas kimi mə'nası saxlanılır.[2]

J.Pikte prinsipi sağlam düşüncəyə və təcrübəyə əsaslanaraq cəmiyyət tərəfindən norma kimi qəbul edilmiş qayda kimi müəyyənləşdirir.[3]

S.S.Alekseyev hüququn əsas prinsiplərini "hüquqda onun məzmununu xarakterizə edən rəhbər başlanğıcların ifadəsi" kimi müəyyən edir və göstərir ki, onlarda "hüququn həmin növünün səciyyəvi xüsusiyyətləri vahid şəkildə toplanır, cəmləşir və büllurlaşır".[4]

Prinsiplər dövlətlərin, bütövlükdə dünya birliyinin köklü, əsas mənafelərini əks etdirir və ifadə olunma formasından asılı olmayaraq həmişə özündə müəyyən davranış qaydasını nəzərdə tutur. Beynəlxalq hüququn əsas prinsipləri onun əsas başlanğıcları, universal və ümumqəbulolunmuş normalarıdır. Beynəlxalq hüququn əsas məzmununu və xarakterik cəhətlərini ifadə edən, yüksək hüquqi qüvvəyə malik ümumiləşdirilmiş normaların onun əsas prinsipləri kimi fərqləndirilməsi beynəlxalq hüquqa xas olan xüsusiyyətlərindəndir.

A.Talalayev beynəlxalq hüququn prinsiplərini "beynəlxalq hüququn

---

1 Словарь иностранных слов. М., Русский язык. 1985.с.400.

2 Философская эциклопедия.М., 1967.т.4.с.365.

3 Жан Пикте. Основополагающие принципы Красного Креста. Комментарий. М., МККК.1997. с.14

4 Алексеев С.С. Общая теория социалистического права, вып. 1. Свердловск. 1963. с. 150-151

daha ümumi, daha mühüm və ümumqəbulolunmuş norması" kimi izah edir.[5] Beynəlxalq hüququn bütün başqa normaları onun əsas prinsiplərinə müvafiq olmalıdır. Bu prinsipə uyğun olmayan hər hansı norma həqiqi hesab edilə bilməz.

Prinsiplər subyektlərin qarşılıqlı əlaqəsinin əsaslarını müəyyən edir və dövlətlərin əsas hüquq və vəzifələrini özündə əks etdirir. Prinsiplər sülh, əməkdaşlıq, insan hüquqları kimi bəşəri sərvətləri ifadə etməklə yanaşı, həm də onları mühafizə edir.

Beynəlxalq hüququn əsas prinsipləri jus cogens norma kimi, yə'ni imperativ xarakterli olmaqla, digər beynəlxalq hüquq qaydalarının yaradılması üçün hüquqi baza təşkil edir. Bütün digər konkret hüquq normalarının qanuni olması üçün bir me'yar, əsas ölçü sayılır. Yə'ni bu prinsiplər özündə beynəlxalq münasibətlərin köklü əsaslarına toxunan daha ümumi beynəlxalq-hüquqi normaları əks etdirir və bütövlükdə bütün beynəlxalq birliyə, istisnasız olaraq bütün dövlətlərə şamil edilir. Onlar məcburedici xarakter daşıyır və ayrı-ayrı dövlətlərarası müqavilələrə əsasən dəyişdirilə və ya ləğv edilə bilməz. Başqa sözlə bu prinsiplər məcburilik mə'nasında bütün dövlətlər üçün universal xarakter daşıyır. Bu o deməkdir ki, beynəlxalq hüququn bütün subyektləri prinsiplərə ciddi riayət etməlidirlər. Çünki prinsiplərin hər hansı formada pozulması hökmən beynəlxalq münasibətlərin digər iştirakçılarının qanuni mənafelərinə toxunmuş olur. Bu həm də, o deməkdir ki, beynəlxalq hüququn prinsipləri beynəlxalq hüquq normaları sisiteminin qanuniliyinin kriteriyası, ölçüsüdür. Prinsiplərin hüquqi qüvvəsi hətta subyektlər arasında yaranmış və hər hansı səbəbdən konkret normalarla nizama salınmayan münasibətlərə də şamil olunur. Beləliklə də, prinsiplər beynəlxalq hüquq qaydasının əsasına çevrilir. Dövlətlər ikitərəfli və çoxtərəfli münasibətlərdə həmin müddəalardan kənarlaşa bilməzlər. Yus cogens xüsusiyyətinə malik normaların hüquqi təbiəti onunla şərtlənir ki, onlar ayrı-ayrı dövlətlərin mənafeyinin deyil, bütövlükdə beynəlxalq birliyin mənafeyinin tə'mininə xidmət etməlidir.

Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 53-cü maddəsinə əsasən beynəlxalq hüquqi müqavilələr jus

---

5 Талалаев А.Н. Об основных принципах международного права // Советский Ежегодник Международного Права. 1958. М., 1959. с.513.

cogens prinsipinə ziddirsə, əvvəlcədən qeyri-hüquqi hesab olunur.[6] BMT Nizamnaməsinin 103-cü maddəsində Təşkilatın ümumi və əsas prinsiplərindən törəyən öhdəliklərin bütün başqa öhdəliklərə nisbətən daha üstün hüquqi qüvvəyə malik olması nəzərdə tutulmuşdur. Bu o deməkdir ki, beynəlxalq hüququn adi normaları onun əsas prinsiplərinə uyğun olmalıdır.

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir hissəsi olduğuna görə beynəlxalq hüququn jus cogens prinsipləri birbaşa beynəlxalq humanitar hüquqa da şamil olunmalıdır. Məsələn, suveren bərabərlik prinsipi dövlətlərin hüquqi cəhətdən bərabərliyini, dövlətin ərazisində yalnız onun tərəfindən müəyyən edilmiş qanun və inzibati qaydaların qüvvədə olmasını əhatə edir. Eyni zamanda dövlətlər qanun və inzibati qaydaları müəyyən etmək sahəsində səlahiyyətlərini həyata keçirərkən beynəlxalq hüquq üzrə öhdəliklərinə müvafiq surətdə hərəkət etməlidirlər. Beynəlxalq humanitar hüquq sahəsində qəbul edilmiş bir çox beynəlxalq konvensiyalar tələb edir ki, onlarda nəzərdə tutulmuş qaydalar dövlətin daxili qanunvericiliyində öz əksini tapsın.

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi (pacta sunt servanda) beynəlxalq humanitar hüquqla da sıx əlaqədardır. Yə'ni beynəlxalq humanitar hüququn mənbəyini təşkil edən müqavilələr üzrə öhdəliklər də vicdanla yerinə yetirilməlidir. Bə'zi müəlliflər müharibəni force majeure, yə'ni qarşısı alınmayan qüvvə hesab edərək belə qənaətə gəlirlər ki, müharibə münaqişədə iştirak edən dövlətə onlar arasında bütün müqavilələri ləğv etmək hüququ verir.[7] Bununla da onlar müharibə ilə beynəlxalq müqavilənin yerinə yetirilməməsi arasında səbəbli əlaqə olmasını əsaslandırmağa çalışırlar. Lakin bir-biri ilə münaqişədə olan dövlətlər ilk növbədə beynəlxalq hüququn imperativ prinsiplərinə riayət etməlidirlər. Bir sıra konvensiyalar, xüsusən də beynəlxalq humanitar hüquq sahəsində bağlanmış konvensiyalar məhz silahlı münaqişə şəraitində tətbiq olunmaq üçün nəzərdə tutulmuşdur. Ona görə də, bu kimi fikirlər əsassız hesab olunmalıdır. Beynəlxalq münasibətlərdə zor tətbiq edilməməsi və ya zor tətbiq edilməklə hədələmənin qadağan olunması, beynəlxalq mübahisələrin sülh yolu ilə həlli prinsipləri silahlı münaqişə və bu münaqişələr zamanı tətbiq olunan beynəlxalq humanitar hüquq normaları ilə bilavasitə təmasdadır.

---

6 Действующее международное право. М., 1996.т.1.с.72.

7 Bnattacharya K.K. Public International Law. Allahabad, 1954.p. 122-123.

İnsan hüquqları və azadlıqlarına hörmət prinsipinin beynəlxalq humanitar hüquqla əlaqəsi ilk növbədə beynəlxalq humanitar hüququn silahlı münaqişələr zamanı insan hüquqlarını tə'min etməsinə yönəlməsində özünü təzahür etdirir. Əməkdaşlıq prinsipi beynəlxalq humanitar hüquq normalarının tanınması, yayılması, silahlı münaqişələr zamanı müharibə qurbanlarının əzablarının yüngülləşdirilməsində, müharibə aparılmasının metod və vasitələrinin məhdudlaşdırılmasında beynəlxalq humanitar hüquq normalarının pozulmasının qarşısının alınmasında dövlətlərin əməkdaşlığını tələb edir.

Eyni zamnada onu da qeyd etmək lazımdır ki, silahlı münaqişələr zamanı meydana çıxan və beynəlxalq humanitar hüquq normaları ilə nizama salınmayan ictimai münasibətlərə də beynəlxalq hüquq normalarının tətbiq olunması həm beynəlxalq müqavilə normaları, həm də adət normalarında öz əksini tapmışdır. Hələ 1899-cu ildə F.F.Martens belə bir müddəa irəli sürmüşdü ki, konvensiyalarda nəzərdə tutulmamış hallarda mülki əhali və kombatantlar beynəlxalq hüququn prinsiplərinin müdafiəsi və tə'siri altına düşürlər.[8] Sonradan bu müddəa beynəlxalq humanitar hüquq sahəsində qəbul edilmiş bir çox konvensiyalarda da təsbit olunmuşdur.[9]

Beynəlxalq humanitar hüququn prinsipləri ilk dəfə 1966-cı ildə Jan Pikte tərəfindən sistemləşdirilmişdir.[10] Prinsiplərin həmin sistemi demək olar ki, 1949-cu il Cenevrə Konvensiyaları əsasında müəyyənləşdirilmişdi. Sonradan Cenevrə Konvensiyalarına 1977-ci il Əlavə Protokolları və 10 oktyabr 1980-ci ildə BMT tərəfindən qəbul edilmiş "Həddsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında" Konvensiya müddəaları nəzərə alınmaqla beynəlxalq humanitar hüququn prinsipləri J. Pikte tərəfindən yenidən sistemləşdirildi.[11]

8 Пустогаров В.В. Федор Федорич Мартенс(1845-1909)- гуманист нового времени // Международный журнал Красного Креста. Май-июнь 1996. №10. с.331-332; Руперт Тайсхерст. Оговорка Мартенса и право вооруженных конфликтов // Международный журнал Красного Креста. Март-апрель 1997 № 15 с. 148-158

9 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК.1999.с.19; Женевкские конвенции от 12 августа 1949 года и дополнительные протоколы к ним. М., МККК.с.213.

10 Bax. Jean Pictet, The Principles of International Law, Geneva, 1966.

11 Bax. Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. Bakı. BQXK.1999.

J.Pikte tərəfindən beynəlxalq humanitar hüququn prinsiplərinin sistemi — preambula, əsas prinsiplər, ümumi prinsiplər, münaqişə qurbanlarına aid pirinsiplər, müharibə hüququna aid prinsiplər hissələrinə ayrılmışdır.

Preambulada öz əksini tapmış əsas müddəa "Martens əlavəsi"nikonvensiyalarla nəzərdə tutulmayan hallarda mülki əhali və kombatantlar müəyyən olunmuş adətlərdən, humanizm prinsiplərindən və ictimai şüurun tələblərindən irəli gələn beynəlxalq hüququn prinsiplərinin himayəsi və tə'siri altındadırlar-özündə ehtiva edir.

Preambulada öz ifadəsini tapmış digər prinsip humanitar hüququn tətbiqinin münaqişədə olan tərəflərin hüquqi statusuna toxunmaması müddəasıdır.

J.Pikte tərəfindən xüsusi qrupa ayrılmış əsas prinsiplərin mahiyyəti onların beynəlxalq humanitar hüququn bütün qalan prinsipləri üçün baza rolunu oynamasındadır. Müəllif bütün qalan prinsiplərin əsas prinsiplərə söykəndiyini qeyd edərək onlara aşağıdakıları şamil edir:

· Hərbi zərurət və ictimai qaydanın qorunması həmişə insana hörmətlə uzlaşdırılmalıdır;

· Döyüşən tərəflər düşmənə onun hərbi qüdrətinin məhv edilməsi və ya zəiflədilməsi məqsədi hüdudlarını müqayisə olunmaz dərəcədə aşan ziyan vurmaqdan çəkinməlidirlər;

· Sıradan çıxarılmış şəxslər, həmçinin bilavasitə döyüşlərdə iştirak etməyənlər hörmət, müdafiə və humanitar rəftar hüququna malikdirlər.

· Münaqişədə olan tərəflərin hərbi əməliyyatlar aparmaq metod və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir. J. Pikte tərəfindən ümumi prinsiplər kimi ayrılmış prinsiplərin xarakterik xüsusiyyəti onların müxtəlif hüquq sahələri, ilk növbədə Cenevrə hüququ və insan hüquqları üçün ümumiliyindədir. Müəllif ümumi prinsipləri ayırmaqla yanaşı onların tətbiqi prinsiplərini də sistemləşdirmişdir. Ümumi prinsiplərə aşağıdakılar aid edilir:

Toxunulmazlıq prinsipi. Hər bir şəxsin onun həyatına, həm fiziki, həm də psixi toxunulmazlığına və onun şəxsiyyətinin ayrılmaz hissəsi olan hər şeyə hörmət hüququ vardır.

Bu prinsipin tətbiq prinsipləri kimi aşağıdakılar qeyd olunur:

1. Döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşənlərin həyatının mühafizə olunmaq hüququ vardır. Açıq surətdə tabe olan (əsir düşən) şəxsləri öldürmək olmaz;

2. İşgəncə, alçaldıcı və qeyri-insani cəza qadağan olunur;

3. Hər kəsin qanun qarşısında insan hüquqlarının tanınması hüququ vardır;

4. Hər kəsin onun şərəfi, ailə hüquqları, inam və adətlərinə hörmət hüququ vardır;

5. Əzab çəkən hər kəsə sığınacaq verilməli və ona vəziyyətinə uyğun qayğı göstərilməlidir;

6. Hər kəsin ailəsi ilə xəbərləşmək və kömək almaq hüququ vardır;

7. Heç kim qanunsuz yol ilə mülkiyyətindən məhrum edilə bilməz.

İkinci ümumi prinsip kimi ayrı-seçkiliyin yolverilməzliyi prinsipi qeyd olunur. Bu prinsipə əsasən bütün insanlarla rəftar onların irqi, cinsi, milli, dil, sosial mənşəyi, maddi rifahı siyasi, fəlsəfi və ya dini inamlarına və ya hər hansı digər oxşar me'yarlara əsaslanan əlamətlərə görə fərqlənməməlidir.

J.Pikte üçüncü ümumi prinsipə təhlükəsizlik prinsipini aid edir. Hər kəsin şəxsi təhlükəsizlik hüququ vardır.

Bu prinsip aşağıdakı tətbiq prinsipləri ilə müəyyənləşdirilir:

1. Heç kəs törətmədiyi əmələ görə məs'uliyyət daşıya bilməz;

2. Repressali, kollektiv cəza, girov götürmək və deportasiya qadağandır;

3. Hər kəsin hüquqi tə'minat hüququ vardır;

4. Heç kəs humanitar hüququnla ona verilmiş hüquqdan imtina edə bilməz.

Münaqişə qurbanlarına aid olan prinsiplərə J. Pikte aşağıdakıları şamil edir:

Neytrallıq prinsipi. Humanitar yardım heç vaxt münaqişəyə müdaxilə deyildir. Bu prinsipin tətbiqi özünü aşağıdakılarda göstərir:

1. Toxunulmazlığının tə'mininə cavab olaraq tibbi hey'ət hər cür düşmənçilik fəaliyyətindən çəkinməlidir;

2. Tibb işçiləri şəfa verən şəxslər kimi müdafiə altındadır;

3. Tibbi funksiyanı yerinə yetirən heç kəs onların himayəsi altında olmuş və olan yaralılar və xəstələr haqqında, əgər belə mə'lumat onun fikrincə, həmin xəstə və yaralılara və ya onların ailələrinə ziyan yetirəcəksə, hər hansı mə'lumat verməyə məcbur edilə bilməz;

4. Heç kəs xəstə və yaralıya kömək göstərdiyinə görə tə'qib edilə və mühakimə oluna bilməz.

Normallıq prinsipi. Himayədə olan şəxslər mümkün qədər normal yaşamaq imkanlarına malik olmalıdırlar. Göstərilən prinsipin tətbiq olunma prinsipini isə müharibə zamanı əsir götürmənin cəza deyil, yal-

nız düşməni zərər vurmaq imkanından məhrum etmə olması təşkil edir.

Müdafiə prinsipi. Dövlət onun əlinə keçmiş şəxsin istər milli, istərsə də beynəlxalq səviyyədə hüququnu tə'min etməlidir.

Göstərilən prinsipin tətbiqi prinsipləri kimi aşağıdakılar göstərilmişdir:

1. Əsir onu tutmuş qoşunların deyil, onların tabe olduqları dövlətin ixtiyarındadır;

2. Düşmən dövlət əsir götürdüyü şəxslərin şəraiti və saxlanmasına görə, işğal etdiyi ərazidə isə ictimai asayişin və xidmət sahələrinin qorunmasına görə məs'uliyyət daşıyır.

3. Münaqişələrin qurbanları təbii müdafiədən məhrum olduqları üçün beynəlxalq müdafiə ilə tə'min edilməlidirlər.

Müharibə hüququna aid prinsiplər J.Pikte tərəfindən fərqləndirilən 4-cü qrup prinsiplərdir. Bu prinsiplərdən birincisi — şəxsə görə (ratione personae) məhdudiyyət prinsipidir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, mülki əhali və ayrı-ayrı mülki şəxslər hərbi əməliyyatlarla bağlı olaraq meydana çıxan təhlükələrdən ümumi müdafiə hüququna malikdirlər. Tətbiq prinsipləri:

1. Münaqişə edən tərəflər mülki əhali və mülki obyektləri qorumaq üçün həmişə mülki əhali və kombatantları fərqləndirməlidirlər;

2. Mülki əhali, eləcə də ayrı-ayrı mülki şəxslər... (hətta) repressali qaydasında hücum obyekti ola bilməzlər;

3. Əsas məqsədi mülki əhalini qorxuya salmaq olan zorakılıq aktları və ya zorakılıq aktları ilə hədələmə qadağan olunur;

4. Münaqişə edən tərəflər mülki əhalini qorumaq və ya heç olmazsa, mülki əhali arasında təsadüfi itkilər və təsadüfi zərərdən imkan daxilində qaçmaq üçün mümkün olan bütün ehtiyat tədbirlərini görməlidir;

5. Yalnız silahlı qüvvələrin hey'ətinə daxil olan şəxslər düşmən üzərinə hücum edə və ona müqavimət göstərə bilərlər.

Obyektlərə görə (ratione loci) məhdudiyyət prinsipinin mahiyyəti hücumların yalnız hərbi obyektlərə yönəldilməsilə məhdudlaşdırılmasındadır. Həmin prinsipin 6 tətbiq prinsipi fərqləndirilir:

1. Müdafiə olunmayan yerlərə hücum etmək qadağandır;

2. Elmi-tədqiqatlar aparılan və ya xeyriyyə tə'sisatları yerləşən binalara və xalqların mədəni və mə'nəvi irsini təşkil edən tarixi abidələr, incəsənət əsərləri və ya dini ibadət yerlərinə qarşı yönəlmiş hər hansı düşmən hərəkətə yol verilməsi qadağandır;

3. Qurğu və tikililərə onlardan mülki əhali üçün təhlükəli qüvvələr yarana biləcəyi halda hücum etmək qadağandır;

4. Mülki əhali hərbi obyektlərin hücumlardan müdafiəsi üçün istifadə edilə bilməz;

5. Mülki obyektlər hücum və ya repressali tədbirlərinin obyekti ola bilməz. Mülki əhalinin yaşaması üçün zəruri olan obyektləri məhv etmək və ya başqa yerə köçürmək qadağandır;

6. Qarət qadağandır.

Hərbi əməliyyatlar aparılmasının metod və vasitələrinə (ratione conditionis) görə məhdudiyyət prinsipinin mahiyyəti ondadır ki, hərbi əməliyyatların kiməsə lüzumsuz zərər vura və ya həddən artıq əzab verə bilən silah və ya metodlardan istifadə etməklə aparılması qadağandır. Həmin prinsipin tətbiqi prinsipləri kimi aşağıdakılar fərqləndirilir:

1. Hədəflərə fərq qoymadan edilən hücumlar qadağandır;

2. Mülki əhali arasında itkilərə səbəb ola və mülki obyektlərə zərər vura biləcək, əldə edilməsi nəzərdə tutulan konkret və bilavasitə hərbi üstünlük baxımından həddən artıq ola biləcək hücumlar qadağandır;

3. Hərbi əməliyyatlar zamanı təbii mühitin qorunması üçün qayğı göstərilməlidir;

4. Mülki əhali arasında müharibə aparma metodu kimi aclıqdan istifadə etmək qadağandır;

5. Xəyanətə əsaslanan hərbi əməliyyatlar qadağandır.

Minsk dərsliyinin müəllifləri beynəlxalq humanitar hüququn prinsiplərini aşağıdakı qruplara ayırmışlar:

I. Beynəlxalq humanitar hüququn ümumi prinsipləri.

II. Döyüşən tərəflərin müharibə aparılmasının metod və vasitələrinin seçilməsini məhdudlaşdıran prinsiplər.

III. Silahlı münaqişə iştirakçılarının hüquqlarını müdafiə edən prinsiplər.[12]

IV. Cilahlı münaqişədə iştirak etməyən mülki əhalinin hüquqlarını müdafiə edən prinsiplər.

Həmin qruplaşma bir çox cəhətdən J.Pikte tərəfindən müəyyən edilmiş sistemə uyğun olmaqla yanaşı özünəməxsus cəhətlərə də malikdir. Mə'lumdur ki, hər bir təsnifat sərbəst xarakter daşıyır və ilk növbədə

---

12 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей.1999.с.44.

onun əsasında duran kriteriyadan asılıdır. Beynəlxalq humanitar hüququn prinsiplərinə münasibətdə aparıla biləcək təsnifatlar da həmin kriteriyadan asılı olaraq fərqli ola bilər. Lakin mahiyyət həmin müəyyənləşdirilmiş prinsiplərdə beynəlxalq humanitar hüququn rəhbər və əsas başlanğıclarının öz ifadəsini tapmasındadır. Bu cəhətdən J.Pikte tərəfindən aparılmış təsnifatı kifayət qədər mükəmməl hesab edirik. Qeyd etmək istəyirik ki, beynəlxalq humanitar hüququn inkişafı getdikcə onun daha çox normalarının prinsip kimi formalaşmasına zəmin yaradacaqdır.

Bir şeyi də qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüququn prinsipləri ilə Beynəlxalq Qırmızı Xaçın prinsiplərini (humanizm, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllülük, vahidlik, universallıq) biri-birinə qarışdırmaq olmaz. Əvvəla, onların mənbəyi müxtəlifdir. Qırmızı Xaçın prinsipləri 1965-ci ildə Vyanada keçirilən Qırmızı Xaçın XX Beynəlxalq Konfransında qəbul edilmiş bəyannamədə öz əksini tapmışdır. Beynəlxalq humanitar hüququn prinsiplərinin mənbəyini isə beynəlxalq konvensiya və müqavilələr təşkil edir. Qırmızı Xaçın prinsipləri qeyri-hökumət təşkilatı kimi Qırmızı Xaçın fəaliyyəti üçün əsas istiqamət kimi çıxış edir. Beynəlxalq humanitar hüququn prinsipləri isə silahlı münaqişə zamanı döyüşən tərəflər arasında münasibətləri tənzimləyir. Bununla belə bu iki sahə arasında sıx əlaqə vardır. Həmin əlaqə hər şeydən əvvəl ondan irəli gəlir ki, beynəlxalq humanitar hüququn çıxış nöqtəsini Qırmızı Xaçın ideyaları təşkil edir. Bu da hər iki sahədə müəyyən prinsiplərin (ayrı-seçkiliyə yol verilməməsi, humanizm) eyniliyinə gətirib çıxarmışdır.[13]

2. Beynəlxalq humanitar hüququn mənbələri

"Hüququn mənbəyi" termini iki — maddi və yuridik mə'nada işlədilir. Maddi mənbə dedikdə, cəmiyyətin maddi həyat şəraiti başa düşülür. Hüquqi aktların ifadə üsulları, formaları hüququn yuridik mə'nada mənbələri adlandırılır.[14] Hüquq elmləri tərəfindən hüquqi kateqoriya kimi ancaq yuridik mənbə öyrənilir.[15] Beynəlxalq humanitar hüquq

13 Жан Пикте. Основополагающие принципы Красного Креста. Комментарий. М., МККК. 1977. с.

14 Məlikova M. F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı. Maarif.1979. s.41.

15 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. М., МККК, 1997, с.10.

beynəlxalq hüququn özü kimi inkişaf etdiyinə görə onların mənbələri arasında heç bir fərq yoxdur. Beynəlxalq humanitar hüququn mənbəyi beynəlxalq hüququn subyektləri tərəfindən razılaşdırılmış və onlar tərəfindən tanınan davranış qaydalarının ifadə olunduğu beynəlxalq hüquq normalarının mövcudluq formasıdır.

Dövlətlərin çoxəsrlik beynəlxalq hüquq təcrübəsində beynəlxalq hüququn iki əsas mənbəyi-beynəlxalq müqavilə və beynəlxalq adətlər yaranmışdır. 1969-cu il Beynəlxalq müqavilələr haqqında Vyana konvensiyasının 2-ci maddəsinin "a" bəndinə əsasən "müqavilə" bir sənəddə, biri-biri ilə əlaqədə olan iki və ya bir neçə sənəddə əhatə olunmasından, həmçinin onun konkret adından asılı olmayaraq dövlətlər arasında yazılı formada bağlanmış və beynəlxalq hüquqla tənzimlənən beynəlxalq sazişdir.[16]

Müqavilənin beynəlxalq saziş kimi müəyyən edilməsi onda ən azı iki dövlətin iradəsinin ifadə olunduğunu təsdiq edir. Həm də bu iradələr sazişdə biri-birindən təcrid olunmuş şəkildə deyil, razılaşdırılaraq birləşmiş formada mövcud olur.

Anlayışdan mə'lum olur ki, müqavilə adından — müqavilə, konvensiya, saziş, pakt, akt, protokol, notaların mübadiləsi və s. asılı olmayaraq dövlətlər arasında bağlanmış bütün yazılı sazişləri əhatə edir.

Məhz, yazılı formada olan beynəlxalq müqavilədə onun bağlanma məqsədi, obyekti, tərəflərin hüquq və vəzifələri, müqavilənin qüvvəyə minməsi qaydası, qüvvədə olma müddəti, bə'zən isə müqavilənin yerinə yetirilməməsinə görə məs'uliyyət və digər icrası məcburi olan müddəalar müəyyənləşdirilir.

Beynəlxalq adət — beynəlxalq hüququn subyektləri tərəfindən onların beynəlxalq təcrübəsində adət beynəlxalq hüquq norması kimi susmaqla tanınan və yerinə yetirilən, analoji vəziyyətlərdə uzun müddət təkrarlanan davranış qaydalarıdır. BMT Beynəlxalq Məhkəməsi Statutunun 38-ci maddəsi beynəlxalq adəti "hüquq norması kimi tanınan ümumi təcrübənin sübutu kimi" müəyyənləşdirir. Müəyyən davranış qaydasının adət, beynəlxalq hüquq normasına çevrilməsi üçün o eyni vaxtda üç şərtə cavab verməlidir: uzun müddət təkrarlanmalı, analoji vəziyyətlərdə tətbiq olunmalı, beynəlxalq hüququn subyektlərinin bu

16 Венская конвенция о праве международных договоров. Комментарий. М., Юридическая литература. 1997.с.9.

cür davranış qaydasının beynəlxalq adət kimi tanınmasına razılığı olmalıdır.

İ.İ.Lukaşuk beynəlxalq adət normalarının yaranmasının iki növünü fərqləndirir. Bu normaların ən'ənəvi növünə o, subyektlərin hüquqi qüvvəsini tanıdığı, təcrübədə yaranan yazılmamış qaydaları aid edir. İkinci növə isə o, yenə də subyektlərin hüquqi qüvvəsini tanıdığı yazılmamış qaydaları şamil edir. Lakin bu qaydalar uzun təcrübə prosesində deyil, bir və ya bir neçə presedentin tanınması nəticəsində yaranmış olur. İkinci növ normaların yaranması üçün həmin normalar ilk növbədə qeyri-hüquqi aktlarda, çox vaxt beynəlxalq təşkilatların qətnamələrində ifadəsini tapır və sonradan beynəlxalq hüququn adət normaları kimi tanınır.[17] Bu fikir sonradan İ.İ. Lukaşuk və A.V.Naumov tərəfindən bir qədər də inkişaf etdirilmişdir: "Hazırda adət, müqavilə və beynəlxalq təşkilatların qətnamələrinin qarşılıqlı tə'siri nəticəsində beynəlxalq normayaradıcılığının dinamik mexanizmi fəaliyyət göstərir. Əksər dövlətlərin bağladığı müqavilələrin müddəaları digər dövlətlərin onları e'tiraz etmədən tanıması nəticəsində ümumi beynəlxalq hüququn adət normalarına çevrilirlər. 1949-cu il müharibə qurbanlarının mühafizəsi haqqında Cenevrə Konvensiyalarını buna misal göstərmək olar. Həmin konvensiyalarda bütün ölkələr iştirak etməsə də onların normaları bütün dövlətlər üçün məcburi olan ümumi beynəlxalq hüququn bir hissəsini təşkil edir".[18]

Müqavilə və adətlər eyni hüquq sisteminin mənbələri kimi bir sıra ümumi xüsusiyyətlərə malikdir:

1) Həm müqavilə, həm də adət dövlətlərin qarşılıqlı fəaliyyəti nəticəsində yaranır və ümumi hüquqi əsasa — onu yaradan subyektlərin razılığına malik olur.

2) Hər iki mənbə məcburi xarakter daşıyan davranış qaydalarını nəzərdə tutur. Bu o deməkdir ki, heç bir subyekt götürdüyü öhdəliyi yerinə yetirməkdən imtina edə bilməz.

3) Həm müqavilə, həm də adət normalarının pozulması eyni hüquqi nəticələrə səbəb olur.

4) Həm müqavilə, həm də adətlərin tə'minat mexanizmi eynidir.

---

17 Лукашук. И.И. Международное право. Общая часть. М., БЕК.1999. с.125-126.

18 Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк,1999.с.14-15.

Müqavilə və adətin fərqli cəhətləri də vardır:

1) Müqavilə və adətin yaranma üsulu fərqlidir. Müqavilə həmişə dövlətin fəal fəaliyyəti ilə yaranır. Adət isə çox vaxt "susmaq", fəaliyyətsizlikdən yaranır.

2) Müqavilə zaman e'tibarı ilə dəqiq vaxtda yaranır. Adətin isə yaranma vaxtını izləmək mümkün olmur.

3) Konkret müqavilənin mövcudluğu faktı sənədin mətninə istinad edilməklə təsdiq olunur. Adətin mövcudluğunu isə ancaq dövlətlərin təcrübəsi təsdiq edə bilər.

4) Müqavilə yazılı formada ifadə olunur. Bu onun təfsir edilməsinə, müqaviləyə qeyd-şərt edilməsinə imkan verir. Adət isə yazılı formada olmadığına görə onun təfsirindən söhbət gedə bilməz. Adətdə qeyd-şərt də mümkün deyildir.

5) Adət ancaq təcrübə nəticəsində yaranır, müqavilə isə təcrübəni rəsmiləşdirməklə yanaşı ondan irəlidə gedib əməkdaşlıq üçün yeni qaydalar müəyyən edə bilər. Müqavilə və adət normalarından başqa Beynəlxalq Məhkəmənin Statutunun 38-ci maddəsində müəyyən edildiyi kimi beynəlxalq hüququn ümumi prinsipləri də beynəlxalq humanitar hüququn mənbəyi kimi qəbul edilməlidir. Həmin prinsiplər beynəlxalq humanitar hüquqa öz tə'sirini göstərdiyi kimi həm də, silahlı münaqişələr və onlar nəticəsində yaranan ictimai münasibətlərə tətbiq də olunur. Bu özünün rəsmi ifadəsini 1899-cu ildə qəbul edilmiş II Haaqa Konvensiyası və 1907-ci ildə qəbul edilmiş IV Haaqa Konvensiyasının və sonradan CK-larına II Əlavə Protokolun preambulasında tapmış "Martens qeyd-şərti" ilə də təsdiq olunur. Həmin əlavənin mahiyyəti ondadır ki, beynəlxalq sazişlərlə nəzərdə tutulmadığı hallarda mülki şəxslər və kombatantlar humanizm prinsipləri və ictimai şüur tələbləri və müəyyən edilmiş adətlərdən yaranmış beynəlxalq hüququn himayəsi altında olur.

Oxşar müddəalar CK-ları və I Əlavə Protokolun e'tibarsız e'lan edilməsini nəzərdə tutan normalarında da öz əksini tapıb (I CK mad. 63, II CK mad. 62, III CK mad. 142, IV CK mad. 158, I Ə. P. mad. 99). Həmin normalara əsasən Konvensiyanın iştirakçısı olan dövlətlərdən hər birinin Konvensiyanı e'tibarsız e'lan etmək ixtiyarı vardır. E'tibarsız e'lanetmə yalnız e'tibarsız e'lan edən dövlət barəsində qüvvəyə malik olur. E'tibarsız e'lanetmə münaqişədə iştirak edən tərəflərin beynəlxalq hüquq prinsiplərinə görə yerinə yetirilməsini davam etdirməyə borclu olduqları öhdəliklərə tə'sir göstərmir, çünki bunlar mədəni xalqlar arasında bərqərar olmuş adətlərdən, insanlıq qanunlarından və

ictimai vicdanın hökmündən irəli gəlir. Beynəlxalq humanitar hüququn bə'zi normalarında nəzərdə tutulmuş bu cür müddəalara əsaslanan bə'zi müəlliflər beynəlxalq humanitar hüququn ikili hüquqi əsasa malik olması, yə'ni həm müqavilə, həm də adət normaları kimi fəaliyyət göstərməsi nəticəsinə gəlirlər.[19] Dövlətlərin beynəlxalq təcrübəsində eyni qaydaların bə'zi dövlətlər üçün müqavilə, digərləri üçün isə beynəlxalq adət formasında mövcud olması faktı ilə Q.M.Melkov da razılaşır. Lakin o belə hesab edir ki, burada normanın (davranış qaydasının) ikili fəaliyyət göstərməsindən deyil, onun iki müxtəlif formada: müqavilə norması formasında və adət norması formasında mövcud olmasından danışmaq lazımdır. Fikrimizcə, Q.M.Melkovun mövqeyi daha düzgündür. Çünki davranış qaydası onu müqavilə əsasında tanıyan dövlətlər üçün müqavilə norması formasında, adət norması formasında tanıyan dövlətlər üçün isə adət norması formasında mövcud olur.

Beynəlxalq humanitar hüquq normalarının yaranmasında BMT Baş Məclisinin qətnamələri də mühüm rol oynayır. BMT Nizamnaməsinin 10-cu maddəsinə müvafiq olaraq Baş Məclisin fəaliyyətinin əsas məsələləri üzrə qəbul etdiyi qətnamələr hüquqi məcburi aktlar kimi qiymətləndirilə və beynəlxalq hüquq norması kimi tanına bilməz. Bununla belə Baş Məclisin bir çox qətnamələri beynəlxalq hüquqda norma yaratma fəaliyyəti üçün baza rolunu oynayır. Q.İ.Tunkin haqlı olaraq qeyd edir ki, "Baş Məclisin qətnamələrinin bir qayda olaraq tövsiyələr olmasına baxmayaraq beynəlxalq hüquq normalarının yaradılması prosesində böyük əhəmiyyət kəsb edir".[20] Baş Məclisin qətnamələri bir tərəfdən dövlətləri yeni konvensiyaların hazırlanmasına istiqamətləndirir, digər tərəfdən gələcək normaların məzmununu qabaqcadan formalaşdırır. Bu cəhətdən BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "Silahlı münaqişə zamanı mülki əhalinin mühafizəsinin əsas prinsipləri" (9 dekabr 1970-ci il), "Hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılması haqqında beynəlxalq əməkdaşlığın prinsipləri" (3 dekabr 1973-cü il); "Qadın və uşaqların fövqəl'adə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında" Bəyannamə (14 dekabr 1974-cü il); "Silahlı münaqişə zamanı ətraf mühitin mühafi-

19 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999.с.39.

20 Тункин.Г.И. Организация Объединенных Наций: 1945-1965 гг. // Советское государство и право. 1965. № 10.с.61.

zəsi haqqında" qətnaməsi(25 noyabr 1992-ci il) və s. beynəlxalq humanitar hüququn inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq humanitar hüququn yardımçı mənbəyi kimi onun təfsiri və mütərəqqi inkişafı üçün beynəlxalq məhkəmə təcrübəsi böyük rol oynayır. Burada söhbət ilk növbədə ad hoc qaydasında yaradılmış Nürnberq, Tokio, Yuqoslaviya və Ruanda Beynəlxalq Cinayət Tribunallarının çıxardığı hökmlərdə öz əksini tapmış müddəalardan gedir. Həmin hökmlərdə beynəlxalq humanitar hüquq normaları tətbiq olunmaqla yanaşı təfsir olunur, mahiyyəti açılır və hüquqi məzmunu aydınlaşır. Nürnberq Hərbi Tribunalı hökmlərində öz əksini tapmış müddəaların BMT Baş Məclisi tərəfindən beynəlxalq hüququn prinsipləri kimi tanınması da bunu təsdiq edir.[21] Cenevrə Konvensiyaları normalarının ciddi pozuntularına görə dövlətlər universal yurisdiksiyanı həyata keçirməklə beynəlxalq hüquq normalarını tətbiq etmək səlahiyyətinə malik olurlar. Bu cəhətdən milli məhkəmə qərarları da yardımçı mənbə kimi əhəmiyyətli ola bilər.

BMT Beynəlxalq Məhkəməsi Statutunun 38-ci maddəsinə müvafiq olaraq hüquqi doktrina da beynəlxalq humanitar hüququn yardımçı mənbəyi kimi qəbul edilməlidir. Hazırda qüvvədə olan humanitar hüququn təfsiri və realizasiyasına həsr olunmuş xüsusi doktrina — "Beynəlxalq Qırmızı Xaç Komitəsi doktrinası" mövcuddur.[22]

Jan Pikte Beynəlxalq Qırmızı Xaç Komitəsinin norma yaratma fəaliyyətinə toxunaraq göstərmişdir ki, "BQXK saysız-hesabsız hökumətlərarası konfranslarda iştirak etmişdir. BQXK-nin İsveçrə hökuməti tərəfindən Cenevrə Konvensiyalarına yenidən baxılması üçün çağırılan Diplomatik konfranslarda ekspert kimi məşvərətçi səslə iştirak etmək hüququ vardır... Beynəlxalq hüquq normalarının hazırlanmasına gəldikdə isə hamıya belə bir fakt mə'lumdur ki, BQXK özünün mövcudluğunun lap ilk vaxtlarından Cenevrə Konvensiyalarının yaradılması və inkişafında birinci dərəcəli rol oynamışdır. Beynəlxalq münaqişələr zamanı BQXK döyüşən tərəflər arasında həmin konvensiyalara əlavə olaraq xüsusi sazişlər bağlanılmasına nail olmuşdur. Beləliklə, BQXK-

21 Международное публичное право. Сборник документов. т.2. М., БЕК.1996. с. 101.

22 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. М., МККК, 1997, с.11.

ni haqlı olaraq humantiar hüquq istehsalı üzrə zavod adlandırmaq olar".[23]

Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının Nizamnaməsinin 5-ci maddəsinə əsasən BQXK-nin vəzifələrindən biri silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq humantar hüququn müddəalarını izah etmək, onlar haqqında biliklərin yaymaq və onun inkişafını hazırlamaqdır. 135 ildən artıq müddətdir ki, BQXK Cenevrə Konvensiyalarının qəbul edilməsinin təşəbbüsçüsü və yaradıcısı kimi tanınır. Cenevrə Konvensiyalarının yenidən nəzərdən keçirilməsi və ya hüququn hər hansı aspekti ilə bağlı məsələ qarşıya çıxdığı halda BQXK silahlı münaqişələr zamanı toplanmış təcrübəyə istinad edərək tamamlanmağa və ya inkişaf etdirilməyə ehtiyacı olan normanın üzərində diqqətin cəlb edilməsi üçün müvafiq sənədlər toplayır. Sonra hökumət ekspertləri, BQXK və digər humanitar təşkilatların mütəxəssislərinin iştirakı ilə konvensiya layihələri hazırlanır. Layihələr Beynəlxalq Qırmızı Xaç Komitəsinin konfransının baxışına verilir. Konfrans zəruri hallarda düzəlişlər edərək onları təsdiq edir. Bundan sonra isə layihə Cenevrə Konvensiyalarının depozitarisi olan dövlətin icra hakimiyyəti orqanı-İsveçrə Federal Şurasına verilir. Federal Şura Diplomatik Konfransı çağırmaq və ya təşkil etmək səlahiyyətinə malikdir. Cenevrə Konvensiyaları məhz 1864, 1868, 1906, 1929, 1949, 1974-1977-ci illərdə keçirilmiş Diplomatik Konfranslarda qanun qüvvəsinə minmişdir. BQXK nümayəndələri həmin konfranslarda ekspert qismində gündəlik olaraq iştirak etmişlər.[24]

BQXK tərəfindən BHH-nin inkişafı, xüsusən silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsinə aid normaların hazırlanması sahəsindəki fəaliyyəti BMT Baş Məclisinin 9 dekabr 1993-cü il tarixdə qəbul etdiyi "Birləşmiş Millətlər Təşkilatının beynəlxalq hüququn onilliyi" qətnaməsində (48/30) xüsusi olaraq qeyd olunmuşdur.[25] Fikrimizcə, beynəlxalq humanitar hüquq sahəsində kodifikasiya işi aparılmaqla bu sahədə olan normalar müəyyən sistemə salınmışdır. Hazırda bu sahədə

---

23 Пикте Ж. Международный Комитет Красного Креста: уникальное учреждение. МККК.М.,1997.с.70.

24 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. МККК. М., 1997. с. 80-81

25 Защита окружающей среды в международном гуманитарном праве. Сборник статей. М., МККК. 1995.с.103

diqqət yeni normaların qəbul edilməsindən daha çox qəbul edilmiş normaların icrasının tə'min edilməsinə verilməlidir. Əlbəttə, bu fikir heç də tarixi şəraitə müvafiq olaraq qüvvədə olan normaların təkmilləşdirilməsi və qarşıya çıxan ictimai münasibətlərin tənzimlənməsi üçün yeni normaların qəbul edilməsini inkar etmir.

1864-cü ildə Cenevrədə "Quru müharibələri zamanı yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiyanın qəbul edilməsi ilə beynəlxalq humanitar hüquq sahəsində beynəlxalq hüquqi müqavilələrin bağlanılmasına başlandı.

Beynəlxalq humanitar hüquq sahəsində qəbul edilmiş beynəlxalq hüquqi sənədləri nizama salma obyektlərinə görə aşağıdakı növlərə ayırmaq olar:

I. Quru müharibələri qanun və adətləri haqqında:

1. Quru müharibəsinin qanun və adətləri haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il)

— Əlavə: Quru müharibəsinin qanun və adətləri haqqında Əsasnamə.

2. Hərbi əməliyyatlara başlamaq haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

3. Quru müharibəsi zamanı neytral dövlət və şəxslərin hüquq və vəzifələri haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

II. Dəniz müharibəsi qanun və adətləri haqqında:

1. Dəniz müharibəsində Cenevrə Konvensiyası müddəalarının tətbiqi haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

2. Dəniz müharibələrində tutma hüququndan istifadənin bə'zi məhdudlaşdırmaları haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

3. Hərbi əməliyyatlar zamanı düşmən ticarət donanması gəmilərinin statusu haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

4. Ticarət donanması gəmilərinin hərbi gəmilərə dəyişdirilməsi haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

5. Toxunmaqla avtomatik olaraq partlayan sualtı minaların yerləşdirilməsi haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

6. Müharibə zamanı dəniz qüvvələri ilə bombardman haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

7. Dəniz priz gəmisinin tə'sisi haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

8. Dəniz müharibələrində neytral dövlətlərin hüquq və vəzifələri haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

9. Dəniz müharibəsi hüququ haqqında Bəyannamə (London. 26 fevral 1909-cu il).

10. Döyüşən tərəflər arasında münasibətləri tənzimləyən dəniz müharibəsi qanunları. Beynəlxalq Hüquq İnstitutu tərəfindən qəbul edilmiş qaydalar (Dəniz müharibəsi haqqında Oksford qaydaları. Oksford. 9 avqust 1913-cü il).

11. Dəniz neytrallığı haqqında Konvensiya (Havana. 20 fevral 1928-ci il).

12. 22 aprel 1930-cu il London müqaviləsinin IV hissəsində nəzərdə tutulmuş sualtı müharibələrin qaydaları haqqında Protokol (London. 6 noyabr 1936-cı il).

13. Dənizdə silahlı münaqişələrə tətbiq olunan beynəlxalq hüquqa aid San-Remo Qaydaları (San-Remo. iyun 1994-cü il).

III Hava müharibələri qanun və adətləri haqqında

1. Hava şarlarından partlayıcı sursat və maddələrin atılmasının qadağan edilməsi haqqında Konvensiya (Haaqa. 18 oktyabr 1907-ci il).

2. Hava müharibəsi aparılması qaydaları. (Layihə 1922-ci ilin dekabr ayından 1923-cü ilin fevral ayına kimi Haaqada hüquqşünaslar komissiyası tərəfindən tərtib edilmiş, icra üçün məcburi qaydalar kimi qəbul edilməmişdir).

IV. Silahlı münaqişə qurbanlarının mühafizəsi haqqında:

1. Quru müharibələri zamanı yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Konvensiya (Cenevrə. 1864-cü il).

2. Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Konvensiya (Cenevrə. 12 avqust 1949-cu il).

3. Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Konvensiya (Cenevrə. 12 avqust 1949-cu il).

4. Hərbi əsirlərlə rəftara dair Konvensiya (Cenevrə. 12 avqust 1949-cu il).

5. Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair Konvensiya (Cenevrə. 12 avqust 1949-cu il).

6. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair I Əlavə Protokol (Cenevrə. 8 iyun 1977-ci il).

7. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair II

Əlavə Protokol (Cenevrə. 8 iyun 1977-ci il).

8. Silahlı münaqişə qurbanlarının mühafizəsi üzrə ilkin tədbirlər haqqında Saziş (Müstəqil Dövlətlər Birliyi. 24 sentyabr 1993-cü il).

V. Müharibə aparılması vasitələrinin məhdudlaşdırılması və qadağan edilməsi haqqında

1. Partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında Bəyannamə (Sankt-Peterburq. 11 dekabr 1968-ci il).

2. Yeganə tə'yinatı boğucu və zəhərləyici qazların yayılması olan sursatın istifadə edilməməsi haqqında Bəyannamə (Haaqa. 29 iyul 1899-cu il).

3. Asanlıqla istiqamətini dəyişən və ya yastılanan güllələrin istifadə olunmaması haqqında Bəyannamə (Haaqa. 29 iyul 1899-cu il).

4. Boğucu, zəhərli və digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Protokol (Cenevrə. 17 iyun 1925-ci il).

5. Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal olunması və ehtiyata toplanmasının qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (10 aprel 1972-ci il).

6. Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya və ona əlavə edilmiş 3 Protokol (10 oktyabr 1980-ci il):

— Aşkar edilməyən qəlpələr haqqında Protokol (I Protokol);

— Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (II Protokol);

— Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (III Protokol);

— Koretmə tə'sirinə malik lazer silahları haqqında Protokol (IV Protokol) (Vyana, 13 oktyabr 1995-ci il);

— Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Protokol (II Protokol) 3 may 1996-cı il düzəlişləri ilə (Qeyd etmək lazımdır ki, II Protokolun həm ilkin variantı, həm də düzəlişlər edilmiş yeni variantı qeyri-müəyyən müddətə kimi ayrı-ayrılıqda qüvvədə qalmış hesab edilir. II Protokolun ilkin variantının iştirakçısı olan dövlətlərlə II Protokolun düzəlişlərlə variantının iştirakçısı olan dövlətlər öz münasibətlərində biri-biri ilə II Protokolun ilkin redaksiyasında əlaqədədirlər).

7. Kimyəvi silahların işlənib hazırlanması istehsal edilməsi, ehtiyatının yığılması və tətbiq edilməsinin qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (13 yanvar 1993-cü il).

8. Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının yığılması, istehsalı və verilməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya (Ottava. 18 sentyabr 1997-ci il).

VI. Mədəni mülkiyyətin və təbii mühitin mühafizəsi haqqında

1. Elm və incəsənətin məqsədlərinə xidmət edən müəssisələrin, həmçinin tarixi abidələrin mühafizəsi haqqında Müqavilə (Rerix Paktı. Vaşinqton. 15 aprel 1935-ci il).

2. Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Konvensiya, ona əlavə icraçı reqlament və Protokol (Haaqa. 14 may 1954-cü il);

— Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Konvensiyanın icraçı reqlamenti;

— Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Konvensiyaya Əlavə Protokol.

— Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasına II Əlavə Protokol (26 mart 1999-cu il).

3. Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında Konvensiya (1 dekabr 1976-cı il).

VII. Beynəlxalq humanitar hüquq normalarına riayət edilməsinin tə'min edilməsi haqqında

1. Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (9 dekabr 1948-ci il).

2. Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya (26 noyabr 1968-ci il).

3. Muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və tə'limi ilə mübarizə haqqında Beynəlxalq Konvensiya (4 dekabr 1989-cu il).

4. Nürnberq Beynəlxalq Hərbi Tribunalı Nizamnaməsi (8 avqust 1945-ci il).

5. Uzaq Şərq üçün Tokio Beynəlxalq Tribunalı Nizamnaməsi (11 dekabr 1946-cı il).

6. Keçmiş Yuqoslaviya ərazisində 1991-ci ildən törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məs'uliyyət daşıyan

şəxsləri cəzalandırmaq üzrə Beynəlxalq Tribunalı Nizamnaməsi (25 may 1993-cü il).

7. 1 yanvar 1994-cü ildən 31 dekabr 1994-cü ilə kimi olan müddətdə Ruanda ərazisində törədilmiş genosid və beynəlxalq humanitar hüququn digər ciddi pozuntularında təqsirli olan şəxslərin və qonşu dövlətlərin ərazilərində genosid və digər belə pozuntular törətmiş Ruanda vətəndaşlarının mühakimə edilməsi üzrə Beynəlxalq Cinayət Tribunalı Nizamnaməsi (8 noyabr 1994-cü il).

8. Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (Roma. 17 iyul 1998-ci il).

Fəsil IV

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN DİGƏR HÜQUQ SAHƏLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏSİ

1. Beynəlxalq humanitar hüquq və dövlətdaxili hüquq

Beynəlxalq hüquq normaları beynəlxalq hüququn əsas subyektləri kimi dövlətlər tərəfindən müxtəlif sahələrdə əməkdaşlıq prosesində onların daxili və xarici tələbat maraqlarına müvafiq olaraq yaradılır. Beynəlxalq hüquq normaları dövlətlərin qarşılıqlı münasibətlərinin parametrlərini müəyyən etməklə onları müəyyən qaydaya, nizama salır. Hər bir dövlət belə hesab edir ki, o başqa dövlət və ya dövlətlərlə münasibətlərində beynəlxalq hüquq normalarına əməl etsə, həmin dövlətlər də ona münasibətdə bu normalara əməl edəcəklər. Beynəlxalq hüququn tələbi də bundadır. Məhz bu yolla beynəlxalq hüquq qaydasının yaranmasına və dünyada sülh və təhlükəsizliyin tə'mininə nail olmaq olar. Beynəlxalq hüquqla (beynəlxalq humanitar hüquq) daxili hüququn nisbəti problemi beynəlxalq hüquq nəzəriyyəsində mühüm yer tutur. Beynəlxalq hüquqla dövlətdaxili hüququn nisbəti həmişə düzünə və əks əlaqələrin nisbətidir. Müasir dövrdə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı bağlılığının artması analoji və yaxın nizamasalma predmetinə həsr olunmuş beynəlxalq müqavilə və milli-hüquqi aktların artmasını şərtləndirmişdir. Azərbaycan Respublikasının bir çox dövlətdaxili qanunlarında müvafiq məsələlərin Azərbaycan Respublikası qanunları ilə yanaşı beynəlxalq müqavilələrlə də tənzimlənməsi nəzərdə tutulmuşdur. Beynəlxalq humanitar hüquq sahəsində xidmətləri ilə tanınan F.F.Martens beynəlxalq hüququ və dövlətdaxili hüququ biri-birindən ayırmır, onlar arasında real həyatda mövcud olan sıx qarşılıqlı əlaqə və qarşılıqlı tə'sirə istinad edirdi. O göstərirdi ki, "çox vaxt beynəlxalq münasibətlər dövlətdə ilkin qanunvericilik işinə və ya qanunvericiliyin dəyişdirilməsinə təkan vermişdir".[1]

Beynəlxalq hüquq elmində tarixən beynəlxalq hüquq və dövlətdaxili hüququn nisbəti məsələsində iki əsas nəzəriyyə — dualizm və mo-

1 Пустогаров В. В. Федор Федорович Мартенс. Юрист дипломать. М.,1999.с.72-73

nizm nəzəriyyələri mövcud olmuşdur. Dualizm nəzəriyyəsinə əsasən beynəlxalq və milli hüquq fərqli hüquq sistemləridir və onlar biri-birinə tabe deyillər. Dualist istiqamətin başlıca tezisi tənzimləmə obyektlərinin, hüququn subyektlərinin və həmçinin hüququn mənbələrinin fərqli olmasındadır.

Monizm nəzəriyyəsi dualizm nəzəriyyəsindən fərqli olaraq beynəlxalq və dövlətdaxili hüququ birləşdirir. Hansı hüquq sahəsinin üstün mövqedə durmasından asılı olaraq bu nəzəriyyənin tərəfdarları iki qrupa — beynəlxalq hüququn üstünlüyü və dövlətdaxili hüququn üstünlüyünü qəbul edənlərə ayrılırlar.[2]

Müasir dövrdə də beynəlxalq hüquqda dualist və monist nəzəriyyənin tərfdarları vardır və onlar öz fikirlərini əsaslandırmaqda bir çox elmi müddəalara istinad edirlər.[3] Müasir dövrdə beynəlxalq hüquq istiqamətli ədəbiyyatlarda, siyasi xadimlərin çıxışlarında beynəlxalq münasibətlərdə beynəlxalq hüququn üstünlüyü heç bir şübhəsiz qəbul edilir. Bu son dövrlərin beynəlxalq hüquqi sənədlərində də öz əksini tapmışdır. Bir məsələ aydındır ki, beynəlxalq hüququn əsas subyektləri kimi dövlətlər beynəlxalq hüququn üstünlük konsepsiyasını qəbul edərək dövlətdaxili sahələri beynəlxalq hüquqa tabe etməyə cəhd etmirlər.

Beynəlxalq hüququn bu günkü tə'yinatını müəyyən edən əsas funksiyası bəşəriyyətin təhlükəsizliyi problemini həll etmək, nüvə və ya adi müharibə təhlükəsini aradan qaldırmaqdan ibarətdir. Bunun üçün də beynəlxalq hüquq normaları üzrə öhdəliklərin yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə beynəlxalq hüquqla dövlətdaxili hüququn biri-birinə tə'siri qarşılıqlıdır. Dövlətdaxili və beynəlxalq hüququn tarixi inkişafı özündə onların sıx qarşılıqlı tə'sirdə olduqları vahid prosesi təmsil edir. Daxili hüquq dövlətlə eyni vaxtda yaranmış və beynəlxalq hüquq yaranana kimi uzun bir yol keçmişdir. Ona görə də, beynəlxalq hüquq ilkin olaraq daxili hüququn təcrübəsinə əsaslanmışdır. Digər tərəfdən hazırda daxili siyasətin bütövlükdə apa-

---

2 Бах. Международное публичное право. Под ред. К.А.Бекяшева. М., Проспект. 1999. с. 81-83

3 Бах. Черниченко С. В. Теория международного права. т. II. Старые и новые теоретические проблемы. М., НИМП. 1999. с. 333-342; Усенко Е.Т. Соотношение и взаимодействие международного и национального права и Российская Конституция // Московский журнал международного права. 1999. № 2. с. 24

rıcı rola malik olması danılmazdır. Ona görə də, xarici siyasətin maraqları müəyyən edilərkən daxili siyasət maraqları əsas götürülür. Bu, öz ifadəsini hər şeydən əvvəl, dövlətin daxili və xarici siyasətinin əsas prinsiplərini özündə əks etdirən konstitusiya və digər aktlarda tapır.

Lakin xalqların və dövlətlərin tarixi həyat şəraiti əhəmiyyətli dərəcədə dəyişmişdir. Dövlətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı getdikcə artır. Hər bir insanın rifahının həllindən asılı olduğu və ancaq birgə sə'ylərlə həll edilməli olan qlobal problemlərin sayı və əhəmiyyəti getdikcə artır. Bu proses öz ifadəsini onda tapır ki, dövlətin xarici siyasətinə, beynəlxalq hüquqa həsr olunmuş normalar dövlətin konstitusiyasına daxil edilir. Beynəlxalq hüququn konstitusiya hüququna tə'siri getdicə çoxsahəli olmaqla daha çox hiss olunur.[4]

18 oktyabr 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərinin prinsipləri e'lan edilmişdir. Konstitusiya aktının 16-cı maddəsində göstərilir ki, "hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların müqəddəratını tə'yin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək".[5]

Azərbaycan Respublikasının Konstitusiyasında da bu müddəalar öz ifadəsini tapmışdır. Konstitusiyanın 10-cu maddəsinə əsasən Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Beynəlxalq hüquq elmində beynəlxalq hüquqla dövlətdaxili hüququn uzlaşdırılması formaları arasında transformasiya, inkorporasiya, beynəlxalq müqaviləyə göndərmə fərqləndirilir.

Transformasiya (lat. transformatio — dəyişmək, çevrilmək)[6] termini

---

4 Лукашук И.И. Конституции государств и международное право. М., Спарк. 1998. с. 84

5 Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı. 1995. s. 205.

6 Словарь иностранных слов. М., Русский язык. 1986. с. 504

formal xarakter daşıyır. Belə ki, heç bir hüquq norması öz təbiətini dəyişmir və başqa normaya çevrilmir. Transformasiya adlanan hadisənin mahiyyəti ondadır ki, dövlət özünün hakimiyyət səlahiyyətlərinə əsasən beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini tə'min edir. Transformasiya eyni zamanda implementasiya (ing. Implementation — həyata keçirmək, yerinə yetirilməsini tə'min etmək) sözü ilə də əvəz olunur.[7] Beynəlxalq humanitar hüquqda bu terminə daha çox üstünlük verilir.[8]

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyada nəzərədə tutulmuş bu müddəa beynəlxalq humanitar hüquq normalarının dövlətimizin daxili hüququnda implementasiyası və respublikamızın götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün geniş imkanlar açır.

Beynəlxalq hüququn mənbəyi beynəlxalq müqavilə olduğu kimi dövlətdaxili hüququn mənbəyi də milli qanunlardır. Ona görə də, bir çox hallarda beynəlxalq müqavilədə nəzərdə tutulmuş müddəalar dövlətin milli qanununda öz əksini tapır. Qanunda nəzərdə tutulanlarla müqavilə müddəaları biri-birinə uyğun olduqda inkorporasiya (lat. incorporatio-öz tərkibinə daxil etmə, birləşmə)[9]. mövcud olur. Məsələn, Azərbaycan Respublikası 21 aprel 1993-cü ildə 573 №-li sənədlə 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına qoşulmuşdur. Bununla yanaşı 30 iyun 1995-ci il tarixli "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu mülki şəxslərin, hərbi əsirlərin, yaralıların və xəstələrin mühafizəsi, ölənlər və itkin düşənlər haqqında beynəlxalq huma-

---

7 Международное право. Словарь справочник. М., ИНФРА-М. 1997. с. 86

8 Бах. Пьер Апраксин, Меры, принимаемые государствами на национальном уровне в целях выполнения обязательств, вытекающих из договоров по МГП, и роль консултативной службы Международного Комитета Красного Креста. (МККК) // Московский журнал международного права. 1999. Специальный выпуск. с. 159-178; Батырь В.А. Актуальные проблемы имплементации норм МГП в законодательстве Российской Федерации // Московский журнал международного права. 1999. Специальный выпуск. С.196; Имплементация международного гуманитарного права. Статьи и документы. М., МККК. 1998

9 Словарь иностранных слов. М., Русский язык. 1986. с. 194

nitar hüquqa dair bir çox məsələləri tənzimləyir. Preambulada qeyd olunur ki, bu Qanun:

mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması ilə bağlı məsələlərin Azərbaycan Respublikasında insan hüquqlarının üstünlüyü və bu hüquqların tə'min edilməsi üçün dövlətin məs'uliyyəti əsasında qanunvericilik yolu ilə tənzimlənməsi zərurəti;

beynəlxalq humanitar hüquq normalarının, insanla humanist rəftar edilməsi, onun şəxsiyyətinə və şərəfinə hörmət bəslənilməsi üçün dövlət tə'minatları müəyyənləşdirilməsinin vacibliyini, müxtəlif səbəblərdən silahlı münaqişə zonasına düşmüş mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması üçün tə'minatların Azərbaycan Respublikası tərəfindən qeyd-şərtsiz təsdiq olunması;

hərbi münaqişə qurbanlarının müdafiəsini tə'min etmək üçün sə'yləri əlaqələndirmək məqsədilə Azərbaycan Respublikasının bütün həmsərhəd və başqa dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirmək əzmi, bu problemlərin həlli ilə məşğul olan dövlət orqanlarının əməkdaşlığını inkişaf etdirməyin məqsədəuyğunluğunun təsdiqi zərurəti əsas götürülməklə qəbul edilir.[10] Göstərilən qanun beynəlxalq humanitar hüquqla dövlətdaxili hüququn qarşılıqlı əlaqəsinin bariz nümunəsidir. Qanunun 34-cü maddəsində dövlətdaxili hüquqla beynəlxalq humanitar hüququn qarşılıqlı nisbətini tənzimləyən daha bir müddəa öz əksini tapmışdır. Burada göstərilir ki, "qanunda nəzərdə tutulan qaydalar Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilədə müəyyənləşdirilmiş qaydalara zidd gələrsə, onda beynəlxalq müqavilənin qaydaları tətbiq olunur".

Bu qanunda nəzərdə tutulmayan hallarda Azərbaycan Respublikasının mülki şəxsləri və hərbi əsirlərin hüquqlarını beynəlxalq hüquq prinsiplərinə, xalqlar arasında yaranmış sivilizasiyalı adətlərə, bəşəri qanunlara və ictimai vicdanın hökmünə əməl edərək qoruyur.

Əgər milli qanunda fərdi və ya ümumi formada belə bir müddəa öz əksini tapmışdırsa ki, beynəlxalq müqavilələrlə milli qanunlar arasında ziddiyyət yarandıqda beynəlxalq normalar tətbiq olunur, deməli burada söhbət beynəlxalq müqaviləyə göndərmədən gedir. Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar

10 Azərbaycan Respublikası qanunlar külliyyatı. Cild II. Bakı. 1997. s.502-503

ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş normalar özləri də iki kateqoriyaya-özü icra olunan normalar və özü icra olunmayan normalara ayrılır. Özü icra olunan normaların xarakterik cəhəti ondadır ki, dövlət tərəfindən hər hansı müqavilə bağlanandan sonra onda nəzərdə tutulan normaların yerinə yetirilməsi üçün hökmən müəyyən dövlətdaxili aktın qəbul olunması tələb olunmur. Çünki həmin normada nəzərdə tutulan müddəalar ümumən dövlətin daxili qanunvericiliyinə uyğun olduğuna görə onlar bu cür aktlar qəbul edilmədən də icra olunur. Özü icra olunmayan normalar isə əvvəlkilərdən fərqli olaraq hökmən müəyyən dövlətdaxili hüquqi aktın qəbul edilməsini tələb edir. Azərbaycan Respublikasının beynəlxalq humanitar hüquq sahəsində qoşulduğu müqavilələrdə özü icra olunan normalar olması ilə yanaşı, eyni zamanda özü icra olunmayan normalar da vardır. Bu da sözsüz ki, həmin beynəlxalq müqavilələrə qoşulduqdan sonra müvafiq beynəlxalq hüquqi aktların qəbul edilməsini nəzərdə tutur. Bir çox konvensiyaların özündə bu barədə birbaşa norma nəzərdə tutulur. Məsələn, "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il Cenevrə Konvensiyasının 146-cı maddəsinin 1-ci bəndində göstərilir ki, "Razılığa gələn Yüksək Tərəflər bu Konvensiyanı aşağıdakı maddədə göstərilmiş şəkildə pozan və ya pozmağa əmr edən şəxslərə qarşı tə'sirli cəza tədbirləri görülməsi üçün zəruri qanunvericilik qəbul etməyi öhdələrinə götürürlər". Bu cəhətdən Azərbaycan Respublikasının yeni qəbul edilmiş Cinayət Məcəlləsində beynəlxalq humanitar hüququn pozulmasının qarşısının alınmasına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəaların öz əksini tapması təqdirəlayiq haldır.

Göstərilənlər təsdiq edir ki, beynəlxalq humanitar hüquq və dövlətdaxili hüquq qarşılıqlı əlaqədədir. Onlar biri-birinin inkişafına tə'sir etməklə yanaşı, hüquq normalarında nəzərədə tutulmuş müddəaların realizasiyası üçün də tə'minat yaradırlar.

2. Beynəlxalq humanitar hüquq və insan hüquqları hüququ

İnsan hüquqları barədə bəşəriyyətin ən qədim zamanlarından bəri böyük alimlər, filosoflar, mütərəqqi dövlət xadimləri, sənətkarlar çox

sözlər deyib, bu haqları təsdiq, isbat etməyə çalışıblar. İnsan hüquqlarının rəsmiləşdirilməsi sahəsində ilk cəhdlərlə XIII əsrdə rastlaşmaq olar. Məsələn, İngiltərənin 1215-ci il "Böyük Azadlıqlar Xartiyası"nda,[11] 1689-cu il "Hüquqlar haqqında Bill"də,[12] ABŞ-da qəbul olunmuş 1776-cı il "İstiqlaliyyət Bəyannaməsi"ndə,[13] 1791-ci il "Hüquqlar haqqında Bill"də,[14] 1789-cu ildə Fransada e'lan edilmiş "İnsan və vətəndaş hüquqları haqqında bəyannamə"də[15] insan hüquqları rəsmi ifadəsini tapmışdır. XIX əsrdən insan hüquqları dövlətlərin konstitusiyalarında təsbit edilməyə başlandı və indi demək olar ki, bütün dövlətlərin konstitusiyaları bu cür tə'minatlar nəzərdə tutmuşdur.[16] İki qanlı cahan müharibəsindən sonra təşkil olunmuş Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin I maddəsinin 3-cü bəndinə əsasən, Təşkilatın qarşısında duran başqa məsələlərlə yanaşı, onun bir məqsədini də, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün insanlar üçün insan hüquqları və azadlıqlarına hörmətin tə'min edilməsi təşkil edir. 1948-ci ildə BMT tərəfindən qəbul edilmiş "İnsan hüquqları haqqında Ümumi Bəyannamə" insan hüquqlarına hörmət prinsipinin formalaşması üçün əvəzi olmayan tarixi bir sənəd rolunu oynadı. Hər şeydən əvvəl ona görə ki, ilk dəfə olaraq məhz həmin Bəyannamədə insanın əsas hüquqları təsbit olunaraq bəşəri dəyər kimi e'lan edildi.[17] Bəyannamənin qəbul edilməsi, orada əks olunmuş müddəalar dövlətlərin qarşılıqlı münasibətlərində insan hüquqlarına hörmət prinsipinin formalaşması, sonradan Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən insan hüquq və əsas azadlıqlarına dair beynəlxalq müqavilə və konvensiyaların hazırlanması və qəbulu üçün hü-

---

11 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА.М 2000. с. 3-5

12 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА.М 2000. с. 14-18

13 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА.М 2000. с. 21-23

14 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА.М 2000. с. 24-31

15 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА.М 2000. с. 32-34

16 Бах.Конституции государств Европейского Союза М., НОРМА-ИНФРА.М.1999; Конституции стран СНГ и Балтии.М., Юристь 1999.

17 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı.1998.

quqi baza rolunu oynadı. Nəhayət, Bəyannamədə əks olunmuş müddəaları qəbul edən dövlətlər milli qanunvericiliklərində insan hüquqlarını əks etdirməklə onların tə'mini üçün zəmin yaratdı. Hazırda insan hüquqlarının pozulması nəinki şəxsiyyətə qarşı yönəlmiş bir hal, həm də sosial və siyasi problem hesab olunur. "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"də göstərildiyi kimi, insan ləyaqəti "ümumi sülhün, ədalətin və azadlığın əsasıdır". İnsan hüquqları haqqında normativ müddəalar beynəlxalq ümumi hüququn müstəqil sahəsidir. Bu hüquq özünün xüsusi mənbəyinə, həyata keçirilmə mexanizminə və tətbiq proseduralarına malikdir. Hazırda bir çox universal və regional xarakterli beynəlxalq müqavilələrdə insan hüquqları öz təsbitini tapmışdır. İnsan hüquqları haqqında normalar beynəlxalq hüquqi sənədlərdə rəsmi təsbitini tapandan sonra ilk vaxtlar bu normalarla humanitar hüquq normaları arasında qarşılıqlı əlaqə, onların hər birinin beynəlxalq hüquqda yeri barədə fikir ayrılıqları meydana çıxdı. İnsan hüququ beynəlxalq birliyin yeni ideyalarını ifadə edən sistem kimi meydana çıxmışdı. J.Pikte belə hesab edir ki, insan hüquqları beynəlxalq humanitar hüququn bir hissəsidir və insan hüquqları son nəticədə humanitar hüquqa əsaslanmalıdır.[18] Bu iki hüquq sahəsinin tətbiqi və mənşəyinə diqqət yetirən müəlliflərin, məsələn, C.L.Kunzun fikrincə, bu hüquq sahələri ayrı-ayrılıqda fəaliyyət göstərməlidir. Həm də bu mövqe tərəfdarları insan hüququnun humanitar hüquqdan üstünlüyünü qəbul edirdilər.[19] X.P.Qasserə görə isə, beynəlxalq humanitar hüquq insan hüquqlarının silahlı münaqişələr zamanı tətbiq olunan xüsusi hissəsidir.[20] D.Şindler beynəlxalq humanitar hüquq və insan hüquqları arasında qarşılıqlı əlaqələri tədqiq edərək beynəlxalq hüququn bu iki qolu arasında sıx əlaqənin mövcud olmasını təsdiq edir və göstərir ki, beynəlxalq humanitar hüquq və insan hüquqları ayrı-ayrı müqavilələrin predmeti olmalıdır. Çünki silahlı münaqişələr dinc dövrdə olduğundan daha dəqiq və onlardan fərqli qaydalar tələb edir. Bundan başqa, beynəlxalq humanitar hüquq müddəaları döyüş əməliyyatları aparılmasına dair qaydaları da

18 Pictet J. Le droit humanitaire et la protection des victimes de la guerra. Sijthoff, Institut Henry Dunant, Leiden-Geneve, 1973, pp. 9-16

19 Kunz J.L. La problematica actual de las leyes de la guerra. La Casa Martin, Valladolid, 1955, 164 pags.

20 Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. М.МККК. 1995.с.31

əhatə etməlidir. Bu cür qaydalar isə insan hüquqları sahəsindən kənardadır və ayrıca baxış predmeti olmalıdır.[21] Daha sonra D.Şindler göstərir ki, beynəlxalq humanitar hüququn məzmunu insan hüquqları haqqında konvensiyaların məzmunu ilə qismən uyğun olsa da onlara riayət olunması və sanksiya tətbiq edilməsi üzərində nəzarət mexanizminə münasibətdə müxtəliflik vardır.[22] Nəhayət, başqa bir qrup müəlliflər belə hesab edirlər ki, hər iki hüquq sahəsi müstəqildir, lakin onlar arasında qarşılıqlı əlaqə olmaqla onlar bir-birini tamamlayır.[23] BMT-nin 1968-ci ildə Tehranda keçirdiyi insan hüquqları üzrə beynəlxalq konfransda qəbul edilmiş "Silahlı münaqişələr zamanı insan hüquqlarına hörmət etmək haqqında" XXIII qətnamədə insan hüquqları və beynəlxalq humanitar hüququn qarşılıqlı əlaqəsi rəsmi olaraq tanındı.[24] Əlbəttə, bu hüquq sahələrinin bir sıra oxşar və fərqli cəhətləri vardır. Belə ki, humanitar hüququn himayəçiliyindən ayrı-ayrı şəxslər istifadə edir, bu hüququn həyata keçirilməsinə isə əsasən dövlətlər cavabdehlik daşıyır. Şəxsin müəyyən hüquqlardan istifadə etməsinin onun üzərinə müəyyən vəzifələrin qoyulması ilə müşayiət olunan hallar humanitar hüquqda az rast gəlinir. İnsan hüquqları sahəsində isə bütün insanlar üçün bərabər hüquqlar müəyyən edilmişdir. İnsan hüququnun məqsədi ayrı-ayrı fərdlərin şəxsiyyət kimi inkişafı, onların şəxsi, sosial, siyasi və iqtisadi hüquqlarını həyata keçirmək üçün imkanların tə'min olunmasıdır. Hüququn bu sahəsi insan şəxsiyyətinin hərtərəfli inkişafına xidmət edir. Humanitar hüquq isə silahlı münaqişələr zamanı insanın ləyaqətini itirmədən bütün təhlükə və zorakılıqlara dözməsi, onları dəf etmək üçün şəraitin yaradılmasına xidmət edir. Yə'ni insan hüquqları fərdin inkişafı üçün yeni perspektivlər açdığı halda, humanitar hüquq fərdin qorunmasına xidmət edir. İnsan hüquqları təsbit edilmiş bə'zi beynəlxalq hüquqi aktlarda, məsələn, "İnsan hüquq və əsas azadlıqları-

---

21 Дитрих Шиндлер. Международный Комитет Красного Креста и права человека. М.МККК.1994.с.14

22 Дитрих Шиндлер Международный Комитет Красного Креста и права человека. М., МККК. 1998.с.11.

23 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. М., МККК. 1997.с.64; Апраксин П. Международное гуманитарное право и права человека: сходства, различия взаимодопольняемость // Права человека в России: декларации, норма и жизнь. Москва МНЭПУ 1999 с. 255

24 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı. 1998.s.33.

nın müdafiəsi haqqında" Avropa Konvensiyasının 15-ci maddəsində,[25] Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 4-cü maddəsində,[26] İnsan hüquqları üzrə Amerika Konvensiyasının 27-ci maddəsində[27] dövlətdə millətin taleyini təhlükədə qoyan və mövcudluğu rəsmi surətdə e'lan edilən fövqəl'adə vəziyyət yarandıqda həmin beynəlxalq sənədlərdə nəzərdə tutulmuş insan hüquqlarının müəyyən qədər məhdudlaşdırılmasına yol verilir. Beynəlxalq humanitar hüquqda hər hansı hüququn məhdudlaşdırılmasına yol verilmir. Beynəlxalq humanitar hüquq daha çox mərhəmət, şəfqət ideyalarına əsaslandığı halda, insan hüquqlarında ədalətliliyə daha çox üstünlük verilir. Beynəlxalq humanitar hüquq müharibə qurbanlarının müdafiəsinə, insan hüquqları isə beynəlxalq normaların tələblərinin pozulmasının qarşısının alınmasına daha çox diqqət yetirir. İnsan hüquqlarında daha ümumi hüquqlar öz təsbitini tapmışdır. Beynəlxalq humanitar hüquq isə daha səciyyəvi xarakter daşıyır. İnsan hüquqları normaları ilə dövlət və onun öz vətəndaşları arasındakı münasibətlər nizama salınır. Beynəlxalq humanitar hüquqda isə dövlətlə düşmən dövlətin vətəndaşları arasındakı münasibətlər nizama salınır. Beynəlxalq humanitar hüquq müstəsna olaraq beynəlxalq hüquq qaydası pozulan zaman tətbiq edildiyi halda, insan hüquqları silahlı münaqişələr zamanı öz qüvvəsində qalsa da, əsasən sülh vaxtı tətbiq olunur. Bu mə'nada İnsan hüquqları üzrə Amerika Məhkəməsinin prezidenti Ektor Qros Espielin belə bir fikri ilə razılaşmaq lazımdır ki, "xüsusi hallarda beynəlxalq humanitar hüquqla nəzərdə tutulduqda onun tətbiq olunduğu şəxslər lap əvvəldən (ad initio) beynəlxalq humanitar hüququn bilavasitə tə'minatından istifadə edir. Bu heç də şəxsin beynəlxalq humanitar hüququn himayəsi altında olduğu vaxt beynəlxalq insan hüquqları normaları ilə mühafizə olunmasına maneçilik törətmir".[28]

Bə'zi müəlliflər beynəlxalq humanitar hüququn insan hüquqlarına nisbətən himayəsində olan şəxslərə daha səmərəli müdafiəni tə'min et-

---

25 Защита прав человека и борьба с преступностью. Документы Совета Европы. М., Спарк. 1998. с.38-39

26 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı.1998. s.16.

27 Международные акты о правах человека. Сборник документов. М., НОРМА-ИНФРА . М., 2000. с. 726

28 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. М.; МККК. 1997.с.64.

diyini vurğulayırlar. Məsələn, İ.A.Ledyax qeyd edir ki, silahlı münaqişə şəraitinə uyğunlaşdırıldığına görə Cenevrə Konvensiyaları insan hüquqları haqqında konvensiyalara nisbətən əsas insan hüquqları üçün daha səmərəli mühafizəni tə'min edir.[29] P.Apraksin belə hesab edir ki, beynəlxalq humanitar hüquq və insan hüquqları biri-birini tamamlayır. Beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuş bə'zi hüquqlar isə eyni kateqoriyalı insan hüquqlarını daha da gücləndirir.[30]

BQXK-nin qaçqın və məcburi köçkünlərin mənafeyi ilə əlaqədar fəaliyyətində də beynəlxalq humanitar hüquqla insan hüquqları arasında sıx əlaqə özünü təzahür etdirir.[31] Beynəlxalq humanitar hüquq və insan hüquqları arasında mövcud olan fərqlərə baxmayaraq, onlar ideoloji cəhətdən eyni tarixi və fəlsəfi köklərə malikdir. Hər iki hüquq insanı ona düşmən olan qüvvələrdən qorumaq üçün yaranmış, hər iki hüquq sahəsi qlobal cəhətdən eyni məqsədə və eyni "subyektə" — insana xidmət edir. Heç şübhəsiz ki, insan hüquqları və beynəlxalq humanitar hüquq insan şəxsiyyətinin müdafiəsinə xidmət etsə də, zahirən eyni məqsədlərə malik deyil. Bu da onların təcrübədə hüquqi nizama salma — tətbiq sahəsinin müxtəlifliyini (ratione materiae) təsdiq edir.[32] Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, insan hüquqları və beynəlxalq humanitar hüquq normaları şəxsiyyətin mühafizəsi sahəsində biri-birini tamamlayır və hüquqi tə'sir göstərmək məsələlərində qarşılıqlı əlaqədə olur.

---

29 Права человека. Отв. Ред. Е.А.Лукашева. М.НОРМА-Инфра.М. 1999.с.538

30 Апраксин П. Международное гуманитарное право и права человека: сходства, различия взаимодопольняемость // Права человека в России: декларации, норма и жизнь. М., МНЭПУ 1999 с. 255

31 Вах. Фредерик Морис и Жан де Куртен. Действия МККК в интересах беженцев и гражданских перемещенных лиц. М., МККК.1994; Жан Филипп Лавуайе. Беженцы и перемещенные лица - международное гуманитарное право и роль МККК // Международный журнал Красного Креста. Март-апрель 1995. № 3 с.199-222; МККК и лица, перемещенные в переделах одной страны // Международный журнал Красного Креста. Март-апрель 1995. № 3 с.223-228.

32 Вах.Робер Кольб Взаимосвязь международного гуманитарного права и прав человека. Из истории создания Всеобщей декларации прав человека и Женевских конвенций // Международный журнал Красного Креста. Сентябрь 1998. № 22.с.493-504

3. Beynəlxalq humanitar hüquq və beynəlxalq təhlükəsizlik hüququ

Beynəlxalq humanitar hüquqla beynəlxalq təhlükəsizlik hüququnun qarşılıqlı əlaqəsi hər şeydən əvvəl onların silahlı münaqişə ilə birbaşa bağlılığındadır.

Beynəlxalq humanitar hüquq silahlı münaqişələr zamanı himayədə olan şəxslərin mühafizəsini və münaqişədə olan tərəflərin müharibə aparılmasının metod və vasitələrinin məhdudlaşdırılması məsələlərini tənzimləyirsə, beynəlxalq təhlükəsizlik hüququ ümumiyyətlə münaqişələrə yol verilməməsi, sülhün və beynəlxalq təhlükəsizliyin tə'mini, tərksilah, silahlı qüvvələrin və silahların ixtisara salınması məsələlərini tənzimləyir. Beynəlxalq hüququn tərkib hissələri olan bu hüquq sahələri arasında əlaqələr aydın sezilir.

Bəşər tarixi boyunca bir dövlət və ya xalqın təhlükəsizliyinin digərinin mənafeyinə zərər vurmaqla tə'min edilməsi müharibələr və silahlı münaqişələr doğurmuşdur. Bu müharibələr fonunda bəşər sivilizasiyasının dinc inkişafı yollarının axtarılması prosesi də davam etmişdir. Müharibə və sülh məsələləri, dövlət hakimiyyətinin tə'siri ilə silahlı zorakılığın məhdudlaşdırılması məsələlərinə antik dövrün filosofları Platon "Dövlət", Aristotel "Afina siyasəti" əsərlərində mühüm yer ayırmışdır.

Alman filosofu Hegel müharibələrin zəruriliyini təsdiq edirdi. O göstərirdi ki, "dövlətlər iradələrini razılaşdıra bilmədiyinə görə onlar arasındakı mübahisələr ancaq müharibə ilə həll edilə bilər".[33]

İ.Kant "Əbədi sülhə doğru" əsərində göstərirdi ki, bəşəriyyətin inkişafı ilə müharibələr tədricən azalır və onlar getdikcə tamamilə aradan çıxacıqdır. O, sülhə doğru hərəkatı müharibənin beynəlxalq münasibətlərin forması kimi son nəticədə istisna edən qarşısıalınmaz mütərəqqi proses, özünəməxsus tarixi zərurət kimi xarakterizə etmişdir. Kant belə hesab edirdi ki, müharibənin qarşısını beynəlxalq müqavilə yolu ilə almaq mümkün olmazsa, onda bizim sivilizasiyanı məhvedici müharibədən sonra "bəşəriyyətin nəhəng qəbristanlığında" əbədi sülh gözləyir.[34]

---

33 Гегель. Соченение. т. 7. М.-Л., 1934. с. 344, 351

34 Вах. Кант Иммануил. Соченение. т. 6. М., 1965; Bu barədə ətraflı bax: Фелдьман Д. И., Баскин Ю. Я. Учение Канта и Гегеля о международном праве и современность. Казань, 1977

Görkəmli alman filosofları Hegel ilə Kant arasında bu mübahisədə F.F.Martens Kantın fikirlərinə tərəfdar çıxırdı. O, bir vaxt müharibələrin tamamilə istisna olunacağına inamını bildirirdi. Bununla belə Martens mövcud şəraitdə müharibənin vəhşi xarakteri və onunla bağlı bəlaların məhdudlaşdırılması üçün müharibə hüququnu(beynəlxalq humanitar hüququ) əsas vasitə hesab edirdi.[35] Nüvə silahının meydana çıxması göstərdi ki, bəşəriyyət təhlükəsizliyin yeni ölçüsü ilə üzbəüz dayanmışdır. Müasir şəraitdə milli təhlükəsizliyin tə'mini dialektik olaraq beynəlxalq təhlükəsizlik, ümumi sülhün qorunması və möhkəmlənməsi ilə bağlıdır. Hüquqi mə'nada yeni təhlükəsizlik konsepsiyası dünyanın qarşılıqlı asılılığının, ümumbəşəri sərvət və maraqların milli maraqlardan üstünlüyünün tanınmasına xidmət etməli, xalqların özlərinin sosial-itisadi və siyasi inkişaf yolunu seçmə azadlığını tə'min etməli, son nəticədə isə hüququn siyasətdə üstünlüyü tə'min olunmalıdır.

Beynəlxalq təhlükəsizlik hüququ dövlətlərin hərbi-siyasi təhlükəsizliyinin tə'mininə, müharibənin baş verməsinin qarşısının alınmasına və təcavüz aktlarının aradan qaldırılmasına yönəlmiş ümumtanınmış və xüsusi prinsip və normaların məcmuyudur.[36]

Beynəlxalq təhlükəsizlik hüququnun hüquqi əsasını zor tətbiq etməmə və zor tətbiq etməklə hədələməmə, beynəlxalq mübahisələrin sülh yolu ilə həlli, dövlətlərin daxili işlərinə qarışmama, ətraf mühitin mühafizəsində əməkdaşlıq, tərksilah kimi beynəlxalq hüququn prinsipləri təşkil edir. Beynəlxalq humanitar hüquqla beynəlxalq təhlükəsizlik hüququnun qarşılıqlı əlaqəsi bu prinsiplərin bir çoxunun onların hər ikisi üçün hüquqi əsas olmasında da özünü göstərir. Beynəlxalq humanitar hüquqla tərksilah hüququnun qarşılıqlı əlaqəsi özünü təhlükəsizlik hüququnun tərksilah və silahların məhdudlaşdırılması, beynəlxalq humanitar hüququn isə müharibə aparılmasının metod və vasitələrinin məhdudlaşdırılması sahələrinin biri-biri ilə bağlılığında daha aydın göstərir.

Tərksilah dedikdə, müharibənin aparılması vasitələrinin artırılmasının qarşısının alınması, onların məhdudlaşdırılması, ixtisar edilməsi və ləğvinə yönəldilmiş kompleks tədbirlər başa düşülür. Əgər tərksilahda məqsəd ümumiyyətlə müharibə aparılması vasitələrinin məhdudlaşdı-

---

35 Пустогаров В. В. Федор Федорович Мартенс. Юристь дипломат. М., 1999. с. 64

36 Международное публичное право. Под ред. К.А. Бекяшева. М., Проспект. 1999. с. 354

rılmasıdırsa, beynəlxalq humanitar hüquq burada ilk növbədə müharibə qurbanlarına daha çox əzab yetirən və qeyri-seçim xarakterli vasitələrin məhdudlaşdırılması və ya qadağan edilməsinə cəhd edir. Bu hər şeydən əvvəl beynəlxalq humanitar hüququn məqsədləri, yə'ni müharibə qurbanlarının mühafizəsi ilə bağlıdır. Hər iki hüquq sahəsinin özünəməxsus cəhətlərinə baxmayaraq son nəticədə hər hansı silahın qadağan edilməsi və ya tətbiqinin məhdudlaşdırılması onların məqsədi kimi təzahür edir. Bu mə'nada təhlükəsizlik hüququ və beynəlxalq humanitar hüququn mənbələrinin ümumiliyi də aydın görünür. Belə ki, bir sıra beynəlxalq müqavilələr beynəlxalq humanitar hüquqla yanaşı beynəlxalq təhlükəsizlik hüququnun da mənbəyini təşkil edir. Bunalara misal olaraq aşağıdakıları göstərmək olar:

— Boğucu, zəhərli və digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Protokol (Cenevrə. 17 iyun 1925-ci il);

— Bakterioloji (bioloji) və zəhərləyici silahların hazırlanması, istehsalı və ehtiyatının yığılmasının qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya (10 aprel 1972-ci il);

— Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya və ona əlavə edilmiş 3 Protokol (10 oktyabr 1980-ci il);

— Kimyəvi silahların işlənib hazırlanması istehsal edilməsi, ehtiyatının yığılması və tətbiq edilməsinin qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (13 yanvar 1993-cü il);

— Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının yığılması, istehsalı və verilməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya (18 sentyabr 1997-ci il) və s. Beynəlxalq təhlükəsizlik hüququnda istifadə edilən bir sıra terminlərdən beynəlxalq humanitar hüquqda da istifadə edilir və çox vaxt onların mahiyyəti oxşar xarakter daşıyır. Məsələn, beynəlxalq təhlükəsizlik hüququnda silahsızlaşdırma beynəlxalq humanitar hüquqda silahsızlaşdırılmış zonaların yaradılmasına, təhlükəsizlik hüququnda neytrallaşdırma, beynəlxalq humanitar hüquqda neytrallıq prinsipi və onunla bağlı məsələlərlə uyğunluq təşkil edir. Təhlükəsizlik hüququnda silahsızlaşdırma dedikdə, dinc dövrdə müəyyən ərazi və ya məkan sahəsinin hərbi məqsədlərlə istifadəsini qadağan edən müqavilə ilə müəyyən edilmiş beynəlxalq hüquqi rejim başa düşülür. Həmin tədbir həmin rayonda hərbi qurğular, orada si-

lahlı qüvvələr saxlanılmasını qadağan edilməsini nəzərdə tutur. Bu Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 60-cı maddəsində nəzərdə tutulmuş silahsızlaşdırılmış zonalar yaradılması ilə uyğunluq təşkil edir. Beynəlxalq təhlükəsizlik hüququnda neytrallaşdırma dedikdə, müqavilə əsasında müəyyən ərazi və ya məkan sahəsində hərbi əməliyyatların aparılmasının və ya onlardan hərbi əməliyyatlar aparılması üçün istifadə olunmasının qadağan olunması başa düşülür. Bu rejim beynəlxalq hüquqda neytrallıqla sıx bağlıdır.[37]

Ümumiyyətlə beynəlxalq humanitar hüquqla beynəlxalq təhlükəsizlik hüququnun qarşılıqlı əlaqəsi onların tənzimlədiyi münasibətlərin bir çox sahəsində özünü göstərir.

4. Beynəlxalq humanitar hüquq və beynəlxalq cinayət hüququ

Beynəlxalq cinayət hüququna maraq həmişə mövcud olmuşdur. Dövlətlərarası əlaqələrin genişlənməsi eyni zamanda cinayət-hüquqi problemlərin də dövlətlərarası münasibətlər müstəvisinə çıxacağından xəbər verirdi. Demək olar ki, həm dövlət orqanları, həm də fiziki şəxslərin hərəkətlərinin cinayət xarakteri məsələsi hər şeydən əvvəl, dövlətlərə və Dünya Birliyinə bərpa edilməsi mümkün olmayan, ziyan vuran müharibələrlə əlaqədar yaranmışdır. Müharibənin cinayət xarakteri, silahlı münaqişələrin aparılmasının qeyri-hüquqi metodları fiziki şəxslərin cinayət məs'uliyyəti üçün beynəlxalq normaların və dövlətlərin məs'uliyyətinin beynəlxalq normalarının yaranması üçün baza rolunu oynamışdır. İ.İ.Karpets göstərir ki, beynəlxalq cinayət anlayışı "xalqların maddi mədəniyyətinin dağıdılması, mülki əhalinin təhqir edilməsi, onlara əzab verilməsi və fiziki məhv edilməsi ilə müşaiyət olunan təcavüzkar, qəsbkar müharibələrlə əlaqədar meydana çıxan əməllərə cavab reaksiyası" kimi yaranmışdır.[38]

Beynəlxalq əlaqələrin inkişafı, cinayətkarlıqla beynəlxalq mübarizə təcrübəsi getdikcə Beynəlxalq Birlik tərəfindən cinayət kimi tanınan əməllərin artmasına səbəb oldu. Bu proses başlıca olaraq gerçəkliyin obyektiv amillərinin təzahürü idi.

---

37 Bax. XI fəsil. Beynəlxalq humanitar hüquqda neytrallıq

38 Карпец И.И. Преступления международного характера. М., 1979 с. 41.

Beynəlxalq cinayət hüququ beynəlxalq hüququn yeni yaranmış bir sahəsi olduğuna görə hətta onun anlayışı ilə belə elmi doktrinada bir sıra mübahisələr möcuddur. Məsələn, İ.İ.Lukaşuk və A.V.Naumovun "Beynəlxalq cinayət hüququ" dərsliyində beynəlxalq cinayət hüququna prinsip və normalarının cinayətkarlığa qarşı mübarizədə dövlətlər və beynəlxalq təşkilatların əməkdaşlığını tənzimlədiyi beynəlxalq ümumi hüququn bir sahəsi kimi tərif verilmişdir.[39] V.N.Kudryavsevin rəhbərliyi altında nəşr olunmuş dərslikdə isə beynəlxalq cinayət hüququ beynəlxalq cinayətlər və beynəlxalq xarakterli cinayətlər törətməyə görə təqsirli fiziki şəxslərin cinayət məs'uliyyəti və dövlətlərin məs'uliyyətinin yaradılması yolu ilə beynəlxalq hüququn subyektləri tərəfindən beynəlxalq hüquq qaydasını cinayətkar qəsdlərdən qorumaq məqsədilə yaradılmış prinsip və normaların daxil olduğu sahə kimi müəyyənləşdirilmişdir.[40] Göstərilənlərlə yanaşı beynəlxalq cinayət hüququ beynəlxalq cinayətlər, onlara görə cinayət məs'uliyyəti, beynəlxalq cinayət mühakiməsinin həyata keçirilməsi prinsiplərini, beynəlxalq cinayət hüququnun realizasiyası və bir çox məsələləri əhatə edir ki, həmin məsələlər də bilavasitə beynəlxalq humanitar hüquqla bağlıdır.

Beynəlxalq humanitar hüquqla beynəlxalq cinayət hüququnun qarşılıqlı əlaqəsi hər şeydən əvvəl özünü onda təzahür etdirir ki, beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilən əməllər Beynəlxalq Birlik tərəfindən beynəlxalq cinayət kimi tanınmışdır. Bu öz ifadəsini 1991-ci ildə Beynəlxalq Hüquq Komissiyası tərəfindən qəbul edilmiş Beynəlxalq Cinayət Məcəlləsinin layihəsində,[41] digər tərəfdən isə 1998-ci ildə qəbul edilmiş Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda[42] tapmışdır.

Beynəlxalq humanitar hüquqla beynəlxalq cinayət hüququnun qarşılıqlı əlaqəsi həmçinin, bu hüquq sahələrinin bir çox mənbələrinin eyni-

---

39 Лукашук И. И., Наумов А.В. Международное уголовное право.М. Спарк. 1999. с. 9

40 Международное уголовное право. Под. Общ. Ред В.Н.Кудрявцева.М., Наука.1999.с.15-16

41 Ежегодник Комисси и Международного Права. 1991. Т.1. Краткие отчеты о заседаниях сорок третьей сессии. 29 апреля-19 июня 1991 года. ООН.Нью-Йорк.1993.

42 Дипломатическая конференция полномочных представителей под эгидой Организации Объединенных Наций по учреждению международного уголовного суда. Римский Статут Международного Уголовного Суда. Рим. 1998.

liyində də özünü göstərir. "Təəccüblü deyildir ki, eyni beynəlxalq müqavilələr hər iki sahənin mənbəyini təşkil edir".[43]

Beynəlxalq humanitar hüquqa dair müqavilələrdə, məsələn, III və IV Cenevrə Konvensiyalarında işğal edilmiş ərazidə olan mülki şəxslərin və hərbi əsirlərin törətdikləri cinayət əməllərinə görə mühakimə edilməsi zamanı minimum tə'minatlar da öz əksini tapmışdır. Bir çox cinayətlərin konkret tərkibləri Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollarda nəzərdə tutulmuşdur. Fikrimizcə, beynəlxalq cinayət hüququ ilə beynəlxalq humanitar hüququn qarşılıqlı əlaqəsi beynəlxalq cinayət hüququnun beynəlxalq humanitar hüququn həyata keçirilməsi üçün real tə'minat rolunu oynamasındadır.

5. Beynəlxalq humanitar hüquq və beynəlxalq ekologiya hüququ

Təbiət və onun obyektləri (hava, dəniz meşə, heyvanlar, kosmos və s.) bəşəriyyətin sərvətləridir. Onlardan səmərəli istifadə olunması və mühafizəsində bütün Beynəlxalq Birlik maraqlıdır. Ətraf mühitin mühafizəsi və onun ehtiyatlarından səmərəli istifadə müasir dövrün qlobal problemidir. Bu problemin həllinin əsas şərtləri: bütün dünyada sülhün qorunması, tərksilah, dövlətlər arasında e'timad və qarşılıqlı anlaşma, bütün dövlətlərin təbiətə münasibətdə vahid siyasəti həyata keçirməsi və öz ərazisində ətraf mühiti mühafizə üzrə bütün tədbirləri görməsi, hər şeydən əvvəl isə təbiəti mühafizə qanunvericiliyini inkişaf etdirməsi, təbiəti mühafizə sahəsində beynəlxalq müqavilələr üzrə götürdükləri öhdəliklərin vicdanla yerinə yetirilməsindən ibarətdir.

Yer əhalisinin sür'ətli artımı, elmi-texniki tərəqqi, kimya, biologiya sahəsində dərin biliklər, müasir super silahlar bəşəriyyətə təkcə xeyir gətirməmişdir. Bunaların nəticəsidir ki, insanla təbiət arasında əlaqə daha da kövrəkləşmiş, lokal ekoloji bəlalar qlobal xarakter almışdır. İndi aydındır ki, bir çox problemləri təklikdə həll etmək mümkün deyildir. İnsanla təbiət arsında qarşılıqlı münasibətlərin keyfiyyətli dəyişikliklərinə nail olmaq üçün birgə fəaliyyət, iri miqyaslı proqramların hazırlanması, maliyyə vəsaitlərinin birləşdirilməsi, təbii mühitlə bağlı kəskin qanunların qəbul edilməsi və onların pozulmasına görə məs'u-

43 Блищенко И.П. Фисенко И.В. Международный Уголовный Суд. М., ЮНИТИ.1998.с. 17

liyyətin reallaşdırılması və nəhayət, e'lan edilmiş müddəaların gerçəklikdə həyata keçirilməsinin tə'min edilməsi zəruridir.

Ətraf mühitin mühafizəsi sahəsində dövlətlərin əməkdaşlığının mühüm əsasını ətraf mühitin beynəlxalq hüquqi tənzimlənməsi təşkil edir. Hazırda bu sahədə mövcud normalar ətraf mühitin mühafizəsi hüququ və ya ekologiya hüququ kimi formalaşır.

Beynəlxalq ekologiya hüququ-dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında təbii obyektlərdən səmərəli istifadə və onların mühafizəsi ilə əlaqədar yaranmış beynəlxalq ekoloji münasibətləri tənzimləyən ümumtanınmış prinsiplər və normaların məcmusudur.[44] K.A.Bekyaşev ətraf mühitə mənfi tə'sir edən amilləri üç qrupa bölür:

a) ayrı-ayrı təbii kompanentlərin qeyri-səmərəli, bə'zən vəhşicəsinə istifadəsi, bə'zən isə hətta məhv edilməsi;

b) ətraf mühitin çirkləndirilməsi;

v) sür'ətlə silahlanma, silahlı münaqişələr və lokal müharibələr. Lakin o, bu amillər arasında nüvə silahının, ətraf mühitin radioaktiv zəhərlənməsini bəşəriyyət və biosfera üçün daha təhlükəli hesab edir.[45]

Yerüstü nüvə partlayışı geosfer, biosfer və atmosferin mühüm pozulmasına səbəb olur. Alimlərin hesablamalarına görə 1 mqt gücündə nüvə partlayışı 30 min hektar ərazidə bütün onruğalı heyvanları məhv edir. 1 klt gücündə neytron bombasının partlayışı 270 hektar sahədə insanları, 490 hektar sahədə məməlilər və quşları, 390 hektar sahədə suda-quruda yaşayanları və sürünənləri, 100 hektar sahədə həşaratları, 40 hektar sahədə mikroorqanizmlər və bakteriyaları öldürür və 310 hektar sahədə iynəyarpaqlı meşələri məhv edir və s.[46]

Nüvə, radioloji və neytron silahının tam və qlobal sür'ətdə qadağan edilməsi bütün bəşəriyyət üçün təhlükəli olan radioaktiv zəhərlənmədən ətraf mühitin mühafizəsi problemini həll edilməsinə kömək olardı. Bu istiqamətdə müəyyən işlər görülmüşdür. Belə ki üç mühitdə nüvə silahının sınağı (1963), onun yayılması(1968), dəniz və okeanların dibində (1971), Antraktikada (1959) və kosmosda (1967) nüvə silahının yerləşdirilməsi qadağan edilmiş, Afrikada, Antraktikada, Latın Ameri-

---

44 Ерофеев Б.В. Экологическое право России. М., 1999. с. 573

45 Международное публичное право. Под ред.К.А.Бекяшева. М., Проспект.1999.с.507

46 Вах. Вавилов А.М. Экологические последствия гонки вооружений. М., 1984. с. 69

kasında, Sakit okeanın cənub hissəsində və digər regionlarda nüvəsiz zonalar yaradılmışdır.

Beynəlxalq humanitar hüquqla beynəlxalq ekologiya hüququnun qarşılıqlı əlaqəsi ətraf mühitin silahlı münaqişələr zamanı mühafizəsi ilə bağlıdır. Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi ilə əlaqədar müqavilələrin bağlanılması bir tərəfdən beynəlxalq humanitar hüququn, digər tərəfdən isə beynəlxalq ekologiya hüququnun mütərəqqi inkişafına kömək edir. 18 may 1977-ci il tarixli "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında" Konvensiya bu iki hüquq sahəsinin qarşılıqlı əlaqəsini özündə daha aydın əks etdirir. Bu cəhətdən 1949-cu il Cenevrə Konvensiyalarına I Əlavə Protokolda əksini tapmış müddəalar da xüsusi əhəmiyyət kəsb edir. Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsini tənzimləyən müddəalar digər beynəlxalq sənədlərdə də təsbit olunmuşdur. Hazırda bu məsələ aktual problem kimi diqqət mərkəzindədir.

Fəsil V

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏTBİQİ

Beynəlxalq humanitar hüququn tə'sir sahəsi dövlətlərarası münasibətlərdir. Həmin münasibətlərə tə'sir göstərmək, onları müəyyən nizama, qaydaya salmaq üçün isə hüquq tətbiq olunmalıdır. Beynəlxalq humanitar hüququn tətbiqinin ən'ənəvi olaraq üç forması fərqləndirilir:

1. Ratione situationis — vəziyyətə görə tətbiq.
2. Ratione temporis — zamana görə tətbiq.
3. Ratione personae — şəxsə görə tətbiq.

Beynəlxalq humanitar hüququn tətbiqinin bu bölgüsü K.Svinarski tərəfindən də qəbul edilir.[1]

Son vaxtlarda göstərilənlərdən əlavə beynəlxalq humanitar hüququn ratione loci — məkana görə tətbiqini də fərqləndirirlər.[2]

İ.İ.Lukaşukun mövqeyi də maraq doğurur. O, göstərir ki, "beynəlxalq humanitar hüquq hərbi əməliyyatların harada baş verməsindən asılı olmayaraq tətbiq olunur. Bununla belə onun tətbiq sahəsinin ərazi aspektləri də vardır".[3] Bu nöqteyi-nəzərdən beynəlxalq humanitar hüququn tətbiqinin bu dörd cəhətini fərqləndirmək məqsədəmüvafiqdir.

1. Beynəlxalq humanitar hüququn müxtəlif vəziyyətlərə tətbiqi

İlk növbədə qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüquq münaqişələrin mənşəyi və xarakterindən və ya tərəflərin irəli sürdüyü səbəblərdən asılı olmayaraq bütün silahlı münaqişələrə tətbiq olunur.

Beynəlxalq humanitar hüququn bə'zi hallarda müharibə hüququ ad-

---

1 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК. М., 1997.с.23-32

2 Калугин В. Ю., Павлова Л.В., Фисенко И. В. Международное гуманитарное право. Минск Тесей.1999.с.81; Эрик Давид Принципы права вооруженных конфликтов. МККК. М., 2000. с. 176-177

3 Лукашук И.И.Международное право. Особенная часть. М., БЕК. 1997.с.278

landırılmasına baxmayaraq Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar silahlı münaqişə termininin işlədilməsinə daha üstünlük verir. Bu hər şeydən əvvəl "müharibə" anlayışının "silahlı münaqişə" anlayışına nisbətən dar həcmə malik olması ilə əlaqədardır. Belə ki, müxtəlif dövlətlər arasında baş verən silahlı münaqişələr çox vaxt müharibəyə səbəb olmur. Digər tərəfdən isə daxili silahlı münaqişələrə beynəlxalq humanitar hüquq tətbiq olunduğu halda bu münaqişələr çox vaxt müharibələrə çevrilir.

Beynəlxalq humanitar hüququn silahlı münaqişə anından tətbiq olunmağa başlanmasına baxmayaraq Cenevrə Konvensiyaları və ona Əlavə Protokollar silahlı münaqişənin dəqiq anlayışını vermir.

Qeyd etmək lazımdır ki, bir dövlətin digərinin ərazisinə qarşı qüvvə tətbiq etməsi dərhal Cenevrə Konvensiyalarının bu dövlətlər arasında münasibətlərə tətbiqinə səbəb olur. Beynəlxalq humanitar hüququ qüvvə tətbiq olunmasının səbəbləri maraqlandırmır. Ona görə də, silahlı qüvvənin tətbiqinə bəraət qazandıran halların olub-olmaması və ya onlardan açıq təcavüz üçün istifadə edilməsi beynəlxalq humanitar hüququn tətbiqi üçün əhəmiyyət kəsb etmir. Hücuma məruz qalmış tərəfin müqavimət göstərib-göstərməməsi də əhəmiyyətli deyildir. Beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən konvensiyaların tətbiqi məsələsi çox sadə həll olunur: bir dövlətin silahlı qüvvələrinin əlinə digər dövlətin silahlı qüvvələrindən yaralı və ya əsir, yaxud digər dövlətin mülkü əhalisi düşdükdə, yaxud bir dövlət digərinin ərazisinin müəyyən hissəsi üzərində nəzarəti həyata keçirməyə başladıqda onlar dərhal humanitar hüquq normalarına riayət etməyə başlamalıdırlar. Yaralı və hərbi əsirlərin sayı, işğal edilmiş ərazinin sahəsi əhəmiyyət kəsb etmir, çünki mühafizənin zəruriliyi say kriteriyasından asılı deyildir.[4]

Silahlı münaqişə anlayışı ilə əlaqədar Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının izahı da diqqəti cəlb edir.

"İttihamçı Duşko Tadiçə qarşı" işi üzrə Apellyasiya palatasının qərarında Məhkəmə qeyd etmişdir ki, "dövlətin qüvvəyə müraciət etdiyi və ya bir dövlət daxilində hökumət qüvvələri ilə mütəşəkkil silahlı qruplar və ya bu cür qruplar arasında davam edən silahlı münaqişə olduğu hər bir halda silahlı münaqişə mövcuddur".[5] K.Svinarski beynəlxalq

4 Ханс-Петер Гассер.Международное гуманитарное право. Введение. МККК.М.,1995.с.32

5 Case № IT-94-1-AR72 (2 october 1995) para 70

humanitar hüququn norma və prinsiplərinin tətbiq olunmasının dörd vəziyyətini fərqləndirir. Müəllif beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrdə beynəlxalq humanitar hüquq normalarının bilavasitə tətbiq olunmasını, daxili nizamsızlıq və daxili gərginlik zamanı isə bu hüququn yanaşı və ya analogiya üzrə tətbiqini qeyd edir.[6]

Bu cəhətdən beynəlxalq humanitar hüququn vəziyyətə görə tətbiqindən danışarkən beynəlxalq münaqişə və qeyri-beynəlxalq münaqişələr üzərində dayanmaq zəruridir.

Beynəlxalq silahlı münaqişələr zamanı dörd Cenevrə Konvensiyası və I Əlavə Protokol tətbiq olunur. Bu tətbiq sahəsi bütün Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddənin müddəalarından irəli gəlir. Burada göstərilir ki, "dinc dövrdə tətbiq edilməli müddəalara əlavə olaraq, bu Konvensiya iki və ya daha çox Razılaşmış Yüksək Tərəf arasında baş verə bilən bütün e'lan olunmuş müharibə və ya hər hansı digər silahlı münaqişə hallarına, hətta Tərəflərdən biri müharibə vəziyyətini tanımasa belə, tətbiq edilir.

Konvensiya həmçinin, Razılaşmış Yüksək Tərəflərdən birinin ərazisinin qismən və ya tamamilə işğal olunduğu bütün hallara, hətta bu işğal heç bir silahlı müqavimətlə qarşılaşmasa belə, tətbiq edilir.

Münaqişədə iştirak edən Dövlətlərdən biri bu Konvensiyanın iştirakçısı olmasa belə Konvensiyanın iştirakçısı olan Dövlətlər öz qarşılıqlı münasibətlərində Konvensiya ilə bağlı qalacaqlar. Həm də onlar yuxarıda göstərilən Dövlət barəsində Konvensiya ilə o halda bağlı olacaqlar ki, həmin dövlət Konvensiyanın müddəalarını qəbul və tətbiq etsin".

Bu maddənin məzmunundan bir daha aydın olur ki, Cenevrə Konvensiyaları iştirakçıları arasında baş vermiş hər hansı silahlı toqquşma onun miqyasından asılı olmayaraq həmin beynəlxalq hüquqi aktların tə'siri altına düşür. Cenevrə Konvensiyalarının kommentariyasında göstərilir ki, münaqişənin davam etmə müddəti, dağıdıcılıq tə'siri, qurbanların sayından asılı olmayaraq dövlətlər arasında baş verən və silahlı qüvvələrin tətbiqinə səbəb olan hər hansı bir mübahisə 2-ci maddənin mə'nasına görə silahlı münaqişə hesab olunur. İnsan şəxsiyyətinə

---

6 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК.М., 1997.с.23

hörmət qurbanların sayı ilə ölçülmür.[7] Bir yaralının,[8] bir gəmi qəzasına düşənin[9] və ya bir hərbi əsirin[10] olması da kifayətdir.

Beynəlxalq silahlı münaqişə anlayışı obyektiv xarakter daşıyır və tərəflərin bu münaqişədə münasibətindən asılı deyidir. Burada bir məsələyə də diqqət yetirilməsi məqsədəmüvafiqdir. 2-ci maddədə tərəflərdən birinin müharibəni e'tiraf etdiyi halda Cenvrə Konvensiyalarının tətbiqi zəruriliyi qeyd olunur. Bu da hər iki tərəfin müharibə vəziyyətini e'tiraf etmədiyi halda beynəlxalq humanitar hüququn tətbiqi məsələsini şübhə altına qoyur. III Cenevrə Konvensiyasının kommentariyasında bu məsələyə aydınlıq gətirilərək göstərilir ki, Cenevrə Konvensiyaları dövlətlərin maraqlarını deyil, silahlı münaqişə qurbanlarının mühafizəsini nəzərdə tutduğuna görə hər iki dövlətin müharibə vəziyyətini e'tiraf etməməsi beynəlxalq humanitar hüququn tətbiqinə heç bir maneçilik törətməməlidir.[11]

2-ci maddədə öz əksini tapmış müddəalardan biri də ondan ibarətdir ki, münaqişədə olan bir tərəf digərinin ərazisinin bir hissəsi üzərində hakimiyyətini həyata keçirməyə başladıqda Cenevrə Konvensiyaları tətbiq olunmalıdır. Bu zaman işğal edilmiş ərazinin miqyası deyil, həm də ərazidə həyata keçirilən hakimiyyətin doğurduğu nəticələr (himayədə olan şəxslər, onların əmlakı ilə rəftar) əsas götürülür.

Təcavüzün 1974-cü il BMT Baş Məclisinin XXIX sessiyasında qəbul edilmiş tə'rifinin 3-cü maddəsinin "a" bəndində dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə müdaxiləsi, hücumu və ya bu cür müdaxilə və ya hücumun nəticəsi olan və necə müvəqqəti xarakter daşımasından asılı olmayaraq hər hansı işğalı və ya onun ərazisinin bir hissəsinin ilhaqı təcavüz kimi qiymətləndirilir.

İşğal və ya ilhaq müdaxilə və ya hücumun nəticəsidir. Özünün hüquqi təbiətinə görə müdaxilə və ya hücum, işğal və ya ilhaq təcavüz aktının üçüncü mərhələsidir. İşğal müdaxilə və ya hücumun nəticəsi kimi sonunculardan birdəfəlik xarakter daşıması, təcavüzkarın silahlı qüvvələrinin başqa dövlətin ərazisində müvəqqəti mövcud olmasında öz ifadəsini tapır. Əgər müdaxilə, hücum və ya işğal müharibə vəziyyətini nəzərdə tutursa, ilhaq müharibədən sonakı vəziyyəti-işğal statusunun

7 Commentary III Geneva Convention. Geneva. ICRC. 1994.p.23
8 Commentary I Geneva Convention. Geneva. ICRC. 1994.p.12.
9 Commentary II Geneva Convention. Geneva. ICRC. 1994.p.28
10 Commentary III Geneva Convention. Geneva. ICRC. 1994.p.23
11 Commentary III Geneva Convention. Geneva. ICRC. 1994.p.47

mə'nasını bəyannamə və müqavilə ilə hüquqi cəhətdən dəyişdirilməsini, təcavüzkarın suverenliyinin tutduğu ərazilərə şamil edilməsini nəzərdə tutur.

Cenevrə Konvensiyaları işğal heç bir silahlı müqavimətlə rastlaşmadığı halda da tətbiq olunur.

Bu müddəa BMT təcrübəsində də ifadəsini tapıb. Beynəlxalq Məhkəmə 1971-ci il məsləhətverici rə'yində Namibiyanı Cənubi Afrikanının işğalına münasibətdə bir sıra humanitar konvensiyaların məcburi qüvvəsini tanımışdır. Baş Məclis 1980-ci il Qərbi Saxara haqqında qətnaməsində (35/19) Mərakeş qüvvələrinin Qərbi Saxarada olmasını hərbi işğal kimi qiymətləndirmişdir.

Beləliklə, Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddənin məzmunundan aydın olur ki, beynəlxalq xarakterli silahlı münaqişə hallarında beynəlxalq humanitar hüquq aşağıdakılardan asılı olmayaraq tətbiq olunmalıdır:

— müharibənin e'lan edilib edilməməsindən (yə'ni beynəlxalq humanitar hüquq faktiki olaraq gücdən istifadə edildiyi andan tətbiq olunmağa başlayır);

— tərəflərin müharibə vəziyyətini e'tiraf edib-etməməsindən;

— tərəflərin birinin ərazisinin bütünlüklə və bir hissəsinin işğal olunmasından;

— hücuma mə'ruz qalan tərəfin müqavimət göstərib-göstərməməsindən.

1977-ci ilə kimi beynəlxalq humanitar hüququn tanıdığı iki kateqoriya silahlı münaqişələr üçün fərqləndirici əlamət dövlət sərhədi hesab olunurdu. İki və daha artıq dövlət arasında müharibələr beynəlxalq xarakteli münaqişələr, bir dövlətin ərazisi hüdudlarında baş verən silahlı münaqişələr isə qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr (daxili münaqişə və ya vətəndaş müharibəsi) adlanırdı. Cenevrə Konvensiyalarına I Əlavə Protokol qəbul edildikdən sonra milli azadlıq müharibələri beynəlxalq silahlı münaqişə hesab olunur. I Əlavə Protokolun 1-ci maddəsinin 4-cü bəndinə əsasən Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və "Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında" bəyannamədə təsbit edilmiş öz müqəddəratını tə'yin etmək hüququnu həyata keçirmək məqsədilə xalqların müstəmləkə azadlığına, xarici işğala və irqi rejimlərə qarşı mübarizə apardıqları silahlı münaqişələr də beynəlxalq münaqişələrə aid edilmişdir.

Beləliklə, I Əlavə Protokol beynəlxalq xarakteli silahlı münaqişələr anlayışının dairəsinə bir dövlətin ərazisi hüdudlarında baş verən münaqişələri də şamil etmişdir. Bu cür münaqişələr zamanı 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və 8 iyun 1977-ci il tarixli I Əlavə Protokol tətbiq olunur. Bə'zi müəlliflər belə hesab edir ki, bu növ müharibələrin beynəlxalq silahlı münaqişə xarakteri alması BMT Nizamnaməsində əsas prinsip kimi nəzərdə tutulmuş xalqların müqəddəratını tə'yin etməsinin müasir beynəlxalq münasibətlərin əsası kimi təfsir edilməsinin nəticəsidir.[12]

Qeyd etmək lazımdır ki, beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə öz əksini tapmış müqəddəratı tə'yin etmə prinsipinə əsasən onun müddəalarından heç biri, bərabərlik və müqəddəratı tə'yin etmə prinsipi əsasında fəaliyyət göstərən və buna uyğun olaraq həmin ərazi-yə məxsus bütün xalqı təmsil edən hökuməti olan suveren və müstəqil dövlətlərin bölünməsi və ya ərazi bütövlüyünün, yaxud siyasi vahidliyin qismən, yaxud tamamilə pozulmasına razılıq verən və ya bu cür fəaliyyəti dəstəkləyən kimi təfsir olunmamalıdır.[13] Həmin müddəya əsaslanaraq hüquqşünaslar belə nəticəyə gəlirlər ki, bu cür dövlətlərdən ayrılma məqsədi ilə aparılan müharibələr müqəddəratı tə'yin etmə qaydasında həyata keçirilən beynəlxalq silahlı münaqişələrə aid deyildir.[14]

Bu məsələ 22-23 aprel 1999-cu ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Avropa Şurası Venesiya Komissiyasının əməkdaşlıq proqramı çərçivəsində keçirilmiş "Muxtariyyətin konstitusiya statusu" mövzusunda seminarda da müzakirə edilmiş və bir sıra dəyərli fikirlər irəli sürülmüşdür.[15]

---

12 Bax.Cancado Trindade. Princípios do Direito Internacional Contemporaneo. Editora Universidad de Brasilia, Brasilia, 1981, pags 71-73

13 Действующее международное право. Т.1. М.,1996. с.71-72

14 Meindersma Ch. Applicability of Humanitarian Law in International and Internal Armed Conflict// HYIL. 1994.P.122; Эрик Давид Принципы права вооруженных конфликтов. МККК. М., 2000.с.142-150

15 Bax. Выступление лектора Университета "Азербайджан" Лятифа Гусейнова, Выступление профессора Бакинского Государственного Университета Рустама Мамедова, Выступление експерта Венецианской Комиссии, профессора Страсбургского Университета госпажи Элизабет Бенуа-Роме, Выступление заведющего отделом по международно-прововым вопросам Конституционного Суда Азербайджанской Республики Вафаддина Ибаева // Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Mə'lumatı. 1999 №2. s. 35-103

Müasir beynəlxalq hüququn səciyyəvi cəhətlərindən biri də ondan ibarətdir ki, o öz qüvvəsini qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə də şamil edir.

Əvvəla, qeyd etmək lazımdır ki, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddə və 1977-ci ildə qəbul edilmiş II Əlavə Protokol tətbiq olunur. İ.İ.Lukaşuk qeyd edir ki, "beynəlxalq hüquqda "insan hüququ sahəsi"nin yaranması nəticəsində beynəlxalq humanitar hüquq qeyri-beynəlxalq xarakterli münaqişələr zamanı da insan hüquqlarının mühafizəsi vəzifəsindən kənarlaşa bilmədi".[16]

Fikrimizcə, əksinə beynəlxalq humanitar hüquq daxili silahlı münaqişələr zamanı da insan hüquqlarının mühafizəsinə həmişə can atmış, lakin bu vəzifəni yerinə yetirməyə beynəlxalq hüququn dövlətlərin daxili işinə qarışmamaq prinsipi mane olmuşdur. İnsan hüquqlarına hörmətin tə'mininin getdikcə dövlətin daxili işlərindən daha çox beynəlxalq birliyin vəzifəsinə çevrilməsi beynəlxalq humanitar hüququn bu sahədə fəaliyyəti üçün də imkanlar açır.

Beynəlxalq humanitar hüquq bu sahədə addım-addım irəli getməyə nail olmuşdur. Bu öz əksini 1949-cu il Cenevrə Konvensiyalarına 3-cü maddənin daxil edilməsi, 1977-ci ildə II Əlavə Protokolun qəbul edilməsində tapdı.

Son dövrlərin təcrübəsi göstərir ki, silahlı münaqişə eyni zamanda həm daxili silahlı münaqişə, həm də beynəlxalq xarakterli silahlı münaqişə ola bilər. Yaxud daxili münaqişə kimi başlanan silahlı münaqişə beynəlxalq silahlı münaqişəyə çevrilə bilər. BMT Beynəlxalq Məhkəməsi "Nikaraqua ABŞ qarşı" işi üzrə qərarında göstərirdi ki, beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən çoxtərəfli münaqişə iştirakçılarından asılı olmayaraq beynəlxalq və ya qeyri-beynəlxalq silahlı münaqişə ola bilər. Kontras qüvvələri və Nikaraqua arasında münaqişə qeyri-beynəlxalq xarakter daşıdığı halda, Nikaraqua və daxili münaqişəyə silahlı müdaxiləni həyata keçirən ABŞ arasında münaqişə beynəlxalq xarakter daşıyır.[17]

---

16 Лукашук И.И.Международное право. Особенная часть. М., БЕК.1997.с.276.

17 ICJ Reports, 1986. para 219

Qeyri-beynəlxalq xarakterli münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının tətbiqi nisbətən çətinlik doğurur.[18] Burada ilk növbədə beynəlxalq xarakterli silahlı münaqişə ilə qeyri-beynəlxalq xarakterli silahlı münaqişə arasında fərq müəyyənləşdirilməlidir. Əvvəla, bu münaqişələr zamanı qarşı-qarşıya duran tərəflərin hüquqi statusu fərqlidir. Beynəlxalq xarakterli silahlı münaqişələrin subyekti suveren dövlətlər və ya milli azadlıq hərakatı, qeyri-beynəlxalq xarakterli münaqişədə isə hökumət qüvvələri və bir və ya bir neçə silahlı birləşmə olur.

İkincisi, beynəlxalq silahlı münaqişələrə tətbiq olunan beynəlxalq humanitar hüquq normaları daha geniş dairəni əhatə edir. Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə yalnız Cenevrə Konvensiyası üçün ümumi olan 3-cü maddə və II Əlavə Protokol tətbiq olunur. Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddənin tətbiqi şərtlərinin müəyyən edilməsində konkretlik azdır. Burada iki kriteriya fərqləndirilir:

— silahlı münaqişənin mövcudluğu;

— silahlı münaqişənin qeyri-beynəlxalq xarakteri.

II Əlavə Protokolun 1-ci maddəsində qeyri-beynəlxalq xarakterli silahlı münaqişlərin anlayışı verilmişdir. Burada göstərilir ki, "1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddənin mövcud tətbiq şərtlərini dəyişdirmədən onu inkişaf etdirən və tamamlayan bu Protokol 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına əlavə olunan və beynəlxalq silahlı münaqişə qurbanlarının himayəsinə həsr edilən Protokolun (I Protokolun) 1-ci maddəsi ilə tənzimlənməyən və Razılaşmış Yüksək Tərəfin ərazisində baş verən, onun silahlı qüvvələri ilə məs'ul rəhbərlik altında olaraq, bu ərazinin bir hissəsinə nəzarət edən, bunun sayəsində fasiləsiz və uyğunlaşdırılmış hərbi əməliyyatlar aparmaq və bu Protokolu tətbiq etmək imkanına malik olan hökumət əleyhinə silahlı qüvvələr və ya digər mütəşəkkil silahlı qruplar arasında cərəyan edən bütün silahlı münaqişələrə tətbiq edilir.

---

18 Bax. Araceli Mangas Martin. Conflictos armados internos y derecho international humanitario. Ediciones Universidad de Salamanca, 1992; Альберто Гваделупе Фернандеш де Кастро. Международно- правовая регламентация внутренних вооруженных конфликтов // Московский журнал международного права 1/2000/37. Январь-март.с.90-106

Bu Protokol iğtişaşlar, ayrıca və nizamsız zorakılıq əməlləri və digər oxşar xarakterli əməllər kimi daxili nizamsızlıq və gərginlik hallarına, onlar silahlı münaqişə olmadığına görə şamil edilmir".

II Əlavə Protokol Cenevrə Konvensiyalarına əlavə kimi qəbul olunduğuna görə ümumi 3-cü maddə müstəqil olaraq mövcudluğunu saxlayır.[19]

II Əlavə Protokolun 1-ci bəndi bir tərəfdən Protokolla ümumi 3-cü maddə arasında əlaqəni, digər tərəfdən isə onda I Əlavə Protokolun 1-ci maddəsinə istinad edilməklə beynəlxalq silahlı münaqişələrlə qeyri-beynəlxalq silahlı münaqişələr arasında fərqi müəyyən edir. Eyni zamanda bu maddədə protokolun tətbiqi hallarını müəyyən edən obyektiv kriteriyalar da öz əksini tapmışdır. II Əlavə Protokol ümumi 3-cü maddənin tətbiqinin mövcud şərtlərini dəyişmədən nəzərdə tutulmuş qısa müddəaları inkişaf etdirir və tamamlayır. 3-cü maddə və II Əlavə Protokolun tətbiqi sahəsi münaqişənin intensivliyindən asılıdır. Protokulun tətbiqi şərtlərinə cavab verən hallarda Protokol və 3-cü maddə eyni vaxtda tətbiq olunur. Çünki Protokolun tətbiq sahəsi 3-cü maddənin tətbiq sahəsindən daha geniş dairəni əhatə edir. Digər tərəfdən intensivlik dərəcəsi yüksək olmayan və Protokolun tətbiq olunması üçün tələb olunan xarakterik xüsusiyyətlərə malik olmayan münaqişələrə ancaq ümumi 3-cü maddə tətbiq olunacaqdır. Beləliklə, II Əlavə Protokoldan asılı olmayaraq 3-cü maddə öz tətbiq sahəsini qoruyub saxlayır. Bu cəhətin üstünlüyü ondadır ki, o mühafizənin aşağı səviyyəsi üçün tə'minat verir.

ABŞ tərəfindən II Əlavə Protokol imzalanarkən onun tətbiq sahəsinin genişləndirilməsi məqsədilə Protokolun Cenevrə Konvensiyalarının ümumi 3-cü maddəsinin tətbiqi hallarına şamil edilməsi barədə bəyanat verilmişdir. Rene Kozirnik bunu təqdirəlayiq hal hesab edir və digər dövlətləri də bu nümunədən istifadə etməyə çağırır.

II Əlavə Protokolun 1-ci maddəsi nizama saldığı münaqişələr sırasından I Əlavə Protokolun 1-ci maddəsində nəzərdə tutulmuş münaqişələri istisna etməklə beynəlxalq və qeyri-beynəlxalq münaqişələr arasında fərqi müəyyənləşdirir. Münaqişənin hansı kateqoriyaya aid olma-

---

19 Рене Козирник. Международное гуманитарное право. Страсбург. 1988. с. 11.

sından asılı olaraq bir-birinə qarşı duran tərəflər fərqlənirlər. Qeyri-beynəlxalq silahlı münaqişələrdə mübarizəyə cəlb olunmuş tərəflərin hüquqi statusu əhəmiyyətli dərəcədə fərqlənir. Hökumət əleyhinə silahlı qüvvələr(adətən əhalinin bir qrupu) hakimiyyətdə olan və dövlət səlahiyyətlərini yerinə yetirən hökumətə qarşı vuruşur. Bu fərq protokolun tətbiqinin yuxarı həddini müəyyən edir.

Bu bənddə protokolun tətbiqi sahəsinin müəyyən edilməsi üçün obyektiv kriteriyalar müəyyən eilmişdir. Onun tətbiqi tərəflərin razılığından asılı deyildir. Bu maddədə nəzərdə tutulan şərait mövcud olduqda protokol avtomatik olaraq tətbiq olunur.

II Əlavə Protokolun tətbiq olunması üçün aşağdakı obyektiv kriteriyaların mövcudluğu zəruridir:

1. **Qarşı-qarşıya duran tərəflər.** Protokol bir tərəfdən hökumət silahlı qüvvələri, digər tərəfdən isə hökumət əleyhinə çıxmış silahlı qüvvələrin qarşı-qarşıya dayandığı hallarda tətbiq olunur. Bu kriteriya qarşıdurmanın kollektiv xarakterini şərtləndirir. Ayrı-ayrı fərdlərin qarşıdurması hallarında bu protokolun tətbiqi mümkün deyildir. Yə'ni daxili gərginlik və ictimai qaydanın pozulması hallarında meydana çıxan ayrı-ayrı separatçı, anarxist, hökumət əleyhinə çıxışlar qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə aid edilə bilməz. Eyni zamanda döyüş əməliyyatlarında bir tərəfdən hökumətin silahlı qüvvələrinin (burada silahlı qüvvələr termini-nizami silahlı qüvvələrlə yanaşı milli qvardiya, kömrük xidməti, polis qüvvələri və digər bu cür qüvvələri də əhatə edir), digər tərəfdən isə hökumətə qarşı çıxan qüvvələrin dayanması zəruridir.

2. **Məs'ul komandanlıq.** Məs'ul komandanlığın olması qiyama qalxan hökumətə qarşı silahlı qrupların müəyyən dərəcədə təşkil olunmasını nəzərdə tutur. Bu elə təşkilat olmalıdır ki, bir tərəfdən hərbi əməliyyatları fasiləsiz və uyğunlaşdırılmış qaydada planlaşdıraraq həyata keçirə bilsin, digər tərəfdən faktiki hakimiyyəti adından intizam yarada bilsin.

3. **Müəyyən ərazi üzərində nəzarət.** Qiyamçılar nəinki müəyyən ərazi üzərində nəzarəti həyata keçirməli, həm də orada hakimiyyət səlahiyyətlərini, o cümlədən hərbi əmliyyatların planlaşdırılması və həyata keçirməsini də bacarmalıdırlar. Burada ərazinin həcmi konkret olaraq müəyyən edilmir, lakin bu ərazi fasiləsiz və uyğunlaşdırılmış hərbi əmliyyatlar keçirməyə və protokolu tətbiq etməyə, yə'ni yaralı və xəstələrə xidmət, hərbi əsirləri saxlamağa imkan verməlidir.

4. Hərbi əməliyyatların fasiləsiz və uyğunlaşdırılmış xarakteri. "Fasiləsizlik" — ara vermədən davam etmə, arasıkəsilməzlik, aramsızlıq deməkdir.[20] "Uyğunlaşdırmaq" isə uyğun hala gətirmək, müvafiq hala gətirmək, müvafiqləşdirmək deməkdir.[21] Aydın olur ki, burada hərbi əməliyyatların ara vermədən uyğun halda aparılması nəzərdə tutulur.

5. Protokolu tətbiq etmək qabiliyyətində olmaq. Burada hökumətə qarşı çıxan qüvvələrin protokolu tətbiq etmək imkanına malik olması nəzərdə tutulur. Bunun üçün isə müvafiq infrastrukturun olması zəruridir.

II bənddə protokolun tətbiqini istisna edən hallar nəzərdə tutulub. Bu bəndlə Protokol və 3-cü maddənin tətbiqinin aşağı həddi müəyyənləşdirilmişdir.

Daxili intizamsızlıq elə bir vəziyyətdir ki, burada dövlətdaxili toqquşma, münaqişə müəyyən dərəcədə ağırlığa və gərginliyə malik olur. Belə vəziyyətlərdə müəyyən zorakılıq aktları müşahidə olunur, lakin dövlətdə qeyri-beynəlxalq xarakterli silahlı münaqişə mövcud olmur. Bu aktlar müxtəlif formalarda — kortəbii üsyanlar, az-çox təşkilatlanmış qrupların öz aralarında və ya hakimiyyətdə olan hökumət arasında mübarizə formasında ola bilər. Bu cür vəziyyətlər hökmən açıq mübarizəyə çevrilmir. Hökumət kifayət qədər ordu və polis qüvvəsindən istifadə etməklə qaydanı bərpa etmək üçün istifadə etməyə çalışır.[22]

Daxili gərginlik şəraiti ayrı-ayrı kəskin toqquşmalarda ifadə olunsa da zorakılıq dərəcəsi bir o qədər də yüksək olmur. Bu gərginlik dövlətdə siyasi, dini, irqi, sosial münaqişə və ya daxili intizamsızlıq hallarında yaradılır. Belə hallarda aşağadakılar müşahidə edilir:

— kütləvi həbslər;

— siyasi məhbusların çoxluğu;

— tutulanlarla pis rəftar və ya onların qeyri-humanitar şəraitdə saxlanması;

— əsas məhkəmə tə'minatlarının fəaliyyətinin dayandırılması;

— itkin düşmə hallarının çoxalması.[23]

---

20 Azərbaycan dilinin izahlı lüğəti. IV cild. S-Ş. Bakı. Elm. 1987.s.269

21 Azərbaycan dilinin izahlı lüğəti. IV cild. S-Ş. Bakı. Elm. 1987.s.229

22 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК.М., 1997.с.25-26; Вах. Деятельность Международного Комитета Красного Креста в обстановке насилия внутри страны. М., МККК. 1995.с.15-17

23 Комментарий к дополнительному протоколу II МККК.М., 1998.с.68

Svinarski belə hesab edir ki, daxili intizamsızlıq və daxili gərginlik hallarında beynəlxalq humanitar hüquq normalarının tətbiqi analogiya-ya əsasən həyata keçirilə bilər.[24]

2. Beynəlxalq humanitar hüququn zamana görə tətbiqi

Beynəlxalq humanitar hüquq normalarının zamana görə tətbiqinin 3 növü fərqləndirilir.[25]

Birinci qrup normalara münaqişədə olan tərəflər arasında hərbi əməliyyatların başlanması ilə tətbiq olunması başlanan və fəal hərbi əməliyyatların dayandırılması ilə tətbiqi dayandırılan normalar aid edilir.

Beynəlxalq humanitar hüquq normalarının əksəriyyəti bu kateqoriyaya aiddir. 1949-cu il Cenvrə Konvensiyaları və 1977-ci il Əlavə Protokolları normalarının əksəriyyəti məhz silahlı münaqişənin başlanması ilə tətbiq olunmağa başlayır və fəal hərbi əmliyyatların dayandırılması, başa çatması ilə onların tətbiqi dayandırılır. Məsələn, yaralı və xəstələrlə humanist rəftar, tibbi birləşmələrə həmlə etməmək, mülki əhalinin mühafizəsi və sair normaları bura aid etmək olar.

İkinci qrup normaları tətbiqi üçün zaman məhdudiyyəti olmayan normalar təşkil edir. Bu cür normalar müqavilə qüvvəyə minəndən sonra daim tətbiq olunur. Bu cür normalar üçün silahlı münaqişələrin olub olmaması əhəmiyyət kəsb etmir. Məsələn, I Cenevrə Konvensiyasının 47-ci, II Cenevrə Konvensiyasının 48-ci, III Cenevrə Konvensiyasının 127-ci, IV Cenevrə Konvensiyasının 144-cü, I Əlavə Protokolun 83-cü və II Əlavə Protokolun 19 maddələrinə əsasən iştirakçı dövlətlər öz ölkələrinə həm müharibə, həm də sülh dövründə konvensiya və protokolların mətnlərinin geniş yayılması, o cümlədən onları hərbi və mülki təhsil proqramlarına daxil edilməsi üçün tədbir görməlidirlər.

Bundan başqa, qanunvericilik xarakterli bə'zi tədbirlər dinc dövrdə

---

24 Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК.М., 1997.с.25

25 Bax: Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК.М., 1997.с.27; Калугин В.Ю., Павлова Л.В.,Фисенко И.В. Международное гуманитарное право. Минск Тесей.1999.с.67

qəbul edilməlidir. Məsələn, Cenevrə Konvensiyaları və Əlavə Protokolların ciddi pozuntularını törətmiş və ya bu barədə əmr vermiş şəxslərin səmərəli surətdə cəzalandırılmasının tə'mini üçün cinayət qanunvericiliyinə müvafiq normaların daxil edilməsi və yaxud Qırmızı Xaç və ya Qırmızı Aypara emblemінin mühafizəsinin tə'min edilməsi üçün müvafiq qanunvericiliyin qəbul edilməsi barədə normalar silahlı münaqişə ilə bağlı olmayan normalardır. "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 14 may 1954-cü il Haaqa Konvensiyasının 28-ci maddəsinə əsasən, sazişə gələn Yüksək Tərəflər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından asılı olmayaraq, həmin Konvensiyanı pozmuş və ya pozmağa əmr etmiş şəxslərin üzə çıxarılması barəsində cinayət sanksiyaları, yaxud inzibati sanksiyalar tətbiq edilməsi üçün bütün lazımı tədbirləri görməyi öhdələrinə götürürlər.

Üçüncü qrup normalar özlərinin hüquqi təbiətinə görə ratio leqis — müvafiq vəzifələrin həyata keçirilməsinə qədər fəaliyyət göstərən normalardır. Bu cür normalara məqsədi silahlı münaqişə qurbanlarını ailə və ictimai əlaqələrinin qorunması və bərpası olan mərkəzi mə'lumat agentliyinin fəaliyyətini nizama salan normaları aid etmək olar (III CK-nın 122,123, IV CK-nın 140, I Ə. P. 33, 34-cü maddələri). Bu əlaqələrin qorunması və bərpası vəzifələrinin həlli bir qayda olaraq silahlı münaqişənin özündən artıq davam edir. Beləliklə, bütün, həm hərbi, həm də mülki yaralı və xəstələr və gəmi qəzasına düşənlər azad və repatriasiya ediləndən sonra I və II Cenevrə Konvensiyalarının tətbiqi dayandırılır. Bütün hərbi əsirlər tam azad, repatriasiya edildikdən və ya vətənə qaytarıldıqdan sonra III Cenevrə Konvensiyasının tətbiqi dayandırılır (III CK mad. 5). Bütün işğal edilmiş ərazilər azad edildikdən sonra işğal edilmiş ərazilərdə bütün tərksilah edilib nəzarət altına alınmış şəxslər azad, repatriasiya edildikdən və öz əvvəlki yaşayış yerlərinə qaytarıldıqdan və yerbəyer edildikdən sonra IV CK-nın tətbiqi dayandırılır. Göründüyü kimi beynəlxalq humanitar hüquq normalarının zamana görə tətbiqi silahlı münaqişələrin başlanması və qurtarması ilə əsasən bağlıdır. Silahlı münaqişənin zaman sərhədini münaqişənin başlanması ilə qurtarması arasında vaxt müəyyən edir. Müasir beynəlxalq hüquqda müharibənin başlanması anlayışı müəyyənləşdirilmişdir. Lakin bu anlayış ancaq beynəlxalq silahlı münaqişələri əhatə edir.

"Müharibənin başlanması" anlayışının hüquqi məzmunu zaman keçdikcə əhəmiyyətli dəyişikliyə uğramışdır. 1907-ci ilə kimi adət hüquq

normalarına əsasən müharibə e'lan edilməklə başlanırdı.

1907-ci ildə qəbul edilmiş hərbi əmliyyatların başlanması haqqında III Haaqa Konvensiyası müharibənin başlanmasının xüsusi qaydasını müəyyən etdi. Belə ki, Konvensiyaya qoşulmuş dövlətlər qabaqcadan birmə'nalı surətdə xəbərdar edilməlidir.[26] Lakin müharibənin e'lan edilməsi qeyri-qanuni müharibəni qanuni müharibəyə çevirmir.

BMT Baş Məclisi tərəfindən qəbul edilmiş təcavüzün tərifinin 3-cü maddəsində təcavüz aktı kimi qiymətləndirilən hərəkətlərin müharibənin e'lan edilib-edilməməsindən asılı olmaması öz əksini tapmışdır.

3-cü maddə nəzərdə tutulan müddəalara əsasən silahlı qüvvələrin real tətbiqi ilə müşahidə olunmayan müharibənin e'lan edilməsi özü-özlüyündə təcavüz kimi tövsif oluna bilməz. Çünki müharibənin e'lan edilməsi özündə BMT Nizamnaməsində silahlı qüvvənin tətbiqini əks etdirməyən hüquqi aktdır. Müharibənin e'lan edilməsi silahlı qüvvələrin tətbiqi, silahlı hücumla müşahidə olunmadıqda təcavüz aktı kimi deyil, hədə-qorxu kimi qiymətləndirilməlidir. Müasir beynəlxalq hüquqa görə həm e'lan olunmuş, həm də e'lan olunmamış müharibə qeyri-qanunidir. Müharibənin e'lan edilməsi təcavüzkarı məs'uliyyətdən azad etmir.

Təcavüzkar müharibənin e'lan edilmədən başlanması icə təcavüzkarın məs'uliyyətini yüksəldən ağırlaşdırıcı hal kimi qiymətləndirilir.[27]

Müharibənin e'lan edilməsi dövlət hakimiyətinin ali orqanlarının səlahiyyətlərinə aiddir. Rusiya Konstitutsiyası 106 maddəsinin "E" bəndinə əsasən müharibə və sülh məsələləri Federal Məclisin səlahiyyətlərinə aiddir. Azərbaycan Respublikası Konstitutsiyasının 95-ci maddəsinin 17-ci bəndinə əsasən Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə e'lan edilməsi və sülh bağlanmasına razılıq verir. Konstitutsiyasının 109-cu maddəsinin 30-cu bəndinə əsasən isə Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə e'lan edir və sülh bağlayır. Konstitutsiyanın 111-ci maddəsində hərbi vəziyyətin e'lan edilməsi qaydası nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan

---

26 Bax. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. МККК. М., 1999. с. 15.

27 Арцибасов И.Н. Международное право (законы и обычаи войны). М.,1975.с.22-23.

Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə e'lan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət e'lan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Müharibə e'lan edilməsinin hüquqi nəticələri aşağadılara səbəb olur: diplomatik və konsul münasibətləri kəsilir (diplomatik və konsul hey'ətinin mühafizəsi və düşmən ərazisini maneəsiz tərk etməsi tə'min olunur, düşmən tərəfin fiziki və hüquqi şəxsləri ilə iqtisadi ticarət maliyyə və digər münasibətlər və əqdlər ləğv və qadağan olunur; dinc münasibətlər üçün iqtisadi, siyasi və digər müqavilələr öz qüvvəsini itirir. Çoxtərəfli müqavilələr (məsələn, nəqliyyat, rabitə, ticarət sahəsində) döyüşən tərəflər üçün qüvvəsini dayandırır. Göstərilənlərdən fərqli olaraq müharibənin başlanması ilə beynəlxalq humanitar hüquq normaları öz fəaliyyətinə başlayır. Bu müqavilələrin xarakterik cəhəti ondadır ki, onlar silahlı münaqişənin iştirakçısı olanlar tərəfindən müharibə vaxtı e'tibarsız e'lan edilə bilməz.

Beynəlxalq humanitar hüquq normalarının tətbiqinə silahlı münaqişənin başa çatması ilə xitam verilir. Lakin nəzərə almaq lazımdır ki, beynəxalq humanitar hüquq nöqteyi-nəzərindən silahlı münaqişənin başa çatması anı hərbi əməliyyatların başa çatması ilə deyil, Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollarda nəzərdə tutulmuş humanitar problemlərin başa çatması ilə əlaqədardır. Bu iki cəhət çox vaxt zaman e'tibarı ilə üst-üstə düşmür.

3. Beynəlxalq humanitar hüququn ayrı-ayrı şəxslərə münasibətdə tətbiqi

Cenevrə Konvensiyaları və Əlavə Protokollarda nəzərdə tutulmuş bütün normalar bu və ya digər formada silahlı münaqişə zamanı insanın mühafizəsinə yönəlmişdir. Beynəlxalq humanitar hüququn şəxslərə münasibətdə tətbiqini ilk növbədə müharibə qurbanı anlayışının müəyyən edilməsi ilə əlaqələndirilir və göstərilir ki, beynəlxalq humanitar hüquqda qurban anlayışı tam və ya potensial olaraq ziyan vurduğu şəxslər və ya yaralanma, xəstəlik və ya əsir düşmə nəticəsində döyüş

əməliyyatlarında iştirak edə bilməyən kombatantı əhatə edir.[28]

Fikrimizcə, Cenevrə Konvensiyaları və Əlavə Protokolların müddəaları iki — "kombatant" və "himayədə olan şəxslər" anlayışı ətrafında qurulmuşdur.

Qeyd etmək lazımdır ki, bu anlayışlar formal olaraq beynəlxalq xarakterli silahlı münaqişələri tənzimləyən normalara aiddir. II Əlavə Protokol döyüş əməlliyyatlarında iştirak edən şəxslər üçün xüsusi olaraq status nəzərdə tutmur və himayədə olan şəxslərin ayrı-ayrı kateqoriyalarını müəyyən etmir. II Əlavə Protokol ancaq döyüş əməliyyatlarında iştirak edən şəxslərlə döyüş əməliyyatlarında iştirak etməyən şəxsləri fərqləndirir.

"Kombatant" anlayışı I Əlavə Protokolun 43-cü maddəsinin 2-ci bəndində müəyyənləşdirilib. Orada göstərilir ki, "münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin üzvləri (III Konvensiyanın 33-cü maddəsində göstərilən tibbi və ruhani hey'ətindən başqa) döyüşçüdürlər, yə'ni döyüş əməliyyatlarında bilavasitə iştirak etmək hüququna malikdirlər".

Himayədə olan şəxslər anlayışı sıradan çıxmış və döyüş əməliyyatlarında iştirak etməyən kombatant anlayışından genişdir. Himayədə olan şəxs Cenevrə Konvensiyaları və I Əlavə Protokola müvafiq olaraq xüsusi statusu və xüsusi mühafizə hüququ olan şəxslərdir. Himayədə olan şəxs statusuna hərbi əməliyyatlarda iştirak etməmiş və etməyən şəxslər və yaralanma (xəstələnmə, gəmi qəzasına düşmə), əsir düşmə nəticəsində hərbi əmliyyatlarda iştirak etməyi dayandırmış kombatantlardır. Cenevrə Konvensiyalarından hər biri himayədə olan bir kateqoriya şəxslərin mühafizəsini nəzərdə tutur. I Əlavə Protokol isə Konvensiyanın müddəalarını tamamlayır və inkişaf etdirir.

I Cenevrə Konvensiyası quru döyüşlərində yaralı və xəstələrin, II Cenevrə Konvensiyaları dəniz döyüşlərində yaralı, xəstə və gəmi qəzalarına düşənlərin himayəsinə həsr olunmuşdur. Bütövlükdə himayədə olan şəxslərin mühafizəsi prinsipləri I və II Protokollarda oxşardır.

I Əlavə Protokol silahlı qüvvələrin tərkibindən və ya mülki şəxslərdən olmasından asılı olmayaraq bütün yaralı xəstə və gəmi qəzasına

---

28 Bax: Кристоф Свинарски. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. МККК.М., 1997.с.28; Калугин В.Ю., Павлова Л.В.,Фисенко И.В. Международное гуманитарное право. Минск Тесей.1999.с.79.

düşərlərin himayəsini əhatə edir.

"Yaralılar" və "xəstələr" dedikdə, zəhərlənmə, xəstəlik və ya fiziki və ya ruhi nasazlıq və əlillik nəticəsində tibbi yardıma və ya qulluğa ehtiyacı olan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Bu terminlər həmçinin, zəhlara, yeni doğulmuş körpələrə və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən digər şəxslərə, məsələn, taqətsiz şəxslərə və ya hamilə qadınlara aiddir.

"Gəmi qəzasına uğrayanlar" dedikdə, onların və ya onları daşıyan gəminin və ya uçuş aparatının düçar olduğu fəlakət nəticəsində dənizdə və ya başqa sularda təhlükəyə mə'ruz qalan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Həmin şəxslər hər hansı düşmənçilik hərəkətlərindən çəkinməkdə davam edərlərsə, Konvensiyalara və Protokola uyğun olaraq, başqa status alanadək xilas edildikləri müddətdə gəmi qəzasına uğramış şəxslər sayılmaqda davam edirlər.

III Cenevrə Konvensiyası üçün əsas himayə kriteriyası hərbi əsir, IV Cenevrə Konvensiyası üçün isə mülki əhalidir. Bundan başqa Cenevrə Konvensiyaları və I Əlavə Prtokol xüsusi kateqoriyalı şəxslərə, o cümlədən tibbi və ruhani hey'ətə (I CK mad 24-27; II CK mad 36, 42; I Ə. P. mad. 14-16), uşaq və qadınlara (IV CK mad. 24-27; I Ə. P. mad. 76, 77), ayrı düşmüş ailələrə, qaçqınlara, apatridlərə, jurnalistlərə (IV CK mad. 44, 70; I Ə. P. mad. 73) xüsusi maksimum mühafizə təqdim edir. Himayədə olan şəxslər üçün mühüm şərt-hərbi əməliyyatlarda iştirak etməmək, hakimiyyətində olduğu tərəfə qarşı hər hansı düşmənçilikdən çəkinməkdir. Onlar bu şərtlərə riayət edilənə kimi himayədən istifadə edirlər. Ancaq kombatant statusu hərbi əməliyyatlarda iştirak etməyə əsas verir.

Əgər himayədə olan şəxs silaha sarılarsa o dərhal statusunu itirir və bu zaman kombatant statusu qazanmır.

Öz hərəkətlərinə görə himayədə olan statusunu itirən şəxs qeyri-qanuni silah tətbiqinə görə məs'uliyyət daşıyır.

Cenevrə Konvensiyaları eyni zamanda minimum mühafizəni də nəzərədə tutur. Yə'ni tam mühafizəyə hüququ olmayan şəxslər də müəyyən tə'minata malik olurlar. Bunlara məsələn, casuslar (I Ə. P. mad. 46.), muzdlular (I Ə. P. mad. 47.) aiddirlər. Onlar hərbi əsir statusuna malik olmasalar da Cenevrə Konvensiyalarına müvafiq olaraq əsas tə'minatlardan istifadə edirlər.

III Cenevrə Konvensiyaları digər kateqoriya şəxslərin, yə'ni hərbi əsirlərin mühafizəsini nəzərdə tutur. Hərbi əsir münaqişədə olan tərəflərdən birinin silahlı qüvvələrinə məxsus şəxsin düşmən tərəfin hakimiyyəti altına düşməsidir. Yə'ni düşmən tərəfin hakimiyyəti altına düşən hər hansı kombatant hərbi əsir hesab olunur.

Cenevrə Konvensiyaları işğal olunmuş ərazidə silahlı qüvvələrə mənsubluğuna görə tutulmuş, lakin kombatant olmayan neytral dövlətlərin tərksilah edilib nəzarət altında saxlananları üçün də hərbi əsirlərə bərabər davranış tə'min edir. Lakin onlar hərbi əsir hesab olunmur (III CK mad. 4 və I. Ə. P. mad. 43, 44, 67.). III Cenevrə Konvensiyası münaqişə zonasında öz peşə vəzifələrini yerinə yetirən jurnalistlərin mühafizəsini nəzərdə tutur və onları mülki şəxslər kimi qiymətləndirir. Jurnalistlərin mühafizəsi üzrə tədbirlər I Əlavə Protokolda daha da tamamlanır (III CK mad. 4. A bəndi; I Ə. P. mad. 79.). IV Cenevrə Konvensiyası mülki əhalinin mühafizəsini nəzərdə tutur. Mülki əhalini silahlı qüvvələrə daxil olmayan şəxslər təşkil edir. Mülki əhalidən bə'ziləri xüsusi himayədən istifadə edir. Onlara əcnəbilər (IV CK mad. 28, 35, 36), qaçqınlar, apatridlər (IV CK mad. 4, 78, 82, 114-116, 133 və 134), nəzarət altında saxlanan mülki şəxslər (I Ə. P. mad. 13-18) aiddirlər.

4. Beynəlxalq humanitar hüququn əraziyə görə tətbiqi

Beynəlxalq müqavilə hüququ haqqında Vyana Konvensiyasının 29-cu maddəsinə əsasən müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa və ya müqavilədən aydın görünmürsə müqavilə hər bir iştirakçı üçün onun bütün ərazisində məcburidir. Bu öhdəlik hər bir iştirakçı dövlətin öz ərazisində müqaviləni həyata keçirməsini tə'min etməyi nəzərdə tutur.[29]

"İştirakçı dövlətin bütün ərazisi termini təkcə dövlət ərazisinin deyil, beynəlxalq hüquqa müvafiq olaraq dövlətin bu hüduddan kənarda yurisdiksiyasının bu və ya digər dərəcədə şamil olunduğu məkanı da nəzərdə tutur."

---

29 Лукашук И.И.Международное право. Общая часть. М., БЕК.1997.с.213

"İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 1-ci maddəsində istifadə olunan "yurisdiksiya" anlayışı bir neçə dəfə Avropa Komissiyası və Məhkəməsinin baxışı predmeti olmuşdur. Ümumi qaydaya əsasən dövlət öz yurisdiksiyasını özü müəyyən edir. Bu zaman dövlət beynəlxalq hüquqla, o cümlədən Konvensiya ilə müəyyən edilmiş məhdudiyyətləri nəzərə almağa borcludur. Konvensiyanın 63-cü maddəsinə əsasən Razılaşmış Tərəflər Konvensiyanın qüvvəsini "bütün ərazisinə və ya beynəlxalq münasibətlərinə görə məs'uliyyət daşıdığı hər bir əraziyə" şamil etməlidir. Lakin Komissiya və Məhkəmə 1-ci maddədə istifadə olunan yurisdiksiya anlayışını təfsir edərək izah etmişdir ki, yurisdiksiya anlayışı özündə dövlətin orqanları və hakimiyyəti tərəfindən ayrı-ayrı şəxslər üzərində həyata keçirilən yurisdiksiyasını ehtiva edir. 23 mart 1995-ci ildə Loizidunun işi üzrə məhkəmə qərarında bu müddəanın təfsiri öz ifadəsini tapmışdır. Orada göstərilir ki, yurisdiksiya anlayışı həmin yurisdiksiyanın Yüksək Razılaşmış Tərəflərin dövlət ərazisində tətbiqi ilə məhdudlaşmır. Dövlət qanuni və ya qeyri-qanuni apardığı hərbi əməliyyatlar nəticəsində öz dövlət ərazisindən kənarda hər hansı əraziyə nəzarət edirsə həmin ərazidə də Konvensiyanın pozulmasına görə mə'suliyyət daşıyır.[30] Deməli, Məhkəmənin verdiyi təfsir ilə Konvensiyanın qüvvədə olduğu ərazi dairəsi dövlət ərazisindən kənara çıxır.[31]

Ərazi yurisdiksiyası ilə əlaqədar olaraq beynəlxalq müqavilələr universal, regional subregional və yerli müqavilələrə ayrılır. Beynəlxalq humanitar hüquq sahəsində bağlanmış müqavilələr bir qayda olaraq universal müqavilələrdir. Bu cəhətdən Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar universal müqavilələrə şamil edilir. Beynəlxalq humanitar hüquq döyüş əməliyyatlarının harada keçrilməsindən asılı olmayaraq öz tə'sirini göstərir. Lakin onun tə'sir dairəsinin ərazi aspektinə daxil olan müharibə meydanı, hərbi əməliyyatlar meydanı kimi anlayışları fərqləndirmək lazımdır.

Müharibə meydanı döyüşən tərəflərin bütün ərazisini (quru, hava və su ərazisi), onların potensial olaraq hərbi əmliyyatlar apara biləcəkləri sahil dövlətlərin ərazi sularından kənarda yerləşən su və onun üzərindəki hava ərazisini əhatə edir.

---

30 Bax: Loizidunun işi üzrə 23 mart 1995-ci il Məhkəmə qərarı. Series A, No. 310, p 24, para 62

31 Bu barədə ətraflı bax: Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев.2000.с. 101-110.

Q.M.Melkov tərəfindən bu əraziyə kosmik məkan da şamil edilmişdir. Müəllif eyni zamanda müharibə meydanı və hərbi əməliyyatlar meydanı anlayışlarını fərqləndirmir.[32] Fikrimizcə, kosmik məkanın müharibə meydanı anlayışına daxil edilməsi düzgün deyil. İ.İ.Lukaşukun qeyd etdiyi kimi yalnız tərəflərin hərbi əmliyyatlar aparmağa hüququ olduğu ərazi müharibə meydanına şamil edilə bilər.[33] Kosmik ərazidə hərbi əmliyyatların aparılması qadağan olunduğuna görə həmin ərazi müharibə meydanına daxil edilə bilməz.

Hərbi əmliyyatlar meydanı (teatrı) dedikdə, döyüşən tərəflərin silahlı qüvvələrinin faktiki olaraq hərbi əməliyyatlar keçirdiyi ərazi başa düşülür. Müharibə meydanına bir neçə hərbi əməliyyatlar meydanı daxil ola bilər.[34]

Son vaxtlar göstərilənlərlə yanaşı hərbi əmliyyatlar zonası terminindən istifadə olunur. Bu termin bir qayda olaraq dəniz döyüşləri zamanı işlədilir və bu beynəlxalq hüququn dənizdə müharibə aparmaq üçün müəyyən sərhəd və ya xüsusi zona müəyyən etməməsi ilə əlaqədardır. Lakin beynəlxalq təcrübə göstərir ki, bir çox dövlətlər neytral və döyüşdə iştirak etməyən dövlətlər üçün təhlükəsizliyin tə'min edilməsi bəhanəsi ilə dənizdə hərbi əməliyyatlar aparmağa xüsusi zona müəyyən edirlər. Bu zonalar müxtəlif cür-müdafiə, əməliyyat, patrul, baxış, mühasirə və sair adlandırılır. Bu cür zonalar müəyyən edən dövlətlər digər dövlətləri xəbərdar edir və orada beynəlxalq gəmiçilik, hava naviqasiyası üçün mühüm məhdudiyyətlər, hətta tam qadağanlar müəyyən edir. Məsələn, ABŞ Vyetnam ətrafında 100 minlik hərbi əməliyyatlar zonası, İngiltərə Folklend adaları ətrafında 200 mil məsafədə "müharibə zonası" (1982), Misir və Suriya Aralıq və Qırmızı dənizdə hərbi əməliyatlar rayonu (1973), İran-İraq müharibəsində İran dənizdə müstəsna zona müəyyən etmişdi.

İngiltərə Folklend adaları ətrafında 200 mil ərazidə olan gəmiləri düşmən gəmisi kimi qiymətləndirmək və onlara Britaniya silahlı qüvvələrinin hücum etmək səlahiyyətinin olduğunu e'lan etmişdi. Bütün

---

32 Международное публичное право. Под.ред. К.А. Бекяшева.-М., Проспект.1999.с.570-571

33 Лукашук И.И.Международное право. Особенная часть. М., БЕК.1997.с.278.

34 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК.1997.с.276.

hallarda zona rejimi müəyyən etmək beynəlxalq humanitar hüquqa ziddir və başqa dövlətlər tərəfindən tanınmamalıdır. İ.İ.Lukaşuka görə döyüşən tərəflər özbaşınalıq üçün deyil, hüquqa uyğun nəzarəti həyata keçirmək üçün hərbi əməliyyat zonaları müəyyən edə bilər. Beynəlxalq hüquq hərbi əməliyyatlar meydanını mümkün qədər məhdudlaşdırmaq məqsədi güdür.[35] Neytral dövlətlərin ərazisi, neytrallaşdırılmış ərazilər, Antarktika, kosmik məkan, Ay və digər səma cisimləri, Süveyş və Panama kanalı, Aland adası nə müharibə meydanı, nə də hərbi əməliyyatlar meydanı hesab edilə bilməz. Qeyd etmək lazımdır ki, beynəlxalq hüquqla yanaşı beynəlxalq humanitar huquq da müharibə meydanının məhdudlaşdırılmasına çalışır. Belə ki, IV CK-nın 14-cü maddəsi müalicə və təhlükəsizlik zonaları və yerlərinin hərbi əməliyyatlar meydanına çevrilməsini qadağan edir.

I Əlavə Protokolun 56-cı maddəsinə əsasən tərkibində təhlükəli qüvvələr olan qurğular və tikililər, məsələn, beton və torpaq bəndlər, atom elektrik stansiyaları, hətta hərbi obyekt olduqları hallarda da, əgər onlara edilən həmlə təhlükəli qüvvələrin çıxmasına və daha sonra mülki əhali arasında ağır itkilərə səbəb ola bilərsə, hücuma məruz qalmamalıdır.

III CK-nın 23-cü maddəsinə əsasən hərbi əsirlərin saxlanma yeri, IV CK-nın 83-cü maddəsinə əsasən tərksilah edilib nəzarət altında saxlanan şəxslərin olduqları yerlər hücuma məruz qoyula bilməz.

"Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 8 və 16-cı maddələrinə əsasən də bu cür məhdudiyyətlər müəyyənləşdirilmişdir.

35 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК.1998.с. 278.

Fəsil VI

VI. Hərbi əməliyyatların iştirakçıları. Mülki və hərbi obyektlər.

1. Kombatantlar və onlara bərabər tutulan şəxslər

Beynəlxalq humanitar hüquq normalarının ayrı-ayrı fərdlərin iştirakçısı olduğu ictimai münasibətləri tənzimləməsi ilk növbədə həmin şəxslərin silahlı münaqişələrdə iştirakı ilə əlaqədardır. Beynəlxalq humanitar hüquq silahlı münaqişələr hüququ olduğundan onun normalarının əksəriyyəti bilavasitə həmin münaqişələrin iştirakçıları ilə bağlıdır. Bu cəhətdən silahlı münaqişələrin iştirakçılarının fərqləndirilməsi və onların hüquqi statusunun müəyyənləşdirilməsi vacibdir. Silahlı münaqişə iştirakçılarının statusunun müəyyənləşdirilməsində istinad nöqtəsi kimi "kombatant" terminino daha çox müraciət olunur. Kombatant (fr. combattant)-beynəlxalq hüquqda döyüşən dövlətlərin silahlı qüvvələrinin tərkibinə daxil olan və qeyri-kombatantdan fərqli olaraq döyüş əməliyyatlarında birbaşa iştirak edən şəxsdir.[1]

Kombatant anlayışının əsası 1874-cü il Brüssel bəyannaməsində (mad. 9) qoyulmuşdur. Sonradan bu müddəalar 1907-ci il IV Haaqa Konvensiyasının "Quru müharibələrinin qanun və adətləri haqqında" Əsasnaməsində demək olar ki, dəyişdirilmədən təkrarlanmışdır.[2]

Əsasnamənin 1-ci bölməsi "Döyüşənlər haqqında" adlanır. Əsasnamənin 1-ci və 2-ci maddələrində hərbi qanunların kimlərə şamil ediləcəyi öz əksini tapmışdır. Burada müqavimət hərəkatı üzvlərinin döyüşçü hesab edilməsi üçün bir əsas və dörd formal şərt nəzərdə tutulur. Əsas şərt müqavimət hərəkatının münaqişədə olan tərəflərdən birinə mənsub olmasındadır. Bu mənsubiyyət ya dövlət tərəfindən rəsmi tanınmada, ya da həmin hərəkatla müdafiə olunun dövlət arasında "faktiki əlaqədə" öz ifadəsini tapmalıdır. Lakin təcrübədə çox vaxt bu və ya digər hərəkatın həqiqətən də dövlət funksiyasını yerinə yetirməsi və ya şəxsi məqsəd güdən silahlı banda olmasını müəyyənləşdirmək çətin

---

1 Словарь иностранных слов. М., Русский язык. 1985.с.238

2 Эрик Давид. Принципы вооруженных конфликтов. М.МККК.2000. с.321.

olur. Hərakatın həqiqi məqsədi müqavimət hərəkatının silahlı bandadan fərqləndirilməsi üçün əsas cəhətdir.[3]

Əsasnamənin 1-ci maddəsində hərbi qanunlar, hüquq və vəzifələrin təkcə orduya deyil, həmçinin yığma qoşun və könüllü dəstələrə də şamil edilməsinin aşağıdakı dörd formal şərti də müəyyənləşdirilmişdir:

1) tabeçiliyində olanlara görə cavabdehlik daşıyan başçısının olması;

2) müəyyən və uzaqdan görünən fərqləndirici nişanın olması;

3) silahın açıq gəzdirilməsi;

4) öz fəaliyyətində müharibə adət və qanunlarına riayət edilməsi.

Əsasnamənin 2-ci maddəsi bu kateqoriyaya aid olan şəxslərin dairəsini bir qədər də genişləndirir. Orada göstərilir ki, işğal olunmamış ərazinin əhalisi yaxınlaşan düşmənlə mübarizə aparmaq üçün könüllü olaraq silaha sarılmışsa, vaxt məhdudiyyətinə görə 1-ci maddədə nəzərdə tutulduğu kimi təşkil oluna bilmədikdə, əgər silahı açıq gəzdirir və müharibə qanun və adətlərinə riayət edirlərsə döyüşən kimi tanınmalıdırlar.[4]

1949-cu il Cenevrə Konvensiyalarında, o cümlədən birinci və ikinci Cenevrə Konvensiyası üçün ümumi olan 13-cü maddədə və üçüncü Cenevrə Konvensiyasının 4-cü maddəsinin A bəndində döyüş əməliyyatlarında bilavasitə iştirak etmək və döyüşmək hüququ olan şəxslərin tərkibi müəyyənləşdirilmişdir. Həmin tərkibə aşağıdakılar aid edilir:

1) Münaqişədə iştirak edən Tərəflərin silahlı qüvvələrinin üzvləri, eləcə də silahlı qüvvələrin tərkib hissəsinə daxil olan yığma qoşun və ya digər könüllü dəstələrin üzvləri;

2) Münaqişədə iştirak edən Tərəfə mənsub olan, öz ərazisində və ya ondan kənarda, hətta bu ərazi işğal edilsə belə, fəaliyyət göstərən mütəşəkkil müqavimət hərəkatının üzvləri də daxil olmaqla, digər yığma qoşun və ya könüllü dəstələrin üzvləri, bu şərtlə ki, həmin yığma qoşun və könüllü dəstələr, o cümlədən mütəşəkkil müqavimət hərəkatları aşağıdakı şərtlərə uyğun gəlsinlər:

a) tabeliyində olanlara görə məs'uliyyət daşıyan başçısı olsun;

b) uzaqdan seçilən müəyyən fərqləndirici nişanı olsun;

v) açıq şəkildə silah gəzdirsinlər;

---

3 Эрик Давид. Принципы вооруженных конфликтов. М.МККК.2000. с.321.

4 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М.,МККК. 1999. С.22.

q) öz əməliyyatlarını müharibə qanunlarına və adətlərinə uyğun aparsınlar.

3) Əsirlikdə saxlayan Dövlətin tanımadığı Hökumətə və ya hakimiyyət orqanlarına özlərini tabe hesab edən nizami silahlı qüvvələrin üzvləri;

4) Silahlı qüvvələrin bilavasitə üzvləri olmayan, lakin həmin qüvvələr tərəfindən verilmiş icazəsi və əlavə edilmiş nümunədə şəxsiyyət vəsiqəsi olmaq şərti ilə onları müşayət edən şəxslərə, məsələn, hərbi təyyarə hey'ətlərinin mülki üzvləri, hərbi müxbirlər, muzdlu təchizatçılar, silahlı qüvvələrin rifahına görə məs'uliyyət daşıyan əmək dəstələrinin və ya xidmətlərinin üzvləri;

5) Münaqişədə iştirak edən Tərəflərin beynəlxalq hüququn hər hansı müddəalarına görə güzəştli rəftardan daha faydalana bilməyən ticarət donanması gəmilərinin hey'ət üzvləri, o cümlədən kapitanları, sürücüləri və şagirdləri, mülki hava gəmilərinin hey'ət üzvləri;

6) Yaxınlaşmaqda olan düşmənə müqavimət göstərmək məqsədilə özü-özünə silaha sarılan, nizami silahlı dəstələr yaratmağa macal tapmayan işğal edilməmiş ərazinin sakinləri, bu şərtlə ki, onlar silahı açıq gəzdirsinlər və müharibə qanunlarına və adətlərinə riayət etsinlər. 6-cı bənddə göstərilən şəxslərin kombatant kimi tanınması müvəqqəti xarakter daşıyır. Bu vəziyyət düşmənin geri oturdulması və ya ərazinin işğalı ilə sona çatır. Ərazi işğal olunduqdan sonra oranın əhalisi həmin əsaslarla kombatant hesab edilə bilməz. İşğal olunmuş ərazidə olan şəxslər müqavimət hərəkatı üçün müəyyən edilmiş şərtlərə riayət etdikdə kombatanta bərabər sayılacaqdır.[5]

Silahlı münaqişə hüququnun uzun müddət kombatanta kimlərin aid olması məsələsini tənzimləməsinə baxmayaraq beynəlxalq hüquqda kombatant anlayışı yalnız 1977-ci il Cenevrə Konvensiyalarına I Əlavə Protokolda verilmişdir. 43-cü maddənin 2-ci bəndinə əsasən "münaqişədə iştirak edən Tərəfin silahlı qüvvələrinin üzvləri (tibbi və ruhani hey'ətdən başqa) kombatantdır, yə'ni döyüş əməliyyatlarında bilavasitə iştirak etmək hüququna malikdirlər". Anlayışın qəbul edilməsi ilə əlaqədar H. P. Qasser qeyd edir ki, "indi heç bir anlaşılmazlıq ola bilməz: dövlətin silahlı qüvvələrinin hər bir əsgəri-kombatantdır. Həmin

---

5 Эрик Давид. Принципы вооруженных конфликтов. М.МККК.2000. с.321.

maddədə bir istisna nəzərdə tutulur-tibbi və ruhani hey'ətdən olan şəxs silahlı qüvvələrin tərkibinə daxil olsa belə kombatant statusuna malik deyildir".[6]

I Əlavə Protokol kombatantın aşağıdakı cəhətlərini fərqləndirməyə əsas verir:

1) şəxs, tibbi və ruhani hey'ət istisna olmaqla, dövlətin tanınmış silahlı qüvvələrinin tərkibinə daxil olmalıdır; və

2) hərbi əmliyyatlarda bilavasitə iştirak hüququ olmalıdır. Göründüyü kimi kombatant anlayışı "silahlı qüvvələr" anlayışı ilə bilavasitə bağlıdır.

9 oktyabr 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən "Azərbaycan Respublikasının Silahlı Qüvvələri quru qoşunlarından, hava hücumundan müdafiə və hərbi-hava, hərbi-dəniz qüvvələrindən ibarətdir.

Təşkilati cəhətdən Azərbaycan Respublikasının Silahlı Qüvvələri birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir".

Polis qüvvələri və digər hərbiləşdirilmiş təşkilatlar silahlı qüvvələrin tərkibinə daxil edilə bilərlər. Lakin bu zaman onları silahlı qüvvələrə daxil edən Tərəf münaqişədə iştirak edən digər tərəfə məlumat verməlidir. 43-cü maddənin 1-ci bəndinə əsasən "münaqişədə iştirak edən Tərəfin silahlı qüvvələri həmin Tərəf qarşısında, hətta bu tərəf düşmən Tərəfin tanımadığı hökumətlə və ya iqtidarla təmsil edilmiş olsa belə, öz tabeliyindəkilərin hərəkətləri üçün məs'uliyyət daşıyan şəxsin komandanlığı altında olan mütəşəkkil silahlı qüvvələrdən, qruplardan və bölmələrdən ibarətdir. Bu cür silahlı qüvvələr, qalan şeylərlə bərabər, silahlı münaqişə zamanı tətbiq edilən beynəlxalq hüquq normalarının gözlənilməsini tə'min edən daxili intizam sisteminə tabe olurlar".

Silahlı qüvvələrə verilmiş bu anlayış dövlətin yaxşı təşkil olunmuş nizami silahlı qüvvələri ilə müqavimət hərəkatı və ya azadlıq hərəkatının daha zəif təşkil edilmiş silahlı dəstələri arasında heç bir fərq qoymur. Burada heç bir istisna olmadan bütün silahlı qüvvələrə aşağıdakı tələblər irəli sürülür: müəyyən qədər təşkil olunma, cavabdehlik daşı-

6 Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. М., МККК.1995.с.34.

yan komandanlığın olması, silahlı münaqişələrin aparılmasının yazılmış və yazılmamış qaydalarına riayət edilməsini tə'min edən daxili intizam sisteminə tabe olma.[7]

I Əlavə Protokolun 44-cü maddəsinin 3-cü bəndinə əsasən mülki əhalini döyüş əməliyyatlarının tə'sirindən qorumağa kömək etmək məqsədilə, kombatantlar hücumda və ya hücumu hazırlayan hərbi əməliyyatda iştirak edərkən özlərini mülki əhalidən fərqləndirməlidirlər. Lakin silahlı münaqişələr zamanı yaranan bir sıra vəziyyətlərdə döyüş əməliyyatlarının xüsusiyyəti döyüşçünün özünü mülki əhalidən fərqləndirməsinə imkan vermədikdə o, silahını açıq gəzdirmək şərti ilə öz döyüşçü statusunu qoruyub saxlayır:

a) hər bir hərbi toqquşma zamanı; və

b) onun iştirak edəcəyi hücumdan qabaq döyüş mövqelərinin tutulması zamanı düşmənin gözü qabağında olarkən. Bu şərtləri Quru müharibələrinin qanun və adətləri haqqında Haqqa Konvensiyası müddəalarının tələbləri ilə müqayisə etdikdə aşağıdakı nəticələr alınır:

— 1977-ci il Protokoluna müvafiq olaraq bütün silahlı qüvvələr eyni mövqeyə gətirilmişdir;

— I Protokolda Haaqa Əsasnaməsindən fərqli olaraq daha az şərt irəli sürülür;

— I Protokolun şərtləri elə şərtlərdir ki, silahlı qüvvələrin üzvləri tərəfindən fərdi qaydada deyil, silahlı qüvvələr tərəfindən bir təşkilat kimi yerinə yetirilməlidir.[8]

Məsələn, Cenevrə Konvensiyası (III CK mad. 4A. bənd 2.) yanaşı olaraq müqavimət hərəkatı iştirakçılarının həmişə özlərini mülki əhalidən fərqləndirməyi tələb etdiyi halda, I Protokolda bu tələb ancaq "hücum və ya hücumu hazırlayan hərbi əməliyyatlarda iştirak vaxtı" ilə məhdudlaşdırılmışdır.

Göstərilən məsələlərin həll edilməsini əhəmiyyətli hesab edərək E.David yazır ki, "I Əlavə Protokolda kombatant anlayışının ümumiləşdirilmiş tərifini nəzərdə tutmaqla və müqavimət hərəkatı iştirakçılarına hərbi əsir statusu verilməsi şərtlərini yüngülləşdirməklə 1974-

---

7 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994. с. 100.

8 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994. с. 100.

1977-ci il Diplomatik Konfransı qarşısına qoyulmuş problemlərdən birini həll etdi".[9]

Əlbəttə ki, bu anlayış ancaq I Əlavə Protokola qoşulmuş dövlətlər üçün qüvvədə olacaqdır. Bu protokola qoşulmayan dövlətlər kombatantları müəyyənləşdirərkən Haaqa Konvensiyası və Cenevrə Konvensiyası müddəalarına əsaslanmalıdırlar.

Qeyd etmək lazımdır ki, silahlı qüvvələr tərkibində həm hərbi əməliyyatlar aparan şəxslər, həm də inzibati funksiyaları yerinə yetirən şəxslər vardır. İnzibati funksiyaları yerinə yetirənlərin də hərbi əməliyyatlarda işirak etmək və əsir götürüldükdə hərbi əsir statutu almaq hüququ vardır.

Kombatant anlayışının mahiyyəti ondadır ki, ancaq bu kateqoriyaya mənsub olan şəxslər hərbi əməliyyatlarda birbaşa iştirak etmək hüququna malikdirlər. Bu hüququn mövcudluğu onu göstərir ki, kombatant güc tətbiq edə bilər və hətta adam öldürə bilər və bu zaman o öz hərəkətlərinə görə fərdi məs'uliyyət daşımır. Halbuki, o adi vətəndaş kimi həmin hərəkətlərinə görə məs'uliyyət daşıyacaqdı. C. Rostanın məşhur bir replikasını xatırlamaq yerinə düşərdi: "Bir nəfəri öldür və sən qatilsən; milyon adamı öldür, sən fatehsən. Əgər onların hamısını öldürsən, sən Allahsan!". Bu ifadənin başqa variantı da mövcuddur: "Bir nəfəri öldür sən qatilsin, minlərlə adamı öldür, sən qəhrəmansan" (Beilby Porteus, 1784). Kombatant əsir götürüldüyü halda, məhz, müharibə qanun və adətlərinə riayət etməklə qəsdən törətdiyi çoxsaylı "cinayətlərə" görə məs'uliyyət daşımır. Lakin unutmaq olmaz ki, kombatant ancaq icazə verilmiş, qadağan olunmamış gücü tətbiq edə bilər. Sözsüz ki, icazə verilmiş zorakılığın tətbiqi qeyri-məhdud deyildir. Bu zorakılıq silahlı münaqişə qurbanlarının mühafizəsini və müharibə aparılmasının müəyyən metod və vasitələrinin istifadəsi və tətbiqini tənzimləyən beynəlxalq hüquqla məhdudlaşdırılır. Ona görə, hətta qanunla zor tətbiq etmək səlahiyyəti verilmiş kombatant belə beynəlxalq humanitar hüquq normalarını pozduqda hərbi cinayətkara çevrilə bilər. Kombatant anlayışı ilə əlaqədar bir cəhəti də qeyd etmək lazımdır ki, kombatantın zor tətbiq etmək səlahiyyətinə malik olması, eyni zamanda onun eyni zorakılığa məruz qalması imkanının hüquqauyğunluğunu

9 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 319

şərtləndirir. Yə'ni düşmən tərəfin kombatantına qarşı zor tətbiq etmək səlahiyyəti olan kombatant, eyni zamanda əks tərəfin kombatantı tərəfindən zor tətbiqinə mə'ruz qala bilər. Kombatanta öldürməyə icazə verildiyi kimi, onun öldürülməsinə də icazə verilir.

Digər tərəfdən şəxsin kombatant statusuna malik olmaması onun düşmən tərəfə qarşı zorakılıq tətbiq etdiyi təqdirdə kombatantdan fərqli olaraq öz hərəkətlərinə görə milli qanunvericiliyə əsasən cavabdehlik daşımaq vəzifəsini yaradır. Yə'ni düşmən tərəfin əlinə keçmiş kombatant tətbiq etdiyi zorakılığa görə heç bir məs'uliyyət daşımadığı, əksinə hərbi əsir statusuna malik olduğu halda, kombatant olmayan şəxs tətbiq etdiyi zorakılığa görə cavabdehlik daşıyır və onun əməli beynəlxalq humanitar hüququn pozuntusu, o cümlədən ciddi pozuntusu kimi qiymətləndirilə bilər. Deməli, düşmənə qarşı zorakılıq tətbiq edən hər bir şəxs kombatant statusuna iddia edə bilməz. Bu statusa malik olmaq üçün şəxs Cenevrə Konvensiyaları və I Əlavə Protokolda göstərilən şərtlərə cavab verməlidir.

Kombatant ilə himayədə olan şəxslər arasında fərq ondan ibarətdir ki, kombatant həm zor tətbiq etmək hüququna malikdir, həm də ona qarşı zor tətbiq edilə bilər. Himayədə olan şəxslər isə zor tətbiq etmək hüququna malik olmadığı kimi, eyni zamanda onlara qarşı da zor tətbiq edilə bilməz. Lakin yadda saxlamaq lazımdır ki, kombatant ilə himayədə olan şəxs arasında keçilməz sədd yoxdur. Yə'ni kombatant yaralı, xəstə olduqda, silahını yerə qoyduqda və ya düşmən tərəfin əlinə keçdikdə, o, avtomatik olaraq himayədə olan şəxsə çevrilir. Kombatant humanitar hüquq pozuntusuna, hətta ciddi pozuntuya yol verdikdə belə öz statusunu saxlayır. Belə hallarda onlar hərbi cinayətkar hesab olunur və onların işinə məhkəmədə baxılmalıdır.

Beynəlxalq humanitar hüquq kombatantlar üçün eyni zamanda müəyyən kompleks vəzifələr də müəyyənləşdirmişdir. Belə ki, kombatant hər bir halda özlərini mülki əhalidən fərqləndirməli, hərbi əməliyyatlar apararkən hərbi zərurətlə humanizm tələbləri arasında tarazlığı gözləməlidir. Yə'ni kombatant qarşısına qoyulmuş döyüş tapşırığının yerinə yetirilməsi üçün həqiqətən zəruri olan hərəkətlərə yol verə bilər və çalışmalıdır ki, bu hərəkətlər artıq əzab və itkiyə səbəb olmasın. II Əlavə Protokol döyüş əməliyyatlarında iştirak edənlər üçün xüsusi status nəzərdə tutmamışdır. O ancaq döyüş əməliyyatında iştirak edənlərlə, iştirak etməyənləri fərqləndirir.

2. Qeyri-kombatantlar

Qeyri kombatantlar — silahlı qüvvələrin tərkibinə daxil olan, lakin döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərdir. Bunlar tibbi hey'ət və ruhanilər, hərbi gəmi və uçuş aparatlarının hey'ətinə daxil olan mülki şəxslər, hərbi müxbirlər, hərbi hüquqşünaslar, təchizatçılar, dəfn xidmətinin şəxsi hey'əti və s. şəxslərdən ibarətdir. Öz silahlarından yalnız özünümüdafiə və onlara həvalə edilmiş əmlakı müdafiə etmək üçün istifadə etməyənə kimi onlara qarşı silah işlədilə bilməz. Onlar döyüş əməliyyatlarında bilavasitə iştirak etdiyi hallarda isə kombatanta çevrilirlər. Düşmən tərəfdən ələ keçirildikdə isə həm kombatant, həm də qeyri-kombatant hərbi əsir hesab olunur.[10]

3. Hərbi əsirlər

Hərbi əsirlər faktiki olaraq hərbi əməliyyatların iştirakçısı deyillər. Çünki onlar hərbi əsirlik statusu qazanmaqla hərbi əməliyyat aparmaq hüququnu itirmiş olurlar. Hərbi əsir-müvəqqəti olaraq onu əsir götürmüş ayrı-ayrı şəxslərin və ya hərbi hissə komandanlığının deyil, onun taleyinə görə cavabdehlik daşıyan döyüşən dövlətin hakimiyyəti altında olan tərksilah edilmiş düşməndir.[11] Lakin hərbi əsir anlayışı birbaşa kombatant anlayışı ilə bağlıdır. Ona görə də onların statusunun da şərh edilməsini məqsədəmüvafiq sayırıq. III Cenevrə Konvensiyasına müvafiq olaraq 4-cü maddənin A bəndində sadalanan kateqoriyaya mənsub olan kombatantlar düşmən əlinə keçdikdə hərbi əsir hesab olunurlar. Hazırda hərbi əsir statusu almaq hüququna malik olan şəxslərin dairəsi xeyli genişləndirilmişdir. Hərbi əsir cinayətkar deyil, öz borcunu yerinə yetirən əsgərdir.[12]

I Əlavə Protokolun 44-cü maddəsində kombatantla hərbi əsirlik statusu arasında qarşılıqlı əlaqələr də tənzimlənir. Qeyd olunduğu kimi kombatant hücumda və ya hücumu hazırlayan hərbi əməliyyatlarda iş-

10 Арцибасов И.Н. Международное право(законы и обычаи войны).М., Воен.ин-т,1975.с.26-27

11 Международное публичное право. Под ред К.А.Бекяшева. М.Проспект.1999.с.585

12 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1997 .с. 302

tirak edərkən özünü mülki əhalidən fərqləndirməlidir. Lakin kombatant statusuna iddia edən şəxs iştirak edəcəyi hücumdan qabaq döyüş mövqelərinin tutulması zamanı düşmənin gözü qabağında olarkən silahı açıq gəzdirməklə özünü mülki şəxsdən fərqləndirmirsə və bu zaman düşmən Tərəfin hakimiyyəti altına düşürsə hərbi əsir sayılmaq hüququndan məhrum edilir. Lakin bununla belə, ona üçüncü Cenevrə Konvensiyasına və I Əlavə Protokola uyğun olaraq hərbi əsirlərə verilən himayəyə hər cəhətdən uyğun olan himayə verilir. Həmin şəxs törətdiyi hər hansı hüquq pozuntusuna görə məhkəməyə verildiyi və ya cəzalandırıldığı hallarda, həmin himayənin tərkibinə üçüncü Cenevrə Konvensiyasına uyğun olaraq hərbi əsirlərə verilən himayəyə bərabər himayə də daxil edilir.

Hücumda və ya hücuma hazırlıq olan hərbi əməliyyatda iştirak etmədiyi vaxt düşmən Tərəfin hakimiyyəti altına düşən hər hansı kombatant əvvəllər törətdiyi hərəkətlərə görə kombatant və hərbi əsir sayılmaq hüququnu itirmir.

I Əlavə Protokolun 44-cü maddəsinin 6-cı bəndində göstərilir ki, bu maddədə üçüncü Cenevrə Konvensiyanın 4-cü maddəsinə uyğun olaraq hər hansı şəxsin hərbi əsir sayılmaq hüququna xələl gətirmir. Başqa sözlə, I Əlavə Protokolun 43-cü və 44-cü maddələri yuxarıda qeyd olunan 4-cü maddəyə əsasən hərbi əsir statusundan istifadə edə bilməyən şəxslər üçün Konvensiyanın 4-cü maddəsini əvəz edirsə, ayrı-ayrı kateqoriya şəxslərin Protokol əsasında deyil, həmin maddəyə müvafiq olaraq hərbi əsir statusuna iddia etməsi hallarına mane olmur. Belə ki, Protokolda həmin şəxslər üçün hərbi əsir statusu tə'min olunmayıbsa, onlar üçüncü Cenevrə Konvensiyanın 4-cü maddəsinə əsasən hərbi əsir statusu əldə edə bilərlər. Bu şəxslərə aşağıdakılar aiddir:

— işğal olunmamış ərazilərdə düşmənin yaxınlaşması ilə özü silaha sarılan şəxslər (III CK mad. 4A. bənd 6);

— silahlı qüvvələrin tərkibinə daxil olmasalar da icazə ilə onları müşaiyət edən şəxslər (III CK mad. 4A. bənd 4);

— ticarət gəmiləri və mülki uçuş aparatlarının hey'ət üzvləri (III CK mad. 4A. bənd 5);

— döyüşən tərəfin silahlı qüvvələrinə mənsub olmaq şərti ilə digər qeyri-kombatantlar (Haaqa Əsasnaməsi mad. 3).

Qeyd etmək lazımdır ki, sonuncu 3 kateqoriya hərbi əməliyyatlarda iştirak etmək hüququ olmayan, lakin əsir düşdüyü hallarda hərbi əsir

statusundan istifadə edən mülki şəxsləri əhatə edir.[13] I Əlavə Protokolun 45-ci maddəsinə əsasən döyüş əməliyyatlarında iştirak edən və düşmən tərəfin hakimiyyəti altına düşən şəxs hərbi əsir statusuna iddia etdikdə və ya onun belə statusu almaq hüququna malik olduğu güman edildikdə və ya onun mənsub olduğu Tərəf onu tutan Dövlətə və ya Hami Dövlətə mə'lumat göndərərək, onun üçün belə status tələb etdikdə hərbi əsir sayılır və buna görə də üçüncü Cenevrə Konvensiyasının himayəsindən faydalanır. Belə şəxsin hərbi əsir statusu almaq hüququnun olması hər hansı şübhə doğurduqda, səlahiyyətli məhkəmə orqanı onun statusunu müəyyən edənədək, o, bu statusunu saxlamaqda və buna görə də üçüncü Cenevrə Konvensiyasının və I Əlavə Protokolun himayəsindən faydalanmaqda davam edir.

Düşmən Tərəfin himayəsi altına düşmüş belə şəxs hərbi əsir kimi tutulmadıqda və döyüş əməliyyatları ilə bağlı hüquq pozuntusuna görə həmin Tərəfin mühakiməsinə verilməli olduqda, o, məhkəmə orqanı qarşısında özünün hərbi əsir statusuna malik olmaq hüququnu qorumaq və bu məsələ barəsində qərar çıxarılmasını tələb etmək hüququna malikdir. Tətbiq edilən prosedura görə bu, mümkün olduqda həmin qərar hüquq pozuntusu ilə əlaqədar məhkəmə iclasınadək çıxarılır. Dövlət təhlükəsizliyi naminə istisna qaydasında məhkəmə iclası qapalı keçirilmədikdə Hami Dövlətin nümayəndələri həmin məsələyə dair qərar çıxarılan məhkəmə baxışında olmaq hüququna malikdirlər. Bu halda dustaq saxlayan Dövlət Hami dövləti müvafiq qaydada xəbərdar edir.

Döyüş əməliyyatlarında iştirak edən, hərbi əsir statusu almaq hüququna malik olmayan və dördüncü Cenevrə Konvensiyasına uyğun olaraq, daha əlverişli rəftardan faydalanmayan hər hansı şəxs bütün hallarda I Əlavə Protokolun 75-ci maddəsində nəzərdə tutulan himayə hüququna malikdir. İşğal edilmiş ərazidə hər hansı belə şəxs, əgər o casus kimi tutulmamışdırsa, dördüncü Cenevrə Konvensiyasının 5-ci maddəsindən asılı olmayaraq, həmin Konvensiyada nəzərdə tutulan əlaqə hüququna da malikdir.

4. Casuslar

Casusluq, yə'ni düşmən haqqında gizli metodlarla məxfi hərbi və siyasi informasiya və ya mə'lumatın alınması silahlı münaqişə hüququ

13 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 336.

ilə qadağan olunmur. Tam əminliklə demək olmaz ki, casusluq dinc dövrdə casusluq fəaliyyətinin obyekti olan dövlət suverenliyinin pozulması ilə müşayət edilmirsə ümumi beynəlxalq hüquqla qadağan olunmuşdur.[14] İ. İ Lukaşuk göstərilən sənədlər əsasında casusluğa "münaqişədə olan ölkənin silahlı qüvvələri tərkibindəki şəxsin düşmən tərəfin ərazisində gizli və ya aldatma metodlarını həyata keçirilməklə hərbi əhəmiyyətli mə'lumatlar toplaması" kimi tə'rif verərək göstərir ki, burada silahlı münaqişə hallarında casusluğun xüsusi halından söhbət gedir. Bu hal casusluğun dövlətlərin cinayət hüququnda istifadə olunan daha geniş anlayışından fərqlidir.[15] Məsələn, Azərbaycan Respublikası CM-in 276-cı maddəsinə əsasən dövlət sirri olan mə'lumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədilə oğurlama, toplama və ya saxlama, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün sair mə'lumatları vermə, vermək məqsədilə oğurlama və ya toplama, əgər casusluq əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən törədilərsə cinayət məs'uliyyətinə səbəb olur.[16]

Bununla belə döyüşən tərəflərin beynəlxalq humanitar hüquq normalarına müvafiq surətdə casusluq fəaliyyətinin qarşısını almaq hüququ vardır (Haaqa Əsasnaməsi mad. 29-31; IV CK mad. 5; I Əlavə Protokol mad. 46).

Silahlı münaqişənin iştirakçısı kimi casusun hüquqi statusu ilk dəfə 1907-ci il IV Haaqa Konvensiyası Əsasnaməsinin 29-cu maddəsində müəyyənləşdirilmişdir. Orada casus "gizli tərzdə və ya yalançı bəhanə ilə hərəkət edərək döyüşən tərəflərdən birinin fəaliyyət göstərdiyi rayonda qarşı tərəfə bildirmək niyyəti ilə mə'lumat toplayan və ya toplamağa cəhd edən şəxs" kimi müəyyənləşdirilmişdir. Kambatantın casus hesab edilməsi üçün iki şərt zəruridir: o informasiya və mə'lumat toplayarkən tutulmalıdır və mə'lumat toplamaq üçün aldadıcı fəaliyyət göstərməli və ya gizli metodlardan istifadə etməlidir. I Əlavə Protokolun 46-cı maddəsinin 1-ci bəndində casusun hüquqi statusu daha da də-

---

14 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 340

15 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК.1998 с. 301

16 Bu barədə ətraflı bax. E.M.Əfəndiyv Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi. Xüsusi hissə. Bakı. "Hüquq ədəbiyyatı". 2001. S.685-689.

qiqləşdirilmişdir. Orada göstərilir ki, münaqişədə iştirak edən Tərəfin silahlı qüvvələrinin casusluq edərkən düşmən tərəfin hakimiyyəti altına düşən hər hansı üzvü hərbi əsir statusu almaq hüququna malik deyildir və onlarla casusla olduğu kimi rəftar edilə bilər. Lakin casusluqla məşğul olan hər kəs ipso facto hərbi əsir statusundan məhrum olmur. Burada bir neçə vəziyyəti fərqləndirmək lazımdır.[17] I Əlavə Protokolun 46-cı maddəsinin 2-ci və 3-cü bəndlərində 1-ci bənddə müəyyənləşdirilmiş ümumi qayda dəqiqləşdirilir. Belə ki, münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin üzvü həmin Tərəfin adından düşmən Tərəfin nəzarəti altında olan ərazidə mə'lumat topladıqda və ya toplamağa cəhd göstərdikdə, əgər öz silahlı qüvvələrinin forma paltarını geyinmişsə, yə'ni "gizli tərzdə və ya yalançı bəhanə ilə hərəkət etmirsə" casusluqla məşğul olan şəxs sayılmır. Maddənin 3-cü bəndi hər şeydən əvvəl partizanların vəziyyətini tənzimləyir və müqavimət hərəkatı döyüşçülərinə hərbi əsir statusunu qorumağa imkan verir. Belə ki, münaqişədə iştirak edən Tərəfin silahlı qüvvələrinin düşmən Tərəfin işğal etdiyi ərazidə yaşayan üzvü asılı olduğu Tərəf adından həmin ərazidə hərbi əhəmiyyətli mə'lumat topladıqda və ya toplamağa cəhd göstərdikdə, əgər aldatma yolu ilə hərəkət etmirsə və ya bilərəkdən gizli metodlara əl atmırsa, casusluqla məşğul olan şəxs sayılmır. Üstəlik belə şəxs casusluq edərkən tutulmamışdırsa, o, hərbi əsir statusu almaq hüququnu itirmir və onunla casusla olduğu kimi rəftar edilə bilməz. Lakin əgər müqavimət hərəkatı üzvü qadağan olunmuş metodlardan istifadə edərsə (məsələn, işğalçı qüvvələrin hərbi formasını geyinərsə) və onu maraqlandıran hərbi xarakterli mə'lumat toplayarkən və ya toplamağa cəhd edərkən tutularsa onda o hərbi əsir statusunu itirmiş olur. Belə hallarda ona I Əlavə Protokolun 45-ci maddəsinin 3-cü bəndi tətbiq olunacaqdır. Yə'ni o 75-ci maddəyə əsasən minimum müdafiədən istifadə edəcəkdir.

Müqavimət hərəkatı döyüşçüsü hərbi əhəmiyyətli mə'lumat toplamadığı, lakin artıq toplamış olduğu mə'lumatı radio ilə ötürdüyü vaxt tutulduqda işğalçı dövlət onunla hərbi əsir kimi davranmalıdır Belə hallarda onun həmin mə'lumatları aldatma və ya gizli metodlar və ya digər üsullarla əldə etməsi əhəmiyyət kəsb etmir.[18] Casus isə düşmə-

17 Эрик Давид.Принципы права вооруженных конфликтов. М., МККК.2000.с.340

18 Фриц Кальсховен. Ограничения методов ведения войны. М., МККК. 1994. с. 105

nin yerləşdiyi ərazidə tutulduğu hallarda cəzalandırılır. Lakin o, özünün keçmiş fəaliyyətinə görə cəzalandırıla bilməz. Casusluq hərbi cinayət hesab edilmir və hesab edilə də bilməz.[19]

Haaqa Konvensiyasının 30-cu maddəsinə əsasən casus yerində yaxalandıqda məhkəmədə mühakimə olunmadan cəzalandırıla bilməz. Konvensiyanın 31-ci maddəsində isə göstərilir ki, öz hərbi hissəsinə qayıtdıqdan sonra düşmənin əlinə keçmiş casus hərbi əsir hesab olunur və özünün əvvəlki fəaliyyətinə görə heç bir cəzaya məruz qala bilməz. Beləliklə, hərbi casus ancaq düşmən ərazisində fəaliyyət göstərdiyi vaxt tutulduğu hallarda cəzalandırılır və özünün əvvəlki fəaliyyətinə görə cəzalandırıla bilməz.

Qeyd etmək lazımdır ki, casuslara münasibətdə cəza tədbirləri də daha ciddidir. Belə ki, IV Cenevrə Konvensiyasının 68-ci maddəsinə əsasən əgər himayədə olan şəxs yeganə olaraq işğalçı dövlətə zərər vurmaq niyyəti ilə hüquq pozuntusu törədirsə və əgər bu hüquq pozuntusu işğalçı qoşunların və ya inzibati hey'ətin üzvlərinin həyatına və ya fiziki toxunulmazlığına qəsd deyildirsə, ciddi kollektiv təhlükə törətmirsə və işğalçı qoşunların və inzibati hey'ətin əmlakına və ya onların istifadə etdikləri obyektlərə ciddi ziyan vurmursa, həmin şəxs nəzarət altında saxlanılmalı və ya cadəcə həbs olunmalıdır. Həm də bu cür nəzarət altında saxlama və ya həbsin müddəti törədilmiş əmələ uyğun olmalıdır.

İşğalçı Dövlətin qəbul etdiyi cinayət cəzası müddəaları himayədə olan şəxslər barəsində ölüm cəzasını yalnız onların casusluqda, habelə işğalçı Dövlətin hərbi obyektlərinə qarşı yönəldilmiş ciddi təxribat əməllərində, yaxud bir və ya bir neçə şəxsin ölümünə səbəb olmuş qəsdlərdə müqəssir olduğu hallarda və işğal edilmiş ərazinin işğaldan əvvəl qüvvədə olmuş qanunvericiliyində bu cür hallara görə ölüm cəzasının nəzərdə tutulmuş olması şərti ilə müəyyən edilə bilər. F. Kalsxoven yuxarıda göstərilən maddədə casuslara münasibətdə ağır cəza tədbirinin müəyyənləşdirilməsini IV Cenevrə Konvensiyasının məhdudiyyətləri nəzərdə tutan 5-ci maddəsi ilə əlaqələndirir.[20] Burada göstərilir ki, münaqişədə iştirak edən hər hansı tərəf Konvensiyanın hi-

---

19 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 341

20 Фриц Кальсховен. Ограничения методов ведения войны. М., МККК.1994.с.76

mayəsində olan hər hansı ayrıca şəxsin onun ərazisində həmin dövlətin təhlükəsizliyi üçün düşmənçilik fəaliyyəti göstərməsindən asılı olaraq şübhələndikdə və ya bu cür fəaliyyət həqiqətən müəyyən edildikdə həmin şəxs, Konvensiya ilə verilən hüquqların və imtiyazların ona verilməsi həmin Dövlətin təhlükəsizliyinə xələl gətirə bilərsə, belə hüquqlara və imtiyazlara iddia edə bilməz. Konvensiyanın himayəsində olan ayrıca şəxs işğal edilmiş ərazidə casus və ya təxribatçı kimi və ya işğalçı Dövlətin təhlükəsizliyi üçün qorxu törədən fəaliyyətdə qanuni əsasla şübhələnilən şəxs kimi tutulmuşsa, həmin şəxs zəruri hərbi təhlükəsizlik mülahizələri tələb etdikdə Konvensiya ilə verilən əlaqə hüquqlarından məhrum edilə bilər. Lakin bu halların hər birində yuxarıda nəzərdə tutulan şəxslərlə humanist rəftar edilməli və mühakimə icraatı zamanı onlar Konvensiya ilə nəzərdə tutulan ədalətli və normal mühakimə hüququndan məhrum olunmamalıdırlar. Dövlətin təhlükəsizliyi imkan verdiyi ən qısa müddətdə həmin şəxslərə münasibətdə xüsusi rejim ləğv olunmalıdır. Əsir götürülmüş casus in flagrante delicto cinayət məs'uliyyətinə cəlb edilən mülki şəxslərə tətbiq olunan ümumi normaların müdafiəsi altında qalır.[21]

I Əlavə Protokolun 75-ci maddəsi ümumi və xüsusi mühafizə hüququ olmayan ayrı-ayrı kateqoriya şəxslərin (o cümlədən casusların) istifadə edə biləcəkləri əsas tə'minatları nəzərdə tutur. Həmin şəxslərlə hər bir halda humanist rəftar edilir və "onlar irqinə, dərisinin rənginə, cinsinə dilinə, dininə və ya e'tiqadına, siyasi və ya başqa əqidəsinə, milli və ya sosial mənşəyinə, əmlak vəziyyətinə, doğumuna və ya hər hansı başqa statusuna və ya bu kimi digər me'yarlara görə hər hansı əlverişsiz fərq qoyulmadan, ən azı" I Əlavə Protokolun 75-ci maddəsinin nəzərdə tutduğu himayə ilə tə'min edilirlər. Həmin şəxslərə qarşı istər mülki, istərsə də hərbi orqanların nümayəndələri tərəfindən hər hansı vaxtda və hər hansı bir yerdə bir sıra hərəkətlərin törədilməsi qadağan edilir. Həmin hərəkətlərə şəxslərin həyatına, sağlamlığına və ya fiziki və ya ruhi vəziyyətinə qarşı zorakılıq, o cümlədən, qətl, hər növdən olan fiziki və ya psixi işgəncə, cismani cəza, xəsarət yetirmə, insan ləyaqətinin təhqir edilməsi, xüsusən alçaldıcı və təhqiramiz rəftar, fahişəliyə məcbur etmə və ya hər hansı nalayiq qəsd, girov götürmə, kollektiv cəza və yuxarıda göstərilən hərəkətlərin hər hansı birinin tətbiqi ilə hədələmək aid edilir.

---

21 Эрик Давид.Принципы права вооруженных конфликтов. М., МККК. 2000.с.342

I Əlavə Protokolun 75-ci maddəsinin 4-cü bəndi həmin şəxslərə münasibətdə ədalət mühakiməsi həyata keçirilərkən riayət edilməli olan bir sıra "adi ədalət mühakiməsinin ümumtanınmış prinsiplərini" nəzərdə tutur. Belə ki:

— müqəssirə təqsirli bilindiyi hüquq pozuntusunun təfsilatı barəsində dərhal məlumat verilməli və o, həm məhkəmədən əvvəl, həm də məhkəmə zamanı müdafiə üçün zəruri olan bütün hüquq və vasitələr ilə təmin olunmalıdır;

— fərdi cinayət məsuliyyətinə əsaslanmadan heç bir şəxs hüquq pozuntusuna görə məhkum edilə bilməz;

— heç bir şəxs hər hansı hərəkəti və ya xətanı törədərkən ona şamil edilən milli qanunvericilik və ya beynəlxalq hüquq normalarına görə cinayət sayılmayan hərəkətə və ya xətaya görə cinayət törətməkdə təqsirləndirilə və ya mühakimə edilə bilməz; eləcə də verilən cəza həmin cinayətin törədildiyi anda tətbiq edilən cəzadan ağır olmamalıdır; cinayət törədildikdən sonra qanunla daha yüngül cəza təyin olunduqda bu qanunun qüvvəsi həmin cinayətkara da şamil edilir;

— cinayət törətməkdə təqsirləndirilən hər hansı şəxs onun təqsiri qanuna əsasən sübut edilməyincə təqsirli sayılmır;

— cinayət törətməkdə təqsirləndirilən hər kəsin məhkəmə baxışında olmaq hüququ vardır;

— heç kəs öz əleyhinə ifadə verməyə və ya özünü təqsirli saymağa məcbur edilə bilməz;

— cinayət törətməkdə təqsirləndirilən hər kəsin onun əleyhinə ifadə verən şahidləri dindirmək və ya onların dindirilməsini tələb etmək hüququ, eləcə də onun xeyrinə ifadə verən şahidlərin, onun əleyhinə ifadə verən şahidlərlə eyni şərtlər əsasında çağırılması və dindirilməsi hüququ vardır;

— törətdiyi hüquq pozuntusuna görə barəsində əvvəllər eyni qanuna və məhkəmə proseduralarına uyğun olaraq, ona bəraət qazandıran və ya onu məhkum edən qəti hökm çıxarılmış heç bir şəxsi həmin tərəf təqib etməməli və ya cəzalandırmamalıdır;

— hüquq pozuntusuna görə məhkəmə qaydasında təqib edilən hər kəsin məhkəmə hökmünün açıq e'lan olunmasını tələb etmək hüququ vardır;

— məhkuma hökm oxunarkən, ona məhkəmə qaydasında və ya başqa qaydada şikayət etmək hüququ barəsində, eləcə də onun bu hüquqdan istifadə edə biləcəyi müddət barəsində məlumat verilməlidir.

5. Hərbi kəşfiyyatçılar

Hərbi kəşfiyyatçı dedikdə, öz silahlı qüvvələrinin formasında, həqiqi mövqeyini gizlətmədən düşmənin fəaliyyət göstərdiyi ərazidə mə'lumat toplayan şəxs başa düşülür. Həmin şəxs düşmən əlinə keçdikdə ona hərbi əsir rejimi tətbiq olunur.

Hərbi kəşfiyatçının casusdan əsas fərqi kəşfiyyatçının öz dövlətinin silahlı qüvvələrinə mənsub olmasını bildirən hərbi formasıdır.[22] İkinci Dünya Müharibəsi dövründə düşmənin arxasına atılan paraşütçülər haqqında məsələ ciddi xarakter almışdı. 18 oktyabr 1942-ci ildə alman komandanlığı paraşütlə endirilmiş şəxslərin qeyri-qanuni döyüş aparmasını təsdiqləyən və "hətta onlar zahiri cəhətdən əsgərə oxşasa və forma geyinmiş olsa belə" məhv edilməsi barədə əmr vermişdi. Həmin əmr IV Cenevrə Konvensiyasının kobud surətdə pozulmasına dəlalət edirdi. Çünki həmin Konvensiyaya Əlavənin 29-cu maddəsinə əsasən düşmənin arxasında hərbi tapşırığı yerinə yetirən və öz ordusunun formasını gəzdirən şəxs hərbi kəşfiyyatçı hesab olunur və o ələ keçirildikdə hərbi əsir rejimindən istifadə etməli idi. Beynəlxalq Tribunal öz hökmündə həmin hərəkəti müharibə qanun və adətlərinin kobud surətdə pozulması kimi qiymətləndirdi.[23]

Hərbi kəşfiyatçılar, hava desant qoşunlarının paraşütçüləri, "komandos" şəxsi hey'ət üzvləri düşmənə qarşı birbaşa cəbhədə və ya düşmənin arxasında (onun özünün və ya işğal olunmuş ərazidə) hərbi əməliyyatlar aparmalarından asılı olmayaraq qanuni kambatant olmaqda davam edirlər.[24]

6. Muzdlular

Sovet dövrünün ədəbiyyatında muzdluluqdan istifadə imperialist dairələri tərəfindən suveren dövlətlər və milli azadlıq hərəkatına qarşı həyata keçirilən dövlət terrorizmi siyasətinin alətlərindən biri kimi qiymətləndirilirdi.[25]

---

22 Международное публичное право. Под ред К.А.Бекяшева. М., Проспект. 1999.с.573

23 Арцибасов И. Н. Международное право (законы и обычаи войны). М., Воен. Ин-т. 1975.с. 12-13.

24 Международное публичное право. Под ред К.А.Бекяшева. М., Проспект. 1999.с.573.

25 Дипломатический словарь. т. 2. М., Наука.1985.с.260

Muzdluluq haqqında məsələ BMT-də dəfələrlə müzakirə olunmuşdu. Belə ki, BMT Baş Məclisinin XXIII sessiyasında qəbul edilmiş 20 dekabr 1968-ci il tarixli qətnaməsində(2465) , XXVIII sessiyasında qəbul edilmiş 12 dekabr 1973-cü il tarixli qətnaməsində(3103) muzdluluq cinayət kimi qiymətləndirilmiş və muzdluluqla məşğul olanların cinayət qaydasında cəzalandırılması tövsiyə olunmuşdur.[26]

BMT Baş Məclisinin 16 dekabr 1970-ci ildə qəbul etdiyi "Beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi haqqında" Bəyannamədə,[27] 24 oktyabr 1970-ci ildə qəbul edilmiş "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannamədə[28] 14 may 1974-cü ildə BMT Baş Məclisinin XXIX sessiyasının qətnaməsi ilə qəbul edilmiş "Təcavüzün anlayışı"nda[29] muzdluluq beynəlxalq sülhə və təhlükəsizliyə qorxu və bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilməklə qadağan edilmişdir.

Muzdluluğun ictimai təhlükəliliyi təkcə muzdluların onları bu işə cəlb edən şəxslərin siyasi iradəsini yerinə yetirərək adam öldürmək, qarət, zorakılıq və sair cinayətlər törətməsində deyil, həm də adam öldürmə və başqa cinayətlərin peşələrinə çevrildiyi bir təbəqənin yetişməsindədir.[30]

E.M.Əfəndiyev göstərir ki, muzdluluğun ictimai təhlükəliliyi bir qrup adamların vətəndaşı olmadığı və ya daimi yaşadığı dövlətin tərəfindən hərbi münaqişələrdə və ya döyüş əməliyyatlarında iştirak etməklə, insanları məhv etməyi və ya ağır bədən xəsarəti yetirməyi, milli sərvəti və əhaliyə məxsus əmlakı dağıtmağı özlərinə gəlir mənbəyi kimi seçməsidir.[31] Onu da qeyd etmək lazımdır ki, neytral dövlətin öz vətəndaşlarına münaqişələrdə muzdlu kimi iştirakı qadağan etmək vəzifəsi yoxdur.[32]

---

26 Дипломатический словарь. т. 2. М., Наука. 1985. с. 260

27 Действующее международное право.т. 2. М., 1997.с.202-207

28 Действующее международное право.т. 1. М., 1996.с.65-73

29 Действующее международное право.т. 2. М., 1997. с. 199-201

30 Международное уголовное право. Под общей редакцией В.Н. Кудрявцева. М., Наука.1999.с.147.

31 Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi. Xüsusi hissə. Bakı. "Hüquq ədəbiyyatı" 2001. S.40.

32 Лукашук И. И. Международное право. Особенная часть. М., БЕК. 1998. с. 310

Muzdlu anlayışı I Əlavə Protokolun 47-ci maddəsində öz ifadəsini tapmışdır. Həmin maddəyə əsasən muzdlunun kombatant və ya hərbi əsir statusu almaq hüququ yoxdur. Eyni zamanda muzdlu elə bir şəxsdir ki:

a) silahlı münaqişədə vuruşmaq üçün ölkə daxilindən və ya xaricdən xüsusi olaraq cəlb edilmişdir;

b) faktiki olaraq, döyüş əməliyyatlarında bilavasitə iştirak edir;

v) əsasən şəxsi mənfəət götürmək niyyəti ilə döyüş əməliyyatlarında iştirak edir və həqiqətən də, münaqişədə iştirak edən Tərəfdən və ya bu tərəfin tapşırığı ilə ona həmin tərəfin silahlı qüvvələrinə daxil olub, eyni rütbə və vəzifələri daşıyan döyüşçülərə və'd edilən və ya ödənilən haqdan xeyli artıq maddi haqq və'd edilmişdir.

q) nə münaqişədə iştirak edən Tərəfin vətəndaşı, nə də münaqişədə iştirak edən Tərəfin nəzarət etdiyi ərazinin daimi sakini deyildir;

ğ) münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin üzvü deyildir; və

j) münaqişədə iştirak edən tərəf olmayan Dövlət tərəfindən onun silahlı qüvvələrinin üzvü kimi rəsmi vəzifələri icra etməyə göndərilməmişdir.

I Əlavə Protokolda muzdlunun fərqləndirilməsi üçün müəyyənləşdirilmiş şərtlər muzdlular kateqoriyasına daxil edilməli olan şəxslərin dairəsini olduqca məhdudlaşdırır. Yə'ni olduqca asanlıqla muzdlunun kambatant statusu almaq imkanı yaranır. E. David həmin məsələləri şərh edərkən tipik bir ingilis yumorunu xatırladır: "Özünü tə'rifdən kənarlaşdıra bilməyən hər bir muzdlu öz vəkili ilə birlikdə güllələnməyə layiqdir".[33]

BMT Baş Məclisinin 44-cü sessiyasında 4 dekabr 1989-cu il tarixli qətnamə (44/34) qəbul edilmiş "Muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və tə'limi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya[34] muzdluluqla mübarizədə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası 30 sentyabr 1997-ci il tarixli 366-IQ №-li sənədlə həmin Konvensiyaya qoşulmuşdur. Konvensiyada muzdlu anlayışı daha da dəqiqləşdirilmiş və genişləndirilmişdir. Konvensiyanın 1-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq həmin termin həm də:

---

33 Эрик Давид. Принципы вооруженных конфликтов. М. МККК. 2000. с. 344

34 Действующее международное право.т.2. М., 1997.с.812-819

1) hökumətin devrilməsi və ya dövlətin konstitusiya qaydasını başqa cür sarsıtmaq, yaxud dövlətin ərazi bütövlüyünü pozmağa yönəldilmiş zorakılıq hərəkətlərində birgə iştirak üçün yerində və ya xaricdə xüsusi olaraq cəlb edilən;

2) bu cür hərəkətlərdə iştirak etməklə başlıca olaraq mühüm qazanc almaq arzusunu və belə ödəniş və'dlərini rəhbər tutan və ya maddi mükafat ödənilməsinə həvəslənən;

3) həmin hərəkətlərin yönəlmiş olduğu dövlətin vətəndaşı və ya orada daimi yaşamayan;

4) dövlət tərəfindən inzibati vəzifələri yerinə yetirmək üçün göndərilməmiş;

5) həmin hərəkətlərin ərazisində törədildiyi dövlətin silahlı qüvvələrinin şəxsi hey'ətinin tərkibinə daxil olmayan şəxsləri də əhatə edir.

Göstərilən anlayışın sonuncu bəndləri muzdlunun hərbi müşavir və tə'limatçılardan fərqləndirilməsinə imkan verir.

Onu da qeyd etmək lazımdır ki, muzdlunun xarakterik cəhətlərindən biri onun münaqişədə olan tərəflərin silahlı qüvvələrinin tərkibinə daxil olmamasıdır. 1982-ci ildə BMT Təhlükəsizlik Şurası Argentinanın Britaniya ordusunda xidmət edən qurkların muzdlu hesab edilməsi barədə müraciətini müzakirə etmişdir. Britaniya nümayəndəsi həmin iddianı rədd etmiş və sübut etmişdir ki, Nepal ilə bağlanmış sazişə müvafiq olaraq qurklar Britaniya nizami qoşunlarının tərkib hissəsini təşkil edirlər.[35] 1989-cu il Beynəlxalq Konvensiyasına əsasən muzdlunun cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və tə'limi (mad. 2) muzdluluğun özü (mad. 3, bənd 1) və həmin cinayətdə iştirak etmək (mad. 4) də cinayət kimi qiymətləndirilmişdir.

Konvensiyaya əsasən göstərilən əməllərin aradan qaldırılması və onlarla mübarizə məqsədilə iştirakçı dövlətlər milli qanunvericilikdə həmin cinayətlərin törədilməsinə görə cinayət məs'uliyyəti nəzərdə tutmalıdırlar(mad. 5, bənd Z). Azərbaycan Respublikası Beynəlxalq Konvensiyaya qoşulduqdan sonra üzərinə götürdüyü öhdəliyi yerinə yetirmişdir. Belə ki, Cinayət Məcəlləsinin 114-cü maddəsində muzdluluğa görə cinayət məs'uliyyəti nəzərdə tutulmuşdur. Həmin maddəyə müvafiq olaraq muzdlu, hərbi münaqişədə və hərbi əməliyyatlarda iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşama-

35 BYIL. 1982.Vol. 53.P. 418

yan, habelə rəsmi vəzifələrin yerinə yetirilməsi üçün göndərilməyən, maddi mükafat əldə etmək məqsədilə fəaliyyət göstərən şəxslərdir. CM-in 114-cü maddəsinə əsasən:

114.1. Muzdlular yığma, onlara tə'lim keçmə, maliyyələşdirmə və başqa cür maddi tə'minat vermə, habelə onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmə —

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

114.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya yetkinlik yaşına çatmayan barəsində törədildikdə —

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

114.3. Muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı — üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılar. Beynəlxalq hüquq ədəbiyyatında muzdluların mühakimə edilməsi ilə əlaqədar Anqolada keçirilən məhkəmə prosesinə çox istinad edilir.[36]

1976-cı ilin iyun ayında Anqolanın paytaxtı Luandada 13 ingilis və amerikan muzdlusu mühakimə olunmuşdur. Onlar pul müqabilində anqola xalqına qarşı silahlı mübarizədə iştirak etməyə və əldə silah Anqolanın azadlığına maneçelik törətməyə cəhd etməkdə ittiham olunmuşdular. Muzdlular müharibənin adi qanun və adətlərinə məhəl qoymadan mülki əhalini soyuqqanlılıqla güllələmiş, şəhərləri və vətəndaşların əmlakını qarət etmişlər. Məhkəmədə sübut olduğu kimi muzdlular xüsusi qəddarlıq göstərərək hətta döyüşməkdən imtina edən həmvətənlərinə də rəhm etməmiş, onları da güllələmişlər.

Luandadakı muzdlular üzərində məhkəmə prosesi bir də onunla əhəmiyyətli idi ki, bəşər tarixində ilk dəfə muzdlular məhkəmə qarşısında cavab verirdilər. A. Poltarak bu prosesi Nürnberq prosesi ilə müqayisə edərək göstərirdi ki, "dünya ədalət mühakiməsi tarixində onların hər ikisi birinci idi. Nürnberqdə ilk dəfə təcavüzə görə, Luandada

36 Bax. Isabirye D. M. Mercenaries and International Criminal Law // Revue de Droit International de Sciences Diplomatiques et Politiques. Geneve, 1985. № 3. P. 242-245; Блищенко И., Жданов Н. Наемничество-международное преступление // СЕМП. М., 1979

isə ilk dəfə muzdluluğa görə mühakimə aparılmışdı. Hər iki prosesdə söhbət əvvəllər tamamilə yol verilən hərəkətlərdən getmişdir".[37]

13 İngiltərə və ABŞ vətəndaşının muzdlu kimi fəaliyyət göstərərək tutulması və Luandada onların mühakimə olunması prosesi üzərində dayanmağı məqsədəmüvafiq sayırıq.

XV əsrdən Anqola Portuqaliyanın müstəmləkəsi olmuş və uzun müddət müstəmləkəçilik məşəqqətlərinə məruz qalmışdır. BMT Nizamnaməsi qəbul edildikdən sonra dünyada yeni siyasi mühitin yaranması müstəmləkəçilik zülmünə qarşı mübarizə üçün şərait yaratdı. Bu məqsədlə Anqolada bir neçə müqavimət hərəkatı yarandı. 1974-cü ildə Portuqaliyada faşizmin devrilməsindən sonra hakimiyyətə gələn yeni qüvvələr azadlıq mübarizəsinin təzyiqi altında Anqolada müstəmləkəçilik siyasətindən əl çəkdilər. 11 noyabr 1975-ci ildə müstəqil Anqola e'lan edildi. Anqolanın yeni inkişaf xəttindən narazı qalan qüvvələrin planı əsasında şimal tərəfdən Zairin, cənubdan isə CAR-nın nizami qoşunları Anqolaya müdaxilə etdilər. Bundan başqa əməliyyata böyük muzdlu qrupu cəlb olunmuşdu. Yüzlərlə adamdan ibarət olan həmin muzdlular müxtəlif qərb ölkələrindən pul ilə döyüş əməliyyatlarında iştirak edirdilər. 1976-cı ilin iyun ayında onlardan 13 nəfər əsir götürüldü.

Luanda prosesi dünyada böyük marağa səbəb olmuşdu. Çünki həmin vaxt muzdluluğu cinayət qiymətləndirərək qeyri-qanuni hesab edən konvensiya qəbul olunmamışdı. Ona görə İngiltərə və ABŞ-dan məhz muzdluları müdafiə etmək üçün gəlmiş vəkillər beynəlxalq və milli səviyyədə muzdluluğu cinayət kimi qiymətləndirən hüquqi sənədlərin olmamasına əsaslanaraq prosesin ləğv edilməsinə çalışırdılar. Onlar iddia edirdilər ki, həmin işdə Haaqa və Cenevrə Konvensiyalarının könüllü və hərbi əsirlərin statusuna dair normalara istinad edilməklə muzdlular azad olunmalıdırlar. Muzdluların işinə 1 may 1976-cı ildə qəbul edilmiş Anqola milli qanunu əsasında yaradılmış Xalq İnqilab Məhkəməsi baxırdı. Muzdluluğun məhz həmin qanun əsasında cinayət kimi qiymətləndirilməsindən də Luandadakı prosesin ləğvi üçün istifadə etməyə çalışırdılar. Belə ki, qanunun geriyə şamil edilməsi "qanunsuz cinayət və qanunsuz cəza yoxdur" prinsipi ilə ziddiyyət təşkil edir-

37 Полтарак А. Наемничество под судом // Международная жизнь. 1976. № 9.с. 114

di. Belə ki, cinayət və ona görə cəza əməl törədilməmişdən əvvəl qanunda öz əksini tapmalıdır. Göstərilənlərə baxmayaraq bütün dəlillər dövlət ittihamçısı tərəfindən heç bir əsası olmadığına görə qətiyyətlə rədd edildi. Belə ki, muzdluluğu qadağan edən xüsusi konvensiyanın olmamasına baxmayaraq bu əməl beynəlxalq hüququn adət normaları ilə artıq çoxdan qanunsuz hesab olunurdu. Eyni zamanda bir sıra dövlətlərin (İngiltərə, Fransa, Belçika, Fransa, ABŞ və s.) milli qanunvericiliyi ilə öz hökumətindən xəbərsiz xarici orduda qulluq etmək cinayət kimi qiymətləndirilirdi. Bundan başqa ittihamçı tərəfindən BMT və Afrika Birliyi Təşkilatının muzdluluğu cinayət kimi qiymətləndirən və həmin əməllərin cəzalandırılmasını tələb edən sənədlərinə də istinad edildi. Beləliklə, muzdluluq cinayəti artıq törədilən vaxt həm adət normaları, həm də ayrı-ayrı dövlətlərin qanunları ilə qadağan olunmuşdu. Ona görə də, Anqola milli qanununda həmin normaların öz əksini tapması formal xarakter daşıması ilə yanaşı beynəlxalq hüquqa zidd deyildi. O cümlədən, 1966-cı ildə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 15-ci maddəsinin 2-ci hissəsinə əsasən "heç nə hər hansı şəxsin törədildiyi zaman beynəlxalq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə əsasən cinayət olan hər hansı bir əməlinə, yaxud xətasına görə məhkəməyə verilməsinə və cəzalandırılmasına mane olmur". Həm də Luanda Məhkəməsi Nürnberq və Tokio Tribunalları nümunəsi əsasında yaradılmışdı. Həmin Tribunalların Nizamnamələri də törədilmiş beynəlxalq cinayətlərə görə cəzanı post factum müəyyənləşdirmişdi.

Muzdluların könüllü hesab edilməsi barədə dəlillər də məhkəmə tərəfindən qətiyyətlə rədd edildi. Muzlu ilə könüllünü müqayisə edərkən ittihamçı qeyd etmişdir ki, könüllü ona yaxın olan xalqın haqq işi uğrunda öz həyatını qurban verməyə hazır olan insan olduğu halda, muzdlunun fəaliyyətinin yeganə stimulu puldur.

İnqilab Məhkəməsinin hökmü ilə dörd muzdlu ölüm cəzasına, üç nəfər 30 il azadlıqdan məhrum etməyə, üç nəfər 24 il, qalanları 16 il müddətinə həbs cəzasına məhkum olundular. Ölüm hökmü 10 iyul 1976-cı ildə icra edildi.[38]

Hazırda qəbul edilmiş beynəlxalq hüquqi sənədlərə əsasən ərazilərində muzdluluq cinayəti törədilmiş dövlət muzdluları cinayət məs'u-

38 Ətraflı məlumat üçün bax: Барчет В., Робэк Д. Солдаты на продажу. М. 1980

liyyətinə cəlb edə bilər. Muzdluluğa münasibətdə "aut dedere aut judiciare" prinsipinə müvafiq olaraq universal yurisdiksiya müəyyən edilmişdir.[39]

7. Könüllülər

Könüllü — döyüşən tərəflərdən birinin fəaliyyətdə olan ordusuna könüllü daxil olan şəxsdir. Azərbaycan dilinin izahlı lüğətində "könüllü" — öz xoşu ilə, öz razılığı ilə, öz istəyi ilə; qeyri-məcburi kimi izah edilir.[40] Könüllü həyatı üçün təhlükə olmasına baxmayaraq, özünün şəxsi mə'nəvi mövqeyi ilə döyüşən tərəfin mübarizə apardığı mə'nəvi mövqe tam üst-üstə düşdüyünə görə döyüşən tərəfin köməyinə gəlir.

"Neytral dövlətlərin və şəxslərin quru müharibələrində hüquq və vəzifələri haqqında" 1907-ci il V Haaqa Konvensiyasında göstərilir ki, ayrı-ayrı şəxslər "sərhədi keçib döyüşən dövlətlərin birinin ordusunda xidmətə daxil ola bilər" (mad. 6). Belə hallarda neytral dövlətlər heç bir məs'uliyyət daşımır. Şəxs könüllü olaraq döyüşən tərəflərdən birinin silahlı qüvvələrində qulluğa daxil olduqdan sonra o özünün neytrallığını itirir. Lakin belə hallarda o, neytrallığından imtina etdiyinə görə ziyanına vuruşduğu dövlət tərəfindən daha sərt rəftara mə'ruz qalmamalıdır (mad. 17).

Könüllülük XVIII əsrin axırlarında Avropa dövlətlərinin irticaçı feodal-mütləqiyyət koalisiyasına qarşı Fransa Respublikasının müharibələrində, 1936-1939-cu illər İspaniya müharibələri vaxtı geniş tətbiq olunmuşdur.[41]

8. Hərbi müşavir və tə'limatçılar

Hərbi müşavir və tə'limatçılar ikitərəfli saziş əsasında silahlı qüvvələrin yaradılması, hərbi kadrların hazırlanması və qoşunun tə'limi, bə'zən isə döyüş əməliyyatlarının təşkili və aparılması üçün başqa dövlət-

---

39 Блищенко И. П., Дориа Ж. Прецеденты в международном публичном и частном праве. М., МНИМП. 1999. с. 285.

40 Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı. Elm. 1983. s.110

41 Международное право. Словарь-справочник. М., ИНФРА-М. 1997.с.64.

lərə göndərilir.[42] Onların hüquqi vəziyyəti beynəlxalq hüquq ilə müəyyənləşdirilməmişdir Bu vəziyyət maraqlı dövlətlər tərəfindən ikitərəfli müqavilələrlə nizama salınır. Hərbi müşavir və tə'limatçılar döyüşən dövlətlərin silahlı qüvvələrinin tərkibinə daxil olmurlar və ona görə də hüquqi vəziyyətləri qeyri-kambatantlara daha yaxındır. Hərbi müşavir və tə'limatçıların silahlı münaqişədə iştirakının müxtəlif formaları və bunun münaqişənin beynəlxalq və ya qeyri-beynəlxalq xarakterli münaqişəyə çevrilməsinə tə'siri E. David tərəfindən tədqiq olunmuşdur.[43]

9. Parlamentyorlar (elçi)

Parlamentyorlar xüsusi statusa malikdirlər. Parlamentyor (fr. parlementaire) — döyüş əməliyyatları zonasında hərbi komandanlıq tərəfindən düşmənin hərbi komandanlığı ilə danışıqlar aparmaq üçün səlahiyyət verilmiş rəsmi nümayəndədir.[44] Parlamentyorun hüquqi statusu hələ 1907-ci ildə qəbul edilmiş "Quru müharibələrinin adət və qanunları haqqında" IV Haaqa Konvensiyasının Əsasnaməsində öz əksini tapmışdır. Əsasnaməyə əsasən həm parlamentyor özü, həm də onu müşayət edən trubaçı, təbilçi, bayraqçı və tərcüməçi toxunulmazlıq hüququndan istifadə edirlər (mad. 32).

Parlamentyorun göndərildiyi hərbi rəis bütün hallarda onu qəbul etməyə borclu deyil. O parlamentyorun ona tapşırılmış mə'lumatları toplamasının qarşısını almaq üçün zəruri tədbirləri görə bilər. Parlamentyor tərəfindən sui-istifadə hallarında o, müvəqqəti saxlanıla bilər (mad. 33).

Parlamentyorun fərqləndirrici nişanı ağ bayraqdır. Parlamantyor düşmən tərəfindən qəbul edilə və ya geri qaytarıla bilər. Lakin hər bir halda onun təhlükəsizliyi tə'min olunmalıdır. Parlamentyorun toxunulmazlığının pozulması, onun öldürülməsi hərbi cinayət hesab olunur.

---

42 Калугин В. Ю., Павлова Л. В., Фисенко И. В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с. 97

43 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 115-119

44 Дипломатический словарь. т. II. М. Наука. 1985. с. 348

10. Mülki və hərbi obyektlər

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" 30 iyun 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən mülki obyektlər dedikdə öz xarakteri, mövqeyi, tə'yinatı və istifadəsi baxımından hərbi əməliyyatlar üçün ciddi əhəmiyyət daşımayan, tam və qismən dağıdılması, ələ keçirilməsi və neytrallaşdırılması konkret məqamdakı vəziyyətə görə heç bir üstünlük verməyən bütün obyektlər başa düşülür.

Mülki obyektlərdən mülki şəxslər köçürüldükdən və onlar qarşı tərəfin silahlı qüvvələri tərəfindən tutulduqdan sonra hərbi obyekt sayıla bilər.[45] Mülki obyktlərə hücumun qadağan olunması ümumi formada Haaqa Əsasnaməsinin 23j maddəsində öz əksini tapmışdır: hərbi zərurətin hökmən tələb etdiyi hallardan başqa "düşmən əmlakını dağıtmaq və ya zəbt etmək" qadağan olunur. Həmin maddə qarşıdurma şəraitində düşmən əmlakının mühafizəsi üçün nəzərdə tutulmuşdur O, həmin Əsasnamənin 25-ci maddəsi və "Müharibə zamanı dəniz qüvvələri ilə bombardman haqqında" 1907-ci il IX Haaqa Konvensiyasının 1-ci maddəsi ilə tamalanır.

Həmin müddəaların heç birində məhz hansı obyektlərin mühafizə olunduğu müəyyənləşdirilməmişdir. Yuxarıda göstərilən 25-ci və 1-ci maddələrdə söhbət müdafiə olunmayan şəhərlər, yaşayış məntəqələri, ev və binalardan gedir. IX Haaqa Konvensiyasının 2-ci maddəsində göstərilir ki, həmin obyektlərə hücumun qadağan olunması düşmən ordu və donanmasının ehtiyaclarını tə'min edən hərbi obyektlərə, hərbi ləvazimat və qurğulara tətbiq olunmur.

I Əlavə Protokolun 52-ci maddəsi Haaqa Konvensiyasında öz əksini tapmış normanı bə'zi dəqiqləşdirmələrlə nəzərdə tutur. "Mülki obyektlər hücum və repressali obyekti olmamalıdır" ifadəsi mülki obyektlərə mülki şəxslərlə eyni immunitetin tətbiq olunmasını göstərir. Həm də mülki obyektlərə ümumiyyətlə deyil, hərbi obyekt olmayan bütün obyektlər kimi müəyyənləşdirilir. Hərbi obyektlər iki xüsusiyyətinə görə fərqləndirilir: 1) onlar öz xüsusiyyətinə, yerinə, tə'yinatına və istifadəsinə görə hərbi əməliyyatlar üçün böyük əhəmiyyət daşıyır;

2) onların tamamilə və ya qismən dağıdılması, ələ keçirilməsi və ya

---

45 Azərbaycan Respublikası Qanunlar Külliyyatı. II cild. Bakı. 1997. s. 507

neytrallaşdırılması həmin məqamda mövcud olan şəraitdə aşkar hərbi üstünlük qazandırır.

Birinci kriteriya klassik xarakter daşıyır. Belə ki, Birinci Dünya müharibəsi zamanı müstəsna olaraq silahlı qüvvələri yanacaqla təchiz etmək üçün istifadə olunan tanker "hərbi sursat" kimi qiymətləndirilmişdir.[46]

Başqa sözlə, öz mahiyyəti e'tibarı ilə müstəsna olaraq mülki və ya hərbi obyektlər mövcud deyildir. Hər şey hərbi strateji planda bu və ya digər obyektin hərbi əməliyyatların gedişinə göstərdiyi tə'sirdən asılıdır. Hərbi obyekt anlayışı hərfi mə'nada qəbul edilsə yüksək dərəcədə məhdud olur. Əgər hər hansı obyekt düşmənin hərbi qüdrətinə səmərəli töhfə vermirsə onu prinsip e'tibarı ilə dağıtmaq olmaz. Məsələn, orta əsrlərin qala divarları əgər hərbi tətbiqini tapmırsa potensial hərbi xarakterinə görə hücum obyekti ola bilməz. Yaxud müstəsna olaraq ixraç üçün nəzərdə tutulmuş neft anbarı da eləcə mülki obyekt kimi qiymətləndirilir.[47] Lakin bu cür tövsifin hüquqauyğunluğu şübhə doğurur. Küveyt münaqişəsi, həmçinin İran və İraq arasında münaqişə zamanı neft quyuları, neft e'malı zavodları hücum obyektinə çevrilmiş, bunun hüquqauyğunluğu isə (həmin hücumların olduqca güclü çirklənməyə səbəb olduğu və ətraf mühitə geniş, uzunmüddətli və ciddi ziyan vurması hallarından başqa) heç kim tərəfindən şübhə altına alınmırdı. İraq silahlı qüvvələri tərəfindən Küveyt neft quyularının partladılması tamamilə mə'nasız idi. Meyroviç haqlı olaraq qeyd edir ki, "bu dağıntı müttəfiq qüvvələrin yerüstü əməliyyatlarının inkişafına heç cür mane ola, hətta onların inkişafını ləngidə bilməzdi. Bu hərəkətlər qisas xarakteri daşıyırdı. İraq diktatoru bilmirdi ki, həmin hərəkətlərə görə o özü, yə'ni iraq xalqı cavab verəcəkdir".[48] Listin işində (Hostages Trial) Nürnberq Tribunalı hərbi obyektə I Əlavə Prtokolun 52-ci maddəsində nəzərdə tutulduğundan daha az ciddi yanaşmışdır. Burada obyektin hərbi məqsədlə istifadəsinin potensial imkanına daha çox istinad edilmişdir: "qanuni olması üçün dağıtma qəti hərbi zərurətlə diktə olunma-

---

46 Эрик Давид. Принципы права вооруженных конфликтов.М., МККК. 2000. с. 208

47 Bothe, Cassese, Kalshoven, Kiss, Salmon, Simmonds. La protection de l'environnement en cas de conflit frme. Doc. CEE, SJ. 110.85.p.68

48 Meyrowitz H. La guerre du Golfe et droit des conconflits armes.- RGDIP, 1992,p.575

lıdır. Dağıtma bir məqsəd kimi həyata keçirildikdə beynəlxalq hüquq normalarını pozur. Obyektin dağıdılması ilə düşmən qüvvələrinin üzərində qələbə arasında müəyyən məntiqi əlaqə olmalıdır. Düşmənin istifadə edə biləcəyi dəmir yol, kommunikasiya xətləri və hər hansı başqa əmlakın dağıdılması qanunidir. Hərbi əməliyyatlar aparılması üçün zəruridirsə, hətta şəxsi evlər, kilsələr dağıdıla bilər". Fon Levinskinin (fon Manşteyn) işində Britaniya hərbi prokuroru göstərmişdir ki, dağıntı hesabına üstünlüyün əldə edilməsi ona bəraət qazındırılması üçün kifayət deyildir. Haaqa Əsasnaməsinin 23j maddəsinə əsasən bunun üçün qəti zərurət tələb olunur.[49]

I Əlavə Protokolun 52-ci maddəsinin 3-cü bəndinə əsasən adətən mülki məqsədlər üçün nəzərdə tutulan hər hansı obyektdən, məsələn ibadətgahdan, evdən və ya digər yaşayış binasından və ya məktəbdən hərbi əməliyyatlara səmərəli yardım göstərmək məqsədilə istifadə edildiyi şübhə olunduqda, onlardan bu məqsədlə istifadə edilmədiyi ehtimal olunur.

Hərbi obyektlər döyüş əməliyyatları aparılmasına yardım edir və ona görə də hücuma mə'ruz qala bilər, mülki obyektlər isə buna yardım etmir və deməli hücuma mə'ruz qalmamalıdırlar.[50]

Qeyd olunan ümumi normalardan əlavə olaraq I Əlavə Protokolda konkret obyektlərin mühafizəsi haqqında da bə'zi müddəalar öz əksini tapmışdır. Belə ki, 53-cü maddəyə əsasən "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və başqa müvafiq beynəlxalq sənədlərin müddəalarını xələl gətirmədən aşağıdakılar qadağandır: a) xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkətləri;

b) belə obyektlərdən hərbi sə'yləri dəstəkləmək məqsədilə istifadə olunması;

v) belə obyektlərin qisas obyektinə çevrilməsi.

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" 30 iyun 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən Azərbaycan Respublkası Silahlı Qüvvə-

---

49 Эрик Давид. Принципы права вооруженных конфликтов.М., МККК.2000.с.209-210

50 Кальсховен Ф. Ограничения методов и средств ведения войны. М., МККК. 1994. с. 118

ləri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları münaqişədə iştirak edən qarşı tərəfin eyni hərəkətlərinə cavab olaraq və ya bunlara son qoymaq məqsədilə mülki şəxslər, tibb müəssisələri və onların hey'əti, mülki obyektlər, mülki əmlak, tarixi abidələr, incəsənət əsərləri, ibadətgahlar, təbii mühit, təhlükəli qüvvəyə malik qurğular barəsində təzyiq tədbirləri sayılan hər hansı hərəkətlərə yol vermirlər.

Hərbi əməliyyatlar gedişində son zərurət şəraitində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin məcburən gördüyü tədbirlər bu təzyiq tədbirləri kimi qiymətləndirilə bilməz.[51]

51 Azərbaycan Respublikası Qanunlar Külliyyatı. II cild. Bakı. 1997. s. 507

Fəsil VII

SİLAHLI MÜNAQİŞƏ QURBANLARININ BEYNƏLXALQ HÜQUQİ MÜHAFİZƏSİ (CENEVRƏ HÜQUQU)

Beynəlxalq humanitar hüququn Cenevrə hüququ adlanan hissəsinin əsasını silahlı münaqişələr zamanı sıradan çıxmış, yaxud silahlı münaqişədə iştirak etməyən şəxslərin himayəsi, yə'ni onların mühafizəsi və onlarla humanitar rəftarın tə'min edilməsinə xidmət edən müddəalar təşkil edir.

Himayəçilik burada müharibə şəraitində ümumiyyətlə zəruri zorakılıqdan müdafiəni deyil, müharibə zamanı bir döyüşən tərəfə mənsub olan şəxsin, digər döyüşən tərəfin hakimiyyəti altına düşməsi halında özbaşnalıqdan mühafizəni nəzərdə tutur.[1]

"Himayədə olan şəxs" anlayışı sıradan çıxmış və ya hərbi əməliyyatlarda iştirak etməyən kambatant anlayışından daha genişdir. Himayədə olan şəxslərə yaralı və xəstələr, gəmi qəzasına düşənlər, hərbi əsirlər və mülki əhali aid edilir. Cenevrə Konvensiyaları müddəaları müdafiəsiz olanlara himayə və qayğını tələb edir. I və II Cenevrə Konvensiyalarının 12-ci maddəsində yaralı və xəstələrə, gəmi qəzasına düşənlərə himayə və qayğı aşağıdakı kimi öz ifadəsini tapmışdır: "Silahlı qüvvələrin şəxsi hey'əti və növbəti maddədə göstərilən digər şəxslər yaralı və xəstə olduqları bütün hallarda himayə edilməli və mühafizə olunmalıdır. Münaqişə edən tərəf onun tabeliyi altına düşənlərlə cins, irq, milliyyət, din, siyasi əqidə və ya digər bu kimi me'yarlara əsaslanan hər hansı ayrı-seçkilik qoymadan, humanist rəftar etməli və onlara qayğı göstərməlidir. Onların həyatına hər hansı qəsd və ya şəxsiyyətini təhqir edən hərəkət qəti qadağan edilir. Xüsusilə də, onlar öldürülə, məhv edilə, işgəncələrə və ya bioloji sınaqlara mə'ruz qoyula bilməz. Onlar nə tibbi yardımsız və qulluqsuz qoyula, nə də qəsdən yoluxduru-

1 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994. с.51

cu şəraitdə saxlana bilməz. Yalnız tə'xirəsalınmaz tibbi səbəblərə görə tibbi yardım göstərilməsində növbə üstünlüyünə yol verilə bilər. Qadınlarla onların cinsinə uyğun şəkildə xüsusi hörmətlə rəftar edilməlidir.

"Hərbi əsirlərlə rəftara dair" III CK-nın 13-cü maddəsi, "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV CK-nın 27-ci maddəsi hərbi əsir və mülki əhali haqqında oxşar himayə və qayğını nəzərdə tutur. Bu kateqoriyadan olan şəxslərə himayə və qayğı göstərilməsinin zəruriliyi CK-ya Əlavə Protokollarda da öz əksini tapmışdır. Məsələn, I Əlavə Protokolun 10-cu maddəsində göstərilir ki, "hansı tərəfə mənsub olmalarından asılı olmayaraq, bütün yaralılara, xəstələrə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə göstərilir. Bütün hallarda onlarla humanist rəftar edilir, maksimum mümkün dərəcədə və ən qısa müddətdə onlara vəziyyətlərinə uyğun tibbi yardım və qayğı göstərilir. Tibbi mülahizələr istisna olmaqla, heç bir mülahizəyə görə onların arasında fərq qoyulmur".

Himayədə olan şəxslərin hüquqlarının məhdudlaşdırılmasına yol verilməməsi üçün I Əlavə Protokolda "Əsas tə'minatlar" adlanan xüsusi bölmə nəzərdə tutulmuşdur. Bölmənin 75-ci maddəsində insan hüquqlarının müharibənin xüsusi şəraitinə uyğunlaşdırılmış icmalı öz əksini tapmışdır. Bu maddədə insan hüquqlarının minimum standartları təsbit edilmişdir. Maddədə münaqişədə olan tərəflərin tabeliyinə düşmüş şəxslərlə heç bir ayrı-seçkilik qoyulmadan "bütün hallarda humanistcəsinə rəftar" edilməsi tələb olunur. 75-ci maddədə himayədə olan şəxslərə tətbiq edilməsi qadağan olan hərəkətlər də öz əksini tapmışdır. Bununla yanaşı 75-ci maddənin əsas hissəsini himayədə olan şəxslərə qarşı mühakimə icraatı aparılması zamanı gözlənilməsi zəruri olan prinsiplər təşkil edir. Cenevrə Konvensiyalarında hörmət və mühafizəni təsbit edən normaların bir qismi hərəkət tələb edirsə, digər bir qismi isə müəyyən hərəkətlərdən çəkinməyi tələb edir. Məsələn, "adamlarla humanist rəftar edilməlidir" tələbi hərəkəti nəzərdə tutduğu halda, onlarla "qəddar rəftar etmək olmaz" və ya onları "işgəncələrə mə'ruz qoymaq olmaz" tələbi həmin hərəkətlərdən çəkinməyi nəzərdə tutur. Lakin himayədə olan şəxslərin hakimiyyəti altında olan tərəf üçün müəyyən hərəkətlərdən çəkinmək vəzifəsi, digər hərəkətləri yerinə yetirmək vəzifəsinə çevrilir. Belə ki, hakimiyyəti altında olan himayə-

dəki şəxslərə ziyan vurulmaması, onlara qarşı ədalətsizlik törədilməməsi üçün həmin tərəf bütün zəruri tədbirləri görməlidir.[2]

Beynəlxalq humanitar hüquq inkişaf etdikcə onda nəzərdə tutulmuş himayə ilə insan hüquqları haqqında müqavilələrdə verilmiş tə'minatlar sanki biri-birinə qovuşur.

"Biz getdikcə daha çox əmin olmağa başlayırıq ki, beynəlxalq hüququn humanistlik hüququ adlana bilən, silahlı münaqişələr hüququ və insan hüquqlarını əhatə edən bir hissəsi bütün insanları istər müharibə zamanı, istərsə də dinc şəraitdə heç olmazsa minimum tə'minatlar və humanizmlə tə'min etməlidir".[3]

1. Yaralı və xəstələrin gəmi qəzasına uğrayanların mühafizəsi

Beynəlxalq humanitar hüquq rəsmi inkişafını məhz yaralı və xəstələrin mühafizəsi ilə başlamışdır. XIX əsrin ortalarında döyüş meydanlarında yaralı və xəstə əsgərlərə tibbi yardım göstərilməsi zərurəti meydana çıxmışdı. Anri Dünanın "Salferino xatirələri" kitabında bədii ifadəsini tapmış yaralı və xəstə əsgərlərə tibbi yardım göstərilməsi zərurəti artıq hüquqi tənzimləmə tələb edirdi. 22 avqust 1864-cü ildə Cenevrədə keçirilən diplomatik konfransda qəbul edilmiş "Quru müharibələri zamanı yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiya bu sahədə qəbul edilmiş ilk beynəlxalq hüquqi sənəd oldu. Konvensiya 10 maddədən ibarət idi. Həmin maddələrdə hərbi sanitar arabaları və qospitalların neytrallığı, onların mühafizəsi və onlara hörmətlə yanaşılmanın tə'min olunması, neytrallığın tibbi hey'ətə və öz vəzifələrini icra edən ordu ruhanilərinə şamil edilməsi, düşmən əlinə keçdikləri təqdirdə onların azad edilməli və öz düşərgələrinə qaytarılmalı olması, yaralılara köməyə gəlmiş dinc əhaliyə hörmətlə yanaşılmasının zəruriliyi, yaralı və xəstə əsgərlərə kimin tərəfində döyüşməsindən asılı olmayaraq qayğı göstərilməsi, ağ rəng fonunda qırmızı xaç işarəsi qospital və tibbi hey'ətin mühafizə olunmasını tə'min edən fərqləndirici nişan kimi istifadə olunması nəzərdə tutu-

---

2 Bax. Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. M.MKKK.1995.c.40

3 Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. Bakı. BQXK.1999.s.82

lurdu. Beynəlxalq humanitar hüququn yaralı və xəstələrin mühafizəsi ilə bağlı müddəaları özünün sonrakı inkişafını 1907-ci il IV Haaqa Konvensiyası, 12 avqust 1949-cu il Cenevrə Konvensiyaları və 8 iyun 1977-ci il Cenevrə Konvensiyalarına Əlavə Protokollarda tapdı. I və II Cenevrə Konvensiyaları tamamilə, IV Cenevrə Konvensiyasının "Mülki əhalinin müharibənin müəyyən tə'şirlərindən mühafizəsinə dair ümumi müddəalar" adlanın II hissəsi və I Əlavə Protokolun "Yaralılar, xəstələr, gəmi qəzasına uğrayanlar" adlanan II hissəsi yaralı və xəstələrin mühafizəsinə həsr olunmuşdur.

Cenevrə Konvensiyaları yaralı, xəstə və gəmi qəzasına uğrayanların silahlı qüvvələrin hey'ətindən və ya mülki şəxslərdən olmasından asılı olaraq onların mühafizəsi qaydasını fərqləndirir. I Əlavə Protokol bu fərq aradan qaldırılmaqla yaralı, xəstə və gəmi qəzasına düşənlərin mülki şəxs və silahlı qüvvələrin üzvü olmasından asılı olmayaraq onların mühafizəsinin vahid qaydasını müəyyənləşdirmişdir. Bu öz əksini I Əlavə Protokolun 8-ci maddəsində yaralı, xəstə və gəmi qəzasına uğrayanlara verilmiş anlayışda da tapmışdır. Protokola əsasən "yaralılar" və "xəstələr" dedikdə, zədələnmə, xəstəlik və ya fiziki və ya ruhi nasazlıq və əlillik nəticəsində tibbi yardıma və ya qulluğa ehtiyacı olan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Bu terminlər, həmçinin zahılara, yeni doğulmuş körpələrə və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən digər şəxslərə, məsələn, taqətsiz şəxslərə və hamilə qadınlara da aiddir.

"Gəmi qəzasına uğrayanlar" dedikdə, onların və onları daşıyan gəminin və ya uçuş aparatının düçar olduğu fəlakət nəticəsində dənizdə və ya başqa sularda təhlükəyə mə'ruz qalan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Göründüyü kimi həm yaralı və xəstələr, həm də gəmi qəzasına düşənlərin himayə altına alınması üçün zəruri şərtlərdən biri onların düşmənçilik hərəkətlərindən çəkinməsidir. Düşmənçilik hərəkətləri ilə məşğul olmaq onları yaralı və xəstə statusundan məhrum edir. Himayə üçün ikinci şərt isə tibbi yardıma tələbatın olmasıdır.[4]

Qeyd etmək lazımdır ki, II Əlavə Protokolun 7-ci maddəsində də "bütün yaralılara, xəstələrə, gəmi qəzasına uğrayanlara, onların silahlı münaqişədə iştirak edib-etməməsindən asılı olmayaraq, hörmət və hi-

4 Комментарий к Дополнительному протоколу II. М., МККК.1999. с.142

mayə" göstərilməsi öz əksini tapmışdır. Protokola əsasən bütün hallarda onlarla insanpərvərliklə rəftar edilməli və maksimum mümkün dərəcədə və ən qısa müddətdə vəziyyətlərinin tələb etdiyi tibbi yardım və qayğı göstərilməlidir. Onlar arasında tibbi mülahizələrdən başqa heç bir mülahizəyə görə fərq qoyulmamalıdır.

II Əlavə Protokolun kommentariyasında mühafizə "əgər bu mümkünsə yaralı, xəstə və gəmi qəzasına uğrayanların hərbi əməliyyatlar zonasından çıxarılması, onların sığınacağa yerləşdirilməsi və onlara həqiqi hörmətin, yə'ni heç kəsin zəifliyindən istifadə edib onlarla qəddar rəftar etməyəcəyinə, onlara məxsus olan əmlakı oğurlamayacağına və hər hansı bir tərzdə onlara ziyan vurmayacağına əmin olmağın tə'min edilməsinə yönəlmiş tədbirlərin görülməsi" kimi müəyyənləşdirilmişdir.[5]

Hörmət "müdafiəsiz adamlarla onların vəziyyətlərinin tələb etdiyi kimi və həmişə humanist rəftar"ı əhatə edir. Humanist rəftar həmişə və hər yerdə tətbiq olunan ümumi prinsipdir və o hörmət və mühafizəyə aiddir.[6]

Tibbi yardım və diqqət göstərmək o deməkdir ki, həmin şəxslərə tibbi yardım göstərilməlidir. Onlar düşmən tərəfə mənsub olduqlarına görə taleyin hökmünə buraxıla bilməzlər. Lakin onlarla faktiki mümkün olandan və eyni şəraitdə öz kambatantlarından daha yaxşı rəftar edilməsi zəruri deyildir.

Bu anlayışlara münasibətdə F. Kalsxovenin fikirləri də maraqlıdır. O, göstərir ki, "hörmət" və "mühafizə" eyni prinsipin biri-birini tamamlayan ünsürləridir.

"Hörmət" passiv ünsür kimi himayədə olan şəxslərə ziyan vurmamaq, onlara əzab yetirməmək, onları öldürməmək öhdəliklərini nəzərdə tutur.

"Mühafizə" aktiv ünsür kimi onlara münasibətdə təhlükəni kənarlaşdırmağı və onlara ziyan vurulmasının qarşısını almağı ehtiva edir. Bu prinsipdə diqqəti cəlb edən üçüncü ünsür-humanist rəftar-himayədə olan şəxslərə münasibətin mə'nəvi aspektinə aiddir və onlarla rəftarın

---

5 Комментарий к Дополнительному протоколу II. М., МККК.1999. с.141

6 Комментарий к Дополнителному протоколу II М., МККК. 1999. с.144.

bütün cəhətlərini əhatə edir. Bu münasibət himayədə olan şəxslərin olduqları ağır şəraiti tam nəzərə almaqla, həmin şəraitin əksinə olaraq onlar üçün insana layiq mövcudluğu tə'min etməlidir. Nəhayət, himayəçilik prinsipinin sonuncu mühüm ünsürünü yuxarıda sadalanan üç əsas ünsür araşdırılarkən nəzərə alınmalı olan hər hansı ayrı seçkiliyin qadağan olunması təşkil edir.[7]

Yaralılarını və xəstələrini düşmənə tərk etmək məcburiyyətində qalan münaqişədə iştirak edən Tərəf, hərbi şəraitin imkan verdiyi dərəcədə, onlara qayğı göstərilməsinə yardım etmək məqsədilə öz tibbi hey'ətinin və ləvazimatının bir hissəsini onlara qoyub getməlidir (I CK mad. 12). Döyüşən tərəfin düşmən əlinə keçmiş bütün yaralıları və xəstələri hərbi əsir sayılır və onlara beynəlxalq hüququn hərbi əsirlərə aid müddəaları tətbiq edilir (I CK mad. 14). Münaqişədə iştirak edən Tərəflər hər bir vaxt, xüsusən döyüşdən sonra yaralıları və xəstələri tapıb toplamaq, onları qarətdən və pis rəftardan qorumaq, onlara lazımi qayğını tə'min etmək, cəsədləri yığıb toplamaq və onların qarət olunmasına yol verməmək üçün tə'xirə salmadan bütün mümkün tədbirləri görməlidirlər.

Hər dəfə şərait imkan verdikdə döyüş meydanında tərk edilmiş yaralıları toplamaq, dəyişdirmək və nəql etmək üçün müvəqqəti barışıq və ya atəşkəs əldə olunmalı və ya yerli sazişlər bağlanmalıdır.

Bununla bərabər, münaqişədə iştirak edən tərəflər mühasirəyə alınmış və ya dövrələnmiş ərazilərdən yaralıların və xəstələrin çıxarılması və ya onların dəyişdirilməsi, habelə həmin ərazilərə gələn tibbi və dini hey'ətin, tibbi ləvazimatın oraya buraxılması üçün yerli sazişlər bağlaya bilərlər.

Münaqişədə iştirak edən tərəflər əlinə keçmiş qarşı Tərəfə mənsub yaralıların, xəstələrin və ya cəsədlərin şəxsiyyətinin müəyyən olunmasına kömək edəcək bütün mə'lumatı mümkün qədər tez qeydə almalıdırlar. Bu qeydlər, imkan daxilində şəxsin mənsub olduğu dövlətin adı, ordu, əsgəri, şəxsi və ya seriya nömrəsi, soyadı, adı və ya adları, doğum tarixi, şəxsiyyət vəsiqəsində və ya tanınma lövhəsində olan digər mə'lumatlar, əsir düşdüyü və ya öldüyü tarix və yer, şəxsin yaralarına, xəstəliyinə və ya ölüm səbəbinə dair mə'lumatları əks etdirməlidir. Göstərilən mə'lumatlar mümkün qədər tez Mə'lumat Bürosuna çatdı-

7 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994.с.54

rılmalı, həmin büro isə onları Hami Dövlət və Mərkəzi Mə'lumat Agentliyi vasitəsilə belə şəxslərin mənsub olduğu Dövlətə verməlidir. Münaqişədə iştirak edən tərəflər imkan dərəcəsində cəsədlər barədə mə'lumatları hazırladıqdan sonra onların fərdi surətdə dəfn olunmasını tə'min etməlidir. Zəruri gigiyena səbəbləri və ya ölənlərin dini ilə bağlı mülahizələr istisna olmaqla heç bir halda cəsədlər yandırılmamalıdır. Münaqişədə iştirak edən Tərəflər ölənlərin ləyaqətlə və mümkün qədər mənsub olduqları dinin tələblərinə uyğun olaraq dəfn edilməsini, qəbirlərinə hörmət edilməsini, onların imkan daxilində milliyyətinə görə qruplaşdırılmasını və həmişə tapıla bilməsi üçün lazımi qaydada nişanlanmasını və qorunmasını tə'min etməlidir.

Hərbi hakimiyyət orqanları yerli əhalinin insanpərvərlik hisslərinə müraciət edərək bu müraciətə qoşulanlara lazımi himayə göstərib, şərait yaratmaqla özlərinin nəzarəti altında yaralıları və xəstələri könüllü surətdə toplamağa və onlara qayğı göstərməyə çağıra bilərlər. Düşmən Tərəf müəyyən ərazi üzərində nəzarəti ələ alarsa və ya bərpa edərsə belə şəxslərə onlar eyni himayəni göstərməli və eyni şəraiti yaratmalıdır. Hərbi hakimiyyət orqanları, hətta müdaxilə edilən və ya işğal altında olan bölgələrdə, milliyyətindən asılı olmayaraq, yaralıları və xəstələri yerli əhalinin və xeyriyyə cəmiyyətlərinin öz təşəbbüsləri ilə toplamasına və onlara qayğı göstərilməsinə icazə verməlidirlər. Mülki əhali yaralılara və xəstələrə hörmət etməlidir. Yaralılara və ya xəstələrə qayğı göstərməyə görə heç kəs tə'qib və ya mühakimə oluna bilməz. Eyni zamanda mülki əhali düşmən tərəfə mənsub olan yaralı, xəstə və gəmi qəzasına uğrayanlara heç bir ziyan vurmamalıdır. Beynəlxalq humanitar hüquq normaları mülki əhalinin yaralı və xəstələrə hörmətlə yanaşmaq vəzifəsini müəyyən etsə də, onların zəruri hallarda hökmən yaralı və xəstələrə yardım göstərmək vəzifəsini nəzərdə tutmamışdır. Bu vəzifə beynəlxalq humanitar hüquq normalarına əsasən dövlətin üzərinə qoyulur. Belə mə'lum olur ki, yaralı və xəstələrə yardım göstərmək mülki əhalinin vəzifəsi kimi deyil, hüququ kimi müəyyənləşdirilmişdir. CK-nın kommentariyasında qeyd olunur ki, yaxşı halda mülki əhali üzərinə bir çox dövlətlərin daxili qanunvericiliyində əksini tapmış "təhlükədə olan şəxsə yardım etmək" öhdəliyi qoyula bilər.[8]

8 Protocoles, Commentaire,p.212,& 701

E.Davidin bu məsələyə münasibəti bir qədər fərqli və bizə elə gəlir ki, daha hüquqauyğundur. O, belə hesab edir ki, yaralı, xəstə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə mülki şəxslərin onlara yardım göstərməsini, əlbəttə ki, imkan daxilində, nəzərdə tutur. E.David fikrini əsaslandırmaq üçün "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin 29-cu maddəsinin 1-ci bəndində öz ifadəsini tapmış "hər kəs cəmiyyət qarşısında borcludur" və ya 30-cu maddədə nəzərdə tutulan heç nə "həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğv edilməsinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud hərəkətlər hüququ verilməsi kimi yozula bilməz" müddəalarına istinad edir. Başqa sözlə, azadlıq hüququ o demək deyildir ki, insan qayğı göstərilmədiyinə görə əzab çəkməyə məhkum edilmiş insandan yan keçə bilər.[9]

II Əlavə Protokolun kommentariyasında da bu müddəa öz təsdiqini tapmışdır. Orada göstərilir ki, yaralı, xəstə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə öhdəliyi silahlı qüvvələr və ya silahlı qruplar, yaxud mülki əhalinin nümayəndəsi olmasından asılı olmayaraq hər kəsin üzərinə qoyulur.[10]

III CK-nın 21-ci maddəsinə əsasən münaqişədə iştirak edən tərəflər neytral ticarət gəmilərinin, yaxtaların və ya digər kiçik gəmilərin komandirlərinin insanpərvərlik hisslərinə müraciət edərək yaralıları, xəstələri və gəmi qəzasına uğrayanları gəmiyə götürməyə və onlara qayğı göstərməyə, habelə cəsədləri toplamağa çağıra bilərlər. Bu çağırışa cavab verən bütün növ gəmilərə, eləcə də öz təşəbbüsü ilə yaralıları, xəstələri, gəmi qəzasına uğrayanları toplayanlara belə missiyanın yerinə yetirilməsi üçün xüsusi qayğı və kömək göstərilməlidir.

Həmin gəmilər bu cür daşımalara görə heç bir halda tutulub saxlanıla bilməzlər.

Yaralılar və xəstələr onlar üçün tə'minat verilmiş hüquqlardan heç bir halda qismən və ya bütövlükdə imtina edə bilməzlər. Eyni zamanda yaralı və xəstələrə qarşı repressaliyə yol verilmir.

---

9 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000.с.353

10 Комментарий к Дополнительному протоколу II. М., МККК.1999. с.141

2. Tibbi hey'ətin mühafizəsi

Tibbi hey'ətin mühafizə altında olan şəxslər kateqoriyasına aid edilməsi öz başlanğıcını 1864-cü il "Quru müharibələri zamanı yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiyadan götürmüşdür. Konvensiya yaralı və xəstələrə yardım göstərilməsini nəzərdə tutmaqla yanaşı tibb hey'ətinin neytrallığını da e'lan etmişdi. Konvensiyanın 2-ci maddəsində göstərilirdi ki, "intendant hey'ət, tibb, inzibati və nəqliyyat xidmətləri, eləcə də ruhanilər öz vəzifələrini yerinə yetirərkən, həmin neytrallığın üstünlüklərindən istifadə edə bilərlər". Cenevrə hüququnun inkişafı ilə əlaqədar silahlı münaqişələr zamanı tibbi hey'ətin mühafizəsi də inkişaf etdi. Cenevrə hüququnda artıq tibb xidmətinin ümumi himayə öhdəliyi ilə bağlı olan xüsusi statusa malik olması öz ifadəsini tapmışdır. CK-ları və onlara Əlavə Protokollara müvafiq olaraq tibb hey'əti, tibb birləşmələri və tibbi nəqliyyat vasitələri himayə altındadırlar.

Beynəlxalq humanitar hüquq silahlı münaqişə zamanı xidməti zəruri olan tibb hey'ətini aşağıdakı hallarda mühafizə edir:

— onların ölkələri ərazisində daxili münaqişə mövcud olduqda;

— onların ölkəsi başqa ölkə ilə münaqişəyə cəlb olunduqda;

— onların ölkəsi qismən və ya tamamilə başqa ölkə tərəfindən işğal olunduqda;

— onların Qırmızı Xaç və ya Qırmızı Aypara milli cəmiyyətləri və ya ölkələri münaqişədə neytrallığı qoruyaraq tibbi hey'əti döyüşən tərəflərin birinin və ya BQXK-nın sərəncamına verməkbarədə qərar qəbul etdikdə.[11]

I CK-nın 24-cü maddəsinə əsasən daimi tibbi hey'ət "müstəsna olaraq yaralıların və xəstələrin axtarılması, toplanması, daşınması və ya müalicəsi və ya xəstəliklərdən qorunması ilə məşğul olan, yalnız tibbi birləşmələri və müəssisələrinə mənsub hey'ətdir". Konvensiyanın 25-ci maddəsi yardımçı tibbi hey'əti "yaralıların və xəstələrin axtarılması və ya toplanması, daşınması və ya müalicəsi məqsədilə zəruri hallarda sanitar, tibb bacısı və ya xərəkçi kimi fəaliyyət göstərmək üçün xüsusi tə'lim almış silahlı qüvvələrin üzvləri" kimi müəyyənləşdirmişdir. Hə-

---

11 Альма Баччино-Астрада. Права и обязанности медицинского персонала в вооруженных конфликтах. МККК. М., 1995. С.23

min şəxslər yalnız göstərilən vəzifələri icra etdikdə tibbi hey'ət statusuna malik olurlar.

24-cü maddədə göstərilən hey'ətin vəzifələrini icra edən, öz Dövlətləri tərəfindən lazımi qaydada tanınmış və səlahiyyət verilmiş Milli Qırmızı Xaç Cəmiyyətlərinin və digər Könüllü Yardım Cəmiyyətlərinin hey'ətləri, müharibə qayda qanunlarına tabe olduqları halda, həmin maddədə göstərilən hey'ətə bərabər tutulur.

Neytral ölkənin səlahiyyətli cəmiyyəti, yalnız münaqişədə iştirak edən Tərəfin və öz Dövlətinin qabaqcadan razılığı ilə, münaqişədə iştirak edən Tərəfə özünün tibbi hey'əti və birləşmələri vasitəsilə yardım göstərə bilər. Belə hey'ət və birləşmələr razılığını vermiş münaqişədə iştirak edən Tərəfin nəzarəti altına verilir.

Neytral Dövlət bu yardımı qəbul edən Dövlətin düşməninə bu razılıq barəsində mə'lumat verir. Münaqişədə iştirak edən və yardımı qəbul edən Tərəf həmin yardımdan istifadə etməzdən əvvəl, düşmən tərəfə bu barədə mə'lumat verməlidir.

Belə yardım, heç bir halda, münaqişəyə müdaxilə kimi qiymətləndirilməməlidir.

II Cenevrə Konvensiyasının 36-cı maddəsinə əsasən "xəstəxana gəmilərinin dini, tibbi və xəstəxana hey'ətlərinə və bu gəmilərin komandasına hörmət və himayə göstərilməlidir; gəmiinin bortunda yaralı və xəstələrin olub-olmamasından asılı olmayaraq, onlar xəstəxana gəmilərində xidmət zamanı tutula bilməzlər.

I Əlavə Protokola əsasən tibbi hey'ət anlayışı bir qədər də genişləndirilmişdir.

"Tibbi hey'ət" dedikdə, münaqişədə iştirak edən Tərəflərin yalnız yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların axtarılması, toplanması, daşınması, diaqnoz qoyulması və ya müalicəsi, o cümlədən ilk tibbi yardım göstərilməsi, habelə xəstəliklərin profilaktikası məqsədilə və ya tibbi birləşmələri idarə etmək və ya tibbi nəqliyyat vasitələrini işlətmək və idarə etmək üçün tə'yin etdikləri şəxslər nəzərdə tutulur. Belə tə'yinatlar həm daimi, həm də müvəqqəti ola bilər. Həmin termin aşağıdakıları əhatə edir:

1) I və II Cenevrə Konvensiyalarında göstərilən hey'ət də daxil olmaqla münaqişədə iştirak edən Tərəfin həm hərbi, həm də mülki tibbi hey'əti və mülki müdafiə təşkilatlarına təhkim olunmuş hey'ət;

2) Milli Qırmızı Xaç (Qırmızı Aypara, Qırmızı Şir və Günəş) Cəmiyyətlərinin və digər milli könüllü yardım cəmiyyətlərinin münaqişə-

də iştirak edən tərəfin lazımi qaydada tanıdığı və səlahiyyət verdiyi tibbi hey'əti;

3) Tibbi birləşmələrin və ya tibbi nəqliyyat vasitələrinin tibbi hey'əti.

Tibbi hey'ət mülki və ya hərbi hey'ətdən ibarət ola bilər. Mülki hey'ət yalnız mənsub olduğu və münaqişədə iştirak edən tərəfin göstərişini aldığı halda beynəlxalq humanitar hüququn tibbi hey'ətə verdiyi mühafizədən istifadə edir. Deməli, silahlı münaqişə zamanı fəaliyyət göstərən, lakin öz ölkəsinin müvafiq göstərişini almamış mülki həkim beynəlxalq humanitar hüquqa görə tibbi hey'ətin tərkibinə aid edilmir. Bu məhdudiyyət onunla əlaqədardır ki, tibbi hey'ət silahlı münaqişə zamanı xüsusi imtiyazlara malik olur. Döyüşən tərəf hər cür mümkün sui-istifadəyə görə cavabdehlik daşıdığından, həmin imtiyazlar verilmiş şəxslər üzərində müəyyən nəzarəti həyata keçirməlidir.

Onu da qeyd etmək lazımdır ki, I Əlavə Protokolun 8-ci maddəsinin "e" bəndində nəzərdə tutulmuş tibbi hey'ət termini dar mə'nada işlədilmişdir. Çünki yaralı və xəstələrə səmərəli yardım göstərilməsi üçün zəruri işi yerinə yetirən bütün hey'ət tibbi xidmətdə olduğu vaxt tibbi hey'ət kimi mühafizədən istifadə etməlidir. Ona görə də, bu hey'ətə qospitalda fəaliyyət göstərən aşbaz, inzibati hey'ət, mexanik, nəqliyyat vasitələrinə xidmət edənlər aid edilməlidir.

Dövlət beynəlxalq müqavilələrə tərəfdar çıxmaqla öz üzərinə həmin müqavilələrdə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək vəzifəsi götürür. Cenevrə Konvensiyaları və Əlavə Protokollara qoşulmuş dövlət və onların vətəndaşları həmin beynəlxalq hüquqi aktlarda öz əksini tapmış müddəalara riayət etməlidirlər. Deməli, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş normalar daxili qanunvericilikdə öz əksini tapmasa da tibb işçiləri onların tələblərinə riayət etməlidirlər.

Bu normaların tələblərinə riayət etməmək hüquq pozuntusu hesab olunur və sanksiya tətbiq edilməsi ilə nəticələnə bilər. Ona görə də, tibbi hey'ət beynəlxalq humanitar hüququn müəyyən etdiyi hüquq və vəzifələrini yaxşı bilməlidir. Çünki silahlı münaqişə zamanı onlar gözlənilmədən müxtəlif şəraitlərə düşə bilər və həmin şəraitdə hüquq və vəzifələrini necə həyata keçirməli olduqlarını bilməlidirlər.

Həmin hüquq və vəzifələr silahlı münaqişələrin nə vaxt baş verməsindən asılı olmayaraq tibbi hey'ətin bu münaqişənin qurbanlarına yardım göstərməli, yə'ni üzərlərinə qoyulmuş humanitar vəzifəni yerinə yetirməlidir.

Tibbi hey'ətin üzərinə qoyulmuş vəzifələr himayədə olan şəxslərin hüquqları ilə bilavasitə bağlıdır. Belə ki, yaralılarla humanitar rəftar vəzifəsi yaralının humanitar rəftar hüquqi ilə əlaqədardır. Heç bir hərbi əsiri stomotoloji və ya sağlamlıq vəziyyətinə əks olan tibbi təcrübəyə məruz qoymamaq vəzifəsi, hərbi əsirin fiziki və psixi toxunulmazlığına hörmət hüququ ilə əlaqədardır.

Eyni zamanda tibbi hey'ətin hüquqları onun mənsub olduğu dövlətin, həmçinin münaqişədə tərəflərin müvafiq vəzifələri ilə sıx bağlıdır. Belə ki, tibbi hey'ətin mühafizə hüququ rəqibin həmin hey'ətə hörmət vəzifəsi ilə bağlıdır: eyni qaydada tibbi hey'ətin tələb olunan yerə buraxılması hüququ münaqişədə olan tərəfin həmin yerlərə onların buraxılmasına razılıq vermək vəzifəsi ilə əlaqədardır.

Tibbi hey'ətin vəzifələri ilə əlaqədar onu da göstərmək olar ki, bu vəzifələrin bir qismi fəaliyyəti, digər bir qismi isə fəaliyyətdən çəkinməyi nəzərdə tutur. Məsələn, tibb işçisi xəstə və yaralının köməyə ehtiyacı olduqda fəaliyyət göstərməyə borcludur. Lakin tibb işçisi müəyyən fəaliyyətdən məsələn, yaralı və xəstənin maraqlarına zidd olan fəaliyyətdən çəkinməlidir.

Digər tərəfdən hərəkətsizlik-xəstəyə lazımı yardım göstərməmək tibbi hey'ətin öz öhdəliklərini yerinə yetirməməsi kimi qiymətləndirilə bilər.

Tibbi hey'ətə verilmiş hüquqlardan bə'zisi münaqişədə olan tərəflərdən müəyyən fəaliyyət göstərməyi (tibbi hey'ətin öz vəzifələrini yerinə yetirməsi üçün onlara hərtərəfli kömək göstərmək) tələb etdiyi halda bir qismi müəyyən hərəkətlərdən çəkinməyi (tibbi hey'ətə qarşı repressalinin yol verilməzliyi) tələb edir. Beləliklə, tibbi hey'ət müəyyən hüquqlara malik olduğu kimi müəyyən vəzifələri də yerinə yetirməlidir.

Yaralı, xəstə və gəmi qəzasına uğrayanlar, hərbi əsirlər və mülki əhali, yə'ni hərbi əməliyyatlarda bilavasitə iştirak etməyənlər hər hansı şəraitdə humanitar rəftardan istifadə etməlidir (I CK mad. 3,12; II CK mad. 3,12; III CK mad. 3,13; IV CK mad. 3, 27; I Ə. P. mad. 10; II Ə. P. 4,7).

Göstərilən kateqoriyalı şəxslərin hamısı beynəlxalq humanitar hüququn mühafizəsindən istifadə etməlidir. Bu adamlara kömək göstərməli olan tibb işçiləri hər hansı şəraitdə humanist hərəkət etməli öz vəzifələrini məs'uliyyətlə yerinə yetirməlidirlər.

Tibbi hey'ətin mühafizəsi onun üzvlərinin şəxsi imtiyazı deyil, si-

lahlı münaqişə qurbanlarının himayəsi və mühafizəsinin tə'min etmək üçün nəzərdə tutulan müddəalardan doğan tələbdir.[12]

Tibbi hey'ətə mühafizə onların qarşısında duran humanitar vəzifələrin yerinə yetirilməsinin asanlaşdırılması üçün və yalnız həmin vəzifələrin yerinə yetirilməsi və ancaq onların yerinə yetirildiyi vaxtda verilir. Bu I CK-nın 25-ci maddəsinin məzmunundan bir daha aydın görünür. Həmin maddədə göstərilir ki, "yaralıların və xəstələrin axtarılması və ya toplanması, daşınması və ya müalicəsi məqsədilə zəruri hallarda sanitar, tibb bacısı və ya xərəkçi kimi fəaliyyət göstərmək üçün xüsusi tə'lim almış silahlı qüvvələrin üzvləri, düşmənlə rastlaşdıqları və ya onun əlinə keçdikləri bütün hallarda həmin vəzifələri icra edirlərsə, onların fəaliyyətinə hörmət və himayə göstərilməlidir. Göründüyü kimi normanın özündə mühafizə ancaq göstərilən şəxslər "həmin vəzifəni icra edirsə" təqdim olunur. Konvensiyanın himayəsi altında olan hakim bu mühafizədən fayda əldə etmək üçün istifadə edə bilməz.

Tibbi hey'ət hər cür düşmənçilik hərəkətlərindən çəkinməlidir.

Tibbi hey'ət mühafizə altına götürülür. Çünki o, kömək göstərməklə məşğul olduğu silahlı münaqişə zamanı neytrallığa riayət etməyə borcludur. Tibbi hey'ət neytrallıqdan kənarlaşdıqda o mühafizə hüququnu itirir.

"Neytrallıq" tibbi hey'ətdən hər hansı düşmənçilik hərəkətlərindən və ya geniş mə'nada hərbi əməliyyatlara hər cür müdaxilədən çəkinməyi tələb edir. Məhz həmin şərtlər əsasında tibbi hey'ətə mühafizə təqdim olunur.

Tibbi hey'ətə silah gəzdirmək və ondan ancaq özünümüdafiə və öz xəstə və yaralılarını mühafizə etmək üçün istifadə etməyə icazə verilir (I CK mad. 22, II CK mad. 35, I Ə. P. mad. 13, 28, 63, 65, 67). İlk baxışda tibbi hey'ətin yalnız humanitar missiyanı yerinə yetirməsi və özünün neytrallıq statusuna müvafiq olaraq mühafizə olunması, onların silahlanması ilə uyğunsuzluq təşkil edir. Lakin tibbi hey'ətin silahlı münaqişə zamanı müxtəlif şəraitlərlə rastlaşa biləcəyi nəzərə alındıqda onların özünü müdafiə silahları ilə silahlanmağının vacibliyi özünü təzahür etdirir. Silahlı münaqişə çox vaxt xaosa səbəb olur. Bu cür vəziyət isə zorakılıq aktlarının-zorlama, soyğunçuluq və quldurluğun tö-

12 Альма Баччино-Астрада. Права и обязанности медицинского персонала в вооруженных конфликтах. МККК. М., 1995. С.23

rədilməsinə şərait yaradır. Yaralı və xəstələrin bu cür əməllərdən müdafiəsinə tamamilə zəruri bir hal kimi baxılmalıdır. Bundan başqa yaralı əsgərlər heç də həmişə tamamilə köməksiz olmurlar. Bu da tibbi müəsisələrin hamısında qayda yaradılmasını tələb edir. Başlıca olaraq bu iki səbəbdən dövlət tibbi hey'ətin silahlanmasını tam istina etmir. Bununla yanaşı tibbi hey'ət ancaq şəxsi silaha malik ola və onu ancaq yuxarıda göstərilən məqsədlə istifadə edə bilər.

Əgər tibbi hey'ət silah gücünə hücum əməliyyatlarına mane olmağa cəhd edərsə, o münaqişədə öz neytrallığını itirmiş hesab olunur. Lakin düşmən qəsdən yaralı və xəstələri və ya tibbi hey'əti öldürməyə cəhd etdikdə tibbi hey'ət silahdan istifadə etmək hüququna malikdir.

Tibbi hey'ət tanınma nişanı və sənədlərə malik olmalıdır. (I CK mad. 40,41; II CK mad. 42; IV CK mad. 20; I. Ə. P. mad. 18, 66, 67)

1864-cü il Konvensiyasının qəbul edilməsi ərəfəsində münaqişəyə cəlb edilməyən-"neytral" obyektin necə tanınması məsələsi də müzakirə obyektinə çevrilmişdi. O vaxtlar yalnız hərbi tibb hey'əti və ordu keşişlərindən ibarət himayə edilməli şəxslər qola taxılan sarğı gəzdirməli idilər. Ona görə də 1864-cü il Konvensiyasının 7-ci maddəsinin 3-cü bəndində göstərilirdi ki, tanınma üçün "həm bayraq, həm də qola taxılan sarğı ağ fon üzərində qırmızı xaç ilə işarələnməlidir". Beləliklə ağ fon üzərində qırmızı xaç ilə himayə bildirilməsi təşəkkülünü tapdı.

1929-cu il Konvensiyasında qeyd olunmuşdur ki, qırmızı xaç emblemi İsveçrə bayrağındakı rənglərin əks qaydada düzülməsi ilə yaranmışdır. 1949-cu ildə Konvensiyalara yenidən baxıldıqdan sonra ağ fonda qırmızı xaç işarəsi ilə hərbi və ya mülki xarakterli olmasından asılı olmayaraq, beynəlxalq hüquqla himayə edilmək hüququ verilən və hörmət edilən bütün şəxslər, binalar, nəqliyyat vasitələri işarələnir.[13]

1977-ci il Protokolları qəbul olunduqdan sonra fərqləndirici nişanın uzaqdan görünməsinə xüsusi diqqət yetirilir. Mühafizədən istifadə edən bütün tibbi hey'ət işğal olunmuş ərazilərdə və ya döyüşlərin getdiyi və ya gedə biləcəyi ərazilərdə aydın görünən fərqləndirici nişanlar gəzdirməlidir. Bundan başqa tibbi hey'ətin müvafiq vəsiqəsi olmalıdır.

Müasir texnika görünüş dairəsindən kənarda olan hədəfə atəş açmaq ikanına malik olduğuna görə, görünmədən asılı olanlardan başqa tanı-

13 Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. МККК.М., с.47-48

ma vasitələrindən də istifadə olunması zəruridir. I Əlavə Protokola texniki əlavədə müəyyən siqnallardan istifadə etmək nəzərdə tutulmuşdur. Həmin siqnallar tanıma vasitələrini hərbi texnika sahəsində müasir nailiyyətlərə uyğunlaşdırmağa imkan yaradır. Məsələn, uçan sanitar aparatları artıq mavi işıq siqnalı ilə tanınmalıdır. Tanınma üsulları sırasına radiosiqnallar və ya ikinci dərəcəli radar sistemlərindən istifadə olunması da daxil edilmişdir. Bu cür tanıma vasitələri uçuş aparatları üçün xüsusi ilə əhəmiyyətlidir. Qospital gəmiləri özünü xüsusi radiosiqnallar vasitəsilə tanıtmalıdır.[14]

Beynəlxalq humanitar hüquq pozuntusu törətmiş tibbi hey'ət cəzalandırılmalıdır (I CK mad. 3, 44, 49-54; II CK mad. 3,44,45-50-53; III CK mad. 3,13,129-132; IV CK mad. 3,146-149; I. Ə. P. mad. 11, 18, 83, 86; II Ə. P. mad. 4,5).

Beynəlxalq humanitar hüquq normalarının pozulması özündə bu hüquqa riayət olunmamasını əks etdirir və Konvensiyanın iştirakçısı olan dövlət bu pozuntuların qarşısını almağa borcludur. Bir qayda olaraq beynəlxalq humanitar hüququn daha mühüm normalarının pozulmasına görə daxili cinayət qanunvericiliyində sanksiyalar nəzərdə tutulur. Beynəlxalq humanitar hüquq bir sıra normaların tələblərinin pozulmasını ciddi pozuntusu kimi müəyyənləşdirir. Belə hallarda beynəlxalq humanitar hüquq təkcə pozuntuların qarşısının alınmasını deyil, həm də təqsirli şəxslərin cinayət məs'uliyyətinə cəlb edilməsini tələb edir. Qeyd etmək lazımdır ki, ciddi pozuntular hərbi cinayətlər hesab olunur və müddətindən, törədildiyi ərazidən asılı olmayaraq cəzalandırılmalıdır.

Tibbi hey'ət tərəfindən vəzifələrini yerinə yetirərkən törədilmiş pozuntular beynəlxalq humanitar hüququn mühafizəsi altında olan şəxslər və obyektlərə qarşı yönəldikdə həmin hüququn ciddi pozuntusu kimi qiymətləndirilir. Bu cür pozuntulara aşağıdakılar aid edilir.

— qəsdən adam öldürmə;

— bioloji eksperimentlər, digər tibbi və ya elmi təcrübələr daxil olmaqla işgəncə və ya qeyri-insani rəftar;

— qəsdən böyük əzab yetirmə, sağlamlığa və ya şəxsiyyətə ciddi ziyan vurma;

---

14 Bu barədə ətraflı bax: Руководство по использованию технических средств опознавания. М., МККК. 1997

— həmin şəxslərin fiziki və ya psixi vəziyyəti üçün ciddi təhlükə yaradan qəsdən törədilmiş hər hansı hərəkət ya hərəkətsizlik. Qeyd etmək lazımdır ki, qan verilməsi və ya dəri götürülməsinə donorun razılığı ilə icazə verilir. Bu razılıq məcburiyyət yolu ilə alınmamalı və ancaq müalicə məqsədi daşımalıdır;

— ölümə və ya fiziki vəziyyətə, sağlamlığa ciddi ziyan vurulmasına səbəb olduqda, Qırmızı Xaç və Qırmızı Aypara fərqləndirici nişanlarından və ya digər tanınmış fərqləndirici nişan və ya siqnaldan xəyanətkarcasına istifadə etmək.

Konvensiya iştirakçısı olan hər bir dövlət bu cinayətləri törətmiş və bu barədə əmr vermiş şəxsləri axtarmalı və cinayət məs'uliyyətinə cəlb edilməsini tə'min etməlidir.

Silahlı münaqişə zamanı öz xidmətini təqdim edən tibbi hey'ət sülh dövründə olduğu kimi tibbi etika prinsiplərinə riayət etməyə borcludur.

Tibbi etika prinsipləri həkimin peşə borcudur. İlk dəfə bu prinsiplər "Hippokrat andında" öz ifadəsini tapıb. Bu andı hər bir həkim bilməlidir. 1948-ci ildə Ümumdünya Tibb Assosiasiyası bu andın müasir variantını "Cenevrə andı" adı altında hazırlamışdır. Həmin anda əlavə olaraq "Beynəlxalq tibb etikası məcəlləsi" qəbul edilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı da tibbi etika məcəlləsi layihəsini hazırlamışdır. BMT Baş Məclisi 27 noyabr 1981-ci il qətnaməsində (35/179) İqtisadi və Sosial Şuraya bu layihəni öyrənməyi və XXXVI sessiyasının təsdiqinə verməyi xahiş etmişdir.

Bu sənədlər dövlətlər tərəfindən qəbul edilmədiyinə görə beynəlxalq münasibətlərdə hüquqi qüvvəyə malik deyildir. Buna baxmayaraq onlar geniş surətdə tanınmışdır.

"Cenevrə andı"na əsasən həkim aşağıdakıları öhdəsinə götürür:

— peşə borcunu vicdan və ləyaqətlə yerinə yetirəcək;

— xəstələrin sağlamlıq vəziyyətini özünün əsas qayğısı hesab edəcək;

— ona e'tibar edilmiş sirri yaymayacaq;

— öz borcunu yerinə yetirərkən heç bir dini, milli, irqi, siyasi və ya sosial ayrı seçkiliyə yol verməyəcək;

— insan həyatının mütləq dəyərini tanıyacaq;

— hətta hədə-qorxu altında tibbi biliyini insanpərvərlik qanunlarına qarşı istifadə etməyəcək.

1957-ci ildə BQXK, Beynəlxalq Hərbi Tibb və Əczaçılıq Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatı "Müharibə vaxtı üçün tibbi etika

qaydaları" və "Silahlı münaqişələrdə yaralı və xəstələrə yardım göstərmə qaydaları"nı təsdiq etdi. Həmin sənədlər silahlı münaqişə şəraitində tibbi vəzifələrin yerinə yetirilməsinin əsas qaydalarını müəyyənləşdirir. Orada göstərilir ki, tibb sənətinin başlıca vəzifəsi insanın həyat və sağlamlığının mühafizəsini tə'min etməkdən ibarətdir:

— adamlar üzərində təcrübələr qadağandır;

— ekstremal şəraitdə tibbi yardım tibbi zərurətə müvafiq və tibbi zərurət istisna olmaqla hər hansı bir mülahizədən asılı olmayaraq, fərq qoyulmadan göstərilməlidir.

Hərbi əmliyyatlarda bilavasitə iştirak etməyən və ya sıradan çıxmış şəxslərlə insani rəftar edilməlidir. (I CK mad. 3, 12; II CK mad. 3,12; III CK mad. 3,13; IV CK mad. 3,16,27; I. Ə. P. mad. 10, 75; II Ə. P. mad. 4,5,7).

Bu onu göstərir ki, tibbi hey'ət himayədə olan şəxslərə hörmətlə yanaşmaqla yanaşı həm də onlara yardım göstərməlidir. Onlara humanist rəftar isə tələb edir ki, bu şəxslərlə vahid bəşər birliyinin üzvü kimi davranmaq lazımdır. Qayğı, tibbi mülahizələrdən başqa heç bir fərq qoyulmadan göstərilməlidir. (I CK mad. 3,12; II CK mad. 3,12; III CK mad. 3,14,16; IV CK mad. 3,13,27; I. Ə. P. mad. 10,75; II Ə. P. mad. 4,5,7).

Heç bir ayrı-seçkilik qoyulmadan yardım göstərilməsi Qırmızı Xaç hərakatının əsas prinsiplərindən biri olan qərəzsizlik prinsipinin tələbidir. Bu prinsip irqi, siyasi, əqidə, dini e'tiqad, fəlsəfi inam, cins, mənşə, dil, milli, sosial, əmlak və ya hər hansı oxşar kriteriyalara əsasən rəftarda fərq qoyulmamasını tələb edir. Tibbi yardımda növbəlilik müstəsna olaraq tibbi tələbata əsasən müəyyənləşdirilməlidir. Başqa sözlə, həkim yaralını ancaq özünün xəstəsi kimi görməlidir. Ona özününkü və ya düşmən kimi baxmamalıdır.

Fərq qoymamaq o demək deyil ki, uşaq xəstə və qocalara münasibət başqalarınkından fərqlənməməlidir. Bu prinsip təcrübədə tətbiq olunarkən sağlam düşüncə ilə hərəkət etmək lazımdır.

Konvensiyanın mühafizəsi altında olan şəxsin sağlamlığının tələb etmədiyi hər hansı tibbi proseduraya, həmçinin tibbi bioloji və ya digər elmi təcrübəyə mə'ruz qoymaq qadağandır. (I CK mad. 3, 12; II CK mad. 3,12; III CK mad. 3,13; IV CK mad. 3,32; I. Ə. P. mad. 11).

Normal şəraitdə tibbin inkişafının tə'min edilməsində yeni müalicə metodlarının və dərmanların adamlar üzrində yoxlamaq təcrübəsi mühüm rol oynayır. Onlar yalnız bütün ehtiyat tədbirləri görməklə və hə-

min adamlara bütün tə'minatlar verməklə aparılmalıdır. Sözsüz ki, bu cür təcrübələr aparılan şəxslər qabaqcadan buna razılıq verməlidirlər. Lakin konvensiyanın mühafizəsi altında olan şəxsin bir qayda olaraq düşmənin hakimiyyəti altında olduğunu nəzərə alaraq onların könüllü razılıq verməsinə inanmaq çətindir. Ona görə də, həmin şəxslər üzərində təcrübə aparılması qadağan edilmişdir.

Bu qaydanın tətbiqi himayədə olan şəxslərin arzusundan asılı deyildir. Onlar istəsələr belə bu cür əməliyyatlarda iştirak edə bilməzlər. Çünki bu beynəlxalq humanitar hüququn pozulması hesab olunur.

Konvesiyada iki istisna nəzərdə tutulur: köçürmə üçün qan və dəri verilməsi. Bu yalnız donorun razılığı və müstəsna olaraq tibbi məqsədlə həyata keçirilməlidir.

Bu istisnalara onunla haqq qazandırılır ki, qan və dəri verilməsi silahlı münaqişə vaxtı başqa yaralı və xəstələrin həyatının qorunması üçün faydalı ola bilər.

Qeyd etmək lazımdır ki, qəsdən fəaliyyətsizlik və ya ciddi laqeydlik beynəlxalq humanitar hüququn pozulmasını təşkil edir. Buna tibbi yardıma ehtiyacı olan şəxsləri tibbi yardımsız qoymaq və ya qəsdən yaralı və ya xəstəni yoluxucu xəstəliyə tutula biləcək şəraitdə qoyma misal ola bilər.

Bundan başqa tibbi hey'ət yaralı və xəstənin ləyaqətinin təhqir olunmaqdan qorumalı, onları kütlənin marağına çevrilməsinə imkan verməməlidir. Onlar hər cür hədə-qorxudan mühafizə olunmalıdır.

Xəstənin müalicəsinə başlamamışdan əvvəl, həkim xəstənin bu barədə razılığını almalıdır. Belə ki, xəstə və yaralı zəruri hesab etmədikdə cərrahiyyə əməliyyatından imtina edə bilər. Xəstə və yaralı bu cür razılıq vermək iqtidarında deyilsə, bu razılıq tələb olunmur.

Tibbi hey'ətin mühafizəsi ilə əlaqədar tibbi daşımalar da mühüm əhəmiyyət kəsb edir.

"Tibbi daşımalar" dedikdə, yaralı, xəstə, gəmi qəzalarına düşənlərin, həmçinin tibbi və ruhani hey'ətinin tibbi avadanlıq və ehtiyatların quruda, suda və havada nəql edilməsi başa düşülür.

"Tibbi nəqliyyat vasitələri" dedikdə, münaqişədə olan tərəfin səlahiyyətli hakimiyyət orqanının nəzarəti altında olan, yalnız tibbi daşımalar üçün nəzərdə tutulan hərbi və ya mülki, daimi və ya müvəqqəti daşıma vasitələri nəzərdə tutulur.

Tibbi nəqliyyat vasitəsi qeyri-müəyyən müddətə müstəsna olaraq tibbi məqsəd üçün nəzərdə tutulubsa "daimi" tibbi nəqliyyat vasitəsi

hesab edilir. Əgər tibbi nəqliyyat vasitəsi müstəsna olaraq tibbi məqsədlərlə məhdud zaman üçün cəlb edilibsə, onda həmin müddət ərzində "müvəqqəti" tibbi nəqliyyat vasitəsi hesab edilir.

Tibbi nəqliyyat vasitəsi daimi və ya müvəqqəti xarakterindən asılı olmayaraq konvensiyanın himayəsi altında olduğuna görə müstəsna olaraq tibbi məqsədlər üçün istifadə olunmalıdır.

Həm yaralı, həm də sağlam əsgəri və ya silah daşıyan avtomobil dəstəsi himayəçilikdən məhrum olur. Lakin yaralı və xəstələrdən götürülmüş, lakin müvəqqəti olaraq təhvil verilməmiş silahların aparılmasına icazə verilir. Tibbi nəqliyyat vasitəsi hörmət və mühafizədən istifadə edir. Onlara hörmətlə yanaşmaq o deməkdir ki, həmin nəqliyyat vasitələrinə hücum etmək, onları sıradan çıxarmaq, hərəkətinə mane olmaq, yə'ni onların qarşısında qoyulmuş vəzifənin yerinə yetirilməsinə maneçilik törətmək olmaz. Mühafizə himayəçiliyin fəal surətdə həyata keçirilməsini nəzərdə tutur.

Tibbi hey'ətlə bağlı anlayışlardın biri də tibbi birləşmələrdir.

"Tibbi birləşmə" dedikdə, tibbi məqsədlər, məhz yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların axtarılması, toplanması, daşınması, diaqnoz qoyulması və ya müalicəsi, o cümlədən ilk tibbi yardım göstərilməsi, habelə xəstəliklərin profilaktikası üçün yaradılmış həm hərbi, həm də mülki müəssisələr və digər birləşmələr nəzərdə tutulur. Həmin termin, məsələn, xəstəxanaları və bu kimi digər bölmələri, qankö-çürmə mərkəzlərini, tibbi profilaktika mərkəzlərini və ya müəssisələrini və həmin birləşmələrin tibbi və tibbi-əczaçılıq əmlakının saxlandığı ambarları əhatə edir. Tibbi birləşmələr stasionar və ya səyyar, daimi və ya müvəqqəti ola bilər.

Tibbi birləşmə hər bir vaxt himayə və mühafizədən istifadə edir. Bu o deməkdir ki, onlara hücum etmək qadağan olunmaqla yanaşı, həm də onlara öz vəzifələrini yerinə yetirmək üçün imkan verilməlidir. Yə'ni tibbi birləşmələrin dərmanlar və ləvazimatlarla təchiz olunması, hər hansı banditizm aktlarından qorunması tə'min edilməlidir. Digər tərəfdən tibbi birləşmələrin yerləşdiyi əraziyə düşmən daxil olduqda onları düşməndən müdafiə etmək olmaz. Bu cür müdafiə düşmənçilik hərəkəti kimi qiymətləndirilir və həmin birləşməni mühafizə hüququndan məhrum edir. Düşmənin vəzifəsi tibbi birləşməyə hörmət göstərməkdən ibarətdir. Bu o deməkdir ki, düşmən belə tibbi birləşmələri zəbt edə bilməz, yaralı və xəstələrə, tibbi hey'ətə hər cür hörmət göstərməlidir. Həmçinin tibbi avadanlığı zədələmək və tibbi birləşmədən tə'yi-

natına uyğun olmadan istifadə etmək olmaz.

Aşağıdakılar düşmənə ziyan vuran hərəkətlər sayılmır:

1) tibbi birləşmələrin hey'ətində özünümüdafiə və ya himayəsində olan yaralıları və xəstələri müdafiə üçün yüngül şəxsi silah olması;

2) tibbi birləşmələrin keşik dəstəsi, gözətçilər və ya kanvoy tərəfindən qorunması;

3) tibbi birləşmələrdə yaralılardan və xəstələrdən alınmış, lakin hələ müvafiq xidmətə təhvil verilməmiş əl silahının və döyüş sursatının aşkar edilməsi;

4) silahlı qüvvələrin üzvlərinin və ya başqa döyüşçülərin tibbi səbəblər üzündən tibbi birləşmədə olması.

Tibbi birləşmə iki şərtə cavab verdikdə hörmət və mühafizədən istifadə edir:

1) Tibbi birləşmə (BQXK-nin idarəçiliyi altında olanlar istisna olmaqla) silahlı qüvvələrin tibbi xidmətinə aid olmalıdır. Mülki tibbi birləşmə isə münaqişədə olan tərəfin səlahiyyətli hakimiyyət orqanları tərəfindən tanınmalıdır. Hər bir halda münaqişədə olan dövlət, hakimiyyəti altında olan tibbi birləşmənin tə'yinatına uyğun olaraq fəaliyyət göstərməsi üçün tədbir görməlidir və ona görə cavabdehlik daşıyır.

2) Tibbi birləşmələr düşmənə ziyan vuran hərəkətlər törətməməlidir. Məsələn, tibbi birləşmələrdən müşahidə məntəqəsi kimi və ya sağlam döyüşçüləri və hərbi sursatı orada saxlamaq üçün istifadə etmək olmaz. Əgər tibbi birləşmə düşmənə ziyan vuran hərəkətlər törədirsə, rəqib imkan dərəcəsində tibbi birləşməyə hücum etməzdən əvvəl xəbərdarlıq etməlidir. Hər bir halda yaralı və xəstələri xilas etməyə cəhd etmək lazımdır. Hərbi əsirlər və nəzarət altında saxlanan şəxslərlə işləməli olan tibbi işçiləri aşağıdakı kateqoriyalara ayırmaq olar:

— münaqişədə iştirak edən tərəfə məxsus olan hərbi əsirlərə xidmət üçün düşmən tərəfdən tutulmuş tibbi hey'ət;

— digər nəzarət altında saxlanan şəxslərə qayğı göstərmək üçün düşmən tərəfdən tutulmuş və nəzarət altında saxlanan şəxslərdən olan tibbi hey'ət;

— hərbi əsir və nəzarət altında saxlanan şəxslərin hakimiyyəti altında olduqları münaqişədə iştirak edən tərəfə məxsus olan və həmin tərəfin əmri və ya xahişi ilə onlara yardım göstərən hərbi və ya mülki tibbi hey'ət;

— BQXK-nin tibbi hey'əti.

Tibbi hey'ət hərbi əsir və nəzarət altında saxlanan şəxslərin hüquq-

larını bilməli və bu hüquqlar pozulduqda səlahiyyətli hakimiyyət oqranlarından onlara riayət edilməsini tələb etməlidir.

Əsirlikdə və nəzarət altında saxlanılan tibbi hey'ət düşərgənin daxili intizamına tabe olmalıdır. Onun düşərgədəki sanitar vəziyyəti barədə hər hansı xəbərdarlığı konvensiya müddəalarına əsasən hakimiyyətdə olanlara çatdırılır.

Tibbi hey'ət heç bir halda beynəlxalq humanitar hüququn onlara verdiyi hüquqlardan imtina edə bilməz. Bu müddəanın məqsədi onların tam müdafiəsini tə'min edilməsi üçün zəruridir. Bu qəti qadağanedici norma tibbi hey'ətə öz hüquqlarından imtina etmək üçün təzyiq göstərilməsi imkanının aradan qladırılmasında mühüm əhəmiyyət kəsb edir.

Peşə etikası qaydalarına müvafiq qaydada tibbi vəzifələrin yerinə yetirdiklərinə görə tibbi hey'ət cəzalandırıla və tə'qib edilə bilməz (I CK mad. 18; I Ə.P. mad. 16; II Ə. P. mad. 10).

Tibbi hey'ət yaralı və xəstələr haqqında mə'lumatları verməyə məcbur edilə bilməz (I Ə. P. mad. 15,16; II Ə. P. mad. 9,10).

Burada söhbət tibbi hey'ətin güman etdiyi kimi yaralı və xəstələrin özlərinə və onların ailələrinə ziyan vuran mə'lumatlardan gedir. E. David qeyd edir ki, I Əlavə Protokolun kommentariyasında "ziyan vuran" anlayışı izah edilmədiyinə görə o geniş mə'nada şərh edilməlidir.[15] Bu qayda yaralı və xəstələrlə tibbi hey'ət arasında e'tibar münasibətinin yaranmasına kömək edir. Lakin bu qaydadan iki istisna vardır:

— yoluxucu xəstəliklər barədə hökmən mə'lumat verilməlidir;

— bir çox dövlətlərin daxili qanunuvericiliyi tibbi hey'ətin mə'lumatların verməsini nəzərdə tutur.

Tibbi hey'ətin mühafizəsinin bir istiqaməti də onların əsir götürülməkdən immunitet hüququna malik olmalarıdır. Bu hüquqa aşağıdakı kateqoriya tibbi hey'ət malikdir:

— münaqişədə iştirak edən tərəflərin sərəncamına verilən neytral dövlətlərin və ya bu cür dövlətin cəmiyyətinin tibbi hey'əti;

— BQXK tərəfindən göndərilmiş tibbi hey'ət;

— qospital gəmiləri və sanitar aviasiya təyyarələrinin tibbi hey'əti.

Əgər birinci qrupa aid tibbi hey'ət münaqişədə olan tərəfin düşmənin əlinə düşərsə ona öz ölkəsinə və hətta göndərildiyi ölkənin ərazisinə qulluğa qayıtmağa razılıq verilməlidir. Lakin onun qayıtması hərbi

---

15 Эрик Давид. Принципы права вооруженных конфликтов. МККК. М., 2000. с.354

mülahizələrin imkan verdiyi və yol açıldığı vaxt həyata keçirilir.

İkinci kateqoriyaya aid şəxslər isə dərhal repatriasiya olunmalı və həmin şəxslərlə BQXK və münaqişədə olan tərəfin bağladığı sazişə müvafiq olaraq onlar yenidən tərəflərin birinin sərancamına göndərilməlidir.

Aşağıdakı tibbi hey'ət prinsip e'tibarı ilə əsir götürülə bilməz. Lakin müəyyən şərtlər gözlənilməklə tutula (saxlanıla) bilər:

— daimi hərbi tibbi hey'ət;

— münaqişədə olan tərəfin hərbi tibbi xidmətinə verilmiş milli könüllü yardım cəmiyyətləri (məsələn, Qızıl Xaç və Qırmızı Aypara milli cəmiyyəti) tibbi hey'əti.

— münaqişədə olan tərəfin mülki tibbi hey'əti.

Prinsip e'tibarı ilə bu kateqoriyaya aid olan şəxslər "hərbi mülahizələrin imkan verdiyi və yol açıldığı vaxt" repatriasiya edilməlidir.

İlk iki kateqoriyaya mənsub olan şəxslər hərbi əsirlərə qayğı göstərilməsi üçün saxlanıla da bilər. Lakin onlar hərbi əsirlərin sayı və sağlamlıq vəziyyəti tələb etdiyi qədər və bu məqsəd üçün zəruri olan sayda saxlanıla bilər. Saxlanılmaq üçün bu cür tibbi hey'ət seçilərkən heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Bu zaman onların özlərinin sağlamlıq vəziyyəti nəzərə alına bilər. Bu qaydada saxlanılan tibbi hey'ət üzvləri hərbi əsir sayılmırlar. Buna baxmayaraq, onlar ən azı "Hərbi əsirlərlə rəftara dair" Cenevrə Konvensiyasının bütün müddəalarından faydalanmalıdırlar. Onlar himayədə olan şəxsləri saxlayan Dövlətin hərbi qanun və qaydaları çərçivəsində və onun səlahiyyətli xidmətinin nəzarəti altında, öz peşə etikalarına uyğun olaraq, əsasən özlərinin mənsub olduqları silahlı qüvvələrdən olan hərbi əsirlərin xeyrinə öz tibbi və mə'nəvi borclarını yerinə yetirməkdə davam etməlidirlər.

Müvəqqəti hərbi tibbi hey'ətin üzvləri (I CK mad 29) düşmən əlinə keçərsə, hərbi əsir statusuna malik olurlar və zərurət yaranarsa, tibbi vəzifələrin yerinə yetirilməsi üçün istifadə olunurlar.

Qeyd etmək lazımdır ki, CK-da ruhani hey'əti də tibbi hey'ətə bərabər tutulur və eyni mühafizəyə malikdir.

"Ruhani hey'ət" yalnız öz dini vəzifələrini yerinə yetirən və aşağıdakılara təhkim olunan həm hərbi, həm də mülki şəxslər, məsələn, keşişlər deməkdir:

1) münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinə;

2) münaqişədə iştirak edən Tərəfin tibbi birləşmələrinə və ya tibbi nəqliyyat vasitələrinə;

3) I Əlavə Protokolun 9-cu maddəsinin 2-ci bəndində göstərilən tibbi birləşmələrə və tibbi nəqliyyat vasitələrinə;

4) münaqişədə iştirak edən Tərəfin Mülki Müdafiə təşkilatlarına.

II Əlavə Protokolun kommentariyasında qeyd olunduğu kimi "ruhani hey'ət" ümumi anlayışdır və bütün dinlərə şamil edilir. Protokolda "keşiş" sözü nümunə kimi işlədilmiş və söhbətin təkcə xristian ruhani hey'ətinə aid olmasına dəlalət etmir.[16]

3. Hərbi əsirlərin mühafizəsi

Hərbi əsirlər, onlarla rəftar məsələləri silahlı münaqişələri daim müşayət etmiş və tarixin müxtəlif mərhələlərində, tarixi şərait və sərkərdələrin iradəsindən asılı olaraq müxtəlif cür həll olunmuşdur. Tarixi inkişaf digər ictimai münasibətlər kimi hərbi əsirlərlə rəftarın da hüquqi tənzimləmə obyektinə çevrilməsi ilə nəticələnmişdir. Fransis Liberin hazırladığı "Döyüş meydanlarında Birləşmiş Ştatların ordu komandanlığı üçün tə'limatlar" — "Liber məcəlləsi" və İsveçrə hüquqşünası Jan-Qaspar Blunşli tərəfindən 1868-ci ildə çap etdirilmiş müasir beynəlxalq humanitar hüququn fundamental kodifikasiyası sənədi hərbi əsirlərlə rəftar qaydaları layihəsinin yaradılmasına dair tələbə təkan verdi.[17] 1907-ci ildə qəbul edilmiş "Quru müharibələri qanun və adətləri haqqında" Əsasnamənin "Hərbi əsirlər" adlanan II fəsli hərbi əsirlərin mühafizəsinin hüquqi rejiminə aid bir sıra mühüm müddəalar nəzərdə tuturdu. Bu Əsasnamədə əksini tapmış müddəaların əksəriyyəti hazırda da qüvvədədir. Bə'zi müddəalar isə inkişaf etdirilərək yeni məzmun kəsb etmişdir. Əsasnamədə hərbi əsirlərlə insarpərvərliklə rəftar olunması, onlara məxsus şəxsi əmlakın toxunulmazlığı, hərbi əsirlərin işə cəlb olunması, onların əsirlik vaxtı davranışı, azad olunması qaydası öz əksini tamışdı.[18]

1929-cu ildə Cenevrədə keçirilən Diplomatik konfransda hərbi əsirlərlə rəftar barədə konvensiyanın imzalanması qərara alındı. Həmin konvensiyada hərbi əsirlərin hüquqi rejimində aid bir sıra yeni norma-

16 Комментарий к Дополнительному протоколу II. МККК. М., 1999. с. 154.

17 Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. BQXK. Bakı. 1999. s. 49.

18 Бах. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. МККК.М.,1999.с.23-26.

lar, məsələn, hərbi əsirlərə qarşı repressalinin yolverilməzliyi, Hami-Dövlətlər, hərbi əsirliklə bağlı normaların yerinə yetirilməsinin yoxlanılması barədə müddəalar öz təsbitini tapdı. Konvensiyadakı yeniliklərdən biri də ondan ibarət idi ki, 1907-ci il Konvensiyası quru müharibələri adət və qanunlarını nəzərdə tutduğu halda, onun normaları dəniz və hava münaqişələri zamanı tutulmuş şəxslərə də şamil edilirdi.

II Dünya Müharibəsinin nəticələri hərbi əsirlərlə bağlı beynəlxalq hüquqi normaların daha da təkmilləşdirilməsini tələb edirdi. 1949-cu ildə hərbi əsirlərin mühafizəsinin hüquqi rejimini tənzimləyən "Hərbi əsirlərlə rəftara dair" Konvensiyanın qəbul edilməsi bu sahədə əhəmiyyətli irəliləyişə səbəb oldu. "Konvensiyanın 1949-cu ildə yenidən baxılmasının əsas nəticələrindən biri, əsir götürülənlər arasında hərbi əsir statusu verilməli olanların sayının artması idi"[19]. Belə ki, Konvensiya işğal olunmuş ərazilərdəkilər də daxil olmaqla müqavimət hərəkatı iştirakçılarının dörd şərtə cavab verdikdə, həmçinin əsirlikdə saxlayan dövlətin tanımadığı hökumət və ya hakimiyyətə özünü tabe hesab edən silahlı qüvvələrin şəxsi hey'ətindən olanların tutulduğu halda hərbi əsir statusuna malik olmasını təsbit etdi. Konvensiyanın yeniliklərindən biri də hərbi əsir statusunun prezumpsiyasıdır. Yə'ni hərbi əməliyyatlarda iştirak etmiş və düşmən əlinə keçmiş şəxslərin hərbi əsir hesab edilib-edilməməsi barədə şübhə yaranarsa, belə şəxslər onların statusu səlahiyyətli tribunal tərəfindən müəyyən edilənədək Konvensiyanın himayəsindən istifadə etmək hüququna malikdirlər. J. Pikte "hərbi əməliyyatların sona çatması ilə hərbi əsirlərin repatriasiyası"nı Konvensiyanın digər mühüm cəhəti kimi qiymətləndirmişdir.[20]

Cenevrə Konvensiyalarına I Əlavə Protokolda da hərbi əsirlərlə əlaqədar mühüm yeniliklər öz əksini tapmışdır. Xüsusən, Protokolda hərbi əsir statusundan istifadə etmək hüququna malik olmayan şəxslər kateqoriyasına şamil edilənlərin müəyyənləşdirilməsi mühüm yenilik kimi qiymətləndirilməlidir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası beynəlxalq müqavilələrin vicdanla yerinə yetirilməsi prinsipinə sadiq qalaraq hərbi əsirlərlə rəftar haqqında beynəlxalq hüquqi normaların milli qa-

19 Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. BQXK. Bakı. 1999. s.52.

20 Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. BQXK. Bakı. 1999. s. 53

nunvericiliyə implementasiyası sahəsində məqsədyönlü iş aparır. Bu cəhətdən "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanunda hərbi əsirlərlə bağlı bir çox müddəalar öz əksini tapmışdır.

"Hərbi əsirlərlə rəftara dair" III Cenevrə Konvensiyasiyanın müddəaları hərbi əsirlər düşmən əlinə keçdiyi andan tam azad edilənədək və vətənə qaytarılanadək onlara şamil edilir (III CK mad. 5). Tərəflər məqsədəuyğun saydıqda hərbi əsirlərin mühafizəsi ilə bağlı xüsusi sazişlər bağlaya bilərlər. Lakin bu sazişlər hərbi əsirlərin Cenevrə Konvensiyası ilə müəyyən edilmiş vəziyyətlərinə xələl gətirməməli və Konvensiyanın verdiyi hüquqları məhdudlaşdırmamalıdır (III CK mad. 6). Bu nöqteyi-nəzərdən E. David 1989-cu ilin dekabrında ABŞ-nın Panamaya müdaxiləsi nəticəsində əsir götürülmüş Panamanın sabiq lideri general Noryeqa üçün Panamanın hərbi əsir statusu tələb etməməsinə görə, onun həmin statusdan məhrum edilməli olması barədə təklifin hüquqauyğun olmadığını bildirir.[21] Hərbi əsirlər Konvensiya və sazişlərlə onlar üçün müəyyən edilmiş hüquqlardan heç bir halda qismən və bütövlükdə imtina edə bilməzlər (III CK mad. 7). Həmin norma ona əsaslanır ki, silahlı münaqişə elə gərginlik vəziyyətdir ki, adamlar təzyiq altında və ya qorxudan zahiri cəhətdən müstəqil görünə bilən qərarlar qəbul edə bilərlər.[22]

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunun 7-ci maddəsində göstərilir ki, hərbi əsirlərin həmin qanunda müəyyənləşdirilmiş hüquqları ayrılmaz hüquqlardır. Səbəblərindən asılı olmayaraq mülki şəxslərin və hərbi əsirlərin bu hüquqlardan imtina etməsi e'tibarsızdır. O.İ.Tiunov haqlı olaraq qeyd edir ki, "əsir hüququ ilk növbədə hərbi əsirin həyatını qorumağa olan hüququdur".[23]

Hərbi əsirlərin statusunu müəyyənləşdirən əsas müddəalardan biri onların Konvensiya iştirakçısı olan dövlətlər tərəfindən mühafizə altına alınmasındadır. Konvensiyanın 12-ci maddəsinə müvafiq olaraq hərbi əsirlər onları əsir götürmüş ayrı-ayrı şəxslərin və ya hərbi hissə-

---

21 Эрик Давид. Принципы права вооруженных конфликтов. МККК. М., 2000 с.374.

22 Conventions, Commentaire, III, pp. 98-99

23 Тиунов О. И. Международное гуманитарное право. М., НОРМА-ИНФРА.М. 1999. с.159

lərin deyil, düşmən dövlətin ixtiyarında olurlar. Ayrı-ayrı şəxslərin üzərinə düşə bilən məs'uliyyətdən asılı olmayaraq, əsirlikdə saxlayan Dövlət hərbi əsirlərlə rəftara görə məs'uliyyət daşıyır. Rütbəyə və cinsi mənsubiyyətə aid müddəaları nəzərə almaqla, əsirlikdə saxlayan Dövlət bütün hərbi əsirlərlə heç bir ayrı-seçkilik qoymadan eyni cür rəftar etməlidir.

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanunun 18-ci maddəsinə əsasən silahlı münaqişə dövründə ayrıca şəxs, şəxslər qrupu, hər hansı təşkilat və ya hərbi hissə tərəfindən tutulmuş şəxslər münaqişədə iştirak edən tərəflərdən biri kimi Azərbaycan Respublikasının ixtiyarında olarkən statusundan, milli mənsubiyyətindən, e'tiqadından, dilindən, siyasi əqidəsindən, müəyyən sosial qrupa mənsubiyyətindən və buna bənzər başqa me'yarlardan asılı olmayaraq öz şəxsiyyət və şərəfinə hörmət görür, habelə qanunda nəzərdə tutulmuş hüquqlardan istifadə edirlər. Hərbi əsirlərlə hər zaman humanist rəftar edilməlidir. Əsirlikdə saxlayan Dövlətin öz ixtiyarında olan hərbi əsirin ölümünə səbəb olan və ya hərbi əsirin səhhəti üçün ciddi təhlükə yaradan bu və ya digər qanunsuz hərəkət və ya fəaliyyətsizliyi qadağandır və Konvensiyanın kobud surətdə pozulması kimi qiymətləndirilir. Heç bir hərbi əsir onun tibbi, stomotoloji və ya xəstəxana müalicəsi ilə bağlı mülahizələr və onun maraqları baxımından özünü doğrultmayan fiziki xəsarətə və ya hər hansı xarakterli tibbi və ya elmi təcrübəyə mə'ruz qoyula bilməz.

Eyni qaydada, hərbi əsirlər hər zaman zorakılıq əməllərindən və ya hədələnməkdən, təhqirlərdən və ya kütlənin maraqlarından qorunmalıdırlar. Hərbi əsirlər barəsində repressali tədbirləri qadağan edilir (III CK mad. 13).

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunun 21-ci maddəsinə əsasən "hərbi əsirlər barəsində aşağıdakılar qadağandır:

1) həyata, sağlamlığa və cismani toxunulmazlığa qəsd, o cümlədən hər hansı şəkildə qətl, zorlama, cismani xəsarət yetirmə, tibbi və ya elmi eksperimentlər aparma, qəddar rəftar və işgəncələr;

2) insan ləyaqətinə qəsd, o cümlədən təhqiramiz və alçaldıcı rəftar;

3) hərbi əməliyyatlarda sipər kimi istifadə etmə;

4) beynəlxalq hüququn təsdiq etdiyi məhkəmə tə'minatları gözlənilməklə qanun üzrə lazımi qaydada tə'sis edilmiş məhkəmənin qərarı olmadan məhkumetmə və cəzanı icra etmə".

Hərbi əsirlər öz şəxsiyyətinə və şərəfinə hörmət edilməsi hüququna malikdirlər. Qadınlarla onların cinsi nəzərə alınmaqla rəftar edilməli və bütün hallarda onlar kişilər üçün yaradılmış şəraitdən az əlverişli olmayan şəraitlə tə'min edilməlidir.

Hərbi əsirlər əsir düşdükləri vaxt malik olduqları mülki hüquq qabiliyyətini tamamilə saxlayırlar. Əsirlikdə saxlayan dövlət bu hüquqların həyata keçirilməsini yalnız əsirlik şəraitinin tələb etdiyi dərəcədə məhdudlaşdıra bilər (III CK mad. 14).

Əsirlikdə saxlayan dövlət hərbi əsirlərin saxlanılması və onların sağlamlıq vəziyyətinin tələb etdiyi yardımı pulsuz tə'min etməlidir (III CK mad. 15).

Hərbi əsirlərin sağlamlığı və tibbi xidmətlə əlaqədar əsirlikdə saxlayan dövlət aşağıdakı vəzifələri yerinə yetirməlidir:

— hərbi əsirlərlə humanitar rəftar olunmalı və onların sağlamlığı təhlükəyə mə'ruz qoyulmamalıdır;

— düşərgədə epidemiya yaranmasının qarşısının alınması məqsədilə təmizliyi qorumaq və sağlam şəraitin tə'min olunması üçün zəruri tədbirlər görülməlidir;

— hərbi əsirlərə müvafiq yemək verilməli və tibbi xidmət göstərilməlidir;

— hərbi əsirlərin sağlamlıqlarının lazımi səviyyəsinin qorunması üçün onlar zəruri vasitələrlə, məsələn eynək, diş və digər protezlərlə, pulsuz təchiz olunmalıdır;

— sağlamlığı xüsusi müalicə və tibbi xidmət tələb edən hərbi əsirlər ixtisaslaşmış tibbi müəsisələrə göndərilməlidir;

— hərbi əsirlərin tibbi hey'ətin qəbuluna düşməsinə maneçilik göstərilməməlidir;

— ayda bir dəfədən az olmayaraq hərbi əsirlər müayinədən keçirilməlidir;

— məcburi əməyə cəlb edilmiş hərbi əsirlərin işə yararlığı yoxlanılmalı və yararsızlar məcburi əməkdən azad edilməlidir.[24]

Azərbaycan Respublikası Milli Məclisinin 28 oktyabr 1999-cu ildə qəbul etdiyi "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin 4-cü hissəsinə əsasən "resipiyentin qulluq tabeliyində və ondan fiziki, mə'nəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hər-

24 Альма Баччино-Астрада. Права и обязанности медицинского персонала в вооруженных конфликтах. МККК. М., 1995. с. 62

bi əsirlərdən və ya ruhi xəstələrdən transplantasiya məqsədilə orqan və (və ya) toxumaların götürülməsi yolverilməzdir".[25]

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunda hərbi əsirlərin hüquqları da öz əksini tapmışdır. Qanunun 22 maddəsinə əsasən hərbi əsirlərin aşağıdakı hüquqları vardır:

1) humanist rəftar, şəxsiyyət və şərəfinə hörmət (qadınlara, yetkinlik yaşına çatmayanlara xüsusilə hörmət edilir və onlar yaramaz qəsdlərdən qorunur);

2) əsir tutulana qədər malik olduqları mülki-hüquq qabiliyyətini saxlamaq;

3) öz ölkəsinin qanunlarına uyğun olaraq, lakin əsirlik şəraitinin tələb etdiyi məhdudiyyətlərlə vətəndaş hüquqlarından istifadəni davam etdirmək;

4) yalnız quruda yerləşən və təhlükəsizlik, gigiyena və sağlamlığın qorunması baxımından tə'minat verən binalarda saxlanmaq;

5) zəruri tibbi yardım, qida, paltar, habelə qohum-tanışla yazışmaq imkanı almaq (bilavasitə qarşı tərəf və mübadilə məntəqələri vasitəsilə, yaxud hami dövlətlər və ya onların substitutu-Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə) öz vərdişlərinə milli adətlərə və dini mərasimlərə riayət etmək, habelə kənardan maddi yardım almaq;

6) onları hakimiyyət orqanları qarşısında təmsil etməli olan vəkillərini hər altı aydan bir sərbəst surətdə gizli səsvermə yolu ilə seçmək (hərbi əsir olan zabitlər istisna təşkil edir; onların təmsilçisi hərbi rütbəcə daha böyük olan əsir zabitdir).

III Cenevrə Konvensiyası əsirliyin başlanmasından başa çatmasına kimi hərbi əsirlərin hüquqi vəziyyətini tənzimləyir. Hərbi əsirlik bir qayda olaraq düşmən əlinə düşmüş şəxsin dindirilməsi ilə başlanır. Hərbi əsirlər onların başa düşdüyü dildə dindirilməlidirlər. Hərbi əsir dindirildikdə, yalnız öz soyadını, adını və rütbəsini, doğum tarixini, ordu, əsgəri və şəxsi nömrəsini, bunlar olmadıqda isə buna bərabər digər mə'lumatı verməyə borcludur. Hərbi əsirlər həmin mə'lumatlar qeyd olunan şəxsiyyət vəsiqəsi ilə tə'min olunurlar. Hərbi əsirlərdən hər hansı mə'lumatın alınması üçün onlara qarşı heç bir fiziki və mə'nəvi işgəncə və heç bir məcburiyyət tədbiri tətbiq edilə bilməz. Cavab ver-

25 Qanun jurnalına əlavə. 2000-ci il. Yeni sənədlər. № 2. s.7

məkdən imtina edən hərbi əsirləri hədələmək, təhqir etmək və ya hər hansı tə'qibə və ya məhdudiyyətə mə'ruz qoymaq olmaz (III CK mad. 17).

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanuna əsasən Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları qarşı tərəfin bütün hərbi əsirlərinin soyadları, adları, rütbələri, təvəllüd tarixləri və yerləri, daimi yaşayış ünvanları göstərilməklə qeydiyyata alınmasını tə'min edirlər.

Şəxsi istifadədə olan bütün əşyalar və predmetlər, eləcə də metal dəbilqələr, əleyhqazlar və şəxsi müdafiə üçün hərbi əsirlərə verilmiş bu cür predmetlər onların ixtiyarında qalmalıdır. Geyim və qida əşyaları və predmetləri hərbi ləvazimata aid olsalar belə, əsirlərin ixtiyarında qalmalıdır. Hərbi əsirlərdən rütbəni və dövlət mənsubiyyətini göstərən nişanlar, fərqləndirici nişanlar və şəxsi dəyərə malik olan əşyalar alına bilməz (III CK mad. 18).

Əsir alındıqdan sonra mümkün qədər qısa müddətdə hərbi əsirlər onların təhlükəsizliyinin tə'min edilməsi üçün hərbi əməliyyatlar zonasından kifayət qədər uzaqda yerləşən düşərgəyə köçürülməlidirlər. Caxlayan Dövlət hərbi əsirləri tərksilah edib xüsusi yerdlərdə nəzarət altında saxlaya bilər(III CK mad. 21). "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanunun 19-cu maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları Azərbaycan Respublikası ərazisində hərbi əsirlərin hərbi əməliyyatlar zonasında, ayrı-ayrı vətəndaşların yanında və hərbi hissələrdə saxlanılmasına yol vermir. Hərbi əsirlər beynəlxalq hüququn tələblərinə uyğun olaraq bu məqsədlərdən ötrü xüsusi ayrılmış düşərgələrdə saxlanılır.

Əsirlikdə hərbi əsirlər yalnız quruda yerləşən və bütün gigiyena və sağlamlıq tə'minatlarına cavab verən yerdə yerləşdirilməlidir. Əsirlərin maraqlarına uyğun olan xüsusi hallardan başqa onlar həbsxanalarda saxlanıla bilməzlər. Hərbi əsirlər düşərgədə onların milliyyəti, dili və adətləri nəzərə alınmaqla yerləşdirilir (III CK mad. 22). Heç bir hərbi əsir heç vaxt döyüş zonasından atəşə mə'ruz qala biləcək əraziyə göndərilə və ya orada saxlanıla bilməz, həmçinin onun iştirakından müəyyən məntəqələrin və ya ərazilərin hərbi əməliyyatlardan müdafiəsi üçün istifadə edilə bilməz. Hərbi əsirlər yerli mülki əhali ilə eyni dərəcədə hava hücumundan və digər müharibə təhlükəsindən müdafiə

üçün sığınacaqlara malik olmalıdırlar (III CK mad. 23). Hərbi əsirlərin düşərgələrdə yerləşdirilməsi şərtləri əsirlikdə saxlayan dövlətin həmin ərazidə yerləşdirilmiş silahlı qüvvələrinin malik olduqları şərtlərdən az əlverişli olmamalıdır. Kişilərlə yanaşı qadın hərbi əsirlərin də yerləşdiyi düşərgələrdə onlar üçün ayrıca yataq otaqları tə'min olunmalıdır (III CK mad. 25). Qida rasionu kəmiyyət, keyfiyyət və çeşid baxımından elə təşkil olunmalıdır ki, o hərbi əsirlərin səhhətini yaxşı saxlaya bilsin və qida azlığı üzündən çəki itirməsi hallarına gətirib çıxarmasın. Hərbi əsirlərin adət etdiyi qida rejimi də nəzərə alınmalıdır. Hərbi əsirlərə kifayət qədər içməli su verilməlidir. Tütün çəkilməsinə icazə verilməlidir. Qidalanma ilə bağlı kollektiv intizam tənbehi tədbirləri qadağan edilir (III CK mad. 26). Hərbi əsirlər zəruri geyim, alt paltarı və ayaqqabı ilə tə'min olunmalıdırlar (III CK. mad. 27). Bütün düşərgələrdə hərbi əsirlərin yerli ticarət qiymətlərindən yüksək olmayan qiymətə satılan ərzaq məhsulları, gündəlik tələbat malları, sabun, tütün ala bilməsi üçün dükanlar təşkil edilməlidir (III CK mad. 28).

Hərbi hakimiyyət orqanlarının müəyyən etdikləri intizam qaydalarına riayət etmək şərtilə, hərbi əsirlər dini ayinlərini icra etməkdə, o cümlədən ibadətgahlara gedib-gəlməkdə sərbəstdirlər. Dini ibadətlərin həyata keçirilməsi üçün əlverişli yerlər təşkil edilməlidir (III CK mad. 34).

Hər bir hərbi əsir düşərgəsi əsirlikdə saxlayan Dövlətin nizami silahlı qüvvələrinin məs'ul zabitinə tabe edilməlidir. Zabitlər istisna olmaqla hərbi əsirlər əsirlikdə saxlayan Dövlətin bütün zabitlərinə öz ordularının nizamnamələrində nəzərdə tutulan rəsmi tə'zim etməyə və digər zəruri hörmət əlamətləri göstərməyə borcludurlar. Zabit hərbi əsirlər yalnız əsirlikdə saxlayan Dövlətin rütbəcə yüksək olan zabitlərinə rəsmi tə'zim etməyə borcludurlar. Lakin onlar düşərgənin rəisinə rütbəsindən asılı olmayaraq rəsmi tə'zim etməlidirlər (III CK. mad. 39). Hərbi əsirlərə qarşı, xüsusən əsirlikdən qaçanlara və ya qaçmağa cəhd göstərənlərə qarşı silah işlədilməsi fövqəl'adə tədbir hesab olunur və bundan əvvəl həmişə şəraitə uyğun xəbərdarlıq edilməlidir (III CK. mad. 42).

Əsirlikdə saxlayan Dövlət yaşını, cinsini, rütbəsini və fiziki imkanlarını nəzərə almaqla, əmək qabiliyyətli hərbi əsirlərdən, xüsusən onları yaxşı fiziki və mə'nəvi vəziyyətdə saxlamaq üçün işçi qüvvəsi kimi istifadə edə bilər. Əgər zabitlər və ya onlara bərabər tutulan şəxslər onlara münasib iş verilməsini xahiş edirlərsə, onlara imkan daxilində bu

cür iş verilməlidir, lakin heç bir halda onlar işləməyə məcbur edilə bilməzlər (III CK. mad. 49). Hərbi əsirlər öz düşərgələrinin idarə olunması, təchiz edilməsi və lazımi qaydada saxlanılması işlərindən başqa məcburi olaraq yalnız aşağıdakı kateqoriyalara aid işlərə cəlb oluna bilərlər:

1) kənd təsərrüfatı;

2) metallurgiya, maşınqayırma və kimya sənayesi istisna olmaqla, sənayenin hasilat və ya e'mal sahələri;

3) hərbi xarakter və ya məqsəd daşımayan ictimai işlər və ya inşaat işləri;

4) hərbi xarakter və ya məqsəd daşımayan nəqliyyat və ya yükləmə-boşaltma işləri;

5) ticarət fəaliyyəti, incəsənət və sənətkarlıq;

6) ev təsərrüfatı işləri;

7) hərbi xarakter və ya məqsəd daşımayan ictimai — kommunal xidmətlər (III CK mad. 50).

Heç bir hərbi əsir özünün könüllü razılığı olmadan qeyri-sağlam və ya təhlükəli işə cəlb edilə bilməz. Heç bir hərbi əsir əsirlikdə saxlayan Dövlətin öz silahlı qüvvələrinin üzvləri üçün alçaldıcı görünən işlərə cəlb edilə bilməz. Minaların və ya buna oxşar digər qurğuların çıxarılması təhlükəli iş sayılmalıdır (III CK mad. 52).

III CK hərbi əsirlərin xarici aləmlə əlaqələrini də tənzimləyir. Əsir götürüldükdən dərhal sonra və ya düşərgəyə, hətta keçid düşərgəsi olsa belə, gətiriləndən ən geci bir həftə keçənədək onun əsirliyi, ünvanı və sağlamlıq vəziyyəti haqqında mə'lumat verən poçt vərəqəsi göndərməyə imkan verilməlidir (III CK. mad. 70). Hərbi əsirlərə məktublar və poçt vərəqələri göndərmək və almaq hüququ verilməlidir.

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" qanunun 10-cu maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası silahlı münaqişə zonasına və ya qarşı tərəfin ixtiyarına düşmüş bütün mülki şəxslərin və hərbi əsirlərin qohumlarının və yaxın adamlarının taleyindən xəbər tutmaq hüququnu tanıyır. Bir qayda olaraq, hərbi əsirlərin yazışması onların ana dilində həyata keçirilir. Münaqişədə iştirak edən tərəflər başqa dillərdə də yazışmaya yol verə bilər. Hərbi əsirlərə ərzaq mallarından, paltardan, dava-dərmandan və onların dini ehtiyaclarının ödənilməsi, maariflənməsi və ya əylənməsi üçün nəzərdə tutulan əşyalardan, o cümlədən kitablardan, sitayiş pred-

metlərindən, elmi iş üçün aparatlardan, imtahan materiallarından, musiqi alətlərindən, idman ləvazimatlarından və təhsil və ya bədii fəaliyyəti davam etdirmək imkanı verən materiallardan ibarət fərdi və ya kollektiv bağlamaları poçtla və ya hər hansı başqa üsulla almağa icazə verilməlidir (III CK mad. 72). Hərbi əsirlərə həmçinin, kollektiv yardımlar da göstərilə bilər (III CK. mad. 73).

"Fərdi yardım bağlama formasında olmaqla donar tərəfindən hərbi əsirə onun adı göstərilməklə göndərilir. Kollektiv yardım isə ya bağlama formasında, lakin ünvansız, ya da qablaşdırılmamış yük kimi göndərilir". Hərbi əsirlərə göstərilən bütün yardım bağlamaları gömrük rüsumlarından və sair ödəmələrdən azaddır (III CK mad. 74).[26] Hərbi əsirlərə və ya onlar tərəfindən göndərilən yazışmalar mümkün qədər qısa müddətdə senzuradan keçirilməlidir. Münaqişədə iştirak edən tərəflərin yazışmaları hərbi və ya siyasi səbəblərdən qadağan etməsi yalnız müvəqqəti xarakter daşımalı və onun müddəti mümkün qədər qısa olmalıdır (III CK mad. 76).

Zabitlərin olduqları yerlər istisna olmaqla, hərbi əsirlərin olduqları bütün yerlərdə əsirlər altı aydan bir və ya vakansiyalar açıldıqda azad, gizli səsvermə yolu ilə onları hərbi hakimiyyət orqanları, Hami-Dövlətlər, Beynəlxalq Qırmızı Xaç Komitəsi və ya onlara yardım edə bilən digər təşkilatlar qarşısında təmsil etmək üçün əsirlərin nümayəndələrini seçirlər. Zabitlər və onlara bərabər tutulan şəxslər üçün düşərgələrdə və ya qarışıq düşərgələrdə hərbi əsirlər arasında rütbəcə böyük zabit düşərgə əsirlərinin nümayəndəsi hesab olunur (III CK mad. 79). Əsirlərin nümayəndələri hərbi əsirlərin fiziki, mə'nəvi və əqli rifahına kömək etməlidirlər. Onlara əsirlərin saxlandıqları yerlərə baş çəkməyə icazə verilməlidir. Hər bir hərbi əsirin sərbəst surətdə öz əsir nümayəndəsi ilə məsləhətləşmək hüququ vardır.

III CK-nın 82-108-ci maddələri cinayət və intizam sanksiyalarına həsr olunmuşdur. Hərbi əsirə əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrində qüvvədə olan qanunlar, nizamnamələr və əmrlər şamil edilir. Həmin normativ aktların tələblərini pozmuş hərbi əsirə məhkəmə qaydasında cəza və intizam tədbirləri tətbiq oluna bilər. Dövlətin silah-

---

26 Комментарий к дополнительному протоколу II. МККК. М.,1998. с.114

lı qüvvələrinin üzvləri tərəfindən törədilərkən hər hansı hüquq pozuntusu kimi qiymətləndirilməyən eyni əmələ görə hərbi əsirə ancaq intizam tənbehi tətbiq edilə bilər (III CK mad. 82). Əgər əsirlikdə saxlayan Dövlətin qanunvericiliyi mülki məhkəmələrə hərbi əsirin təqsirləndirildiyi cinayətlə eyni cinayətə görə həmin Dövlətin silahlı qüvvələrinə mənsub olan şəxsləri mühakimə etmək üçün xüsusi hüquq vermirsə, hərbi əsiri yalnız hərbi məhkəmələr mühakimə edə bilər (III CK mad. 84). Əsirlikdə saxlayan Dövlətin qanunlarına əsasən, əsirlikdən qabaq törətdikləri əməllərə görə tə'qib edilən hərbi əsirlərə, hətta həbs olunsalar belə Konvensiyanın müddəaları şamil edilir (III CK mad. 85). Heç bir hərbi əsir eyni əmələ görə və ya eyni ittiham üzrə bir dəfədən artıq cəzalandırıla bilməz (III CK mad. 86). Əsirlikdə saxlayan Dövlətin hərbi hakimiyyət orqanları və məhkəmələri hərbi əsirləri əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrinə mənsub olan şəxslərin törətdikləri eyni əməllərə görə nəzərdə tutulan cəzalardan savayı, heç bir başqa cəzaya məhkum edə bilməzlər. Fərdi əməllərə görə kollektiv cəzalandırma, bədən cəzaları, gün işığı olmayan yerlərdə həbsdə saxlama və işgəncənin və ya qəddarlığın hər hansı forması qadağan edilir (III CK mad. 87). Heç bir halda qadın hərbi əsir əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrinin eyni hüquq pozuntusuna görə məhkum edilən kişi üzvlərinə nisbətən daha sərt cəzaya məhkum oluna və ya cəzasını çəkərkən daha sərt rəftara mə'ruz qala bilməz. İntizam və ya cinayət cəzasını çəkdikdən sonra hərbi əsirlərlə başqa hərbi əsirlərdən fərqli şəkildə rəftar edilə bilməz (III CK mad. 88). Hərbi əsirlərə intizam tənbehi kimi avans məbləği və ya əmək haqqının 50 faizi miqdarında cərimə, Konvensiya ilə müəyyən edildiyindən əlavə olaraq verilmiş güzəştlərdən məhrum etmə, gündə iki satdan çox olmayan müddətə növbədənkənar işlər, həbs cəzaları verilə bilər. Zabitlərə növbədənkənar işlər cəzası tətbiq edilmir. İntizam tənbehi qətiyyən qeri-insani, qəddar və ya hərbi əsirlərin sağlamlığı üçün təhlükəli olmamalıdır (III CK mad. 90).

Hərbi əsirlik rejimində hərbi əsirlərin qaçmağa cəhd etməsi, əsirlikdən qaçması və bunun doğurduğu nəticələr də mühüm əhəmiyyət kəsb edir. Bu məsələlərdə bir cəhət həmişə nəzərə alınmalıdır ki, "əsir götürülməyə cəza kimi baxılmamalıdır".[27] Ona görə də, əsirlikdən qaç-

27 Тиунов О. И. Международное гуманитарное право. М., НОРМА-ИНФРА.М. 1999. с.161.

ma, ona cəhd və sair bu kimi hallar əsirin hüquqi rejiminə tə'sir göstərməməlidir.

Hərbi əsirin qaçması aşağıdakı hallarda baş tutmuş sayılır:

1) o, mənsub olduğu Dövlətin və ya onunla müttəfiq Dövlətin silahlı qüvvələrinə birləşdikdə;

2) əsirlikdə saxlayan dövlətin və ya onunla müttəfiq dövlətin nəzarəti altında olan ərazini tərk etdikdə;

3) o özünü mənsub olduğu Dövlətin və ya onunla müttəfiq Dövlətin bayrağı altında üzən və əsirlikdə saxlayan dövlətin ərazi sularında olan gəmiyə çatdırdıqda, bu şərtlə ki, həmin gəmi əsirlikdə saxlayan dövlətin nəzarəti altında olmasın. Göstərilən hallarda baş tutmuş qaçışdan sonra yenidən əsir alınmış hərbi əsirlər qaçdıqları üçün heç bir cəzaya mə'ruz qalmamalıdırlar (III CK mad. 91). Qaçışın uğurla başa çatmasına qədər tutulmuş hərbi əsirə, hətta bu əməl təkrar törədilsə də, yalnız intizam tənbehi verilməlidir (III CK mad. 92). Hərbi əsir qaçış və ya qaçışa cəhd zamanı törətdiyi xətaya görə ədalət mühakiməsinə verilmişsə, qaçış və ya qaçışa cəhd, hətta bunlar təkrar törədilmiş əməl olsalar belə, ağırlaşdırıcı hal kimi qiymətləndirilməməlidir (III CK mad. 93). Heç bir hərbi əsir cinayət əməlinin törədildiyi vaxt qüvvədə olan əsirlikdə saxlayan Dövlətin qanunu və ya beynəlxalq hüquqla qadağan edilməyən əmələ görə məhkəməyə verilə və ya məhkum edilə bilməz. Hərbi əsirə özünü təqsirləndirildiyi hərəkətdə təqsirli hesab etməsi məqsədilə heç bir mə'nəvi və ya fiziki tə'sir göstərilə bilməz. İxtisaslı vəkilin və ya məsləhətçinin köməyi ilə özünü müdafiə etmək imkanı olmayan heç bir hərbi əsir məhkum edilə bilməz (III CK mad. 99). Hərbi əsir haqqında ölüm hökmü çıxarıldıqda cəza bu barədə mə'lumat Hami-Dövlət tərəfindən göstərilmiş ünvana çatdırıldığı gündən ən azı altı ay keçənədək icra edilə bilməz (III CK mad. 101).

Hərbi əsirin işə baxılanadək ibtidai həbsdə saxlanma müddəti azadlıqdan məhrumetmə cəzasının müddətinə daxil edilməli və hər hansı cəza tə'yin olunarkən nəzərə alınmalıdır (III CK mad. 102). Hərbi əsirin öz əsir yoldaşlarından birinin köməyindən istifadə etmək, özünün seçdiyi ixtisaslı vəkil və ya məsləhətçi vasitəsilə müdafiə olunmaq, şahidlər çağırmaq və zəruri sayarsa, ixtisaslı tərcüməçinin xidmətlərindən istifadə etmək hüquqları vardır. Bu hüquqları barəsində ona əsirlikdə saxlayan işə baxılmasına başlamazdan qabaq mə'lumat verməlidir. Hərbi əsir özü seçə bilmədikdə, Hami-Dövlət ona azı bir həftə müddətində vəkil və ya məsləhətçi tapmalıdır. İşə baxılmasına başlan-

mazdan əvvəl əlverişli vaxtda hərbi əsirə ona qarşı irəli sürülən, onun başa düşdüyü dildə şərh edilən ittihamnamə və ya ittihamın xüsusiyyətləri barədə mə'lumat, habelə əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrində qüvvədə olan qanunlara görə müqəssirə adətən bildirilən sənədlər verilməlidir (III CK mad. 105).

Hər bir əsirin onun haqqında çıxarılmış hökmdən apellyasiya və ya kassasiya şikayəti vermək və ya işə yenidən baxılmasını xahiş etmək hüququ vardır (III CK mad. 106). Hərbi əsirlər barəsində çıxarılmış hökm qanuni qüvvəyə mindikdən sonra əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrinin üzvləri üçün müəyyən edilmiş eyni yerlərdə və eyni şərtlərlə icra olunmalıdır (III CK mad. 108).

III CK-da təsbit olunmuş əsirliyin başa çatması, hərbi əsirlərin azad edilməsi və vətənə qaytarılması barədə normalar mühüm əhəmiyyətə malikdir. Konvensiyaya əsasən aşağıdakılar bilavasitə vətənə qaytarılmalıdırlar:

1) fiziki və ya zehni qabiliyyətinin çox pozulduğu güman edilən müalicə olunmaz yaralılar və xəstələr;

2) tibbi rə'yə görə bir il müddətində sağalması mümkün olmayan, vəziyyəti qulluq tələb edən, fiziki və ya zehni qabiliyyətinin çox pozulduğu güman edilən yaralılar və xəstələr;

3) sağalsa da fiziki və ya zehni qabiliyyətinin çox və həmişəlik pozulduğu güman edilən yaralılar və xəstələr. Aşağıdakılar neytral ölkələrə yerləşdirilə bilər:

1) yaralandığı və xəstələndiyi gündən bir il müddətində sağalması mümkün olan, neytral ölkədə müalicə nəticəsində yəqin və daha sür'ətlə sağalacağı gözlənilən yaralılar və xəstələr;

2) tibbi rə'yə görə əsirlikdə bundan sonra da qalması fiziki və ya zehni qabiliyyəti üçün ciddi təhlükə törədən, lakin neytral ölkədə yerləşdirmə nəticəsində bu təhlükədən xilas ola bilən hərbi əsirlər (III CK mad. 110). Əsirlikdə saxlayan Dövlət, hərbi əsirlərin mənsub olduğu Dövlət və bu iki Dövlətin barəsində razılığa gəldikləri neytral Dövlət əz aralarında hərbi əsirlərin döyüş əməliyyatları bitənədək həmin neytral Dövlətin ərazisində nəzarət altında saxlanması barədə sazişlər bağlamağa çalışmalıdırlar (III CK mad. 111). Döyüş əməliyyatları başlanarkən xəstə və yaralı hərbi əsirləri müayinə etmək və onlar barəsində bütün zəruri qərarları qəbul etmək üçün Qarışıq Tibbi Komissiyalar yaradılmalıdır. Lakin əsirlikdə saxlayan Dövlətin səlahiyyətli tibb orqanlarının fikrincə, açıq-aşkar ciddi xəsarət almış və ya ağır xəstələn-

miş hərbi əsirlər Qarışıq Tibbi Komissiyalar tərəfindən müayinə edilmədən də vətənə qaytarıla bilərlər (III CK mad. 112). Vətənə qaytarılmış heç bir şəxs həqiqi hərbi xidmətə cəlb edilə bilməz (III CK mad. 117).

Döyüş əməliyyatları qurtaran kimi hərbi əsirlər azad edilməli və vətənə qaytarılmalıdırlar (III CK mad. 118). Törətdiyi cinayətlərə görə barəsində cinayət icraatına başlanmış hərbi əsirlər icraatın sonunadək və zəruri olduqda cəza icra edilənədək saxlanıla bilərlər. Eyni müddəa cinayətə görə məhkum olunmuş hərbi əsirlərə də şamil edilir.

Qeyd etmək lazımdır ki, hərbi əsirlər bir qayda olaraq, repatriasiyadan imtina edə bilməzlər. Konvensiyanın 118-ci maddəsi onların öz vətəninə qaytarılmasına dair heç bir istisna nəzərdə tutmur. Konvensiyanın həmin norması Koreya müharibəsində Şimali Koreyadan olan hərbi əsirlər vətənlərinə qayıtmaq istəmədikdə müəyyən çətinliklər yaratdı. Çin və Şimali Koreya Konvensiyanın 7-ci maddəsində nəzərdə tutulmuş hüququn ayrılmazlığı prinsipinə və 118-ci maddəyə istinad edərək hərbi əsirlərin avtomatik olaraq repatriasiya olunmasını tələb edirdi.[28] Lakin məcburi repatriasiya insan hüquqları və qaçqınların hüquqları haqqında mülahizələrlə uyğun gəlmir. Qaytarılan əsirlər öz vətənlərində tə'qib edildikdə onların vətənə qaytarılması insan hüquqları baxımından yolverilməzdir. Məsələn, kiminsə əsirlikdə qaldığı müddətdə vətəndaşı olduğu ölkədə siyasi rejim dəyişdikdə onun vətənə qayıtmaq istəməməsi təbii hal kimi qəbul edilə bilər. Lakin hərbi əsirlərin vətənə qayıtmaq istəyib istəməməsini əsirlikdə saxlayan Dövlət də həll edə bilməz. Çünki belə hallarda əsirlərə orada qalmaq üçün təzyiq göstərilə bilər. Belə hallarda neytral və qərəzsiz təşkilat kimi BQXK-nin yardımına müraciət olunmalı və onun nümayəndələri hər bir əsirin iradəsini obyektiv şəkildə müəyyənləşdirməlidir.[29] Hazırda BQXK əsirlərin repatriasiyası üzrə hər hansı əməliyyata başlamazdan əvvəl özünün təcrübəsinə əsaslanaraq ilk növbədə hərbi əsirin repatriasiya olunmaq arzusunu aydınlaşdırır.[30]

---

28 Эрик Давид. Принципы права вооруженных конфликтов. МККК. М., 2000 с.375

29 Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. МККК.М,1995.с.54

30 Эрик Давид. Принципы права вооруженных конфликтов. МККК. М., 2000. с.376.

Qeyd etmək lazımdır ki, "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Qanuna müvafiq olaraq Azərbaycan Respublikası qarşı tərəfin ixtiyarına düşmüş hər bir mülki şəxs və ya hərbi əsir barəsində mə'lumatları əlaqələndirmək, habelə onlarla bağlı bütün problemləri həll etmək üçün Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının iştirakı ilə silahlı münaqişənin yaranmasından sonra dərhal silahlı münaqişə zonasına düşmüş mülki şəxslərin, hərbi əsirlərin və itkin düşmüş şəxslərin işləri üzrə dövlət Komissiyası tə'sis edir. Dövlət Komissiyası: 1) yuxarıda göstərilən şəxslərin hər biri barəsində, o cümlədən onların yerdəyişməsi, azad edilməsi, vətənə qaytarılması, qaçması, xəstəxanaya qoyulması, ölümü, ağır yaralıların və xəstələrin sağlamlıq vəziyyəti barəsində mə'lumatı toplayıb təhlil edir və onların müqəddəratı barədə ailələrinə xəbər verir;

2) qarşı tərəfin əlinə düşmüş hər bir şəxsi statusundan asılı olmayaraq uçota alır, beynəlxalq hüquq normalarının tələblərinə əməl etməklə, onların şəxsiyyətinin müəyyənləşdirilməsinə kömək edə bilən mə'lumatı qeydə alır;

3) silahlı münaqişə zonasına düşmüş mülki şəxslər, hərbi əsirlər və itkin düşənlər, o cümlədən əsirlikdə ölənlər barəsində daxil olan sorğulara cavab verir;

4) lazımi mə'lumatlar almaq üçün qarşı tərəfə bilavasitə, yaxud Hami-Dövlətlər və ya onların substitutu-Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə müraciət edərək sorğular verir.

Silahlı münaqişə başlandıqdan sonra Azərbaycan Respublikası Prezidenti tərksilah edilib saxlanılanlar, cəsədlər və dərhal vətənə qaytarılmalı şəxslər barəsində mə'lumatların mübadiləsi məntəqələrini yaradır.

Mübadilə məntəqələrinin aşağıdakı iş qaydası müəyyən edilir:

1) qarşı tərəfdən ələ keçmiş şəxslərin, o cümlədən hərbi əməliyyatlarla bağlı səbəblərdən yaralananların və ölənlərin müəyyən yerə gətirilməsi; onlara dair mə'lumatların operativ toplanması, onların (cəsədlərdən başqa) Dövlət Komissiyasına təhvil verilməsi;

2) qarşı tərəfə mənsub şəxslərin cəsədləri tanındıqdan və şəxsiyyəti müəyyənləşdirildikdən (sənədlər üzrə) sonra, yaxud bu mümkün deyilsə, cəsəd mümkün qədər ətraflı təsvir edildikdən (şəxsi əşyalarına, xüsusi əlamətlərinə görə) sonra 24 saat ərzində qarşı tərəfə verilir;

3) əgər cəsədlərin dəyişdirilməsi mümkün deyilsə, onların tanınması üçün 2-ci bənddə göstərilmiş tədbirləri gördükdən sonra tərəflərin

hər biri onları dəfn edir. Bu şəxslərin dəfn yerlərinə hörmətlə yanaşılır və istənilən vaxt tapılmaq üçün nişan qoyulur;

4) mübadilə məntəqələrinin yerləşdiyi ərazilər silahsız zonalar e'lan olunur, oraya münaqişə edən tərəflərin, Hami-Dövlətlərin və Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri buraxılır. Hərbi əsirlərlə bağlı Azərbaycan Respublikası Milli Məclisinin 1999-cu il 30 dekabr tarixli iclasında qəbul edilmiş bəyanat da diqqəti cəlb edir. Bəyanatda göstərilir ki, hərbi əsirlərin problemi beynəlxalq hüququn humanitar məsələsi kimi təsdiq olunmalı və ondan siyasi məqsədlər üçün istifadə edilməməlidir, bütün hərbi əsirlər "hamını hamıya" prinsipi ilə tə'xirə salınmadan azad edilməlidir, humanitar təşkilatların və tərəflərin nümayəndələrinin hərbi əsirlərin mümkün saxlama yerlərinə getməsi üçün lazımi şərait yaradılmalıdır, hərbi əsirlərə aid məsələlərdə BQXK, hüquq müdafiə və humanitar təşkilatlar ilə əməkdaşlıq genişləndirilməli və dərinləşdirilməlidir*.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, hərbi əsirlərin repatriasiyasının əsassız olaraq gecikdirilməsi I Əlavə Protokola əsasən beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilir.

4. Mülki əhalinin mühafizəsi

A) Mülki əhalinin himayəsi haqqında beynəlxalq normaların yaranması və inkişafı. Ümumi himayə

Silahlı münaqişələr zamanı çox vaxt hərbi əməliyyatlarda iştirak etməyən, heç bir təqsiri olmayan, lakin müharibənin ağırlıqlarını çiyinlərində daşımalı olan mülki şəxslər əzab çəkirlər. Beynəlxalq humanitar hüquqa əsasən hərbi əməliyyatlar ancaq silahlı qüvvələr arasında aparıla bilər. Ona görə müharibə mülki əhaliyə toxunmamalıdır. Mülki əhaliyə qarşı hərbi əməliyyatlar aparmaqla qələbəyə nail olmaq yolverilməz hesab olunur. Lakin müasir dövrdə mülki əhalinin müharibənin məhrumiyyətlərinə mə'ruz qalması dəfələrlə artmışdır. Əksər tədqiqatçılar belə nəticəyə gəlirlər ki, keçmiş dövrlərin müharibələrini mül-

---

* Cənubi Qafqaz ölkələri parlamentləri işçi qruplarının 1999-cu il dekabrın 17-də Avropa Şurasının Parlament Assambleyası çərçivəsində Parisdə keçirilmiş hərbi əsirlərin məsələləri ilə bağlı görüşün nəticələrinə dair Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı // Azərbaycan qəzeti. 31 dekabr 1999-cu il.

ki əhaliyə tə'sir etmə dərəcəsinə görə fərqləndirmək mümkün olduğu halda, müasir müharibələr düşmən tərəflərin bütün əhalisini əhatə edir.[31] Bu da müharibələr nəticəsində mülki əhaliyə böyük ziyan vurulmasına səbəb olur. Mülki əhalinin belə vəziyyəti onların mühafizəsinin gücləndirilməsini şərtləndirir. Beynəlxalq humanitar hüququn mülki əhalinin mühafizəsinə aid normaları yaralı və xəstələrin, hərbi əsirlərin mühafizəsini nəzərdə tutan normalara nisbətən son illərin məhsuludur. İkinci Dünya Müharibəsi başlanana kimi beynəlxalq humanitar hüquq normaları silahlı qüvvələrin şəxsi heyʼətinin mühafizəsini nəzərdə tuturdu və bu normalarda mülki əhali xatırlanmırdı. Düzdür burada istisna kimi iki konvensiya müddəalarına istinad etmək olar. Belə ki, 1968-ci ildə qəbul edilmiş "Partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında" Peterburq bəyannaməsində döyüşən tərəflərin dinc əhaliyə hücumunun yolverilməzliyi haqqında müddəa nəzərdə tutulmuşdu. Bəyannamədə göstərilirdi ki, "müharibə vaxtı dövlətin yeganə qanuni məqsədi düşmənin hərbi qüvvəsini zəiflətməkdən ibarətdir." Bundan başqa, 1907-ci il Haaqa Əsasnaməsinin 23, 28, 43-47, 50-53-cü maddələri yanaxı surətdə mülki əhalinin mühafizəsini nəzərdə tuturdu. Beynəlxalq humanitar hüququn ilkin normalarında mülki əhalinin mühafizəsinə diqqətin az ayrılması hər şeydən əvvəl müharibənin müstəsna olaraq silahlı qüvvələr arasında aparılması konsepsiyası ilə bağlı idi.

Millətlər Cəmiyyəti Assambleyasının 30 sentyabr 1928-ci il tarixli qətnaməsində mülki əhalini hərbi obyekt kimi qiymətləndirməsinin qadağan edilməsi mülki əhalinin mühafizəsi sisteminin yaradılmasına doğru mühüm addım idi.

Lakin müharibələr, xüsusən də İkinci Dünya müharibəsi göstərdi ki, silahlı münaqişələr zamanı mülki əhaliyə qarşı olduqca sərt davranılır. Müharibə aparılmasının müasir vasitələri qısa müddətdə böyük dağıntılar, əhali tələfatına səbəb olur. Məhz təcrübədə özünü təzahür etdirən bu cəhət 1949-cu il Cenevrə Konvensiyasının hazırlanması və qəbul olunmasında nəzərə alındı.

"Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyası silahlı münaqişələr zamanı mülki əhalinin mühafizəsinə həsr olunmuşdur. Konvensiya bilavasitə mülki əhalinin mühafizəsinə

---

31 Полтарак А.И., Савинский Л. И. Вооруженные конфликты и международное право М., Наука.1976.с.17

həsr olunan ilk beynəlxalq hüquqi sənəddir. Konvensiya ümumi qaydalar istisna olmaqla düşmən tərəf və işğalçı dövlət tərəfindən baş verə biləcək özbaşınalıqlardan mülki əhalinin mühafizəsini nəzərdə tutur. Konvensiyada döyüşən tərəflərin ərazisində, işğal zonalarında mülki əhalinin statusu, döyüşən tərəflərin ərazisində əcnəbilərin vəziyyəti, nəzarət altında saxlanılanların vəziyyəti məsələlərini tənzim edən normalar nəzərdə tutulur.

Münaqişə və ya işğal zamanı hər hansı məqamda və hər hansı şəkildə vətəndaşı olmadıqları münaqişədə iştirak edən tərəfin və ya işğalçı dövlətin hakimiyyəti altına düşən şəxslər Konvensiyanın himayəsindədirlər (mad. 4). Münaqişədə iştirak edən hər bir tərəf Konvensiyanın himayəsində olan hər hansı ayrıca şəxsin onun ərazisində həmin Dövlətin təhlükəsizliyi üçün düşmənçilik fəaliyyəti göstərməsindən əsaslı olaraq şübhələndikdə və ya bu cür fəaliyyət həqiqətən müəyyən edildikdə və Konvensiya ilə verilən hüquqların və imtiyazların ona verilməsi həmin Dövlətin təhlükəsizliyinə xələl gətirə bilərsə, həmin şəxs belə hüquqlara və imtiyazlara iddia edə bilməz (mad. 5). Konvensiya müddəalarının tətbiqində heç bir ayrı-seçkiliyə yol verilmir. Konvensiya müddəaları heç bir ayrı-seçkilik, xüsusən irqə, milliyyətə, dinə və ya siyasi əqidəyə görə ayrı-seçkilik qoyulmadan, münaqişədə iştirak edən ölkələrin bütün əhalisinə aiddir və müharibənin doğurduğu iztirabları yüngülləşdirməyə kömək etməlidir.

Konvensiyanın himayəsi altında olan şəxslərə münasibətdə onların fiziki iztirablarına və ya məhvinə səbəb ola bilən hər hansı tədbirlər görülməsi qadağandır. Bu qadağan təkcə qətllərə, işgəncələrə, bədən cəzalarına, xəsarət yetirilməsinə və ya himayədə olan şəxsin tibbi müalicəsi zərurətindən irəli gəlməyən tibbi və ya elmi təcrübələrə deyil, həm də mülki və ya hərbi hakimiyyət orqanları nümayəndələrinin hər cür digər kobud zorakılığına eyni dərəcədə şamil edilir (mad. 32). Himayədə olan şəxslərə, xüsusən onlardan və üçüncü şəxslərdən mə'lumatlar almaq məqsədilə fiziki və ya mə'nəvi təzyiq göstərilməsi qadağandır (mad. 31). Himayədə olan heç bir şəxs özünün törətmədiyi əmələ görə cəzalandırıla bilməz. Kollektiv cəzalar, eləcə də digər hədələmə və ya terror tədbirləri qadağandır. Himayədə olan şəxslər və onların əmlakı barədə qarətçilik və qisasçılıq (mad. 33), girovlar götürülməsi (mad. 34) qadağandır.

Mülki əhaliyə münasibətdə hər cür təzyiq və özbaşınalıq imkanını istisna etməklə Konvensiya eyni zamanda himayədə olan şəxslərin

"onlar üçün müəyyən olunmuş hüquqlardan heç bir halda qismən və ya bütövlükdə imtina edə" bilməməsini nəzərdə tutur. Himayədə olan şəxslərin hüquqlarından danışarkən qeyd etmək lazımdır ki, onların bütün hallarda öz şəxsiyyətinə, şərəfinə, ailə hüquqlarına, dini e'tiqadına və ayinlərinə, adət-ən'ənələrinə hörmət edilməsi hüququ vardır. Onlarla həmişə humanist rəftar edilməli, xüsusən onlar hər cür zorakılıq əməllərindən və ya hədələnməkdən, təhqirlərdən və kütlənin maraqlarından qorunmalıdırlar (mad. 27). Döyüşən tərəflərin mülki xəstəxanalarına toxunulmazlıq hüququnun verilməsi də mühüm əhəmiyyət kəsb edir. Əvvəllər ancaq hərbi sanitar-tibbi xidmətə aid olan hörmət və mühafizə hüququ IV Konvensiyaya əsasən mülki şəxslərdən olan yaralı və xəstələrə yardım göstərən qeyri-hərbi müalicə müəssisələrinə də şamil edilir. Belə ki, yaralı və xəstələrə, əlillərə və zahılara yardım göstərmək üçün yaradılmış mülki xəstəxanalar heç bir halda hücuma mə'ruz qalmamalı, əksinə, münaqişədə iştirak edən tərəflər onlara həmişə hörmət və himayə göstərməlidirlər. Xəstəxanalar hərbi obyektlərə yaxın olduqda təhlükəyə mə'ruz qala bildiklərinə görə onların hərbi obyektlərdən mümkün qədər uzaqda yerləşdirilməsi tövsiyə edilir (mad. 18). Həmin xəstəxanalar, həmçinin onların hey'əti və nəqliyyat vasitələri Qırmızı Xaç emblemi ilə işarələnir və müvafiq himayədən istifadə edirlər (mad. 18-22).

B) İşğal edilmiş ərazilərdə mülki əhalinin hüquqi vəziyyəti

İşğal edilmiş ərazidə himayədə olan şəxslər nə bu ərazinin işğalı nəticəsində oradakı qurumlarda və ya onların idarəçiliyində baş verən hər hansı dəyişikliklərə görə, nə işğal edilmiş ərazinin və işğalçı Dövlətin hakimiyyət orqanları arasında bağlanan sazişlərə görə, nə də işğal edilmiş ərazinin işğalçı dövlət tərəfindən tamamilə və ya qismən ilhaq edilməsinə görə Konvensiyanın verdiyi üstünlüklərdən heç bir halda və heç bir şəkildə məhrum edilə bilməz (mad. 47). Səbəblərindən asılı olmayaraq, himayədə olan şəxslərin işğal edilmiş ərazidən işğalçı Dövlətin ərazisinə və ya işğal edilib-edilməməsinə baxmayaraq hər-hansı digər dövlətin ərazisinə fərdi və ya kütləvi surətdə qovulması, habelə deportasiya edilməsi qadağandır.

Lakin əhalinin təhlükəsizliyi və ya əsaslı hərbi mülahizələr tələb etdikdə işğalçı dövlət müəyyən ərazidən tamamilə və ya qismən köçür-

məni həyata keçirə bilər. Belə köçürmələr zamanı himayədə olan şəxslər yalnız işğal edilmiş ərazilərin içərilərinə köçürülə bilər, lakin bunun əməli cəhətdən mümkün olmadığı hallar istisna təşkil edir. Bu qaydada köçürülmüş şəxslər həmin ərazidə döyüş əməliyyatları başa çatan kimi öz evlərinə qaytarılmalıdırlar. İşğalçı Dövlət bu cür yerdəyişmələri və ya köçürmələri həyata keçirərkən himayədə olan şəxsləri lazımi yaşayış yerləri ilə tə'min etməlidir. Bu yerdəyişmələr təhlükəsizlik, gigiyena, sağlamlıq və qida baxımından qənaətbəxş şəraitdə həyata keçirilməli və eyni ailənin üzvləri ayrı salınmamalıdır.

Əhalinin təhlükəsizliyinin və ya əsaslı hərbi mülahizələrin tələb etdiyi hallar istisna ollmaqla, işğalçı dövlət himayədə olan şəxsləri müharibə təhlükəsinə daha çox mə'ruz qalan ərazidə saxlaya bilməz (mad. 49).

İşğalçı dövlət himayədə olan şəxsləri öz silahlı və ya köməkçi qüvvələrinə xidmət etməyə məcbur edə bilməz. Orduya könüllü surətdə daxil olmağa yönəldilmiş təzyiq və ya təbliğat qadağandır. İşğalçı dövlət yalnız yaşı 18-dən çox olan himayədə olan şəxsləri məcburi işə göndərə bilər, özü də yalnız ya işğalçı ordunun ehtiyacları üçün zəruri olan, ya da kommunal xidmət müəssisələri, tutulmuş ərazinin əhalinin qidası, mənzili, paltarı, nəqliyyatı və sağlamlığı ilə bağlı işə göndərə bilər. Himayədə olan şəxslər onları hərbi əməliyyatlarda iştiraka sövq edən hər hansı işi görməyə məcbur edilə bilməzlər. İşğalçı dövlət himayədə olan şəxslərdən onlara həvalə olunmuş işi yerinə yetirdikləri yerlərin təhlükəsizliyini tə'min etmək üçün güc işlətməyi tələb edə bilməz.

İş yalnız həmin şəxslərin olduqları işğal edilmiş ərazidə yerinə yetirilməlidir. Hər bir şəxs mümkün qədər özünün adi iş yerində saxlanılmalıdır. İşçilərə ədalətli əmək haqqı ödənilməli və iş onların fiziki və əqli qabiliyyətinə uyğun gəlməlidir.

Əməyin bu cür tətbiqi heç bir halda işçilərin hərbi və ya yarımhərbi xarakterli təşkilatlara səfərbər edilməsinə səbəb olmamalıdır (mad. 51).

İşğalçı Dövlət mümkün olan bütün vasitələrlə əhalini ərzaq və tibbi materiallarla təchiz etməlidir. Xüsusən, o, işğal edilmiş ərazidə ehtiyatlar çatışmadıqda zəruri ərzaq, tibbi materiallar və digər predmetlər gətirməlidir (mad. 55).

İşğalçı Dövlət mümkün olan bütün vasitələrlə, milli və yerli hakimiyyət orqanları ilə əməkdaşlıq etməklə, işğal edilmiş ərazidə tibbi

və xəstəxana müəssisələrinin və xidmətlərin fəaliyyətini və ictimai sağlamlığı və gigiyenanı tə'min etməli və saxlamalı, xüsusən yoluxucu xəstəliklərin və epidemiyaların yayılması ilə mübarizə üçün zəruri profilaktiki və qabaqlayıcı tədbirləri qəbul və tətbiq etməlidir (mad. 56).

İşğalçı dövlət din xadimlərinin öz dini icmalarının üzvlərinə ruhi yardım göstərməsinə icazə verməlidir. Bu zaman dini ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş kitablardan və predmetlərdən ibarət bağlamalar qəbul edilməli və onların işğal edilmiş ərazidə paylanmasına kömək göstərilməlidir.

İşğal edilmiş ərazinin əhalisi bütövlükdə və ya qismən lazımi qədər təchiz edilmədikdə işğalçı dövlət əhaliyə yardım tədbirləri göstərilməsinə razılıq verməli və buna kömək etməlidir. Yardımlar həm fərdi, həm də kollektiv surətdə göstərilə bilər. Bu zaman yardımların göstərilməsi üçün güzəştli qaydalar müəyyənləşdirilməlidir (mad. 59-63). İşğal edilmiş ərazinin cinayət qanunvericiliyi işğalçı Dövlətin təhlükəsizliyi üçün qorxu törətdikdə və ya konvensiyanın tə'biqinə mane olduqda onun işğalçı dövlət tərəfindən ləğv edildiyi və ya qüvvəsinin dayandırıldığı hallar istisna olmaqla, həmin qanunvericilik qüvvədə qalır. İşğal edilmiş ərazinin məhkəmə orqanları həmin qanunvericilikdə nəzərdə tutulmuş bütün əməllərin törədildiyi hallarda öz funksiyalarının icrasını davam etdirməlidirlər.

Lakin işğalçı Dövlət işğal edilmiş ərazinin əhalisini özünün Konvensiya üzrə öhdəliklərini yerinə yetirmək, ərazidə normal idarəçiliyi saxlamaq və təhlükəsizliyi tə'min etmək üçün əhəmiyyətli dərəcədə zəruri olan qərarları yerinə yetirməyə məcbur edə bilər (mad. 64). Eyni zamanda işğalçı Dövlət işğal olunmuş ərazidə yerləşən qeyri-siyasi hərbi məhkəmələr yaratmaq səlahiyyətinə malikdir. Məhkəmələr yalnız qanuni qaydada qəbul edilmiş, hüquq pozuntusu törədilənədək qüvvədə olmuş və hüququn əsas prinsipinə, xüsusən cəzanın əmələ müvafiqliyi prinsipinə uyğun gələn qərarlar tətbiq edə bilərlər (mad. 66-67).

Konvensiya işğal olunmuş ərazilərdə yaşayan mülki şəxslərə cəza tətbiq olunması və həbs müddətinin hesablanması qaydalarını da tənzimləyir (mad. 68-69).

İşğalçı Dövlət himayədə olan şəxsləri, müharibə qanunlarının və adətlərinin pozulduğu hallar istisna olmaqla, işğaldan qabaq törətdikləri əməllərə görə tə'qib və mühakimə edə bilməz (mad. 70).

Konvensiya ədalət mühakiməsinin prinsiplərini, müdafiə hüququnu, məhkəmənin qərarlarından şikayət verilməsi hüququnu, ölüm cəzası-

nın tətbiqi və həbsdə saxlanılanlarla rəftar məsələlərini də tənzimləyir (mad. 71-78).

V) Nəzarət altında saxlanılan mülki əhalinin mühafizəsi

Konvensiyanın IV hissəsi nəzarət altında saxlanılan şəxslərlə rəftar qaydalarını nəzərdə tutur. Himayədə olan şəxsləri nəzarət altında saxlayan münaqişədə iştirak edən Tərəflər onların pulsuz saxlanılmasını, habelə onlara sağlamlıq vəziyyətinin tələb etdiyi tibbi yardımın göstərilməsini tə'min etməlidir. Nəzarət altında saxlanılan yerlər müharibə təhlükəsinə xüsusilə mə'ruz qalan ərazilərə salınmamalıdır. Hərbi mülahizələr imkan verdikdə, nəzarət altında saxlanma düşərgələri IC hərfləri ilə elə işarələnməlidir ki, gündüzlər havadan aydın görünə bilsinlər (mad. 83).

Nəzarət altında saxlanma yerləri gigiyena və sağlamlığın qorunması baxımından əlverişli olmalıdır (mad. 85).

Nəzarət altında saxlanılanlara e'tiqadından asılı olmayaraq, dini ayinləri icra etmək üçün əlverişli binalar verilməlidir (mad. 86). Nəzarət altında saxlanma yerlərinin hava hücumundan və digər təhlükələrdən mühafizəsi üçün zəruri tədbirlər görülməlidir (mad. 88).

Konvensiya nəzarət altında saxlanan şəxslərin zəruri qida və paltarla tə'min olunması üçün müvafiq normalar nəzərdə tutmuşdur (mad. 89-90). Nəzarət altında saxlanma yerlərində lazım ola biləcək tibbi yardım göstərən və zəruri qida rejimini tə'min edən müvafiq lazaret olmalıdır. Nəzarət altında saxlanılanlar ayda azı bir dəfə tibbi müayinədən keçirilməlidir (mad. 91-92).

Nəzərət altında saxlayan hakimiyyət orqanlarının müəyyən etdikləri intizam qaydalarına riayət etmək şərtilə, nəzarət altında saxlanılanlar dini ayinlərini icra etməkdə, o cümlədən ibadətgahlara gedib-gəlməkdə sərbəstdirlər. Nəzarət altında saxlanılan din xadimlərinə öz icma üzvlərinə sərbəst xidmət etməyə icazə verilməlidir (mad. 93).

Nəzarət altında saxlayan Dövlət nəzarət altında saxlanılan şəxslərin özləri istəmədən işləməyə məcbur edilə bilməzlər. İşin məcburən yerinə yetirilməsi, habelə təhqiramiz və alçaldıcı xarakter daşıyan iş bütün hallarda qadağandır (mad. 95).

Nəzarət altında saxlanılanların saxlanıldığı ərazidə qüvvədə olan qanunlar hüquq pozuntusu törədən nəzarət altında saxlanılan şəxslərə də

şamil olunur. Əgər ümumi qanunlarda, qaydalarda və ya əmrlərdə nəzarət altında saxlanılanların törətdikləri əməllərin cəzaya səbəb olduğu göstərilirsə, eyni zamanda nəzarət altında saxlanmayanlar tərəfindən törədilən eyni əməllər cəzaya səbəb olmursa, belə əməllər barəsində yalnız intizam tənbehi tətbiq edilə bilər. Heç bir nəzarət altında saxlanılan eyni əmələ görə və ya eyni ittiham üzrə bir dəfədən artıq cəzalandırıla bilməz (mad. 117).

Məhbusların təbii işıq düşməyən yerlərdə saxlanılması ümumiyyətlə, onlara qarşı hər cür qəddarlıq istisnasız olaraq qadağandır. İntizam və ya cinayət cəzasını çəkdikdən sonra həmin nəzarət altında saxlanılanlarla digərlərindən fərqli rəftar edilməməlidir(mad. 118).

Nəzarət altında saxlanılanlara aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər:

— əmək haqqının 50 faizi miqdarında cərimə, özü də 30 gündən çox olmayan müddətə;

— konvensiya ilə müəyyən edildiyindən əlavə olaraq verilmiş güzəştlərin ləğvi;

— nəzarət altında saxlanma yerinin qorunması ilə əlaqədər gündə iki saatdan çox olmamaqla növbəndəkənar işlər;

— həbs (mad. 119).

Qaçdıqdan və ya qaçmağa cəhd göstərildikdən sonra tutulmuş nəzarət altında saxlanılan şəxsə, hətta bu əməl təkrar törədilsə belə, yalnız intizam tənbehi tətbiq edilməlidir.

V.V.Aleşin tərəfindən nəzarət altında saxlanılan mülki şəxslərin hüquqi vəziyyəti beynəlxalq humanitar hüquq, beynəlxalq xüsusi hüquq və dövlətdaxili hüququn müqayisəli analizi əsasında araşdırılmışdır. Müəllif belə hesab edir ki, Konvensiyanın 119-cu maddəsində nəzərdə tutulmuş "xüsusi nəzarət" termini və 120-ci maddədə nəzərdə tutulmuş "inzibati tənbeh tətbiq etmə" müddəası dəqiqləşdirilməli və onların özündə nəyi ehtiva etdiyi aydın ifadə olunmalıdır.[32]

Nəzarət altında saxlayan Dövlət hər bir nəzarət altında saxlanılan şəxsi onun bu cür saxlanılması zərurəti aradan qalxan kimi azad etməlidir (mad. 132). Konvensiyada neytral ölkədə himayə altında olan şəxslər üzrə Mərkəzi Mə'lumat Agentliyi və döyüşən tərəflərin mə'lumat

32 Алешин В.В. Правовое положение интернированных лиц и их собственности // Московский журнал международного права. 2/2000/38. апрель-июнь. с.277.

bürosunun yaradılması də nəzərdə tutulmuşdur. Bu tə'sisatların vəzifələri himayədə olan şəxslərin vəziyyəti və yeri barəsində mə'lumatları toplamaq və onların ailələrinə ötürmək daxildir (mad. 136-141).

Konvensiya eyni zamanda onun müddəalarını pozan şəxslərin cəzalandırılmasını da nəzərdə tutur. Konvensiya ciddi pozuntulara aşağıdakıları aid edir: qəsdən öldürmək, işgəncə vermək və ya qeyri-insani rəftar etmək, o cümlədən bioloji eksperimentlər aparmaq, qəsdən ağır əzab vermək, bədənə və ya sağlamlığa ciddi tə'sir edən xəsarət yetirmək, himayədə olan şəxsi qanunsuz deportasiya etmək, köçürmək və həbs etmək, himayədə olan şəxsi düşmən Dövlətin silahlı qüvvələrində xidmətə məcbur etmək və ya onu Konvensiyada nəzərdə tutulan qərəzsiz və normal mühakimə icraatı hüququndan məhrum etmək, girovlar götürmək, hərbi zərurət olmadan, qeyri-qanuni və özbaşına olaraq irimiqyaslı dağıntı aparmaq və əmlak mənimsəmək (mad. 147). Pozuntu aşkar edilən kimi münaqişədə iştirak edən tərəflər onun qarşısını almalı və pozuntuya görə mümkün qədər qısa müddətdə cəza verilməsi üçün tədbirlər görməlidirlər (mad. 149). Silahlı münaqişələr zamanı mülki əhalinin mühafizəsinin zəruriliyini ilk dəfə hüquqi cəhətdən möhkəmləndirən tarixi sənəd olmaqla IV Konvensiya bə'zi mühüm məhdudiyyətlər də nəzərdə tutur. Hər şeydən əvvəl, bu Konvensiya müddəalarının tətbiq sahəsinə aiddir. Belə ki, 4-cü maddəyə əsasən Konvensiya yalnız "münaqişə və işğal zamanı hər hansı mə'nada və hər hansı şəkildə münaqişədə iştirak edən Tərəfin və ya işğalçı dövlətin hakimiyyəti altına düşən vətəndaşları olmayan şəxslərə şamil edilir. Bundan başqa Konvensiya geniş dairədə şəxslərə-döyüşən dövlətlə normal diplomatik münasibətləri olan neytral dövlətin vətəndaşlarına münasibətdə mühafizədən imtina edir".[33]

Q) Mülki əhalinin mühafizəsi haqqında normaların inkişafı

1977-ci ildə qəbul edilmiş I Əlavə Protokol Cenevrə Konvensiyasının mülki əhaliyə aid müddəalarını xeyli inkişaf etdirdi. Protokolun 50-ci maddəsində göstərilir ki, kombatant kateqoriyasına aid olmayan şəxs

33 Трибунский А.В. Защита гражданского населения во время вооруженных конфликтов// Московский журнал международного права. 1/1998/29. с.125

mülki şəxs hesab edilir. Mülki əhali bütün mülki şəxslərdən ibarətdir. Bundan əlavə Protokolda bir qədər də dəqiqləşmə aparılaraq göstərilir ki, mülki əhali arasında mülki şəxslərə verilən tə'rifə uyğun gəlməyən ayrı-ayrı fərdlərin olması həmin əhalini öz mülki xarakterindən məhrum etmir.

Eyni zamanda qeyd etmək lazımdır ki, kombatant mülki əhali arasında olmağına görə mülki şəxsə çevrilmir. R. Bakster yazır ki, "dinc əhali arasında məhdud sayda hərbi qulluqçuların mütəşəkkil qrupunun olması onlara qarşı yönəldilə bilən hücuma münasibətdə hərbi qulluqçulara heç bir immunitet vermir".[34]

Bundan əlavə yaralı, xəstə və gəmi qəzasına düşənlərə aid normalar əvvəllər ancaq hərbi xidmətdə olanlara münasibətdə tətbiq olunurdusa, I Əlavə Protokol həmin normaları mülki şəxsləri də şamil etdi (mad. 8a). Gəmi qəzasına düşənlər anlayışı uçuş aparatında qəzaya düşənləri də əhatə etməyə başladı. Beləliklə, müvafiq mühafizəyə hüququ olan şəxslərin dairəsi genişləndirildi. I Əlavə Protokol "mülki əhali" kateqoriyasına daxil olmayan şəxslərə-neytral dövlətlərin və Konvensiya ilə bağlı olmayan dövlətlərin vətəndaşları, həmçinin casus və muzdlulara da bə'zi tə'minatları şamil edir. Həmin tə'minatlar I Əlavə Protokolun 75-ci maddəsində nəzərdə tutulmuşdur. I Əlavə Protokolun müharibə aparılmasının metod və vasitələrini tənzimləyən normalarında da mülki əhalinin mühafizəsi ilə bağlı müddəalar öz əksini tapmışdır(mad. 51-56).

Hərbi əmliyyatlar aparılarkən mülki əhaliyə, mülki şəxslərə və mülki obyektlərə aman verilməsinə daim qayğı göstərilməlidir. Hücum ilə bağlı aşağıdakı ehtiyat tədbirləri görülür:

a) hücumu planlaşdıranlar və onun həyata keçirilməsi barədə qərar qəbul edənlər:

1) hücum obyektlərinin nə mülki şəxslər, nə də mülki obyektlər olmadığını və xüsusi himayədən faydalanmadığını, hərbi obyektlər olduğunu və onlara hücumun qadağan olunduğunu yəqin etmək üçün əməli cəhətdən mümkün olan tədbirləri görürlər;

2) mülki əhali arasında təsadüfi itkilərə, mülki şəxslərin yaralanmasına və mülki obyektlərə təsadüfi ziyan dəyməsinə yol verməmək və hər halda ziyanı minimuma endirmək məqsədilə hücum vasitələrini və

34 Эрик Давид. Принципы права вооруженных конфликтов. М.МККК.2000.с.189-190

üsullarını seçərkən əməli cəhətdən mümkün olan bütün ehtiyat tədbirləri görürlər;

3) mülki əhali arasında təsadüfi itkilərə, mülki şəxslərin yaralanmasına və mülki obyektlərə təsadüfi ziyan dəyməsinə və ya onların hamısına eyni vaxtda səbəb olacağı, həm də doğuracağı nəticələrin ehtimal edilən konkret və birbaşa hərbi üstünlüyə nisbətən hədsiz olacağı gözlənilən hər hansı hücumun həyata keçirilməsi haqqında qərar qəbul etməkdən çəkinirlər.

b) obyektin hərbi obyekt olmadığı, xüsusi himayədən faydalanmadığı, hücumun mülki əhali arasında təsadüfi itkilərə, mülki şəxslərin yaralanmasına, mülki obyektlərə ziyan dəyməsinə və ya onların hamısına eyni vaxtda səbəb olacağı, həm də doğuracağı nəticələrin ehtimal edilən konkret və birbaşa hərbi üstünlüyə nisbətən hədsiz olacağı aşkar olan kimi hücum ləğv edilir və ya dayandırılır;

v) şəraitin imkan verdiyi hallar istisna olmaqla, mülki əhaliyə toxuna bilən həmlələr haqqında qabaqcadan səmərəli xəbərdarlıq edilir.

Eyni əhəmiyyətli üstünlük əldə etmək üçün bir neçə hərbi obyekt arasından birisinin seçilməsi mümkün olarsa, elə obyekt seçilir ki, hücum zamanı mülki əhalinin həyatı və mülki obyektlər üçün mümkün qədər az təhlükə yaranacağı gözlənilir.

Dənizdə və ya havada hərbi əməliyyatlar aparılarkən münaqişədə iştirak edən hər bir tərəf silahlı münaqişələr zamanı tətbiq edilən beynəlxalq hüquq normalarına əsasən malik olduğu hüquq və vəzifələrə uyğun olaraq, mülki əhali arasında itkilərə və mülki obyektlərə ziyan dəyməsinə yol verməmək üçün bütün ağlabatan tədbirləri görür (mad. 57).

Ğ) Silahlı münaqişələr zamanı qadınların mühafizəsi

Mülki əhalinin beynəlxalq hüquqi mühafizəsi ilə əlaqədar silahlı münaqişələr zamanı qadınların mühafizəsi də diqqəti cəlb edir. Beynəlxalq humanitar hüquq qadın və kişilərin bərabərliyi prinsipini hüquqi cəhətdən möhkəmləndirməklə yanaşı, cinsi əlamətə görə ayrı-seçkiliyi qadağan edir. Beynəlxalq humanitar hüquq himayəsi altında olan şəxslərlə "cinsi əlamətə əsaslanan hər hansı əlverişsiz fərq qoymadan" rəftar edilməsini nəzərdə tutur. Həmçinin, göstərilir ki, qadınlarla "hər bir halda kişilərdən pis" rəftar olunmamalıdır (III CK mad. 14). Bu onu

göstərir ki, qadınlar Konvensiyanın verdiyi bütün hüquq və azadlıqlardan istifadə edirlər. Buna müvafiq olaraq Konvensiyanın tətbiqi ilə bağlı olmayan hər cür ayrı-seçkilik tədbiri qadağan olunur. Lakin ayrıseçkiliyin qadağan olunması fərqli yanaşmanı istisna etmir. Məhz bu səbəbdən fərq ancaq əlverişsizliyə səbəb olduqda qadağan olunur. Mahiyyət e'tibarı ilə ilə eyni olmayan vəziyyətlərə və himayədə olan şəxsin sağlamlıq, yaş və cinsi əlamətləri nəzərə alınmadan tətbiq edildikdə bərabərlik prinsipi çox asanlıqla ədalətsizliyə çevrilir. Ona görə, beynəlxalq humanitar hüquqda bərabər rəftar prinsipi "qadınlarla onların cinsi nəzərə alınmaqla rəftar edilməlidir" prinsipi ilə tamamlanır (I və II CK mad. 12; III CK mad. 14). Bu xüsusi hörmətin hüquqi anlayışı yoxdur, lakin qadınlara verilən statusdan asılı olmayaraq o özündə fizioloji xüsusiyyətlər, şərəf və əxlaq, hamiləlik və doğuş kimi anlayışları birləşdirir.[35]

IV Cenevrə Konvensiyasına əsasən başqa mülki şəxslər kimi qadınlar da düşmən tərəfin hakimiyyəti altına düşdükdə pis rəftardan mühafizə hüququna malikdirlər. Bütün mülki şəxslərə təqdim olunan mühafizəyə əlavə olaraq qadınlara xüsusi hörmət göstərilir, onlar xüsusən zorlanmadan, fahişəliyə məcbur edilməkdən və bu kimi başqa nalayiq qəsdlərdən mühafizə edilirlər (IV CK mad. 27 hissə 2; I Ə. P. mad. 75 və 76).

Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə hallarında qadınlara hərbi əməliyyatlarda iştirak etməyən şəxslərlə rəftarı müəyyən edən əsas tə'minatalara müvafiq mühafizə tə'min olunur. Bu tə'minatlar bütün dörd Cenevrə Konvensiyası üçün ümumi olan 3-cü maddədə nəzərdə tutulmuşdur. Lakin həmin maddə qadınların xüsusi mühafizəsini nəzərdə tutmur. II Əlavə Protokol həmin müddəanı tamamlayır və inkişaf etdirir. Protokolun 4-cü maddəsində "insan ləyaqətini alçaltmaq, xüsusən təhqiramiz və alçaldıcı rəftar, zorlamaq, fahişəliyə məcbur etmək və hər hansı başqa formada nalayiq qəsd" qadağan olunur.

Hamilə qadınların tibbi yardıma və qayğıya məcburi ehtiyacı olmadıqda belə, bu zərurətin tezliklə yarana biləcəyini nəzərə alaraq I Əlavə Protokolun 8-ci maddəsi hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hamilə qadınları da yaralı və xəstələr kateqoriyasına daxil et-

35 Commentary on the Third Geneva Convention, ICRC, Geneva, 1960, Art.14,p.147

məklə onlarla eyni mühafizəni tə'min etmişdir. Mə'lum olduğu kimi müharibə vəziyyəti himayədə olan şəxslərin müəyyən məhdudiyyətlərə mə'ruz qalmasını şərtləndirir. Həmin məhdudiyyətlər bütövlükdə bütün əhaliyə şamil edilir. Lakin hətta müharibə şəraitində belə milli qanunvericiliklə hamilə qadınlar və 7 yaşına çatmayan uşaqları olan qadınlar üçün nəzərdə tutulmuş xüsusi güzəştlərə hörmətlə yanaşmaq lazımdır. IV Konvensiyanın 38-ci maddəsinin 5-ci bəndinə əsasən, beş yaşınadək uşaqlarla, hamilə qadınlarla və yeddi yaşınadək uşaqları olan analarla əlaqədar Dövlətin vətəndaşları ilə eyni dərəcədə güzəştlə rəftar edilməlidir. Konvensiyanın 50-ci maddəsinə əsasən isə "işğalçı Dövlət qidalanma, tibbi xidmət və müharibənin tə'sirindən müdafiə sahəsində güzəştli tədbirlərin tətbiqini çətinləşdirməməlidir; işğala qədər belə tədbirlər 15 yaşınadək uşaqlar, hamilə qadınlar və 7 yaşınadək uşaqları olan analar barəsində qəbul edilə bilər". Cenevrə Konvensiyalarına əsasən işğalçı Dövlət himayədə olan şəxslərin təhlükəsizliyinin tə'mini üçün zəruri olduqda onları xüsusi yerlərdə nəzarət altında saxlaya bilər. Eyni zamanda işğalçı Dövlət himayədə olan şəxsləri cinayət qanunvericiliyində nəzərdə tutulmuş hüquq pozğunluğunu törətdiyinə görə ittiham edə və onları mühakimə edə bilər. Həmçinin, qadınlar da nəzarət altında saxlanıla və mühakimə oluna bilərlər. I Əlavə Protokolun 75-ci maddəsinin 5-ci bəndinə əsasən "silahlı münaqişə ilə bağlı səbəblərə görə azadlığı məhdudlaşdırılmış qadınlar kişilərdən ayrı binalarda saxlanılırlar. Onlar bilavasitə qadınların nəzarəti altında olurlar. Lakin ailələr tutulduqda və ya nəzarət altında saxlanıldıqda onlar imkan daxilində eyni yerə salınır və ayrıca ailələr şəklində saxlanılırlar".

Dördüncü Cenevrə Konvensiyasının 85-ci maddəsində qeyd olunur ki, "hər hansı bir ailənin üzvləri olmayan nəzarət altında saxlanılan qadınları istisna qaydasında müvəqqəti tədbir kimi kişilərlə eyni nəzarət altında saxlama yerlərində yerləşdirməyin zəruri olduğu hallarda bu cür nəzarət altında saxlanan qadınlara hökmən ayrıca yataq otaqları və sanitariya qurğuları verilməlidir". Konvensiyanın 97-ci maddəsinin 4-cü hissəsinə əsasən nəzarət altında saxlanılan qadınlar üzərində axtarış ancaq qadınlar tərəfindən aparıla bilər. İntizam cəzaları tətbiq olunarkən nəzarət altında saxlanılanların yaş, cins və sağlamlıq vəziyyəti nəzərə alınmalıdır (IV CK mad. 119).

Növbəlilik məsələlərində də qadınlar üçün güzəştlər nəzərdə tutulmuşdur. Belə ki, I Əlavə Protokolun 76-cı maddəsinin 2-ci bəndinə

əsasən silahlı münaqişə ilə bağlı səbəblərə görə həbs edilən, tutulan və ya nəzarət altında saxlanılan hamilə qadınların və öhdəsində azyaşlı uşaqları olan anaların işlərinə ilk növbədə baxılır. Bu müddəa hamilə qadınların və öhdəsində azyaşlı uşaqları olan anaların daha tez buraxılmasının tə'mini üçün nəzərdə tutulmuşdur.

Münaqişədə iştirak edən tərəflər nəzarət altında saxlanılanların müəyyən kateqoriyalarının, xüsusən uşaqların, hamilə qadınların, südəmər və azyaşlı uşaqları olan anaların, yaralıların və xəstələrin, uzun müddət nəzarət altında saxlanılanların azad edilməsi, vətənə qaytarılması, öz yaşayış yerlərinə qaytarılması və ya neytral ölkədə yerləşdirilməsi barədə döyüş əməliyyatları dövründə sazişlər bağlamağa sə'y göstərməlidirlər.

IV Cenevrə Konvensiyası "hamilə qadınlara, zahılara və 15 yaşınadək uşaqlara onların fizioloji tələbatına uyğun əlavə qida verilməsini" nəzərdə tutur (mad. 89). Bu müddəa kifayət qədər qidalanmamaqdan irəli gələn xəstəliklərin qarşısının alınması üçün nəzərdə tutulmuşdur. I Əlavə Protokolun 76-cı maddəsinin 3-cü bəndinə əsasən münaqişədə iştirak edən Tərəflər hamilə qadınlar və öhdələrində azyaşlı uşaqları olan analar barəsində silahlı münaqişə ilə bağlı hüquq pozğunluqlarına görə ölüm hökmü çıxarılmasına maksimum imkan daxilində yol verməməyə çalışırlar. Həmin qadınlar barəsində bu cür hüquq pozuntularına görə ölüm hökmü icra edilmir. Hamilə qadınlar haqqında ölüm hökmü qeyri-insanilik baxımından hazırda, demək olar ki, dünyanın heç bir yerində icra olunmur. II Əlavə Protokol bu müddəanı bir qədər də inkişaf etdirir. Protokolun 6-cı maddəsinin 4-cü bəndinə əsasən cinayət əməlini törədərkən on səkkiz yaşına çatmamış şəxslər barəsində ölüm hökmü çıxarılmamalı, hamilə qadınlar və ya azyaşlı uşaqları olan analar barəsində belə hökm icra edilməməlidir.

Qadın hərbi əsir əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrinin eyni hüquq pozuntusuna görə məhkum edilən qadın üzvlərinə nisbətən daha sərt cəzaya məhkum oluna və ya cəzasını çəkərkən daha sərt rəftara mə'ruz qala bilməz.

Heç bir halda qadın hərbi əsir əsirlikdə saxlayan Dövlətin silahlı qüvvələrinin eyni hüquq pozuntusuna görə məhkum edilən kişi üzvlərinə nisbətən daha sərt cəzaya məhkum oluna və ya cəzasını çəkərkən daha sərt rəftara mə'ruz qala bilməz (III CK mad. 88). BMT Baş Məclisi tərəfindən 14 dekabr 1974-cü il tarixli 3318 (XXIX) saylı qətnamə ilə qəbul edilmiş "Qadın və uşaqların fövqəl'adə hallarda silahlı müna-

qişələr dövründə müdafiəsi haqqında" Bəyannamədə öz əksini tapmış prinsiplər silahlı münaqişələr zamanı qadın hüquqlarının mühafizəsi baxımından dəyərlidir. Bəyannamədə göstərilir ki, mülki əhaliyə, xüsusən onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara, saysız-hesabsız əzab-əziyyət gətirən hücum edilməsi və onların bombardman olunması qadağandır. Silahlı münaqişədə iştirak edən dövlətlər qadınları və uşaqları müharibənin dağıdıcı nəticələrindən qorumaq üçün bütün sə'ylərini göstərməlidirlər. Müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə, həbsxanaya salma, işgəncə vermə, güllələmə, kütləvi həbsə alma, kollektiv cəzalandırma, mənzilləri dağıtma və yaşayış yerlərindən zorla qovma daxil olmaqla, qadınlara və uşaqlara qarşı törətdikləri bütün cəza və qəddar, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır.[36]

I Əlavə Protokolun 79-cu maddəsinin 1-ci bəndinə əsasən silahlı münaqişə rayonunda peşə tapşırığını yerinə yetirən jurnalist mülki şəxs hesab olunur. Baxmayaraq ki, qələm, səs və kamera elə silahdır ki, bə'zən bombardmandan möhkəm səs-küyə səbəb olur, bu döyüşənlərə ancaq gördüklərini əks edən repartyor, aparıcı, operatora hücum edilməsinə hüquq vermir.

D) Milli qanunvericilikdə mülki şəxslərin mühafizəsi

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" 30 iyun 1995-ci il tarixli Azərbaycan Respublikası Qanunu mülki şəxslərin silahlı münaqişələr zamanı mühafizəsi ilə bağlı bir sıra müddəalar nəzərdə tutur. Qanunun 14-cü maddəsinə əsasən silahlı münaqişə dövründə Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları, hətta tərəflərdən biri belə münaqişənin mövcudluğunu təsdiq etməsə də, mülki şəxslərin müdafiəsini tə'min edirlər. Qarşı Tərəfə mənsub olub Azərbaycan Respublikasının ixtiyarına düşmüş mülki şəxslərlə irq, cins, dil, e'tiqad, milli və sosial mənşə və bu kimi başqa me'yarlar baxımından heç bir ayrı-seçkiliyə mə'ruz qoyulmadan hörmət və humanist rəftar edilir.

Hər hansı səbəbdən silahlı münaqişənin iştirakçısı olduqda Azərbay-

---

36 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК.2000.с. 190

can Respublikası öz tərəfindən mülki şəxslərə qarşı silah işlədilməsinə, mülki obyektlərin atəşə tutulmasına, bombalanmasına və ya basqına məruz qalmasına yol vermir, habelə mühasirəyə alınmış zonadan bütün mülki şəxslərin köçürülməsi üçün tə'xirəsalınmaz tədbirlər görülməsini tə'min edir, bu zaman yaralılara, xəstələrə, əlillərə, qocalara, uşaqlara və qadınlara xüsusi diqqət və qulluq göstərilir. Hamilə və azyaşlı uşağı olan qadınlara qayğıkeş münasibət və qulluq tə'min edilməlidir (mad 15). Qanunun 17-ci maddəsinə əsasən mülki şəxslər barəsində aşağıdakılar qadağan edilir:

1) şəxslərin həyatını, sağlamlığını, fiziki və ya psixi vəziyyətini zorakılığa məruz qoyma (qətl, hər cür işgəncələr, zorlama, cismani cəzalar, xəsarət yetirmə) ;

2) insan ləyaqətini alçaltma, o cümlədən hər hansı şəxslə alçaldıcı və təhqiramiz rəftar, ilk növbədə qadınlara yaramaz münasibət, onları fahişəliyə məcbur etmə və ya qadınların şərəf və ləyaqətinə başqa qəsdlər;

3) girov götürmə;

4) işğal edilmiş ərazidən işğalçı tərəfin ərazisinə mal-qaranı sürüb aparma və əhalini köçürüb aparma;

5) qarşı tərəfin mülki şəxslərindən hərbi əməliyyatlarda istifadə etmə və ya onları silahlı münaqişənin doğurduğu təhlükələrə daha çox məruz qalan rayonda saxlama;

6) özünün mülki əhalisini işğal olunmuş əraziyə köçürmə;

7) hərbi əməliyyatlar üçün zəruri olmayan daşınan və ya daşınmaz əmlakı talan və ya məhv etmə;

8) 18 yaşına çatmayan şəxsləri məcburi işlərə göndərmə;

9) beynəlxalq hüququn təsdiq etdiyi məhkəmə tə'minatları gözlənilməklə qanun üzrə lazımi qaydada tə'sis edilmiş məhkəmənin qərarı olmadan məhkumetmə və cəzanı icra etmə.

Məhkəmə təcrübəsində də silahlı münaqişələr zamanı mülki əhalinin mühafizəsi ilə bağlı müddəalara rast gəlinir. 1916-cı ildə alman təyarəsinin Saloniki bombalaması ilə əlaqədar yaradılan Yunanıstan-Almaniya Arbitraj Tribunalı Koyenko qardaşları Almaniyaya qarşı işində göstərmişdir ki, "beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərinə əsasən döyüşən tərəflər imkan dərəcəsində mülki əhali və mülki əhaliyə məxsus olan əmlakı mühafizə etməyə borcludurlar".[37] Əgər

37 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000.с. 188

min məsələyə tam aydınlıq gətirmədi. Məhkəmə rə'ydə göstərmişdir ki, prinsip e'tibarı ilə nüvə silahının tətbiqi qeyri-qanunidir. Lakin beynəlxalq hüququn hazırkı vəziyyəti və məhkəmənin sərəncamında olan materiallara əsasən məhkəmə dövlətin gələcək mövcudluğunun təhlükə altında olduğu fövqəl'adə özünümüdafiə hallarında nüvə silahı ilə hədələmə və ya onun tətbiqinin qanuni və ya qeyri-qanuni olması barədə qərar qəbul edə bilmir.[50]

Məhkəmənin məşvərətçi rə'yinin əhəmiyyəti ondadır ki, məhkəmə nüvə silahının tətbiqinin hər bir halının beynəlxalq humanitar hüququn norma və tələblərinin tə'siri altına düşdüyünü təsdiq etdi.[51]

İ.N.Arsibasovun nüvə silahından istifadənin qeyri-qanuniliyi haqqında fikirləri daha əsaslı görünür. O belə hesab edir ki, silahı münaqişə zamanı nüvə silahının qeyri-qanuniliyi hazırda qüvvədə olan silahlı münaqişə hüququnun aşağıdakı normalarından törəyir:

a) nüvə silahı kütləvi qırğın silahına aiddir. O, qeyri-seçimli fəaliy-

---

50 Ətraflı bax. Nüvə silahı ilə hədələmə və ya onun tətbiqinin qanuniliyi haqqında Beynəlxalq Məhkəmənin 1996-cı il tarixli məşvərətçi rə'yi. Bənd. 35, 43, 86, 87, 89, 94-96 // War Studies Yournal. Autumn 2 (1). 1996. p. 107-118; Ив Сандо. Консультативное заключение Международного суда о законности угрозы ядерным оружием или его применения. Вводные замечания // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с.6-9; Луиджи Кондорелли. Ядерное оружие: сложная проблема для Международного суда. Jura non novit curia? // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с. 10-25; Эрик Давид. Заключение Международного суда: законно ли применение ядерного оружия? // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с. 26- 42; Луиза Досвальд-Бек. Международное гуманитарное право и Консультативное заключение Международного суда относительно законности угрозы ядерным оружием или его применения; // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с. 43-68; Хисакадзу Фудзита. О Консультативном заключении Международного Суда относительно законности ядерного оружия // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с.69-79; Кристофер Гринвуд. Консультативное заключение относительно ядерного оружия и вклад Международного суда в развитие международного гуманитарного права // Международный журнал Красного Креста. Январь-февраль 1997. № 14.с. 80-92.

51 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 226-269

Bəzi müəlliflər (İ.N.Arsibasov, O.V.Boqdanov, E.David, F.Kalsxoven və başqaları) belə hesab edirlər ki, 1868-ci il Bəyannaməsi, 1899-cu və 1907-ci il Haaqa Konvensiyaları və 1925-ci il Cenevrə Protokolunda nəzərdə tutulan qadağanlar nüvə silahına da şamil olunmalıdır. Həmin müəlliflər tətbiqi beynəlxalq hüququn ümumtanınmış prinsiplərini pozan yeni silah növlərinin beynəlxalq hüquqa müvafiq olaraq qadağan edilməsi üçün tədbirlər görməyi dövlətlərdən tələb edən adət normalarının olmasını qəbul edirlər. Həmin müəlliflərin fikrincə, bununla əlaqədar silahlı münaqişələr zamanı nüvə silahının tətbiqini qadağan edən xüsusi müqavilələr hazırlayıb bağlamaq lazımdır.

Digər qrup alimlər (M.Manduqal, F.Filisiano) belə hesab edirlər ki, nüvə silahları müharibə aparılmasının icazə verilən vasitəsidir. Həmin vasitələrin tətbiqini qadağan edən normalar mövcud olmadığına görə beynəlxalq hüququn qüvvədə olan normaları ilə "analogiya" əsasında yeni silah növünə qadağan tətbiq etmək olmaz.

Başqa bir qrup müəlliflər (R.Şarle, Q.Meyroviç, Y.Brounli, Q.Şvarsenberq və başqaları) isə belə hesab edir ki, nüvə silahına qadağan qoyulması kimyəvi silaha qadağan qoyulmasına analogiya əsasında qəbul edilməlidir. Çünki nüvə silahı "artıq əzaba" səbəb olur və yaxud "döyüşənlər düşmənə ziyan vurma vasitələrini seçməkdə qeyri-məhdud hüquqdan istifadə etmirlər". Göründüyü kimi nüvə silahının tətbiqinin qadağan edilməsi haqqında məsələ beynəlxalq hüququn mübahisəli məsələlərindəndir.[49]

14 may 1993-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının Assambleyası aşağıdakı sualla BMT Beynəlxalq Məhkəməsinə müraciət etmişdi: nüvə silahının insanın sağlamlığına və ətraf mühitə tə'sirini nəzərə alaraq silahlı münaqişə zamanı hər hansı dövlət tərəfindən tətbiqi onun beynəlxalq hüquq, o cümlədən ÜST Nizamnaməsi üzrə öhdəliklərinin pozması kimi qiymətləndirilə bilərmi? Bir il sonra artıq BMT Baş Məclisi Beynəlxalq Məhkəmədən "hər bir halda nüvə silahı ilə hədələmək və ya onun tətbiqinə beynəlxalq hüququn icazə" verib-verməməsi məsələsi ilə əlaqədar məşvərətçi rə'y verməsini xahiş etdi.

BMT Baş Məclisinin sorğusu əsasında hazırlanmış və 8 iyul 1996-cı ildə dərc olunmuş nüvə silahı ilə hədələmənin və ya onun tətbiqinin qanuniliyi haqqında Beynəlxalq Məhkəmənin məşvərətçi rə'yi də hə-

---

49 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с. 109-110

deyildir. Çünki beynəlxalq hüququn ümumi normaları adi silahlara aiddir, nüvə silahı isə özündə müstəsna halı təmsil edir. Burada kimyəvi və bakterioloji silahlarda olduğu kimi xüsusi normaların qəbul edilməsi zəruridir. Bu cür müqavilənin yaxın gələcəkdə bağlanması ehtimalı da azdır. Çünki nüvə silahına malik olan dövlətlərin siyasətində və milli təhlükəsizlik sistemində nüvə silahı əsas yer tutur. Rusayanın son vaxtlar qəbul etdiyi hərbi doktrinada milli təhlükəsizliyin tələb etdiyi hallarda nüvə silahının tətbiqinin nəzərdə tutulması da bunu təsdiq edir. Rusiyanın təhlükəsizliyinin tə'min edilməsi sistemində nüvə silahı ilkin yerlərdən birini tutur.[45]

İ.İ.Lukaşuk göstərir ki, hər bir halda nüvə silahı son həddə özünümüdafiə zərurəti ilə əlaqədar beynəlxalq humanitar hüququn tələbləri maksimum nəzərə alınmaqla tətbiq oluna bilər.[46]

BMT Baş Məclisi tərəfindən qəbul edilmiş qətnamələr nəinki nüvə silahının tətbiqini qadağan edir, həm də onlardan çoxu bu cür tətbiqi bəşəriyyətə qarşı cinayət səviyyəsinə qaldırır.[47]

Küveyt münaqişəsi zamanı 17 yanvar 1991-ci il tarixli müraciətində BQXK heç bir tərəddüd etmədən tərəfləri qəti formada "beynəlxalq humanitar hüquqla bir araya sığmayan nüvə silahını tətbiq etməkdən çəkinməyə" çağırdı.[48]

Nüvə silahı müasir müharibələrin xarakterinə mühüm tə'sir etmişdir. Çoxtərəfli dağıdıcı fəaliyyət nüvə silahı üçün xarakterik cəhətdir. Onun fərqləndirici cəhəti möhtəşəm dağıdıcı qüvvəyə malik olması ilə yanaşı insan orqanizmi üçün mürəkkəb öldürücü tə'sir sisteminə malik olmasındadır. 1980-ci ildə BMT-nin himayəsi altında nüvə silahının əldə edilməsi və gələcək inkişafının dövlətin təhlükəsizliyi və iqtisadiyyatı üçün nəticələri haqqında elmi tədqiqatlar keçirilmişdir. Həmin tədqiqatlar zamanı nüvə silahı kütləvi qırğın silahı kimi xarakterizə edilmişdir. Lakin nüvə silahından istifadənin və onun tətbiqi ilə hədələmənin hüquqi aspektləri barəsində beynəlxalq hüquqşünaslar arasında fikir ayrılığı mövcuddur.

---

45 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 293

46 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 293

47 Эрик Давид. Принципы право вооруженных конфликтов. М., МККК.2000.с.257

48 RICR, 1991, pp. 27-28

nunları" və ya ictimai şüurun tələblərini" pozan yeni silah növlərindən istifadə etmək olmaz.

I. Nüvə silahı

Nüvə silahının tətbiqinin qadağan edilməsi beynəlxalq humanitar hüququn, bütövlükdə dünya siyasətinin mühüm problemlərindən biridir. Mə'lum olduğu kimi nüvə silahı ancaq bir dəfə tətbiq olunmuşdur. ABŞ nüvə silahından 6 və 9 avqust 1945-ci ildə Yaponiyaya qarşı müharibədə Xirosima və Naqasaki şəhərlərini bombalamaqla istifadə etmişdir.

Nüvə silahının tətbiqinin beynəlxalq humanitar hüquq prinsiplərinə uyğun olmaması heç bir şübhə doğurmur. Bununla belə bu cür tətbiqi qadağan edən norma mövcud deyildir.[43]

BMT Beynəlxalq Məhkəməsinin 1996-cı il məşvərətçi rə'yində göstərilir ki, nüvə silahının tətbiqi beynəlxalq humanitar hüququn tələbləri ilə uzlaşdırılmalıdır.

Tokio Dairə Məhkəməsi "Riçi Şimoda və başqalarının dövlətə qarşı" işində göstərmişdir ki, "Yaponiya şəhərlərinin bombalanması ona görə qanunsuz idi ki, "müdafiə olunmayan" şəhərə "qeyri-seçim" xarakterli hücum idi, həmçinin "artıq əzab" yetirilməsinə yönəlmişdi.[44] Başqa sözlə məhkəmə bombalamanın qeyri hüquqiliyini nüvə bombalaması kimi deyil, beynəlxalq humanitar hüququn mövcud prinsipləri əsasında ümumiyyətlə bombalama kimi əsaslandırmışdır. Nüvə silahının tətbiqinin məhdudlaşdırılması barədə bir sıra beynəlxalq hüquqi sənədlər mövcuddur. BMT Baş Məclisinin 1961-ci il qətnaməsində hərbi məqsədlə nüvə silahının sınaqları qadağan və bu cür sınaqlar BMT Nizamnaməsinə zidd hesab olunmuşdur. Bu müddəa BMT Baş Məclisinin 1972-ci il analoji qətnaməsi ilə də təsdiq olunmuşdur. Mə'lum olduğu kimi Baş Məclisin qətnamələri özü-özlüyündə beynəlxalq hüquq normasını yaratmır. Onlar beynəlxalq hüququn norması kimi tanınması üçün dövlətlər tərəfindən qəbul olunmalıdır.

Nəzərə almaq lazımdır ki, hazırda mövcud olan müqavilələr nüvə silahı ilə əlaqədar müəyyən məhdudiyyətlər müəyyən edir və bununla da onlara sahib olmanı sanki qanuniləşdirir. Beynəlxalq hüququn ümumi normalarının nüvə silahına tətbiq edilməsi də bir o qədər səmərəli

---

43 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 288.

44 Jap. AIL. 1984. p. 212.

Z. Kiçik kalibrli döyüş sursatları

Kaset bombaların partlamayan hissələri bu cür döyüş sursatına aid edilir. Onlar daxilində partladılan vaxt bütün istiqamətə uçan minlərlə polad diyircəkləri olan silindr formalı 450 qram çəkidə döyüş sursatlarıdır Bu cür aviabombalar Veytnamdakı müharibə zamanı geniş tətbiq olunmuşdur. Həm də onlar üçün xarakterik cəhət atılan vaxt çox halda işə düşməmələridir. Torpağın bərkliyi və yumşaqlığından asılı olaraq onlardan yerə atılanın 5-dən 40 faizinə qədəri partlamır. Mütəxəssislər hesablamışlar ki, müharibədən sonra İran körfəzində döyüş meydanlarında milyondan artıq partlamamış döyüş sursatı qalmışdır. Onlar minalardan daha təhlükəlidir və hər bir anda partlaya bilər Bu da onların torpaqdan çıxarılmasını çətinləşdirir. Onların neytrallaşdırılmasının yeganə vasitəsi məhv edilməsidir. Bu da çoxsaylı çətinliklərlə bağlıdır.

Kaset bombalardan istifadə olunması silahlı münaqişə hüququ ilə qadağan olunmamışdır. Lakin kiçik kalibrli partlamayan döyüş sursatları məsələsi hərbi ekspertlərdən onları özüzərərsizləşən qurğu ilə təchiz etmək barədə düşünməsini tələb edir.[41]

İ. Yeni silah növləri

Silahlı münaqişələr hüququnun yeni tipli silahların hazırlanmasını qadağan etməməsinə baxmayaraq bu sahədə tədqiqatlar dövlətlərin tərksilaha yardım göstərəcəkləri barədə və'dlərinə uyğun gəlmir.[42]

Bundan başqa yeni silah yaradan və ya əldə edən dövlət onun tətbiqinin tərəfdar çıxdıqları beynəlxalq humanitar hüquq normalarının zidd olub-olmamasını müəyyənləşdirməlidir. I Əlavə Protokolun 36-cı maddəsində göstərilir ki, "Razılığa gələn Yüksək Tərəf yeni silah növlərinin, müharibə aparılması vasitələrinin və üsullarının öyrənilməsi, hazırlanması, əldə edilməsi və qəbul olunması zamanı onlara bu Protokolda və ya Razılığa gələn Yüksək Tərəfə tətbiq edilən hər hansı digər beynəlxalq hüquq normalarında müəyyən edilmiş qadağanın bə'zi və ya bütün hallarda şamil edilib-edilmədiyini müəyyənləşdirməlidir".

Hər hansı tənzimləyici aktın mövcud olub olmamasından asılı olmayaraq kombatantlara mə'nasız əzab yetirən, qeyri-seçim qüvvəsinə malik və ya bütövlükdə Martens əlavəsində öz əksini tapmış "bəşəri qa-

41 Э Давид. Принципы права вооруженных конфликтов. М, МККК. 2000. с. 287

42 Разоружение. Организация Объединенных Наций и разоружение, 1945-1985 годы: Обзор, посвященный сороковой годовщине) Нью-Йорк. 1986

— döyüşən dövlətlərin üçüncü dövlətlərin hüquqlarına hörmət etmək, o cümlədən "dinc gəmiçilik üçün imkan dərəcəsində təhlükəsizlik yaratmaq" vəzifəsi (VIII Haaqa Konvensiyası mad. 2) açıq dənizdə mina qoyulmasını qadağan edir. Bu müddəa 1913-cü il Oksford tə'limatının 20-ci maddəsində də öz əksini tapmışdır.[39]

— azad gəmiçiliyə hörmət təkcə düşmənin sularında yeganə olaraq "ticarət gəmiçiliyini pozmaq" məqsədilə minalar qoyulmasını deyil, həm də bütün Beynəlxalq Birliyi qabaqcadan xəbərdar etmədən öz ərazi sularında minalar qoyulmasının qadağan olunmasını tələb edir (VIII Haqqa Konvensiyası mad. 2). VIII Haaqa Konvensiyasının 3-cü maddəsində başqalarını mə'lumatlandırmaq öhdəliyi müəyyən mə'nada hərbi zərurətdən asılı vəziyyətdə qoyulmuşdur. Bu məsələ Beynəlxalq Məhkəmənin təcrübəsində də müzakirə obyektinə çevrilmişdir. Belə ki, Korfu boğazı haqqında işdə Beynəlxalq Məhkəmə göstərmişdir ki, "öz ərazi sularında minaların yerləşdirməsi barədə Albaniya dövlətlərə mə'lumat verməli idi. Belə ki, adi humanizm düşüncəsi müharibə vaxtı olduğundan dinc dövrdə daha çox mütləqdir". 37 il sonra Beynəlxalq Məhkəmə yenə də Nikaraquadakı hərbi fəaliyyətlə bağlı işdə bildirdi ki, "statusundan asılı olmayaraq başqa dövlətlərin gəmilərinin daxil olmaq və ya keçmək hüququ olduğu sularda dinc gəmiçiliyin təhlükəsizliyini pozmaqla xəbərdarlıq edilmədən minalar yerləşdirən dövlət 1907-ci il VIII Haaqa Konvensiyasının xüsusi müddəalarının əsasını təşkil edən humanitar hüquq prinsiplərini pozur.[40]

Göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, döyüşən dövlətlər sualtı minalardan aşağıdakı üç şərtə riayət etdikləri halda istifadə etmək hüququna malikdirlər:

— minalar onların ərazi və ya daxili sularında, yə'ni başqa dövlətlər kimi tam yurisdiksiyaya və özünü müdafiə məqsədilə dinc keçid hüququnu müvəqqəti dayandırmağa malik olduğu sularda qoyulmalıdır;

— onları yerləşdirənlərin nəzarəti altından çıxdıqları hallarda minalar avtomatik zərərsizləşmə qurğuları ilə təchiz olunmalıdır;

— bütün ölkələrə minaların qoyulması barədə xəbərdarlıq edilməlidir.

---

39 Вах. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 113

40 Э Давид. Принципы права вооруженных конфликтов. М, МККК. 2000. с. 253

yetirmək məqsədilə istifadə olunmasına yol verilir. Folklend adalarında müharibə zamanı ingilis silahlı qüvvələri Argentina aviasiyasına qarşı bu cür lazer sistemlərindən istifadə etmişlər.[36]

Protokol 30 iyul 1998-ci ildə qüvvəyə minmişdir və onu 39 dövlət imzalamışdır.

J. Sualtı mina və torpedolar

1907-ci ildə qəbul edilmiş "Sualtı, toxunmaqla avtomatik olaraq partlayan minaların qoyulması haqqında" Konvensiya[37] müharibə aparılması vasitələrinin məhdudlaşdırılması cəhətdən əhəmiyyətlidir. Konvensiya bu cür minaları tam qadağan etməsə də onların tətbiqini müəyyən şərtlərlə məhdudlaşdırırdı. Bu xüsusən də həmin minalar yerləşdirildikdən sonra onlar üzərində nəzarətin itirilməsi hallarına, dinc ticarət məqsədilə üzgüçülüyə mane olduğu hallara şamil edilirdi. Konvensiya həmçinin, obyektə dəymədikdə zərərsizləşməyən torpedoların (özühərəkət edən minalar) tətbiqini qadağan edir (mad. 1). Bu qadağan qeyri-seçim xarakterli silahların tətbiqinin qadağan edilməsi ilə əlaqədar idi.

Mütərəqqi cəhətlərdən biri də ondan ibarət idi ki, Konvensiya müharibə qurtardıqdan sonra qoyulmuş minaları zərərsizləşdirməyi döyüşən tərəflər üzərinə bir öhdəlik kimi qoyurdu.

Konvensiya minaların harada yerləşdirilməsinin qadağan olunduğunu dəqiqləşdirmir. Haaqa Konfransında Böyük Britaniya minaların ancaq döyüşən tərəflərin ərazi sularında yerləşdirilməsinə icazə verilməsi barədə təklif etmişdi. Lakin Almaniya bu məhdudiyyətlə razılaşmadığına görə Konvensiyada həmin məsələlər dəqiqləşdirilməmişdir.[38]

Lakin bu o demək deyildir ki, döyüşən tərəflər onların nəzarəti altında olmaq şərti ilə istədikləri sularda mina yerləşdirə bilər. Beynəlxalq hüquq normaları da bunu təsdiq edir:

— döyüşən tərəflər münaqişədə iştirak etməyən dövlətlərin ərazi suverenliyinə hörmət etməlidirlər. Bu o deməkdir ki, döyüşən tərəflər həmin dövlətlərin suverenliyi altında olan sularda minalar yerləşdirə bilməzlər;

---

36 Э Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 286

37 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 257-261

38 Э Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 253.

Lakin lazer təkcə cərrah dəqiqliyi ilə raketlərin hədəfə yönəldilməsində deyil, həm də işığı cəmləşdirməklə adamlarda müvəqqəti və ya daimi korluq yaratmaq üçün istifadə oluna bilər. 80-ci illərdə bu cür lazerlər bə'zi hərbi gəmilərdə düşmən tərəfin hərbi təyyarələrinin təyyarəçilərini kor etmək üçün quraşdırılmışdı. Həmçinin piyadalara qarşı lazer silahından istifadə etmək məsələsi də reallığa çevrilməkdə idi. Lazer silahının təhlükəliliyi ondadır ki, o səssiz tə'sir göstərir və xüsusi eynəklər vasitəsi ilə ondan mühafizə olunmaq mümkün deyildir. 1991-ci ildə BQXK-nin təşəbbüsü ilə keçirilən "dəyirmi masa"nın iştirakçıları-lazer silahı üzrə ekspertlər belə qərara gəldilər ki, müharibə vaxtı ümumiyyətlə lazerdən istifadəni qadağan etmək olmaz. Lakin döyüş əməliyyatlarının aparılması vasitəsi kimi kor etmə tə'sirinə malik lazer silahının tətbiqi qadağan olunmalıdır. BQXK-nin fikrincə, lazerdən silahlı qüvvələrin şəxsi hey'ətinə qarşı istifadə olunması həddən artıq xəsarət yetirə bilən silah növlərinin qadağan edilməsinə aid normaların tə'siri altına düşür.[33] 13 oktyabr 1995-ci ildə Vyana Konfransında "Görmə qabiliyyətindən məhrum edən lazer silahlarının qadağan edilməsi haqqında" IV Protokol qəbul edilmişdir.[34] Həmin protokol xüsusi olaraq döyüş əməliyyatlarında insanın mühafizə olunmayan görmə orqanlarına daimi korluq gətirən lazer silah növlərinin qadağan olunmasına həsr olunmuşdur. Protokol həmçinin, bu cür silahı başqa dövlətə və qeyri-dövlət orqanlarına verməyi də qadağan edir. Protokol əsasən hərbi obyektləri sıradan çıxarmaq və ya aşkar etmək üçün nəzərdə tutulan lazer sistemlərinə tətbiq olunmur. Bu sistemlərin fəaliyyəti nəticəsində görmə qabiliyyətini itirmə "təsadüfi müşayətin effekti kimi" nəzərdə tutulur. Lakin bütün hallarda protokol iştirakçıları insanın görmə orqanlarının daimi itirilməsinə səbəb ola biləcək istifadə etmədən çəkinməlidirlər.[35] Protokolun müddəalarının şərhi göstərir ki, lazerdən insanın görmə orqanlarına müstəsna olaraq müvəqqəti korluq

33 Э Давид. Принципы право вооруженных конфликтов. М, МККК. 2000.с. 285

34 Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права // Московский журнал международного права. Специальный выпуск.1999.с.140-141

35 Ətraflı bax: Досвальд-Бек Луиза. Новый протокол об ослепляющем лазерном оружии // Международный Журнал Красного Креста, № 10, май-июнь 1996. с. 285-320

lah və döyüş sursatı yandırıcı silah hesab olunur. Həmin maddədə yandırıcı silahların od püskürən, fuqas, içində yandırıcı maddə olan qranat, mina, bomba və s. şəklində ola biləcəyi qeyd olunmuşdur. E. David göstərir ki, od püskürən özü artıq əzab yetirən silahlar kateqoriyasına aid olmasına baxmayaraq onun tətbiqi 1981-ci il Konvensiyası ilə qadağan olunmamışdır.[31] Burada həmçinin, yandırıcı maddə hesab olunmayan silah növləri də göstərilir. Həmin növlərin qeyd olunması onu göstərir ki, kombatantlar həmin silahlardan mühafizə hüququna malik deyillər. 2-ci maddədə mülki əhalinin yandırıcı silahlardan ümumi mühafizəsi nəzərdə tutulmaqla yanaşı, "mülki əhalinin cəmləşdiyi yerlər"in də bu cür mühafizəsini nəzərdə tutur.

2-ci maddənin 2-ci bəndi mülki əhalinin cəmləşdiyi yerdə hər hansı hərbi obyektin havadan yandırıcı silahla hücuma mə'ruz qoyulmasını qadağan edir.

2-ci maddənin 3-cü bəndi iki halda yandırıcı vasitələrlə mülki əhalinin cəmləşdiyi yerdə hərbi obyektə hücuma icazə verir:

a) hərbi obyekt mülki əhalinin cəmləşdiyi yerdən dəqiq ayrılır;

b) yandırıcı tə'sirin mülki əhali üçün təhlükəliliyinin qarşısı alınmış olur.

2-ci maddənin 4-cü bəndində meşə və digər bitki örtüyünün yandırıcı silahdan hücuma mə'ruz qoyulmasını qadağan edir. Lakin kombatantların gizlədilməsi üçün bu cür təbii obyektlərdən istifadə edildikdə və həmin təbii obyektlər hərbi obyektə çevrildiyi hallarda istisna kimi bu cür obyektlərə yandırıcı silahdan hücum edilə bilər.

Ə. Lazer silahı

Lazerdən hərbi məqsədlərlə istifadə getdikcə geniş vüs'ət alır. Lazer aviabombaların dəqiq obyektlərə yönəldilməsində istifadə olunur. Bu cür silahların səmərəliliyi İraq müharibəsi zamanı təsdiq olunmuşdur. Lazerdən bu cür istifadə beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən müsbət hal kimi qiymətləndirilməyə bilməz.[32] İ. İ. Lukaşukun fikirləri ilə tamamilə şərikik. Çünki silahın hər hansı obyektə dəqiq istiqamətləndirilməsi, onun mülki obyektlərə, mülki əhaliyə lazımsız ziyan yetirilməsinin qarşısını almaqda əhəmiyyətlidir.

---

31 Э Давид. Принципы право вооруженных конфликтов. М, МККК. 2000. с. 255

32 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 296

li zorakılıqlar və fövqəl'adə şəraitdə Konvensiyaya əməl edəcəklərini öhdələrinə götürürlər. Konvensiya piyadalara qarşı bütün minaların məhv edilməsini nəzərdə tutur. Piyadalara qarşı minalar Konvensiya qüvvəyə mindikdən 4 il sonra, yerə basdırılanlar isə 10 il müddətində məhv ediləcək. Əgər 10 il müddəti kifayət etməsə dövlət üzv dövlətlərə müraciət edərək əlavə 10 il vaxt istəyə bilər.

Konvensiyada həmçinin, nəzarət mexanizmi də nəzərdə tutulmuşdur. Həmin mexanizmə əsasən iştirakçı dövlət özünün mina ehtiyatı, onları məhv etmək, bu sahədə milli proqramı, minaların texniki xarakteristikası barədə mə'lumat verməlidir. Hər hansı dövlətin Konvensiyanı pozması barədə kifayət qədər əsas olduqda bu barədə ona sorğu verilir. Həmin məsələ üzv dövlətlərin müşavirəsinə çıxarıla bilər. Həmçinin faktın müəyyənləşdirilməsi üçün missiya yaradıla bilər Dövlət həmin missiyanı onun arzu etdiyi əraziyə buraxmalıdır. Missiya mə'ruzə hazırlayır və pozuntunun aradan qaldırılması üçün tədbirlər görülür.

Konvensiya həmçinin, dövlətlərin məs'uliyyəti məsələsini nəzərdə tutumuşdur. Konvensiya 1 mart 1999-cu ildə qüvvəyə minmişdir. 135 dövlət tərəfindən imzalanıb və 74 dövlət konvensiyanı ratifikasiya etmişdir.[30]

E. Yandırıcı silahlar

"Yandırıcı silahların tətbiqinin məhdudlaşdırılması və ya qadağan edilməsi hapqqında" III Protokolun 1-ci maddəsində yandırıcı silahların anlayışı verilir. İlk növbədə obyektin yandırılması və ya alov, isti və ya hər ikisinin, yaxud obyektə çatdırılan kimyəvi maddənin reaksiyası nəticəsində insana yanıq yetirilməsi üçün nəzərdə tutulmuş hər cür si-

30 Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права // Московский журнал международного права. Специальный выпуск.1999.с.147; Питер Херби. 1977 год: будет ли подписан договор о запрещении противопехотных мин? // Международный журнал Красного Креста. Март-апрель 1997. № 15. с. 222-228; К глобальному запрещению противопехотных мин. Заявление Международной конференции (Оттава, 3-5 октября 1996 г.) // Международный журнал Красного Креста. Март-апрель 1997. № 15. с. 730; Джоди Уильямс. Мины и меры по их ликвидации // Международный журнал Красного Креста. Июль-август 1995 № 5 с. 479-505; Стюарт Мазлен, Питер Херби. Международный запрет на противопехотные мины. Предыстория Оттавского договора и его заключение // Международный журнал Красного Креста. Декабрь 1998. № 23.

1) Digər Protokollardan fərqli olaraq II Protokol qeyri-beynəlxalq silahlı münaqişələr zamanı də tətbiq olunacaq;

2) Protokol mina, mina-tələ və digər bu xarakterli qurğuların tətbiqindən başqa onların verilməsini də qadağan edir;

3) Protokolda bir sıra əlavə mina növləri, məsələn, minaaxtaranın onu aşkar edən kimi partlayan minalar, özü fəallaşan minalar da qadağan olunur;

4) piyadalara qarşı minalar qadağan olunur;

5) Piyadalara qarşı aşkar olunmayan minalar qadağan olunur;

6) Sazişlə bağlı olmayan hər hansı dövlətə piyadalara qarşı mina verilməsi qadağan olunur;

7) qeyri-dövlət orqanlarına hər hansı mina verilməsi qadağan olunur. İkinci Əlavə Protokolda minalanmış ərazinin qeydiyyatı bir qədər də dəqiqləşdirilib və bütün minaları əhatə edir. Həm də döyüşlər qurtardıqdan sonra ərazilərin minalardan təmizlənməsinə görə dövlət məs'uliyyət daşıyır. II Əlavə Protokol 3 dekabr 1998-ci ildə qüvvəyə minmiş və onu 36 dövlət imzalamışdır.[28]

18 sentyabr 1997-ci ildə Osloda keçirilən Diplomatik Konfransda "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiya[29] bağlanmışdır. Konvensiya 3-4 dekabr 1997-ci il tarixdə Ottavada imzalanmaq üçün açılmış və 1 mart 1999-cu ildə qüvvəyə minmişdir. Bu saziş silahın konkret növünün kompleks şəkildə qadağan olunmasını nəzərdə tutur. Üzv dövlətlər öhdələrinə götürmüşlər ki, heç vaxt və heç bir yerdə:

1) piyadalara qarşı minadan istifadə etməyəcəklər;

2) piyadaya qarşı minanı hazırlamayacaq, istehsal etməyəcək, başqa cür əldə etməyəcək, toplamayacaq, saxlamayacaq, birbaşa və yanaxı surətdə heç kəsə verməyəcək;

3) həmin Konvensiya ilə üzv dövlətlər üçün qadağan olunmuş fəaliyyətlə heç kəsin məşğul olmasına kömək etməyəcək, ona yardım göstərməyəcək və heç kəsi buna təhrik etməyəcək.

İştirakçı dövlətlər həm beynəlxalq münaqişələr, həm qeyri-beynəlxalq münaqişələr, həm də silahlı münaqişə hesab olunmayan ölkə daxi-

28 Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права // Московский журнал международного права. Специальный выпуск.1999.с.145

29 Вах. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 317

predmetə yaxınlaşması və ya toxunması və ya təhlüksiz hesab etdiyi hərəkəti yerinə yetirməsi nəticəsində işə düşən hər hansı qurğu və ya material" mina-tələ hesab olunur. 2-ci maddənin 3-cü bəndində nəzərdə tutulan digər qurğular-öldürmək, xəsarət yetirmək və ya ziyan vurmaq üçün nəzərdə tutulmuş, uzaq məsafədən idarə etmə vasitəsi ilə və ya müəyyən müddət keçəndən sonra avtomatik işə düşən əldə düzəldilən döyüş sursatı və qurğular hesab olunur.

Z-cü maddədə üç halda mina, mina-tələ və başqa qurğulardan istifadə edilməsi qadağan olunur. Mülki əhali və ayrı-ayrı mülki şəxslərə qarşı hücum, müdafiə və repressali qaydasında istifadə etmək qadağandır. 4-cü və 5-ci maddələrdə mülki əhalinin mühafizəsinə yönəldilmiş xüsusi müddəalar nəzərdə tutulmuşdur. Belə ki, quru qoşunları arasında döyüş əməliyyatları getməyən və ya bu cür əməliyyatların planlaşdırılmayan hər hansı şəhər, qəsəbə, kənd və ya mülki əhalinin toplaşdığı digər rayonda mina, mina-tələ və başqa qurğuların istifadə olunması qadağan olunur.

5-ci maddədə uzaq məsafədən idarə olunan minalardan ancaq hərbi obyekt olan rayonlarda istifadə edilməsinə yol verilir.

6-cı maddədə mina-tələdən kombatant və mülki şəxslərin müdafiəsi nəzərdə tutulub:

— ziyansız daşınan əmlak kimi quraşdırılan mina tələlər;

— beynəlxalq müdafiə emblemləri, xəstə və yaralı və meyidlərin yanında quraşdırılmış, tibbi avadanlıq və uşaq oyuncaqları formasında quraşdırılmış mina-tələlər;

— həddən artıq xəsarət və əzab yetirən mina tələlər.

7-ci maddədə hökmən minalanmış sahənin qeydə alınması və 9-cu maddədə fəal hərbi əməliyyatlardan sonra bu barədə mə'lumat verilməsi tələb olunur. Qeydə alınmamış mina sahələri 1982-ci ildə İngiltərə ilə Argentina arasında Folklend adalarına görə münaqişədən və 1980-cı ildə İraqın Küveytə hücumundan sonra ciddi çətinliklər doğurmuşdu. 1980-ci il Konvensiyası minalardan istifadənin bütün məsələlərini nizama sala bilmədi. Minalardan istifadənin ağır nəticələri isə artmaqda davam edirdi. Ona görə 1996-cı ildə BMT minalardan istifadəyə aid xüsusi konfrans çağırdı. 3 may 1996-cı ildə Cenevrə Konfransında II Protokola dəyişikliklər edildi.[27] Bu dəyişikliklər aşağıdakılarda öz ifadəsini tapmışdır:

---

27 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М,, МККК. 1999. с. 305

və protokollarda nəzərdə tutulması onunla əlaqədar idi ki, Konfransın gedişində (1979-1980) iştirakçı dövlətlərin Konvensiyaya daxil edilən qadağan və məhdudiyyətlərin hamısı ilə razılaşacaqları mə'lum deyildi. Ona görə də, ayrı-ayrı məhdudiyyətlər növlər üzrə qruplaşdırılıb müxtəlif protokollara daxil edilmişdir ki, hər bir iştirakçı dövlətin arzusundan asılı olaraq istədiyi Protokolu imzalamağa imkanı olsun. Belə halda müəyyən qadağan və məhdudiyyətlərlə razılaşmayan dövlətin digərini imzalamağa imkanı olurdu.[25]

Ğ. Aşkar olunmayan qəlpələr

I Protokol vahid bir müddəadan ibarətdir Orada göstərilir ki, əsas tə'siri insan bədənində rentgen şüalarının köməyi ilə aşkar edilməyən qəlpələrlə xəsarət yetirmək olan hər hansı silahın tətbiqi qadağan olunur. Həmin qadağan ilk növbədə həddən artıq xəsarət yetirilməməsi prinsipinə əsaslanır. Protokol ilk növbədə plastmas minaların tətbiqinin qadağan edilməsini nəzərdə tuturdu.

D. Mina, mina-tələ, bu cür digər qurğular

Silahlı münaqişələr təcrübəsi göstərir ki, mina, mina-tələlərin tətbiqi mülki əhali üçün nə qədər təhlükəlidir. Lakin onlar özlərinin ucuz başa gəlməsi və yerləşdirilməsinin sadəliyinə görə geniş yayılmışdır. BMT Katibliyinin hesablamalarına görə hər il minadan 25 min nəfər ölür və ya şikəst olur. 100 milyondan artıq mina 64 dövlətin ərazisində torpağa basdırılmışdır.[26] Onların təhlükəliliyi bir də ondadır ki, fəal hərbi əməliyyatlar başa çatdıqda belə onlar öz təhlükəliliyini uzun müddət saxlayır.

"Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" II Protokolun əsas mə'nası məhz bu təhlükəni minimuma endirməkdən ibarətdir. Protokol kombatantların da bə'zi növ mina tələlərdən mühafizəsini nəzərdə tutur. Eyni zamanda II Protokol BMT qüvvələrinin mühafizəsinə yönəlmiş bə'zi normaları da özündə əks etdirir. Konvensiyanın 2-ci maddəsinin 2-ci bəndinə əsasən "öldürmək, xəsarət yetirmək üçün nəzərdə tutulmuş, quraşdırılmış və ya dəyişdirilmiş və insanın təhlükəsiz hesab etdiyi

---

25 Николай Хлестов. Конференция по рассмотрению действия Конвенции о запрещении или ограничении обычного оружия 1980 г. // Международный журнал Красного Креста. Июль-август 1995. № 5. с. 449-457.

26 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 294

a) kimyəvi silahı hazırlamayacaq, istehsal etməyəcək, digər tərzdə əldə etməyəcək, toplamayacaq və ya saxlamayacaq və ya kim olursa olsun kimyəvi silahı ona düzünə və yanakı qaydada verməyəcəkdir;

b) kimyəvi silahı tətbiq etməyəcəkdir;

v) kimyəvi silahı tətbiq etmək üçün hər hansı hərbi hazırlıq görməyəcək;

q) həmin Konvensiya üzrə iştirakçı dövlətlərə qadağan olunmuş hər hansı fəaliyyətin həyata keçirilməsində kiməsə hər hansı tərzdə kömək etməyəcək, yardım göstərməyəcək və ya buna sövq etməyəcək. Eyni zamanda hər bir iştirakçı dövlət onun mülkiyyətində və ya sahibliyində və ya hər hansı yerdə onun yurisdiksiyası və ya nəzarəti altında yerləşdirilmiş kimyəvi silahları məhv etməyi öhdəsinə götürmüşdür. Hər bir iştirakçı dövlət həmçinin başqa iştirakı-dövlətin ərazisində yerləşdirdiyi kimyəvi silahları məhv etməyi də öhdəsinə götürmüşdür. Konvensiya milli və beynəlxalq nəzarətin mürəkkəb sistemini, o cümlədən kimyəvi silahın qadağan olunması üzrə xüsusi beynəlxalq təşkilat yaradılmasını nəzərdə tutmuşdur.

Q. Adi silahlar

10 oktyabr 1980-cı ildə BMT-nin xüsusi konfransında "Həddsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında" Konvensiya[21] və ona üç Əlavə Protokol qəbul edildi. Konvensiya 2 dekabr 1983-cü ildə Əlavə Protokollarla birlikdə qüvvəyə mindi. Konvensiyada bir neçə məhdudiyyət-nüvə, kimyəvi və bakterioloji silahların qadağan olunması nəzərdə tutulmuşdur. Mühüm əhəmiyyətə malik olan normalar üç protokolda öz əksini tapmışdır. I Protokol aşkar olunmayan qəlpələrə malik partlayıcı maddələrin qadağan edilməsinə,[22] II Protokol mina, mina-tələ və digər eyni xarakterli qurğuların tətbiqinin qadağan edilməsi və ya məhdudlaşdırılmasına,[23] III Protokol isə yandırıcı silahların qadağan edilməsi və ya məhdudlaşdırılmasına[24] həsr olunmuşdur. Əsas müddəaların Konvensiyanın özündə deyil, əla-

21 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 274

22 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 283

23 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглащений. М., МККК. 1995. с. 206

24 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 305

Bütün agent, toksin, silah, avadanlıq və onların nəqliyyat vasitələrinin heç kimə verməməyi və heç bir dövlətə və təşkilata onların istehsalı və əldə edilməsində yardım etməməyi öhdələrinə götürmüşlər (mad.3).

Dövlətlər həmçinin, konstitusiya proseduraları çərçivəsində bütün agent, toksin, silah, avadanlıq və onların nəqliyyat vasitələrinin qadağan edilməsi və hazırlanması, istehsalı, yığılması və ya saxlanmasının qarşısının alınması üçün müvafiq tədbirlər görəcəkləri barədə razılığa gəlmişlər (mad. 5). Hər hansı Dövlətin bioloji və ya bakterioloji hücumun obyekti olmasını Təhlükəsizlik Şurası tanıdığı hallarda həmin dövlətə kömək göstərilməsi məsələləri də Konvensiyada öz əksini tapmışdır. Konvensiya beynəlxalq humanitar hüquq sahəsində fəaliyyət göstərən mütəxəssislərin tədqiqat obyektinə çevrilmiş və bu sahədə bir sıra mütərəqqi fikirlər irəli sürülmüşdür.[18] İ.İ.Lukaşuk Konvensiyanın normalarının mütərəqqi hal kimi qiymətləndirməklə yanaşı Konvensiya müddəalarının realizasiyası, xüsusən də toplanmış silah növlərinin məhv edilməsində əhəmiyyətli çətinliklərin olacağını qeyd etmişdir.[19] Kimyəvi silahların məhdudlaşdırılması sahəsində Tərksilah üzrə Konfrans tərəfindən 13 yanvar 1993-cü ildə qəbul edilmiş "Kimyəvi silahların işlənib hazırlanması, istehsal edilməsi, ehtiyatının yığılması və tətbiq edilməsinin qadağan olunması və onların məhv olunması haqqında" Konvensiya da mühüm əhəmiyyət kəsb edir.[20] Konvensiya 1997-ci ilin aprelində qüvvəyə minmişdir. Konvensiyanın 1-ci maddəsinə əsasən Konvensiya iştirakçısı olan hər bir dövlət öhdəsinə götürür ki, heç bir zaman və heç bir halda:

---

18 Вах:Юзеф Гольдблат. Конвенция о биологическом оружии: обзор // Международный журнал Красного Креста. Май-июнь 1997. № 6. с. 285-304; Валентин А. Романов. Гуманитарное измерение конвенции о "бесшумном оружии" // Международный журнал Красного Креста. Май-июнь 1997. № 6. с. 325-337; Ахилл Залуар, Роки Монтелеоне-Нето. Конвенция 1972 г. о биологическом оружии. Точки зрения Юга // Международный журнал Красного Креста. Май-июнь 1997. № 6. с. 337-354.

19 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 290

20 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 316; Действующее международное право. Т.2. М., 1997.с.441-477

kifayət qədər səmərəli idi. Buna baxmayaraq zəhərli qazlardan istifadənin ayrı-ayrı halları mə'lumdur. Həbəşistana müdaxilə zamanı İtaliya (1935-1936), Çində Yaponiya (1937-dən başlayaraq), İrana qarşı müharibədə İraq (1980-1988) zəhərli qazlardan istifadə etmişdir.[15]

Bakterioloji silahdan Çinə qarşı müharibədə Yaponiya istifadə etmişdir. Tokio və Xabarovskdakı hərbi tribunallar bu əməlləri hərbi cinayət kimi tövsif etmişlər.

10 aprel 1972-ci ildə qəbul edilmiş "Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal olunması və ehtiyata toplanmasının qadağan olunması və onların məhv olunması haqqında" Konvensiya[16] bakterioloji və kimyəvi silahların tətbiqinin qadağan olunması sahəsində mühüm rol oynamışdır. Konvensiya 1997-ci ildə qüvvəyə minmişdir.

Kimyəvi silah kimi bakterioloji silah da ancaq canlı materiayanı məhv edir, lakin birincidən fərqli olaraq, o, çoxalmaq və adamları, heyvanları və bitkiləri məhv edən toksinlər ayırmaq qabiliyyətinə malik canlı orqanizmlərdən ibarət olur.[17] Həmin silahın tətbiqinin qadağan olunması ilk növbədə onun tə'sirinin qeyri-seçim xarakterinə əsaslanır.

Konvensiya iştirakçıları mənşəyi və ya hazırlanması metodundan asılı olmayaraq profilaktiki, mühafizə və ya digər dinc məqsədi olmayan mikrobioloji və ya digər bakterioloji agentləri və toksinləri, bu cür agent və toksinlərin düşmənçilik məqsədi və ya silahlı münaqişələr zamanı istifadəsi üçün nəzərdə tutulan silah, avadanlıq və daşıma vasitələrini heç vaxt və heç bir halda hazırlamamağı, istehsal etməməyi, toplamamağı, hər hansı başqa formada əldə etməməyi və saxlamamağı öhdələrinə götürürlər(mad. 1). İştirakçı dövlətlər eyni zamanda malik olduqları və yurisdiksiyasında və ya nəzarəti altında olan yuxarıda göstərilən bütün agent, toksin, silah, avadanlıq və onların nəqliyyat vasitələrini Konvensiya qüvvəyə minəndən doqquz ay müddətində məhv etməyi və ya dincə məqsədlə istifadə üçün dəyişməyi öhdələrinə götürmüşlər (mad. 2).

---

15 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 294

16 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 257-261

17 Эрик Давид. Принципы право вооруженных конфликтов. М., МККК. 2000.с. 249

du. Hələ Qədim Roma hüquqşünasları e'lan edirdilər ki, müharibə zəhərlə deyil, silahla aparılır(armis non veneno-zəhər yox, silah). 1907-ci il IV Haaqa Konvensiyası da zəhərdən müharibə aparılması vasitəsi kimi istifadə etməyi qadağan etdi.

E.David zəhərdən istifadə olunmasının qadağan edilməsi bə'zi silahların qadağan edilməsinin məntiqi nəticəsi kimi qiymətləndiri. O, həmin silahlara aşağıdakıları aid edir:

— ölümü mütləq edən silahlar: bəzi zəhərlər müəyyən dozada bü cür qüvvəyə malikdirlər;

— artıq əzab yetirən silahlar: bu cür vasitədən istifadə etmək nəticəsində vurulmuş yara onsuz da sıradan çıxarılmış döyüşçünün heç bir faydası olmadan əzablarını artırır;

— qeyri-seçim xarakterli silahlar: bə'zi hallarda zəhərlər heç bir fərq qoymadan hərbi qulluqçuları və mülki şəxsləri zəhərləyir.[12]

V. Kimyəvi və bakterioloji silahlar

Kimyəvi silahın ilk dəfə geniş miqyasda tətbiqi Birinci Dünya Müharibəsi illərində baş vermişdir. 1915-ci ildə İpr çayı yaxınlığında alman qoşunları fransız qoşunlarına qarşı hücumda qazdan istifadə etdilər. (İprip qazı öz adını buradan götürmüşdür) Sonradan hər iki tərəf qazdan dəfələrlə istifadə etmiş və bu da böyük itkilərə səbəb olmuşdu. Qazların tətbiqi mövcud normalara, xüsusən zəhərli maddələrdən istifadə olunmasını qadağan edən normalara zidd idi.

17 iyun 1925-ci ildə Cenevrədə çağırılan Konfransda "Boğucu, zəhərli və digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında" Protokol imzalandı.[13] Protokol boğucu, zəhərli və digər bu cür qazların, həm də analoji mayelərin, maddələrin və proseslərin tətbiqini qadağan edildiyini və həmin qadağanın bakterioloji vasitələrə də şamil edilməsini öhdələrinə götürürdülər. Qazlar kimyəvi silahın bir növüdür. Bakterioloji(bioloji) silah kimi kimyəvi vasitələr onunla fərqlənirlər ki, müstəsna olaraq canlıya-adamlara, heyvanlara və bitkilərə tə'sir göstərir. Kimyəvi silahlar öldürücü, sıradan çıxaran və qıcıqlandırıcı ola bilər.[14] Bütövlükdə protokol

12 Э Давид. Принципы право вооруженных конфликтов. М., МККК. 2000.с. 252

13 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 264-265

14 Эрик Давид. Принципы право вооруженных конфликтов. М., МККК. 2000.с. 249

yi sərt örtüklə tam örtülməyən, yaxud kəsikləri olan güllələr də aid edilirdi. Bu güllələrin xüsusiyyəti onda idi ki, onlar insan bədəninə düşdükdə genişlənib yastılaşır və partlayıcı güllələr kimi yaralar əmələ gətirir. Qeyd etmək lazımdır ki, hazırda bir çox dövlətdə istifadə edilən güllələrin məhz həmin xüsusiyyətlərə malik olmasına baxmayaraq, onlardan istifadə olunmasına yol verilməsi barədə tənqidi mülahizələr söylənilir. N.T.Blatova və Q.M.Melkov tərəfindən tərtib olunmuş "Международное право в документах" adlı dərs vəsaitində qeyd olunur ki, Rusiyada istifadə olunan 5,45 mm kalibrli (Kalaşnikov sistemli AK-74 avtomat üçün) , ABŞ və NATO-da istifadə olunan 5,65 mm kalibrli güllələr (ABŞ və NATO-nun M-16 vintovkası üçün) məhz müharibə aparılmasının 1899-cu il Bəyannaməsi ilə qadağan olunmuş vasitələrinə aiddir. Çünki həmin güllələr lülənin kanalındakı kəsiklərdən keçərkən möhkəmliyini itirir, onlarda "kəsiklər" əmələ gəlir və uçuşun qeyri-sabit ballistikası nəticəsində insan bədəninə düşdükdə istiqamətini dəyişərək insana bir qayda olaraq ölümlə nəticələnən böyük xəsarət yetirir. Bundan başqa Rusiyanın hərbi arsenalında 5,45 mm yerini dəyişmiş ağırlıq mərkəzli güllələrdən istifadə olunur. Onlar insan bədəninə düşdükdə nəinki istiqamətini dəyişir, həm də qəlpələrə(2-4) bölünür və müxtəlif istiqamətlərə hərəkət edərək yaralının ölümünü labüd edir. Müharibə aparılmasının bu vəhşi vasitələri arsenaldan götürülməli və məhv olunmalıdır.[9] Bu fikir 1999-cu ildə nəşr olunmuş "Международное публичное право" dərsliyində qeyd olunmuşdur.[10]

İ.İ.Lukaşuk bu məsələyə bir qədlər fərqli yanaşaraq göstərir ki, həmin güllələrin qadağan olunması və ya məhdudlaşdırılması məsələsi 1981-ci il BMT Konvensiyası hazırlanarkən müzakirə olunmuş, lakin razılıq əldə olunmamışdır. Ona görə də, həmin məsələ hal-hazıra kimi tənzimlənməmiş qalmışdır.[11]

B. Zəhərli silahlar

Hərbi məqsədlərlə zəhərdən istifadə olunmasına mənfi münasibət hələ qədimdən mövcud olmuşdur. Qədim Hind Manu qanunlarında zəhərdən döyüş vasitəsi kimi istifadə olunması yolverilməz hesab olunur-

---

9 Международное право в документах.Учебное пособие. Сост. Н.Т.Блатова, Г.М.Мелков. М., ИНФРА-М. 1997. с. 594

10 Международное публичное право. Под ред. К.А.Бекяшева. М., Проспект.1999.с.575

11 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 294.

Məcəlləsindən fərqli olaraq Sankt-Peterburq Bəyannaməsi müharibə aparılmasının ancaq spesifik bir cəhətini əhatə edirdi. Digər tərəfdən Liber Məcəlləsi dövlətdaxili sənəd olduğu halda Peterburq Bəyannaməsi beynəlxalq müqavilə idi. Bəyannamə həmin dövrdə artıq real hərbi şəraitdə tətbiq olunmuş partlayıcı güllələrin qadağan edilməsini nəzərdə tuturdu. Düşmənin canlı qüvvəsinə qarşı tətbiq edilərkən partlayıcı güllələr adi güllələrdən heç bir üstünlüyə malik deyildi. Yə'ni onlar da adi güllələr kimi düşmənin ancaq bir döyüşçüsünü sıradan çıxarmaq (hors de combat) imkanına malik idi. Lakin bu cür güllənin vurduğu yara, adi güllədən qat-qat artıq olmaqla yaralının əzablarını əhəmiyyətli dərəcədə artırırdı.

O zaman komissiya tərəfindən 400 qramdan yüngül partlayıcı sursatdan istifadə edilməsinin qadağan edilməsi məqsədəmüvafiq hesab edildi. Çəkicə daha ağır olan artilleriya sursatının (partlayıcı maddənin) qadağan edilməməsi onunla izah olunurdu ki, bu sursatın partlaması nəticəsində iki və daha artıq kombatantın ölümünə nail olmaq mümkün idi. Bu da artilleriya sursatının silahın başqa növlərinə aid olmasına dəlalət edirdi.

Peterburq Bəyannaməsi qəbul edildikdən sonra elə həmin illərdə ingilis hərbi müəssisələri Kəlküttə yaxınlığında Dum-Dum adlanan yerdə insan bədəninə toxunduqda yastılaşan və nəticələrinə görə partlayıcı güllələrdən fərqlənməyən yeni güllələr istehsal etdilər. İstehsal yerinə görə bu güllələri "dum-dum" adlandırdılar.[6] Bir çoxları belə hesab edirdi ki, Peterburq Bəyannaməsi həmin güllələrə şamil olunur və onların tətbiqini qadağan edir. Lakin Britaniya hökuməti həmin güllələrin texniki cəhətdən partlayıcı və yandırıcı olmadığına əsaslanıb Peterburq Bəyaannaməsinin onlara şamil olunmadığını iddia edirdi.[7] Ona görə, Haaqa Konfransında 29 iyul 1899-cu il tarixli "Asanlıqla istiqamətini dəyişən və insan bədənində yastılanan güllələrin istifadə olunmaması haqqında" III Haaqa Bəyannaməsi qəbul edildi.[8] Həmin güllələrə özə-

6 Эрик Прокош. Швейцарский проект Протокола по системам вооружения малого калибра. Приведение запрета на применение пуль "дум-дум"(1899г.) в соотвествие с требованиями времени // Международный журнал Красного Креста. Июль- август 1995. № 5. С. 506-525.

7 Лукашук И.И. Международное право. Особенная часть. М., БЕК. 1998. С. 294.

8 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 255-256

xalq hüquq üzrə mütəxəssis idi. Sonradan bu tə'limat "Liber Məcəlləsi" adı ilə tanındı. Tə'limatda quru müharibələrinin bütün aspektlərini nəzərdə tutan, o cümlədən müharibə aparılmasının metod və vasitələrini məhdudlaşdıran normalar öz əksini tapmışdı. Liber Məcəlləsi mahiyyət e'tibarı ilə vətəndaş müharibəsi şəraitində tətbiq edilməsi nəzərdə tutulan dövlətdaxili sənəd idi. Lakin bu sənəd XIX əsrdə beynəlxalq səviyyədə müharibə adət və qanunlarının kodifikasiyası üçün böyük əhəmiyyətə malik oldu və gələcək hadisələrin inkişafına böyük tə'sir göstərdi.

1868-ci ildə Sankt-Peterburqda yaradılmış beynəlxalq komissiya beynəlxalq humanitar hüququn mütərəqqi inkişafında son dərəcə əhəmiyyəti olan bə'zi nəticələr çıxartdı. Həmin nəticələr Bəyannamədə öz əksini tapdı. Orada göstərilirdi ki, "sivilizasiyanın inkişafı imkan dərəcəsində müharibənin əzablarının yüngülləşdirilməsi ilə nəticələnməlidir". "Müharibə zamanı dövlətin yeganə qanuni məqsədi düşmənin hərbi qüvvələrinin zəiflədilməsindən ibarət olmalıdır". Bunun üçün isə "imkan dərəcəsində daha çox adamın sıradan çıxarılması kifayətdir". "Sıradan çıxmış düşmənə xəsarət yetirdikdən sonra onun əzablarının artırılmasına səbəb olan və ya onun ölümünü labüd edən silahın işlədilməsi, həmin məqsədlərə uyğun olmayan hesab edilməlidir".

1. Müharibə aparılması vasitələrinin məhdudlaşdırılması

Müasir beynəlxalq hüquqda müharibədə silahların bə'zi növlərinin tətbiqinin qadağan olunması haqqında normalar möcuddur. Müharibə aparılmasının müxtəlif vasitələrinin qadağan edilməsi və ya məhdudlaşdırılması tarixi proses kimi daim inkişafdadır. Biz aşağıda həmin vasitələrin ayrı-ayrı növlərinin hansı beynəlxalq hüquqi sənədlər əsasında məhdudlaşdırıldığı və ya qadağan edildiyi üzərində dayanacağıq.

A. Yandırıcı və partlayıcı güllələr

Sankt-Peterburq müharibə aparılması vasitələrinin məhdudlaşdırılması barədə ilk beynəlxalq sənədin qəbul edildiyi yer kimi yadda qalmışdır. Belə ki, 1868-ci ildə burada "Partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında"[5] Bəyannamə qəbul edildi. Liber

5 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М,, МККК. 1999. с. 253-254

mək lazımdır ki, sülhə qayıtmaq üçün zəruri olan e'timadın əsasını sarsıdan hər cür əməl xəyanət hesab olunur.

23-cü maddənin "v", "q", bəndlərində, 25-ci maddədə nəzərdə tutulan əməllər xəyanətkarlığa görə deyil qəddarlığına, sivilizasiyanın minimum normalarına cavab verməyinə görə qadağan edilir.[3]

Məhz Haaqa konvensiyalarının müddəaları hər iki dünya müharibəsi zamanı döyüş əməliyyatlarının aparılmasının hüquqauyğunluğunun qiymətləndirilməsi üçün başlıca hüquqi baza rolunu oynadı. Nürnberq Beynəlxalq Hərbi Tribunalının hökmündə göstərilirdi ki, 1907-ci il Quru müharibələri adət və qanunları haqqında Haaqa Konvensiyasına əlavə edilmiş Əsasnamə beynəlxalq adət hüququnun bir hissəsidir və bütün döyüşən dövlətlərin ona riayət etməsi məcburidir.

1907-ci il IV Haaqa Konvensiyası ilə müəyyənşdirilmiş normaya əsasən "döyüşən tərəflər düşmənə ziyan vurma vasitələrini seçməkdə qeyri-məhdud hüquqa malik deyillər". I Əlavə Protokol bu müddəanı təsdiq etməklə bərabər bir qədər də inkişaf etdirdi. 35-ci maddənin 1-ci bəndində göstərilir ki, "hər hansı silahlı münaqişə zamanı münaqişədə iştirak edən Tərəflərin müharibə aparılması metod və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir". Beləliklə, silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq müharibə aparılmasının metod və vasitələrini fərqləndirir.

Beynəlxalq hüquq doktrinasında müharibə aparılması vasitəsi dedikdə, döyüşən tərəflərin silahlı qüvvələri tərəfindən düşmənə ziyan vurmaq və onu məhv etmək üçün tətbiq etdikləri silah və vasitələr başa düşülür. Metod dedikdə, isə müharibə aparılması vasitələrindən istifadənin qayda və üsulları başa düşülür.[4] Müharibə aparılmasının metod və vasitələrinin məhdudlaşdırılması haqqında müddəalar öz başlanğıcını "Liber Məcəlləsi" və Sankt-Peterburq Bəyannaməsindən götürmüşdür. 1863-cü ildə Amerika Birləşmiş Ştatlarında Şimal ilə Cənub arasında vətəndaş müharibəsi getdiyi vaxt(1861-1865) prezident A.Linkoln "ABŞ-da səhra qoşunları tə'limatı"nı imzaladı. Tə'limatın mətni Frensis Liber tərəfindən hazırlanmışdı. Liber alman mənşəli beynəl-

3 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М.МККК. 1994.с.42

4 Мелков Г. М. Международное право в период вооруженных конфликтов.М., ВЮЗИ. 1988.с.28; Международное публичное право. Под ред. К.А.Бекяшева. М., Проспект. 1999.с.575.

rini qəbul edə bilmədi. Konfransın əsas məqsədi sülhün qorunması olsa da orada hərbi əməliyyatların aparılmasına dair bir sıra təkliflər də müzakirə edildi. Konfrans zamanı "Quru müharibələrinin adət və qanunları haqqında" Konvensiya və ona Əlavə qəbul edildi. Konvensiyada digər məsələlərlə yanaşı, müharibə zamanı düşmənə ziyan yetirən metod və vasitələrin tətbiqi məsələləri barədə müddəalar da öz əksini tapmışdı.

1907-ci ildə Haaqada keçirilən II Sülh konfransı zamanı 1899-cu ildə qəbul edilmiş Konvensiya və Əsasnamə yenidən nəzərdən keçirildi.[2] Əsasnamədə müharibə aparılmasının metod və vasitələrinin məhdudlaşdırılmasına aid bir sıra müddəalar öz əksini tapmışdı. Əsasnamədə göstərilirdi ki, "düşmənə ziyan yetirilməsi vasitələrini seçməkdə döyüşən tərəflər qeyri-məhdud hüquqdan istifadə etmirlər(mad. 22).

Xüsusi sazişlərlə müəyyənləşdirilmiş məhdudiyyətlərdən başqa aşağıdakılar da qadağan edilirdi:

a) zəhərdən istifadə etmə və ya silahı zəhərləmə;

b) düşmən qoşunu və ya əhalisinə mənsub olan şəxsləri xəyanətkarcasına öldürmə və ya yaralama;

v) silahı yerə qoymuş və ya başqa müdafiə vasitəsi olmayan təslim olan düşməni öldürmək və ya yaralama;

q) heç kəsə aman verilməyəcəyini e'lan etmə;

ğ) artıq əzab yetirməyə qadir olan silah, sursat və ya maddədən istifadə etmə;

d) parlamentyor bayrağı, düşmənin milli bayrağı, hərbi nişanları və geyim formasından, həmçinin Cenevrə Konvensiyalarının müəyyən etdiyi fərqləndirici nişanlardan qeyri-qanuni istifadə etmə;

j) hərbi zərurətdən irəli gələn hallar istisna olmaqla düşmən əmlakını dağıtmaq və ya zəbt etmə; Əsasnamənin 25-ci maddəsinə əsasən müdafiə olunmayan şəhər, kənd, ev və ya tikililərə hər hansı üsulla hücum etmək və ya onları bombalamaq qadağandır.

Əsasnamənin 23ğ maddəsində "artıq" ifadəsi hərbi nöqteyi-nəzərdən heç bir səmərə gətirməyən, lakin artıq əzaba səbəb olan konkret döyüş vasitələrinə şamil edilir.

Konvensiyanın bə'zi müddəalarını şərh edərək F.Kalsxoven göstərir ki, 23b maddəsində işlədilən "xəyanat" ifadəsi ilə əlaqədar qeyd et-

2 Bax. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 18-35

Fəsil VIII

MÜHARİBƏ APARILMASI VASİTƏ VƏ METODLARININ MƏHDUDLAŞDIRILMASI (HAAQA HÜQUQU)

BQXK-nin sabiq Prezidenti Maks Huber vaxtilə xəbərdarlıq edirdi ki, "əgər gələcəkdə də yeni texniki nailiyyətlər 1907-ci ildən sonra olduğu kimi müharibə məqsədilə istifadə olunacaqsa müharibə hüququ və hətta beynəlxalq hüququn özünün mövcudluğu və dəyəri problemə çevriləcəkdir".[1]

Beynəlxalq humanitar hüquqda müharibə aparılmasının metod və vasitələrini tənzimləyən normalar mühüm yer tutur. Müasir beynəlxalq humanitar hüquq ayrı-ayrı silah növlərindən və ya döyüş əməliyyatları aparılmasının müəyyən metodlarından istifadə olunmasının qadağan edilməsini, yaxud məhdudlaşdırılmasını tənzimləyən beynəlxalq hüquqi normalara döyüşən dövlətlərin riayət etməsini nəzərdə tutan bir çox müddəaları özündə əks etdirir.

Silahlı münaqişələrin ciddi reallıq kimi qalmaqda davam etməsinə baxmayaraq, bu münaqişələr zamanı tətbiq olunan zorakılıqlar qeyri-məhdud deyildir. Belə ki, müharibənin aparılması beynəlxalq humanitar hüququn ümumi prinsiplərinə tabe olmalıdır. Deməli, müharibənin məqsədlərinə çatmaqda döyüşən tərəflər müəyyən beynəlxalq qaydalarla məhdudlaşdırılmışlar. Bu qaydaların məqsədi — müharibənin reallığının imkan verdiyi dərəcədə onun öldürücü, dağıdıcı qüvvəsini zəiflətməkdən ibarətdir.

1899-cu ildə Haaqada beynəlxalq Sülh Konfransı keçirildi. Birinci Sülh Konfransının məqsədi yeni müharibələrin qarşısının alınması üçün şəraitin yaradılması idi. Konfrans beynəlxalq münsiflər məhkəməsində dövlətlərarası mübahisələri həll etmək və gələcəkdə sülhün mühafizəsi üçün yeni konfranslar çağırmaq yolu ilə məqsədinə çatmağa, yə'ni sülhə nail olmağa can atırdı. Konfrans məcburi arbitraj şərtlə-

1 M.Huber. Quelques considerations sur une reunion eventuelle des Conventions de La Haye relatives a la guerre // RICR-Juil.1955.-p.430.

son dövrlərin məhkəmə təcrübəsinə müraciət etsək keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının birinci instansiya kamerasının 1995-ci il Yuqoslaviya münaqişələri zamanı Zaqrebin bombalanması ilə əlaqədar qərarına müraciət edə bilərik. Qərarda məhkəmə göstərir ki, "bütövlükdə mülki əhali və ayrı-ayrı mülki şəxslərin hücuma mə'ruz qoyulmaması barədə barədə müvafiq norma bütün silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq humanitar hüququn əsas prinsipidir".[38] BMT Beynəlxalq Məhkəməsi mülki şəxslərə hücum edilməməsini "humanitar hüququn əsasını təşkil edən başlıca prinsip" kimi qiymətləndirmişdir.[39]

38 TPIY, aff.IT-95-11-R61, 8 mars 1996, Martic,§ 10

39 Liceite de la menace ou de l'emploi des armes nucleaires. CIJ, avis du 8 juillet 1996, Rec. 1996, p.257,§ 78.

yət göstərərək həm kombatantları, həm də mülki əhalini, həm hərbi, həm də mülki obyektləri məhv edir. Lakin müasir silahlı münaqişələr hüququ birmə'nalı olaraq mülki əhali və mülki obyektlərə qarşı silah işlədilməsini qadağan edir;

b) nüvə silahının tətbiqi beynəlxalq hüququn "döyüşənlər düşmənə ziyan yetirilməsi vasitələrini seçməkdə qeyri-məhdud hüquqdan istifadə etmirlər" ümumtanınmış prinsipinə ziddir;

v) nüvə silahını 1907-ci il IV Haaqa Konvensiyasının 27-ci maddəsinin tələb etdiyi kimi onun "imkan dərəcəsində mə'bədləri, elm, incəsənət, xeyriyyəçilik məqsədlərinə xidmət edən binaları, tarixi abidələri, xəstəxanaları və yaralı və xəstələrin cəmləşdiyi yerləri" dağıtmayacağı tərzdə tətbiq etmək mümkün deyil. Nüvə silahının tətbiqi silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi hüququnu inkar etmək olardı.

q) müasir beynəlxalq hüquq ayrı-ayrı şəxslərə, icmalara və ya dövlətə mənsub olan hər cür mülkiyyəti məhv etməyi qadağan edir;

ğ) nüvə silahının tətbiqi isə bu normaların müharibənin qurbanı olan dövlətə münasibətdə inkar edilməsinə səbəb olardı;

d) nüvə silahının tətbiqi böyük dozası mülki əhalinin tez və qaçılmaz ölümünə və ya uzunmüddətli xəstəlik və əzablarına səbəb olan radioaktiv şüalanmasına səbəb olur. Silahlı münaqişə hüququ normaları adamlara artıq əzab yetirən silahların tətbiqini birmə'nalı olaraq qadağan edir.[52] Fikrimizcə, nüvə silahının qeyri-seçim xarakteri və onun tətbiqi nəticəsində yetirilən əzabların ağırlığının müharibənin məqsədi baxımından heç bir üstünlüyə səbəb olmaması həmin silahın müharibə aparılması vasitəsi kimi ləğvi üçün əsas verir.

2. Müharibə aparılması metodlarının məhdudlaşdırılması

A. Mülki şəxslərə hücumun qadağan olunması

Mülki şəxslərə hücumun qadağan edilməsi barədə norma Sankt-Peterburq bəyannaməsində "müharibədə dövlətlərin yeganə məqsədi düşmənin hərbi qüvvələrini zəiflətməkdən ibarət olmalıdır" müddəasında öz ifadəsini tapmışdır. Sonradan həmin müddəa Haaqa Əsasna-

52 Арцибасов И.Н., Егоров С.А. Вооруженный конфликт: право, политика, дипломатия. М., 1989с.83-92

məsində, IX Haaqa Konvensiyasında, IV Cenevrə Konvensiyasında və I Əlavə Protokolda bir qədər də inkişaf etdirilmişdir. Mülki əhaliyə hücumun qadağan edilməsi barədə mülahizələr "Silahlı münaqişə qurbanlarının mühafizəsi"nə həsr olunmuş fəsildə öz əksini tapdığına görə təkrarən həmin məsələlər üzərində dayanmağı lazım bilmirik.

B. Sıradan çıxmış şəxslərə hücumun qadağan edilməsi

Həmin norma ümumi formada Haaqa Əsasnaməsinin 23v maddəsində öz ifadəsini tapmışdır. I Əlavə Protokolun 41-ci maddəsində düşmən Tərəfin sıradan çıxmış üzvləri üçün tə'minatlar nəzərdə tutulmuşdur. Burada göstərilir ki, sıradan çıxmış sayılan və ya həmin vəziyyətdə sıradan çıxmış sayılmalı olan şəxsi hücuma mə'ruz qoymaq qadağandır.

Aşağıdakı hallarda hər hansı şəxs sıradan çıxmış sayılır:

a) düşmən Tərəfin hakimiyyəti altında olduqda;

b) əsir düşmək niyyəti açıq ifadə etdikdə;

v) huşu özündə olmadıqda və ya yaralanma və ya xəstələnmə nəticəsində hər hansı başqa şəkildə sıradan çıxaraq özünü müdafiə etməyə qadir olmadıqda, bu şərtlə ki, həmin şəxs göstərilən bütün hallarda hər hansı düşmənçilik hərəkətlərindən çəkinsin və qaçmağa cəhd göstərməsin.

Sıradan çıxmış şəxslərə hücumun qadağan edilməsi barədə müddəalar I, II, III Cenevrə Konvensiyalarının müvafiq olaraq 12, 12, 13-cü maddələrində də öz ifadəsini tapmışdır. Təcrübədə partladılmış gəmidə salamat qalan şəxslərə kömək göstərilməsinin qadağan edilməsi, sağ qalmış adamların təhlükəsizliyi üçün tədbirlər görülməmiş təslim olan gəminin batırılması, partladılmış gəmidə salamat qalan şəxslərin daşınması üçün xilasedici vasitələrin batırılması təgcə müharibə hüququnun pozulması kimi deyil, həm də hərbi cinayət kimi qiymətləndirilmişdir.[53]

I Əlavə Protokrolun 42-ci maddəsində də sıradan çıxmış şəxslərə hücumun qadağan edilməsi barədə norma öz əksini tapmışdır: "Qəzaya uğrayan uçuş aparatını paraşütlə tərk edən heç bir şəxs yerə endiyi müddətdə hücuma mə'ruz qala bilməz. Qazaya uğrayan uçuş aparatını paraşütlə tərk etmiş şəxsə düşmən tərəfin nəzarəti altında olan əraziyə enərkən, əgər onun düşmənçilik hərəkəti etdiyi aşkar olmazsa, imkan

53 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 197

verilir ki, hücuma mə'ruz qalmazdan əvvəl təslim olsun. Hava-desant qoşunları bu maddənin himayəsi altına düşmürlər".

V. Tibbi, sanitar və mə'nəvi yardım göstərən şəxslərə hücumun qadağan olunması

Tibbi, sanitar və mə'nəvi yardım göstərən şəxslərə hücum edilməsinin qadağan edilməsi ilə bağlı məsələlər barədə "Silahlı münaqişə qurbanlarının mühafizəsi"nə həsr olunmuş fəsildə söhbət açıldığına görə onlar üzərində dayanmırıq.

Q. Mülki obyektlərə hücumun qadağan edilməsi

Mülki obyektlərə hücumun qadağan edilməsi ümumi formada Haaqa Əsasnaməsinin 23j maddəsində ifadə olunmuşdur. Burada göstərilir ki, hərbi zərurət tələb etdiyi hallardan başqa "düşmən əmlakını məhv etmək və ya zəbt etmək" qadağandır. Sonradan I Əlavə Protokolda bu müddəa daha da inkişaf etdirilmişdir.[54]

Ğ. Mühafizə olunmayan yerlərə hücumun qadağan edilməsi

Bu qadağan Haaqa Əsasnaməsinin 25-ci maddəsində və 1907-ci il IX Haaqa Konvensiyasının 1-ci maddəsində öz ifadəsini tapmışdır. Şimodanın işi üzrə Məhkəmə prosesində şəhərə hücum ilə əlaqədar bə'zi məsələlərə toxunulmuşdur. Hava müharibəsinin aparılmasına aid beynəlxalq hüququn ümumtanınmış prinsipi ondan ibarətdir ki, havadan hərbi obyektlərin bombalanmasından kənara çıxan qeyri-seçimli bombalama müdafiə olunmayan şəhərlərə münasibətdə yolverilməzdir.[55] Tokio Tribunalı hakimləri hətta hücum edən düşmənə müqavimət göstərdiyi hallarda şəhərin bombalanmasına yol verildiyini tanımışlar: "düşmən tərəfindən işğal olunma cəhdinə müqavimət göstərən şəhərə münasibətdə hərbi zərurət mülahizələrinə görə qeyri-seçimli bombalama yolverilən dir, çünki belə hallarda hərbi və qeyri-hərbi obyektlərin fərqləndirilməsinə əsaslanan hücum az hərbi səmərəli olacaq və qoyulmuş məqsədə çatmayacaqdır"[56].

Məhz bunlara görə I Əlavə Protokolun 59-cu maddəsinin birinci bəndində müdafiə olunmayan yerlərə hücum qadağan olunur. 2-ci bənddə isə yenilik nəzərdə tutulmuşdur. Burada göstərilir ki, münaqi-

54 Bax. "Hərbi əməliyyatların iştirakçıları. Hərbi və mülki obyektlər" fəsli
55 District Crt. of Tokyo, Dec.7, 1963, ILR,32,631
56 District Crt. of Tokyo, Dec.7, 1963, ILR,32,631

şədə iştirak edlən Tərəfin müvafiq hakimiyyət orqanları silahlı qüvvələrin təmas zonasında və ya onun yaxınlığında yerləşən və düşmən tərəfin işğalı üçün açıq olan hər hansı yaşayış məntəqəsinin qorunmayan yer olduğunu bəyan edə bilər. Belə yerlərdən bütün döyüşçülər, eləcə də mobil döyüş vasitələri və mobil hərbi ləvazimat çıxarılmalı, stasionar hərbi qurğulardan və ya tikililərdən düşmənçilik məqsədilə istifadə edilməməli, nə hakimiyyət orqanları, nə də əhali düşmənçilik hərəkətlərinə, hərbi əməliyyatlara yardım məqsədilə heç bir hərəkətə yol verilməməlidir.

Gələcəkdə hərbi məqsədlərlə istifadə edilməyəcəyi şərtilə yaşayış məntəqəsində hərbi obyektlərin olması həmin yerlərin mühafizə olunmayan yerlər e'lan edilməsinə mane olmur.[57]

Əlbəttə ki, əgər şərtlərə əməl olunmazsa ərazi müdafiə olunmayan kimi qiymətləndirilmir və mülki şəxslər və obyektlər üçün nəzərdə tutulan ümumi mühafizədən istifadə edir.

D. Neytrallaşdırılmış zonaya hücumun qadağan edilməsi

Burada söhbət döyüşən tərəflər arasında razılıq əsasında döyüş əməliyyatları rayonunda yaradılan zonalardan gedir. Həmin zonalar yaralı, xəstə, döyüşlərdə iştirak etməyən və həmin zonada olduğu müddətdə hərbi xarakterli heç bir fəaliyyətlə məşğul olmayan mülki şəxslərin müharibənin nəticələrindən mühafizəsi üçün nəzərdə tutulmuşdur. IV Cenevrə Konvensiyasının 15-ci maddəsinin 2-ci hissəsinə əsasən münaqişədə iştirak edən tərəflər nəzərdə tutulan neytrallaşdırılmış zonaların coğrafi mövqeyi, idarə edilməsi, təchizatı və onlara nəzarət barəsində razılığa gələn kimi münaqişədə iştirak edən Tərəflərin nümayəndələri yazılı saziş tərtib edib imzalamalıdırlar. Bu saziş zonanın neytrallaşdırılmasının başlanğıcını və müddətini müəyyən etməlidir.

1936-cı ildə İspaniyada müharibə zamanı BQXK-nin vasitəçiliyi ilə Madridin məhəllələrindən birində, 1937-ci ildə Yapon-Çin münaqişəsi zamanı Şanxayda, 1948-ci ildə Fələstin münaqişəsi zamanı BQXK-nin vasitəçiliyi ilə Qüdsdə bu cür neytral zonalar yaradılmışdır.[58]

---

57 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 213

58 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 213

E. Sanitar və təhlükəsiz zonalara, yerlərə, həmçinin silahsızlaşdırılmış zonalara hücumun qadağan edilməsi

Sanitar və təhlükəsiz zonalar və yerlər I və IV Cenevrə Konvensiyaları maddələri (müvafiq olaraq 23 və 14) ilə nəzərdə tutulmuş sığınacaq zonalar kimi tərəflərin razılığı ilə yaradılır, lakin aşağıdakıları görə fərqlənirlər:

— onlar hələ dinc dövrdə birtərəfli qaydada yaradıla bilər, lakin yalnız düşmənlə həmin zonanı yaradan dövlət arasında saziş əsasında hüquqi əhəmiyyət kəsb edir;

— onlar müstəsna olaraq yaralı və xəstələrin, əlillərin, qocaların, 15 yaşınadək uşaqların, hamilə qadınların və 7 yaşınadək uşaqları olan anaların qəbulu, habelə həmin zona və yerlərin təşkili və idarə olunması həvalə edilmiş hey'ət üçün nəzərdə tutulur; təbii ki, zonanın yerli əhalisi orada yaşamaqda davam edir; digər mülki şəxslər əgər bu barədə düşmən tərəflə başqa saziş yoxdursa zonaya daxil ola bilməz;

— həmin zona və yerlər həm cəbhə xətti yaxınlığında, həm də onlardan uzaqda yaradıla bilər.

Xorvatiya ilə keçmiş Yuqoslaviya arasında olan münaqişə zamanı 27 dekabr 1991-ci ildə BQXK-nin himayəsi altında bağlanmış sazişə müvafiq olaraq Osiyeke xəstəxanası və onun ərazisi sanitar zona e'lan edilmişdi.[59]

I Əlavə Protokolun 60-cı maddəsində silahsızlaşdırılmış zonaların yaradılması nəzərdə tutulmuşdur. Münaqişədə iştirak edən tərəflərin öz hərbi əməliyyatlarını saziş əsasında silahsızlaşdırılmış zona statusu verdikləri əraziyə genişləndirməsi, əgər bu, həmin sazişin müddəalarına ziddirsə qadağan edilir.

Belə saziş şifahi və ya yazılı şəkildə olmaqla, aydın ifadə edilməlidir, ya bilavasitə, ya da hami dövlətin və ya hər hansı bitərəf humanitar təşkilatın vasitəçiliyi ilə bağlana bilər və qarşılıqlı və razılaşdırılmış bəyanatlardan ibarət ola bilər. Saziş dinc dövrdə, eləcə də döyüş əməliyyatları başlandıqdan sonra bağlana bilər və sazişdə silahsızlaşdırılmış zonanın hüdudları mümkün qədər dəqiq tə'yin və təsvir edilməli, lazım gəldikdə nəzarət üsulları müəyyən edilməlidir.

---

59 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 214

Belə saziş aşağıdakı şərtlərə uyğun gələn hər hansı zonaya münasibətdə bağlana bilər:

a) bütün döyüşçülər, eləcə də mobil döyüş vasitələri və mobil hərbi ləvazimat çıxarılmalıdır;

b) stasionar hərbi qurğulardan və ya tikililərdən düşmənçilik məqsədilə istifadə edilməməlidir;

v) nə hakimiyyət orqanları, nə də əhali heç bir düşmənçilik hərəkətinə yol verməməlidir;

q) hərbi sə'ylərlə bağlı olan hər bir fəaliyyətə son qoyulmalıdır.

Həmin şərtlərə riayət olunmadıqda silahsızlaşdırılmış zonalar xüsusi statusu itirir və yalnız mülki şəxslər üçün ümumi normalarda nəzərdə tutulan mühafizədən istifadə edirlər. Sanitar və təhlükəsiz zonalardan fərqli olaraq silahsızlaşdırılmış zonalar prinsip e'tibarı ilə bütün qeyri-kombatantlar üçün açıqdır.

Mühafizə olunmayan yerlərlə silahsızlaşdırılmış zonalar arasında fərq aşağıdakılardın ibarətdir:

— mühafizə olunmayan yerlər haqqında bəyanatların birtərəfli xarakteri; silahsızlaşdırılmış zonaların yaradılması haqqında sazişin razılaşdırıcı xarakteri;

— müdafiə olanmayan yerlər statusunun müvəqqəti xarakteri. Həmin yer işğal olunandan sonra status itirilir;

— hansı döyüşən tərəfin nəzarəti altında olmasından asılı olmayaraq silahsızlaşdırılmış zona daimi olaraq öz statusunu saxlayır.

Haaqa Konvensiyası, Cenevrə Konvensiyaları və I Əlavə Protokolda yaradılması hüquqi cəhətdən tənzimlənmiş zona və yerlərdən başqa BMT humanitar məqsədlə təhlükəsizlik zonaları yaratmaq hüququna maldikdir. Bu cür zonalar aşağıdakıları əhatə edir:

— bu cür zonalara münasibətdə hər cür düşmənçilik hərəkətlərinin ləğvi;

— həmin zonaya hücum edən bütün hərbi hissələrin və yarımhərbi birləşmələrin həmin zona üçün təhlükə yaratmayacaqları qədər uzaq məsafəyə çəkilməsi;

— BMT-nin mühafizə üzrə qüvvələri və humanitar təşkilatların həmin zonalara azad daxil olmasının tə'min olunması;

— həmin təşkilatların hey'ətinin təhlükəsizliyinin tə'mini.[60]

---

60 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 215

Ə. Stasionar, mobil sanitar bölmələri və müəssisələrinə, mülki müdafiə təşkilatlarına hücumun qadağan edilməsi.

Qüvvədə olan beynəlxalq hüquqi sənədlərə əsasən aşağıdakı obyektlər himayə və qayğıdan istifadə edir və hücuma məruz qala bilməz:

— hərbi tibbi xidmətin stasionar-tibbi müəssisəsi və mobil tibbi birləşməsi(I CK mad. 19, II CK mad. 23) ; mülki tibbi xidmətin stasionar-tibbi müəssisəsi və mobil tibbi birləşməsi(IV CK mad18 və I Ə. P. mad. 13).

— hərbi və mülki qospital gəmiləri, bir şərtlə ki, onların bu qaydada istifadə olunması barədə 10 gün qabaqcadan münaqişədə olan tərəflərə məlumat verilmiş olsun (I CK mad20, II CK mad. 22, 24, 25; I Ə. P. mad. 22).

— hərbi və mülki sanitar avtomobillər, qatarlar, gəmilər, üzən vasitələr və uçan aparatlar(I CK mad. 35-37; II CK mad. 27, 38-40; IV CK mad. 21,22; I Ə. P. mad. 21-30). Bu obyektlər ağ fonda qırmızı xaç və ya qırmızı aypara kimi fərqləndirici nişanla işarə olunduqları vaxt mühafizə hüququna malik olurlar (I CK mad. 39; II CK mad. 41; IV CK mad. 18, 21, 22; I Ə. P. mad. 18, 23). Təbii ki, tibbi müəssisə və birləşmələr düşmənçilik hərəkətləri törədilməsi üçün istifadə olunduqda immuniteti itirmiş olurlar.

Mülki müdafiə məsələlərinin tənzimlənməsi I Əlavə Protokolun VI fəslində öz əksini tapmışdır. Protokolun məqsədləri üçün "mülki müdafiə" mülki əhalini təhlükələrdən qorumağa və ona döyüş əməliyyatlarının və ya fəlakətlərin birbaşa tə'sirlərini aradan qaldırmağa kömək göstərməyə, habelə onun sağ qalması üçün zəruri şərait yaratmağa yönəldilən aşağıdakı humanitar vəzifələrin bə'zilərinin və ya hamısının həyata keçirilməsidir.

Mülki müdafiənin mülki təşkilatlarına və onların hey'ətinə hörmət və himayə göstərilir. Tə'kidli hərbi zərurətlə bağlı hallar istisna olmaqla, onlara öz mülki müdafiə vəzifələrini icra etmək ixtiyarı verilir.

Mülki müdafiənin mülki təşkilatlarının, onların hey'ətinin, binalarının, sığınacaqların və materialların hüquqi himayəsinə ancaq o halda xitam verilir ki, onlar öz vəzifələrindən kənara çıxaraq, düşmənə ziyan vura bilən hərəkətlərə yol verir və ya belə hərəkətlərin icrası üçün istifadə olunurlar. Lakin belə himayəyə yalnız əvvəlcədən edilmiş, zəruri olan hər bir halda ağlabatan möhlət verən xəbərdarlıq nəzərə alınmadıqda xitam verilə bilər.

J. Mədəni mülkiyyətə və ibadət yerlərinə hücumun qadağan edilməsi

"Mədəni mülkiyyətin mühafizəsi" fəslində mədəni mülkiyyət və ibadətgahlara hücumun qadağan olunması məsələləri ətraflı nəzərdən keçirilmişdir.

Z. Mülki əhalinin yaşaması üçün zəruri olan obyektlərə hücumun qadağan edilməsi

I Əlavə Protokolun 54-cü maddəsi mülki əhaliyə hücumun xüsusi bir növünü təşkil edən mülki əhalinin yaşaması üçün zəruri olan obyektlərə hücumun qadağan olunmasını nəzərdə tutur.

Müharibə aparılması vasitəsi kimi mülki əhali arasında aclıqdan istifadə olunması qadağan olunur. Lakin təcrübədə bu kimi hallara rast gəlinir. 1982-ci ilin iyul-avqust aylarında Qərbi Beyrutda İsrail ordusu 15 min kombatantın təslim olunmasına nail olmaq məqsədilə 400 minlik əhalisi olan şəhərin su və ərzaqla təchizatını mütəmadi olaraq kəsirdilər. İraq və Küveyt münaqişəsi zamanı Təhlükəsizlik Şurası İraqa qarşı tətbiq etdiyi embarqo və iqtisadi blokada əhali arasında aclığa səbəb olmaması qayğısına qalırdı.[61] Yuqoslaviya münaqişəsində(1992-1993) serblər dəfələrlə Sarayeva və Bosniya və Hersoqovinanın başqa müsəlman şəhərlərinə humanitar və ərzaq yardımının daşınmasını qarşısını tam almışdılar.[62]

Mülki əhalinin sağ qalması üçün zəruri olan obyektləri, məsələn, ərzaq ehtiyatlarını, ərzaq istehsal edən kənd təsərrüfatı rayonlarını, əkinləri, mal-qaranı, içməli su təchizatı qurğularını və içməli su ehtiyatlarını, habelə irriqasiya qurğularını xüsusi olaraq onlardan mülki əhalinin və ya düşmən Tərəfin yaşayış vasitələri kimi istifadə etməsinin qarşısını almaq məqsədilə, səbəblərindən asılı olmayaraq, istər mülki şəxslər arasında aclıq yaratmaq, onları köçüb getməyə məcbur etmək niyyəti ilə, istərsə hər hansı başqa səbəbdən hücuma mə'ruz qoymaq və ya məhv etmək, aparmaq və ya yararsız hala salmaq qadağandır.

Göstərilən qadağan düşmən Tərəfin aşağıdakı məqsədlər üçün istifadə etdiyi obyektlərə tətbiq edilmir:

---

61 Bax.The United Nations and the Iraq-Kuwait conflict.1990-1996.United Nations.1996

62 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК.2000. с. 222

a) yalnız onun silahlı qüvvələrinin üzvlərinin yaşayışına yardım üçün; və ya

b) onların yaşayışına yardım üçün olmasa da, hərbi əməliyyatların birbaşa dəstəklənməsi üçün; bu şərtlə ki, heç bir halda həmin obyektlərə qarşı mülki əhalinin yetərli miqdarda ərzaqsız və ya susuz qalması, beləliklə, əhali arasında aclıq yaranması və ya onun köçüb getməsi ilə nəticələnə bilən hərəkətlər edilmir.

İ. Ətraf mühitə əhəmiyyətli ziyan yetirilməsinin qadağan edilməsi

Ətraf mühitin mühafizəsi hazırda beynəlxalq hüququn müstəqil sahəsinə çevrilmişdir. Bu hər şeydən əvvəl bəşəriyyət üçün sağlam ətraf mühitin vacibliyinin dərk edilməsindən irəli gəlir. Ətraf mühitin beynəlxalq hüququn mühafizəsi ilə bağlı BMT Baş Məclisi tərəfindən qəbul edilmiş qətnamə və müqavilələri bu sahədə beynəlxalq hüquq normalarının mütərəqqi inkişafında böyük əhəmiyyət kəsb edir. BMT-nin ətraf mühitin mühafizəsi üzrə 5-16 iyun 1972-ci ildə Stokholmda keçirilmiş konfransında qəbul edilmiş "Ətraf mühit haqqında" bəyannamədə ətraf mühitlə bağlı 26 prinsip öz əksini tapmışdır. İndiki və gələcək nəslin rifahı naminə ətraf mühitin mühafizəsi Stokholm bəyannaməsinin ümumi prinsipi kimi çıxış edir. Bu prinsipin mahiyyəti ondadır ki, dövlətlər ətraf mühitin qorunması və mühafizəsi üçün zəruri tədbirlər görməli, həmçinin ətraf mühit üçün zərərli nəticələrin qarşısını almalı və təbii ehtiyatların elmi əsaslarla idarə olunmasında əməkdaşlıq etməlidir. Ətraf mühitin radioaktiv çirklənməsinin yolverilməzliyi nüvə enerjisindən həm dinc, həm də hərbi məqsədlərlə istifdə edilərkən əsas tələb kimi qarşıya qoyulur. Dünya okeanının ekoloji sistemli mühafizəsi hər şeydən əvvəl dəniz mühitinin hər cür mənbələrdən çirklənməsinin nəzarət altında saxlanılmasını nəzərdə tutur. 1972-ci il BMT Baş Məclisi XXVII sessiyasında qəbul etdiyi qətnamədə (2997) ətraf mühit sahəsində milli və beynəlxalq səviyyədə fəaliyyətin əlaqələndirilməsi vəzifəsini müvafiq milli idarələrin üzərinə qoymağın tə'min edilməsi çağırışı ilə üzv dövlətlərə müraciət etdi.

3-14 iyun 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilmiş konfransında ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro bəyannaməsi qəbul edildi. Bəyannamədə 27 prinsip öz əksini tapmışdır.

Bəyannamədə müharibənin inkişaf prosesində dağıdıcı tə'sir etməsini nəzərə alaraq dövlətlərin silahlı münaqişə dövründə ətraf mühitin mühafizəsini tə'min edən beynəlxalq hüquqa hörmətlə yanaşması və

zəruri hallarda onun gələcək inkişafında əməkdaşlıq etmələri vacib hesab edilir.

Bəyannamədə sülh, inkişaf və ətraf mühitin mühafizəsinin qarşılıqlı əlaqədə və vəhdətdə olması təsdiqlənir, dövlətlərin ekoloji mübahisələri dinc yolla BMT Nizamnaməsinə müvafiq qaydada həll etməsi tövsiyə edilir.

BMT Baş Məclisi 25 noyabr 1992-ci ildə "Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi haqqında" qətnamə (47/37) qəbul etdi. Qətnamənin 4-cü bəndində BQXK-nə silahlı münaqişələr dövründə ətraf mühitin mühafizəsi ilə əlaqədar komitənin gördüyü tədbirlər haqqında növbəti sessiya üçün mə'ruzə hazırlanması tapşırıldı.

Baş Məclis 9 dekabr 1993-cü il tarixdə beynəlxalq hüququn on illiyi qətnaməsində (48/30) BQXK-nın himayəsi altında silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi üzrə ekspert qrupunun işindən razı qaldığını və bu sahədə işin davam etdirilməsi zəruriliyini bəyan etdi. Ətraf mühitin mühafizəsi daim BMT-nin diqqət mərkəzində olmaqla bu sahədə istər universal, istərsə də regional səviyyədə bağlanmış müqavilələrdə onun qəbul etdiyi qətnamələrin ruhu duyulmaqdadır.

Müharibə zamanı təbii mühitə hökmən ziyan dəyir. Bəşəriyyətin bütün tarixi boyu müharibələr həmişə təbiətdə öz dağıdıcı izini qoymuş və bu izlər uzun müddət bərpa olunmamışdır. Hazırda bir zamanlar döyüş meydanı olan ərazilərdən bə'ziləri onlarda yerləşdirilmiş minalar, partlamamış döyüş sursatlarına görə istifadə üçün yararsız hala düşmüşdür. Müasir beynəlxalq hüquq ətraf mühiti müharibə aparılması vasitəsi kimi istifadə etməyi qadağan edir. İlk dəfə olaraq I Əlavə Protokolun 35-ci maddəsinin 3-cü bəndi və 55-ci maddələrində ətraf mühitin silahlı münaqişələr zamanı mühafizəsi öz əksini tapmışdır.

Təbii mühitə geniş miqyaslı, sürəkli və ciddi ziyan vurmaq məqsədi güdən və ya labüd surətdə buna səbəb olan müharibə aparılması üsullarının və vasitələrinin tətbiqi qadağandır(mad. 35, bənd 3). Hərbi əməliyyatlar zamanı təbii mühitin geniş, uzunmüddətli və ciddi ziyandan mühafizəsinə qayğı göstərilir. Belə mühafizəyə təbii mühitə ziyan vurmaq məqsədi güdən və ya ziyan vuracağı və nəticədə əhalinin sağlamlığına və ya sağ qalmasına ziyan vuracağı gözlənilən hərbi üsul və vasitələrdən istifadənin qadağan edilməsi daxildir.

Təbii mühitə ziyan vurmağın repressali vasitəsinə çevrilməsi qadağandır (mad. 55).

18 may 1976-cı ildə Cenevrədə "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə

olunmasının qadağan edilməsi haqqında" Konvensiya imzalanmaq üçün açılmışdır.[63] Həmin beynəlxalq hüquqi sənədin 1-ci maddəsi geniş, uzunmüddətli və ya ciddi nəticələrə səbəb olan ətraf mühitə tə'sir edən vasitələrdən hər hansı iştirakçı dövlətə ziyan və ya zərər yetirilməsi üçün hərbi və ya hər hansı düşməncəsinə istifadədən çəkinməyi tələb edir.

Hər bir iştirakçı dövlət həmin maddədə nəzərdə tutulan müddəaları pozan hər hansı dövlətə və ya beynəlxalq təşkilata yardım göstərməməli və ondları buna sövq etməməlidir.

"Ətraf mühitə tə'sir vasitələri" termini Yerin dinamikası, tərkib və ya strukturuna, litosferə, hidrosferə və atmosferə və ya kosmik fəzaya təbii prosesləri qabaqcadan idarə etmək yolu ilə dəyişiklik üçün nəzərdə tutulan hər hansı vasitə aid edilir (mad. 2).

Konvensiya dinc məqsədlə ətraf mühitə tə'sir vasitələrindən istifadə etməyə mane olmur (mad. 3). Hər bir iştirakçı dövlət həmin konvensiya müddəalarına zidd olan hər hansı fəaliyyətin qadağan edilməsi və aradan qaldırılması üçün özünün konstitusiya proseduralarına müvafiq olan zəruri hesab etdiyi hər hansı tədbiri görməyi öhdəsinə götürmüşdür (mad. 4).

Konvensiya əslində "silahı" deyil, təbii proseslərlə manipulyasiya etmə "üsulları"nı qadağan edir.[64]

Qeyd etmək lazımdır ki, bu iki beynəlxalq müqavilə ətraf mühitə müxtəlif növ ziyan vurulmasını qadağan edir. I Əlavə Protokol ekoloji müharibəni, yə'ni həyati əhəmiyyətli təbii tarazlığı poza bilən müharibə aparılması vasitələrindən istifadəni qadağan edir. 1976-cı il Konvensiyası geofiziki müharibəni-tufan, zəlzələ, qar və yağış kimi yağıntıların düşməsinə səbəbə olan təbii proseslərin qabaqcadan idarə olunmasını qadağan edir. Bununla belə bu iki beynəlxalq hüquqi sənəd biribirini tamamlayır.

Təcrübədə hərbi əməliyyatlar aparılmasının ekoloji metod və vasitələrindən istifadə olunmuşdur. Veytnamda müharibə zamanı ABŞ defoliantı (meşədə ağacların yarpaqlarının tökülməsi üçün istifadə olunan kimyəvi maddə) geniş tətbiq etmişdir. Nəticədə böyük meşə zolaqları

63 Сборник важнейших документов по международному праву. ЧастьI. Общая.М., 1996.с.52-56

64 Эрик Давид. Принципы право вооруженных конфликтов. М., МККК. 2000.с.270

sıradan çıxmış və amerikan əsgərləri də daxil olmaqla insanlar zərər çəkmişlər. Bundan sonra ekosid termini yarandı. Ekosid (yunan oicos-ev və lat. caedo — öldürürəm) dedikdə, təbiətə böyük ziyan vuran cinayətkar hərəkət başa düşülür. Dünya ictimai rə'yi ekosidə genosidlə yanaşı beynəlxalq cinayət kimi baxır. O, sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edir, insan və müxtəlif canlı orqanizmlərin mövcudluğunun bioloji əsası kimi ətraf təbii mühiti zədələyir, ekoloji təhlükəsizliyi pozur.[65] İran körfəzində müharibədən sonra BMT Baş Məclisi 1993-cü ildə konsensusla "Silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi haqqında" qətnamə qəbul etdi. Qətnamədə göstərilir ki, hərbi zərurətlə bəraət qazandırılmayan və əhəmiyyətli dərəcədə həyata keçirilən ətraf mühitin dağıdılması şübhəsiz ki, beynəlxalq hüquqa ziddir. Sülhə və bəşəriyyətin təhlükəsizliyinə qarşı Cinayət Məcəlləsi layihəsində bu cür hərəkət cinayət kimi nəzərdə tutulmuşdur.

Küveyt işğal edildikdən sonra İraq komandanlığı böyük miqdarda neftin İran körfəzinə tökülməsi barədə əmr verməklə dəniz mühitinə və sahilə böyük ziyan vuruldu. Küveyt neft mədənlərinin yandırılması böyük ərazidə atmosferin zəhərlənməsinə, ozon təbəqəsinə mənfi tə'sir göstərməsinə səbəb oldu. BMT Təhlükəsizlik Şurası 3 aprel 1991-ci ildə qəbul etdiyi qətnamədə (687) ətraf mühitə vurulmuş ziyana görə İraqın maddi məs'uliyyətini müəyyən etdi.[66]

I. Təhlükəli qüvvə saxlayan qurğu və tikililərə hücumun qadağan edilməsi

Təhlükəli qüvvələri özündə saxlayan qurğu və tikililərin — atom elektrik stansiyaları, kimya müəssisələri, böyük damba və su ambarlarının sayının artması ilə əlaqədar olaraq onlara yeni münasibət tələb olunurdu. Bu cür obyektlərin dağıdılması saysız qurbanlara səbəb olurdu. I Əlavə Protokolda bu məsələnin aktuallığı nəzərə alınmış və müvafiq norma qəbul edilmişdir. 56-cı maddədə göstərilir ki, tərkibində təhlükəli qüvvələr olan qurğular və tikililər, məsələn beton və torpaq bəndlər, atom elektrik stansiyaları, hətta hərbi obyekt olduqları hallarda da, əgər onlara edilən hücum təhlükəli qüvvələrin çıxmasına və daha sonra mülki əhali arasında ağır itkilərə səbəb ola bilərsə, hücuma

---

65 Уголовной кодекс Российской Федерации. Комментарий. Отв. ред. В.И.Радченко. М., 2000. Спарк.829

66 The United Nations and the Iraq-Kuwait conflict.1990-1996.United Nations.1996.pp.193-198

mə'ruz qalmamalıdırlar. Həmin qurğularda və ya tikililərdə və ya onların yaxınlığında yerləşən başqa hərbi obyektlər, əgər onlara edilən hücum həmin qurğulardan və ya tikililərdən təhlükəli qüvvələrin çıxmasına və daha sonra mülki əhali arasında ağır itkilərə səbəb ola bilərsə, hücuma mə'ruz qalmamalıdırlar. Bu cür xüsusi himayəyə aşağıdakı hallarda xitam verilir:

a) yalnız beton və torpaq bəndlərdən öz normal funksiyasına uyğun olmayan hər hansı şəkildə və hərbi əməliyyatlara müntəzəm surətdə əhəmiyyətli və birbaşa yardım göstərilməsi üçün istifadə edildikdə belə hücum həmin yardıma son qoymağın yeganə mümkün vasitəsi olarsa;

b) yalnız atom elektrik stansiyasının istehsal etdiyi elektrik enerjisindən hərbi əmliyyatlara müntəzəm surətdə əhəmiyyətli və birbaşa yardım göstərilməsi üçün istifadə edildikdə belə hücum həmin yardıma son qoymağın yeganə mümkün vasitəsi olarsa;

v) yalnız bu qurğulara və ya tikililərə və ya onların yaxınlığında yerləşən digər hərbi obyektlərdən hərbi əməliyyatlarda müntəzəm surətdə əhəmiyyətli və birbaşa yardım göstərilməsi üçün istifadə edildikdə belə hücum həmin yardıma son qoymağın yeganə mümkün vasitəsi olarsa.

BMT Baş Məclisi tərəfindən qəbul edilmiş qətnamələrdə atom elektrik stansiyalarına silahlı hücum edilməsi radioloji silahın istifadəsinə bərabər tutulması kimi qiymətləndirilmişdir.[67]

Y. Xəyanət

Beynəlxalq humanitar hüquq düşmənə verilən və'din yerinə yetirilməməsi kimi başa düşülən xəyanətkarlığı qadağan edir. Bu cür xəyənatkarlığa misal kimi düşmənə yaxınlaşmaq üçün ağ bayrağın təslim olma rəzmi kimi qaldırılması və sonradan silahdan istifadə olunmasını və ya hərbi obyektlərin mühafizəsi üçün Qırmız Xaç nişanından istifadə olunmasını göstərmək olar. I Əlavə Protokol düşmən paltarından xəyanətkarlıqla istifadə olunmasını qadağan edən norma nəzərdə tutmuşdur. Protokolda belə bir ümumi müddəa öz əksini tapmışdır ki, "düşməni xəyanət yolu ilə öldürmək, yaralamaq və ya əsir götürmək qadağandır". I Əlavə Protokolun 37-ci maddəsi aşağıdakıları xəyanətə

67 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК.2000.С.230-231

misal kimi nəzərdə tutmuşdur:

a) barışıq və ya təslimçilik bayrağı altında guya danışıq aparmaq istəyini iddia etmək;

b) yaralanma və ya xəstələnmə nəticəsində özünü sıradən çıxmış kimi göstərmək;

v) özünü mülki şəxs və ya döyüşməyən statusuna malik olan kimi qələmə vermək;

q) Birləşmiş Millətlər Təşkilatının, neytral Dövlətlərin və ya münaqişədə iştirak edən tərəf olmayan başqa Dövlətlərin nişanlarından, emblemlərindən və ya formalı geyimindən istifadə edərək, himayəni tə'min edən statusa malik olduğununu iddia etmək. Xəyanətkarlıqdan fərqli olaraq hərbi hiylələr hüquqauyğun hesab olunur. Düşməni yanıltmaq və ya onu ehtiyatsız hərəkətə təhrik etmək məqsədi güdən, lakin silahlı münaqişələr zamanı tətbiq olunan hər hansı beynəlxalq hüquq normalarını pozmayan hərəkətlər bü cür hiylələr olub xəyanət hesab edilmir, çünki həmin hüquq normasının tə'min etdiyi himayə barəsində düşmən Tərəfin e'tibarını aldatmır.

Hərbi hiylələrdən və düşmən, onun olduğu yer haqqında mə'lumat almaq üçün zəruri olan üsullardan istifadə etməyə yol verilir. Hərbi hiylələrə icazə verilməsi tamamilə əsaslıdır. Yeganə çətinlik konkret olaraq hansı hərəkətin hərbi hiylə, hansının isə xəyanət olmasının müəyyən edilməsindədir.[68] Həmin hiyləyə misal olaraq maskalanmanı, tələ qurmanı, saxta əməliyyatlardan və yalan mə'lumatlardan istifadə etməni göstərmək olar. Hərbi hiylə xəyanətkarlıqdan əsasən onunla fərqlənir ki, bu zaman düşmənə verilən və'd pozulmur.

Böyük Vətən Müharibəsi dövründə Sovet ordusu yalançı aerodromlar düzəltmək kimi hərbi hiylələrdən çox istifadə etmişdir.

Qırmızı Xaç, Qırmızı Aypara fərqləndirici emblemlərindən və ya Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollarda nəzərdə tutulmuş digər emblemlərdən, nişanlardan və ya siqnallardan, o cümlədən barışıq bayrağından və mədəni sərvətlərin himayəsi emblemlərindən qəsdən istifadə etmək qadağandır. Birləşmiş Millətlər Təşkilatının icazəsi olmadan, həmin Təşkilatın fərqləndirici emblemlərindən istifadə etmək qadağandır (I Ə.P. mad. 38).

Silahlı münaqişədə neytral Dövlətlərin və ya münaqişədə iştirak edən Tərəf olmayan digər Dövlətlərin bayraqlarından, hərbi emblem-

---

68 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны.М.МККК.1994.с.42

lərdən, hərbi fərqlənmə nişanlarından və ya formalı geyimlərindən istifadə etmək qadağandır. Hücum zamanı və ya hərbi əməliyyatları pərdələmək, müdafiə etmək, dəstəkləmək və ya çətinləşdirmək məqsədilə düşmən tərəfin bayraqlarından hərbi emblemlərdən, hərbi fərqlənmə nişanlarından və ya formalı geyimlərindən istifadə etmək qadağandır (I Ə.P. mad 39, bənd 2). Lakin göstərilən hərəkət silahlı münaqişə hüququna aid müqavilələrin heç birində beynəlxalq hüquqpozğunluğu kimi qiymətləndirilmədiyinə görə stricto sensu hərbi cinayət deyildir.[69]

Xəyanət silahlı münaqişə hüququnun verdiyi mühafizə hüququ altında düşmənçilik hərəkətləridir. Lakin bu mühafizənin düşmənçilik məqsədilə deyil, məsələn, öz həyatını qorumaq və sonradan qaçıb qurtarmaq üçün istifadə olunması xəyanətkarlıq kimi qiymətləndirilməməlidir.

K. Heç kəsə aman verməmək haqqında əmr verilməsinin qadağan edilməsi

I Əlavə Protokol düşmənə rəhm edilməsinin qadağan edilməsi haqqında adət normasını təsdiq etdi. "Heç kəsi sağ qoymamaqı əmr etmək, düşməni bununla hədələmək və ya bu əsasda döyüş əməliyyatları aparmaq qadağandır".

G. Düşmən Dövlətin təbəələrini məcburi hərbi qulluğa çağırma

Hərbi əsiri və himayədə olan mülki şəxsləri düşmən Dövlətin silahlı qüvvələrində xidmətə məcbur etmək (III CK mad 130; IVCK mad. 147) Cenevrə konvensiyalarına əsasən ciddi pozuntu, yə'ni hərbi cinayət kimi qiymətləndirilir.

L. Hərbi zərurətdən irəli gəlməyən dağıntılar

Hərbi zərurətdən irəli gəlməyən dağıntılarla bağlı məsələlər "Mülki və hərbi obyektlər" mövzusunda nəzərdən keçirilmişdir. Hərbi zərurtdən irəli gəlməyən dağıntılar beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilir (I CK mad. 50; II CK mad. 51; III CK mad. 130 IV CK mad. 147).

M. Mülki əhalini qorxutmaq məqsədilə zorakılıq etmək və ya hədələmək.

I Əlavə Protokolun 51-ci maddəsinin 2-ci bəndinə əsasən mülki əhali, eləcə də ayrı-ayrı mülki şəxslər hücum obyekti ola bilməzlər. Mülki

---

69 Bax. Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 297

əhalini qorxutmaq məqsədilə zorakılıq etmək və ya zorakılıqla hədələmək qadağandır. Burada söhbət "mühüm hərbi üstünlük gətirməyən və əhalini qorxutmaqdan başqa məqsədi olmayan" hərəkətlərdən gedir. Hərbi obyektə hücumla müşahidə olunan nəticələr bu cür qadağanlara aid deyildir. Lakin əhalini tam məhv etməklə hədələmək isə qadağan olunmuş hərəkətlərə şamil edilir.

N. Qeyri-seçim xarakterli hücum

I Əlavə Protokolun 51-ci maddəsinin 4-cü bəndində qeyri-seçim xarakterli hücumlar qadağan olunur. Qeyri-seçim xarakterli hücumlara aşağıdakılar aid edilir:

a) konkret hərbi obyektə yönəlməyən hücumlar;

b) konkret hərbi obyektə yönəldilə bilməyən döyüş üsullarının və vasitələrinin tətbiq edildiyi hücumlar;

v) nəticələri məhdudlaşdırıla bilinməyən döyüş üsulları və vasitələrinin tətbiq edildiyi hücumlar.

q) nəticə e'tibarı ilə bu halların hər birində hərbi obyektlərə və mülki şəxslərə və ya mülki obyektlərə fərq qoymadan zərbə endirən hücumlar. Hücumların başqa növləri arasında aşağıdakı növləri də qeyri-seçim xarakterli hesab edilir:

a) mülki şəxslərin və ya mülki obyektlərin cəmləşdiyi şəhərdə, kənddə və ya başqa ərazidə yerləşən, biri-birindən aşkar aralıda olan və fərqlənən bir sıra obyektləri vahid hərbi hədəf kimi seçərək, müxtəlif üsul və vasitələrlə edilən bombardman vasitəsilə hücum;

b) bu yolla əldə edilməsi ehtimal olunan konkret və birbaşa hərbi üstünlüyə nisbətən həddən ziyada labüd mülki əhali itkisinə, mülki şəxslərin yaralanmasına və mülki obyektlərə ziyan dəyməsinə və ya bunların hamısına eyni zamanda səbəb olacağı gözlənilən hücum.

O. Repressali qaydasında hücumun qadağan edilməsi

Hərbi əməliyyatlar aparılması çərçivəsində aşağıdakılara repressali qaydasında hücum edilməsi qadağandır:

— yaralı, xəstə, tibbi və ruhani müəssisə və birləşmələrə(I CK mad. 46;II CK mad. 47; I Ə. P. mad. 20)

— mülki əhaliyə (I Ə. P. mad.. 51 bənd 6)

— mülki obyektlərə (I Ə. P. mad. 52,bənd 1)

— mədəni mülkiyyət və ibadətgah yerlərinə (I Ə. P. mad. 53; 1954-cü il Haaqa Konvensiyası mad. 4 bənd 4)

— mülki əhalinin yaşaması üçün zəruri olan obyektlərə (I Ə. P. mad. 54, bənd 4)

— təbii mühitə (I Ə. P. mad. 52, bənd 2).

Beynəlxalq hüquqda repressalidən istifadə olunmasına icazə verilir. Lakin bunun üçün aşağıdakı şərtlərə riayət olunmalıdır:

— döyüşən tərəflərdən biri beynəlxalq hüququ qabaqcadan pozmalıdır;

— repressali ilkin pozuntuya müvafiq olmalıdır;

— repressalinin məqsədi pozuntunu törədən dövləti beynəlxalq hüquqa riayət etməyə məcbur etmək olmalıdır;

— repressali tamamlama xarakterli olmalıdır, yə'ni beynəlxalq hüquqa riayət olunması üçün bütün digər vasitələr istifadə olunduqdan sonra repressaliyə müraciət olunur;

— repressali ilkin qeyri-qanuni hərəkətlə oxşar olmalıdır.

Ö. Bombalama

Müharibə aparılması metodları arasında bombalama daha mühüm rol oynayır. Fəaliyyət dairəsinin genişliyi nəzərə alınaraq onlar hüquqla daha ətraflı tənzimlənir. Əsas prinsip ondan ibarətdir ki, bombalama mülki obyektə deyil, hərbi obyektə yönəldilməlidir və "qeyri-seçimli" olmamalıdır. Bu 1868-ci il Peterburq Bəyannaməsinin müharibənin qanuni məqsədinin düşmənin silahlı qüvvələrini zəiflətməklə məhdudlaşdırması prinsipindən irəli gəlir.

Bu sahədə konkret məhdudiyyət 18 oktyabr 1907-ci ildə qəbul edilmiş "Hava şarlarından döyüş sursatları və partlayıcı maddələrin atılmasının qadağan edilməsi haqqında"[70] Haaqa Konvensiyası ilə müəyyənləşdirilmişdir. Konvensiya hava şarlarından və digər bu cür yeni üsullarla döyüş sursatı və partlayıcı maddələrin atılmasını qadağan edirdi. Həmin müddəalar I Əlavə Protokolla da təsdiq olunmuş və genişləndirilmişdir.

70 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1999. с. 262-263

Fəsil IX

SİLAHLI MÜNAQİŞƏ ZAMANI MƏDƏNİ MÜLKİYYƏTİN MÜHAFİZƏSİ

Silahlı münaqişələr əksər hallarda böyük insan tələfatı, mə'nasız qırğınlarla yanaşı, həm də həmin münaqişələrin aparıldığı yerlərdə mədəni mülkiyyətin dağıdılmasına, talan edilməsinə də səbəb olur. Hələ 2000 il əvvəl yunan səlnaməçisi Polibey gələcək fatehlərin fəth etdikləri şəhərləri dağıtmamağı öyrənəcəklərinə, öz ölkələrini başqa xalqların fəlakət və müsibətləri hesabına bəzəməkdən çəkinəcəklərinə ümid etdiyini bildirirdi. Qədim Romada da Siseron müharibə vaxtı işğal olunmuş ərazilərdə mədəni mülkiyyətin yandırılması və talan edilməsi əleyhinə e'tiraz səsini yüksəltmişdi.

Müasir beynəlxalq hüquqda mədəni mülkiyyətin hüquqi mühafizəsi məsələləri xüsusi yer tutur. Bu mülkiyyət bəşəriyyətin mədəni və tarixi irsi olmaqla bəşər sivilizasiyasının mə'nəvi həyatında mühüm rol oynayır. Silahlı münaqişələrin davam etməsi və müxtəlif dağıdıcı güc və qüvvəyə malik olan silahların, o cümlədən kütləvi qırğın silahlarının inkişafı bütövlükdə bu irsin mövcudluğunu təhlükə altına alır. Bütün bunlar isə mədəni mülkiyyətin beynəlxalq mühafizəsinin tə'minini tələb edir. Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin beynəlxalq səviyyədə mühafizəsi məsələləri ilə əlaqədar ilk dəfə 1899 və 1907-ci ildə Haaqada keçirilən Sülh Konfranslarında müzakirələr keçirilmişdi. Həmin vaxt mədəni mülkiyyətin universal anlayışı hazırlanmamışdı. Ona görə də, konfranslarda quru müharibəsinin adət və qanunlarının müzakirəsi aspektində ayrı-ayrı dövlətlər əmlakın mühafizəsi sistemini normalaşdırmağa cəhd etdilər. Sözsüz ki, dövlətlərin əmlakının bir hissəsi kimi mədəni mülkiyyət və ibadətgahlar da müəyyən mühafizə obyektinə çevrildilər. 1907-ci il Haaqa Əsasnaməsinin 27-ci maddəsində göstərilir ki, mühasirə və bombardman zamanı imkan dərəcəsində ibadətgahlar, elm, incəsənət və xeyriyyəçiliyə xidmət edən binalara, tarixi abidələrə ziyan vurulmaması üçün bütün zəruri tədbirlər görülməlidir.

Mühasirədə olanlar da həmin obyektlərin nişanlanması üçün tədbir görməli və mühasirə edən bu barədə xəbərdar olunmalıdır.[1]

Eyni müddəalar 18 oktyabr 1907-ci ildə qəbul edilmiş "Müharibə zamanı dəniz qüvvələri ilə bombardman haqqında" Konvensiyanın 5-ci maddəsində də öz əksini tapmışdır. Həmin maddədə göstərilən obyektlərin nişanlanması üçün dioqnal üzrə iki üçbucağa bölünmüş və yuxarı üçbucağı qara, aşağıdakı üçbucağı isə ağ rənglənmiş düzbucalı qalxanlardan istifadə olunması tövsiyə edilmişdir.[2] Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında normaların inkişaf etdirilməsinə növbəti cəhd 1922-1923-cü ildə Haaqada hüquqşünaslar Komissiyası tərəfindən hazırlanmış "Hava müharibəsinin aparılması qaydaları"nda öz ifadəsini tapmışdır. Təəssüf ki, həmin sənəd hüquqi cəhətdən məcburi qüvvəsini almamışdır. Qaydaların 25-ci maddəsində 1907-ci il Konvensiyalarındakı müddəalar öz əksini tapsa da, 26-cı maddədə bu müddəalar inkişaf etdirilərək dövlətlər tərəfindən həmin sərvətlərin səmərəli mühafizəsinin tə'min edilməsi üçün 8 bənddən ibarət qayda müəyyənləşdirilmişdir.[3]

Mədəni mülkiyyətin silahlı münaqişələr zamanı mühafizəsi barədə növbəti və məhz bu məsələyə həsr olunmuş ilk beynəlxalq hüquqi sənəd 15 aprel 1935-ci ildə Vaşinqtonda bağlanmış "Elm və incəsənətə xidmət edən müəssisələrin, həmçinin tarixi abidələrin mühafizəsi haqqında" müqavilədir. Bu müqavilə təşəbbüskarı olan-rəssam, yazıçı və ictimai xadim Nikolay Rerixin adı ilə "Rerix Paktı" da adlanır. Müqavilə sonradan Amerika Dövlətləri Təşkilatına çevrilmiş Panamerika İttifaqı ölkələri tərəfindən imzalanmaq üçün açılmışdır.

Müqaviləyə əsasən tarixi abidələr, elm, incəsənət, təhsil və mədəniyyət məqsədlərinə xidmət edən muzey və müəssisələr neytral e'lan edilir və döyüşən tərəflərin hörmət və mühafizəsindən istifadə etməlidir. Həmin müəssisələrin hey'əti də hörmət və mühafizə hüququna malikdir. Mədəni mülkiyyət həm sülh, həm də müharibə vaxtı mühafizə olunmalıdır. Müqaviləni imzalayan və ona qoşulan dövlətlərin hər

---

1 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений.М., МККК.1999.с.28

2 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК.1999.с.81-82.

3 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений.М., МККК.1999.с.210-211.

birinin ərazisində dövlət mənsubiyyətindən asılı olaraq heç bir ayrı-seçkiliyə yol verilmədən həmin mülkiyyət neytral hesab olunur və mühafizə olunmalıdır. İştirakçı dövlətlər bu neytrallıq və mühafizənin tə'min olunması üçün qanunvericiliklərində müvafiq normalar nəzərdə tutacaqlarını öhdələrinə götürmüşlər.

Müqavilədə mədəni mülkiyyətin fərqləndirici emblemi kimi qırmızı dairəyə alınmış ağ fonun daxilində üç qırmızı şar qəbul edilmişdir. Müqavilədə həmçinin, nəzərdə tutulur ki, dövlətlər mühafizəyə götürmək istədikləri mədəni mülkiyyətin siyahısını müqaviləni imzalayarkən təqdim etməlidirlər. Müqavilənin 5-ci maddəsinə əsasən qeyd olunan obyektlər hərbi məqsədlə istifadə olunduqda mühafizədən çıxır.[4]

Rerix Paktı mədəni mülkiyyətin mühafizəsi ilə bağlı bir çox zəruri normalar müəyyən etsə də bu sənəd universal xarakter daşımırdı. Yə'ni ancaq Amerika dövlətləri üçün nəzərdə tutulmuş regional müqavilə idi.

II Dünya müharibəsi zamanı külli miqdarda mədəni mülkiyyət dağıdılmış və mənsub olduqları dövlətdən aparılmışdı. Bu fakt dünya birliyini tezliklə silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi ilə əlaqədar sistem yaradılması zərurəti qarşısında qoydu.

Mədəni mülkiyyətin həm dinc dövrdə, həm də müharibə zamanı mühafizəsi məsələlərinin intensivləşməsində 16 noyabr 1945-ci ildə Nizamnaməsi qəbul edilmiş Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (YUNESKO)[5] rolu böyükdür. Təşkilatın Nizamanaməsinin 1-ci maddəsinin 2 s bəndində onun vəzifələrindən biri kimi bəşəriyyətin ümumdünya irsinin-kitabların, incəsənət əsərlərinin və tarixi-elmi əhəmiyyətli abidələrin qorunub saxlanılmasının və mühafizəsinin qayğısına qalmaq da göstərilmişdir.[6]

14 may 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Konvensiya da YUNESKO-nun himayəsi altında qəbul edilmiş beynəlxalq hüquqi sənədlərdəndir.[7] Azərbaycan Respublikası 21 aprel 1993-cü ildə (№ 574)

---

4 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений.М., МККК.1999.с.35-37

5 Bax. Mənay İbayeva. YUNESKO-nun BMT-nin ixtisaslaşmış qurumu kimi hüquqi statusu, məqsəd və vəzifələri, təşkilata üzvlük məsələləri. // Beynəlxalq həyat. Bakı. 1999. № 3. s.23-29.

6 YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı. 1998. s.24

7 YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı. 1998. s. 42, 259-291

konvensiyaya qoşulmuşdur. Müqavilənin preambulasında son silahlı münaqişələrin gedişində mədəni mülkiyyətə ciddi ziyan vurulduğu və hərbi texnikanın inkişafı nəticəsində onların getdikcə daha çox dağılmaq təhlükəsinə məruz qaldığı, mədəni irsin qorunmasının dünyanın bütün xalqları üçün böyük əhəmiyyət kəsb etdiyi və bu irsin beynəlxalq müdafiəsinin tə'min edilməsinin vacibliyi qeyd olunmuşdur. Konvensiyanın 1-ci maddəsinə əsasən Konvensiyaya müvafiq olaraq, mənşəyindən və sahibindən asılı olmayaraq aşağıdakılar mədəni mülkiyyət sayılır:

a) hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan dini və ya dünyavi me'marlıq, incəsənət abidələri, yaxud tarixi abidələr, arxeoloji qazıntı yerləri, tarixi, yaxud bədii əhəmiyyət kəsb edən me'marlıq ansamblları, incəsənət əsərləri, əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyətli digər əşyalar, həmçinin, elmi kolleksiyalar və ya mühüm kitab və arxiv materialları kolleksiyaları, yaxud yuxarıda göstərilən dəyərlərin reproduksiyası kimi daşınar və daşınmaz dəyərlər;

b) başlıca və əsil tə'yinatı (a) bəndində göstərilən daşınar mədəni mülkiyyətin saxlanılması və ya nümayiş etdirilməsi olan muzeylər, iri kitabxanalar, arxiv xəzinələri kimi binalar, həmçinin, silahlı münaqişə baş verdikdə (a) bəndində göstərilən daşınar mədəni mülkiyyəti qorumaq üçün nəzərdə tutulan sığınacaqlar;

s) (a) və (b) bəndlərində göstərilən çox sayda mədəni mülkiyyət olan, "mədəni dəyərlərin cəmlənmə mərkəzi" adlandırılan mərkəzlər.

Konvensiyanın 2-ci maddəsinə əsasən mədəni mülkiyyətin qorunmasına bu dəyərlərin mühafizəsi və onlara hörmət edilməsi daxildir. Konvensiyaya müvafiq olaraq tərəflər hələ sülh dövründə zəruri saydıqları tədbirləri görməklə, öz ərazilərindəki mədəni mülkiyyəti mühafizə etməlidirlər. Sülh dövründə görülməsi zəruri sayılan tədbirlərə müvafiq sığınacaqların, mühafizə qurğularının hazırlanması, onların təhlükəsiz yerlərə daşınmasının təşkili, mədəni mülkiyyətin xüsusi nişanlarla işarələnməsi, mədəni mülkiyyətin reyestrə salınması sahəsində görülən tədbirləri aid etmək olar. Konvensiya mədəni mülkiyyətin mühafizəsinin iki-ümumi və xüsusi səviyyəsini fərqləndirir. Ümumi mühafizə həm dinc dövrə, həm də müharibə dövrünə aiddir. Ümumi mühafizə dinc dövrdə mədəni mülkiyyətin mühafizəsini və silahlı mü-

naqişə dövründə onlara hörmət edilməsini nəzərdə tutur. Xüsusi mühafizə isə yalnız silahlı münaqişə dövründəki mühafizəyə aiddir.[8]

Konvensiyanın 4-cü maddəsinə görə "hörmət" bir tərəfdən dövlətin öz ərazisində və Konvensiya iştirakçısı olan digər dövlətlərin ərazisindəki "mədəni mülkiyyətə bu dəyərlərdən, onların mühafizəsi üçün tikililərdən və bilavasitə onlara bitişik sahələrdən silahlı münaqişə baş verdikdə bu dəyərlərin dağılmasına və ya zərər çəkməsinə səbəb ola biləcək məqsədlərlə istifadə olunmasını qadağan etməsi", digər tərəfdən "bu mülkiyyətə qarşı yönəldilmiş hər hansı düşmənçilik hərəkətlərindən çəkinməsi"dir. Bu məqsədlə Konvensiya iştirakçısı olan dövlətlər mədəni mülkiyyəti hər hansı formada, hər hansı oğurlamaq, qarət etmək, yaxud qanunsuz surətdə mənimsəmək hərəkətlərini, həmçinin göstərilən mülkiyyət barəsində hər hansı vandalizm hərəkətlərini qadağan etməyi, onların qarşısını almağı və lazım gələrsə kökünü kəsməyi öhdələrinə götürürlər. Konvensiyaya əsasən iştirakçı dövlətlərin ərazisindəki daşınar mədəni mülkiyyətin müsadirə olunması da qadağan edilir.

Konvensiyanın 19-cu maddəsinə əsasən iştirakçı dövlətlərdən birinin ərazisində beynəlxalq xarakter daşımayan münaqişə baş verdikdə münaqişədə iştirak edən Tərəflərdən hər biri, heç olmasa, Konvensiyanın mədəni mülkiyyətə hörmət edilməsinə dair müddəalarını tətbiq etməlidirlər.

Digər Konvensiya iştirakçısının ərazisini tam və ya qismən işğal etmiş iştirakçı dövlət imkan daxilində işğal olunmuş ərazinin milli hakimiyyət orqanlarının onun mədəni mülkiyyətin mühafizəsi və saxlanmasını tə'min etmək üçün göstərdiyi sə'yləri dəstəkləməlidir. İşğal edilmiş ərazidəki və hərbi əməliyyatların gedişində zərər çəkmiş mədəni mülkiyyətin qorunub saxlanılması üçün tə'cili müdaxilə lazım gəldikdə və səlahiyyətli milli hakimiyyət orqanları bunu tə'min edə bilmədikdə, işğal edən dövlət, imkan daxilində göstərilən hakimiyyət orqanları ilə sıx əməkdaşlıqda bu mülkiyyətin mühafizəsi üzrə ən zəruri tədbirləri görməlidir.

---

8 Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права. // Московский журнал международного права. Специальный выпуск. 1999. с. 148

Konvensiyanın 8-ci maddəsi xüsusi mühafizəyə götürülməni tənzimləyir. Xüsusi mühafizə silahlı münaqişə baş verdikdə daşınar mədəni mülkiyyətin qorunması üçün nəzərdə tutulan məhdud sayda sığınacaqlar, mədəni mülkiyyətin cəmlənmə mərkəzləri və çox böyük əhəmiyyətə malik digər daşınmaz mədəni mülkiyyət götürülə bilər. Həmin mülkiyyətin xüsusi mühafizəyə götürülməsi üçün iki şərtin mövcudluğu tələb olunur:

1) onlar iri sənaye mərkəzlərindən və ya daha çox təhlükəyə məruz qala bilən məntəqə olan hər hansı xüsusilə mühüm hərbi obyektlərdən, məsələn, aerodrom, radiostansiya, milli müdafiə üçün işləyən müəssisə, port, əhəmiyyətli dəmir yol stansiyası, yaxud mühüm kommunikasiya xəttindən kifayət qədər aralı olmalıdır;

2) onlardan hərbi məqsədlərlə istifadə olunmamalıdır.

Daşınar mədəni mülkiyyət üçün sığınacaq bombardmanın, çox ehtimal ki, ona ziyan vura bilməyəcəyi şəkildə tikildikdə də harada yerləşməsindən asılı olmayaraq, xüsusi müdafiəyə götürülə bilər. Mədəni mülkiyyətin cəmlənmə mərkəzi qoşunların şəxsi heyətinin, yaxud material hissələrinin yerdəyişməsi üçün istifadə edildikdə hərbi məqsədlərlə istifadə olunmuş sayılır. Bu mərkəz orada bilavasitə hərbi əməliyyatlara, qoşunların şəxsi heyətinin yerdəyişməsinə, yaxud hərbi materialların istehsalına aid fəaliyyət həyata keçirildikdə də hərbi məqsədlərlə istifadə edilmiş sayılır. Göstərilən mədəni mülkiyyət məxsusən mühafizə məqsədilə tə'yin olunmuş silahlı keşikçilərlə qorunduqda və ya onların yaxınlığında, adətən ictimai asayişi tə'min etmək həvalə olunan polis qüvvələri olduqda hərbi məqsədlərlə istifadə edilmiş sayılmır. Mədəni mülkiyyət "Xüsusi mühafizə olunan mədəni mülkiyyətin Beynəlxalq Reyestri"nə daxil edilməklə xüsusi mühafizəyə götürülür. Xüsusi mühafizə olunan mədəni sərvətlər Beynəlxalq Reyestrə daxil edildiyi andan hərbi məqsədlərlə istifadə olunmursa onlara qarşı yönəldilmiş hər hansı düşmənçilik hərəkətindən toxunulmazlıq hüququna malikdirlər. Mədəni mülkiyyəti ya ərazi daxilində, yaxud başqa əraziyə daşımaq üçün istifadə edilən nəqliyyat xüsusi mühafizəyə götürülə bilər.

Mədəni mülkiyyətin mühafizəsi üçün nəzərdə tutulan hey'ət təhlükəsizlik tədbirlərinin imkan verdiyi qədər bu mülkiyyəti qoruyub saxlamağın nəf'inə hörmət göstərilməsi və əgər bu hey'ət, həmçinin, qorunmasının ona həvalə olunduğu mədəni mülkiyyət rəqibin əlinə keçərsə, onun öz funksiyalarını həyata keçirməsini davam etdirməsinə imkan verilməlidir.

Konvensiyanın fərqlənmə nişanı aşağıdan itilənmiş, göy və ağ rəngli dörd hissəyə bölünmüş qalxandır (qalxan özü bucaqlarından biri onun itilənmiş hissəsinə salınmış göy rəngli kvadrat və kvadratın üstündəki göy rəngli üçbucaqdan ibarətdir; kvadrat və üçbucaq ağ rəngli üçbucaqlarla hüdudlanırlar). Konvensiyanın 28-ci maddəsinə əsasən iştirakçı dövlətlər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından asılı olmayaraq, bu Konvensiyanı pozmuş və ya pozmağı əmr etmiş şəxslərin üzə çıxarılması, barələrində cinayət sanksiyaları, yaxud inzibati sanksiyalar tətbiq edilməsi üçün bütün lazımi tədbirləri görməyi öhdələrinə götürürlər. Bu öhdəliyə müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116. 0. 8. maddəsində "hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə" silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması kimi nəzərdə tutulmaqla cinayət məs'uliyyətinə səbəb olur. 14 may 1954-cü ildə Konvensiya ilə yanaşı onun icra reqlamenti və protokol da qəbul edilmişdir. İcra reqlamentinin 1-ci maddəsinə əsasən YUNESKO-nun Baş direktoru Konvensiya qüvvəyə minən vaxtdan iştirakçı dövlətlərin irəli sürdüyü və mədəni sərvətlər üzrə Baş komissar funksiyalarını yerinə yetirməyi bacaran bütün şəxslərin daxil olduğu beynəlxalq siyahı tərtib edir. Siyahıya YUNESKO-nun Baş direktorunun təşəbbüsü ilə iştirakçı dövlətlərin təqdimatları əsasında vaxtaşırı baxılır. Mədəni mülkiyyət üzrə Baş komissar şəxslərin beynəlxalq siyahısından, həm onun öz funksiyasını yerinə yetirdiyi Tərəfin, həm də onunla münaqişədə olan tərəflərin Hami-Dövlətlərinin razılığı ilə seçilir. Hami-Dövlətlərin nümayəndələri Konvensiyanın pozulmasını qeydə alır, öz funksiyalarını yanında yerinə yetirdikləri Tərəfin razılığı ilə bu pozuntuların baş verdiyi şəraiti araşdırır, bu pozuntulara son qoymaq üçün yerindəcə demarşlar edir və lazım gəldikdə onlar barəsində Baş komissara mə'lumat verir. Baş Komissar zəruri hallarda Konvensiyanın tətbiqi ilə əlaqədar mə'ruzələr tərtib edərək onları Tərəflərə və YUNESKO-nun Baş direktoruna göndərir.

Xüsusi mühafizə olunan mədəni mülkiyyətin Beynəlxalq Reyestri tərtib olunur. Bu Reyestri YUNESKO-nun Baş direktoru aparır. Reyestr hər bir iştirakçı dövlətin biri üçün ayrılan bölmələrə bölünür. Hər

bölmə üç hissəyə ayrılır: sığınacaqlar, mədəni mülkiyyətin cəmlənmə mərkəzləri, digər daşınmaz mədəni mülkiyyət. İcra reqlamentində xüsusi mühafizə edilən mədəni mülkiyyətin Beynəlxalq Reyestrə daxil edilməsi prosedurası öz əksini tapmışdır.

Beynəlxalq Reyestrə daxil edilmə prosedurasını yalnız bir neçə mədəni mülkiyyət keçmişdir;

— Vatikanın bütün ərazisi (11 mart 1960-cı il);

— Yuxarı Avstriyadakı Alt Auszye sığınacağı (7 yanvar 1968-ci il) ;

— Niderlandda 6 mədəni mülkiyyət sığınacağı (2 iyul 1969-cu il);

— AFR-da OberriderŞtollen mərkəzi sığınacağı(alman dövlətinin mühüm arxivlərinin mikrofilmləri saxlanılan şaxta qalereyası) (26 iyul 1978-ci il).[9]

Konvensiyaya Əlavə Protokolda iştirakçı dövlətlərin Konvensiyanın 1-ci maddəsində müəyyən edilmiş mədəni mülkiyyətin münaqişə vaxtı işğal olunmuş ərazilərdən çıxarılmasının qarşısının almaq, hər hansı işğal edilmiş ərazidən öz ərazisinə birbaşa, yaxud dolayısı ilə gətirilmiş mədəni mülkiyyəti mühafizə etmək öhdəliyi öz əksini tapmışdır.

YUNESKO-nun himayəsi altında qəbul edilmiş bir sıra beynəlxalq hüquqi sənədlərdə də silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsinə aid müddəalarla rastlaşmaq mümkündür. Məsələn, "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında"[10] 14 noyabr 1970-ci il Konvensiyasının 2-ci maddəsinə əsasən iştirakçı dövlətlər mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və onlara mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin bu mülkiyyətin əslən mənsub olduğu ölkələrin mədəni irsinin yoxsullaşmasının başlıca səbəblərindən biri olduğunu və beynəlxalq əməkdaşlığın onlara məxsus mədəni mülkiyyətin bununla bağlı bütün təhlükələrdən mühafizə olunmasını tə'min etməyin ən tə'sirli vasitələrdən biri olduğunu qeyd edərək, bu qəbil praktikanın səbəblərini kökünü kəsməklə həyata keçirilməsinə son qoymağı və lazımi əvəz ödənilməsinə yardım göstərməklə ona mane

---

9 Эрик Давид. Принципы права вооруженных конфликтов.М.МККК 2000.с.221

10 Azərbaycan Respublikası 30 sentyabr 1997-ci ildə (№371-IQ) konvensiyaya qoşulmuşdur

olmağı öhdələrinə götürmüşlər.[11]

16 noyabr 1972-ci ildə qəbul edilmiş "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında"[12] Konvensiyanın 6-cı maddəsinin 3-cü bəndində iştirakçı dövlətlər digər iştirakçı dövlətlərin ərazisindəki mədəni və təbii irsə birbaşa, yaxud dolayısı ilə xələl gətirə bilən hansısa qərəzli hərəkət etməməyi öhdələrinə götürmüşlər. Konvensiyanın 11-ci maddəsinin 4-cü bəndində digər təhlükələrlə yanaşı silahlı münaqişələr zamanı da ümumdünya irsinin qorunması üçün tədbir görülməsini nəzərdə tutur.[13] Mədəni mülkiyyətin silahlı münaqişələr zamanı mühafizəsi ilə əlaqədar mühüm əhəmiyyət kəsb edən normalardan biri də Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 53-cü maddəsidir. Orada göstərilir ki, "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və başqa müvafiq beynəlxalq sənədlərin müddəalarına xələl gətirmədən aşağıdakılar qadağandır:

a) xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkətləri;

b) belə obyektlərdən hərbi sə'yləri dəstəkləmək məqsədilə istifadə olunması;

v) belə obyektlərin repressali obyektinə çevrilməsi. Mədəni mülkiyyət və ibadətgahların mühafizəsi 1954-cü il Konvensiyasına nisbətən I Əlavə Protokolda daha mütləqdir. Konvensiyada işlədilən "hərbi zərurət bunu tə'kidlə tələb etdikdə" ifadəsi mədəni mülkiyyət və ibadətgahlara hücumun qadağan olunmasının pozulması üçün əsas kimi çıxış edə bilər. I Əlavə Protokolun müvafiq maddəsində bu qadağandan heç bir istisna nəzərdə tutulmur. Lakin qeyd etmək lazımdır ki, I Əlavə Protokolun 53-cü maddəsində "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyası müddəalarına xələl gətirmədən" ifadəsinin işlədilməsi ona dəlalət edir ki, hər iki beynəlxalq sənədin iştirakçısı olan tərəflər normadan kənarlaşmaya yol verə, yə'ni hərbi zərurət tə'kidlə tələb etdiyi halda mədəni mülkiyyətə hücum edə bilərlər. Lakin Haaqa Konvensi-

---

11 YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı. 1998. s. 285

12 Azərbaycan Respublikası 6 dekabr 1993-cü ildə(№ 764) konvensiyaya qoşulmuşdur

13 YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı. 1998. s. 294-295.

yasının iştirakçısı olmayan, lakin I Əlavə Protokola qoşulmuş dövlət hərbi zərurətə istinad edə bilməz.

Nəzərə almaq lazımdır ki, I Əlavə Protokolun 53-cü maddəsinin B bəndində nəzərdə tutulan xalqların mədəni və dini irsini təşkil edən tarixi abidələr, incəsənət əsərləri və ya ibadətgahlardan hərbi sə'yləri dəstəkləmək məqsədilə istifadə olunarsa I Əlavə Protokolun 52-ci maddəsinin 2-ci bəndinə əsasən onların tamamilə və ya qismən dağıdılması və ya neytrallaşdırılması "həmin məqamda mövcud olan şəraitdə aşkar hərbi üstünlük qazandırırsa" onlara hücum qanuni hesab edilə bilməz. Bu hal I Əlavə Protokolun 53-cü maddəsi ilə Haqqa Konvensiyası arasında fərqi sadələşdirir.[14]

26 mart 1999-cu ildə "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Konvensiyasına II Protokol qəbul edilmişdir. Bu prtokol konvensiyanın normalarını iki istiqamətə-silahlı münaqişə zamanı mədəni mülkiyyətin mühafizəsinin gücləndirilməsi və dövlətlərin bu sahədə beynəlxalq öhdəliklərini daha səmərəli yerinə yetirməsini tə'min etməyə yönəldilmişdir.[15]

II Protokol 1954-cü il Konvensiyasında nəzərdə tutalan mədəni mülkiyyətin mühafizəsinin iki səviyyəsini dəyişdirməmiş, lakin onları müasir beynəlxalq hüquq normaları və Cenevrə Konvensiyalarına Əlavə Protokolların müvafiq müddəalarına əsasən daha da tamamlamış, modifikasiya etmişdir. 1954-cü il Konvensiyası mədəni mülkiyyətin mühafizəsindən hərbi zərurətlə əlaqədar geri çəkilməni nəzərdə tutduğu halda II Protokol artıq bu cür geri çəkilmənin konkret şərtlərini müəyyənləşdirmişdir. Bu şərtlər həmin mədəni mülkiyyətin öz tə'yinatına görə hərbi obyektə çevrilməsi və həmin mülkiyyətə qarşı düşmənçilik aktı törətmək nəticəsində əldə edilə biləcək hərbi üstünlük qazanmağın başqa alternativinin mövcud olmamasıdır. Bu müddəa 1977-ci il I Əlavə Protokolda öz əksini tapmış beynəlxalq humanitar hüququn iki əsas prinsipinə-hücum zamanı mülki və hərbi obyektlərin fərqləndirilməsinin zəruriliyi və vurulmuş ziyanla əldə edilən hərbi üstünlüyün mütənasibliyi prinsiplərinə əsaslanır. II Əlavə Protokoldakı mühüm dəyişikliklərdən biri də "xüsusi mühafizə"nin "gücləndirilmiş

---

14 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК . 2000. с. 219-220

15 Вах. Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права. // Московский журнал международного права. Специальный выпуск.1999.с.147-150

mühafizə" ilə əvəz olunmasıdır. II Protokola əsasən aşağıdakı 3 tələbə cavab verən mədəni mülkiyyət gücləndirilmiş mühafizəyə götürülür:

1) bəşəriyyət üçün böyük əhəmiyyəti malik olanlar;

2) milli səviyyədə qəbul edilmiş hüquqi və inzibati tədbirlərlə mühafizə olunanlar;

3) hərbi məqsədlə və hərbi obyektləri gizlətmək məqsədilə istifadə olunmayanlar.

Gücləndirilmiş mühafizə ancaq gücləndirilmiş mühafizə altında olan mədəni mülkiyyətin reyestrinə salınmış mədəni mülkiyyətə şamil edilir. Gücləndirilmiş mühafizənin təqdim olunması, dayandırılması və ləğvi haqqında qərar yuxarıda göstərilən 3 kriteriya əsasında II Protokola müvafiq olaraq yaradılmış silahlı münaqişə hallarında mədəni mülkiyyətin mühafizəsi üzrə Komitə tərəfindən həyata keçirilir. II Protokolun mühüm müddəalarından biri də mədəni mülkiyyətə qarşı cinayətlərin törədilməsinin qarşısının alınmasına mühüm diqqət yetirməsindədir. Bu müasir beynəlxalq hüququn hərbi cinayətlər törətməkdə təqsirli olan şəxsləri cinayət məs'uliyyətinə cəlb edilməsi sisteminin inkişafına yönəldilmiş ən'ənəsi ilə bağlıdır.

II Protokol "ciddi pozuntu kimi" qiymətləndirilən əməllərin siyahısını nəzərdə tutur. Dövlət həmin əməllərin qarşısını cinayət hüquq normalarına müvafiq qaydada almalıdır. Bu ciddi pozuntulara aşağıdakılar aid edilmişdir:

1) güclü mühafizə altında olan mədəni mülkiyyəti hücum obyektinə çevirmək;

2) güclü mühafizə altında olan mədəni mülkiyyəti və bilavasitə onlara qovuşan yerləri hərbi əməliyyatlara kömək üçün istifadə etmək;

3) 1954-cü il Haaqa Konvensiyası və II Protokolun mühafizəsi altında olan mədəni mülkiyyətin iri miqyasda məhvi və mənimsənilməsi;

4) 1954-cü il Konvensiyası və II Protokolun mühafizəsi altında olan mədəni mülkiyyəti hücum obyektinə çevirmək;

5) 1954-cü il Konvensiyasının mühafizəsi altında olan mədəni mülkiyyətə qarşı oğurluq, soyğunçuluq və ya qeyri-qanuni mənimsəmə, vandalizm aktları törətmək.

Dövlətlər həmin əməllərə görə cinayət cəzası nəzərdə tutan normaları öz qanunvericiliklərinə daxil etməlidirlər. Onu da qeyd etmək lazımdır ki, mədəni mülkiyyətə qarşı ciddi pozuntuları şəxsin beynəlxalq və ya daxili münaqişə zamanı törətməsindən asılı olmayaraq o, cinayət qaydasında tə'qib olunacaqdır.

Protokol 17 maydan 31 dekabr 1999-cu ilə kimi imzalanmaq üçün açıq olmuşdur. 1 yanvar 2000-ci ildən Protokola qoşulmaq olar. 20 dövlət Protokola qoşulduqdan və ratifikasiya sənədlərini təqdim etdikdən 3 ay sonra o qüvvəyə minəcəkdir.

Fəsil X

SİLAHLI MÜNAQİŞƏ ZAMANI ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

Ətraf mühitin mühafizəsi məsələləri ilk öncə dövlətdaxili hüquqda öz əksini tapmışdır. Artıq bir çox dövlətlər konstitusiyalarına ətraf mühitin mühafizəsi ilə əlaqədar normalar daxil etmişlər.[1] Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsinə əsasən ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Konstitusiyanın 39-cu maddəsi isə hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu təsbit etmişdir.

Ətraf mühit problemlərinin genişmiqyaslılığı və transmilli xarakteri bu sahədə beynəlxalq əməkdaşlığı tələb edir. Bu artıq heç bir şübhə doğurmur və təsadüfi deyildir ki, ətraf mühitin mühafizəsi problemi qlobal problem kimi Beynəlxalq Birliyi narahat edir.

Ətraf mühitin mühafizəsi hazırda beynəlxalq hüququn müstəqil sahəsinə çevrilmişdir. Bu hər şeydən əvvəl bəşəriyyət üçün sağlam ətraf mühitin vacibliyinin dərk edilməsindən irəli gəlir. Ətraf mühitin beynəlxalq hüququn mühafizəsi ilə bağlı BMT Baş Məclisi tərəfindən qəbul edilmiş qətnamələr və BMT-nin himayəsi altında bağlanmış müqavilələr bu sahədə beynəlxalq hüquq normalarının mütərəqqi inkişafında böyük əhəmiyyət kəsb edir.

Ətraf mühitin mühafizəsi problemi beynəlxalq humanitar hüquqla sıx bağlıdır. Ətraf mühit konsepsiyası və onun bu günkü anlamı 70-ci illərdə yaranmasına baxmayaraq beynəlxalq humanitar hüququn bə'zi ümumi norma və prinsipləri müharibə zamanı ətraf mühitin mühafizəsinə öz töhfəsini verir. Bu cəhətdən daha mühüm prinsip kimi münaqişədə tərəflərin müharibə aparılması metod və vasitələrini seçməkdə qeyri-məhdud hüquqa malik olmaması prinsipini qeyd etmək olar. Bu prinsip ilk dəfə 1868-ci il Sankt-Peterburq Bəyannaməsində və sonradan bir çox müqavilələrdə, axırıncı dəfə isə Cenevrə Konvensiyalarına I Əlavə Protokolda öz əksini tapmışdır.

---

1 Schwartz Michelle. Preliminary Report on Legal and Institutional Aspects of the Relationship between Human Rights and Environment. Geneva, August 1991,p.11.

Beynəlxalq humanitar hüququn digər prinsipləri də ətraf mühitin mühafizəsinə münasibətdə mühüm əhəmiyyət kəsb edir.[2]

Beynəlxalq humanitar hüququn mühafizəsi sahəsində tanınmış mütəxəssislərdən olan Antuan Buvye ətraf mühitin mühafizəsinin tə'mini sahəsində beynəlxalq müqavilələri iki qrupa bölür. Bunlardan bir qrupuna o, ətraf mühitin mühafizəsini yanakı tə'min edən müqavilələri, digərinə isə birbaşa ətraf mühitin mühafizəsinə aid olanları şamil edir.[3] Fikrimizcə, A. Buvyenin mövqeyi ilə razılaşmaq lazımdır. Bu hər şeydən əvvəl ondan irəli gəlir ki, dövlətlərarası müqavilələrlə nizama salınan münasibətlər biri-biri ilə əlaqədardır. Həmin münasibətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı istər-istəməz onların tənzimlənməsi məsələlərində də qarşılıqlı tə'sir və asılılıq yaradır. Ətraf mühitin mühafizəsinin tə'mini ilə yanakı əlaqədar olan beynəlxalq hüquqi sənədlərə 1868-ci il Sankt-Peterburq Bəyannaməsini, 1907-ci il "Quru müharibələrinin adət və qanunları haqqında" IV Haaqa Konvensiyasını, 17 iyun 1925-ci il "Boğucu, zəhərli və digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında" Protokolu, 1949-cu il "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasını, 10 aprel 1972-ci il "Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal olunması və ehtiyata toplanmasının qadağan olunması və onların məhv olunması haqqında" Konvensiyanı, 10 oktyabr 1980-cı il tarixli "Həddsiz zərərli sahıya bilən və seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanı aid etmək olar. Ətraf mühitin bilavasitə mühafizəsinin tə'mini ilə bağlı olan Konvensiyalara A. Buvye 10 dekabr 1976-cı ildə BMT-nin himayəsi altında qəbul edilən "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında" Konvensiyanı və Cenevrə Konvensiyalarına I Əlavə Protokolu şamil edir.[4]

---

2 Bothe Michael. War and environment.-Encyclopaedia of Public International Law, Instalment 4, p.291

3 Антуан Бувье. Защита природной среды во время вооруженного конфликта // Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 10-11

4 Антуан Бувье Защита природной среды во время вооруженного конфликта // Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 11-12

Müharibə zamanı təbii mühitə hökmən ziyan dəyir. Bəşəriyyətin bütün tarixi boyu müharibələr həmişə təbiətdə öz dağıdıcı izini qoymuş və bu izlər uzun müddət bərpa olunmamışdır. Hazırda bir zamanlar döyüş meydanı olan ərazilərdən bə'ziləri onlarda yerləşdirilmiş minalar, partlamamış döyüş sursatlarına görə istifadə üçün yararsız hala düşmüşdür.

Müasir beynəlxalq hüquq ətraf mühiti müharibə aparılması vasitəsi kimi istifadə etməyi qadağan edir. İlk dəfə olaraq I Əlavə Protokolun 35-ci maddəsinin 3-cü bəndi və 55-ci maddəsində ətraf mühitin silahlı münaqişələr zamanı mühafizəsi öz əksini tapmışdır.

Təbii mühitə geniş miqyaslı, uzunmüddətli və ciddi ziyan vurmaq məqsədi güdən və ya labüd surətdə buna səbəb olan müharibə aparılması üsullarının və vasitələrinin tətbiqi qadağandır (I Ə. P. mad. 35, bənd 3). Hərbi əməliyyatlar zamanı təbii mühitin geniş, uzunmüddətli və ciddi ziyandan mühafizəsinə qayğı göstərilir. Belə mühafizəyə təbii mühitə ziyan vurmaq məqsədi güdən və ya bu cür ziyan vuracağı və nəticədə əhalinin sağlamlığına və ya sağ qalmasına zərər yetirəcəyi gözlənilən hərbi üsul və vasitələrdən istifadənin qadağan edilməsi daxildir.

Təbii mühitə ziyan vurmağın repressali vasitəsinə çevrilməsi qadağandır (I Ə. P. mad. 55).

10 dekabr 1976-cı ildə BMT-nin himayəsi altında "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında" Konvensiya qəbul edilmiş və 18 may 1977-ci ildən Cenevrədə imzalanmaq üçün açılmışdır.[5] Həmin beynəlxalq hüquqi sənədin 1-ci maddəsi iştirakçı dövlətlərdən ətraf mühitə geniş, uzunmüddətli və ya ciddi tə'sir göstərən vasitələrindən hər hansı iştirakçı dövlətə ziyan və ya zərər yetirilməsi üçün hərbi və ya hər hansı düşməncəsinə istifadədən çəkinməyi tələb edir.

Hər bir iştirakçı dövlət həmin maddədə nəzərdə tutulan müddəaları pozan hər hansı dövlətə və ya beynəlxalq təşkilata yardım göstərməməli və onları buna sövq etməməlidir.

---

5 Сборник важнейших документов по международному праву. Часть I. Общая. М., 1996. с. 52-56

"Ətraf mühiti dəyişikliyə uğradan vasitələrə" Yerin dinamikası, tərkib və ya strukturuna, litosferə, hidrosferə və atmosferə və ya kosmik fəzaya təbii prosesləri qabaqcadan idarə etmək yolu ilə dəyişiklik üçün nəzərdə tutulan hər hansı vasitə aid edilir (mad. 2).

Konvensiya dinc məqsədlə ətraf mühitə tə'sir vasitələrindən istifadə etməyə mane olmur(mad. 3). Hər bir iştirakçı dövlət həmin konvensiya müddəalarına zidd olan hər hansı fəaliyyətin qadağan edilməsi və aradan qaldırılması üçün özünün konstitusiya proseduralarına müvafiq olan zəruri hesab etdiyi hər hansı tədbiri görməyi öhdəsinə götürmüşdür (mad. 4).

E.David haqlı olaraq qeyd edir ki, Konvensiya əslində "silahı" deyil, təbii proseslərlə manipulyasiya etmə "üsulları"nı qadağan edir.[6]

Bu iki sənədi biri-biri ilə müqayisə edən müəlliflər belə bir fikrə gəlirlər ki, Konvensiya Protokola nisbətən daha geniş tətbiq dairəsinə malikdir. Bundan əlavə I Protokol ancaq beynəlxalq silahlı münaqişələrə tətbiq olunduğu halda, Konvensiya həm silahlı münaqişələr, həm də dinc dövrdə tətbiq olunmalıdır.[7]

Konvensiyanın şərhi haqqında sazişə müvafiq olaraq "geniş" termini bir neçə yüz kvadrat kilometr ərazini əhatə etməyi, "uzun sürən" termini bir neçə ay (üç aya kimi), "ciddi" termini isə insan həyatının normal axınını pozan təbii, iqtisadi ehtiyatlara və ya başqa əmlaka mühüm ziyan vurulmasını nəzərdə tutur.[8]

Protokolda istifadə olunan terminlərə izah vermək daha çətindir, çünki onun müddəaları bütövlükdə təbii mühitin mühafizəsinə yönəlmiş və konkret xarakter daşımır. Lakin hamı tərəfindən qəbul edilmişdir ki, burada işlədilən "geniş" termini bir neçə yüz kvadrat kilometrdən az olmayan ərazini, "uzun sürən" termini 10 il və daha çox müddəti, "ciddi" termini isə "mülki əhalinin yaşamasını uzun müddət ərzində təhlükədə qoyan və ya sağlamlığında ciddi problemlər yaradan ziyan" kimi anlaşılır.[9]

---

6 Эрик Давид. Принципы право вооруженных конфликтов. М., МККК. 2000.с.270

7 Филипп Антуан. Международное гуманитарное право и охрана окружающей среды во врем вооруженных конфликтов // Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 26

8 Arrassen M. Conduite des hostilites-droit des conflits armes et desarmement(1983 thesis).Bruylant, Brussels, 1986, p.297

9 Arrassen M. Conduite des hostilites-droit des conflits armes et desarmement(1983 thesis). Bruylant, Brussels, 1986, p.294-295

Azərbaycan Respublikası CM-nin 116.0.2 maddəsi ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurmağa görə cinayət məs'uliyyəti müəyyənləşdirmişdir. E.Əfəndiyev qeyd edir ki, müharibə zəmanində ətraf mühitə geniş, uzun sürən və ciddi ziyan, əsasən kütləvi qırğın silahlarının tətbiqi, dəniz sənayesində qəza və ya dənizlə neft, neft məhsulları, habelə digər zəhərli, kimyəvi maddələri daşıyan su nəqliyyat vasitələrinin qəzaya uğradılması, meşələrin yandırılması, kütləvi bomba-raket zərbələri, flora və faunanın məhv edilməsi və s. üsullarla vurulur.[10]

Mütəxəssislər tərəfindən silahlı münaqişələr zamanı birbaşa ətraf mühitin mühafizəsinə aid müddəaları nəzərdə tutan müqavilələr kimi fərqləndirilən bu iki beynəlxalq müqavilə ətraf mühitə müxtəlif növ ziyan vurulmasını qadağan edir. I Əlavə Protokol ekoloji müharibəni, yə'ni həyati əhəmiyyətli təbii tarazlığı poza bilən müharibə aparılması vasitələrindən istifadəni qadağan edir. 1976-cı il Konvensiyası isə geofiziki müharibəni-tufan, zəlzələ, qar və yağış kimi yağıntıların düşməsinə səbəbə olan təbii proseslərin qabaqcadan idarə olunmasını qadağan edir. Bununla belə bu iki beynəlxalq hüquqi sənəd biri-birini tamamlayır.

L.H.Hüseynov haqlı olaraq qeyd edir ki, Adi silah növləri haqqında 1980-ci il Konvensiyasına əlavə olunmuş Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokolda (III Protokol) meşələrin və bitki örtüyünün digər növlərinin yandırıcı silahların tətbiqi ilə hücum obyektinə çevrilməsi qadağan olunmuşdur.[11]

Ətraf mühitin silahlı münaqişələr zamanı mühafizəsinin tə'min olunması daim BMT-nin diqqət mərkəzində olmuşdur.

BMT-nin ətraf mühitin mühafizəsi üzrə 5-16 iyun 1972-ci ildə Stokholmda keçirilmiş konfransında qəbul edilmiş "Ətraf mühit haqqında" bəyannamədə ətraf mühitin mühafizəsi ilə bağlı 26 prinsip öz əksini tapmışdır. İndiki və gələcək nəslin rifahı naminə ətraf mühitin mühafizəsi Stokholm bəyannaməsinin ümumi prinsipi kimi çıxış edir. Bu prinsipin mahiyyəti ondadır ki, dövlətlər ətaf mühitin qorunması və mühafizəsi üçün zəruri tədbirlər görməli, həmçinin ətraf mühit üçün zərərli

10 Əfəndiyev E. M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi. Xüsusi hissə. Bakı. "Hüquq ədəbiyyatı", 2001.s.52.

11 Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı. "Hüquq ədəbiyyatı". 2000. s. 309.

nəticələrin qarşısını almalı və təbii ehtiyatların elmi əsaslarla idarə olunmasında əməkdaşlıq etməlidir. Ətraf mühitin radioaktiv çirklənməsinin yolverilməzliyi nüvə enerjisindən həm dinc, həm də hərbi məqsədlərlə istifdə edilərkən əsas tələb kimi qarşıya qoyulur. Dünya okeanının ekoloji sistemli mühafizəsi hər şeydən əvvəl dəniz mühitinin hər cür mənbələrdən çirklənməsinin nəzarət altında saxlanılmasını nəzərdə tutur. 1972-ci il BMT Baş Məclisi XXVII sessiyasında qəbul etdiyi qətnamədə(2997) ətraf mühit sahəsində milli və beynəlxalq səviyyədə fəaliyyətin əlaqələndirilməsi vəzifəsini müvafiq milli qurumların üzərinə qoymağın tə'min edilməsi çağırışı ilə üzv dövlətlərə müraciət etdi.

3-14 iyun 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilmiş konfransında ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro bəyannaməsi qəbul edildi. Bəyənnamədə 27 prinsip öz əksini tapmışdır.

Bəyannamədə müharibənin inkişaf prosesinə dağıdıcı tə'sir etməsini nəzərə alaraq dövlətlərin silahlı münaqişə dövründə ətraf mühitin mühafizəsini tə'min edən beynəlxalq hüquqa hörmətlə yanaşması və zəruri hallarda onun gələcək inkişafında əməkdaşlıq etmələri vacib hesab edilir.

Bəyannamədə sülh, inkişaf və ətraf mühitin mühafizəsinin qarşılıqlı əlaqədə və vəhdətdə olması təsdiqlənir, dövlətlərin ekoloji mübahisələri dinc yolla BMT Nizamnaməsinə müvafiq qaydada həll etməsi tövsiyə edilir.[12]

BMT Baş Məclisi 25 noyabr 1992-ci ildə "Silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi" qətnaməsini (47/37) qəbul etdi. Qətnamədə dövlətlər silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsinə aid beynəlxalq hüquq normalarına riayət etməyə çağırılır, həmin müqavilələrin iştirakçısı olmayan dövlətlərə isə onlara qoşulmaq, dövlətlər tərəfindən beynəlxalq müqavilələrdə əks olunmuş müddəaların hərbi nizamnamələrinə daxil edilməsi tövsiyə olunurdu. Qətnamənin 4-cü bəndində BQXK-nə silahlı münaqişələr dövründə ətraf mühitin mühafizəsi ilə əlaqədar komitənin gördüyü tədbirlər haqqında növbəti sessiya üçün mə'ruzə hazırlanması həvalə olundu.[13]

---

12 Bax. Антуан Бувье. Последние исследования в области охраны окружающей среды во время вооруженного конфликта // Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 39-52

13 Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 71-72

Qətnamədə göstərilir ki, hərbi zərurətlə bəraət qazandırılmayan və əhəmiyyətli dərəcədə həyata keçirilən ətraf mühitin dağıdılması şübhəsiz ki, beynəlxalq hüquqa ziddir.

Baş Məclis 9 dekabr 1993-cü il tarixdə beynəlxalq hüququn on illiyi qətnaməsində(48/30) BQXK-nın himayəsi altında silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsi üzrə ekspert qrupunun işindən razı qaldığını və bu sahədə işin davam etdirilməsi zəruriliyini bəyan etdi. Ətraf mühitin mühafizəsi daim BMT-nin diqqət mərkəzində olmaqla bu sahədə istər universal, istərsə də regional səviyyədə bağlanmış müqavilələrdə onun qəbul etdiyi qətnamələrin ruhu duyulmaqdadır.[14]

Təcrübədə hərbi əməliyyatlar aparılmasının ekoloji metod və vasitələrindən istifadə olunmuşdur. Veytnamda müharibə zamanı ABŞ defoliantı(meşədə ağacların yarpaqlarının tökülməsi üçün istifadə olunan kimyəvi maddə) geniş tətbiq etmişdir. Nəticədə böyük meşə zolaqları sıradan çıxmış və amerikan əsgərləri də daxil olmaqla insanlar zərər çəkmişlər. Bundan sonra ekosid termini yarandı. Ekosid (yunan oicos — ev və lat. caedo — öldürürəm) dedikdə, təbiətə böyük ziyan vuran cinayətkar hərəkət başa düşülür. Dünya ictimai rə'yi ekosidə genosidlə yanaşı beynəlxalq cinayət kimi baxır. O, sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edir, insan və müxtəlif canlı orqanizmlərin mövcudluğunun bioloji əsası kimi ətraf təbii mühitə ziyan vurur, ekoloji təhlükəsizliyi pozur.[15]

1991-ci ildə BMT Beynəlxalq Hüquq Komissiyasının 43-cü sessiyasında qəbul edilmiş "Sülhə və bəşəriyyətin təhlükəsizliyinə qarşı Cinayət Məcəlləsi layihəsi"nin 26-cı maddəsində ətraf təbii mühitə geniş miqyaslı, uzun sürən və ciddi ziyan yetirən və ya bu barədə əmr verən şəxsin hərəkəti beynəlxalq cinayət kimi nəzərdə tutulmuşdur.[16]

Küveyt işğal edildikdən sonra İraq komandanlığı böyük miqdarda neftin İran körfəzinə tökülməsi barədə əmr verdi. Əmrin yerinə yetirilməsi ilə dəniz mühitinə və sahilə böyük ziyan vuruldu. Küveyt neft mə'dənlərinin yandırılması böyük ərazidə atmosferin zəhərlənməsinə,

14 Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 109-111

15 Уголовной кодекс Российской Федерации. Комментарий. Отв. ред. В.И.Радченко. М., 2000. Спарк. с. 829

16 Сборник важнейших документов по международному праву. Часть I Общая. М., 1996. с. 451

ozon təbəqəsinə mənfi tə'sir göstərməsinə səbəb oldu. 3 aprel 1991-ci ildə BMT Təhlükəsizlik Şurası qəbul etdiyi qətnamədə (687) 1991 ətraf mühitə vurulmuş ziyana görə İraqın maddi məs'uliyəti müəyyən etdi.[17] İraq-Küvet münaqişəsi zamanı ətraf mühitə vurulmuş ziyan, onların aradan qaldırılması sahəsində çətinliklər, həmçinin bu təcrübənin nəticələri Britaniya Akademiyası üzvü, Oksford Universitetinin professoru Adam Roberts tərəfindən ətraflı tədqiq edilmişdir. Müəllifin irəli sürdüyü bir sıra təkliflər silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi məsələlərinin nizama salınmasında mühüm əhəmiyyət kəsb edə bilər.[18]

17 The United Nations and the Iraq-Kuwait conflict.1990-1996.United Nations.1996.pp.193-198

18 Адам Робертс. Ущерб, нанесенный природной среде во время войны в Персидском заливе 1991 г.// Защита окружающей среды в международном праве. М., МККК. 1995. с. 53-69

Fəsil XI

BEYNƏLXALQ HUMANİTAR HÜQUQDA NEYTRALLIQ

Neytrallıq latın dilində "neuter" sözündən olub "nə o, nə də başqası" anlamını verir. Neytrallıq müharibə hüququnun qədim institutlarındandır. Müasir beynəlxalq hüquqda neytrallıq yeni xüsusiyyətlər kəsb etsə də, beynəlxalq humanitar hüquq əhalini silahlı münaqişə ilə əlaqədar təhlükələrdən qorumağa xidmət edir. Ona görə də, müharibədə neytrallıq institutu hazırda da böyük əhəmiyyət kəsb edir. Çünki neytral dövlət müharibədə iştirak etmir, müharibə meydanını, onun ölçü və miqyasını məhdudlaşdırır, hərbi əməliyyatların intensivliyini əhəmiyyətli dərəcədə azaldır və beləliklə də, xalqların əzabını yüngülləşdirir.

Neytrallıq institutu qədimdən mövcud olsa da o, "neytrallığın qızıl əsri" olan XIX əsrdə inkişafını tapmışdır.[1] 18 oktyabr 1907-ci ildə II Haaqa sülh konfransında qəbul olunmuş on üç konvensiyadan altısı neytrallığa həsr olunmuşdur. Bu kodifikasiya sonradan 26 fevral 1909-cu ildə qəbul olunmuş hərbi kontrabanda, blokada, neytrallığa zidd xidmətlərlə bağlı məsələləri tənzimləyən London bəyannaməsi və "Dəniz neytrallığı haqqında" 20 fevral 1928-ci il Havana Konvensiyası[2] ilə tamamlanmışdır. Mə'lumdur ki, əvvəl 1919-cu ildə Millətlər Cəmiyyəti, sonra isə 1945-ci ildə BMT tərəfindən kollektiv təhlükəsizliyin universal sisteminin yaradılması ilə neytrallıq hüququ normalarının prinsip e'tibarı ilə tətbiqi dayandırıldı. Həqiqətən də kollektiv təhlükəsizlik sistemi normaları bir dövlətin digərinə təcavüzü halında bütün dövlətlərin təcavüzün qurbanı olan dövlətə kömək göstərməsini nəzərdə tutur (Millətlər Cəmiyyəti Statutu mad. 16; BMT Nizamnaməsi mad. 2, bənd 5, mad. 39-51). Lakin bu normalar həmişə lazımi səviyyədə tətbiq olunmur və məhz bu neytrallıq haqqında normaların tətbiqini zəruri edir. Onu da qeyd etmək lazımdır ki, daimi neytrallığını e'lan etmiş dövlətlərdən yalnız İsveçrə BMT-nin üzvü deyil və kollektiv

---

1 Эрик Давид. Принципы вооруженных конфликтов. МККК. М.2000. с.43-44

2 Вах. Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. МККК. М., 1999. с. 241-250

təhlükəsizlik sistemində iştirakın neytrallıq statusu ilə bir araya sığışmadığını bəyan etmişdir.[3] Qalan daimi neytral dövlətlər (məsələn, Avstriya, Malta, Türkmənistan) isə daimi neytrallığını e'lan etməklə yanaşı həm də BMT-nin üzvüdürlər və həmin təşkilatın həyata keçirdiyi humanitar tədbirlərdə iştirak edirlər.

Qeyd etmək lazımdır ki, 1907-ci il Haaqa Konvensiyalarında və 1994-cü il San-Remo qaydalarında dövlətlərin döyüşən və neytral dövlərlər kimi iki kateqoriyaya ayrılması nəzərdə tutulmuşdur. Q.M.Melkov bununla razılaşmır və göstərir ki, bu cür bölgü hazırkı dövrün tələblərinə cavab vermir. O, dövlətləri döyüşən və döyüşməyən dövlətlərə, döyüşməyən dövlətləri isə öz növbəsində daim neytral, həmin müharibədə neytral və digər döyüşməyən dövlətlərə ayırır. Q.M.Melkovun fikrincə, daim neytral dövlət özünümüdafiə hüququnu saxlamaqla neytrallıq qaydalarına ciddi riayət etməlidir. Lakin təcavüzkarı pisləyə, təcavüz qurbanına isə rəğbətini bildirə bilər. Sülh dövründə bu cür dövlətlər hərbi bloklarda iştirak edə və öz ərazilərini xarici hərbi bazalara verə bilməz. Həmin müharibədə neytral dövlətlər, özünün neytrallığını e'lan etməli, bu mə'lumatı döyüşən tərəflərə çatdırmalı və neytrallığın bütün qaydalarına riayət etməlidir. Daimi neytral dövlətlərdən fərqli olaraq onlar BMT Təhlükəsizlik Şurasının neytrallıqdan imtina edərək təcavüzkara qarşı sanksiyada iştiraka cəlb etmə haqqında qərarını yerinə yetirməyə borcludurlar. Onlar öz arzularına görə neytrallıqdan imtina etmək hüququna malikdirlər. Neytrallıq vəziyyəti ancaq bu barədə lazımi bəyanat verildikdən və onun döyüşən tərəflərə çatdırılmasından sonra başlanır.[4]

Müharibə zamanı neytrallıq dövlətin xüsusi beynəlxalq hüquqi statusudur. Bu statusa müvafiq olaraq dövlət müharibədə iştirak etmir və döyüşən tərəflərə bilavasitə köməklik göstərmir.

Qeyri-beynəlxalq xarakterli münaqişələr dövlətin daxili işi olduğuna görə onlara münasibətdə neytrallıq mövcud olmur. Burada daxili işlərə qarışmamaq prinsipi fəaliyyət göstərir.

Quru müharibələrində neytrallıq. "

Quru müharibələrində neytral dövlət və şəxslərin hüquq və vəzifə-

3 Bax. Dollot R. Essai sur la neutralite permanerte // Academie de droit international. Recueil des cours. 1939-I. T.67. Paris, 1938.P.12.

4 Международное публичное право. Под ред. К.А. Бекяшева. М., 1999.с.580-581

ləri haqqında" 18 oktyabr 1907-ci il V Haaqa Konvensiyasına[5] müvafiq olaraq dövlətin müharibə vaxtı neytrallığı döyüşən tərəflərin onun ərazisini hərbi əməliyyatlar meydanına çevirmək, bü cür dövlətlərə qarşı silahlı qüvvələrdən istifadə etmək hüququnu istisna edir. Neytral dövlətlərin əsas vəzifəsi döyüşən tərəflərin hər hansı birinə fəal köməklik göstərməkdən çəkinmək və onlarla münasibətlərdə eyni standartlara riayət etməkdən ibarətdir. Neytral dövlətin ərazisi toxunulmazdır. Həmin ərazi hərbi əməliyyatlar meydanına çevrilə bilməz. Neytral ərazi-yə hücum etmək, onlardan hərbi məqsədlərlə istifadə etmək olmaz. Döyüşən tərəflərə həmin ərazidən ordu və hərbi yükləri nəql etmək qadağan olunur. Neytral dövlət döyüşən tərəflərlə ticarəti kəsməyə borclu deyil. Ticarətdə məhdudiyyət qoyulduqda o, hər iki tərəfə şamil edilməlidir. Neytral dövlətin ərazisində döyüşən tərəflər üçün hərbi bölmələr və ya orduya cəlb etmə məntəqələri yaratmağa icazə verilmir. Lakin neytral dövlətin ayrı-ayrı vətəndaşlarının dövlət sərhədlərini keçib döyüşən tərəflərin ordularına daxil olması neytral dövlət üçün məs'uliyyət yaratmır. Neytral dövlətlərin düşmənin hərbi əməliyyatlarında iştirak edən vətəndaşı əsir düşdükdə başqa əsirlərlə eyni rejimdən istifadə etməlidir. Neytral dövlətin öz vətəndaşının muzdlu kimi döyüşən ordularda iştirak etməsinin qarşısını almaq vəzifəsi də yoxdur. Lakin muzdlu kambatant hesab edilmir və əsir düşdükdə cinayət məs'uliyyətinə cəlb edilə bilər. Neytral dövlətin döyüşən tərəflərin ordu üçün silah, hərbi sursat, ümumiyyətlə ordu və donanma üçün faydalı ola bilən hər hansı şey aparmasına mane olmaq vəzifəsi yoxdur. Zəruri müdafiə zamanı neytral dövlətin hərbi əməliyyatları düşmənçilik aktı kimi qiymətləndirilməməlidir. Sığınacaq axtarışında neytral dövlətin sərhədini keçmiş qoşun imkan dərəcəsində hərbi döyüşlər meydanından uzaqlaşdırılmalıdır. Onlar tərksilah edilərək ayrıca düşərgədə və qalalarda saxlanıla bilər. Neytral dövlətlər öz mülahizələrinə görə, neytral ərazini icazəsiz tərk etməmək şərti ilə zabitləri azadlıqda saxlaya bilər. Digər saziş olmadıqda neytral dövlət nəzarət altında saxlanılan şəxsləri yemək və paltarla tə'min edə, onlara digər insanpərvərlik yardımı göstərə bilər. Sülh sazişi bağlanarkən bu xərclər ödənilir. Qaçmış hərbi əsirləri qəbul edən neytral dövlət onları azadlıqda saxlayır.

---

5 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. МККК. М., 1999.с.225-231

Əgər neytral dövlət əsirlikdən qaçanlara öz ərazisində qalmağa icazə verirsə, onlar üçün yer ayırmalıdır. Neytral dövlət öz ərazisindən döyüşən dövlətlərə məxsus yaralı və xəstələrin daşınmasına icazə verə bilər. Lakin bu zaman qoşun və sursatın daşınmasına yol verilməməsi üçün zəruri ehtiyat və nəzarət tədbiri görməlidir. Döyüşən tərəflərdən biri düşmən tərəfə mənsub olan yaralı və xəstələri neytral dövlətin ərazisinə gətirmişsə, neytral dövlət onları elə saxlamalıdır ki, onlar yenidən hərbi əməliyyatlarda iştirak edə bilməsinlər. Döyüşən tərəflər öz yaralı və xəstələrini neytral dövlətin himayəsinə verdikdə də neytral dövlətlər eyni vəzifələri yerinə yetirir. Neytral dövlətin ərazisinə gətirilmiş yaralı və xəstələrə Cenevrə Konvensiyaları tətbiq olunur. Cenevrə Konvensiyalarının bir sıra maddələrində neytral dövlətlərin fəaliyyəti ilə əlaqədar müddəalar öz əksini tapmışdır. Məsələn, III Cenevrə Konvensiyasının 109-cu maddəsinin 2-ci bəndinə əsasən hərbi əməliyyatlar zamanı münaqişədə iştirak edən Tərəflər tibbi rə'yə görə bir il müddətində sağalması mümkün olmayan, vəziyyəti qulluq tələb edən, fiziki və ya zehni qabiliyyətinin çox pozulması güman edilən yaralı və xəstə əsirləri neytral dövlətlərin köməyi ilə neytral ölkələrdə yerləşdirməyə çalışmalıdırlar. Bununla yanaşı, onlar uzun müddət əsirlikdə olmuş sağlam hərbi əsirlərin bilavasitə vətənə qaytarılması və ya neytral ölkədə nəzarət altında saxlanması barədə sazişlər bağlaya bilərlər. IV Cenevrə Konvensiyasının 24-cü maddəsinin 2-ci bəndinə əsasən münaqişədə iştirak edən tərəflər müharibə nəticəsində yetim qalmış və ya öz ailələrindən ayrı düşmüş 15 yaşınadək uşaqların neytral ölkədə qəbul edilməsinə kömək göstərməlidirlər. Konvensiyanın 132-ci maddəsinin 2-ci hissəsinə əsasən isə münaqişədə iştirak edən tərəflər nəzarət altında saxlanılanların müəyyən kateqoriyalarının, xüsusən uşaqların, hamilə qadınların, südəmər və azyaşlı uşaqları olan anaların, yaralıların və xəstələrin, uzun müddət nəzarət altında saxlanılanların azad edilməsi, vətənə, öz yaşayış yerlərinə qaytarılması və ya neytral ölkədə yerləşdirilməsi barədə döyüş əməliyyatları dövründə sazişlər bağlamağa səy göstərməlidirlər. III Cenevrə Konvensiyasının 111-ci maddəsinə əsasən əsirlikdə saxlayan dövlət və hərbi əsirlərin mənsub olduğu dövlət, həmçinin bu iki dövlətin barəsində razılığa gəldikləri neytral dövlət öz aralarında hərbi əsirlərin döyüş əməliyyatları bitənədək həmin neytral dövlətin ərazisində nəzarət altında saxlanılması barədə sazişlər bağlamağa çalışmalıdırlar. IV Cenevrə Konvensiyasının 23-cü maddəsi və I Əlavə Protokolun 70-ci maddəsinə əsasən

neytral tərəflər ehtiyacda olan mülki əhaliyə köməklik göstərilməsi üçün tədbirlər həyata keçirə bilər. Bu cür tədbirlər humanitar və bitərəf xarakter daşıyır və heç bir ayrı-seçkilik qoyulmadan aparılır. Onlar silahlı münaqişəyə müdaxilə və ya düşmənçilik hərəkəti kimi qiymətləndirilə bilməz və neytrallığın pozulmasına səbəb olmur.

Qeyd etmək lazımdır ki, döyüşən tərəflərin ərazisində olan neytral dövlətlərin vətəndaşları yerli əhalidən fərqli heç bir imtiyazlara malik deyildir. Onlar mülki əhali ilə eyni statusa malikdirlər. Onların əmlakları da mülki əhalinin əmlakı kimi eyni təhlükəyə məruz qalır. Döyüşən tərəflər mülki əhali və neytral dövlətlərin vətəndaşlarının əmlaklarının döyüş zamanı zədələnməsi və məhv edilməsinə görə cavabdehlik daşımırlar. Bütün neytral dövlətlər və ya münaqişədə tərəf olmayan digər dövlətlər himayəçi-dövlət funksiyasını həyata keçirə bilər. Onların himayəçi-dövlət funksiyasını yerinə yetirməsi silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquqa riayət olunmasında mühüm rol oynayır.

Dəniz müharibələrində neytrallıq. "Neytral dövlətin dəniz müharibələri zamanı hüquq və vəzifələri haqqında" 18 oktyabr 1907-ci il XIII Haaqa Konvensiyasına[6] müvafiq olaraq döyüşən tərəflərin neytral dövlətin sahil sularında döyüşlər aparması, həmçinin onlardan hərbi bazalar üçün istifadə etməsi, hər hansı gəmini tutması, onlarda axtarış aparması qadağandır. Döyüşən tərəflərə neytral sularda öz gəmilərini silahlandırmaq və təchiz etmək, neytral ölkələrin ərazilərində və ya limanlarında priz gəmiləri yaratmaq qadağan edilir. Neytral dövlət öz ərazilərində döyüşən tərəflərə hərbi gəmilər, döyüş sursatı və başqa hərbi materiallar verə bilməz. Lakin döyüşən tərəflər öz hesabına ordu və donanma üçün faydalı olan hər şeyi sərbəst daşıya bilərlər. Döyüşənlərin hərbi gəmilərinin və onların əldə etdiyi prizlərin neytral sulardan keçməsi azaddır. Lakin onların neytral sularda, liman və reyddə olma müddəti 24 saatdan çox ola bilməz. Bir limanda eyni vaxtda 3-dən artıq gəmi saxlanıla bilməz. Müddət pozulduqda neytral sulara gətirilmiş priz azad edilir, onu tutan gəmi dənizə çıxmaq üçün yararsız hala gətirilir, gəmi hey'əti tərksilah edilir və ayrıca düşərgədə saxlanılır. Hər iki döyüşən tərəfin hərbi gəmiləri neytral dövlətin limanında və ya reyddə olduqda bir tərəfin gəmisinin limanı tərk etməsindən yalnız 24 saat keçəndən sonra digər tərəfin gəmisi limanı tərk etməlidir.

---

6 Ведение военных действий. Сборник Гаагских конвенций и иных соглашений. МККК. М.,1999.с.232-240

Hava məkanında neytrallıq. Hava məkanında hərbi əməliyyatların aparılması zamanı neytrallıq haqqında xüsusi konvensiya yoxdur. Ona görə neytral hava məkanında aviasiyanın fəaliyyəti beynəlxalq hüququn ümumi normaları ilə nizama salınır. Döyüşən tərəflər neytral dövlətin hava məkanına hörmətlə yanaşmalıdırlar. Döyüşən dövlətlərin təyyarələri neytral dövlətlərin hava məkanına daxil olduqda, sonuncu onları qaytarmağa tədbir görməli və ya sonradan hava gəmisində olan şəxsləri tərksilah edib ayrıca saxlamaqla hava gəmisini yerə endirməyə məcbur etməlidir. Mülki aviasiyaya yoxlama məqsədilə yerə enmək təklif oluna bilər. Təyyarə neytrallığa uyğun fəaliyyət göstərmədiyi halda müsadirə oluna bilər. Neytrallıqdan söhbət açarkən ərazinin neytrallaşdırılması, daimi neytrallıq, silahlı neytrallıq üzərində də dayanmağı zəruri hesab edirik.

Daimi neytrallıq. Daimi neytrallı dövlətin müharibə baş verdikdə hər hansı döyüşən tərəfdən ona qarışmayacağı, döyüşən tərəflərə birbaşa heç bir hərbi köməklik göstərməyəcəyi barədə öhdəliyini nəzərdə tutan beynəlxalq hüquqi statusudur. Dövlətin daimi neytrallığına digər dövlətlər hörmətlə yanaşmalıdırlar. Dinc dövrdə daimi neytral dövlət hərbi ittifaq və bloklara qoşulmamalıdır. Daimi neytrallıq müqavilə əsasında və deklarativ(rəsmi, təntənəli e'lan edilən) ola bilər. Yə'ni dövlətin daimi neytrallıq statusunun əsasını çoxtərəfli müqavilə və ya bəyannamə təşkil edə bilər. 20 noyabr 1815-ci ildə Vyana Konqresinin bəyannaməsi ilə İsveçrənin daimi neytrallığı e'lan edilmişdir. 26 oktyabr 1955-ci il "Neytrallıq haqqında" federal konstitusiya qanununa əsasən Avstriya daimi neytrallıq statusuna malikdir. 23 may 1962-ci il ildə Laos məsələsinin nizama salınması üzrə Beynəlxalq müşavirə iştirakçıları "Laosun neytrallığı haqqında" bəyannamə qəbul etdilər. Həmin bəyannamə 23 iyul 1962-ci ildə Cenevrədə keçirilən müşavirədə 14 dövlətin iştirakı ilə qəbul edilib imzalanmışdır. 14 may 1981-ci ildə Malta Respublikası hökuməti tərəfindən "Maltanın neytrallığına dair" Malta Respublikası Hökumətinin bəyannaməsi təsdiq olunmuşdur. Həmin bəyannamə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi iştirakçısı olan dövlətlərin nümayəndələriniin 1980-cı ildə Madriddə keçirilən görüşündə e'lan edilərək Yekun sənədinə daxil edilmişdir. 23 may 1991-ci ildə Kampuçiya üzrə Paris konfransında "Kampuçiyanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və toxunulmazlığı, neytrallığı və milli vahidliyi haqqında" saziş imzalanmışdır. 12 dekabr 1995-ci il-

də "Türkmənistanın daimi neytrallığı haqqında" Türkmənistan Konstitusiya Qanunu qəbul elilmişdir.

Ərazinin neytrallaşdırılması — hər hansı ərazinin hərbi məqsədlərlə istifadə edilməsinin, o cümlədən müəyyən ərazidə hərbi əməliyyatların aparılmasının və onların aparılması üçün baza kimi istifadə olunmasının qadağan edilməsi deməkdir.

"Ərazi" termininin əhatə etdiyi məkan hər hansı dövlətin suverenliyi altında olan ərazini əhatə etməyə də bilər. Ərazi neytrallığı maraqlı tərəflərin bağladığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir. Məsələn, 23 iyul 1881-ci ildə Argentina ilə Çili arasında bağlanmış müqaviləyə əsasən Magellan boğazı "həmişəlik neytral" e'lan edilmişdir. 1888-ci il Konstantinopol konvensiyasına əsasən Suveyş kanalı neytrallaşdırılmışdır. 9 fevral 1920-ci il Paris müqaviləsinə əsasən Şpisbergen arxipelaqı hərbi məqsədlərlə istifadə edilə bilməz. Bu da arxipelaqın neytrallaşdırıldığını təsdiq edir. 1 dekabr 1959-cu il "Antarktida haqqında" müqaviləyə əsasən Antarktida yalnız sülh məqsədilə istifadə oluna bilər, onun hüdudlarında hərbi xarakterli hər hansı tədbir qadağan olunur. 7 sentyabr 1977-ci ildə ABŞ və Panama arasında bağlanmış müqaviləyə əsasən Panama kanalı "həmişəlik neytral" e'lan edilmişdir.

Silahlı neytrallıq — neytral ölkələrin müharibə vaxtı döyüşən dövlətlərlə azad dəniz ticarətini silah gücünə müdafiə etmək hüququdur. Birinci silahlı neytrallıq İngiltərənin neytral gəmiləri ələ keçirməyə cəhd etməsi ilə əlaqədar olaraq 28 fevral 1780-cı ildə Rusiya, Danimarka və İsveçin ittifaqı əsasında e'lan edilmişdi. Şimali Amerikada ingilis müstəmləkələrinin istiqlaliyyət uğrunda apardıqları müharibə zamanı neytral ölkələrin ticarət gəmilərinin azad üzgüçülük hüququnun müdafiəsi məqsədilə e'lan edilmişdi. 1780-ci il silahlı neytrallığının prinsipləri aşağıdakılar idi: 1) neytral gəmilər döyüşən ölkələrlə ticarət edə və onların sularında sərbəst üzə bilər; 2) neytral gəmidə daşınan düşmənə məxsus yük hərbi kontrabanda istisna olmaqla toxunulmaz hesab edilir; 3) silah, döyüş sursatı, hərbi təchizat kontrabanda hesab edilir; 4) döyüşən tərəflərin düşmənin sahillərini mühasirə etməsi qanuni hesab olunur. İkinci silahlı neytrallıq 1800-cü ildə Rusiya, Danimarka, Prusiya və İsveç tərəfindən e'lan edilmiş və onun prinsipləri genişləndirilmişdir. Belə ki, neytral dövlətin gəmiləri hərbi gəmilərin müşayəti ilə üzə bilər və hərbi kontrabandanın daşınmaması barədə gəmi komandanlığının vicdanlı sözü gəmini döyüşən tərəflərin axtarı-

şından azad edə bilərdi. Silahlı neytrallıq 1856-cı il "Dəniz müharibəsi haqqında" Paris bəyannaməsində öz əksini tapmışdır. Döyüşən tərəflərin hərbi kontrabandanın daşınmasının qarşısını almaq məqsədilə neytral ticarət gəmilərini yoxlamaq hüququ vardır. Aşağıdakılar fərqləndirilir:1) mütləq hərbi kontrabanda, yə'ni hərbi materiallar; 2) şərti kontrabanda, yə'ni ikili təbiətə malik, həm hərbi, həm də dinc məqsədlə istifadə edilə bilən materiallar; 3) qeyri-kontrabanda. Birinci iki qrup əşyalar düşmən üçün nəzərdə tutulduqda alına və zəbt edilə bilər. Üçüncü qrup əşyaları zəbt etmək olmaz. Kontrabandanı daşıyan gəmilər döyüşən dövlətlərin ərazi sularında və ya açıq dənizdə tutula bilər.[7]

20 fevral 1928-ci il "Dəniz neytrallığı haqqında" Konvensiyanın 1-ci maddəsi müharibə zamanı ticarət azadlığının tənzimlənməsi ilə əlaqədar aşağıdakı qaydanı müəyyən etmişdir: Döyüşən tərəflərin hərbi gəmiləri açıq dəniz və neytral olmayan ərazi sularında hər hansı ticarət gəmisini onun xarakterini, dövlət mənsubiyyətini müəyyən etmək, beynəlxalq hüquqla qadağan olunmuş yük aparıb-aparmadığını, mühasirə qaydalarını pozub-pozmadığını yoxlamaq üçün saxlaya bilər. Ticarət gəmisi dayanmaq barədə tələbə əhəmiyyət verməkdə hərbi gəmi onu tə'qib edib, güc tətbiq etməklə dayandıra bilər. Gəmi onun hey'əti və sərnişinlər təhlükəsiz yerə keçirilməyənə kimi üzgüçülük üçün yararsız hala gətirilə bilməz.

Neytrallıq haqqında söhbət edərkən Qırmızı Xaçın neytrallığı üzərində də dayanmağı zəruri hesab edirik.[8] J.Pikte göstərir ki, Qırmızı Xaçın neytrallığının iki aspekti vardır: Bir tərəfdən o, fəal hərbi əməliyyatlarda düzünə və ya yanaxı iştirak etməməyi, digər tərəfdən ideoloji neytrallığı, yə'ni öz ideologiyasından başqa ideologiyanı qəbul etməməyi nəzərdə tutur.[9] F. Kalsxoven belə hesab edir ki, bu prinsipi e'lan etmək ona əməl etməkdən asandır.[10]

---

7 Международное право. Словарь-справочник. ИНФРА-М. М., 1997.с.183

8 Дениза Платтнер. Нейтральность МККК и нейтральность гуманитарной помощи. // Международный журнал Красного Креста. Март-апрель 1996. № 9. с. 157-180; Ханс Хауг. Нейтральность как один из основополагающих принципов Красного Креста // Международный журнал Красного Креста. Ноябрь-декабрь. 1996. № 13.с.704-708.

9 Вах. Жан Пикте. Развитие и принципы международного гуманитарного права. М., МККК. с. 88

10 Фриц Кальсховен. Беспристрастность и нейтральность в гуманитарном праве и практике МККК. 1989.с.6.

Hələ 1863-cü ildə keçirilən Beynəlxalq konfrans zamanı qərara alınmışdı ki, döyüşən dövlətlərin Qırmızı Xaç Komitələri neytral dövlətlərin komitələrinə kömək üçün müraciət edə bilər. Lakin bu uzun müddət ancaq nəzəri müddəa kimi qalmışdı. 1877-1878-ci il Rus-Türk müharibəsində Türkiyə Qızıl Aypara Cəmiyyəti Niderland Qırmızı Xaç Cəmiyyətinə müraciət etdikdən və Niderland cəmiyyəti hər iki tərəfin razılığını aldıqdan sonra özünün hərbi səhra qospitalını Türkiyə tərəfə köməyə göndərdi. I CK-nın 27-ci maddəsində göstərilir ki, neytral ölkənin səlahiyyətli cəmiyyəti, yalnız münaqişədə iştirak edən Tərəfin öz Dövlətinin qabaqcadan razılığı ilə, münaqişədə iştirak edən Tərəfə özünün tibbi hey'əti və birləşmələri vasitəsilə yardım göstərə bilər. Belə hey'ət və birləşmələr razılığını vermiş münaqişədə iştirak edən tərəfin nəzarəti altına verilir.

Neytral Dövlət bu yardımı qəbul edən Dövlətin düşməninə bu razılıq barəsində mə'lumat verir. Münaqişədə iştirak edən və yardımı qəbul edən Tərəf həmin yardımdan istifadə etməzdən əvvəl, düşmən tərəfə bu barədə mə'lumat verməlidir.

Belə yardım, heç bir halda, münaqişəyə müdaxilə kimi qiymətləndirilməməlidir. Bu müddəa heç bir dəyişiklik edilmədən CK-na I Əlavə Protokola da daxil edilmişdir. Çox vaxt münaqişədə olan dövlətlərdən birinə yardım göstərmək üçün dövlətlər "humanitar yardım" adı ilə müxtəlif silah və digər hərbi xarakterli yardımlar göstərirlər.[11] Ona görə də neytrallıq həmişə qərəzsizliklə qarşılıqlı əlaqədədir. Yə'ni belə hallarda humanitar yardım hər iki tərəfə göstərilməlidir. Qırmızı Xaç neytrallığı bu cür qəbul edir: "Ümumi e'tibarı qorumaq üçün hərəkat silahlı münaqişədə kiminsə tərəfini saxlamamalı və siyasi, irqi, dini və ya ideoloji xarakterli mübahisələrə qoşulmamalıdır".[12]

Priz (dəniz hüququnda) — müharibə zamanı düşmən ticarət gəmisi və onun yükünün, həmçinin yükünün əksər hissəsi hərbi kontrabanda olan neytral dövlətlərin ticarət gəmilərinin, habelə neytral dövlətin bayrağı altında üzən və neytrallıq qaydalarını pozan gəmilərin ələ keçirilməsi deməkdir. Prizi ələ keçirmiş hərbi gəmi bə'zi formallıqları yerinə yetirməlidir: gəmi və onun yükünün ələ keçirilməsi və müayinəsi

---

11 Фриц Кальсховен. Беспристрастность и нейтральность в гуманитарном праве и практике МККК. 1989.с.4.

12 Марион Харрофф-Тавель. Нейтралность и беспристарстность. МККК.1989.с.30

sənədlərin yoxlanılması və möhürünün açılması haqqında protokol tərtib olunmalıdır. Priz limana gətirilir, orada priz məhkəməsi ələ keçirilmiş gəmi və onun yükünün taleyini qəti həll edir. Düşmənin yükü müsadirə olunur, neytral dövlətin yükü qaytarılır, əsasız məhv edilmiş yük ödənilir.

Trofey-döyüş meydanında (dənizdə) ələ keçirilən düşmənə məxsus silah, texnika hərbi əmlak və material (hərbi gəmi, başqa gəmilər uçuş aparatı, silah və s.), həmçinin qiymətli əşyalardır(pul, qızıl, ziynət əşyaları, qiymətli kağız və s.). Göstərilən əmlak düşmən təslim olduqdan sonra müvafiq beynəlxalq hüquqi sənəd tərtib edilməklə də trofey hesab olunur.

Hərbi kontrabanda-döyüşənlərin gəmilərində neytral sahibkarların yükü və ya neytral dövlətin gəmilərində döyüşən tərəflərdən birinin öz düşmənilə aparılmasını qadağan etdiyi düşmən yüküdür. Hazırda hərbi kontrabanda anlayışı və onunla mübarizə rejimi demək olar ki, köhnəlmişdir. Onu dəniz təcridi rejimi əvəz etmişdir. Həmin rejimə əsasən düşmənə göndərilən hər hansı yük kontrabanda hesab olunur.

Fəsil XII

BMT TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLƏN ƏMƏLİYYATLAR ZAMANI BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏTBİQİ

Soyuq müharibənin başa çatması belə bir inam yaratmışdı ki, dövlətlərarası münaqişələr getdikcə azalacaq, beynəlxalq mübahisələr sülh yolu ilə tənzimlənəcəkdir. Həqiqətən də, nüvə silahına malik olan dövlətlər arasındakı münasibətlərdə gərginlik xeyli zəifləmiş, sür'ətlə silahlanma səngimişdir. Lakin tezliklə dünyanın müxtəlif bölgələrində milyonlarla insanın həyatdan məhrum olması ilə nəticələnən amansız münaqişələr alovlanmağa başladı. Müharibə və Sülh Beynəlxalq İnstitutunun hesablamalarına görə başa çatmaqda olan əsrin son onilliyinin hesabına 100-dən artıq fəal silahlı münaqişə düşür.

Bir neçə onilliklər ərzində beynəlxalq humanitar hüququn BMT-nin bayrağı altında olan silahlı qüvvələrə tətbiqi "əsasən nəzəri maraq doğururdu. Əməliyyatlar mahiyyət e'tibarı ilə çoxsaylı olması və mandatların məhdudluğu praktiki olaraq güc tətbiqini istisna edirdi. Ona görə də, beynəlxalq humanitar hüququn tətbiq edilməli olduğu obyektiv vəziyyət təsadüfi hallarda yaranırdı.[1]

Eyni zamanda müasir siyasi münasibətlərin strukturunda baş verən dəyişikliklər BMT, xüsusən Təhlükəsizlik Şurası tərəfindən şəraitin normallaşdırılması üçün fəaliyyət imkanlarını genişləndirdi. Bu həm BMT Təhlükəsizlik Şurası tərəfindən həyata keçirilən fəaliyyətin sayının artmasında, həm də bu fəaliyyətin miqyasının genişlənməsində öz ifadəsini tapdı. BMT Təhlükəsizlik Şurasının müxtəlif vəzifələrin yerinə yetirilməsi üçün silahlı qüvvələr tətbiq etməklə bağlı fəaliyyətinə sülhü qorumaq, əhalini hərbi əməliyyatların nəticələrindən mühafizə etmək və ya humanitar yardımın bölüşdürülməsinin həyata keçirilməsi üçün təhlükəsizlik şəraitin yaratmaq kimi tədbirlərini misal göstərmək olar.

---

1 Антуан Бувье. Конвенция о безопасности персонала Организации Объединенных Наций и связанного с ней персонала: изложение и анализ. // Международный журнал Красного Креста, № 7, 1995, с. 792-793

Son vaxtlar BMT-nin sülhü qorumaq üzrə əməliyyatlarının sayı və miqyasının genişlənməsi tam aydınlığı ilə hiss olunur. Digər tərəfdən isə BMT tərəfindən həyata keçirilən tədbirlərdə silahlı qüvvələr və döyüş texnikasından daha geniş istifadə edilməsi göz qabağındadır. BMT-nin sabiq baş Katibi Butros Butros Qalinin "sülh yaratmaqla sülhü qorumaq arasında ayrıcı xətt olmamalıdır"[2] fikri özünü aydın göstərir. Belə ki, əməliyyatların BMT Nizamnaməsinin VII fəslinə əsasən həyata keçirilməsi həmin əməliyyataların həyata keçirildiyi ərazinin mənsub olduğu dövlətin razılığının zəruriliyini tələb etmir. Digər tərəfdən, bu əməliyyatlar humanitar yardımın dövlətin ərazisinə təhlükəsiz çatdırılması üçün şərait yaradılması və ya silahlı hücuma məruz qalmış əhalinin yaşadığı ərazinin hərbi əməliyyatlardan mühafizə edilməsi məqsədi daşıya bilər. Belə hallarda isə keçirilən əməliyyatların neytrallığı, minimal güc tətbiq edilməsi və özünümüdafiə prinsiplərinə tam riayət edilməsi mümkün olmur. Sözsüz ki, bu cür əməliyyatlara müraciət edilməsi münaqişədə iştirak edən tərəflərin beynəlxalq hüquqla heç cür bir araya sığışmayan vəzifələri: mülki əhalinin həyatının təhlükə altına qoyulması, heç kəsə aman verilməməsi, aclıq və vahiməyə salmanın müharibə aparılmasının əsas metodu kimi istifadə olunması, etnik təmizləmə, kütləvi deportasiya və sairi qarşılarına məqsəd qoyduqları halda zəruri hesab olunmalıdır.[3]

B.Tuzməhəmmədov belə hesab edir ki, BMT bayrağı altında həyata keçirilən yeni nəsil əməliyyatlarda məcburiyyət ünnsürlərinin artması BMT hey'əti tərəfindən həm özünümüdafiə, həm də öz mandatını yerinə yetirmək üçün silahdan istifadə etmək imkanını artırır. Bunlar da yeni məsələlər meydana çıxarır.[4]

BMT-nin sülhü qoruma əməliyyatları adından da mə'lum olduğu kimi sülhün möhkəmləndirilməci məqsədi ilə həyata keçirilir. Ona görə də, bu əməliyyatlar mahiyyət e'tibarı ilə qarşılıqlı əlaqədə olan üç

---

2 Bax. Бутрос-Бутрос Гали. Повестка дня для мира. 1995г. ООН. Нью-Йорк.1995.с.17-49

3 Bu barədə bax: Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев.2000.с.197.

4 Тузмухамедов Б.Р. МГП и международные военные операции по поддержанию и восстановлению мира // Московский журнал международного права. Специальный выпуск. Декабрь. 1999. С. 84

prinsipə: iştirakçı ilə tərəflərin razılığı, neytrallıq və əsasən özünü müdafiə məqsədi ilə minimum güc tətbiq edilməsinə əsaslanır.[5]

BMT-nin bütün əmliyyatları biri-birindən fərqlənir. İlk vaxtlar bu əməliyyatlar BMT ilə münaqişədə olan dövlət arasında razılıq əsasında həyata keçirilirdi. Lakin sonradan bu əməliyyatlar vətəndaş müharibəsi (Livan), mövcud dövlətin dağılması (Yuqoslaviya), xaos (Somali) vəziyyətində olan ölkələrdə həyata keçirilməyə başladı. 1991-ci ildə Küveytdə isə güc tətbiq edilməsi məqsədilə əməliyyat keçirildi.

BMT-nin sülhü qorumaq əməliyyatlarına tərəflər arasında münaqişənin hansı mərhələsində başlanılmasının onun xarakterinin müəyyən edilməsində böyük rolu vardır. Belə ki, münaqişədə olan tərəflər arasında silahlı toqquşmaların genişlənməmiş bu cür əməliyyatlar keçirildikdə əsas məqsəd münaqişənin genişlənməsinə imkan verməməkdən ibarət olur.

Tərəflər arasında artıq silahlı münaqişə başlandıqdan sonra BMT əməliyyatları keçirildikdə BMT qüvvələri münaqişədə iştirak edən tərəflər arasında daha tez sülh əldə edilməsi üçün şərait yaratmalıdırlar. Belə halda BMT qüvvələri ciddi surətdə qərəzsizlik nümayiş etdirməli və silahdan yalnız qanuni özünümüdafiə məqsədi ilə istifadə etməlidir.

Lakin İran körfəzində müharibənin gedişi zamanı (İraq və Küveyt arasında) olduğu kimi sülhün məcburi qaydada bərpa edilməsi üzrə əməliyyatlar keçirilərkən BMT qüvvələri artıq qərəzsiz fəaliyyət göstərə bilmir.

Əlbəttə ki, münaqişələrin qarşısının alınması üçün "ilkin kifayətedici" tədbirlərə daha üstünlük verilməlidir.

Məsələn, Yuqoslaviyada həm hərbi, həm də humanitar nöqteyi nəzərindən kənd yaşayış məntəqələrində vəziyyət əhəmiyyətli dərəcədə pisləşdikdə 1993-cü ilin aprel ayında Təhlükəsizlik Şurasının 824-cü qətnaməsində "təhlükəsizlik zonaları" yaradılması qərara alındı. Bu zonaların yaradılmasında məqsəd əhalinin təhlükəsizliyinin tə'min olunması idi. Təcrübə göstərir ki, imkan dərəcəsində bu cür zonaların tez və çox yaradılması mülki əhalinin mühafizəsini bir o qədər də yaxşı tə'min etməyə imkan verir.

Sülhü qorumaq üzrə BMT missiyası həyata keçirilərkən həmin yerlərdə humanitar təşkilatlarla sə'ylərin əlaqələndirilməsi və əməkdaşlıq

---

5 Бутрос-Бутрос Гали. Повестка дня для мира. 1995г. ООН. Нью-Йорк.1995.с.22

çox faydalı nəticələr verə bilər. Belə ki, bu cür əməkdaşlıq beynəlxalq birliyin həmin istiqamətlərdə sə'yinin səmərəliliyinin artmasına, daha çevik və alternativ tədbirlərin həyata keçirilməsinə nail olmaqla əsas məqsədə çatmağı asanlaşdıracaqdır. Bu təcrübədə də öz əksini tapmışdır.[6]

Dövlətin beynəlxalq humanitar hüquqa hörmət etmək öhdəliyi onların ərazisində humanitar fəaliyyətin həyata keçirilməsinə razılıq verilməsini də əhatə edir. Dövlətlər özləri də beynəlxalq humanitar hüquqa riayət olunmasını tə'min etməlidirlər. Bu ilk növbədə dövlət və ictimai təcrübənin beynəlxalq humanitar hüquq normalarına uyğunlaşdırılmasını və bu hüquq sahəsində pozuntuların qarşısının alınmasını nəzərdə tutur.

Sülhün qorunması silahlı mübarizənin dayandırılması, hərbi əməliyyatların yenidən qızışmasının qarşısının alınması və beynəlxalq sülh və təhlükəsizliyin bərpası üzrə BMT qoşunlarının dövlətin razılığı ilə münaqişə zonalarına yerləşdirilməsi kimi başa düşülür.[7]

Sülhü qorumaq üzrə qüvvələrin funksiyası ən'ənəvi olaraq atəşin dayandırılması, demarkasiya xətləri, qoşunların çıxarılması haqqında sazişlərə riayət olunması üzrə nəzarətdən ibarət olsa də, son vaxtlar bu funksiya xeyli genişləndirilmiş və seçkilərin keçirilməsi, humanitar yardım yüklərinin çatdırılması, milli barışıq prosesinə yardım, dövlətin sosial-iqtisadi və inzibati infrastrukturlarının bərpası üzərinə nəzarəti də əhatə edir. Sülhü qorumaq üzrə qüvvələr hərbi zor tədbirləri tətbiq etmək səlahiyyətinə malik deyil, onlar müdafiə məqsədilə yüngül silahlarla silahlanmış və şəxsi heyət bu silahlardan yalnız özünümüdafiə üçün istifadə edə bilər.

Sülhün bərpa edilməsi BMT qüvvələri və ya ayrı-ayrı dövlət, yaxud dövlətlər qrupları, regional təşkilatlar tərəfindən maraqlı dövlətin xahişi (1950, Koreya), yaxud Təhlükəsizlik Şurasının sanksiyası ilə (1990, İran Körfəzi) BMT Nizamnaməsinin VII fəsli əsasında keçirilən əməliyyatı nəzərdə tutur.

---

6 Bax. Ларс Эрик Вальгрен. Оперативные задачи войск ООН по поддержанию мира // Симпозиум по вопросам гуманитарной деятельности и осуществления операций по поддержанию мира. Отчет. М., МККК. 1995. с. 14-15

7 Bax.Michael J. Kelly. Peace Operations. Canberra, Australian Government Publishing Services, 1997.

Sülhün qorunması və bərpa edilməsi arasında fərq mövcud olduğuna görə bu əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn tətbiqi məsələsi də müəyyən qədər fikir ayrılığı doğurur. Yə'ni BMT qüvvələri tərəfindən döyüş əmliyyatları keçirildiyi halda beynəlxalq humanitar hüququn tətbiq edilməsi şübhəsizdirsə, sülhü qoruma əməliyyatları zamanı beynəlxalq humanitar hüququn tətbiqinə ehtiyac hiss olunmurdu. Lakin son dövrlərin təcrübəsi sülhü qoruma və bərpa etmək arasında fərqi azaltmışdır. Yə'ni bir halda sülhün qorunması kimi başlanan əməliyyat sonradan sülhün bərpa olunması əməliyyatı ilə əvəz olunduğu kimi, bə'zən də hər iki əməliyyat paralel şəkildə aparılır. Məsələn, BMT-nin Somalidəki əməliyyatı (YUNOSOM I) Təhlükəsizlik Şurasının 24 aprel 1992-ci il tarixli 751 №-li qətnaməsinə (1992)[8] əsasən BMT Nizamnaməsinin VI fəslinə müvafiq qəbul edilmiş humanitar yardım göstərilməsinə kömək aksiyası kimi başlanmışdır. Sonradan YUNOSOM I qüvvələrini Təhlükəsizlik Şurasının 3 dekabr 1992-ci il tarixli 794 №-li qətnaməsinə (1992)[9] əsasən humanitar əməliyyatların keçirilməsi üçün təhlükəsiz şərait yaratma məqsədilə BMT Nizamnaməsinin VI fəslinə əsasən bütün zəruri vasitələrdən istifadə etmək üçün müvafiq səlahiyyət verilmiş "xüsusi birləşmiş qüvvələr" ("United Task Force" — YUNİTAF) əvəz etdi.

Keçid dövründən sonra isə Təhlükəsizlik Şurası 814 №-li qətnaməsi (1993) əsasında BMT-nin Somalidə daha geniş miqyaslı əməliyyatlarına başlanıldı (YUNOSOM II).[10]

Keçmiş Yuqoslaviya ərazisində yaranmış vəziyyətlə əlaqədar BMT Nizamnaməsinin VI fəslinə müvafiq qəbul edilmiş qətnamə əsasında (SC res. 770(1992)) humanitar yardımın çatdırılmasının tə'min olunması öz əksini tapmışdır.

1993-cü ildə qəbul edilmiş 816 №-li qətnamə (SC res. 816 (1993) Bosniya və Hersoqovina Respublikası hava məkanında uçuşların qadağan edilməsini, həmçinin, bu qadağana riayət edilməsini; 824 №-li qətnamə (SC res. 824(1993)) silahlı hücum və hər hansı düşmənçilik hə-

8 The United Nations fnd Somalia. 1992-1996 United Nations. New York. 1996.pp.166-167

9 The United Nations fnd Somalia. 1992-1996 United Nations. New York. 1996. pp.214-216

10 The United Nations fnd Somalia. 1992-1996 United Nations. New York. 1996. pp.261-263

rəkətlərindən azad "təhlükəsizlik zonasının e'lan edilməsi"ni; 836 №-li qətnamə (SC res. 836(1993)) SOONO-nun öz mandatını yerinə yetirməsi, bu qüvvələr özünümüdafiə qaydasında fəaliyyət göstərdikdə bütün zəruri vasitələrdən istifadə edilməsi üçün səlahiyyət verilməsini, təhlükəsizlik zonalarının bombardman edilməsinə cavab olaraq hərbi qüvvələrdən istifadə etmək səlahiyyətini nəzərdə tuturdu.

BQXK belə mövqeyin tərəfdarıdır ki, beynəlxalq humanitar hüququn prinsipləri bütün dövlətlər üçün məcburi olduğu kimi onların yaratdıqları beynəlxalq təşkilatlar üçün də məcburi olmalıdır.

Gücün tətbiqinin qanuniliyi, münaqişədə tərəflərin hüquqi statusu və ya əraziyə hüququndan asılı olmayaraq beynəlxalq humanitar hüququn hər bir halda tətbiq olunmasına kömək etmək siyasətinə müvafiq olaraq BQXK beynəlxalq humanitar hüquq prinsiplərinin BMT-nin sülhü qorumaq əməliyyatlarına tətbiq olunmasını müdafiə edir. Lakin BMT-nin Konvensiya iştirakçısı olmaması və təşkilatın təbiətini nəzərə alaraq e'tiraf etmək lazımdır ki, beynəlxalq humanitar hüquq prinsiplərinin təşkilata tətbiqini ancaq müvafiq dəyişikliklərlə (mutatis muiandis) etmək olar. Belə ki, hərbi əsirlərə, cinayət məs'uliyyətinə cəlb etməyə aid olan normaları təşkilata tətbiq etmək olmaz. Döyüş əməliyyatlarının aparılmasının metod və vasitələrinə, himayədə olan şəxslər kateqoriyasına, həmçinin, tanınmış emblemlərə aid normaları isə təşkilata tam tətbiq etmək olar.[11]

Sülhü qoruma qüvvələrinə beynəlxalq humanitar hüquq normalarının tətbiqinə münasibətdə BMT-nin mövqeyi BQXK-nin BMT sərəncamına verilmiş qoşunların Cenevrə Konvensiyaları və beynəlxalq humanitar hüququn digər müddəalarına riayət etmələri barədə tələbi ilə əlaqədar hazırlanmışdır. Beynəlxalq humanitar hüquq normalarının sülhü qoruma qüvvələrinə tətbiq olunmasına razılığını bildirərək, BMT belə hesab edir ki, sülhü qoruma qüvvələri öz səlahiyyətlərini həyata keçirirkən bütün beynəlxalq birliyin tapşırığı və onun adından fəaliyyət göstərirlər. Ona görə də, BMT Cenevrə Konvenisyalarına əsasən nə münaqişədə "tərəf", nə də "dövlət hesab oluna bilməz". Bunun üçün də BMT sülhü qoruma qüvvələrinin onlar humanitar və ya diplomatik missiyanı həyata keçirərkən təkcə hərbi əməliyyatlar meydanında işti-

11 Заявление МККК на 47 сессии Генеральной Ассамблеи 13 ноября 1992 года

rak etməsinə görə onlara beynəlxalq humanitar hüququn tətbiq edilməsi məcburiliyini doğurmur.

Bundan başqa, BMT beynəlxalq təşkilat kimi mahiyyət e'tibarı ilə 1949-cu il Cenevrə Konvensiyalarının iştirakçısı olmaq imkanına malik deyildir. Özünün hüquq subyektliliyinə baxmayaraq BMT dövlət deyil və ona görə də, bu konvensiyaların dövlətin üzərinə qoyduğu bir çox öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan hüquqi və inzibati səlahiyyətlərə malik deyildir.

Nəhayət, formal cəhətdən BMT Cenevrə Konvensiyalarının iştirkçısı ola bilməz, ona görə ki, BMT kimi beynəlxalq təşkilatların iştirakı konvensiyaların özlərində nəzərdə tutulmamışdır.

Özünün prinsipial mövqeyini saxlamaqla BMT eyni zamanda beynəlxalq humanitar hüquq normalarının sülhü qorumaq üzrə qüvvələrə tətbiq olunması səviyyəsinin yüksəldilməsinə, öz kontingentini BMT-nin sərəncamına göndərilmiş dövlətlərin həmin normaların həyata keçirilmə qaydalarının təkmilləşdirilməsinə cəhd edir. Bu məqsədlə "BMT qüvvələri Nizamnaməsi"nə aşağıdakı müddəa daxil edilmişdir: "BMT qüvvələri hərbi qulluqçuların davranışını tənzimləyən əsas beynəlxalq konvensiyaların ruhuna hörmət və prinsiplərinə riayət edir"..

Beləliklə, BMT-nin sərəncamına verilmiş qoşunların beynəlxalq humanitar hüquq normalarına hörmət etməsinin tə'mini üzrə cavabdehlik öz kontingentini vermiş dövlətin üzərinə düşür. Ona görə də BMT ilə öz qoşun və ya texnikasını BMT-nin sülhü qoruma üzrə əməliyyatlarında iştirak etmək üçün göndərilmiş dövlət arasında bağlanan nümunəvi sazişə standart bir maddə daxil edilmişdir. Həmin maddədə göstərilir ki, "sülhü qoruma üzrə BMT əməliyyatları iştirakçıları hərbi qulluqçuların davranışını tənzimləyən əsas beynəlxalq konvensiyaların ruhuna hörmət və prinsiplərinə riayət edir. Həmin konvensiyalara 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara 8 iyun 1977-ci il Əlavə Protokolları, həmçinin, 14 may 1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" YUNESKO Konvensiyası daxildir. Ona görə də, BMT-nin sülhü qoruma əməliyyatlarında iştirak edən milli qoşun kontingentinin şəxsi hey'ətini həmin konvensiyaların ruhu və prinsipləri ilə tam tanış olması üçün bütün zəruri tədbirləri görməlidir.

1992-ci ildə BQXK-nin tələbi ilə BMT anoloji müddəa mətnini BMT ilə onun qüvvələrinin öz əməliyyətlarını həyata keçirdiyi dövlət arasında bağlanan sazişə də daxil etdi.

Bu müddəaya əsasən, BMT həmin qüvvələr tərəfindən həyata keçirilən əməliyyatların hərbi qulluqçuların davranışını tənzimləyən əsas konvensiyaların ruhuna tam hörmət və prinsiplərinə riayət əsasında həyata keçiriləcəyini öhdəsinə götürür.

Bu maddə 9 oktyabr 1993-cü ildə BMT ilə Haiti hökuməti arasında BMT missiyasının statusu haqqında bağlanmış sazişə, 5 noyabr 1993-cü ildə BMT ilə Ruanda Respublikası hökuməti arasında BMT missiyasının statusu haqqında sazişə daxil edilmişdir.

Sülhü qoruma üzrə əməliyyatlarla humanitar hüquq arasında sıx əlaqə vardır. Sülhü qoruma üzrə tədbirlər həmişə münaqişə zamanı keçirilir. Hazırkı dövrdə sülhü qoruma üzrə əməliyyatlar çox vaxt preventiv diplomatiya çərçivəsindən kənara çıxır və BMT Nizamnaməsinin VI fəslində nəzərdə tutulan məcburi hərbi tədbirləri əhatə edir. Bu əməliyyatlar çox vaxt qarışıq xarakter daşıyır. Yə'ni bə'zən həmin əməliyyatlar sülh şəraitində başlayır, sonra münaqişə şəraitində davam edir, sonra isə yenidən sülh şəraitində həyata keçirilir.

BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı ilə əlaqədər olaraq beynəlxalq sülh və təhlükəsizliyi başqa vasitələrlə bərpa etmək mümkün olmadıqda Təhlükəsizlik Şurasına hərbi əməliyyatlar tətbiq etməyə icazə verilir.

L.H.Hüseynov haqlı olaraq qeyd edir ki, BMT Nizamnaməsinə təkcə hərbi-siyasi deyil, həm də humanitar təhlükəsizliyi tə'min etmək məqsədlərinə adaptasiya olunmaq planında yeni interpretasiya verilməsi zərurəti vardır.[12]

Son illərdə sülhü qoruma üzrə BMT əməliyyatlarının sayı artmaqla bərabər onların miqyası genişlənir, xarakteri mürəkkəbləşir və bə'zən tam dəyişir. Ən'ənəvi olaraq belə əməliyyatlar barışığa riayət edilməsinə və bu məsələyə kömək göstərmək, silahlı münaqişədə olan tərəflər arasında bufer kimi fəaliyyət göstərmək və qoşunların çıxarılmasına köməkdə öz ifadəsini tapırdı. Bu əməliyyatlar bir qayda olaraq, beynəlxalq silahlı münaqişələr qurtardıqdan sonra həyata keçirilirdi.

Lakin yeni münaqişələrin yaranması soyuq müharibənin qurtarması ilə köhnə düşmənçiliklərin baş qaldırması, yeni münaqişə növlərinin meydana çıxması sülhü qoruma üzrə beynəlxalq qüvvələrə tələbatı artırmışdır.

---

12 Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев. 2000.с. 205.

Qeyd etdiyimiz kimi sülhü qoruma üzrə əməliyyatların ən'ənəvi və müasir növləri üç əsas prinsiplə müəyyənləşir: onlar tərəflərin razılığı ilə tətbiq olunmalıdır; güc ancaq özünümüdafiə məqsədilə olunmalıdır, münaqişədə mövqe qərəzsiz olmalıdır.

Sülhü qorumaq əməliyyatları üçün razılığın alınması çox vaxt çətinlik törətsə də bu əlamət həmin əməliyyatları sülhün məcburi müəyyənləşdirilməsindən fərqləndirir. Özünümüdafiə məqsədilə qüvvə tətbiq etmək sülhü qoruma üzrə qüvvələrə öz vəzifələrini həyata keçirməyə hər cür zorakılıq cəhdlərinə müqavimət kimi qiymətləndirilir.

Sülhü qoruma üzrə əməliyyatlar zamanı tərəflərin razılığının alınması, əməliyyat iştirakçılarının güc tətbiq etməkdə maraqlı olmaması qərəzsizlik prinsipi ilə sıx bağlıdır. Bu prinsipə riayət edilməyən münaqişə iştirakçılarının uzun müddətli əməkdaşlığına ümid etmək olmazdı və qarşılıqlı e'tibar itmiş olardı. Ona görə qərəzsizlik əməliyyatın praktiki olaraq həyata keçirilməsindən və onun münaqişədə olanların hamısı tərəfindən necə qəbul edilməsindən çox asılıdır.

Fəaliyyətin qeyri-ayrıseçkilik xarakteri qərəzsizlik prinsipinin əsas ünsürlərindən biridir. Ona görə də, bu və ya digər tərəfə qarşı potensial, yaxud real olaraq güc tətbiq edildikdə qərəzsizliyi qorumaq demək olar ki, mümkün deyildir.

İştirakçı dövlətlər Təhlükəsizlik Şurasının tapşırığı ilə məcburi xarakterli hərbi fəaliyyət göstərdikdə onda hərbi əməliyyatlarda BMT-nin və ayrı-ayrı dövlətlərin tərəf kimi iştirak etməsi, belə hallarda beynəlxalq humanitar hüququn tətbiqi məsələləri barədə müxtəlif fikirlər mövcuddur.[13]

Beynəlxalq humanitar hüququn vahid və müstəsna məqsədi, silahlı münaqişələr zamanı hansı tərəfin qalib və ya məğlub olmasından asılı olmayaraq bütün tərəflərə bərabər səviyyədə tətbiq olunmasıdır.

Məntiqi olaraq belə bir nəticə çıxır ki, BMT münaqişəli vəziyyətə müdaxilə etdikdə də bu hüquq fəaliyyət göstərməlidir.

Toni Pfenner belə hesab edir ki, əgər BMT qüvvələri hərbi əməliyyatlarda iştirak edirsə, onda beynəlxalq hüquq normalarına qüvvəni təqdim edən dövlətlər deyil, BMT və yardımçı orqan kimi onun qüvvələri riayət etməlidir.

Tyuqe Lemanın fikrincə, BMT münaqişədə tərəf olmadığına görə onun qoşunları hücum obyekti ola bilməz. Bu ona görə mümkün deyil-

13 Bax. Claude Emanuelli. Les actions militaires de l' ONU et le droit international humanitaire. Editions Wilson & Latleur Itee, Montreal, 1995.

dir ki, həmin qoşun Təhlükəsizlik Şurasının verdiyi siyasi mandat əsasında fəaliyyət göstərir. Bu qoşun yüksək səviyyəli polis orqanı hesab edilməli və onlara hücum edilməsi qadağan edilməlidir. Ona görə də, həmin qüvvələr özünümüdafiə üçün tətbiq olunan şəxsi silah gəzdirmək hüququ olan, lakin münaqişə iştirakçısı hesab olunmayan tibbi və ruhani hey'ətə bərabər tutulmalıdır.

Sando belə bir mövqedə durur ki, BMT qüvvələrinə beynəlxalq humanitar hüququn tətbiq edilməsi məsələsi BMT əməliyyatlarında iştirak edən müxtəlif kateqoriyalı hey'ət, əməliyyatın növü, onların müxtəlif səviyyələrdə qüvvə tətbiq etmək mandatı nöqteyi-nəzərindən öyrənilməlidir. BMT-nin bütün əməliyyatlarına və bütün hey'ətə eyni qaydada beynəlxalq humanitar hüququn tətbiq edilməsi düzgün deyildir. Professor Fişerə görə BMT qüvvələrinin döyüş əməliyyatlarında iştirak etməsi münaqişədə tərəf kimi tanınması üçün əsas verir. Ona görə sülhü qoruma qüvvələrinə qeyri-kombatant statusu vermək düzgün hesab edilə bilməz.[14]

BMT nümayəndələrinin fikrincə, BMT münaqişədə tərəf ola bilməz. Bunun səbəbi kimi isə aşağıdakılar göstərilir:

1) Cenevrə Konvensiyaları dövlətlər üçün nəzərdə tutulub;

2) BMT beynəlxalq birliyin maraqları naminə fəaliyyət göstərir və onun fəaliyyətinin qanuni əsası məhz bununla bağlıdır.

BQXK nümayəndələri belə hesab edirlər ki, BMT qoşunları beynəlxalq humanitar hüququn məramına görə münaqişədə tərəf kimi tanınmalıdır.

Humanitar əməliyyatlar öz təbiətinə görə məcburi xarakter daşıya bilməz. Hüquqa uyğun humanitar mülahizələrə görə qüvvə tətbiqi humanitar əməliyyatı hərbi əməliyyata çevirir. Hətta humanitar yardımın çatdırılmasının tə'min edilməsi üçün münaqişədə olan tərəfin iradəsinə qarşı güc tətbiq edildikdə belə əməliyyatın xarakteri dəyişir.

Şindlerə görə BMT münaqişədə olan adi tərəflərdən fərqlənir. Ona görə də BMT qoşunlarına beynəlxalq humanitar hüququn bütün normaları tətbiq oluna bilməz. Bununla belə, hamılıqla tanınmış hüquq normalarına biganə də qala bilməz. BMT tərəfindən ona təqdim edilən qoşunların beynəlxalq humanitar hüquq normalarına riayət etmələri barədə davranış məcəlləsi qəbul edilməsi məqsədə müvafiq olardı.

---

14 Симпозиум по вопросам гуманитарной деятельности и осуществления операций по поддержанию мира. Отчет. М., МККК. 1995. с. 66-70

Bə'zi tədqiqatçılar BMT-nin xüsusi əlavə protokolla Cenevrə Konvensiyasına qoşulması məsələsini və ya Təhlükəsizlik Şurasının və ya Baş Məclisin Konvensiyaya riayət öhdəliyini nəzərdə tutan bəyannamə qəbul etməyi təklif edir.[15] A. Buvye belə hesab edir ki, BMT qüvvələri müəyyən mə'nada beynəlxalq xarakter daşıyır və daxili münaqişədə BMT tərəfindən birinə kömək göstərmək məqsədilə deyil, Təhlükəsizlik Şurasının münaqişədə iştirak edən bütün tərəflərə münasibətdə qəbul etdiyi qətnamələri yerinə yetirmək məqsədilə iştirak edir. Ona görə, məntiqi cəhətdən həmin silahlı qüvvələrə beynəlxalq silahlı münaqişələrdə tətbiq olunan beynəlxalq humanitar hüququn tətbiqi düzgün olardı.[16]

Qeyri-beynəlxalq silahlı münaqişə baş verən dövlətdə yalnız sülhü qoruma üzrə BMT qüvvələrinin olması faktı həmin münaqişənin beynəlmiləlləşdirilməsinə əsas vermir. Ancaq BMT qüvvələri ilə münaqişədə olan tərəflərdən biri arasında toqquşma baş verdikdə beynəlxalq silahlı münaqişədən danışmaq olar. Həm də qeyd etmək lazımdır ki, bu cür toqquşmalar təsadüfi xarakter daşıyırsa bütün münaqişənin beynəlmiləlləşdirilməsi düzgün hesab edilə bilməz. Münaqişələr təkrarlanan xarakter daşıdıqda və müəyyən miqyas aldıqda beynəlxalq münaqişə kimi qiymətləndirilə bilər. Bu cür vəziyyətlərdə hər bir konkret hal üçün ayrıca nəticə çıxarmaq lazımdır.[17]

İ.İ.Lukaşuk belə hesab edir ki, sülhü bərpa əməliyyatlarına beynəlxalq humanitar hüquq normalarının qüvvəsi tətbiq olunmalıdır. Sülhməramlı əməliyyatlar təcavüz aktlarına qarşı əməliyyatlardan fərqlənir. Sülhməramlı qüvvələr silahlı münaqişə iştirakçıları hesab olunmur. Sülhməramlı əməliyyatlar qaydanın qorunması ilə məhdudlaşırsa onda belə hallarda beynəlxalq humanitar hüquq deyil, polis əməliyyatları qaydaları tətbiq olunur. BMT əməliyyatlarında iştirak edən hey'ətin həyata keçirdiyi əməliyyatların xarakterini nəzərə alaraq onlara daha yüksək mühafizə təqdim olunmalıdır.[18]

---

15 Dietrich Schindler. United Nations Forces and International Humanitarian Law.// Studies and Essays on International Humanitarian Law and Red Cross Principles in Honour of Jean Pictet. The Hague, 1984, p. 521-530

16 Антуан Бувье. Конвенция о безопасности персонала Организации Объединенных Наций и связанного с ней персонала: изложение и анализ // Международный журнал Красного Креста. № 7. 1995. с. 795

17 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 129

18 Лукашук И.И. Международное право. Особенная часть. М.БЕК.1998. с. 316

Bu cəhətdən BMT Baş Məclisinin 1994-cü ildə qəbul etdiyi "BMT hey'ətinin təhlükəsizliyi haqqında" Konvensiya da əhəmiyyət kəsb edir. Həmin Konvensiyaya müvafiq olaraq bu cür hey'ətdən olan şəxslər tutulduğu halda dərhal azad olunmalıdırlar. Azad edilməsini gözləyən şəxslərlə 1949-cu il Cenevrə Konvensiyalarının ruhu və prinsiplərinə müvafiq rəftar olunmalıdır (mad. 8).

Konvensiyada BMT hey'ətinə qarşı cinayətlərin növləri nəzərdə tutulur və dövlətlərin üzərinə belə bir vəzifə qoyulur ki, onlar öz daxili qanunvericiliklərində həmin əməllərə görə cəza nəzərdə tutsunlar (mad 9).

1994-cü il Konvensiyasının 2-ci maddəsinin 2-ci bəndinə əsasən onun müddəaları BMT-nin Təhlükəsizlik Şurası tərəfindən BMT Nizamnaməsinin VII fəsli əsasında məcburiyyət tədbirləri kimi razılıq verilmiş əməliyyatlara tətbiq olunmur. Belə halda hey'ət mütəşəkkil silahlı qüvvələrə qarşı kambatant kimi çıxış edir və onlara beynəlxalq humanitar hüquq tətbiq olunmalıdır. Məcburi xarakter daşımayan əməliyyatlarda iştirak edən BMT qüvvələrinə qarşı hücum hallarında 1994-cü il Konvensiyasının tətbiq edilməsi o demək deyildir ki, onlar beynəlxalq humanitar hüquqa görə məs'uliyyət daşımır.[19]

BMT qoşunları ilə humanitar təşkilatlar arasında münasibətlər Təhlükəsizlik Şurası tərfindən qoyulan vəzifədən asılı olaraq dəyişə bilər. Ona görə də onlar arasında əməkdaşlıq əlaqələrinin səviyyəsi yüksək tutulmalı və konkret şəraitə uyğun olaraq müəyyənləşdirilməlidir.

BMT qüvvələrinin silahlı münaqişələrə humanitar məqsədlə müdaxiləsi də maraq doğurur. Humanitar məqsədlə BMT-nin müdaxiləsi üçün ümumqəbulolunmuş kriteriyalar aşağıdakılar hesab olunur.

1) müdaxilənin səbəbi ictimaiyyətdə narahatlıq doğuran hüququn ciddi və daimi pozulmasının mövcudluğu və ya bunun üçün təhlükə ehtimalı olmalıdır;

2) müdaxiliyə yalnız beynəlxalq və regional səviyyədə aparılan bütün ağlabatan diplomatik sə'ylər göstərilməsinə baxmayaraq nəticə əldə olunmadıqda razılıq verilməlidir;

3) müdaxilə zaman və fəaliyyət sahəsinə görə məhdudlaşdırılmalıdır;

4) müdaxilə "qəbul edən dövlətin" ərazi bütövlüyünü qorumalıdır;

---

19 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК.2000.с.128

5) müdaxilə zamanı "qəbul edən dövlətin" hakimiyyət orqanlarının işinə qarışmaqdan imkan dərəcəsində çəkinmək lazımdır.

YUNTAK əməliyyatı (BMT-nin Kampuçiya müvəqqəti orqanı) insan hüquqlarına hörmətin tə'min olunması üzrə geniş mandata malik idi. Bu mandatın məqsədi ikili xarakter daşıyırdı: əvvəla, "keçmiş siyasət və təcrübəyə" qayıtmağa yol verməmək və ikincisi, azad və ədalətli seçkilərin keçirilməsi üçün zəruri olan əsas insan hüquqlarına hörməti tə'min etmək. Bu məqsədlərə çatmaq üçün YUNTAK qüvvələrinin insan hüquqları sahəsində maarifləmə, təhsil, biliklərin yayılması ilə bağlı proqramları həyata keçirməsi tələb olunurdu. Ölkədə siyasi vəziyyəti nəzarət altında saxlamaq üçün YUNTAK öz qüvvələri ilə insan hüquqları pozuntusuna qarşı xüsusi məhkəmə tə'qibini həyata keçirmək səlahiyyətinə malik idi. Bu kimi əməliyyatlar tarixində məhkəmə tə'qibinin həyata keçirilməsi yeganə hal idi. Bu sahədə fəaliyyət silahlı qüvvə və polisin yardımı olmadan həyata keçirilə bilməzdi.

Geniş mə'nada humanitar fəaliyyət dedikdə adamlara, xüsusən çətin vəziyyətdə olanlara yardım göstərmək üçün göstərilən hər hansı fəaliyyət başa düşülür. Bu mə'nada "humanitar" termini çox geniş dairədə fəaliyyəti əhatə edir. Lakin Cenevrə Konvensiyaları və onlara əlavə Protokollarda nəzərdə tutulan hüquq prinsipi kimi həmin termin xüsusi mə'na kəsb edir və humanitar fəaliyyəti həyata keçirən və ya ondan bəhrələnənlərin hamısı üçün müəyyən hüquq və vəzifələr yaradır. Beynəlxalq humanitar hüquq silahlı münaqişələr zamanı tətbiq olunan hüquqdur. Bütün silahlı münaqişələr insan əzabına səbəb olur və bu əzabların yüngülləşdirilməsi üçün nəzərdə tutulmuş qaydalar məcmuəsini özündə əks etdirir.

Həmin hüquqi sənədlərdə "humanitar" termininin anlayışı tam əksini tapmasa da onlar terminin nəzərdə tutduğu məqsədləri aydın göstərir: insan həyatına hörməti tə'min etmək, sağlamlıq və ləyaqəti qorumaq üçün bütün adamlara kömək etmək. Beləliklə, həmin termin irq, din və ya ideologiyasından asılı olmayaraq qadın, kişi və uşaqlara şamil edilir. Silahlı münaqişə zamanı humanitar fəaliyyət bütün qurbanlar haqqında qayğı deməkdir. Beynəlxalq humanitar hüquq silahlı münaqişə qurbanlarının humanitar yardım almaq hüquqlarını nəzərdə tutur. Ərazisində silahlı münaqişə gedən dövlət əhalisinin yaşaması üçün zəruri olan ərzaq və tibbi pereparatlara ehtiyac hiss etdikdə və göstərilən yardım qərəzsiz və humanitar xarakter daşıdıqda bu cür yardımın göstərilməsinə razılıq verməlidir. Bu cür yardım münaqişədə olan tərəflə-

rin hərbi cəhətdən güclənməsinə səbəb olmamalı və münaqişə qurbanlarının hansı tərəfə mənsub olmasından asılı olmayaraq ancaq tələbat nəzərə alınmaqla göstərilməlidir.

Burada diqqəti cəlb edən bir məsələ meydana çıxır. Yə'ni humanitar yardımın göstərilməsi zəruridir, lakin müəyyən dövlətin və ya tərəfin buna razılığı olmaması nəticəsində belə bir yardım göstərilməsi mümkün deyildir. Belə halda dövlət və ya BMT nəyə əsaslanmalıdır? Beynəlxalq humanitar hüquqda bu məsələ ilə əlaqədar iki müddəaya istinad etmək olar. Birincisi, bütün CK üçün ümumi olan 1-ci maddə və ikincisi, I Əlavə Protokolun 1-ci maddəsidir. Həmin maddələrdə Yüksək Razılaşmış Tərəflər öz üzərlərinə belə bir öhdəlik götürmüşlər ki, beynəlxalq humanitar hüquqa riayət etməklə yanaşı ona "riayət olunmasına məcbur edəcəklər". Bu öhdəlik əsasında dövlətlər ayrı-ayrılıqda və ya kollektiv şəkildə münaqişədə olan tərəflərə humanitar yardımın qəbul edilməsinə müraciət edə bilərlər. Bu zaman münaqişədə olan tərəflər güc tətbiq edilməsindən imtina etməlidirlər, çünki beynəlxalq humanitar hüququn əsas məqsədi silahlı münaqişənin yaratdığı əzabları yüngülləşdirməkdir. Ona görə də, beynəlxalq humanitar hüquq əzabı yüngülləşdirmək üçün silah tətbiqinə bəraət qazandıra bilməz.

Bununla belə beynəlxalq humanitar hüquq kəsilmək bilməyən, daim davam edən, kütləvi xarakter daşıyan pozuntuların qarşısının alınmasına biganə qala bilməz. Xüsusilə belə pozuntular xaos və vəhşicəsinə, qəddarlıqla həyata keçirildikdə humanitar yardımın göstərilməsi demək olar ki, mümkün olmur.[20]

I Əlavə Protokolun 89-cu maddəsinə əsasən Konvensiyaların və ya həmin Protokolun ciddi pozulması hallarında Razılığa gələn Yüksək Tərəflər həm birlikdə, həm də fərdi qaydada, Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq şəraitində və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq tədbirlər görməyi öhdələrinə götürürlər.

Bu maddədən iki nəticə çıxır:

Əvvəla, 89-cu maddədə göstərilən qaydada həyata keçirilən tədbirlər beynəlxalq hüquq nöqteyi-nəzərindən qanuni olmalıdır. Beynəlxalq

---

20 Вах. Дальнейшее развитие координации гуманитарной помощи в чрезвычайных обстоятельствах. Речь г-на Корнелио Соммаруги, Президента МККК, на 4-й сессии Генеральной Ассамблеи ООН // Международный журнал Красного Креста. Январь-февраль 1995. №2.с.103-108

hüquq isə iki halda güc tətbiq edilməsini qanuni hesab edir: fərdi və kollektiv özünümüdafiə hallarında və Təhlükəsizlik Şurasının Nizamnaməsinin VII fəslinə əsasən müvafiq qərar qəbul etdikdə. Güc tətbiq edilməsinin bütün digər halları beynəlxalq hüquqa əsasən qeyri-qanunidir.

İkincisi, 89-cu maddənin məzmunundan aydın olur ki, dövlətlər fərdi, kollektiv qaydada beynəlxalq humanitar hüquq pozuntusunun qarşısını almağı öhdələrinə götürürlər. 89-cu maddədə beynəlxalq humanitar hüquqa riayət edilməsini tə'min etmək üçün tədbirlər görülməsi nəzərdə tutulmur. Digər tərəfdən, bu maddə silahlı qüvvə tətbiq edilməsini beynəlxalq humanitar hüquqa əsasən deyil, BMT Nizamnaməsinə əsasən nəzərdə tutur. Qeyd etmək lazımdır ki, BMT qoşunları tərkibində sülhməramlı missiyaların yerinə yetirilməsi ilə əlaqədar fəaliyyət zamanı törədilmiş hüquq pozuntularına beynəlxalq humanitar hüquq normalarının tətbiq edilməsi sahəsində məhkəmə təcrübəsində də ziddiyyətli məqamlar mövcuddur.[21]

BMT-nin sülhü qorumaq üzrə əməliyyatlarının həyata keçirilməsi üçün qoşun kontiningenti müxtəlif dövlətlərdən toplanır. Bu da həmin qoşunların müxtəlif hazırlıq səviyyəsinə malik olmasını şərtləndirir. Ona görə də, BMT-nin həmin qoşun kontingentinin beynəlxalq humanitar hüquq normaları ilə tanışlığı üzrə xüsusi təhcil qrupunun fəaliyyət göstərməsi məqsədə müvafiq olardı.

Fövqəl'adə şəraitdə insanın qorunması, ona yardım göstərilməsi ilə əlaqədar BMT və BQXK arasında münasibətlər get-gedə daha da inkişaf edir. Bu sahədə yeni fəaliyyət istiqamətləri müəyyənləşdirilir.[22]

---

21 Bax. Меры по имплементации международного гуманитарного права: Судебная практика. Бельгия // Международный журнал Красного Креста. Декабрь 1998. № 23. С.869-870.

22 Bax. Торжественное заседание Генеральной Ассамблеи, посвященное 50-летию ООН. Заявление г-на Корнелио Соммаруги, Президента МККК // Международный журнал Красного Креста. Сентябрь-октябрь 1995. № 6. с. 697-700; Корнелио Соммаруга. Гуманитарная деятельность и операции по поддержанию мира // Международный журнал Красного Креста. Март-апрель 1997. № 15.с. 205-215

Fəsil XIII

BEYNƏLXALQ HUMANİTAR HÜQUQ VƏ SİLAHLI QÜVVƏLƏR

Silahlı qüvvələrin yaradılması, onlara müvafiq tə'limlər keçirilməsi və ordunun silahlandırılması müstəsna olaraq mümkün silahlı münaqişəyə hazırlığa yönəldilmişdir. Bəşəriyyət yarandığı dövrdən münaqişələrlə tanışdır. Cəmiyyətin inkişaf tarixi ərzində qəbilələr, şəhərlər, ölkələr, dövlətlər arasında müharibələr baş vermiş bə'zən bu müharibələr illərlə davam etmişdir. Silahlı münaqişələr milyonlarla insanı həyatdan məhrum etmiş, aclığa, səfalətə, dağıntıya səbəb olmuşdur. Bəşəriyyətin inkişafı ilə əlaqədar olaraq silahlı münaqişələr getdikcə mürəkkəbləşir. Elmi-texniki tərəqqi cəmiyyətin inkişafında mütərəqqi rol oynamaqla yanaşı, müharibə aparılmasının metod və vasitələrinin təkmilləşməsinə də səbəb olmuşdur. Silahların dağıdıcılıq qüvvəsi, sür'əti və uzaq məsafədən tə'sir göstərmək qabiliyyəti elmi texniki tərəqqinin inkişafı ilə bərabər yüksəlmişdir. Soyuq müharibənin qurtarması ilə BMT Nizamnaməsində nəzərdə tutulan sülhü qoruma və bərpa etmək üzrə mexanizmin işə düşməsi üçün əlverişli şəraitin yaranmasına baxmayaraq silahlı münaqişələrin yayılmasının qarşısını almaq mümkün olmamışdır.

Müasir dövrün silahlı münaqişələrinin çoxu xarakter e'tibarı ilə daxili münaqişə olmaqla bu münaqişələrin qurbanlarının əksəriyyəti də mülki şəxslərdir. Təxminən 100 il əvvəl müharibələrdə ancaq əsgərlər iştirak edir, mülki əhali müharibənin ağır nəticələrindən demək olar ki, kənarda qalırdı. Lakin İkinci Dünya müharibəsindən sonra baş verən silahlı münaqişələrdə mülki əhali arasında qurbanların sayı hərbçilərin sayından artmağa başlamışdır". Müharibənin təbiəti dəyişmişdir, hazırda döyüş əməliyyatları gedişində bilavasitə zərər çəkənlərin 90 faizi əvvəllər olduğu kimi kombatant deyil, mülki şəxslərdir".[1] Bu amillər təbii olaraq beynəlxalq humanitar hüquq normalarının, dövlətlər tərəfindən bu sahədə qəbul olunmuş konvensiyaların sayının, həcminin art-

masına və məzmununun mürəkkəbləşməsinə səbəb olmuşdur. Beynəlxalq humanitar hüquqa müvafiq olaraq dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərə əsasən silahlı münaqişə başlandıqda hərbi əməliyyatlar tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrə və beynəlxalq hüququn silahlı münaqişələr dövründə tətbiq olunan hamılıqla qəbul olunmuş prinsip və normalarına uyğun qaydada aparılmalıdır (I Ə. P. mad. 2 "v" bəndi).

Müharibə aparmaq qaydaları nə qədər təkmil və hərtərəfli olsa da, onlar silahlı qüvvələrə kifayət qədər mə'lum deyilsə praktiki nəticələrə səbəb olmayacaqdır. Beynəlxalq humanitar hüququn prinsip və əsas normaları bütün dünya birliyi tərəfindən tanınsa da ayrı-ayrı dövlətlərdə onların həyata keçirilməsi tam qənaətbəxş olmadığına görə bu normalar onları tətbiq edən şəxslərə, o cümlədən silahlı qüvvələrin şəxsi hey'ətinə tam mə'lum deyildir. Beynəlxalq humanitar hüquq və humanitar fəaliyyətin prinsipləri haqqında bilik və mə'lumatların yayılmasının məqsədi bu hüquqa riayət olunmasını, onun mühafizə etdiyi qurbanlara tətbiq edilməsini tə'min etməkdən ibarətdir.[2]

Belə bir fikir mövcuddur ki, normanı bilmək hələ ona riayət olunacağına tə'minat vermir və onu pozan şəxsin davranışını dəyişmir. Lakin nəzərə almaq lazımdır ki, zərurət yarandıqda fərdin öz vəzifəsini yerinə yetirib yetirməməsi bir çox kriteriyalar əsasında yaranan seçimdən asılıdır. Həmin kriteriyalar fərdə mə'lumdursa, onun tərəfindən dərk olunubsa bu artıq seçimin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Beynəlxalq humanitar hüquq haqqında bilik və mə'lumatların yayılmasının əsas vəzifəsi də onun müddəalarının konkret fərdlərə çatdırılması, onlar tərəfindən dərk edilməsinə nail olmaqdan ibarətdir.

Bir çox ölkələrdə silahlı qüvvələrin şəxsi hey'ətinə beynəlxalq humanitar hüquq tədris olunsa da bu predmetə proqramda az yer verilir. Beynəlxalq humanitar hüquq hərbi qulluqçuların bütün səviyyəsində

---

1 Луис Гейгер. Вооруженные силы и уважение норм международного гуманитарного права: основные вопросы // Симпозиум по вопросам гуманитарной деятельности и осуществления операций по поддержанию мира. Отчет. М., МККК. 1995.с.65.

2 Вах. Диан Гийемет. Юридические советники в вооруженных силах // Юридические советники в вооруженных силах. Статьи. М., МККК. 1999. с.5-38

tədris proqramının əsas ünsürü kimi nəzərdə tutulmasa, gündəlik hərbi hazırlığın zəruri tərkib hissəsinə çevrilməsə həmin tədrisin səmərəliliyi kifayət qədər olmayacaqdır. Şəxsi hey'ətin beynəlxalq humanitar hüquq üzrə tədrisi bütövlükdə hərbi hazırlığın tərkib hissəsi olmalıdır. Beynəlxalq humanitar hüquq hərbi iyerarxiyanın bütün səviyyəsində öyrənilməlidir.

Silahlı qüvvələrdə beynəlxalq humanitar hüququn öyrənilməsi aşağıdakı nəticələrin əldə edilməsinə səbəb olmalıdır:

1. Silahlı qüvvələrin tərkibində olan şəxslər beynəlxalq humanitar hüquq normaları ilə tanış olmaqla yanaşı, döyüş şəraitində avtomatik olaraq onlara riayət etmək üçün həmin normaları kifayət qədər dərindən dərk etməlidir;

2. Beynəlxalq humanitar hüquq normalarının pozulmasında təqsirli olan şəxslər cəzalandırmalıdır;

3. İntizam silahlı qüvvə üzvlərinin tələb olunan davranışının əsası olduğuna görə beynəlxalq humanitar hüquqa riayət etmək hərbi intizamın tərkib hissəsinə çevrilməlidir.

Beynəlxalq humanitar hüquq hərbi komandirlərin beynəlxalq humanitar hüquqla tanış olmasını, onun tələblərini bilməsini zəruri hesab edir. Silahlı qüvvələrdə beynəlxalq humanitar hüquqa riayət olunmasının tə'min edilməsi komandirlərin vəzifəsidir. Komandir hər şeydən əvvəl çalışmalıdır ki, səlahiyyətində olan vasitələrlə tabeliyində olanların beynəlxalq humanitar hüquq normalarına riayət etmələrini tə'min etsin. "Komandir" termini yüksək hərbi rəhbərlərdən başlamış tabeliyində bir neçə adam olan komandirlərə qədər əmr vermək səlahiyyətinə malik bütün şəxslərə şamil edilir.[3] Başqa sözlə hərbi iyerarxiyada bütün rütbəli hərbi qulluqçular-generaldan serjanta kimi hamı beynəlxalq humanitar hüquqa riayət olunmasını tə'min etməyə borcludur.

Döyüşün gedişi komandirin daim öz qoşununu nəzarətdə saxlamasına imkan verməyə bilər. Lakin komandir qabaqcadan intizamın müəyyən səviyyəsini yaratmalı və həmin intizam sayəsində döyüşün gedişində qoşuna nəzarət olunmasını tə'min etməlidir. İntizamın həqiqətən fəaliyyət göstərməsi üçün isə o müvafiq hazırlığa əsaslanmalıdır. Ona görə rəhbərlər öz tabeliyində olanları səlahiyyətləri çərçivəsində hu-

3 Commtntary on the Additional Protocols of 8 June 1977 to the Geneva Conventions of 12 August 1949, ICRC, Martinus Nijholff. Publishers, Geneva, 1986,c.1019, бюлмя 3553

manitar hüquq normalarını tətbiq etməyə öyrətməlidirlər. Hər bir komandir tabeliyində olanların öyrədilməsi və döyüşdə davranışına görə cavabdehlik daşıyır. Hər şeydən əvvəl komandir hadisələri qabaqlamalı və beynəlxalq humanitar hüququn pozulmasına imkan verməməlidir. O, tabeliyində olanların hərəkətlərinə görə cavabdehlik daşıdığına görə onların göstərişlərinə tabe olmasını tə'min etməli, zəruri hallarda intizam tədbirlərini tətbiq etməlidir. Çünki onlar ordu həyatının mühüm tərkib hissəsini təşkil edən intizam barədə hər şeyi bilir və ordularının daxili intizam sistemlərini müəyyənləşdirirlər. 1-ci Əlavə Protokolun 43-cü maddəsinin 1-ci bəndində göstərilir ki, silahlı qüvvələr qalan şeylərlə bərabər, silahlı münaqişə zamanı tətbiq edilən beynəlxalq hüquq normalarının gözlənilməsini tə'min edən daxili intizam sisteminə tabe olurlar.

Hərbi komandirlərin vəzifəsinə beynəlxalq humanitar hüquq pozuntularının qarşısını almaq və komandanlığı altında olan hərbçiləri Cenevrə Konvensiyaları və I Əlavə Protokolla üzərilərinə qoyulmuş öhdəliklərdən xəbərdar olmasını tə'min edilməsi də daxildir (I Ə. P. mad. 87, bənd 1 və 2).

Əgər hərbi komandir komandanlığı altında olan şəxsin Cenevrə Konvensiyaları və ya I Əlavə Protokolun müddəalarını pozmağa hazırlaşdığını bilirsə, onda bu pozuntunun qarşısını almaq üçün hər cür tədbir görməyə borcludur. Komandir həmçinin, tələb olunan hallarda həmin pozuntunu törədənlərə qarşı intizam və cinayət işi qaldırmaq üçün tədbirlər görməlidir (I Ə. P. mad. 87, bənd 3). Hərbi komandirlər döyüş şəraitində məs'ul qərarlar qəbul etdiklərinə görə onlar beynəlxalq humanitar hüquq ilə dərindən tanış olmalıdırlar. Bu onların fərdi mühakimələrinə əsaslanaraq böhranlı vəziyyətdə düzgün qərarlar qəbul etmələrinə kömək etmiş olardı. Bunun üçün hərbi komandirlərin beynəlxalq humanitar hüquq sahəsində xüsusi kurs keçmələri məqsədə müvafiq olardı. 1976-cı ildən başlayaraq Beynəlxalq Humanitar Hüquq İnstitutunda hərbi tədris kursları keçirilir.

Haşiyə. Beynəlxalq Humanitar Hüquq İnstitutu beynəlxalq humanitar hüquq sahəsində tədqiqatlarla məşğul olan müəssisə, assosiasiya və ayrı-ayrı şəxslərin birliyidir. 1970-ci ildə San-Remoda (İtaliya) yaradılmışdır.

İnstitutun məqsədi beynəlxalq humanitar hüququn milli və beynəlxalq səviyyədə öyrənilməsi, yayılması və inkişafı, humanitar hüquq üzrə təşəbbüsləri inkişaf etdirməyə kömək göstərməkdir.

İnstitut tələbələr, müəllimlər və praktiki işçilər üçün beynəlxalq humanitar hüquq problemləri üzrə kollokvium, seminar, həmçinin xüsusi mövzular üzrə konfranslar keçirməklə fəaliyyət göstərir.

İnstitutun vəzifələrindən biri də silahlı qüvvələrdə beynəlxalq humanitar hüquq haqqında biliklərin yayılmasından ibarətdir. 1976-cı ildən bu məqsədlə institutda hərbi kurslar keçirilir. Bu kurslar silahlı qüvvələrdə beynəlxalq humanitar hüququ yaymaq üçün kifayət qədər hakimiyəti olan yüksək zabitlər üçün nəzərdə tutulmuşdur. Kurslarda beynəlxalq humanitar hüquq hərbi nöqteyi-nəzərdən öyrənilir.[4] Komandirlər beynəlxalq humantar hüquq haqqında kifayət qədər mə'lumatlara malik olduqda onları tabeliyində olanlara yaymaqda çətinlik çəkməzlər.

Beynəlxalq humanitar hüquq ilk dəfə kodifikasiya ediləndə dövlətlər razılaşmış tərəflər kimi onun tətbiqini tə'min etmək barədə öhdəlik götürdülər. Bu öhdəliyə eyni zamanda silahlı qüvvələrdə humantar hüquq normalarına riayət edilməsi də daxil idi.

Beynəlxalq humantar hüquq sahəsində hüquq müşavirlərinin hazırlanması zəruriliyi 18 oktyabr 1907-ci ildə qəbul edilmiş "Quru müharibələrinin adət və qanunları haqqında" IV Haaqa Konvensiyasının 1-ci maddəsində özünü göstərirdi: "Razılaşmış dövlətlər həmin konvensiyaya əlavə edilmiş Əsasnaməyə müvafiq olaraq quru müharibələrinin adət və qanunları haqqında özlərinin quru qoşunlarına tapşırıqlar verəcəklər"ni öhdələrinə götürdü.[5]

Həmin Konvensiyada eyni zamanda qeyd olunurdu ki, "döyüşən tərəflər Əsasnamədə müəyyən edilənləri pozarsa zərurət olduqda ziyanı ödəməlidirlər. Dövlət hərbi qüvvələrin tərkibinə daxil olan şəxslərin törətdikləri əməllərə görə cavabdehlik daşıyacaq.[6]

Sonradan 27 iyul 1929-cu il Konvensiyasının 27-ci maddəsi kimi qəbul edilmiş 6 iyul 1906-cı il CK-nın 26-cı maddəsində isə göstərilirdi ki, "Yüksək Razılaşmış tərəflər həm silahlı qüvvələrini, o cümlədən

---

4 Вах. Международные неправительственные организации и учреждения. Справочник. М., "Международные право" 1982. с. 237-238; Фредерик де Мулинен. Право войны и вооружённые силы. МККК, 1993.с.14.

5 Вах. Ремакль Р. Советники по гуманитарному праву // Юридические советники в вооруженных силах. Статьи. М., МККК. 1999. с.51-70

6 Международное право. Ведение боевых действий. Сборник Гаагских конвенций и иных соглашений. М., МККК. 1995. с.14

himayədə olan şəxsləri, həm də mülki əhalini həmin konvensiya ilə tanış etmək üçün bütün zəruri tədbirləri görməyi öhdələrinə götürürlər". Bu müddəalar sonradan I CK-nın 47-ci maddəsi, II CK-nın 48-ci maddəsi, III CK-nın 127-ci maddəsi, IV CK-nın 144-cü maddəsində öz əksini tapmışdır. Lakin dövlətlərin həmin Konvensiya əsasında üzərilərinə götürdükləri öhdəliklər uzun müddət yerinə yetirilməmiş qalmışdır. Həmin öhdəliklərin yerinə yetirilməməsinə son qoyulması məqsədilə I Əlavə Protokolun 91-ci maddəsində nəzərdə tutulurdu ki, "Konvensiyanın və bu Protokolun müddəalarını pozan münaqişədə iştirak edən tərəf, vəziyyət tələb edərsə, konpensasiya ödəməyə borcludur. O, öz silahlı qüvvələrinin tərkibinə daxil olan şəxslərin törətdikləri bütün əməllərə görə məs'uliyyət daşıyır". Protokolun 80-ci maddəsində isə nəzərdə tutulur ki, "Razılığa gələn Yüksək Tərəflər və münaqişədə iştirak edən tərəflər Konvensiyaların və bu Protokolun onlara həvalə etdiyi vəzifələrin icrası üçün dərhal bütün lazımi tədbirləri görəcək, onlara əməl olunması üçün əmrlər və sərəncamlar verəcək və icrasına nəzarət edəcəklər". I Əlavə Protokol, həmçinin beynəlxalq hüquq pozuntularının aradan qaldırılması və qarşısının alınması üçün cavabdehlik daşıyan hüquq müşavirlərinin tə'yin edilməsi öhdəliyini müəyyən edir. Protokolun 82-ci maddəsinə əsasən "Razılığa gələn Yüksək Tərəflər hər zaman, münaqişədə iştirak edən tərəflər isə silahlı münaqişə zamanı Konvensiyaların və bu Protokolun tətbiqi və silahlı qüvvələrin bu məsələyə dair tə'limatlandırılması haqqında müvafiq səviyyələrdə hərbi komandirlərə zəruri olduqda məsləhət verə bilən hüquq müşavirlərinin olmasını tə'min edirlər". Həmin normaya müvafiq olaraq I Əlavə Protokolu ratifikasiya edən dövlət hərbi komandirlərin yanında hüquq müşavirlərinin tə'yin edilməsi öhdəliyini üzərinə götürür. Qəbul edilmiş normaya əsasən hüquq müşavirlərinin əsas vəzifəsi:

1) Cenevrə Konvensiyaları və Əlavə Protokolların tətbiqi ilə əlaqədar hərbi komandirlərə məsləhət vermək;

2) bütün səviyyələrdə həmin məsələlər üzrə silahlı qüvvələrin şəxsi hey'ətini öyrətməkdən ibarətdir.[7]

Hal-hazırda dövlətlərin bir hissəsi I Əlavə Protokolu ratifikasiya et-

---

7 Вах. Гюнтер Мориц. Юридические советники в вооруженных силах: положения и обязанности // Юридические советники в вооруженных силах. Статьи. М., МККК. 1999. с. 39-50

məyib, digərləri isə protokolun 82-ci maddəsi üzrə öhdəliyini yenicə yerinə yetirməyə başlayır. Ona görə də, bu sahədə təcrübə azdır.

J.Fonteno göstərirdi ki, "hərbi əməliyyatların aparılmasını nizama salan normaların yaranmasının səbəbi onların özlərində mə'nəvi xeyirxahlığı əks etdirməsi və ya onların pozulmasının ağır nəticələrə səbəb olmasından daha çox, mövcud olmasının və onlara riayət olunmasının hər iki tərəf üçün faydalı olmasındadır."[8]

Silahlı qüvvələrin hüquq müşavirləri hərbçilərin diqqətini ona cəlb etməlidirlər ki, kombatant hər şeydən əvvəl insandır və ona öz silahlı qüvvələrinin tərkibində olan şəxsi hey'ət kimi münasibət bəslənilməlidir.

Hüquq müşaviri hərbçiləri inandırmalıdır ki, müharibə hüququna riayət etmək onların özlərinin maraqlarına xidmət edir və müharibədə qələbəyə nail olunmasına kömək edir.

BQXK tərəfindən hazırlanmış döyüş əməliyyatları iştirakçılarının davranış məcəlləsində hərbçilər üçün silahlı münaqişə zamanı riayət edilməsi zəruri olan bir neçə norma müəyyənləşdirilmişdir: ancaq kombatantlara qarşı döyüş və əsir düşənlərlə humanist rəftar et; ancaq hərbi obyektlərə hücum et; döyüş tapşırığının yerinə yetirilməsi üçün tələb olunandan artıq ziyan vurma; mülki əhali və mülki obyektlərə qarşı rəhmli ol və s. Hüquq müşaviri bu prinsiplərin hansı cəhətdən əsgərlərin özləri üçün faydalı olmasını onlara izah etməlidir. Məsələn, ancaq kombatantlara qarşı vuruş və əsirlərlə humanist rəftar et prinsipi o cəhətdən zəruridir ki, ancaq kombatantlara qarşı vuruşmaq qüvvəyə qənaət etməyə, məhdud hərbi ehtiyatlardan səmərəli istifadə olunmasına imkan verir. Əsirlərlə qeyri-humanist rəftar düşməni əsir düşməmək üçün ölüncə mübarizə aparmağa sövq edir. Bu da həm canlı qüvvə, həm də hərbi ehtiyatın artıq sərfinə səbəb olur.

Müharibənin məqsədi düşmənin hərbi potensialını zəiflətməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün düşmənin daha çox hərbçisini öldürmək deyil, sıradan çıxartmaq, döyüş aparmaq imkanından məhrum etmək kifayətdir.

Silahlı qüvvələrdə hüquq müşavirinin olması faktı deyil, müharibə hüququna səmərəli riayət olunması birinci dərəcəli əhəmiyyət kəsb edir.

---

8 J. Fontenot. Development of the Staff Legal Officer's Responsibility under the Law of War.- RDPM, vol. 14, 1975, p. 73

İ.İ.Kotlyarov hüquq müşavilərinin vəzifələrini sistemləşdirərək onları müharibə və sülh vaxtı üçün iki qrupa bölmüşdür.[9]

Humanitar hüquq üzrə müşavirlərin fəaliyyətinə müharibə vaxtı daha çox ehtiyac hiss olunur. Çünki onlar beynəlxalq humanitar hüququn tətbiqi məsələləri ilə əlaqədar təklif verməklə hüquqazidd əməllərin baş verməsinin qarşısını ala bilərlər. Sözsüz ki, hüquq müşavirlərinin təklifi imperativ deyil və tövsiyə xarakteri daşıyır. Lakin komandir milli qanunlara və beynəlxalq hüquq noromalarına riayət etməlidir. Həm də bu normaları rədd etməklə o öz üzərinə beynəlxalq hüququn ciddi pozuntusu kimi məs'uliyyəti götürmüş olur. Bununla yanaşı, qanuna açıq surətdə zidd olan əmr onun tabeliyində olan şəxs tərəfindənn yerinə yetirilməyə bilər.

Hüquq müşavirləri öz rə'yini komandirlərin sorğusu, həm də öz təşəbbüsü ilə verə bilər. Digər tərfdən hüquq müşavirləri öz hərəkətləri ilə əmrin verilməsinə maneçilik törədə bilməz. Çünki onlar veto hüququna malik olmamalıdırlar. Onların vəzifəsi komandirə bu və ya digər fəaliyyətin hüquqi nəticələrini izah etməkdən ibarətdir. Xüsusən də I Əlavə Protokolun 11 və 85-ci maddələrində və ya 37, 38, 39, 54, 55-ci maddələrində nəzərdə tutulmuş ciddi pozuntular kimi qiymətləndirilə biləcək əməlin hüquqi nəticələrinin hüquq müşavirləri tərəfindən vaxtında izah edilməsi beynəlxalq humanitar hüququn pozulmasının qarşısının alınmasında mühüm rol oynaya bilər.

Hüquq müşavirlərinin verdiyi rə'y hərbi əməliyyatların aparılması (I Ə. P. mad. 57 və 58), müharibə aparılmasının metod və vasitələri(I Ə. P. mad. 35-42), kombatant və hərbi əsirlərin statusu (I Ə. P. mad. 43-47), mülki əhali (I Ə. P. mad. 48-51) və mülki obyektlərin mühafizəsini (I Ə. P. mad. 52-56) əhatə edə bilər.

Hüquq müşavirlərinin hərbi əməliyyat planlarının hazırlanmasında iştirak etməsi onun vəzifələrinin yerinə yetirilməsində mühüm sahəni təşkil edir. Bu hərbi əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilə bilən fəaliyyətin milli mədəni sərvətlərin, mülki obyektlərin, tibbi müəssisələrin, özündə qorxulu qüvvə saxlayan obyektlərin və s. hücumdan müdafiəsi üçün zəmin yaratmış olardı.

---

9 Вах Котляров И.И. Деятельность командиров и юридических советников в свете требований международного гуманитарного права // Московский журнал международного права. 4/2000/40 октябрь-декабрь с. 171-172.

Sülh zamanı hüquq müşavirlərinin xidmətlərindən istifadə olunmasına daha az ehtiyac duyulur. Bunula belə I Əlavə Protokol dinc dövrdə müəyyən tədbirlərin görülməsini tələb edir (I Ə. P. mad. 6, bənd 1; mad. 80, bənd 2; mad. 83, bənd 1). Dinc dövrdə hüquq müşavirlərinin vəzifəsi müharibə vaxtı onların öz missiyalarını həyata keçirməsi üçün hazırlıqdan ibarətdir.

Dinc dövrdə hərbi müşavirlər hərbi əməliyyatların metod və vasitələrinin seçilməsində, onların hazırlanmasında iştirak edə bilər. Onlar həmçinin, ordu tərəfindən keçirilən tə'lim və məşqlərdə də iştirak edə bilərlər.

Lakin dinc dövrdə hüquq müşavirlərinin əsas hüquq və vəzifəsi humanitar hüquq haqqında bilik və informasiyanın yayılmasından ibarətdir.

"Hüquq normalarının yerinə yetirilməsi üçün onları bilmək zəruridir. Hüququ bilmək tələb olunursa dövlət öz silahlı qüvvələrinin şəxsi hey'ətinin müvafiq hüquqi hazırlığını tə'min etməyə borcludur".[10]

Humanitar hüquq üzrə müşavirlərin statusu hər bir dövlət tərəfindən müstəqil surətdə müəyyənləşdirilir. Bə'zi ölkələrdə bu vəzifəni Müdafiə Nazirliyinə cəlb edilmiş mülki şəxslər (məs. AFR), digərlərində isə xüsusi hazırlıq keçmiş hərbçilər (məs. Niderland, Norveç) həyata keçirir.

CK-ya müvafiq olaraq hüquqi müşavirlərə hökmən hərbi qulluqçu statusu verilməlidir.

Belə bir ümumqəbulolunmuş fikir də mövcuddur ki, hüquq müşaviri təkcə hüquqi biliklərə deyil, həm də müharibə aparılmasının metod və vasitələrindən, qərargahın işindən də ətraflı mə'lumata malik olmalıdır.

Dinc dövrdə hüquq müşavirlərinin əsas vəzifəsini aşığıdakı kimi qruplaşdırmaq olar:

— cilahlı qüvvələrin şəxsi hey'ətinin beynəlxalq humanitar hüquq üzrə hazırlığının planlaşdırılması və həyata keçirilməsinə dair təkliflər hazırlamaq;

— müharibə vaxtı hüquq müşavirləri funksiyasını yerinə yetirə biləcək mütəxəssislər hazırlamaq;

---

10 Bax. Mitchell D.C. An analysis of Article 82 of Protocol I additional to the Geneva Conventions of 1949-Turner(Australia)-1986

— beynəlxalq humanitar hüquqa dair məsləhətləşmələr keçirmək.

Dinc dövrdə hərbi müşavirlər həmçinin, qərargah səviyyəsində əməliyyatların planlaşdırılmasında iştirak edə bilər.

Sülh dövründə hüquq müşavirləri beynəlxalq humanitar hüququn öyrədilməsini aşağıdakı istiqamətlərdə həyata keçirməlidir:

— hərbi akademiyalarda beynəlxalq humanitar hüququn tədrisi;

— qulluq etdikləri hərbi hissənin şəxsi hey'ətinin öyrədilməsi;

— aşağı səviyyəli zabitlərin öyrədilməsi;

— operativ döyüş tə'limləri şəraitində əsgərlərin öyrədilməsi.

Silahlı münaqişələr zamanı hüquq müşavirlərinin vəzifələri preventiv xarakter daşıyır. Onlar beynəlxalq humanitar hüquq normalarının tətbiqi və onlara riayət olunması ilə bağlı olur. Bu cəhətdən hüquq müşavirləri aşağıdakı fəaliyyəti həyata keçirir:

— planlaşdırılan və həyata keçirilən hərbi əməliyyatlar barədə komandirlərin müraciəti və hətta özlərinin təşəbbüsü ilə (propiro motu) fikrini söyləyir;

— ayrı-ayrı məsələlər üzrə ekspert rə'yi verir(məsələn, silahın seçilməsi barədə);

— hüquqi məsləhətlər verilməsi sisteminin fəaliyyətini tə'min edir;

— I Əlavə Protokolun 87-ci maddəsinə müvafiq olaraq komandirlərin vəzifələrini onlara xatırladır;

— aşağı bölmələr üçün hüquq müşavirlərinin köməkçilərini müəyyən edir;

— iri miqyaslı tə'limlərdə, müharibə dövrünün hərbi əməliyyatlar planlarının hazırlanmasında fəal iştirak edir, onların həyata keçirilməsinin nəticələrini hüquqi cəhətdən əsaslandırır.

Hüquq müşavirlərinin tə'yin edilməsi məsələsi ilə əlaqədar iki variant meydana çıxır. Hüquq müşaviri vəzifəsinə müvafiq hüquqi hazırlığı olan silahlı qüvvələrin zabitlərindən tə'yin etmək, yaxud bu vəzifəni yerinə yetirə biləcək mülki şəxslərdən hüquqşnasları də'vət edib, sonradan onları zəruri hərbi hazırlığı öyrətmək. Fikrimizcə, ikinci variant daha məqsədəmüvafiq hesab edilməlidir.

I Əlavə Protokolun 82-ci maddəsi protokolun iştirakçısı olan dövlət üzərinə silahlı qüvvələrdə hüquq müşavirlərinin olmasını tə'min edən zəruri normativ aktlar qəbul edilməsi öhdəliyi qoyur. Lakin hüquq müşavirlərinin tə'yin edilməsi və onlardan istifadə şərtləri müxtəlif ölkələrdə fərqli ola bilər. Bə'zi ölkələrdə ordunun bütün səviyyələrində

hüquq müşavirlərin tə'yin edilməsi tə'min edildiyi halda, digər ölkələrdə ancaq iri qoşun birləşmələrinin qərargahlarında, hərbi akademiyalarda onlardan istifadə edilməsi nəzərdə tutulur.[11] Yə'ni hüquq müşavirləri hey'ətinin hazırlanması və onların hazırlanması metodunun seçilməsi dövlətlərin özlərinin sərəncamına verilmişdir.

Azərbaycan Respublikası Cenevrə Konvensiyalarına əlavə kimi qəbul edilmiş 1977-ci il Protokollarına qoşulmadığına görə silahlı qüvvələrdə beynəlxalq humanitar hüquq üzrə hüquq müşavirlərinin tə'yin edilməsi öhdəliyi ilə də bağlı deyildir. Lakin 1949-cu il Konvensiyalarının iştirakçısı kimi Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına riayət edilməsi və onların silahlı qüvvələrdə tədrisi və öyrədilməsini öhdəsinə götürmüşdür. Fikrimizcə, bu öhdəliyin yerinə yetirilməsi ilə yanaşı silahlı qüvvələrin hüquq müşavirləri ilə tə'min olunması beynəlxalq humanitar hüquq normalarına riayət olunacağına tə'minat verən mütərəqqi addım olardı.

Beynəlxalq humanitar hüququn silahlı qüvvələrdə öyrədilməsində bilavasitə hərbi əməliyyatlar aparmaq üçün formalaşdırılan və bu məqsədlə hərbi hazırlıq keçənlərə üstünlük verilməlidir. Həmin hissələrin şəxsi hey'əti beynəlxalq humanitar hüquqla bağlı vəzifələrini yaxşı bilərsə, onlara əməl olunmasına daha tez nail olmaq, mə'nasız adam ölümü və maddi sərvətlərin lazımsız yerə dağıdılmasını minimuma endirmək olar. Bu cəhətdən 1977-ci ildə Varşavada BQXK tərəfindən CK haqqında biliklərin yayılması ilə əlaqədar keçirilən seminarda qəbul edilmiş "Əsgərlər üçün qaydalar" diqqəti cəlb edir. Həmin qaydalar 12 tövsiyədə öz ifadəsini tapmışdır:

1. İntizamlı əsgər ol. Müharibə hüququna riayət etməmək ordunu, əsgəri nüfuzdan sala və həddən artıq əzablara səbəb ola bilər. Bu çox vaxt düşmənin döyüş qabiliyyətini sarsıtmaq əvəzinə, onu möhkəmləndirir.

2. Ancaq düşmənin kombatantlarına qarşı döyüş aparmaq, ancaq hərbi obyektlərə hücum etmək olar.

3. Döyüş tapşırıqlarını yerinə yetirmək üçün tələb olunandan artıq dağıntıya yol vermə.

4. Sıradan çıxmış və ya təslim olmuş düşmənlə vuruşma, onu tərksilah et və komandirinə təhvil ver.

---

11 Кристер Телин. Юридические советники в вооруженных силах: опыт Швеции // Юридические советники в вооруженных силах. Статьи. М., МККК. 1999. С. 71-90

5. Yaralı və xəstələri topla, hansı tərəfə mənsub olmasından asılı olmayaraq onlara kömək et.

6. Bütün mülki şəxslər və ələ keçmiş düşmənlə humanist rəftar et.

7. Hərbi əsirlərlə humanist rəftar olunmalıdır. Onlar ancaq öz şəxsiyyəti ilə əlaqədar mə'lumatları verə bilər. Hərbi əsirlərə fiziki və mə'nəvi işgəncə vermək qadağandır.

8. Girov götürmək qadağandır.

9. Hər hansı qisasçılıqdan çəkin.

10. Qırmızı Xaç, Qırmızı Aypara nişanı, parlamentyor bayrağı gəzdirən şəxs və ya mədəni mülkiyyət obykektini bildirən emblemlə nişanlanmış predmetlərə hörmətlə yanaş.

11. Başqasının əmlakına hörmətlə yanaş.

12. Çalış bu qaydaların pozulmasına mane ol. Hər hansı pozuntu barədə komandiri mə'lumatlandır. Müharibə hüququnun hər cür pozuntusu cəzalandırılmalıdır. Silahlı qüvvələr üçün ancaq müharibənin gedişində tətbiq edilməli olan qaydalar əhəmiyyət kəsb etməlidir. Kimin təqsirli olması, kimin isə müharibə qurbanı olması beynəlxalq humanitar hüququn predmetini təşkil etmir. Hərbçilər ölkənin müharibə vəziyyətində olmasını və silahlı münaqişə zamanı tətbiq edilməli olan beynəlxalq humanitar hüquq normalarını (jus in bello) bilməli və onlara riayət etməlidirlər. Beynəlxalq humanitar hüquqa hörmət müharibənin səbəb və ədalətliliyi barədə şəxsi fikirlərdən asılı olmamalıdır.

Fəsil XIV

BEYNƏLXALQ QIRMIZI XAÇ VƏ QIRMIZI AYPARA HƏRƏKATI

1. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatı və onun tərkib hissələri

Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatı özündə üç ünsürü birləşdirir: Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətləri, Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Federasiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi. Hərəkatın tərkib hissələri özlərinin müstəqilliyini qorumaqla, həmişə əsas prinsiplərə uyğun fəaliyyət göstərir və ümumi məqsədlərə çatmaq üçün müvafiq vəzifələri yerinə yetirməkdə öz aralarında əməkdaşlıq edirlər. Göstərilən müddəalar Beynəlxalq Qırmızı Xaçın 1986-cı ilin oktyabr ayında Cenevrədə keçirilən XXV Beynəlxalq Konfransında qəbul edilmiş Qırmızı Xaç və Qırmızı Aypara Beynəlxalq Hərəkatının Nizamnaməsində[1] öz əksini tapmışdır.

Cenevrə Konvensiyalarının iştirakçısı olan dövlətlər hərəkatın hər üç tərkib hissəsi ilə əməkdaşlıq etməli və öz ərazisində milli cəmiyyətlərin yaradılmasına diqqət yetirməlidir (mad. 2). Hərakatın ali məşvərətçi orqanı Beynəlxalq Konfransdır. Konfrans ümumi maraq doğuran humanitar məsələlərə baxır və qərar qəbul edir(mad. 8).

Beynəlxalq Konfransın üzvləri milli cəmiyyətlərin, BQXK-nin, Federasiyanın və Cenevrə Konvensiyasının iştirakçısı olan dövlətlərin nümayəndələrindən ibarətdir. Hər bir nümayəndəlik bərabər hüquqludur və bir səsə malikdir. Hər bir nümayəndə yalnız bir nümayəndəliyə daxil ola bilər(mad. 9).

Beynəlxalq Konfrans Hərəkatın vahidliyinə və beynəlxalq humanitar hüquqa riayət olunması və onun inkişafına çalışmalıdır (mad. 10). Konfrans başqa qərara gəlməzsə dörd ildə bir dəfə toplanır.

---

1 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М., МККК. с. 9-33

Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının Nümayəndələr Şurası Hərəkatın tərkib hissələrinin bütövlükdə Hərəkata aid olan məsələləri müzakirə etdiyi orqandır. Şuranın üzvləri milli cəmiyyətlərin, BQXK-nin və Federasiyanın üzvlərinin nümayəndələrindən ibarətdir. Şura Beynəlxalq Konfransa verilən məsələlər barədə qərar qəbul edə bilər. Şura Beynəlxalq Konfransdan əvvəl və öz təşəbbüsü ilə istədiyi vaxt toplana bilər.

Konfranslararası müddətdə fəaliyyət üçün Daimi Komissiya yaradılır. Komissiya əsasən təşkilati məsələlərlə məşğul olur. Daimi Komissiyanın qərargah mənzili Cenevrədə yerləşir.

Qırmızı Xaçın əsas prinsipləri 1965-ci ildə Vyanada Qırmızı Xaçın XX Beynəlxalq Konfransının IX qətnaməsində bəyan edilmişdir:

İnsanpərvərlik. Ayrı-seçkilik etmədən döyüş meydanlarındakı yaralılara yardım zərurətindən yaranmış Qırmızı Xaç istər beynəlmiləl, istərsə də milli görkəmdə hər bir vəziyyətdə insan əzablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. O, insanın həyatı və sağlamlığı ilə yanaşı şəxsiyyətinə də hörmət olunmasını himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında möhkəm sülh və əməkdaşlıq, dostluq, qarşılıqlı anlaşma olması üçün çalışır.

Qərəzsizlik. O heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə və ya siyasi görüşü və sosial mövqeyinə görə fərq qoymur. O, adamlara düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

Neytrallıq. Hamının ona olan inamını qorumaq məqsədilə düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və fəlsəfi mübahisələrdə bitərəf mövqe tutur.

Müstəqillik. Qırmızı xaç müstəqildir. Öz insanpərvərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla milli cəmiyyətlər muxtariyyətini qoruyub saxlayırlar ki, bu da onlara Qırmızı Xaçın müddəaları ilə işləmək imkanı verir.

Könüllülük. Qırmızı Xaç heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

Birlik. Bir ölkədə yalnız bir Qırmızı Xaç Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik işini bütün ərazidə görməlidir.

Universallıq. Qırmızı Xaç universal bir qurumdur ki, bu qurumda bütün cəmiyyətlərin bərabər hüquqları var və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

Bu prinsiplər beynəlxalq hüququn bir hissəsinə çevrilmişdir. Belə ki, Cenevrə Konvensiyalarında da bu prinsiplərə istinad edilir. I Cenevrə Konvensiyasının 44-cü maddəsində göstərilir ki, milli Qırmızı Xaç (Qırmızı Aypara) cəmiyyətləri dinc dövrdə öz milli qanunvericiliklərinə uyğun olaraq Qırmızı Xaçın adından və emblemindən Beynəlxalq Qırmızı Xaç Konfransının irəli sürdüyü prinsiplərə cavab verən özlərinin digər fəaliyyət növləri üçün də istifadə edə bilərlər. Yaxud I Əlavə Protokolun 81-ci maddəsinin 2-ci hissəsində göstərilir ki, münaqişədə iştirak edən tərəflər özlərinin müvafiq Qırmızı Xaç(Qırmızı Aypara) təşkilatlarına Konvensiyanın və həmin Protokolun müddəalarına və Qırmızı Xaçın əsas prinsiplərinə uyğun olaraq, həmin münaqişə qurbanlarının xeyrinə humanitar fəaliyyət göstərmək üçün lazımi vasitələr verirlər.

Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının qəbul etdiyi prinsiplər onun hər üç tərkib hissəsinin fəaliyyəti üçün əsas hesab olunur.

XXV Beynəlxalq Konfransda Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının prosedura qaydaları qəbul edilmişdir.[2]

2. Beynəlxalq Qırmızı Xaç Komitəsi

Beynəlxalq Qırmızı Xaç Komitəsinin yaranması tarixindən bəhs olunarkən bir qayda olaraq, Salferino döyüşü xatırlanır. 24 iyun 1859-cu ildə İtaliyanın şimalında Salferino şəhərciyi yaxınlığında Avstriya və Fransa qoşunları toqquşdular. 16 saat davam edən döyüşdən sonra döyüş meydanında 40 min ölü və yaralı qalmışdı.

Həmin gün axşam tərəfi İsveçrə vətəndaşı Anri Dünan işi ilə əlaqədar bu yerlərdən keçərkən dəhşətli mənzərənin şahidi oldu. Hər iki ordunun sanitar xidməti o qədər azsaylı idi ki, minlərlə yaralı, əzab çəkən əsgərlər taleyin hökmünə buraxılmışdı. Dünan ətraf kəndlərin dinc əhalisini köməyə çağıraraq hansı tərəfə mənsub olmasından asılı olmayaraq yaralılara kömək göstərməyə başladı. İsveçrəyə qayıtdıqdan sonra Dünan gördüyü dəhşətləri heç cür unuda bilmirdi. Ona görə də, o, "Salferino döyüşü haqqında xatirələr" kitabını yazmağa başladı. 1862-

2 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М., МККК. с. 35-49

ci ilin noyabrında Dünan kitabı nəşr etdirib dostalarına, hərbçilərə, həkimlərə və tanınmış şəxslərə göndərdi. Kitabın sonunda Dünan iki təkliflə çıxış edirdi:

— hələ dinc dövrdə müharibə vaxtı hərbi-tibbi xidmətə yardımçı hey'ət kimi kömək edəcək könüllülər briqadası yaradılsın və beləliklə yaralılara yardım göstərilsin;

— yaralılara, həkimlərə, tibbi hey'ətə, qospitallara mühafizə və neytrallıq statusu verən beynəlxalq konvensiya hazırlansın.[3] 9 fevral 1863-cü ildə İsveçrə hüquqşünası Muanyenin rəhbərlik etdiyi Cenevrə İctimai Rifaha Yardım Xeyriyyə Cəmiyyəti Dünanın ideyalarının həyata keçirilməsi imkanlarını öyrənmək üçün 5 nəfərdən ibarət komissiya yaratmaq barədə qərar qəbul etdi.

Qustav Muanye, Qiyoma-Anri Dyüfur, Lui Appia, Teodor Monuar və Anri Dünandan ibarət olan komissiya 17 fevral 1863-cü ildə "Yaralılara yardım göstərmək üzrə beynəlxalq komitə" yaratdı.[4] Beynəlxalq Komitə 1875-ci ildən Beynəlxalq Qırmızı Xaç Komitəsi adlanır (1880-ci ildən bu addan geniş istifadə edilir) və yaranma günü kimi 17 fevral qeyd olunur.

1863-cü ilin fevral ayının 26-29-da Komitə ilk Beynəlxalq Konfransı çağırdı. Konfransda 16 dövlətin nümayəndəsi iştirak edirdi. Konfransda Dünanın ideyalarını əks etdirən 10 qərar qəbul edildi. Hər bir ölkə müharibə vaxtı zəruri hallarda sanitar xidmətinə yardım göstərməli olan komitə yaratmalıdır. Komitənin çoxsaylı bölmələri ola bilər. Hər bir komitə öz ölkəsinin hökuməti ilə əlaqə yaratmalıdır ki, onun xidmətləri qəbul edilsin. Komitələr dinc vaxtı maddi imkanlar yaratmaq məqsədilə hazırlıq işləri görməlidirlər. Hərbi hakimiyyətin razılığı ilə müharibə vaxtı komitə döyüş meydanlarına könüllü sanitar hey'əti göndərə bilər. Həmin hey'ət qolunda, üzərində qırmızı xaç olan ağ fərqləndirici sarğı gəzdirməlidir. Komitələr təcrübələrini ümumiləşdirmək üçün məclisə toplaşa bilərlər. Komitələr arasında mə'lumat mübadiləsi Cenevrə Komitəsi vasitəsi ilə aparılacaqdır. Qəbul olunmuş qərarlardan əlavə Komitə tövsiyə edirdi ki, hökumətlər komitələrə yardım üçün himayəçilik etməli və onlara vəzifələrini yerinə yetirməkdə köməklik göstərməli, müharibə zamanı döyüşən dövlətlər sanitar nəqliyyatı və hərbi qospitalların neytrallığını e'lan etməli, rəsmi tibbi

3 Анри Дюнан. Воспоминание о битве при Сольферино. М., МККК. 1995

4 Буасье П. Первые года Красного Креста. М., МККК. 1994. с. 8-10

hey'ət və könüllü tibbi hey'ət, yaralılara köməyə gələn ölkə əhalisi və yaralıların özlərini tamamilə və neytral e'lan edilməli, eyni ordu üçün vahid fərqləndirici nişan müəyyən edilməlidir.[5]

1864-cü ildə Komitənin təşəbbüsü ilə çağırılan Diplomatik konfransda "Döyüşən orduda yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" ilk Konvensiyanı qəbul etdi və bununla da beynəlxalq humanitar hüququn əsası qoyuldu. Konvensiyaya əsasən yaralı döyüşçü düşmən hesab olunmur, ona yardım və qayğı göstərilməli idi.

1864-cü il "Danimarka müharibəsi", 1866-cı ildə başlanan Avstriya-Prusiya müharibəsində BQXK sınaqdan çıxdı. Bu müharibələr zamanı Qırmızı Xaç qospitalları yaradıldı, qospitallarda əsgərlərə milliyyətindən asılı olmayaraq tibbi yardım göstərildi. Artıq 1869-cu ildə BQXK-nin 21 milli cəmiyyəti yaradılmışdı.

Əlbəttə, ilk vaxtlar BQXK-nin fəaliyyəti məhdud xarakter daşıyırdı. Əvvəla, BQXK belə mövqedə idi ki, "yerlərdə" yardım göstərmək üzrə fəaliyyət milli cəmiyyətlərin səlahiyyətindədir. İkinci, Qırmızı Xaçın fəaliyyəti ancaq döyüşən orduda yaralı və xəstələrə yardım göstərməklə məhdudlaşırdı. Həmin vaxtlar BQXK-nin qarşısında aşağıdakı vəzifələr dururdu:

a) Qırmızı Xaçın prinsiplərinin sarsılmazlığını dəstəkləmək və yeni ideyaları təbliğ etmək;

b) hərəkatın beynəlxalq mərkəzinə çevrilmək;

v) Cenevrə Konvensiyalarına riayət edilməsinə nəzarət etmək;

q) Mə'lumat agentliyi yaratmaq;

ğ) neytral dövlətlərin milli cəmiyyətləri tərəfindən döyüşən ölkələrin cəmiyyətlərinə göstərilən köməyi əlaqələndirmək.[6]

1914-1918-ci illər I Dünya Müharibəsi zamanı BQXK öz fəaliyyətini əhəmiyyətli dərəcədə genişləndirməli oldu. Müharibə dövründə hərbi əsirlərin sayının son dərəcə artması BQXK-nin Cenevrədə Mə'lumat Agentliyi açmasına səbəb oldu. Hərbi əsirlərlə onların ailələri arasında əlaqə yaradılması zəruri idi. Haaqa Konvensiyasının ancaq sülh sazişi bağlandıqdan sonra əsirlər haqqında mə'lumatların verilməsini nəzərdə tutulmasına baxmayaraq BQXK döyüşən dövlətlərdən bu

---

5 Международное движение Красного Креста и Красного полумесяца. Сборник Уставов и других документов. М., МККК. 1995. с. 5-7

6 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК.1997.с.15-16

cür mə'lumatları almaq barədə razılıq əldə etdi. Hərbi əsirlərə fərdi bağlama və kollektiv yardımlar göstərilməsinin təşkilində də böyük iş görüldü. BQXK-nin köməyi ilə kollektiv yardım kimi 1813 vaqon yük hərbi əsirlərə çatdırılmışdı.[7] BQXK hərbi əsirlərin repatriasiyasında da mühüm fəaliyyət göstərmişdi.

Birinci Dünya Müharibəsi gedişində BQXK mülki əhalinin mühafizəsi problemi ilə üzləşdi. Hərbi əsirlərə münasibətdə əldə edilən uğurları mülki əhaliyə münasibətdə də qazanmaq lazım idi. Mülki əhalinin mühafizəsi ilə əlaqədar ayrı salınmış ailələr problemi də öz həllini gözləyirdi. İşğal olunmuş ərazilərdə mülki əhali məcburi əməyə cəlb edilir, deportasiya olunur, girov götürülürdü. Müharibədən sonra Mərkəzi Avropa ölkələrində mülki əhali arasında aclıq və epidemiya ilə mübarizədə böyük iş görülmüşdü. Amerika Qırmızı Xaçının böyük təşkilatçılıq işi nəticəsində Avropaya 325 milyon dollar həcmində humanitar yardım göstərildi.[8]

BQXK-nin I Dünya müharibəsi dövründəki humanitar fəaliyyəti 1917-ci ildə Nobel Sülh mükafatına layiq görüldü.

Təşkilati cəhətdən irəliləyiş Beynəlxalq Qırmızı Xaçın 1928-ci ildə Haaqada keçirilən Konfransında Nizamnaməsinin qəbul edilməsi oldu. Bununla da Beynəlxalq Qırmızı Xaç təşkilata çevrildi.

1 sentyabr 1939-cu ildə II Dünya müharibəsi başlanandan sonra BQXK qarşısında üç istiqamətdə vəzifə dururdu: münaqişə qurbanlarının mühafizəsi, onlar haqqında mə'lumat vermək və onlara yardım göstərmək. Müharibə ərzində BQXK-nin nümayəndələri düşərgələrə 11 min dəfə baş çəkmişdilər.[9]

BQXK-nin fəaliyyətinin digər istiqaməti mə'lumat toplamaq idi. Axtarış üzrə Mərkəzi Agentlik bununla məşğul olurdu. Müharibə vaxtı agentliyə 53 milyon məktub və teleqram daxil olmuş, agentlik 30 min nəfərin taleyini müəyyən etmişdi.[10]

---

7 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК.1997.с.25

8 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК. 1997. с.29

9 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК.1997.с.43

10 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК.1997.с.45-46

BQXK-nin fəaliyyətinin bir istiqaməti də maddi yardımın göstərilməsi idi. Kollektiv yardımların çatdırılması sahəsində komitə əhəmiyyətli iş görmüşdü.

Mülki əhaliyə münasibətdə hüquqi bazanın olmaması onlara BQXK tərəfindən yardım göstərilməsini çətinləşdirirdi.

II Dünya müharibəsi zamanı humanitar fəaliyyətinə görə BQXK 1945-ci ildə Nobel Sülh mükafatına layiq görüldü. II Dünya müharibəsindən sonra da harada baş verməsindən asılı olmayaraq BQXK silahlı münaqişə yerlərində öz fəaliyyətini həyata keçirmişdir.[11]

1949-cu il Cenevrə Konvensiyaları hüquqi baza kimi BQXK üçün mühüm rol oynayır. Belə ki, Cenevrə Konvensiyalarının 60 maddəsində BQXK və Mərkəzi Axtarış Agentliyinə istinad edilir. 1977-ci il Əlavə Protokollarında daha 8 maddədə BQXK xatırlanır.

1949-cu il Cenevrə Konvensiyaları Mərkəzi Agentliyin fəaliyyətini həyata keçirməsi üçün daha geniş imkanlar açdı. Belə ki, III Cenevrə Konvensiyasının 123-cü maddəsində mə'lumatların ötürülməsi üçün agentliyə bütün imkanların yaradılması öhdəliyi öz əksini tapmışdı. Bu məqsədlə onlar xidməti radio ötürücülərdən sərbəst istifadə edə bilərlər. Eyni zamanda həmin maddədə dövlətlər agentliklərə yardım göstərməyə çağırılırdı. Daha bir prinsipial yenilik mülki şəxslərin işləri üzrə Mərkəzi Axtarış Agentliyinin yaradılmasının nəzərdə tutulması idi. IV Konvensiyaya müvafiq olaraq həmin agentlik hərbi əsirlərin işləri üzrə agentliyə oxşar olmalıdır. Faktiki olaraq hər iki agentlik BQXK-nin qərargah mənzilində yaradılmışdı. Onlar biri-birinə qovuşduqdan sonra Axtarış üzrə mərkəzi agentlik adlanmağa başlandı. I Əlavə Protokol agentliyin vahidliyini təsbit etdi. BQXK nümayəndələrinin hərbi əsirlərin düşərgələrinə baş çəkmək səlahiyyəti III Cenevrə Konvensiyasının 126-cı maddəsində öz ifadəsini tapmışdır. Nümayəndələr hərbi əsirlərin olduğu düşərgələrə baş çəkmək, onlarla şahidsiz söhbət etmək səlahiy-

---

11 Bax. Флорианна Трунингер. Международный Комитет Красного Креста и война в Индокитае. От разгрома Японии до Женевских соглашений(1945-1954) // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1994.с.59-92; Франсуа Бюньон. От окончания второй мировой войны к порогу третьего тысячелетия: деятельность Международного Комитета Красного Креста в период холодной войны и после ее оканчания: 1945-1995 гг. // Международный Журнал Красного Креста. Март-апрель 1995. № 3 с. 255-275

yətinə malikdirlər. Bü görüşlərin müddəti, sayı məhdudlaşdırılmamalı və nümayəndələr görüş yerini seçməkdə sərbəst olmalıdırlar.

IV Konvensiya nəzarət altında saxlanılması səbəbindən asılı olmayaraq mülki şəxslərin nəzarət altında saxlanılması yerlərinə BQXK nümayəndələrinin baş çəkməsini nəzərdə tutur. 143-cü maddədə göstərilir ki, BQXK nümayəndələri himayədə olan şəxslərin olduğu yerlərə, o cümlədən onların saxlanma, həbs və iş yerlərinə baş çəkə bilər. III Cenevrə Konvensiyasının 125-ci maddəsinə əsasən BQXK yardım göstərmək üzrə fəaliyyəti tanınmalı və ona hörmət olunmalıdır. 1949-cu ilə kimi BQXK-nin Qırmızı Xaç emblemindən istifadə etmək hüququ olmadığı halda Cenevrə Konvensiyalarına əsasən BQXK heç bir məhdudiyyət olmadan emblemdən istifadə edə bilər. Tərəflər arasında Konvensiyaların tətbiqi ilə əlaqədar razılıq olmadıqda(mad. 11), həmçinin sanitar zonalar və təhlükəsizlik zonaları yaradılması üçün (I CK mad. 23, IV CK mad. 14) BQXK-nə müraciət edilməsi nəzərdə tutulur. Himayədə olan şəxslər həmişə BQXK-nə müraciət edə bilər (III CK mad. 30). Hərbi əsirlər və nəzarət altında saxlanan mülki şəxslərin "e'timad etdiyi şəxslər" BQXK-nə müraciət edə bilər (III CK mad. 79, IV CK mad. 102). Xəstə və yaralı hərbi əsirlərə baş çəkmək, zəruri hallarda onların repatriasiyası haqqında qərar qəbul etmək haqqında səlahiyyəti olan Qarışıq Tibbi Komissiyalar yaradılarkən BQXK-nin rolu nəzərə alınır (III CK Əlavə 2).

Təşkilati cəhətdən 1951-ci ildə Qırmızı Xaç Cəmiyyəti və BQXK arasında bağlanmış sazişi qeyd etmək lazımdır. Həmin sazişş bir il sonra ratifikasiya olundu. Sazişə əsasən bu iki qurum arasında səlahiyyətlər bölüşdürülürdü. Belə ki, Qırmızı Xaçın əsas prinsiplərini dəstəkləmək, yeni milli cəmiyyətləri tanımaq, Cenevrə Konvensiyalarının yerinə yetirilməsinə nəzarət etmək, müharibə qurbanlarına və beynəlxalq hüququn inkişafına yardım etmək BQXK-nin səlahiyyətinə aid edilirdi.

Cəmiyyətin səlahiyyətinə isə aşağıdakılar daxil edilirdi: milli cəmiyyətlər arasında daimi əlaqə və koordinasiya orqanı kimi çıxış etmək, hər bir ölkədə milli cəmiyyətlərin yaradılması və inkişafına yardım etmək, təbii fəlakət, epidemiya zamanı Qırmızı Xaçın yardım göstərmək üzrə əlaqələndiricisi rolunu oynamaq və s.

Münaqişə zamanı maddi yardımı əlaqələndirmək, qaçqınlara yardım göstərmək, sanitar hey'ətinin peşə hazırlığı hər iki qurumun səlahiyyətinə aid edilirdi.

İsveçrə milli hüququ nöqteyi-nəzərindən BQXK-nin mövqeyi aydın-

dır. Onun qərargah mənzili İsveçrədə yerləşir. Üzvləri İsveçrə vətəndaşlarıdır. Onların sayı 15 — 25 nəfərdir. Üzvlər kooptasiya, yə'ni yeni üzvlərin artıq məclisə daxil olan üzvlər tərəfindən tə'yin olunması prinsipi əsasında seçilir. Üzvlərin seçilməsində onların şəxsi keyfiyyətləri, humanist ideyalara xidmət etmək istəyi və təcrübəsi əsas götürülür. 1915-ci ilə kimi BQXK sadəcə cəmiyyət kimi fəaliyyət göstərirdi. 1915-ci ildən İsveçrə Mülki Məcəlləsinin 60-cı maddəsinə əsasən Assosiasiya hesab olunmaqla hüquqi şəxsdir. Buna müvafiq olaraq komitə İsveçrə hüququna, beynəlxalq ümumi hüquqa uyğun fəaliyyət göstərməlidir.

Hazırda BQXK-nin səlahiyyət və funksiyaları onun Nizamnaməsi ilə müəyyən olunur. Nizamnamə 21 iyun 1973-cü ildə qəbul edilmiş, 6 dekabr 1973-cü ildə, 1 may 1974-cü ildə, 14 sentyabr 1977-ci ildə, 29 aprel 1982-ci ildə, 20 yanvar 1988-ci ildə, 2 may 1991-ci ildə ona dəyişiklik edilmişdir.[12] Nizamnamənin son variantı 20 iyul 1998-ci ildə qəbul edilmişdir.[13]

Nizamnaməyə əsasən BQXK xüsusi statusa malik müstəqil təşkilatdır (mad. 1). BQXK-nin üzvləri ancaq İsveçrə vətəndaşları ola bilər. Lakin onun əməkdaşlarının çox hissəsinin İsveçrə vətəndaşı olmasına baxmayaraq bu qayda əməkdaşlara münasibətdə tətbiq olunmur. Nizamnaməyə müvafiq olaraq komitənin tərkibi 15-25 nəfər müəyyən edilir. BQXK üzvləri hər 4 ildən bir yenidən seçilir.

BQXK-nin ali orqanı Assambleyadır. Assambleya BQXK-nin siyasətini və fəaliyyət prinsiplərini müəyyənləşdirir və proqnozlaşdırır. Onun tərkibinə BQXK-nin Prezidenti və iki vitse-prezidenti də olmaqla BQXK-nin bütün üzvləri daxildir. Prezident və vitse-prezidentlər Assambleyada da eyni vəzifəni yerinə yetirirlər (mad. 9). Assambleyanın orqanı onun nəzarəti altında fəaliyyət göstərən və Assambleyanın seçdiyi üzvlərdən ibarət olan Assambleya Şurasıdır. O, Assambleyanın iclaslarını hazırlayır və səlahiyyətinə daxil olan məsələlər üzrə qərarlar qəbul edir. Assambleya Şurası Direktor və Assambleya arasında əlaqəni həyata keçirir və Assambleya qarşısında hesabat verir. Assambleya Şurasına BQXK-nin Prezidenti rəhbərlik edir.

12 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М. МККК. 1995. с. 66

13 International Review of the Red Cross. 1998. № 324. p. 537-543

Assambleyanın Prezidenti təşkilatın xarici əlaqələrinə görə cavabdehlik daşıyır, beynəlxalq əlaqələrdə BQXK-ni rəsmi olaraq təmsil edir. Eyni vaxtda həm Assambleya, həm də onun Şurasının Prezidenti olmaqla o, icranı tə'min edir.

İcra orqanı Assambleya və Assambleya Şurasının müəyyən etdiyi BQXK-nin məqsəd və strategiyasının həyata keçirilməsinə görə cavabdehlik daşıyan Diretorluqdur. Direktorluq Assambleyanın tə'yin etdiyi Baş Direktor və üç direktordan ibarətdir. Direktorluq BQXK-nin bütün inzibati hey'ətinin səmərəli fəaliyyətinə görə cavabdehlik daşıyır (mad. 12).

BQXK-nin maliyyə və əməliyyat fəaliyyəti üzərində nəzarət funksiyasını Nəzarət Komissiyası həyata keçirir. O, Direktorluqdan asılı olmadan fəaliyyət göstərir və Assambleya qarşısında hesabat verir. BQXK-nin fəaliyyətinə və öz strategiyasını həyata keçirmək üçün tətbiq etdiyi vasitələrin səmərəliliyinə müstəqil əsasda qiymət verir (mad. 14)

Maliyyə vəsaiti dövlətlərin, Milli Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətlərinin üzvlük haqlarından, ianələrdən, bağışlamalardan, vəsiyyət üzrə alınmış əmlakdan və qiymətli kağızlardan gələn vəsaitlərdən yaranır. BQXK-nin vəsaitlərindən ancaq humanitar məqsədlər üçün istifadə etmək olar və bu müstəqil təşkilat tərəfindən yoxlanılır. Komitə buraxılacağı təqdirdə üzvlərin onun əmlakına iddiası olmayacaqdır. "Inter arma caritas" ("döyüş meydanında mərhəmət") və "Per humanitatem ad pacem" ("humanizmdən sülhə doğru") BQXK-nin devizləridir.

BQXK-nin səlahiyyətləri sülh dövründə və silahlı münaqişələr və daxili qarışıqlıqlar zamanı səlahiyyətlərə bölünməklə iki qrupa ayrılır.

Sülh zamanı BQXK-nin səlahiyyətlərinə aşağıdakılar daxildir:

a) Hərəkatın insanpərvərlik, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllülük, birlik, universallıq kimi prinsiplərinə tərəfdar çıxmaq və onları yaymaq;

b) Hərəkatın Nizamnaməsində nəzərdə tutulmuş tanınma şərtlərinə cavab verən hər bir yeni yaranmış milli cəmiyyəti və ya öz strukturunu dəyişmiş cəmiyyəti tanımaq və bu barədə başqa cəmiyyətlərə mə'lumat vermək;

v) Qırmızı Xaç və Qırmızı Aypara Beynəlxalq Konfransının üzərinə qoyduğu səlahiyyətləri həyata keçirmək.

Silahlı münaqişə və daxili qarışıqlıqlar zamanı BQXK-nin səlahiyyətlərinə aşağıdakılar daxildir:

a) beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələr, daxili qarışıqlıqlar və iğtişaşlar zamanı humanitar fəaliyyətini həyata keçirən neytral qurum kimi həm döyüş əməliyyatlarında iştirak etməyi dayandırmış kombatantların, həm də mülki əhalinin mühafizəsini tə'min etmək;

b) Cenevrə Konvensiyaları ilə üzərinə qoyulmuş beynəlxalq humanitar hüququn müddəalarına riayət etmək vəzifələrini yerinə yetirmək və onların pozulmasına aid şikayətləri qəbul etmək;

v) Cenevrə Konvensiyalarının müddəalarına müvafiq olaraq Axtarış üzrə mərkəzi agentliyin fəaliyyətini tə'min etmək;

q) silahlı münaqişələr ərəfəsində milli cəmiyyətlərlə və digər hərbi və mülki tibbi xidmətlə əməkdaşlıqda tibbi hey'ətin tə'limində, tibbi avadanlıqla tə'min olunmada iştirak etmək.

Beynəlxalq humanitar hüquq sahəsində tanınmış mütəxəssis olan Jan Pikte Beynəlxalq Qırmızı Xaç Komitəsinin norma yaratma fəaliyyətinə toxunaraq göstərmişdir ki, "BQXK saysız-hesabsız hökumətlərarası konfranslarda iştirak etmişdir. BQXK-nin İsveçrə hökuməti tərəfindən Cenevrə Konvensiyalarına yenidən baxılması üçün çağırılan Diplomatik konfranslarda ekspert kimi məşvərətçi səslə iştirak etmək hüququ vardır. Beynəlxalq hüquq normalarının hazırlanmasına gəldikdə isə hamıya belə bir fakt mə'lumdur ki, BQXK özünün mövcudluğunun lap ilk vaxtlarından Cenevrə Konvensiyalarının yaradılması və inkişafında birinci dərəcəli rol oynamışdır. Beynəlxalq münaqişələr zamanı BQXK döyüşən tərəflər arasında həmin konvensiyalara əlavə olaraq xüsusi sazişlər bağlanılmasına nail olmuşdur. Beləliklə, BQXK-ni haqlı olaraq humanitiar hüquq istehsalı üzrə zavod adlandırmaq olar".[14]

Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının Nizamnaməsinin 5j maddəsinə əsasən BQXK-nin vəzifələrindən biri silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq humantar hüququn müddəalarını izah etmək, onlar haqqında biliklərin yaymaq və onun inkişafını hazırlamaqdır. 135 ildən artıq müddətdir ki, BQXK Cenevrə Konvensiyalarının qəbul edilməsinin təşəbbüsçüsü və yaradıcısı kimi tanınır. Cenevrə Konvensiyalarının yenidən nəzərdən keçirilməsi və ya

14 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. МККК. М., 1997. с.70.

hüququn hər hansı aspekti ilə bağlı məsələ qarşıya çıxdığı halda BQXK silahlı münaqişələr zamanı toplanmış təcrübəyə istinad edərək tamamlanmağa və ya inkişaf etdirilməyə ehtiyacı olan normanın üzərində diqqətin cəlb edilməsi üçün müvafiq sənədlər toplayır. Sonra hökumət ekspertləri, BQXK və digər humanitar təşkilatların mütəxəssislərinin iştirakı ilə konvensiya layihələri hazırlanır. Layihələr Beynəlxalq Qırmızı Xaç Komitəsinin konfransının baxışına verilir. Konfrans zəruri hallarda düzəlişlər edərək onları təsdiq edir.

Bundan sonra isə layihə Cenevrə Konvensiyalarının depozitarisi olan dövlətin icra hakimiyyəti orqanı — İsveçrə Federal Şurasına verilir. Federal Şura Diplomatik Konfransı çağırmaq və ya təşkil etmək səlahiyyətinə malikdir. Cenevrə Konvensiyaları məhz 1864, 1868, 1906, 1929, 1949, 1974-1977-ci illərdə keçirilmiş Diplomatik Konfranslarda qanun qüvvəsinə minmişdir. BQXK nümayəndələri həmin konfranslarda ekspert qismində gündəlik olaraq iştirak etmişlər.[15]

BQXK beynəlxalq humantar hüququn inkişafını tə'min etmək sahəsində vəzifəsinə müvafiq olaraq silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi ilə əlaqədar müddəaların beynəlxalq humanitar hüquqda öz ifadəsini tapması sahəsində xeyri iş görmüşdür.

BQXK-nin fəaliyyəti üçün zəruri olan bir sıra şərtlər müəyyənləşdirilmişdir. İlk növbədə BQXK fəaliyyət göstərmək üçün tərəflərin razılığı olmalıdır. BQXK öz fikirlərini bildirməkdə təmkinlilik göstərməlidir. BQXK qurbanların və onların ailə üzvlərinin vəziyyətini ağırlaşdıra bilən heç bir mə'lumatı yaymamalıdır. Bundan başqa öz işi naminə, həm də döyüşən tərəflərin e'timadını itirməmək üçün BQXK hakimiyyətlə danışıqları barədə mə'lumatları gizli saxlayır. BQXK yardımın bölüşdürülməsi və əlaqələndirilməsində iştirak edir. Bu sadəcə texniki məsələ deyil. Burada müəyyən tarazlığı gözləmək lazımdır. Qurbanların ehtiyaclarına uyğun yardım almasını tə'min etmək vacib şərtdir.

BQXK-nin yardımının sərhədlərinin müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Öz prinsiplərinə uyğun olaraq kimin buna daha çox ehtiyacı varsa ona kömək etmək, heç bir bəlanı diqqətsiz qoymamağa çalışılmaqla yanaşı BQXK onun fəaliyyətini zəiflədə bilən lüzumsuz maddi vəsait və qüvvəni sərf etməkdən çəkinməlidir.

BQXK Cenevrə Konvensiyalarından kənara çıxan fəaliyyətlə də

---

15 Bax. Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. МККК.М.,1997.с.80-81

məşğul olur. Burada əsas yeri siyasi məhbusların xeyrinə olan fəaliyyət tutur.

Mə'lum olduğu kimi Cenevrə Konvensiyalarının 3-cü maddəsi, II Əlavə Protokol isə bütövlükdə qeyri-beynəlxalq xarakterli silahlı münaqişə zamanı tətbiq olunur. Lakin II Əlavə Protokolun tətbiq sahəsi bir qədər məhdudlaşdırılmışdır. Kiçik daxili iğtişaşlar, gərginlik və ayrı-ayrı zorakılıq aktları onun tətbiq dairəsindən çıxarılmışdır. Beləliklə, açıq ifadə olunmuş silahlı münaqişə olmayan ölkələrdə siyasi məhbusların mənafeyinə BQXK-nin fəaliyyəti Beynəlxalq Qırmızı Xaçın Nizamnaməsinə və onun "təşəbbüs irəli sürmək hüququna" əsaslanır. Siyasi məhbusların müdafiəsi beynəlxalq hüquqda nəzərdə tutulmuşdur. Siyasi məhbuslara insan hüquqlarına aid konvensiyaların müddəaları tətbiq olunur.

BQXK-nin siyasi məhbusların mənafeyinə olan fəaliyyəti humanizm mə'nasında əhəmiyyət kəsb edir. Lakin bu fəaliyyəti həyata keçirmək çətindir. Bu yolda dövlət suverenliyinə riayət olunması zərurəti, dövlətin təhlükəsizliyi mülahizələri ilə hesablaşmaq, bu və ya digər ölkənin daxili işlərinə qarışmamaq prinsiplərindən irəli gələn bir çox maneələr meydana çıxır. Qanuni hökumətin əhali qarşısında borcunu da anlamaq lazımdır. Hökumət ölkədə qanun qaydanı qorumağa borcludur. Hökumət terrorizmlə mübarizə aparmalı, imkan verməməlidir ki, qeyri-qanuni hərəkətlər nəticəsində hakimiyyət azğlığın əlinə keçsin və bu azlıq çoxluğun arzulamadığı rejimi ona tətbiq etsin.[16]

Çox vaxt siyasi xarakterli hüquq pozğunluqları özündə cinayət pozuntusu ünsürlərini daşıyır. Bir çox ölkələrdə siyasi xarakterli hüquq pozuntularının qarşısının cinayət kimi alınması müşayət olunur. Əksər hallarda siyasi hüquq pozuntusu anlayışı ölkələrin cinayət məcəllələsində öz əksini tapmır.

BQXK heç vaxt siyasi məhbus anlayışını verməyə cəhd etməmişdir. Onu bu və ya digər tərəfin həmin məhbusu necə — cinayətkar, azadlıq uğrunda mübariz, dövlətin düşməni, vətən xaini və ya müqavimət hərəkatı qəhrəmanı adlandıracağı maraqlandırmır. BQXK ancaq cinayət pozuntusu çərçivəsindən kənara çıxan hərəkətlərə və ya əqidəsinə görə həbs olunmuş şəxslərlə necə davranıldığı maraqlandırır. Bir qayda olaraq BQXK aşağıdakılar mövcud olduqda məsələyə müdaxilə edir:

---

16 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК. 1997. с.94

— siyasi, irqi, sosial və ya dini xarakterli ciddi gərginlik hallarında;

— hökumətin qüvvədə olan hüquqi tə'minatları ləğv etdiyi və ya adi halda fərdi azadlığın tə'min olunduğu hüquqa riayət edilməməsinə səbəb olan fövqəl'adə tədbirlərə müraciət olunduğu hallarda;

— dövlətin təhlükəsizliyi üçün qorxu törədə biləcək hesab olunan şəxslərin nəzarət altında saxlanılması və ya deportasiyası hallarında;

— tutulmuş şəxslərlə rəftarla əlaqədar açıq və inandırıcı şikayətlər alındıqda. Qeyd etmək lazımdır ki, BQXK tutulmanın səbəbi ilə əlaqədar rə'yini bildirməməlidir. Bir qayda olaraq Komitə tutulmuş şəxslərin azadlığa buraxılması barədə vəsatət vermir. Müstəsna hallarda məhbusun sağlamlığı və yaşı ilə əlaqədar humanist düşüncədən bu cür vəsatət verilə bilər. BQXK üzvlərinin həbs yerlərinə baş çəkməkdə məqsədi məhbuslarla rəftar nəticəsində onların fiziki və psixi sağlamlığına ziyan vurulub vurulmamasını, onların öz doğmaları ilə yazışma imkanına malik olub-olmamasını yoxlamaqdır. Zəruri hallarda BQXK məhbus və onun ailə üzvlərinə maddi yardım göstərir. Siyasi məhbuslara baş çəkmək çətin vəzifədir. Əvvəla, çox vaxt onlar həbsxanada saxlanılır. Uzun müddət bağlı kameralarda qalmaq nəticəsində insanın psixi vəziyyəti dəyişir, çox vaxt isə psixi sağlamlığı pozulur. İkincisi, hərbi əsirlərdən fərqli olaraq siyasi məhbuslar bir qayda olaraq belə hesab edir ki, onlar ədalətsiz həbs olunub və zülmə mə'ruz qalırlar. Siyasi məhbus tutulmasını siyasi mübarizənin tərkib hissəsi kimi qələmə verir. Ona görə də, siyasi məhbuslara bir qayda olaraq təcrübəli nümayəndələr baş çəkirlər.

BQXK belə hesab edir ki, ancaq bütün həbs yerlərinə və bütün şəxslərə baş çəkməyə imkan əldə edildikdə, vəziyyətin inkişafını izləmək üçün təkrar baş çəkmək imkanı olduqda və nəhayət, imkan dərəcəsində nümayəndələrin seçimi ilə tutulmuş şəxslərlə sərbəst və şahidsiz söhbət etmək imkanı olduqda siyasi məhbuslara baş çəkmək səmərəli olar və əsil mühafizə tə'min olunacaqdır. Son 30 il ərzində BQXK 80 ölkədə 300 min siyasi məhbusa baş çəkməyə icazə almış və yardım göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 10 mart 2000-ci il tarixli sərəncamına əsasən BQXK nümayəndələrinin azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərinə dair səlahiyyətlərinin həyata keçirilməsinə tə'minat verilmişdir. Həmin sərəncama müvafiq olaraq 2000-ci il iyun ayının 1-də Azərbaycan Respublikası Hökuməti adından Ədliyyə Naziri ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı nü-

mayəndəliyinin başçısı arasında müvafiq müqavilə imzalanmışdır. 2000-ci il iyun ayının 9-da bu müqavilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiqlənmişdir. 2000-ci il iyun ayının 23-dən isə BQXK-nin standart iş qaydalarına uyğun başçəkməyə başlanmışdır. BQXK-nin başçəkmələri yalnız humanitar xarakter kəsb edir.[17]

BQXK BMT-nin İqtisadi və Sosial Şurası, ÜST yanında məsləhətverici statusa malikdir, YUNESKO, BMT-nin Uşaq fondu, BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarlıq İdarəsi və başqa beynəlxalq təşkilatlarla əlaqələri mövcuddur.[18]

Beynəlxalq qeyri-hökumət təşkilatı hesab olunmasına baxmayaraq onlardan fərqli və beynəlxalq təşkilatlara məxsus bir sıra əlamətlərə malikdir. Bu özünü onun qərargah-mənzili, emblemi olmasında, norma yaratma fəaliyyətində fəal iştirak etməsində, beynəlxalq humanitar hüquq üzrə nəzarət funksiyasını həyata keçirməsində təzahür etdirir. Bütün bunlar beynəlxalq hüquq ədəbiyyatında BQXK-nin beynəlxalq hüququn subyekti hesab olunması barədə fikirlərin söylənilməsinə gətirib çıxarır.[19] BQXK-nin beynəlxalq hüququn subyekti kimi tanınması tezliklə reallaşa biləcəyini həmçinin, həmin təşkilatın beynəlxalq münaqişələr zamanı vasitəçilik funksiyasını yerinə yetirməsi ilə əlaqələndirənlər də vardır.[20]

BQXK-nin beynəlxalq hüququn subyekti olmaq hüququna layiq olması J.Piktenin tədqiqatları ilə də təsdiq olunur.[21]

Fikrimizcə, BQXK-nin beynəlxalq hüququn müstəqil subyekti kimi tanınacağı gün uzaqda deyil. Bunu BQXK-nin özünəməxsus xüsusiyyətləri, təşkilatın beynəlxalq hüququn inkişafında, beynəlxalq hüquq normalarının yerinə yetirilməsində göstərdiyi fəaliyyət təsdiq edir.

---

17 Bax. Beynəlxalq Qırmızı Xaç Komitəsi. Azərbaycanda hüquq müdafiəsi üzrə fəaliyyəti; Beynəlxalq Qırmızı Xaç Komitəsi. Yanvar-Fevral 2001, Aylıq Bülleten.

18 Международные неправительственные организации и учреждения. Справочник. М., "Международные отношения". 1982.с.262-263

19 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с. 266

20 Нешатаева Т.Н. Международные организации и право. Новые тенденции в международно-правовом регулировании. М., Дело. 1998. с.87.

21 Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. М., МККК. 1997. с.70

3. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası

Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyası Nizamnaməsi 23-26 noyabr 1987-ci ildə Rio-de Janeyroda keçirilən Federasiyanın Baş Məclisinin VI sessiyasında qəbul edilmişdir. 25-28 noyabr 1991-ci ildə Budapeştdə keçirilən VIII sessiyada Nizamnaməyə düzəlişlər edilmişdir.[22] Nizamnamənin preambulasında Hərəkatın prinsiplərinə sadiqlik ifadə olunmuşdur. Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasına Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətləri daxildir. Federasiya öz Nizamnaməsi əsasında fəaliyyət göstərir və hüquqi şəxsdir (mad. 1). Federasiyanın məqsədi milli cəmiyyətlərin humanitar fəaliyyətinin bütün formalarının stimullaşdırmaq, dəstəkləmək və asanlaşdırmaqdan, onlara hər cür yardım göstərməkdən ibarətdir (mad. 2). Federasiyanın əsas funksiyaları milli cəmiyyətlərin əlaqələndiricisi olmaqdan, hər bir dövlətin müstəqil və lazımi qaydada tanınmış milli cəmiyyət yaradılmasına kömək etməkdən, bütün vasitələrlə təbii fəlakət və qəzaların qurbanlarına yardım etməkdən və s. ibarətdir. Federasiyanın üzvləri milli cəmiyyətlərdir. Milli cəmiyyətlər assambleyanın qərarına əsasən Federasiyaya qəbul olunur. Federasiyanın ali orqanı Baş Assambleyadır. Assambleya milli cəmiyyətlərin nümayəndələrindən ibarətdir. Assambleyanın növbəti sessiyaları iki ildən gec olmayaraq toplanır. Hər bir üzv Assambleyada bir səsə malikdir. Baş Assambleyanın iclasları arası müddətdə İcraçı Şura fəaliyyət göstərir. Şura Assambleyanın qəraralarını yerinə yetirməkdə Baş katibə yardım göstərir. Şura Federasiyanın prezidenti, 8 vitse-prezident, Federasiyanın qərargahının yerləşdiyi ölkənin cəmiyyətinin üzvü olan vitse-prezident və 16 üzv cəmiyyətdən ibarətdir. Şura Federasiyanın prezidenti tərəfindən çağırılmaqla ildə iki dəfə növbəti sessiyaya toplanır.

Assambleyada maliyyə, gənclərin işi üzrə, təbii fəlakət və qəzalar zamanı kömək göstərmək üzrə, səhiyyə və sosial işlər üzrə komissiyalar yaradılmışdır. Heç bir cəmiyyət birdən artıq komissiyaya üzv ola bilməz.

---

22 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М., МККК.. 1995. с.75-106

Prezident Federasiyanın yüksək vəzifəli şəxsi hesab olunur. O, Assambleya tərəfindən 4 il müddətinə seçilir və onun qarşısında cavabdehdir. Maliyyə işlərinə Assambleya tərəfindən dörd ilə seçilmiş Federasiyanın baş xəzinədarı rəhbərlik edir.

Federasiyanın Baş katibi Şuranın təklifi ilə Assambleya tərəfindən tə'yin olunur.

1987-ci ildə Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasının prosedura qaydaları qəbul edilmiş və axırıncı dəfə ona 1983-cü ilin oktyabr ayında dəyişiklik edilmişdir.[23]

20 oktyabr 1989-cu ildə BQXK ilə Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Federasiyası arasında saziş imzalanmışdır.[24]Saziş Hərəkatın Nizamnaməsində nəzərdə tutulanların yerinə yetirilməsi, Hərəkatın vahidliyinin möhkəmləndirilməsi, Hərəkatın fəaliyyətinin səmərəliliyinin maksimum tə'min olunması məqsədilə bağlanmışdır. Əsas prinsiplərə sadiqlik və onların yayılmasında əməkdaşlıq etmək nəzərdə tutulur (mad. 3). Saziş həmçinin, Hərəkatın hər iki tərkib hissəsinin sülh uğrunda mübarizədə birgə fəaliyyət göstərməsini nəzərədə tutur (mad. 4). Sazişin 5-ci maddəsi Qırmızı Xaç və Qırmızı Aypara emblemindən istifadə məsələlərini tənzimləyir. Milli cəmiyyətlərin yaradılması, onların tanınmasında əməkdaşlıq, milli cəmiyyətlərə yardım etmək məsələləri də sazişdə öz əksini tapmışdır (mad. 6-7). Federasiya beynəlxalq humanitar hüququn möhkəmləndirilməsi və inkişafında BQXK-nə kömək və milli cəmiyyətlər vasitəsi ilə beynəlxalq humanitar hüquq haqqında biliklərin yayılmasında BQXK ilə əməkdaşlıq edir (mad. 11).

Sazişin 2-ci hissəsi Qırmızı Xaç və Qırmızı Ayparanın yardım göstərmək üzrə beynəlxalq əməliyyatlarında Federasiya və BQXK-nin əməkdaşlığına həsr olunub. Burada silahlı münaqişə (mad. 18), sülh (mad. 19) dövründə və başqa vəziyyətlərdə (mad. 20-21) əməkdaşlıq məsələləri təsbiq olunub. Sazişin 3-cü hissəsi əməkdaşlıq formalarına həsr olunub.

---

23 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М., МККК..1995. с.107-139

24 Международное Движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. М., МККК..1995. с.52-56

4. Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətləri

Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətləri Hərəkatın tərkib hissəsidir. Milli cəmiyyətlər sadəcə sırf milli təşkilatlar deyil, onlar Federasiya üzvü kimi əsas vəzifə və funksiyaları yerinə yetirməkdə Federasiyaya köməklik göstərmək öhdəliyini üzərinə götürmüşlər. Bu funksiyaların çoxu beynəlxalq xarakter daşıyır və milli çərçivədən kənara çıxan öhdəliklər doğurur. Milli cəmiyyətlər beynəlxalq tədbirlərdə BQXK ilə əməkdaşlıq edir.[25]

Milli cəmiyyətlərin hüquq və vəzifələri rəsmi təsbitini tapmışdır. Belə ki, Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyası Nizamnaməsinin 5-ci maddəsinə əsasən Federasiya üzvü olan milli cəmiyyətlər inter alia aşağıdakı hüquqlara malikdir:

a) Assambleyada təmsil olunmaq və onun işində iştirak etmək;

b) Federasiyanın bütün başqa rəsmi orqanlarına seçilmək;

v) başqa beynəlxalq təşkilatlarda təmsil olunmasını Federasiyadan xahiş etmək;

q) Assambleya və Federasiyanın digər orqanlarına öz təşəbbüsü və ya bir qrup milli cəmiyyət adından təklif vermək;

ğ) Federasiya ilə birbaşa əlaqələr saxlamaq.

Federasiya üzvü kimi milli cəmiyyətlərin vəzifələri aşağıdakılardan ibarətdir:

a) Federasiyanı və onun ümumi məqsədə çatmaq sə'yini dəstəkləmək və Assambleya və Şuranın qərarlarına müvafiq fəaliyyət göstərmək;

---

25 Ришар Перрюшу. Международная ответственность национальных обществ Красного Креста и Красного Полумесяца. М.МККК.1995. с.21-22; Жан-Люк Шонар. Распространение знаний о нормах гуманитарного права и сотрудничество с национальными обществами Красного Креста и Красного Полумесяца в сфере предотвращения конфликтов // Международный журнал Красного Креста. Май- июнь 1995. № 4 с. 300-324; Жан-Люк Блондель. Сотрудничество между национальными обществами и Международном Комитетом Красного Креста: необходимое и взыскательное партнерство // Международный журнал Красного Креста. Июнь 1998. №21 с. 239-247 ; Виолен Доньи Сотрудничество МККК со службами розыска национальных обществ Красного Креста и Красного Полумесяца стран СНГ и Балтии // Международный журнал Красного Креста. Июнь 1998. № 21 с. 248- 260.

b) əsas prinsiplərə riayət olunmasını tə'min etmək və ona tabe olan orqanların həmin prosesləri pozmamasına nəzarət etmək;

v) illik üzvlük haqqını ödəmək;

q) Federasiyanın baş katibinə zəruri mə'lumatları vermək.

Milli cəmiyyətlər həm təbii fəlakət və qəzalar, həm də silahlı münaqişələr zamanı çoxşaxəli fəaliyyət göstərirlər. Silahlı münaqişələr zamanı milli cəmiyyətlərin fəaliyyəti müxtəlif sənədlərdə, tə'limatlarda öz əksini tapmışdır.[26] Milli cəmiyyətlərin fəaliyyətinin tədqiqi ilə məşğul olmuş R. Perryuşu belə nəticəyə gəlmişdir ki, milli cəmiyyətlərə dövlətlər də yardım etməlidir. Milli cəmiyyətlər Beynəlxalq Qırmızı Xaç çərçivəsində BQXK və Federasiya ilə tərəfdaşdırlar. Ona görə də, onlar müvafiq qaydada fəaliyyət göstərməlidirlər. Milli cəmiyyətlərlə dövlət orqanları arasında sıx əməkdaşlıq olmalı və milli cəmiyyətlər öz müstəqilliyini qorumalıdırlar. Heç bir siyasi və ideoloji direktivə tabe olmamalıdırlar. Milli cəmiyyətlər Qırmızı Xaçla həmrə'yliyi həmişə qorumalıdırlar.[27]

5. Azərbaycan Qızıl Aypara Cəmiyyəti

İnsanlara humanist münasibət, imkansızlara əl tutmaq kimi adətən'ənələri qoruyub saxlamaq, insanlara xeyirxahlıq hiss və duyğuları aşılamaq, yaşatmaq, daha da inkişaf etdirmək məqsədilə Azərbaycanda da vahid bir qurum kimi xeyriyyə cəmiyyətinin fəaliyyət göstərməsi zərurəti əsrin əvvəlində ziyalarımızın diqqətini cəlb etmişdir.

Müharibənin insanlara vurduğu ağrı-acıların, məhrumiyyətlərin, dağıntıların şahidi olmuş, belə dəhşətləri yaşamış general leytenant Əliağa Şıxlinski mö'təbər, humanitar təşkilatın yaradılmasının təşəbbüskarı olmuşdur.

Beləliklə, 1920-ci ilin mart ayının 10-da Azərbaycan Demokratik Cümhuriyyətində Azərbaycan Qızıl Aypara Cəmiyyəti tə'sis edildi. Cəmiyyətin əsas məramı aşağıdakılara əsaslandı:

---

26 Бах. Деятельность в случае вооруженного конфликта. Руководство для Национальных обществ Красного Креста и Красного Полумесяца. М., МККК. 1993.

27 Ришар Перрюшу. Международная ответственность национальных обществ Красного Креста и Красного Полумесяца. М.МККК.1995. с.113-118

— sülh dövründə imkansızlara maddi, humanitar, tibbi-sosial yardımla əl tutur, imkanı daxilində onları dava-dərmanla, zəruri vəsaitlərlə tə'min edir, öz işçi qüvvəsilə səhiyyə orqanlarına kömək edir, tibbi yardımı təşkil edir;

— müharibə dövründə döyüşlərdə zərər çəkmiş adamlara, yaralılara və girovlara, qaçqın və köçkün düşmüş insanlara tibbi-sosial və humanitar yardım göstərir;

— müxtəlif təbii fəlakətlərdən-epidemiya, zəlzələ, daşqın və s. zərərçəkənlərə hər cür yardım göstərir.

Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar xanım Şıxlinskaya Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılmasında yaxından iştirak etmiş, cəmiyyətin "Şəfqət" xidmətinin yaradıcısı olmuşdur. O, şəfqət bacısı kimi Birinci Dünya Müharibəsi dövründə yaralı əsgərlərə xəstəxanalarda qulluq etmişdir.

İkinci Dünya Müharibəsi zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyəti şəfqət bacıları üçün hazırlıq kursları təşkil etmişdi. Bu kursları bitirənlər döyüş bölgələrinə gedərək minlərlə döyüşçünün həyatını xilas etmişlər. Göstərdikləri fədakarlığa görə tibb bacıları Səriyyə Talışxanova və Rəşidə Qasımzadə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yüksək mükafatı — "Florens Naytinqel" medalıyla təltif edilmişlər.

1923-cü ildən 1991-ci ilə qədər Azərbaycan Qızıl Aypara Cəmiyyəti SSRİ Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətlərinin İK-nin tərkibində fəaliyyət göstərmiş, 1991-ci ildə yenidən müstəqillik yoluna qədəm qoymuşdur.

Hal-hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası ilə birgə fəaliyyət göstərir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin çağırışı ilə, həmin beynəlxalq təşkilatlar 1992 və 1993-cü illərdə Azərbaycanda öz nümayəndəliklərini açmışlar. 1995-ci ilin noyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyasının tam, bərabərhüquqlu, daimi, 169-cu üzvü qəbul olunub.[28]

---

28 Azərbaycanda QAC-ın tarixi // Mərhəmət. 2000 № 1.s.6.

6. Beynəlxalq Qırmızı Xaç Komitəsi və Azərbaycan

Azərbaycan 1993-cü ilin iyununda Cenevrə Konvensiyalarını imzalamışdır və bununla həmin Konvensiyalarda öz əksini tapan qaydalara riayət olunmasını tə'min etmək öhdəliyini öz üzərinə götürmüşdür. Azərbaycan Respublikası Prezidenti tərəfindən 8 oktyabr 1996-cı il tarixdə "Azərbaycan Respublikası ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında BQXK-nin və onun Azərbaycan Respublikası ərazisində yerləşən nümayəndəliyinin hüquqi statusu haqqında" saziş təsdiq edilmişdir. Sazişə əsasən BQXK hökumətlərarası təşkilatlara verilən eyni statusdan istifadə edir. BQXK həmçinin, Azərbaycan Respublikası ərazisində öz vəzifələrini yerinə yetirmək və qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün nümayəndəlik tə'sis edir. BQXK-nın binaları, avadanlığı, nəqliyyat vasitələri daxil olmaqla əmlakı və kapital qoyuluşu, harada olmasından asılı olmayaraq BQXK nümayəndəliyi başçısının bu hüquqlardan birmə'nalı şəkildə imtina etməsi halları istisna olmaqla axtarış, müsadirə, rekvizisiya, həbs və ya icra, inzibati, məhkəmə və yaxud qanunvericilik məcburiyyətinin digər formalarından azaddır.

BQXK-nın arxivləri və ümumiyyətlə ona mənsub olan, yaxud qoruyub saxladığı bütün sənədlər harada olmasından asılı olmayaraq toxunulmazdır. BQXK eyni zamanda vergi və gömrük rüsumlarından da azaddır.

Azərbaycandakı fəaliyyəti çərçivəsində BQXK beynəlxalq humanitar hüquq haqqında bilikləri yaymaq üçün hərbi və mülki hökumət dairələri, eləcə də Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlıq şəraitində işləyir. J.Piktenin "Beynəlxalq humanitar Hüququn inkişafı və prinsipləri" və "1949-cu il tarixli Cenevrə Konvensiyaları və onlara əlavə Protokollar" Azərbaycan dilinə tərcümə edilmişdir. BQXK-nın köməyi sahəsində Bakıda müxtəlif fakultələrdə Beynəlxalq Hüquq üzrə bir neçə kurs tədris olunur.

1995-ci ilin yayında BQXK Əmək və Sosial Müdafiə Nazirliyi ilə əməkdaşlıq edərək Bakı şəhərində ortopedik mərkəz açmışdır. Avqustda sün'i ətrafların hazırlanmasına başlanmışdır və o vaxtdan e'tibarən xəstələrə 1900-dən çox protez, 2700 cüt qoltuq ağacı verilmişdir. 1996-cı ilin mayında qoltuq ağaclarının hazırlanmasına başlanılmışdır. 1996-cı ildə Ortopedik mərkəzin ikinci mərtəbəsi 24 yerlik stasionara çevrilmişdir ki, bu da Azərbaycanın digər bölgələrindən və xaricdən gələn xəstələr üçün nəzərdə tutulmuşdur. Stasionarda müalicə olunan-

lar gündə üç dəfə yeməklə tə'min olunurlar. Bütün xidmətlər, ortopedik materiallar və stasionarda yaşayış pulsuzdur. 1998-ci ilin yanvarından BQXK protez və ortoz hazırlanması üzrə 3 illik tədris kursuna başlamışdır. Hal-hazırda 7 nəfər tələbə həmin kursda təhsil alır. Burada məqsəd Azərbaycanı əlillər üçün yüksək keyfiyyətli protez və ortoz hazırlaya bilən mütəxəssislərlə tə'min etməkdən ibarətdir.

2000-ci ildə Ortopedik Mərkəz öz stasionarında 303 xəstəyə yer vermiş, 476 protez və 51 ortoz paylamışdır. İl ərzində Mərkəzə 828 nəfər müraciət etmiş və qeydiyyata alınmışdır.[29]

Vərəmin müalicəsi proqramı 1995-ci ilin iyun ayından e'tibarən BQXK Ədliyyə Nazirliyi ilə əməkdaşlıq edərək Bakı şəhərindəki islah-əmək müəssisəsindəki xəstəxanada dustaqlar üçün vərəmin müalicəsi proqramını həyata keçirir. Proqrama başlanılmasının əsas səbəbi həbsxana şəraitində xəstəlik hallarının həddindən artıq olmasıdır. O vaxtdan bəri 1500 nəfər dustaq müalicə olunmuşdur. Bu proqram üzrə vərəm xəstəliyinin müalicəsi Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun şəkildə aparılır və məqsəd bu xəstəliyin yayılmasına nəzarət etməkdən ibarətdir.

2000-ci ilin oktyabr ayında BQXK-nin nümayəndələri və Ədliyyə Nazirliyinin vərəm koordinasiya şö'bəsi tərəfindən 3 saylı Cəzaçəkmə müəssisəsində vərəmə qarşı müalicənin qiymətləndirilməsi keçirilmişdir. Qiymətləndirmənin nəticələrinə əsasən BQXK tərəfindən material və texniki tə'minat sahəsində yardımın 2001-ci ildə davam etdirilməsi nəzərdə tutulmuşdur.[30]

1995-ci ilin iyun ayından 2000-ci ilə qədərki müddətdə 2400 nəfərdən artıq xəstə proqrama qoşulmuşdur.[31]

1996-cı ildə Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycan Respublikasında özünün Mina Təhlükəsinin İzahı Proqramının həyata keçirilməsinə başlamış və bu iş yerli hakimiyyət orqanlarının yaxından köməyi ilə davam etdirilmişdir. Fəaliyyət göstərildiyi ilk ildə ərzaq proqramından faydalanan ailələrə MTİP üzrə 110.000 izahat vərəqi paylanmış, bununla da 500.000-dən çox qaçqın, didərgin və cəbhəxətti bölgə-

29 Beynəlxalq Qırmızı Xaç Komitəsi. 2000-ci il fəaliyyəti haqqında qısa mə'lumat

30 Beynəlxalq Qırmızı Xaç Komitəsi. 2000-ci il fəaliyyəti haqqında qısa mə'lumat

31 Beynəlxalq Qırmızı Xaç Komitəsi. İslah Əmək Müəssisələrində vərəm xəstəliyinə nəzarət proqramı

lərində yaşayan əhalidə mina və partlamamış digər hərbi sursatlara qarşı sayıqlıq yaradılmışdır.

1997-ci ildən Qazax, Ağstafa, Gədəbəy, Tovuz, Ağdam, Tər-Tər, Ağcəbədi, Füzulidə, qaçqın və göçkünlərin məskunlaşdığı düşərgə məktəblərində müəlimlər üçün MTİP üzrə seminar məşğələlərinə başlanmışdır. Bu seminarlarda məqsəd şagirdlərə mina təhlükəsi və onun törədəcəyi xəsarətin qarşısını almağına əsas vasitələri haqqında daha geniş mə'lumat verməkdən ibarətdir.

Minlərlə etiket (yapışqanlı kağız) , plakat və tədris materialı kimi üz qabığında mina təhlükəsinin izahı ilə bağlı mə'lumat olan təxminən 150. 000 dəftər paylanmışdır. 1998/99-cu tədris ilindən başlayaraq müəllimlər üçün mina təhlükəsinin izahı ilə bağlı seminarlar işğal olunmuş ərazilərdə və bütün ölkə boyu fəaliyyət göstərən qaçqın məktəblərində keçirilmişdir.

1997-ci tədris ilindən bəri 885 məktəb bu proqrama cəlb edilmiş və 12205 müəllim seminarlarda iştirak etmişdir.

Mina təhlükəsinin izahı ilə bağlı seminarlar sərhədə yaxın və keçmiş döyüş yerlərində bərpa, yenidənqurma və səhiyə işlərini görən qeyri-dövlət təşkilatlarının işçiləri və bə'zi hərbi hissələr üçün də təşkil edilir.

Fəsil XV

QIRMIZI XAÇ VƏ QIRMIZI AYPARA EMBLEMİNİN HÜQUQİ MÜHAFİZƏSİ

1. Emblemin yaranma tarixi

Bir qayda olaraq hər bir ordu öz tibbi xidmətini fərqləndirmək üçün müəyyən rəngdə bayraqdan istifadə etmişdir. Bu da tibbi xidmətin tanınmasını xeyli çətinləşdirir, tibbi hey'əti kombatantlarla eyni təhlükədə qoyurdu. Belə bir vəziyyətdə döyüşün axırına kimi yaralılara kömək etmək mümkün deyildi. Döyüş meydanında yaralanmış əsgərlərin vəziyyətinin yaxşılaşdırılması üçün ilk növbədə bütün ordularda yaralıları və onlara yardım göstərən şəxsləri fərqləndirən vahid emblemdən istifadə olunması barədə razılıq əldə edilməli idi. 1863-cü il Cenevrə konfransına hazırlıq gedişində Beynəlxalq Komitə saziş layihəsini hazırlamışdı. Saziş layihəsinin 9-cu maddəsində nəzərdə tutulurdu ki, sanitar və könüllülərin bütün ölkələrdə xüsusi fərqləndirici nişan və eyni formalı geyim paltarı olması zəruridir. Onlar toxunulmazlıq hüququna malik olmalı və hərbi komandirlər onlara himayəçilik etməlidirlər.

Beynəlxalq konfransda həmin məsələ ilə əlaqədar müzakirələrdən sonra qərara alındı ki, tibbi hey'ətin fərqləndirilməsi üçün onlar qolunda üzərində qırmızı xaç əks olunmuş ağ sarğı gəzdirməlidirlər. Beynəlxalq Konfransın qətnaməsində öz əksini tapmış müddəa 1864-ci ildə qəbul edilmiş "Quru müharibələri zamanı yaralı və xəstə döyüşçülərin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiyada da təsbit olundu. Konvensiyanın 7-ci maddəsində göstərilirdi ki, qostital, sanitar daşımaları üçün nəzərdə tutulmuş nəqliyyat vasitələrində vahid fərqləndirici nişan olmalıdır. Neytrallıq statusuna malik olan şəxslər qol sarğıları gəzdirə bilər. Həm bayraq, həm də sarğılarda ağ fonda qırmızı xaç təsvir olunmalıdır. Beləliklə, tibbi-xidmət, sanitar nəqliyyat və sanitar-könüllülərin toxunulmazlığının şərti kimi vahid fərqləndirici nişan qəbul edildi. Həmin dövrdə qəbul edilmiş sənədlər və protokollarda nə üçün fərqləndirici nişan kimi ağ fonda qırmızı xaçın qəbul edilməsi izah olunmamışdır. Fransua Byunon belə hesab edir ki, qədim dövrlər-

dən ağ bayraq təslim olmaq və danışıq aparmaq rəmzi kimi tanınıb. Həqiqi niyyətlə ağ bayraq qaldırmış şəxslərə atəş açmaq qadağan olunur, Qırmızı Xaç artırılmaqla onun əhəmiyyəti bir qədər də yüksəlmiş və bu da yaralılara və onların köməyinə gələn şəxslərə hörmət göstərilməsinin tələb edilməsinə imkan yaratmışdır. Bununla yanaşı yeni nişan hazırlanma cəhətdən sadə olmaqla, uzaqdan asanlıqla seçilir.[1]

22 avqust 1864-cü il Cenevrə Konvensiyasına qoşulmasına baxmayaraq 1876-1878-ci illər Rus-Türk müharibəsinin əvvəllərində Osmanlı İmperiyası bəyan etdi ki, düşmənin qırmızı xaçla işarələnmiş sanitar nəqliyyat vasitələrinə hörmət etməklə yanaşı o, özünün sanitar nəqliyyatlarını qırmızı aypara ilə işarə edəcəkdir.[2] Cenevrə Konvensiyası yenidən nəzərdən keçirildikdə Türkiyə Qırmızı Ayparanın İran isə Qırmızı Şir və Günəşin mühafizə emblemi kimi tanınmasını tələb etdi. 1929-cu il Diplomatik Konfransında Türkiyə və Misirin istifadə etdiyi Qırmızı Aypara və İranın istifadə etdiyi Qırmızı Şir və Günəş emblemi tanındı. Konfrans qeyd etdi ki, gələcəkdə heç bir emblem tanınmayacaqdır.

1949-cu ilin Diplomatik Konfransında emblemlə əlaqədar yeni təkliflər verildi:

— Niderland yeni vahid emblemin qəbul edilməsini təklif etdi;

— 1948-ci ildə Stokholmda keçirilmiş Qırmızı Xaçın Beynəlxalq Konfransında vahid qırmızı xaç emblemine qayıtmaq təklif olunurdu;

— İsrail onların hərbi-tibb xidmətinin istifadə etdiyi Davidin qırmızı qalxanının tanınmasını təklif etdi. Müzakirələrdən sonra 1949-cu il I Cenevrə Konvensiyasının 38-ci maddəsi meydana çıxdı. Orada göstərilirdi ki, "İsveçrəyə hörmət əlaməti kimi federal rənglərin tərsinə düzülməsi yolu ilə əmələ gələn ağ fonda qırmızı xaç heraldik emblemi silahlı qüvvələrin tibb xidmətinin emblemi və fərqləndirici nişanı kimi qalır.

Bununla bərabər, qırmızı xaç əvəzinə fərqləndirici nişan kimi ağ fonda qırmızı aypara və ya qırmızı şir və günəş rəmzlərindən istifadə edən ölkələr barəsində həmin emblemlər də bu Konvensiyanın tələb-

1 Франсуа Бюньон. Эмблемы красного креста и красного полумесяца // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995. с.11

2 Ətraflı bax. Франсуа Бюньон Эмблема Красного Креста. Краткая история // Эмблема. История и современность. Статьи и документы. М.МККК.1998.с.5-91

ləri baxımından tanınırlar". 39-cu maddədə isə göstərilirdi ki, səlahiyyətli hərbi hakimiyyət orqanlarının nəzarəti altında emblem bayraqlarda, qol sarğılarında və tibb xidmətinə aid olan bütün predmetlərdə təsvir edilir. İsrail Cenevrə Konvensiyasını qeyd-şərtlə imzalayaraq bəyan etdi ki, Konvensiyanın fərqləndirici nişan və emblеminin toxunulmazlığına hörmət edərək öz silahlı qüvvələrinin tibb xidmətinin emblem və fərqləndirici nişanı kimi Davidin qırmızı qalxanından istifadə edəcəkdir.

İran İslam Respublikası 4 sentyabr 1980-cı ildə e'lan etdi ki, öz ölkəsinin silahlı qüvvələrinin tibbi xidmətinin tanınma nişanı kimi qırmızı şir və günəş emblemindən imtina edərək qırmızı aypara emblemini qəbul edir.

F. Byunon iki emblemdən istifadənin Hərakatın məqsədlərinə ziyan vurmasını qeyd edərək, vahid emblem altında birləşməyi vacib sayır. O, göstərir ki, Hərəkatın millətləri, mədəniyyətləri, dinləri və ideologiyaları birləşdirən həmrə'ylik hərəkatına çevrilməsi üçün vahid emblemdən istifadə mühüm əhəmiyyət kəsb edir.[3]

2. Emblemin funksiyaları

I Cenevrə Konvensiyasının 39, 40, xüsusən 41-ci maddəsində Qırmızı Xaç və Qırmızı Aypara emblеminin istifadəsinin iki müxtəlif məqsədi fərqləndirilir. Həmin maddələr Qırmızı Xaçın 1965-ci il Vyanada keçirilən XX Beynəlxalq Konfransında qəbul edilmiş "Milli Cəmiyyətlər tərəfindən Qırmızı Xaç və Qırmızı Aypara emblemindən istifadə qaydaları"nda tamamlanmış və dəqiqləşdirilmişdir.[4]

Emblem mühafizə nişanı kimi silahlı münaqişələr zamanı hörmət və mühafizədən istifadə etməli olan tibbi və ruhani hey'ətin, əmlakın bildirilməsi üçün tətbiq olunur.

Emblem fərqləndirici nişan kimi şəxs və obyektlərin Hərəkata mənsubluğunu bildirmək üçün tətbiq olunur (mad. 1).

Beləliklə, söhbət bir emblemdən gedir, lakin o iki müxtəlif məqsədlə istifadə oluna bilər.

---

3 Франсуа Бюньон. Эмблемы красного креста и красного полумесяца // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995.17-20

4 Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М., МККК. 1995. 84-112

1977-ci ildə qəbul edilmiş Əlavə Protokollar emblemin mühafizəsi məsələsində heç bir yenilik nəzərdə tutmasa da mühafizə nişanı kimi emblemin istifadə sahəsini genişləndirmişdir.

1949-cu il Konvensiyalarında emblemin mühafizəsi sistemi Qırmızı Xaç və Qırmızı Aypara mühafizə və ya fərqləndirici nişanı kimi istifadə olunmasının fərqli cəhətlərinə əsasən hazırlanmışdır.

Mühafizə emblemin əsas funksiyasıdır. Qeyd etmək lazımdır ki, bu və ya digər obyekt üzərində emblem olmasına görə deyil, yaralı və xəstələrin xilas edilməsi ilə əlaqədar humanitar funksiyanı yerinə yetirdiyinə görə mühafizədən istifadə edir. Əgər sanitar birləşmə Qırmızı Xaç emblemi ilə işarə olunmayıbsa, bu onun mühafizədən məhrum olunması demək deyildir. Emblem münaqişədə olan tərəflərin mühafizə altında olan obyekti tanımasına kömək edir.[5]

Emblem ancaq mühafizə funksiyasını yerinə yetirdiyi vaxt əsil əhəmiyyətini qazanır. Emblem Konvensiyanın şəxslərə və ya əmlaka verdiyi mühafizə nişanı kimi aydın göründükdə ondan istifadənin mühafizə xarakteri daşıdığı tanınır. Bu cür istifadə zamanı emblem imkan dərəcəsində böyük olmalı və heç bir mətnlə müşahidə olunmamalıdır. Cenevrə Konvensiyasına əsasən aşağıdakılar emblemin mühafizəsi altındadır:

— həm orduya, həm də yardım cəmiyyətlərinə mənsub olan hərəkət edən sanitar birləşmə və stasionar tibbi müəssisələr (I CK mad. 19 və 42);

— döyüşən tərəflərdən birinə yardım göstərən neytral ölkə cəmiyyətlərinin sanitar birləşmə və tibbi hey'əti (I CK mad. 27,40, 43);

— inzibati hey'ət də daxil olmaqla ordunun tibbi və ruhani hey'əti (I CK mad. 24, 26, 40);

— ordunun öz vəzifələrini yerinə yetirərkən xüsusi olaraq qol sarğıları gəzdirən müvəqqəti tibbi hey'əti (I CK mad. 25,41);

— ordu və yardım cəmiyyətlərinin tibbi əmlakı (I CK mad. 33,34,39) , sanitar nəqliyyatı və nəqliyyat vasitələri, həmçinin sanitar uçuş aparatları (I CK mad. 35, 36, 39).

Hərbi əməliyyatlar zamanı aşağıdakılar mühafizə emblemindən istifadə etmək hüququna malikdir:

a) ordunun tibbi xidməti;

5 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с. 246

b) tanınmış yardım cəmiyyətləri;

v) qırmızı xaçın beynəlxalq təşkilatları və onların hey'əti. Emblemin mühafizə nişanı kimi istifadə olunmasına aşağıdakı hallarda yol verilir:

— ondan istifadə edənlərə dövlət tərəfindən bu cür səlahiyyət verildikdə;

— onlar dövlətin nəzarəti altında olduqda. Dövlət emblemdən düzgün istifadə olunmasına nəzarət etməli və ondan sui-istifadəyə görə məs'uliyyət daşıyır;

— emblem tibbi məqsədlərlə istifadə olunduqda.[6]

Emblem şəxs və ya obyektin Cenevrə Konvensiyalarının himayəsi altında olduğunu deyil, Qırmızı Xaç və Qırmızı Aypara təşkilatı ilə bağlılığı göstərmək üçün istifadə edildikdə fərqləndirici əhəmiyyətə malik olur. Belə hallarda emblem ancaq milli qanunvericiliyə müvafiq olaraq və Qırmızı Xaçın prinsiplərinə uyğun fəaliyyət zamanı istifadə oluna bilər. Çaşqınlıq yaratmamaq üçün belə hallarda emblem bir qayda olaraq başqa ölçüdə olur və elə istifadə olunmalıdır ki, onun iki funksiyası qarışdırılmasın. Məsələn, onu qol sarğısı kimi istifadə etmək və ya damda yerləşdirmək olmaz. Göstərilən fərqlərə baxmayaraq yenə də emblemdən istifadə zamanı müəyyən anlaşılmazlıq meydana çıxırdı. Ona görə belə bir təklif irəli sürülmüşdü ki, fərqləndirici və mühafizə emblemi kimi müxtəlif nişanlardan istifadə olunsun.[7]

3. Emblemdən istifadə və onun mühafizəsi

I Əlavə Protokol mühafizə məqsədilə emblemdən istifadə sahəsini genişləndirir. Belə ki, Protokola əsasən silahlı münaqişələr zamanı müstəsna olaraq tibbi və ya ruhani funksiyasını yerinə yetirən bütün şəxslər, birləşmələr, hərbi və mülki nəqliyyat vastələrinə mühafizə məqsədilə fərqləndirici nişandan istifadə etmək hüququ verilir (mad. 12, 15). Xarici ölkələrin hakimiyyətinin nəzarəti altında işləyən yardım cəmiyyətləri emblemdən mühafizə üçün istifadə edir. Bu cür cəmiyyətlər kimi çıxış edən tə'cili tibbi yardım göstərən tibbi təşkilatlar aşağıdakı üç şərtə əməl etməklə emblemdən istifadə edə bilər:

6 Антуан Бувье. Особенности использования эмблемы с изображением красного креста или красного полумесяца // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995.с.50-51

7 Хабиб Слим. Защита эмблемы красного креста или красного полумесяца и пресечение злоупотреблений ею. // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995. с.29

1) öz dövlətləri və ya münaqişədə olan tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən digərini xəbərdar etməklə lazımi qaydada səlahiyyət verildikdə;

2) səlahiyyətli hakimiyyətin nəzarəti altında fəaliyyət göstərdikdə;

3) tibbi etika prinsiplərinə müvafiq olaraq ancaq tibbi fəaliyyətlə məşğul olduqda.

I Əlavə Protokolun 38-ci maddəsinə əsasən Qırmızı Xaç, Qırmızı Aypara fərqləndirici emblemindən və ya Konvensiyada və ya Protokolda nəzərdə tutulan digər emblemlərdən, nişanlardan və ya siqnallardan öz tə'yinatı üzrə deyil, başqa məqsədlə istifadə etmək qadağandır. Tanınmış emblemlərdən düşməni aldatmaq məqsədilə istifadə etmək 37-ci maddəyə əsasən xəyanətkarlıq hesab olunur və 85-ci maddənin 3-cü hissəsinin "f" bəndinə əsasən Konvensiyanın ciddi pozuntusu kimi qiymətləndirilir.

Milli cəmiyyətlər mühafizə məqsədilə emblemdən istifadə etmək hüququna malik deyillər. Hərbi hakimiyyətlə müəyyənləşdirilmiş şərtlər əsasında müharibə vaxtı milli cəmiyyətlərin ordunun tibbi xidmətinin sərəncamına verdiyi hey'ət, bina, əmlak və nəqliyyat vasitələri emblemdən mühafizə məqsədilə istifadə edə bilər. Deməli, ancaq milli cəmiyyət olmaq əsasına görə emblemdən mühafizə məqsədilə istifadə etmək olmaz. Mühafizə məqsədilə emblemdən istifadə etməyə icazə vermək və ona nəzarət etmək dövlətin işidir. Lakin həm dinc, həm də müharibə dövründə milli cəmiyyətlər daxili qanunvericilik çərçivəsində emblemdən tanınma nişanı kimi istifadə edə bilər. Qeyd etmək lazımdır ki, mühafizə emblemi həmişə özünün ilkin formasını saxlamalıdır. Emblemdən fərqləndirici nişan kimi istifadə edildikdə isə, milli cəmiyyətlər onun ətrafında və ya altında adlarını göstərə bilərlər.

Emblem yaralı və xəstələrin, gəmi qəzasına uğrayanların bütövlükdə silahlı münaqişələrin hər bir və hər cür qurbanlarının əzablarını yüngülləşdirən vasitədir.[8]

Münaqişə tərəflərinin emblemə hörmətlə yanaşması, son nəticədə münaqişə qurbanlarının mühafizəsinə xidmət edir. Emblemin özü-özlüyündə mühafizəni tə'min etməməsinə baxmayaraq, onsuz səmərəli

---

8 Антуан Бувье. Особенности использования эмблемы с изображением красного креста или красного полумесяца // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995.с.48

mühafizə mümkün deyildir.[9] Qeyd etmək lazımdır ki, emblemdən həmişə tə'yinatına uyğun istifadə olunmalıdır. Təcrübə göstərir ki, hətta nadir hallarda emblemdən düzgün istifadə olunmaması, ümumilikdə onun nüfuzunun enməsinə və ehtiyacı olanların mühafizədən istifadə etmək imkanının azalmasına səbəb olur.[10]

Beynəlxalq miqyasda silahlı münaqişələr zamanı mühafizə və neytrallıq rəmzi kimi tanınmış Qırmızı Xaç və Qırmızı Aypara emblemi və ya ona oxşar nişanlar dinc dövdə qaydasız və ya müxtəlif məqsədlərlə istifadə olunduqda onun xüsusi dəyəri əhəmiyyəti dərəcədə aşağı düşür.[11]

Emblemin vahidliyinin təmin olunması barədə bir çox fikirlər söylənilmişdir. K.Sommaruqa Konvensiya rəmzlərinin mühafizə dəyərinin aşağı düşməsinin iki səbəbini qeyd edir. Bunlar emblemdən qeyri-hüquqi istifadə və eyni vaxtda bir neçə emblemin möcudluğudur.[12]

1981-ci ildə Manilada keçirilən Beynəlxalq Konfransda BQXK prezidenti Aleksandr Hey Qırmızı Xaç emblemə münasibətdə demişdi: "Bizim hamımızın istifadə etdiyi bu emblem heç bir dövlətin, heç bir millətin və heç bir konfessiyanın malı deyil, yaralı və müdafiəsiz qurbanlara hörmət rəmzi, bədbəxtlik zamanı adamların həmrə'ylik rəmzidir".[13] Emblem məhz ona görə mühafizəni tə'min etməyə qadirdir ki, eyni bir nişandan həm "özününkü", həm də "düşmən" istifadə edir.

Eyni vaxtda bir neçə rəmzin möcudluğu bölünmədən, müəyyən fikir ayrılıqlarının qarşısının almasının, mədəni və dini müxtəliflikdən yüksəyə qalxmağın mümkün olmamasından xəbər verir.[14] BQXK üçüncü

---

9 Жеральд К. Кодрэ. Видимость отличительного знака медицинских учреждений, формирований и транспортных средств // Эмблема. История и современность. Статьи и документы. М.МККК.1998.с.94

10 Антуан Бувье. Особенности использования эмблемы с изображением красного креста или красного полумесяца // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995.с.50

11 Майкл Мейер. Защита эмблемы в мирное время: опыт Британского общества Красного Креста // Прововая защита эмблем Красного Креста или Красного Полумесяца. М.МККК.1995.с.75.

12 Корнелио Соммаруга. Единая емблема: поиск решения // Эмблема. История и современность. Статьи и документы. М.МККК.1998.с.129

13 Корнелио Соммаруга. Единая емблема: поиск решения // Эмблема. История и современность. Статьи и документы. М., МККК. 1998. с.131

14 Корнелио Соммаруга. Единая емблема: поиск решения // Эмблема. История и современность. Статьи и документы. М., МККК.1998.с. 132-133

nişanın qəbul edilməsi ilə bağlı müzakirələrin keçirilməsini məqsədəmüvafiq hesab edir.[15]

Qırmızı Xaç və Qırmızı Aypara əzab çəkən şəxslərə göstərilən qərəzsiz humanitar yardımın rəmzidir. Emblemdən istifadə etmək hüququ olan şəxslər, eyni zamanda yardımın yönəlmiş olduğu şəxslər üçün emblemə sülh dövründə hörmət olunmasının mühüm əhəmiyyəti vardır.

Müharibə vaxtı səmərəli mühafizənin tə'min olunması üçün beynəlxalq hüququn müvafiq normalarına dinc dövrdə riayət olunması zəruridir. Məhz ona görə dövlətlər emblemdən istifadə olunması və mühafizəni tənzimləyən milli qanunlar qəbul etməlidir. Hakimiyyət həmçinin, həmin normaların milli ərazinin hər bir yerində yerinə yetirilməsi üçün zəruri olanları etməlidir. Bu məqsədlə onlar emblemdən istifadə üzərində ciddi nəzarət müəyyən edir və silahlı qüvvələrini və geniş əhali kütləsini müvafiq qaydalarla tanış edir. Məhz belə halda münaqişə zamanı yaralı və xəstələrə hörmətə və hərbi əməliyyatlar zamanı mühafizədən istifadə etməsinə nail olmaq mümkündür. I Cenevrə Konvensiyasının 54-cü maddəsinə müvafiq olaraq dövlətlər hər bir vaxt emblemdən sui-istifadəni aradan qaldırmaq və qarşısını almaq üçün zəruri tədbirlər görməlidir. Bu müddəa Konvensiyada aşağıdakı kimi ifadəsini tapmışdır: "Razılığa gələn Yüksək Tərəflərin qüvvədə olan qanunvericiliyi yetərli olmasa, onlar 53-cü maddədə göstərilən sui-istifadə hallarının hər bir vaxt qarşısını almaq üçün zəruri tədbirlər görməlidirlər".

Emblemlə yanaşı milli qanunvericilik "Qırmızı Xaç" və "Qırmızı Aypara" adlarını, tanınma üçün fərqləndirici siqnalları da mühafizə etməlidir.

Emblemdən istifadə etmək hüququ olan şəxs və obyektlər Cenevrə Konvensiyalarında da öz təsbitini tapmışdır. Ayrı-ayrı vətəndaşlar, xeyriyyə assosiasiyaları və təşkilatlar, kommersiya müəssisələri emblemdən istifadə etmə hüququna malik deyillər. Qırmızı Xaç və Qırmızı Aypara emblemindən istifadə və onun mühafizəsi haqqında nümunəvi qaydalar Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dövlətlərin milli səviyyədə qanunvericilik tədbirləri görməyə kömək məqsədilə hazırlamışdır.[16] Nümunəvi qanun layihəsi 1949-cu il Cenevrə Konvensi-

15 Корнелио Соммаруга. Единая емблема: поиск решения // Эмблема. История и современность. Статьи и документы. М., МККК. 1998.с.136

16 Бах. Жан-Флипп Лавуайе. Национальное законодательство, касающейся использования и защиты эмблем красного креста и красного полумесяца // Международный журнал Красного Креста. Июль - август. 1996. № 11. С. 534-538

yasına və onlara 1977-ci il Əlavə Protokollarına əsasən hazırlanmışdır. Emblemdən istifadəyə aid əksər normaların formal olaraq beynəlxalq silahlı münaqişələrə tətbiq olunmasına baxmayaraq tövsiyə olunur ki, silahlı münaqişələr arasında fərq qoyulmasın, çünki yaralı və xəstələrə hörmət və onların mühafizəsi vəzifəsi hər iki halda fəaliyyət göstərir.

Nümunəvi qanun layihəsində nəzərdə tutulur ki, hakimiyyət Qırmızı Xaç və Qırmızı Aypara emblemi, "Qırmızı Xaç" və "Qırmızı Aypara" adı, fərqləndirici siqnalların istifadə qaydalarına riayət edilməsinə nəzarət edəcəkdir. Nümunəvi qanun milli qanunvericilikdə əks etdirilməli olan məsələlərin dairəsini müəyyənləşdirir. Bununla belə nümunəvi qanun layihəsinin olduğu kimi bu və ya digər dövlət tərəfindən qəbul edilməsi tələb olunmur. Layihədə nəzərdə tutulmuş normaların prinsipial dəyişiklik edilmədən milli qanunvericiliyə daxil edilməsi kifayətdir. Bu zaman həmin normaların bir və ya bir neçə normativ aktda nəzərdə tutulması da mühüm əhəmiyyət kəsb etmir. Baxmayaraq ki, həmin məsələ ilə əlaqədar vahid normativ aktın qəbul edilməsi milli səviyyədə qəbul edilmiş tədbirlərin əhəmiyyətini yüksəldəcək və emblemin mühafizəsi haqqında mühüm məsələyə dövlətin münasibətini nümayiş etdirəcəkdir.[17]

Azərbaycan Respublikasının 1961-ci ildə qəbul edilmiş CM-nin 264-cü maddəsində də Qırmizı Xaç və Qırmızı Aypara nişanlarını qanunsuz olaraq taxma və bunlardan sui-istifadə etmə cinayət kimi nəzərdə tutulmuşdu. Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Cinayət Məcəlləsinin 119.1. maddəsi hərbi əməliyyat rayonunda Qırmızı Xaç və ya Qırmızı Aypara nişanlarını daşımaq hüququ olmayan şəxslər tərəfindən həmin nişanları daşıma, habelə müharibə zamanı Qırmızı Xaç Qırmızı Aypara bayraqlarından və ya nişanlarından və ya sanitariya köçürmə nəqliyyat vasitələrinin rəngindən sui-istifadə etməyə görə nəzərdə tutulmuş cəza ağırlaşdırılmışdır. CM-nin 119. 2. maddəsinə əsasən ağ bayraqdan, Birləşmiş Millətlər Təşkilatının bayraq, nişan və ya geyimlərindən, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları ilə müdafiə olunan fərqləndirici nişanlardan sui-istifadə etmə, bu əməllər zərərçəkmiş şəxsin ölümünə və ya onun sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda daha ağır cinayət məs'uliyyəti yaradır.

---

17 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с. 250.

E.M.Əfəndiyev qeyd edir ki, 119-cu maddədə nəzərdə tutulmuş cinayətin obyekti müharibə qanun və adətlərinə riayət olunmasına tə'minat verən beynəlxalq münasibətlərdir.[18] Həmin münasibətlərin cinayətkar qəsdlərdən qorunması isə müharibə adət və qanunlarına riayət edilməsi üçün tə'minat yaradır. Odur ki, hər bir dövlət Qırmızı Xaç və Qırmızı Aypara emblemінin mühafizəsini tə'min etməlidir.

18 Əfəndiyev E. M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi. Xüsusi hissə. Bakı. "Hüquq ədəbiyyatı". 2001. s. 64

Fəsil XVI

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN YERİNƏ YETİRİLMƏSİ VƏ ONA RİAYƏT OLUNMASINA NƏZARƏT

1. Beynəlxalq humanitar hüququn implementasiyasının anlayışı

Beynəlxalq hüquqi tənzimləmənin iki mərhələsi vardır: a) beynəlxalq hüquq normalarının yaranma prosesinin getdiyi hüquq yaradıcılığı mərhələsi; b) normanın həyata keçirilməsi prosesini əhatə edən hüququn tətbiqi mərhələsi. Bu mərhələlər biri-biri ilə sıx bağlıdır. S.S.Alekseyev haqlı olaraq qeyd edir ki, "hüququn ictimai münasibətlərə tə'sirinin səmərəliliyinin tə'mini nöqteyi nəzərindən hüquq yaradıcılığı və hüququn realizasiyasının birgə nəzərdən keçirilməsi zəruriliyi meydana çıxacaqdır".[1]

Hüquq normasının səmərəliliyi üçün zəmin məhz norma yaratma mərhələsində qoyulur. Bu mərhələnin nəticəsi kimi meydana çıxan hüquq normasının ictimai münasibətlərə nə dərəcədə tə'sir etmək iqtidarında olması onun tətbiqi mərhələsində üzə çıxır.

Beynəlxalq hüquq normalarının yaradılması və onların fəaliyyəti dövlətlərin mənafeyinin müəyyən səviyyədə uyğunluğunu nəzərdə tutur. Çünki beynəlxalq hüquq normalarının yaradıcıları kimi daxili və xarici amillərin tə'siri altında formalaşmış fərdi iradəyə malik olan dövlətlər çıxış edir. Dövlətlər iradələrindən başqa, ümumi və fərdi maraq, məqsəd və məramların daşıyıcılarıdır. Dövlətlərin iradəsi də, maraqları da, məqsədləri də beynəlxalq norma yaratma prosesində təzahür edir, lakin onların hər biri yaranan beynəlxalq hüquq normalarında müxtəlif cür əks olunur. Beynəlxalq hüquq əlaqələndirmə hüququ kimi beynəlxalq münasibətlərin iştirakçısı olan dövlətlərin maraqları uyğun gəldiyi vaxt yaranır. Əgər belə ümumi maraq yoxdursa, heç bir beynəlxalq hüquqi öhdəlik yaranmır.

---

1 Алексеев С.С. Механизм правового регулирование в социалистическом общенародном государстве. М., 1966. С. 31

Dövlətlər sazişlərin mətninin hazırlanmasına başlayarkən qarşılarına belə bir vəzifə qoyurlar ki, özlərinin maraq, istək və məqsədlərini sazişin normalarına çevirsinlər. Onların hər biri bu vəzifəyə özlərinin iradələri vasitəsilə nail olurlar. Həmin iradə ilkin mərhələdə dövlətlərin hər birində fərdi və yalnız sosial psixoloji səviyyədə mövcud olur. Ona görə dövlətlərin iradələrinin beynəlxalq hüquq normalarında təzahürü, sonradan faktiki münasibətlərə çevrilməsi beynəlxalq hüquqi nizamasalma prosesinin bir tərəfini təşkil edir.

Beynəlxalq hüquq normalarının razılaşdırılmış təbiətə malik olması özünü onda göstərir ki, hər bir hüquqda olduğu kimi o da mənşə və mahiyyət e'tibarı ilə dövlətlə bağlı olsa da, ayrıca dövlət tərəfindən yaradılan və tə'min olunan hüquq deyildir. Eyni zamanda beynəlxalq hüquq dövlətlər üzərində duran hər hansı instansiya tərəfindən yaradılan hüquq deyildir. O, dövlətlərin qarşılıqlı ünsiyyəti nəticəsində yaradılmış və tə'min edilən dövlətlərarası hüquqdur. Beynəlxalq hüquq başqa hüquq sahələrindən fərqli olaraq razılaşdırıcı xarakter daşıyır.

Beynəlxalq humanitar hüquq da bu cür razılaşma əsasında yaranmış prinsip və normaların məcmuyudur. "Hüquq normasının subyektlərin davranışına çevrilməsi onun həyata keçirilməsi ilə bağlıdır".[2] Əksər dövətlər beynəlxalq humanitar hüquq sahəsindəki müqavilələrə qoşulmuşlar. Lakin müqavilələrə qoşulmaq onda nəzərdə tutulmuş müddəaların avtomatik olaraq yerinə yetirilməsi demək deyildir. Beynəlxalq humanitar hüququn həyata keçirilməsi və onda nəzərdə tutulmuş normaların praktikada tətbiqi müəyyən fəaliyyət və sə'y tələb edir.

Hər bir hüquq norması nə qədər yaxşı hazırlanmış olmasına baxmayaraq ictimai həyata real tə'sir göstərmirsə yaşamaq hüququna malik deyildir.[3]

Ancaq hüquqi göstərişlərin praktiki fəaliyyətdə realizasiyası hüquq norması yaradıcılarının nail olmaq istədiyi nəticəni əldə etməyə imkan verir.[4]

Bütün hüquq sahələri üçün ümumi olan bu müddəaların beynəlxalq humanitar hüquq üçün də mühüm əhəmiyyəti vardır. Belə ki, məhz

---

2 Мингазов Л. Х. Эффективность норм международного права. Изд. Казанского Ун-та. 1990.с.166

3 Гавердовский А.С. Имплементация норм международного права. Киев., Вища школа, 1980.с. 47

4 Керимов Д.А. Философские проблемы права. М., 1972.с. 387.

beynəlxalq humanitar hüquq normalarının yerinə yetirilməsi nəticəsində milyonlarla insanı silahlı münaqişə əzablarından qurtarmaq mümkündür. Beynəlxalq humanitar hüquq normaları onun subyektlərinin fəaliyyət xarakterindən asılı olaraq müxtəlif formalarda realizasiya olunur. Burada həmin normalara riayət olunması, onların icrası, istifadəsi və tətbiqi fərqləndirilir.

Riayət etmə elə formadır ki, onun vasitəsilə qadağanedici normalar realizasiya olunur. Yə'ni beynəlxalq hüququn subyektləri beynəlxalq humanitar hüquqla qadağan edilmiş müəyyən hərəkətləri etməkdən çəkinirlər. Məsələn, I Əlavə Protokolun 12-ci maddəsinə əsasən tibbi birləşmələr hücum obyekti ola bilməz. Yaxud həmin Protokolun 31-ci maddəsinə əsasən mülki əhali və ayrı-ayrı mülki şəxslər hücum obyekti ola bilməzlər. Mülki əhalini qorxutmaq məqsədilə zorakılıq etmək və ya zorakılıqla hədələmək qadağandır. Bu normalara əməl olunması beynəlxalq humanitar hüququn ona riayət olunması formasında realizasiyasıdır. İcra beynəlxalq humanitar hüququn implementasiyasının forması kimi subyektlərin normanı yerinə yetirməsində fəallığını nəzərdə tutur. İcra müəyyən fəaliyyətlə müşayət olunan konkret vəzifələr nəzərdə tutan normalar üçün xarakterikdir. Məsələn, IV Cenevrə Konvensiyasının 55-ci maddəsinə əsasən işğalçı dövlət mümkün olan bütün vasitələrlə əhalini ərzaq və tibbi materiallarla təchiz etməlidir. Xüsusən o, işğal edilmiş ərazidə ehtiyatlar çatışmadıqda zəruri ərzaq, tibbi materiallar və digər predmetlər gətirməlidir.

İmplementasiyanın istifadə forması zamanı səlahiyyətverici normaların realizasiyası baş verir. Əvvəlki formalardan fərqli olaraq burada konkret davranış barədə ciddi göstəriş yoxdur. Məsələn, IV Cenevrə Konvensiyasının 94-cü maddəsində göstərilir ki, mülki əhalini nəzarət altında saxlayan dövlət nəzarət altında saxlanılanların əqli, təhsil, istirahət və əyləncə fəaliyyətini, onların bu fəaliyyətdə iştirak edib-etmədiklərindən asılı olmayaraq, həvəsləndirməlidir. Bu cür normativ müddəalardan istifadə haqqında qərar subyektlər tərəfindən müstəqil qəbul edilir.

Tətbiq implementasiyanın xüsusi formasıdır. Bu zaman beynəlxalq hüququn subyektləri bir tərəfdən beynəlxalq hüquq normalarının göstərişlərini yerinə yetirilməsinin təşkili üçün öz orqanları vasitəsilə fərdi aktlar qəbul edir, digər tərəfdən isə bu hüquqları pozulmaqdan mühafizə edir. Beynəlxalq humanitar hüquq normalarının tətbiqinə misal olaraq bir tərəfdən milli səviyyədə dövlətlərin beynəlxalq humanitar

hüquq pozuntularını cinayət kimi milli qanunvericilikdə nəzərdə tutmasını, digər tərəfdən isə, Ruanda və keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunallarının fəaliyyətini göstərmək olar.

Beləliklə, beynəlxalq humanitar hüquq normalarının implementasiyası dedikdə, dövlətlərin dövlətdaxili səviyyədə müstəqil və ya beynəlxalq səviyyədə müqavilə iştirakçısı olan başqa dövlətlərlə birlikdə, yaxud beynəlxalq təşkilat və ya xüsusi yaradılmış beynəlxalq mexanizm çərçivəsində beynəlxalq hüquqi öhdəliklərə müvafiq olaraq qəbul edilmiş göstərişlərin hərtərəfli, vaxtında və tam həyata keçirilməsi üçün hüquqi və təşkilati fəaliyyəti başa düşülür.[5]

Azərbaycan Respublikasının beynəlxalq humanitar hüquq sahəsində mövcud konvensiyalara qoşulması beynəlxalq humanitar hüququn respublikamızda implementasiyasını şərtləndirir. Bu sahədə mühüm addımlar atılsa da görüləsi işlər də çoxdur.[6]

2. Ümumi prinsiplər

Beynəlxalq humanitar hüququn yerinə yetirilməsi və tətbiqi prinsipləri kifayət qədər çoxdur. Lakin onlardan daha mühümləri üzərində qısaca dayanmağı zəruri hesab edirik:

Döyüşən tərəflərin beynəlxalq humanitar hüquq qarşısında bərabərliyi. Həmin prinsip Beynlxalq Hüquq İnstitutunun 1963-cü ildə Brüssel sessiyasında tanınmış və Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 96-cı maddəsinin 3-cü bəndində öz ifadəsini tapmışdır. Həmin prinsipin mahiyyəti ondan ibarətdir ki, döyüşən tərəflərin silahlı mübarizədə güddüyü məqsədin necə qanuni və hüquqauyğun olmasından asılı olmayaraq, beynəlxalq humanitar hüquqa riayət olunması onlar üçün eyni dərəcədə məcburidir. Məsələn, bu və ya digər tərəf təcavüzün qurbanıdırsa bu müdafiə məqsədilə beynəlxalq humanitar hüquqla qadağan olunmuş silah növü və müharibə aparılması vasitəsindən istifadə etməyə bəraət qazandırmır.

5 Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999.с.216; Оливье Дюбуа. Совещание экспертов по вопросу о комиссиях и других органах, ответственных за имплементацию международного гуманитарного права на государственном уровне // Международный журнал Красного Креста. Март-апрель.1997. № 15.с. 216-221.

6 Bax.Hüseynov L.H. Azərbaycan Respublikasının milli qanunvericiliyi və beynəlxalq humanitar hüquq // Qanun .-1996.- № 6.

Si omnes ("əgər hamı razıdırsa") şərtindən imtina olunması. Si omnes şərti 1907-ci il Haaqa Konvensiyasının 4-cü maddəsində formalaşdırılmışdır. Həmin şərtə görə Konvensiyaya əlavə olunmuş əsasnamə ancaq bütün tərəflər həmin Konvensiyanın iştirakçısı olduqda silahlı münaqişə zamanı tətbiq olunur. Bu şərt dörd Cenevrə Konvensiyası üçün ümumi olan 2-ci maddəsinin 3-cü hissəsi, 1954-cü il Haaqa Konvensiyasının 18-ci maddəsinin 3-cü bəndi, I Əlavə Protokolun 1-ci maddəsinin 3-cü bəndi və 1980-ci il BMT Konvensiyasının 7-ci maddəsinin 1-ci bəndi ilə istisna olunur. Bir tərəfdən bu şərtdən imtina beynəlxalq humanitar hüquq üzrə bu və ya digər müqavilənin iştirakçısı olan dövlətin, həmin müqavilə ilə bağlı olmayan dövlətə münasibətdə müqavilə öhdəlikləri ilə(onlarda adət hüquq normaları nəzərdə tutulduğu hallardan başqa) , bağlı olmadığını bildirir. Digər tərəfdən, Cenevrə Konvensiyaları üçün ümumi olan 2-ci maddənin 3-cü hissəsində nəzərdə tutulur ki, münaqişədə iştirak edən dövlətlərdən biri bu konvensiyanın iştirakçısı olmasa belə, Konvensiyanın iştirakçısı olan dövlətlər öz qarşılıqlı münasibətlərində konvensiya müddəaları ilə bağlı qalacaqlar. Həm də onlar yuxarıda göstərilən dövlət barəsində konvensiya ilə o halda bağlı olacaqlar ki, həmin dövlət konvensiyanın müddəalarını qəbul və tətbiq etsin.

Beynəlxalq humanitar hüquqla nəzərdə tutulmayan hallarda himayədə olan şəxslərin hüquqlarının beynəlxalq hüquq prinsiplərinə, xalqlar arasında yaranmış sivilizasiyalı adətlərə, insanlıq qanunlarına və ictimai vicdanın hökmünə əməl olunaraq qorunması (Martens qeyd-şərti). Münaqişə zamanı edilmiş hər hansı denonsasiyanın sülh bağlanana, himayədə olan şəxslər azad olunana və repatriasiya əməliyyatları başa çatana kimi heç bir nəticəyə səbəbə olmaması Martens əlavəsi ilə bağlıdır. Beynəlxalq Məhkəmə təcrübəsində bir neçə dəfə bu müddəalara əsaslanılmışdır.[7]

Dövlətlərin götürdükləri öhdəliklər qarşılıqlı deyil, birtərəfli xarakter daşıyır. Bu prinsip dörd Cenevrə Konvensiyası üçün ümumi olan 1-ci maddədə və I Əlavə Protokolun 1-ci maddəsinin 1-ci bəndində öz ifadəsini tapmışdır. Həmin normalarda göstərilir ki, razılığa gələn yüksək tərəflər hər bir şəraitdə bu sənədlərə riayət edəcək və onlara riayət edilməsinə məcbur edəcəklər. Burada ilk növbədə belə bir cəhət nəzə-

---

7 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК.2000. с. 420-421

rə çarpır ki, hər bir dövlət ilk növbədə həm özü-özünə, həm də başqa dövlətlərə münasibətdə öhdəlik götürür. Başqa sözlə bu və ya digər dövlətlərin Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollara riayət etmək vəzifəsi digər tərəfin həmin müqavilələrə riayət etməsindən asılı deyildir. Bu öhdəliyin muxtariyyəti qurbanların mühafizəsi prinsipinin üstünlüyünə, repressalini istisna edən normalara uyğundur.

"Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiya ilə əlaqədar BMT Beynəlxalq Məhkəməsi qeyd etmişdir ki, həmin konvensiyaya qoşulmaqla iştirakçı dövlət şəxsi məqsəd güdməməlidir. Hamı bir yerdə və hər bir dövlət ayrılıqda Konvensiyanın bağlandığı ümumi vəzifəni-yüksək maraqları qorumağa nail olmalıdır. Buradan belə bir nəticə çıxır ki, bu növ konvensiyalara münasibətdə konvensiyanın bu və ya digər dövlət üçün yarada biləcəyi üstünlüklərdən və ya çatışmazlıqlardan, həm də onda hüquq və vəzifələrin nisbətinin tarazlığından danışmaq lazım deyil. 1948-ci il genosid haqqında konvensiyaya münasibətdə deyilmiş bu sözlər beynəlxalq humanitar hüququn Cenevrə Konvensiyaları və ona əlavə protokolları kimi əsas aktlarına da şamil olunmalıdır. E. David belə hesab edir ki, bu konvensiyaların iştirakçısı olan dövlət onların iştirakçısı olmayan dövlətə münasibətdə də onun tələblərini yerinə yetirməlidir.[8]

3. Dövlətlərin rolu

Beynəlxalq humanitar hüququn yerinə yetirilməsində dövlətlərin rolu əsasən mövcud müqavilələrin ratifikasiya olunmasında, bu müqavilələrin məzmunu haqqında biliklərin yayılmasında və nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsində özünü göstərir.

Cenevrə Konvensiyalarını və Əlavə Protokolları imzalamış dövlətlər onları mümkün qədər tez(CK-nın müvafiq 57, 56, 137, 152-ci maddələri; Əlavə Protokolların müvafiq 93, 21-ci maddələri) ratifikasiya etməlidirlər. Ratifikasiya (lat. ratificatio, rftus-təsdiq olunmuş və factio-edirəm) müvafiq ölkənin dövlət hakimiyyətinin ali orqanı və ya orqanlarının beynəlxalq müqaviləni təsdiq etməsi deməkdir.[9]

---

8 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 422

9 Международное право. Словарь-справочник. М., ИНФРА.М. 1997. с. 279

Qeyri-beynəlxalq silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüququn qəbul olunmuş müddəalarından Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddə, 1954-cü il Haaqa Konvensiyasının 19-cu maddəsi, II Əlavə Protokol və 1980-ci il Konvensiyasına II Protokol (1996-cı il əlavə və düzəlişləri ilə birlikdə) əgər ərazisində münaqişə baş vermiş dövlət onların iştirakçısıdırsa tətbiq olunur. Avtomatik olaraq, qiyam qaldırmış tərəf də bu hüquqa riayət etməlidir. Eyni zamanda digər hüquqi normaların tətbiqi üçün xüsusi saziş bağlamağa tərəflərə heç nə mane olmur. Məsələn, 22 may 1992-ci ildə BQXK-nin köməyi ilə Bosniya və Hersoqovinada münaqişədə iştirak edən üç tərəfin nümayəndələri (Bosniya və Hersoqovinanın hökuməti, Bosniya serbləri və xorvatlar) bu cür saziş imzaladılar. Sazişin məqsədi ümumi 3-cü maddə əsasında Cenevrə Konvensiyalarının bə'zi müddəalarının tətbiq edilməsi idi.[10]

Heç kəs qanuni bilməməsinə istinad edə və heç kəs də hər şeyi bildiyini iddia edə bilməz. Bu amil özünü beynəlxalq humanitar hüquqda da göstərir. Lakin bu amilin rolunu şişirtmək də lazım deyildir. Çünki beynəlxalq humanitar hüququn adi göstərişlərini mənimsəmək üçün yüksək hazırlıq tələb olunmur. Bunun üçün bir qədər sağlam düşüncə və minimum insanpərvərlik kifayət edir. Lakin təəssüf ki, bu normaların nə qədər sadə olmasına baxmayaraq silahlı münaqişə zamanı onlara tam riayət olunmur. Ona görə, həmin normaların kombatantlarla yanaşı bütün əhali kütləsinin bilməsi məqsədəmüvafiq hesab edilir. Çünki heç kəs silahlı münaqişə qurbanına çevrilməyəcəyindən sığortalanmamışdır. Humanitar hüquq haqqında biliklərin yayılması müqavilə öhdəliyidir.

Əgər 1907-ci il IV Haaqa Konvensiyasının 1-ci maddəsi silahlı münaqişə hüququ haqqında biliklərin yalnız silahlı qüvvələr arasında yayılmasını tələb edirdisə, 1949-cu il Cenevrə Konvensiyaları bu öhdəliyin tətbiq sahəsini mülki vətəndaşlara da şamil etdi. Belə ki, I-IV Cenevrə Konvensiyalarının müvafiq olaraq 47, 48, 127, 144-cü maddələrinə əsasən Razılığa gələn Yüksək Tərəflər bu Konvensiyaların mətnlərini həm dinc dövrdə, həm də müharibə dövründə öz ölkələrində bacardıqca geniş yaymağı, o cümlədən onun öyrənilməsini hərbi və mümkün qədər mülki tədris proqramlarına daxil etməyi öhdələrinə gö-

10 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. С.424

türürlər ki, bütövlükdə əhali, ayrılıqda isə döyüşən silahlı qüvvələr, himayədə olan şəxslər onun prinsipləri ilə tanış ola bilsinlər.

1954-cü il Haaqa Konvensiyasının 25-ci maddəsi və I Əlavə Protokolun 83-cü maddəsi həmin müqavilə müddəalarının yayılması öhdəliyini nəzərdə tutur. BMT hey'əti və onunla bağlı hey'ətin təhlükəsizliyi haqqında 9 dekabr 1994-cü il Konvensiyasının 19-cu maddəsi konvensiya mətninin yayılmasını və həmçinin hərbi tə'lim proqramlarına konvensiya mətni və beynəlxalq humanitar hüququn müvafiq normalarının salınmasını tələb edir. Beynəlxalq humanitar hüququn yayılması öhdəliyi BMT-nin 1980-ci il Konvensiyasının 6-cı maddəsində də nəzərdə tutulmuşdur. Həmin Konvensiyaya 1996-cı il II Əlavə Protokolun 13-cü maddəsi dövlətlərin üzərinə öz silahlı qüvvələri və mülki əhali arasında protokol haqqında mə'lumatların yayılması barədə illik məsləhətləşmə müşavirələrinə mə'ruzələr təqdim etmək öhdəliyi qoyur. E. David belə hesab edir ki, bu cür öhdəliyə müvafiq olaraq dövlət bir tərəfdən tətbiqi qadağan olunmuş silahlarla silahlı qüvvələrini təchiz etməkdən çəkinir, digər tərəfdən isə tətbiqi məhdudlaşdırılmış silahlardan istifadəni tənzimləyən qərarlar qəbul edir.[11]

Beynəlxalq humanitar hüquq üzrə müqavilə iştirakçısı olan dövlətlər təbii ki, onları tətbiq etməyə borcludurlar. Beynəlxalq müqavilə hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 26-cı maddəsi pacta sunt servanda prinsipini nəzərdə tutur.[12] Yə'ni qüvvədə olan hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və vicdanla yerinə yetirilməlidir. Bu prinsipin imperativ xarakteri onda öz ifadəsini tapmışdır ki, dövlətlər qarşılıqlı münasibətlərində ondan kənarlaşa bilməzlər.[13]

Beynəlxalq humanitar hüququn əsasını təşkil edən 1949-cu il Cenevrə Konvensiyaları və onlara Əlavə Protokolların tətbiqinin imperativ xarakteri, həmçinin bu öhdəliyin müharibənin ədalətli və ya ədalətsiz aparılmasından, heç bir qarşılıqdan asılı olmaması (tərəflərdən birinin həmin müqavilələrə riayət etməməsinin digər tərəfin də onları pozmasına bəraət qazandırmaması), həmin müqavilələrə hər bir halda riayət edilməsi üçün tə'minat verir.

---

11 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. С.426

12 Ətraflı bax: İbayev V. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn jus cogens prinsipləri prizmasında. Bakı.1999.

13 Венская Конвенция о праве международных договоров. Комментарий. М., Юридическая литература. 1997. с. 66

Dörd Cenevrə Konvensiyasının 1-ci maddəsi və I Əlavə Protokolun 1-ci maddəsinə əsasən nəinki iştirakçı dövlətlərin, həm də digər dövlətlərin silahlı qüvvələri tərəfindən həmin müqavilələrdə nəzərdə tutulmuş müddəalara riayət etməsi nəzərdə tutulur. Bu normaların tələbi I Əlavə Protokolun 89-cu maddəsində daha da konkretləşdirilir. Orada göstərilir ki, Konvensiyaların və bu protokolun ciddi pozulması hallarında Razılığa gələn Yüksək Tərəflər həm birlikdə, həm də fərdi qaydada, Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq şəraitində və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq tədbirlər görməyi öhdələrinə götürürlər. E.David belə hesab edir ki, silahlı münaqişəyə münasibətdə üçüncü dövlət, onun silahlı qüvvələri və ya nümayəndələri silahlı münaqişə hüququnun pozulmasının şahidi olduqda, onlar buna reaksiya verməli və pozuntunun aradan qaldırılması üçün tədbirlər görməlidirlər.[14] Eyni zamanda qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüquq normalarının pozulması ciddi xarakter daşıyırsa beynəlxalq cinayət kimi tövsif olunmalı və onu törədən şəxslər cinayət məs'uliyyətinə alınmalıdırlar.

26 noyabr 1968-ci ildə qəbul edilmiş "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyanın preambulasında "hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə görə tə'sirli cəzalandırmanın belə cinayətlərin qarşısının alınmasında, insan hüquqlarının və əsas azadlıqlarının qorunmasında" mühüm vasitə kimi qiymətləndirilmişdir.[15]

Qvatemalada insan hüquqları vəziyyətini müzakirə edərkən BMT Baş Məclisi dəfələrlə "insan hüquqlarını pozan şəxsləri, o cümlədən silahlı qüvvə və təhlükəsizlik qüvvələri nümayəndələrini tə'qib etməyə, onları münasibətdə səmərəli və tə'xirəsalınmaz cəza tədbirləri görməyə" çağırmışdır.[16]

Anqolada münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurası qeyd etmişdir ki, münaqişədə olan tərəflər "insan hüquqlarının pozulması hallarını aradan qaldırmalı, bu cür pozuntular haqqında mə'lumatları yoxlamalı və lazımi qaydada keçirilmiş məhkəmə baxışı nəticəsində təqsirli hesab olunanları cəzalandırmalıdırlar".[17]

---

14 Эрик Давид. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. С.428

15 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı . 1998. s. 114.

16 A/Res. 40/140, 13 decembre 1985, §7(91-8-47

17 S/Res. 1087, 11 decembre 1996, preambule, 6 (e) al.

Təbii ki, əgər insan hüquqlarına "riayət etmək" və "riayət olunmasını tə'min etmək" özündə onların pozulmasının qarşısını almağı ehtiva edirsə, beynəlxalq humanitar hüququn "riayət etməyə məcbur etmək" öhdəliyi üçün də bunlar ehtiva olunmalıdır.

Beynəlxalq humanitar hüququn tətbiqi eyni zamanda ölkə daxilində tədbir görülməsini də nəzərdə tutur. Bu öhdəlik ümumi qaydada I Əlavə Protokolun 80-ci maddəsində öz ifadəsini tapmışdır. Burada göstərilir ki, razılığa gələn yüksək tərəflər və münaqişədə iştirak edən tərəflər Konvensiyaların və bu Protokolun onlara həvalə etdiyi vəzifələrin icrası üçün dərhal bütün lazımi tədbirləri görürlər.

Razılığa gələn Yüksək Tərəflər və münaqişədə iştirak edən tərəflər Konvensiyalara və bu Protokola əməl olunmasını tə'min etmək üçün əmrlər və sərəncamlar verir və onların icrasına nəzarət edirlər.

A.X.Abaşidzenin MDB məkanında beynəlxalq humanitar hüquq normalarının yerinə yetirilməsi ilə əlaqədar apardığı tədqiqat dövlətlərin bu sahədə işinin daha da fəallaşdırılması üçün dəyərli hesab olunmalıdır.[18]

4. Hami dövlətlərin rolu

Qədim nəzarət mexanizmlərindən biri də Hami dövlətlər institutudur.

Hami dövlət, başqa dövlətin özünün və vətəndaşlarının maraqlarını üçüncü dövlət qarşısında mühafizə etməyi tapşırdığı dövlətdir. [19]

Bu institut haqqında ilk mə'lumatlar XVI əsrə aiddir. XIX-XX əsrlər ərzində həmin institut adət hüququna əsaslanaraq dövlətlər tərəfindən bu və ya digər dərəcədə tanınan əsas nəzarət mexanizminə çevrilmişdir.[20]

J.Pikte hami dövlətlər tərəfindən himayədə olan şəxslərin hüquqlarının mühafizəsini beynəlxalq mühafizəyə şamil edir. Müharibə şəraitində hami dövlətlər institutu 1870-ci il Fransa-Prusiya müharibəsi za-

---

18 Bax. Абашидзе А.Х. Как в СНГ применяются нормы международного гуманитарного права // Московский журнал международного права. 3/2000/39. Июль-сентябрь. С. 83-89.

19 Commentaire de la I Convention de Geneve, publie sous la direction de Jean Pictet. Geneve CICR. 1952. p. 94

20 Жан Пикте. Развитие и принципы международного гуманитарного права. М., МККК. 1995. с.91-92

manı fəaliyyətə başlamışdır. Sonradan bu institut birinci dünya müharibəsi gedişində inkişaf etdirildi. Belə ki, bir neçə dövlət hərbi əsir düşərgələrinə baş çəkmək barədə qərara gəldilər.

Normal şəraitdə bir qayda olaraq, dövlət başqa ölkənin ərazisində olan vətəndaşlarının hüquqlarını müdafiə edir. Bu cür müdafiə diplomatik müdafiə adlanır. Dövlətlərarası münasibətlər diplomatik münasibətlərin pozulması səviyyəsinə çatdığı hallarda dövlət özünün və vətəndaşlarının mənafeyinin müdafiə olunması üçün adətən üçüncü dövlətlərlə müraciət edir. XIX əsrdə silahlı münaqişədə olan dövlətlər arasında mənafelərinin üçüncü dövlət tərəfindən müdafiə olunması adət təcrübəsinə çevrilmişdi.

Beynəlxalq humanitar hüquq normalarının tətbiqinin beynəlxalq nəzarətin obyektinə çevrilməsi barədə təsəvvürlər başlıca olaraq Cenevrə hüququ çərçivəsində formalaşmışdır. 27 iyul 1929-cu il hərbi əsirlərlə rəftar haqqında Cenevrə Konvensiyasının 86-cı maddəsində hami dövlətlər institutu ilk dəfə hüquqi təsbitini tapdı. Lakin hami dövlətlərin mandatı ancaq hərbi əsirlərə baş çəkməklə məhdudlaşırdı.

İkinci Dünya Müharibəsi zamanı həmin maddənin müddəalarının geniş tətbiqi onun kifayət qədər təkmil olmamasını göstərdi. Müharibənin ərazi hüdudlarının genişlənməsi neytral dövlətlərin sayının azalmasına və onların bir neçə dövləti hami dövlət kimi təmsil etməsinə səbəb oldu. Hətta eyni dövlətin qarşı-qarşıya duran dövlətlərin hər birinin hami dövləti funksiyasını yerinə yetirməsilə nəticələndi.

Məsələn, İsveçrə 35 dövlətin, İsveç 28 dövlətin, ABŞ (müharibəyə qoşulana kimi) 12 dövlətin hami dövləti kimi fəaliyyət göstərmişdi.[21] Öz funksiyalarını yerinə yetirməyən hami dövlətin əvəz olunması ilə bağlı problemlər də meydana çıxmışdı. İkinci Dünya Müharibəsi gedişində hami dövlətlərin səlahiyyətlərinin genişləndirilməsinə ehtiyac olması daha aydın hiss olunmağa başladı. Bir tərəfdən çoxmilyonlu hərbi əsirlərin hamısına hami dövlətlərin mühafizəsi şamil olunmurdu, çünki onların mənsub olduğu dövlət əsirlikdə saxlayan dövlət tərəfindən tanınmamışdı. Digər tərəfdən düşmən hakimiyyəti altında olan mülki əhali heç bir mühafizədən istifadə etmədiyinə görə onlar tərəfindən hami dövlətə ehtiyac daha çox hiss olunurdu. Müharibədən sonra

---

21 Эрик Давид. Принципы права вооруженных конфликтов.М., МККК.2000.с.434

BQXK hami dövlətlərlə əlaqədar üç istiqamətdə fəaliyyət göstərirdi:

— hami dövlətlərin nəzarət prinsipinin bütün Konvensiyalara daxil edilməsinə nail olmaq;

— artıq fəaliyyət göstərməyən hami dövlətlərin əvəz edilməsi prosedurasını yaratmaq;

— nəzarətə məcburi xarakter verilməsinə cəhd etmək.[22]

1949-cu il Cenevrə Konvensiyaları hami dövlətlərin mandatına beynəlxalq humanitar hüququn əsas sahələrini daxil etmək və onların realizasiyası üzərinə də nəzarət qoymaqla xeyli genişləndirdi.

Sonradan bu təcrübə 1929-cu il və 1949-cu il Cenevrə Konvensiyalarında hami-dövlətlər sisteminin yaradılmasında öz ifadəsini tapdı. I, II, III Cenevrə Konvensiyaları üçün ümumi olan 8-ci maddədə və IV Cenevrə Konvensiyasının 9-cu maddəsində göstərilir ki, Konvensiya münaqişədə iştirak edən tərəflərin mənafelərini qorumaq vəzifəsi daşıyan hami dövlətlərlə əməkdaşlıq şəraitində və onların nəzarəti altında tətbiq edilir. Bu məqsədlə hami dövlətlər, diplomatik və ya konsul hey'ətlərindən əlavə, özlərinin və ya başqa neytral dövlətlərin vətəndaşları sırasından nümayəndələr tə'yin edə bilərlər. Həmin nümayəndələrin tə'yin olunması üçün onları qəbul edən Dövlətin razılığı alınmalıdır. Münaqişədə iştirak edən tərəflər hami dövlətlərin təmsilçilərinin və ya nümayəndələrinin işini mümkün olduğu qədər asanlaşdırmalıdırlar. Hami dövlətlərin təmsilçiləri və ya nümayəndələri Konvensiya ilə müəyyən edilmiş vəzifələrindən heç bir halda kənara çıxa bilməzlər. Xüsusən onlar öz vəzifələrini icra etdikləri dövlətin zəruri təhlükəsizlik ehtiyaclarını nəzərə almalıdırlar. Onların fəaliyyəti yalnız məcburi hərbi zərurətdən irəli gələn müstəsna və müvəqqəti tədbir kimi məhdudlaşdırıla bilər.

Təcrübədə hami dövlətlər tərəfindən "yardım" və "nəzarət" mənafeləri təmsil etmək və vasitəçilik xarakteri almışdır. Hami dövlətlərin nümayəndələri şəxsi müşahidə və ya müharibə qurbanları tərəfindən verilən şikayətlərdən hərbi əsirlərin yerləşmə və saxlanma şəraitinin əlverişsizliyindən və ya qida məhsulunun çatışmazlığından əzab çəkdiklərini və ya onları qadağan olunmuş iş növlərini yerinə yetirməyə məcbur edildiklərini, yaxud məktub göndərmək və almaqdan məhrum

22 Сандо. И Выполнение международного гуманитарного права // Имплементация международного гуманитарного права. Статьи и документы. М., МККК.1998.с.225

olunduqlarını və ya onlarla bu və ya digər formada pis davranıldığını bildikdə vəziyyəti düzəltmək üçün imkan tapmağa cəhd etməyə borcludurlar. Eyni zamanda, Konvensiyanın pozulması hallarında təhqiqat aparan, faktları aşkara çıxaran ictimai ittihamçı kimi çıxış etmək hami dövlətlərin vəzifəsinə daxil deyildir. Əgər onlar bu cür hərəkətlərə yol versəydilər öz funksiyalarını yerinə yetirmək imkanından məhrum olardılar.[23] Müvafiq olaraq I-III Konvensiyaların 9-cu maddəsi və IV Konvensiyanın 10-cu maddəsinə əsasən Konvensiyanın müddəaları münaqişədə iştirak edən əlaqədar tərəflərin razılığı ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin və ya hər hansı digər bitərəf humanitar təşkilatın himayə altında olan şəxslərin müdafiəsinə və onlara yardım göstərilməsinə yönəlmiş humanitar fəaliyyətinə maneə yaratmır. Göstərilən maddədə BQXK-nin birbaşa xatırlanması onun humanitar yardım göstərilməsi məsələlərində təşəbbüskarlığının adət hüququ norması kimi tanınmasına dəlalət edir. Bununla belə həmin maddə hami dövlətlərə verilmiş nəzarət funksiyasını BQXK-na şamil etmir. Hami dövlətlərin beynəlxalq humanitar hüquq normalarını yerinə yetirmək üzərində nəzarətilə bağlı növbəti müddəa I-III Cenevrə Konvensiyalarının 10-cu maddəsi və IV Cenevrə Konvensiyasının 11-ci maddəsidir. Həmin maddə hami dövlətin funksiyalarının faktiki olaraq yerinə yetirilməməsi, məsələn, münaqişədə olan tərəflərin hami dövlət tə'yin etməkdə razılığa gələ bilmədiyi halları tənzimləyir. Maddənin 1-ci hissəsinə əsasən Razılığa gələn Yüksək Tərəflər istənilən an razılaşıb Konvensiya ilə hami dövlətin üzərinə qoyulmuş vəzifələri bitərəfliyə və səmərəliliyə tam tə'minat verən hər hansı təşkilata həvalə edə bilərlər. Lakin hal-hazıra kimi bu müddəa ancaq nəzəri xarakter daşımışdır. Yə'ni təcrübədə bu cür sazişlərin bağlanılmasına təsadüf olunmamışdır.

Himayədə olan şəxslər "səbəbindən asılı olmayaraq, hami dövlətin və ya yuxarıda, bu maddənin birinci abzasında nəzərdə tutulan təşkilatın fəaliyyətindən faydalanmadıqda və ya bu faydalanmaya son verildikdə" himayədə olan şəxsləri saxlayan dövlət neytral dövlətə və belə təşkilata müraciət edərək münaqişədə iştirak edən tərəflərin tə'yin etdiyi hami dövlət tərəfindən konvensiyaya əsasən yerinə yetirilən funksiyaları öz üzərinə götürməyi xahiş etməlidir. Himayəni müvafiq şəkildə təşkil etmək mümkün olmadıqda himayədə olan şəxsləri saxlayan

23 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М., МККК. 1994.с.82

dövlət, Beynəlxalq Qırmızı Xaç kimi humanitar bir təşkilata müraciət edərək, hami dövlət tərəfindən bu konvensiyaya əsasən yerinə yetirilən humanitar funksiyaları öz üzərinə götürməyi xahiş etməli və ya həmin təşkilatın bu barədə təklifini qəbul etməlidir. Əlaqədar dövlət tərəfindən də'vət edilən və ya bu məqsədlər üçün öz xidmətlərini təklif edən hər hansı neytral dövlət və ya təşkilat bu Konvensiyanın himayəsində olan şəxslərin mənsub olduqları münaqişədə iştirak edən tərəf barəsində məs'uliyyətini anlamaqla hərəkət etməli və müvafiq funksiyaları öz üzərinə götürməyə və qərəzsiz yerinə yetirməyə qadir olduğuna yetərli zəmanət verməlidir. Hərbi şəraitə görə, xüsusən bütün ərazisi və ya onun mühüm hissəsi işğal edildiyinə görə sərbəst danışıqlar aparmaq imkanı, müvəqqəti də olsa, məhdud olan dövlətlə başqa dövlət və ya onun müttəfiqləri arasında bağlanmış xüsusi sazişlər əvvəlki müddəalara xələl gətirə bilməz.

Hər dəfə Konvensiyada hami dövlət adı çəkildikdə, həmin ad bu maddənin tələblərinə uyğun olaraq, onu əvəz edən təşkilatlara da aid edilir.

Konvensiyanın 11-ci maddəsinə əsasən hami dövlətlər himayədə olan şəxslərin mənafeləri üçün münasib saydıqda, xüsusən münaqişədə iştirak edən tərəflər arasında Konvensiyanın müddəalarının tətbiqi və ya təfsiri ilə əlaqədar ixtilaflar olduqda, həmin ixtilafın aradan qaldırılması məqsədilə özlərinin xoş məramlı xidmətlərini təklif etməlidirlər. Bu maddədə hami dövlətlərdən hər biri və ya tərəflərdən birinin xahişi ilə, ya da öz təşəbbüsü ilə münaqişədə iştirak edən tərəflərə onların nümayəndələrinin, xüsusən himayədə olan şəxslərə görə məs'uliyyət daşıyan səlahiyyətli şəxslərin imkan daxilində neytral ərazidə görüşünü keçirməyi təklif edə bilər. Münaqişədə iştirak edən Tərəflər həmin məqsədlə onlara verilən təklifləri həyata keçirməyə borcludurlar. Hami dövlətlər lazım gələrsə, belə görüşdə iştirak etmək üçün ya neytral dövlətə mənsub olan, ya da BQXK tərəfindən göndərilən şəxsi təsdiq olunmaq üçün münaqişədə iştirak edən tərəflərə təqdim edə bilərlər.

III Cenevrə Konvensiyasının 126-cı maddəsinə əsasən hami dövlətlərin nümayəndələrinə və ya təmsilçilərinə hərbi əsirlərin olduqları bütün yerlərə, o cümlədən nəzarət altında saxlama, azadlıqdan məhrum etmə və iş yerlərinə baş çəkməyə icazə verilməli və onlar hərbi əsirlərin istifadə etdikləri bütün yerlərə girmək imkanına malik olmalıdırlar; onlara həmçinin, yerləri dəyişdirilən əsirlərin yola salınma, tranzit və gəlmə yerlərinə girməyə icazə verilməlidir. Onlara əsirlərlə xü-

susən əsirlərin nümayəndələri ilə şəxsən və ya tərcüməçi vasitəsi ilə şahidsiz söhbət etməyə imkan verilməlidir. Hami dövlətlərin nümayəndələri və təmsilçiləri baş çəkmək istədikləri yerləri seçməkdə tam sərbəstdirlər. Bu görüşlərin müddəti və sayı məhdudlaşdırıla bilməz. Müstəsna və müvəqqəti hal kimi hərbi zərurət tələb etdiyi hallar istisna olmaqla, görüşlərin qadağan edilməsinə icazə verilmir. Zərurət olduqda, əsirlikdə saxlayan dövlət və əsirlərin mənsub olduğu dövlət hərbi əsirlərə baş çəkilməsində onların həmvətənlərinin iştirakına icazə verilməsi barədə razılığa gələ bilərlər. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri eyni səlahiyyətlərdən istifadə edirlər. Bu nümayəndələrin tə'yin edilməsi baş çəkilmək istənilən hərbi əsirləri saxlayan dövlətin razılığından asılıdır. IV Cenevrə Konvensiyasının 143-cü maddəsində də hami dövlətlərin nümayəndələrinə himayədə olan şəxslərin olduqları bütün yerlərə daxil olmaq hüququ nəzərdə tutulmuşdur. Hami dövlətlər hər bir vaxt heç bir maneəsiz işğal olunmuş ərazidə ərzaq təchizatının vəziyyətini yoxlamaq hüququna malikdir.[24]

Cenevrə Konvensiyaları müddəalarına müvafiq olaraq hami dövlətlərin tə'yin olunması üç şərtdən asılı idi. Əvvəla, münaqişədə olan tərəflərin hami dövlət tə'yin etmək vəzifəsi yox idi. İkincisi, hami dövlət olması xahiş olunan hər bir dövlət xahişi rədd edə bilərdi. Nəhayət, münaqişədə olan əks tərəf digər tərəfin xahişini qəbul etməyə borclu deyildi.[25]

Cenevrə Konvensiyaları ilə müəyyən edilmiş hami dövlətlər sisitemi praktikada bir o qədər də səmərəli deyildi. Çünki silahlı münaqişə başlanandan sonra hami dövlətn tə'yin edilməsi demək olar ki, qeyri-mümkün olurdu. BQXK substitut kimi fəaliyyət göstərməsi də tərəflərin razılığından asılı idi. Baş vermiş silahlı münaqişələrdə de facto hami dövlət funksiyasını BQXK yerinə yetirir. Belə ki, Suveyş böhranı (1956) , Qoa münaqişəsi (1961), Hindistan-Pakistan münaqişəsi (1971) Malvin adaları münaqişəsi zamanı (1982) adətən hami dövlət üçün ayrılmış əksər humanitar funksiyalırı məhz BQXK yerinə yetirmişdir Ona görə də bu vəziyyət hüquqi təsbitini tapmalı idi.[26]

---

24 Калугин,В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999.с.164

25 Калугин,В.Ю., Павлова Л.В., Фисенко И.В. Международное гуманитарное право. Минск. Тесей. 1999. с.229

26 Эрик Давид. Принципы права вооруженных конфликтов.М., МККК.2000.с.435.

İkinci Dünya müharibəsindən sonrakı dövr Cenevrə Konvensiyaları ilə müəyyən edilmiş Hami dövlətlər sisteminin səmərəsizliyini təsdiq etdi.

Hami Dövlətlərə məxsus fəaliyyətin həyata keçirilməsi 14 may 1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Haaqa Konvensiyasında da nəzərdə tutulmuşdur. Belə ki, Konvensiyanın icra reqlamentinə müvafiq olaraq tərəflər konvensiyanın pozulmasını müəyyən etmək səlahiyyətinə malik nümayəndələr tə'yin edə bilərlər. Bundan əlavə mədəni dəyərlər üzrə Baş Komissar şəxslərin beynəlxalq siyahısından, həm onun öz funksiyalarını yanında yerinə yetirdiyi tərəfin, həm də onunla münaqişədə olan tərəflərin hami dövlətlərinin razılığı ilə seçilir. Hami dövlətlərin nümayəndələri Konvensiyanın pozulmasını qeydə alır, öz funksiyalarını yanında yerinə yetirdikləri tərəfin razılığı ilə bu pozuntuların baş verdiyi şəraiti araşdırır, bu pozuntulara son qoymaq üçün yerindəcə demarşlar edir və lazım gəldikdə, onlar barəsində Baş Komissara xəbər verirlər. Onlar öz fəaliyyətləri barədə Baş Komissara mə'lumat verirlər. İcra Reqlamentində həmçinin, Hami dövlətlərin əvəz edilməsi də nəzərdə tutulmuşdur (mad. 9).

1977-ci ildə qəbul edilmiş I Əlavə Protokol da bu məsələlərdə müəyyən mütərəqqi dəyişikliklər etdi. Hər şeydən əvvəl, I Əlavə Protokolun 2-ci maddəsində hami dövlətin anlayışı verildi. Orada göstərilirdi ki, hami dövlət — münaqişədə iştirak edən tərəfin tə'yin etdiyi və düşmən tərəfin Konvensiyalara və bu Protokola uyğun olaraq hami dövlətə həvalə edilmiş funksiyalarını həyata keçirməsinə razılıq verdiyi münaqişədə iştirak etməyən neytral dövlətdir. Həmin maddəyə əsasən substitut hami dövlətin əvəzinə fəaliyyət göstərən təşkilatı bildirir.

Hami dövlətin anlayışından mə'lum olurdu ki, o üçtərəfli razılığı nəzərdə tutur. Dövlətin hami dövlət kimi fəaliyyət göstərməsi üçün həm münaqişədə olan tərəflər, həm də hami dövlətin razılığı olmalıdır.

5-ci maddənin 1-ci bəndində münaqişənin əvvəlindən hami dövlətlər sistemini tətbiq etməklə, o cümlədən aşağıdakı bəndlərə müvafiq surətdə onları tə'yin etməklə və tanımaqla Konvensiya və Protokola riayət olunması və onun tətbiqini tə'min etmək münaqişədə iştirak edən tərəflərin vəzifəsi kimi müəyyən edilirdi. Orada qeyd olunurdu ki, hami dövlətlərə münaqişədə iştirak edən tərəflərin mənafelərini qorumaq vəzifəsi həvalə olunur. 5-ci maddənin 2-ci bəndində nəzərdə tutulur ki, münaqişədə iştirak edən hər bir tərəf Konvensiyaların və Protokolun tətbiqi məqsədilə ləngimədən hami dövlət tə'yin edir, habelə

ləngimədən və eyni məqsədlə düşmən tərəfin tə'yin etdiyi və özünün tanıdığı hami dövlətin fəaliyyətinə icazə verir. Əgər hami dövlət tə'yin edilməzsə və ya tanınmazsa, BQXK hər hansı bitərəf humanitar təşkilatın eynilə bu cür hərəkət etmək hüququnu məhdudlaşdırmadan, münaqişədə iştirak edən tərəflərin razılığı ilə hami dövlətin ləngimədən tə'yin edilməsi məqsədilə münaqişədə iştirak edən tərəflərə öz xeyirxah xidmətlərini təklif edir. Bu məqsədlə, xüsusən, hər bir tərəfə müraciət edərək, düşmən tərəf barəsində onun adından hami dövlət kimi fəaliyyət göstərməsini məqbul saydığı azı beş dövlətin siyahısını verməyi xahiş edir. Bu siyahılar həmin xahişin alındığı andan başlayaraq iki həftə ərzində həmin Komitəyə göndərilməlidir. Komitə siyahıları müqayisə edir və hər iki siyahıda təklif edilən hər bir dövlətin razılığını soruşur.

Əgər yuxarıda göstərilənlərə baxmayaraq, hami dövlət yoxdursa və ya fəaliyyət göstərmirsə, münaqişədə iştirak edən tərəflər Beynəlxalq Qırmızı Xaç Komitəsinin həmin tərəflərlə məsləhətləşmələrdən sonra və həmin məsləhətləşmələrin nəticələrini nəzərə almaqla substitut kimi fəaliyyət göstərmək barədə irəli sürə bildiyi təklifi ləngimədən qəbul edirlər. Belə substitutun fəaliyyəti münaqişədə iştirak edən tərəflər Konvensiyanın və Protokolun nəzərdə tutuduğu vəzifələrin həyata keçirilməsində substitutun fəalliyyətinə kömək etmək üçün hər cür sə'ylər göstərirlər.

Konvensiyaların və Protokolun tətbiqi məqsədilə hami dövlətin tə'yin edilməsi və tanınması münaqişədə iştirak edən tərəflərin və ya işğal edilmiş ərazi də daxil olmaqla, hər hansı ərazinin hüquqi statusuna toxunmur.

5-ci maddədə həmçinin, göstərilir ki, hər dəfə Protokolda hami dövlət adı çəkildikdə, həmin ad onun substitutuna da aid edilir.

Hami dövlət və BQXK kimi substitutun fəaliyyət tərzi arasında fərq ondan ibarətdir ki, hami dövlət əsasən təmsil etdiyi dövlətin mənafeyini mühafizə etməyə borcludur. Substitutun fəaliyyətində isə əsasən qərəzsizliyə daha çox istinad edilir. Əgər söhbət BQXK kimi təşkilatdan gedirsə, onda həmin təşkilat ilk növbədə müharibə qurbanlarının mənafeyini müdafiə etməlidir.[27]

---

27 Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. М.МККК.1994.с.81-84.

I Əlavə Protokolun 6-cı maddəsində nəzərdə tutulur ki, Razılığa gələn Yüksək Tərəflər hələ dinc dövrdə Milli Qırmızı Xaç (Qırmızı Aypara) Cəmiyyətlərinin köməyi ilə Konvensiyaların və Protokolun tətbiqini, o cümlədən hami dövlətlərin fəaliyyətini asanlaşdırmaq məqsədilə ixtisaslaşdırılmış hey'ət hazırlamağa çalışmalıdırlar. I Əlavə Protokolun 60-cı maddəsinə əsasən münaqişədə iştirak edən Tərəflərin öz hərbi əməliyyatlarını saziş əsasında silahsızlaşdırılmış zona statusu verdikləri əraziyə genişləndirməsi, əgər bu, həmin sazişin müddəalarına ziddirsə qadağan edilir. Belə saziş, şifahi və ya yazılı şəkildə olmaqla, aydın ifadə edilməlidir, ya bilavasitə, ya da hami dövlətin və ya hər hansı bitərəf humanitar təşkilatın vasitəçiliyi ilə bağlana bilər. I Əlavə Protokol itkin düşmüş şəxslərlə əlaqədar mə'lumatların ötürülməsində də hami dövlətlərin xidmətlərindən istifadə edilməsini nəzərdə tutur. Belə ki, 33-cü maddəyə əsasən şərait imkan verən kimi və ən geci fəal döyüş əməliyyatları sona çatdıqdan sonra dərhal münaqişədə iştirak edən hər tərəf düşmən tərəfin itkin düşmüş e'lan etdiyi şxsləri axtarır. Həmin düşmən tərəf belə şəxslərin axtarışını asanlaşdırmaq üçün onlara dair bütün müvafiq mə'lumatları təqdim edir. İtkin düşdüyü bildirilən şəxslər barəsində mə'lumatlar və belə mə'lumatlara dair sorğular ya birbaşa, ya da hami dövlət, BQXK Mərkəzi Mə'lumat Agentliyi və ya Milli Qırmızı Xaç (Qırmızı Aypara) Cəmiyyətləri vasitəsilə göndərilir.

Bütün neytral dövlətlər və ya münaqişədə tərəf olmayan dövlətlər hami dövlət funksiyalarını yerinə yetirməklə silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquqa riayət olunmasında mühüm rol oynaya bilər.[28]

5. Beynəlxalq humanitar hüquqa riayət olunmasına nəzarət

Beynəlxalq humanitar hüquqa riayət olunması üzərində konkret nəzarət xüsusi təhqiqat mexanizmləri və cinayət sanksiyaları vasitəsi ilə həyata keçirilə bilər. Qeyd etmək lazımdır ki, Cenevrə Konvensiyaları və I Əlavə Protokol ilə müəyyən edilmiş mexanizm ancaq beynəlxalq silahlı münaqişələr üçün nəzərdə tutulmuşdur. Qeyri-beynəlxalq silahlı münaqişələrə gəldikdə isə onlara ümumi beynəlxalq hüququn və ümu-

28 Гассер Х.-П. Международное гуманитарное право. Введение. М., МККК. 1995. с.35-36

mi beynəlxalq cinayət hüququnun normaları tətbiq olunur.

Təhqiqat prosedurası silahlı münaqişələr hüququ üçün yeni deyildir. Hələ 1929-cu ildə qəbul edilmiş yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası 30-cu maddədə bu növ mexanizm nəzərdə tutmuşdu. Sonradan bu mexanizm öz ifadəsini 1949-cu il Cenevrə Konvensiyalarının müvafiq maddələrində (mad. 52, 53, 132, 149) tapdı. Belə ki, konvensiyanın pozulması ilə bağlı hər hansı iddia irəli sürüldükdə münaqişədə iştirak edən tərəflərin birinin xahişi ilə əlaqədar tərəflər arasında müəyyən edilməli olan prosedura qaydasında istintaq başlanmalıdır.

İstintaq prosedurası ilə bağlı razılaşma əldə edilmədikdə qarşılıqlı razılaşma əsasında tərəflər prosedura məsələsini həll edərək münsif seçməlidirlər.

Pozuntu müəyyən edilən kimi münaqişədə iştirak edən tərəflər onun qarşısını almalı və pozuntuya görə mümkün qədər qısa müddətdə cəza verilməsi üçün tədbirlər görməlidirlər. Göründüyü kimi bu prosedura-nın baş tutması üçün tərəflər arasında razılığın olması tələb olunur. Bu isə müəyyən qədər çətinliklərlə bağlı olduğuna görə sistem indiyə kimi fəaliyyət göstərməmişdir. Beynəlxalq humanitar hüquqa riayət edilməsi üzərində nəzarətlə bağlı I Əlavə Protokolun 90-cı maddəsində faktların müəyyən edilməsi üzrə Komissiyanın yaradılmasının nəzərdə tutulması bu sahədə əhəmiyyətli irəliləyiş kimi qeyd olunmalıdır.

8 iyul 1992-ci il tarixdə daxili reqlamentini qəbul etməklə Komissiya özünü "Faktların müəyyən edilməsi üzrə beynəlxalq humanitar komissiya" adlanırdı.

İlkin olaraq faktları müəyyən etmək üzrə Komissiyanın qarşısında Konvensiyanın, I Əlavə Protokolun və beynəlxalq silahlı münaqişələr zamanı tətbiq olunan digər normaların pozulmasına aid hər hansı şikayətə münasibətdə qərəzsiz olaraq həqiqəti müəyyən etmək vəzifəsi qoyulmuşdu. Dövlətlər silahlı münaqişə hüququnun pozulmasını təşkil edən faktları aşkar etməyi qərəzsiz komissiyaya tapşırmağa razılaşdılar. I Əlavə Protokolun 90-cı maddəsinin 2 s bəndinə əsasən Komissiyanın aşağıdakı səlahiyyətləri vardır:

"1) Konvensiyalarla və bu Protokolla müəyyən edilmiş ciddi pozuntu və ya Konvensiyaların və ya bu Protokolun digər ciddi pozuntusu olduğu ehtimal edilən istənilən faktı tədqiq etmək;

2) öz xeyirxah xidmətləri vasitəsilə Konvensiyalara və bu Protokola hörmətin bərpasına kömək etmək".

İkitərəfli təhqiqatın mövcud sistemi ilə müqayisədə 90-cı maddədə əsas yenilik Komissiyanın işi icraatına qəbul etmə mexanizmindədir. İlkin olaraq belə nəzərdə tutulurdu ki, I Əlavə Protokola qoşulma faktının özü kifayətdir ki, münaqişədə tərəf olan hər hansı bir dövlət birtərəfli qaydada ipso facto təhqiqat aparmağa səlahiyyətli olan Komissiyaya müraciət etsin. Skandinaviya ölkələri və Yeni Zelandiyanın təklif etdiyi layihədə isə Komissiyanın təşəbbüskarlıq hüququ tanınırdı. Lakin bu ideya başqa dövlətlər tərəfindən dəstəklənmədi.

Beləliklə, Razılaşmış Yüksək Tərəf silahlı münaqişə hüququnun ehtimal olunmuş pozuntusu ilə əlaqədar ancaq aşağıdakı şərtlərə riayət etməklə birtərəfli qaydada Komissiyaya müraciət edə bilər:

— Həmin Razılaşmış Yüksək Tərəf özü və pozuntunu törətməsi güman edilən yüksək razılaşmış tərəf Komissiyanın yurisdiksiyasını tanımış olsun;

— müraciət Konvensiya və I Əlavə Protokolun ciddi pozuntusu ilə əlaqədar olmalıdır.

Başqa hallar üçün isə bütün maraqlı tərəflərin xüsusi razılığı tələb olunur. 90-cı maddədə Komissiyanın yurisdiksiyasını tanıyan silahlı münaqişəyə münasibətdə üçüncü dövlətin münaqişədə olan tərəflərdən birinin törətdiyi ciddi pozuntunun təhqiqatının keçirilməsi barədə sorğu verməsinə maneçilik törədən heç bir müddəa nəzərdə tutulmamışdır. Deməli, əslində silahlı münaqişə ilə bağlı olmayan dövlət münaqişədə olan hər hansı tərəfin beynəlxalq humanitar hüququ ciddi surətdə pozması qənaətinə gələrsə və əgər o Komissiyanın yurisdiksiyasını tanıyırsa, eyni yurisdiksiyanı tanıyan dövlətin əməlinin tədqiq etmək xahişi ilə Komissiyaya müraciət edə bilər. Bu həm də beynəlxalq humanitar hüquqa riayət etməyə məcbur etmək öhdəliyindən irəli gəlir.

Razılaşmış Yüksək Tərəf Komissiyanın səlahiyyətini istədiyi vaxt tanıya bilər. Beləliklə, Komissiyanın fəaliyyət göstərməsini arzulayan dövlət onun yurisdiksiyasını tanımaq barədə sənədi təqdim etməklə dərhal Komissiyanın yurisdiksiyasını tanımış olan dövlətin törətmiş olduğu hər hansı ciddi pozuntunun təhqiqatını həyata keçirmək barədə sorğu verə bilər.

Komissiya mə'nəvi keyfiyyətlərə malik olan və qərəzsizliyi ilə tanınan 15 üzvdən ibarətdir. Azı 20 razılığa gələn tərəf Komissiyanın yurisdiksiyasını tanıdıqdan sonra, o fəaliyyətə başlayır. 20 noyabr 1990-cı ildə Kanada 20-ci dövlət kimi 90-cı maddəyə müvafiq olaraq Komissi-

yanın yurisdiksiyasını tanımaq barədə müraciət etikdən sonra İsveçrə komissiya üzvlərinin seçilməsi prosedurasına başladı.

90-cı maddənin 3-cü bəndinə əsasən əlaqədar tərəflər arasında başqa saziş əldə edilmədikdə bütün təhqiqatlar aşağıdakı qaydada tə'yin edilən yeddi üzvdən ibarət Palata tərəfindən həyata keçirilir:

1) Komissiyanın sədri Komissiyanın münaqişədə iştirak edən tərəflərdən heç birinin vətəndaşları olmayan beş üzvünü münaqişədə iştirak edən tərəflərlə məsləhətləşmələrdən sonra ədalətli coğrafi bölgü əcasında tə'yin edir;

2) münaqişədə iştirak edən tərəflərdən heç birinin vətəndaşı olmayan iki xüsusi üzvün hərəsini tərəflərdən biri tə'yin edir.

Təhqiqat aparılması xahişi aldıqda Komissiyanın sədri Palatanın yaradılması üçün xüsusi müddət müəyyən edir. Əgər bu müddət ərzində xüsusi üzvlərdən hər hansı biri tə'yin olunmazsa, sədr dərhal palatanın tərkibini tamamlamaq üçün zəruri olan əlavə Komissiya üzvünü və ya üzvlərini tə'yin edir.

Təhqiqat aparılması üçün tə'sis edilmiş Palata münaqişədə iştirak edən tərəfləri ona kömək göstərməyə və sübutlar təqdim etməyə də'vət edir. Palata həmçinin zəruri hesab etdiyi digər sübutlar axtara və vəziyyəti yerində təhqiq edə bilər.

Bütün sübutlar tamamilə əlaqədar tərəflərin nəzərinə çatdırılır. Tərəflər həmin sübutlar barəsində Komissiyaya öz qeydlərini vermək hüququna malikdirlər.

Hər bir əlaqədar tərəfin belə sübutlara öz e'tirazını bildirmək hüququ vardır.

Komissiya Palatanın müəyyən etdiyi faktlara dair hesabatı, zəruri saydığı tövsiyələrlə birlikdə əlaqədar tərəflərə təqdim edir. Bu Komissiyaya hüquqi rə'ylər verməsini qadağan etmir. Qeyd etmək lazımdır ki, hətta komissiya faktiki rə'y verməklə kifayətlənsə, yə'ni hüquqi rə'y verməsə belə, bu mə'ruzənin əhəmiyyəti və nəticələrinə xələl gətirmir. Çünki çox vaxt ancaq faktın müəyyən edilməsi onun hüquqi tövsifi və ona görə cavabdeh olan şəxslərin müəyyən edilməsi üçün kifayət edir. Əgər Palata obyektiv və qərəzsiz rə'ylər hazırlamaq üçün kifayət qədər sübut yığa bilməsə, Komissiya bunun nə üçün mümkün olmamasının səbəblərini bildirir. Münaqişədə olan tərəfələr xahiş etməsələr komissiya öz rə'yləri barəsində açıq hesabat vermir.

Komissiyanın inzibati xərcləri sorğu verən razılığa gəlmiş yüksək tərəflərin ödəmələri və könüllü ödəmələr hesabına çəkilir. Təhqiqat

aparılmasını xahiş edən münaqişədə iştirak edən tərəf və ya tərəflər palatanın xərclərinin ödənilməsi üçün avans şəklində zəruri vəsaitlər verirlər. İşin icraatı ilə əlaqədar çəkilən xərclər iddiaçı və cavabdeh tərəfindən bərabər məbləğdə ödənilir. Komissiyanın qərargah mənzili Berndə yerləşir.

Beynəlxalq humanitar hüquqa riayət edilməsi üzərində nəzarət mexanizminin yaradılması işində Komissiya şübhəsiz ki, mütərəqqi inkişafdır. Bu sistemin Cenevrə Konvensiyalarından üstünlüyü ondadır ki, münaqişədə olan tərəflər Komissiyanın səlahiyyətini tanıdıqdan sonra onlardan hər biri təhqiqatın predmeti olacaq digərinin razılığının alınmasını gözləmədən təhqiqat aparılması barədə xahişlə Komissiyaya müraciət edə bilər. Nəzəri cəhətdən Komissiyanın yaradılması müəyyən ümidlər versə də, onun praktikada sınaqdan çıxmaması gələcək perspektivi barədə tam əminliklə danışmağa əsas vermir.

Fəsil XVII

BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN POZULMASINA GÖRƏ MƏS'ULİYYƏT

1. Dövlətlərin məs'uliyyəti

Dövlətin beynəlxalq hüququn subyekti kimi beynəlxalq hüquqi məs'uliyyət daşıması heç bir şübhə doğurmur. Lakin onu da qeyd etmək lazımdır ki, hazırda beynəlxalq hüquq normalarının pozulmasına görə dövlətin məs'uliyyət daşımasını həyata keçirən orqanlar sistemi mövcud deyildir. Eyni zamanda, bu o demək deyildir ki, beynəlxalq hüquq normalarını pozan dövlət cəzasız qalır və ya qalmalıdır.

P.M.Kuris haqlı olaraq qeyd edir ki, beynəlxalq hüquqi məs'uliyyət institutu beynəlxalq hüququn tə'mininin mühüm hüquqi vasitəsi-onun mahiyyətinin zəruri ünsürüdür. Hüquq onun normalarının pozulmasına görə məs'uliyyətsiz təsəvvür edilə bilməz.[1]

A.Ferdross da bu fikirləri təsdiq edib göstərir ki, məs'uliyyət prinsipindən imtina edilməsi "beynəlxalq hüququn məhvinə səbəb olardı. Çünki dövlətin törətdiyi hüquqazidd əməlinə görə məs'uliyyətdən imtina, eyni zamanda, beynəlxalq hüquq normalarına riayət edilməsi barədə dövlətin öhdəliyini də aradan qaldırmış olardı".[2]

BMT Beynəlxalq Hüquq Komissiyasının dövlətin məs'uliyyəti haqqında sənədin Layihəsinin 1-ci maddəsində qeyd olunur ki, "dövlətin hər hansı beynəlxalq hüquqi əməli həmin dövlətin beynəlxalq məs'uliyyətini doğurur".[3] Burada pozuntu törətmiş dövlətin məs'uliyyətinin labüdlüyü prinsipi müəyyənləşdirilmişdir. Bu prinsip beynəlxalq hüquqda olduğu kimi daxili hüquq üçün də xarakterikdir. Layihənin 2-ci maddəsindən irəli gələn prinsip ondan ibarətdir ki, beynəlxalq hüquqazidd əməl törətmiş hər bir dövlət beynəlxalq məs'uliyyət daşımalıdır.

---

1 Курис П.М. Международные правонарушения и ответственность государств. Вильнюс, 1973.с.10.

2 Фердросс А. Международное право. М., 1959. с. 353.

3 Доклад Комиссии международного права о работе ее двадцать пятой сессии 7 мая-13 июля 1973.Гл.2.

Yə'ni heç bir dövlət beynəlxalq məs'uliyyətə münasibətdə immunitetə malik deyildir. Üçüncü prinsip tanınmış hüquqi ifadə nullum crimen sine lege (qanunda nəzərdə tutulmayan əməl cinayət deyil) ilə bağlıdır. Beynəlxalq Hüquq Komissiyası bu prinsipi Layihənin 4-cü maddəsində nəzərdə tutmuşdur. Orada göstərilir ki, "dövlətin əməli ancaq beynəlxalq hüquqa əsasən beynəlxalq hüquqa zidd kimi tövsif edilə bilər". Burada eyni zamanda göstərilir ki, əməlin daxili hüquqa uyğunluğu onun tövsifinə tə'sir göstərmir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Azərbaycan Respublikasının qanunvericiliyi hazırda beynəlxalq standartlara uyğunlaşdırıldığına görə bu cür ziddiyyətlərin mövcudluğu az ehtimal olunur.

Məs'uliyyətin subyektinin müəyyənləşdirilməsi üçün konkret əməlin fiziki şəxslər tərəfindən törədilməsini bilmək kifayət deyildir. Eyni zamanda bilmək lazımdır ki, həmin hərəkət şəxs tərəfindən öz iradəsinə uyğun, yaxud dövlətin iradəsi ilə törədilmişdir. İcraçı şəxsin statusu məs'uliyyət daşıyan subyektlərin dairəsinin müəyyən edilməsi üçün zəruridir. Əgər dövlətin nümayəndəsi dövlətin funksiyası ilə heç bir əlaqəsi olmayan hərəkət törədirsə, hətta bu zaman dövlətin onun sərəncamına verdiyi vasitələrdən istifadə edirsə belə bu hərəkət fərdi əməl kimi qiymətləndirilməlidir və dövlətin məs'uliyyətinə səbəb olmur.[4]

Beynəlxalq cinayətlərdə dövlətlərin iştirakı düzünə və yanakı ola bilər. Dövlətin beynəlxalq cinayətin törədilməsində düzünə iştirakının müəyyənləşdirilməsi qaydaları mücuddur. Bu qaydalar Layihənin 5-8-ci maddələrində öz əksini tapmışdır. Həmin maddələrdə dövlət adından çıxış edən şəxslərin, dövlət orqanlarının hərəkətlərinin dövlətə şamil edildiyi hallar müəyyənləşdirilmişdir.

---

4 Эрик Давид. Принципы права вооруженных конфликтов. М. МККК. 2000. с. 470.

Dövlətin beynəlxalq cinayətlərdə yanakı iştirakının dəqiq kriteriyaları isə müəyyən edilməmişdir (məsələn, beynəlxalq cinayətin qarşısının alınması üçün tədbir görülməsinə nəyi şamil etmək olar; nəticədən asılı olmayaraq dövlətin məs'uliyyətdən azad edilməsi üçün hansı tədbirləri kifayət hesab etmək olar və s.).[5] Sözsüz ki, bu cür məsələlərin həlli mühakimə etmək səlahiyyətinə malik orqanın rə'yini tələb edir. İ.V.Fisenko bu cür vəziyyətdən çıxış yolunu dəqiq prosessual qaydalara əsasən fəaliyyət göstərəcək səlahiyyətli istintaq və məhkəmə orqanının yaradılmasında görür.[6]

Layihənin 10-cu maddəsinin mə'nasına görə dövlət adından çıxış edən hər hansı bir vəzifəli şəxs dövlətin funksiyalarını həyata keçirərkən dövlətdaxili hüquqla müəyyənləşdirilmiş vəzifə səlahiyyətlərini aşmış olsa belə onun hərəkətləri dövlət üçün beynəlxalq hüquqi məs'uliyyət yaradır. Dövlət daxili hüquqa istinad edib özünün vəzifəli şəxslərinin hərəkətlərinə görə məs'uliyyətdən kənarda qala bilməz. Müharibə qurbanlarının mühafizəsi üzrə Beynəlxalq Konfrans (Cenevrə, 30 avqust-1 sentyabr 1993-cü il) təsdiq etdi ki, "beynəlxalq humanitar hüququ pozmuş dövlət əgər buna əsas varsa ziyanı ödəməlidir".[7]

BMT Baş Məclisi keçmiş Yuqoslaviyadakı münaqişə ilə əlaqədar qeyd etmişdir ki, "dövlət onun nümayəndələrinin həm öz ərazisində, həm də başqa dövlətin ərazisində törətdikləri insan hüquqlarının pozulmasına görə məs'uliyyət daşımalıdır"[8]. Layihənin 1-ci maddəsinin 2-ci bəndinə əsasən Beynəlxalq Birliyin mühüm həyati mənafelərinin tə'mini üçün əsas olan, pozulması bütövlükdə cinayət kimi qiymətləndirilən beynəlxalq öhdəliklərin dövlət tərəfindən pozulması nəticəsində yaranan beynəlxalq hüquqazidd əməl beynəlxalq cinayəti təşkil edir (mad. 1, bənd 2). Komissiya qeyd etmişdir ki, burada beynəlxalq cinayət termininin işlədilməsi dövlətin məs'uliyyətinin "kriminallaşdırılması"na cəhd kimi başa düşülməməlidir.

Lakin qeyd etmək lazımdır ki, beynəlxalq hüquqi doktrinada dövlət-

---

5 Фисенко И.В. Борьба с международными преступлениями в международном уголовном праве. Минск. Тесей. 2000. с. 22.

6 Фисенко И.В. Борьба с международными преступлениями в международном уголовном праве. Минск. Тесей. 2000. с. 23

7 Declaration finale, II, 7.- RICR, 1993, p.404

8 A/ Res. 48/153,20 decembre 1993 & 12(sans vote); cp.49/196, 23 decembre 1994, & 12(150-0-14)

lərin beynəlxalq cinayət məs'uliyyəti konsepsiyası da hazırlanmışdır.[9] Hazırda bu konsepsiyanın tərəfdarları çoxluq təşkil etməsə də vardır. Həmin konsepsiyanın tərəfdarları əsasən Nürnberq Tribunalı tərəfindən yalnız fiziki şəxslərin deyil, həmçinin ayrı-ayrı təşkilatların da cinayətkar kimi tanınmasına əsaslanırlar. Onlar belə hesab edirlər ki, dövlətlər də özünəməxsus təşkilatdır və bu da onların cinayət məs'uliyyəti daşımasına əsas verir.[10] Lakin nəzərə almaq lazımdır ki, hər hansı təşkilatın cinayətkar hesab edilməsi onun özünün deyil, üzvlərinin cinayət məs'uliyyətinə cəlb edilməli olmasını və ya cəlb edilə biləcəyinə dəlalət edə bilər. Dövlətin cinayətkar hesab edilməsi isə heç cür onun vətəndaşlarının hamısının cinayət məs'uliyyətinə cəlb edilməsi kimi qiymətləndirilə bilməz. Ona görə də, "cinayətkar dövlət" termini bu cəhətdən özünü doğrultmur.

Beynəlxalq hüququn hər hansı normasının pozulmasına görə dövlət nə mülki hüquqi, nə də cinayət hüquqi məs'uliyyət deyil, beynəlxalq hüquqi məs'uliyyət daşıyır. Beynəlxalq hüququn səciyyəvi cəhəti ondadır ki, o, həmçinin fərdin məs'uliyyətini də müəyyən edir. Bu isə o deməkdir ki, beynəlxalq hüququn mütləq normalarının pozulmasına görə həmin əməli törətmiş şəxs birbaşa cinayət hüquqi məs'uliyyət daşıyır.[11]

S.V.Çerniçenko da bu mövqeyi dəstəkləyərək göstərir ki, dövlət hər hansı şəxsin onun adından müəyyən hərəkətlər törətdiyinə görə, həmin şəxslər isə müəyyən hərəkətləri dövlətin adından törətdiklərinə görə məs'uliyyət daşıyırlar.[12]

Dövlət beynəlxalq cinayət hüquq normalarını pozmağa görə məs'uliyyət daşıyır. Lakin dövlətin məs'uliyyətinin beynəlxalq cinayət hüququ normalarını pozması əsasında yaranmasına baxmayaraq, onun məs'uliyyəti cinayət hüquqi məs'uliyyət deyildir. Beynəlxalq hüququn hər hansı normalarını pozmağa görə dövlət ancaq beynəlxalq hüquqi

9 Bax. Фисенко И.В. Борьба с международными преступлениями в международном уголовном праве. Минск. Тесей. 2000.

10 Bax. Черниченко С.В. Теория международного права. Т.II. Старые и новые теоретические проблемы. М., изд. "НИМП" 1999. с. 437.

11 Лукашук И. И. Наумов А. В. Международное уголовное право. М., Спарк. 1999. с.71.

12 Черниченко С.В. Теория международного права. Т.II. Старые и новые теоретические проблемы. М., изд. "НИМП" 1999 .с. 437.

məs'uliyyətin subyekti ola bilər.[13] Layihənin 16-cı maddəsinə əsasən dövlətin beynəlxalq hüquqazidd əməlləri özündə beynəlxalq cinayəti əks etdirdikdə hər bir dövlət müəyyən edilmiş qaydalara riayət etməklə cinayəti törətmiş və ya törədən dövlətdən özünün hüquqazidd davranışına son qoymağı və tam reparasiyanı tə'min etməyi tələb etmək hüququna malikdir. Hər bir zərər çəkmiş dövlətin natura formasında restitusiya almaq hüququ da vardır. Beynəlxalq Birliyin müstəqil üzvü kimi mövcudluğu, onun ərazi bütövlüyü və ya xalqının mühüm həyati tələbatı təhlükə altına qoyması halı istisna olmaqla restitusiya məhdudlaşdırıla bilməz. Beynəlxalq cinayət törətmiş dövlətdən cinayət törədilməsinə son qoymaq və restitusiyanı tə'min etmək tələbinə adekvat cavab almadıqda dövlət əks tədbirlər görmək hüququna malikdir. Cavab tədbirləri beynəlxalq cinayətin ağırlıq dərəcəsini aşmamalıdır.

Layihənin 18-ci maddəsinə əsasən beynəlxalq hüquqazidd əməl özündə beynəlxalq cinayəti əks etdirdikdə bütün dövlətlər müəyyən olunmuş şərtlərə riayət etməklə:

a) beynəlxalq cinayətin yaratdığı şəraitin beynəlxalq və ya dövlətdaxili hüquq əsasında qanuniliyini və ya hüquqi qüvvəyə malik olmasını tanımaqdan çəkinməlidirlər;

b) həmin şəraiti qoruyub saxlamaq üçün pozuntu törətmiş dövlətə kömək ola biləcək hər hansı hərəkət və ya laqeydliyə yol verməkdən çəkinməlidirlər;

v) a və b bəndlərinə uyğun öhdəliklərini yerinə yetirmək üçün biribirinə kömək etməli, imkan dərəcəsində özünün cavab tədbirlərini mövcud beynəlxalq orqanlar və ya xüsusi müqavilələr vasitəsi ilə əlaqələndirməlidirlər;

q) 16 və 17-ci maddələrdə nəzərdə tutulmuş hüquq və ya səlahiyyətlərin həyata keçirməsinə mane ola biləcək hər hansı hərəkət və ya laqeydlikdən çəkinməlidirlər;

ğ) beynəlxalq cinayətə səbəb olan və ya bu cür cinayətə yardım edən sülh və bəşəriyyətin təhlükəsizliyinə qarşı cinayət törətməkdə təqsirli olan hər hansı şəxsə münasibətdə dedere aut iudicare (ya ver, ya da cəzalandır) prinsipini həyata keçirməlidirlər;

---

13 Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк.1999.с.70.

d) üzvü olduğu hər hansı beynəlxalq təşkilat tərəfindən beynəlxalq cinayət törətmiş və törətməkdə olan dövlətə qarşı yönəldilmiş bütün qanuni tədbirlərin həyata keçirilməsində fərdi və ya birgə iştirak etməlidirlər;

j) beynəlxalq cinayət nəticəsində yaranmış hər hansı fövqəl'adə vəziyyətin aradan qaldırılmasına yönəlmiş hər hansı qanuni tədbirin həyata keçirilməsinə özünün mümkün vasitələri ilə kömək etməlidirlər.[14]

2. Fiziki şəxslərin cinayət məs'uliyyəti

Fiziki şəxslərin beynəlxalq cinayət törətməsi onlar tərəfindən beynəlxalq cinayət hüquq normalarının təqsirli olaraq pozulmasının nəticəsidir. Beynəlxalq cinayətlər əməldə beynəlxalq ünsürün olmasını tələb edir. Bu ünsür özünü əməlin hüquqazidd xarakterində, obyektdə və nəticədə təzahür etdirə bilər. Belə ki, beynəlxalq cinayət sülh və təhlükəsizliyin ümumi maraqlarına yönəldilə bilər, yaxud sadəcə olaraq ayrıca bir xarici dövlətin mənafeyinə qəsd edə bilər. Beynəlxalq cinayətlər iki əsas növə ayrılır. Birinci qrupa beynəlxalq cinayətlər, ikinci qrupa isə beynəlxalq xarakterli cinayətlər aid edilir. İ. İ. Lukaşuk və A. V. Naumov beynəlxalq cinayətləri ümumi beynəlxalq hüquq üzrə cinayətlər adlandırır və həmin cinayətlərə sülhə qarşı cinayətlər, hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətləri şamil edirlər.[15]

Bə'zi müəlliflər belə hesab edirlər ki, beynəlxalq cinayətlər birbaşa dövlətlər tərəfindən törədilir və çox vaxt fiziki şəxslərin cinayət məs'uliyyəti dövlətin siyasi məs'uliyyətinin forması kimi çıxış edir. Beynəlxalq xarakterli cinayətlər isə əsasən dövlətlər tərəfindən deyil, fiziki şəxslər tərəfindən törədilir. Fiziki şəxslərin beynəlxalq xarakterli cinayət törətməsinə görə dövlətin məs'uliyyəti ancaq dövlətin beynəlxalq xarakterli cinayətlərə qarşı mübarizə sahəsindəki öhdəliklərini yerinə yetirməməsi və ya dövlət orqanlarının həmin cinayətlərdə birbaşa iştirakı hallarında yarana bilər.[16]

---

14 Сборник важнейших документов по международному праву. Часть I. Общая М., 1996. С. 18-19.

15 Лукашук И. И., Наумов А. В. Международное уголовное право. М., Спарк. 1999. с. 112

16 Международное уголовное право. Под. Ред. В.Н.Кудрявцева. М., Наука. 1999. с. 111-112

Beynəlxalq xarakterli cinayətlər həm də müqavilə cinayətləri adlanır. Çünki həmin cinayətlər dövlətlər arasında bağlanmış müqavilələrdə nəzərdə tutulmuşdur.[17]

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq üzrə cinayətlərlə müqavilə cinayətləri arasında keçilməz sədd yoxdur. Belə ki, müqavilə cinayətləri tədricən beynəlxalq hüquq üzrə cinayətlər kimi tanınır. Məsələn, 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntuları kimi müqavilə normaları hazırda beynəlxalq hüquq üzrə cinayət kimi tanınır. Bu öz ifadəsini bir çox beynəlxalq hüquqi sənədlərdə tapmışdır.

Beynəlxalq cinayətlərin törədilməsinə görə məs'uliyyətin subyekti dövlətlə yanaşı həm də fiziki şəxslər ola bilər. Əksər beynəlxalq cinayətlər dövlətlərin düzünə və yanakı iştirakı ilə törədilir. Beynəlxalq humanitar hüququn ciddi pozuntusu bilavasitə dövlət orqanları və ya onun nümayəndələri tərəfindən törədildikdə dövlət cinayətin düzünə iştirakçısı hesab olunur. Dövlət öz yurisdiksiyası hüdudunda onun aparatı ilə formal olaraq heç bir əlaqəsi olmayan fiziki şəxslər tərəfindən cinayətin törədilməsinə yol verirsə onun cinayətdə iştirakı yanakı xarakter daşıyır.

Bu cür pozuntuların qarşısının alınması üçün dövlət orqanlarının tədbir görməməsi iştirakçılıq kimi qiymətləndirilməlidir. Belə hallarda dövlət beynəlxalq humanitar hüququn pozulmasına görə məs'uliyyətin subyektinə çevrilir. Əgər dövlətin beynəlxalq humanitar hüququn ciddi pozuntusunda iştirakı təsdiq olunmursa onda fərd törətmiş olduğu cinayətə görə məs'uliyyətin yeganə subyekti olur.

Beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə cinayət məs'uliyyətinin zəruriliyi ilk dəfə dövlətdaxili qanunvericilikdə öz ifadəsini tapmışdır. Fransis Liber tərəfindən 24 aprel 1863-cü ildə ABŞ səhra qoşunları üçün hazırlanmış Tə'limatda göstərilirdi ki, müharibə hüququ pozuntusu törətməkdə təqsirli olan əsgərlər ABŞ silahlı qüvvələrinə mənsub və ya düşmən tərəfin əsiri olmasından asılı olmayaraq məhkəmə qaydasında məs'uliyyət daşımalıdırlar.

Dövlətlərarası münasibətlər təcrübəsində ayrı-ayrı şəxslərin beynəlxalq hüquq normalarını pozmasına görə məs'uliyyətə cəlb edilməsinə cəhd halları olmuşdur. Məsələn, Vyana konqresinin qərarına əsasən

---

17 Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк. 1999.с.132.

Napaleonun Yelena adasına sürgün edilməsini buna real nümunə gətirmək olar.

I Dünya müharibəsindən sonra da müharibə hüququnun pozulmasına görə təqsirli şəxslərin məs'uliyyətə alınmasına cəhd edildi. 11 noyabr 1918-ci ildə "hərbi cinayətkarların" cinayət məs'uliyyətinin müəyyən edilməsi üçün İttifaq Komissiyası yaradıldı. Versal sülh müqaviləsində krayzer II Vilhelm və Almaniyanın hərbi cinayətlərdə təqsirli olan digər vətəndaşlarının məs'uliyyətə cəlb edilməsi, bu məqsədlə beynəlxalq və milli məhkəmələr yaradılması nəzərdə tutulurdu. Lakin müqavilədə nəzərdə tutulanların həyata keçirilməsi mümkün olmadı. Krayzer II Vilhelm Hollandiyada gizləndi və Hollandiya hökuməti onu verməkdən imtina etdi. Qalan cinayətkarlar isə Leypsiq prosesi çərçivəsində keçirilən məhkəmədə ya bəraət aldı, ya da simvolik cəzalara məruz qaldılar.

Sonradan Nürnberq və Tokio Hərbi Tribunalları tərəfindən həyata keçirilən ədalət mühakiməsi fiziki şəxslərin cinayət məs'uliyyətinə alınmasında irəliyə doğru mütərəqqi inkişaf oldu.

Vaxtilə beynəlxalq hüquqda belə bir mövqe hökm sürmüşdür ki, beynəlxalq hüquq pozğunluğuna görə ancaq dövlətlər-beynəlxalq hüququn subyektləri məs'uliyyət daşıyır. Fiziki şəxslər isə beynəlxalq hüquqa görə məs'uliyyət daşıya bilməz. Lakin təcrübədə getdikcə fiziki şəxslərin beynəlxalq hüquqi məs'uliyyət daşıması öz ifadəsini tapdı.

Dövlətin beynəlxalq hüquq normalarını pozmağa görə məs'uliyyət daşıması heç bir şübhə doğurmur. Fiziki şəxslərin məs'uliyyətinin əsaslarının müəyyən edilməsi isə ona görə çətinlik törədir ki, onlar müasir beynəlxalq hüququn subyekti deyildirlər. Hüququn subyekti-hüquq və vəzifələrin daşıyıcılarıdır. İlk baxışda buradan belə bir məntiqi nəticə çıxır ki, fərd beynəlxalq hüququn subyekti deyilsə beynəlxalq hüquqa görə məs'uliyyət daşıya bilməz. Lakin nəzərə almaq lazımdır ki, fiziki şəxslər beynəlxalq hüququn subyekti olmasalar da beynəlxalq aləmdə dövlətin onlara verdiyi bə'zi səlahiyyətləri həyata keçirirlər.

Fiziki şəxslərin beynəlxalq cinayətlərə görə məs'uliyyət institutunun əsasında Nürnberq Beynəlxalq Hərbi Tribunalının müəyyən etdiyi aşağıdakı müddəa durur: "Beynəlxalq hüquqa qarşı cinayətlər mücərrəd kateqoriyalar tərəfindən deyil, insanlar tərəfindən törədilir və yalnız belə cinayətləri törətmiş ayrı-ayrı şəxsləri cəzalandırmaq yolu ilə

beynəlxalq hüquq normalarının yerinə yetirilməsini tə'min etmək olar".[18]

Dövlət özü-özlüyündə mücərrəd kateqoriya kimi cinayət törədə bilməz. Onun siyasəti, fəaliyyəti, davranışı müxtəlif səviyyədə dövlət orqanı kimi çıxış edən ayrı-ayrı şəxslərin siyasəti, fəaliyyəti və davranışıdır. Bütün bunlar isə fiziki şəxslərin beynəlxalq hüquqi məs'uliyyəti üçün əsas yaradır. Təbii ki, təcavüz, soyqırım, aparteid və sair bu kimi beynəlxalq cinayətlərin törədilməsində təqsirli şəxslərin cəzalandırılması dövlətin özünü beynəlxalq hüquqi məs'uliyyətdən azad etmir. Təqsirli şəxslərin beynəlxalq hüquqi məs'uliyyətə cəlb edilməsi əslində delikvent dövlətin siyasi məs'uliyyət formalarından biridir. Bu halda həmin dövlət siyasi və maddi məs'uliyyətin digər formalarına da cəlb edilə bilər.

Beləliklə, beynəlxalq cinayətlərin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onların törədilməsinə görə təkcə dövlət deyil, ayrı-ayrı fiziki şəxslər də məs'uliyyət daşıyır. V. A. Kartaşkin qeyd edir ki, "fərd beynəlxalq hüququn subyekti kimi öz hərəkətləri ilə bilavasitə beynəlxalq hüququn bu və ya digər prinsip və normalarını poza bilər. Belə hallarda o, beynəlxalq sazişlərdə nəzərdə tutulmuş məs'uliyyət daşıyır".[19] Göründüyü kimi V.A.Kartaşkin fiziki şəxsləri beynəlxalq hüququn subyekti kimi qəbul edir. Lakin bu mövqe beynəlxalq hüquqda mübahisəlidir.[20]

Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə Cinayət Məcəlləsinin layihəsinin 2-ci maddəsinin 1-ci bəndində göstərilir ki, "sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər fərdi məs'uliyyət doğurur".[21]

L.N.Qalenskaya və Y.V.Petrovskiyə görə belə hallarda fiziki şəxslərin məs'uliyyəti dövlətin siyasi məs'uliyyətinin bir forması kimi çıxış edir.[22]

---

18 Нюрнбергский процесс. Сборник материалов, т. II Госюриздат, 1954, с. 992.

19 Карташкин В..А. Права человека в международном и внутригосударственном праве. М., 1995. .с. 114.

20 Бах. Лукашук И.И. Международное право. Общая часть. М., 1997. с. 10-20.

21 Доклад Комиссии международного права о работе ее сорок восьмой сессии. Нью-Йорк, 1996.

22 Галенская Л.Н., Петровский Ю.В. Ответственность физических лиц за совершение международных преступлений // Советский ежегодник международного права 1971. М., 1973.с. 117.

Y.M.Kolosov və Y.M.Rıbakov da bu mövqeni müdafiə edir.[23]

İ.P.Blişenko və İ.V.Fisenko isə qeyd edir ki, nəzəri cəhətdən bu mövqenin əleyhinə çıxış etmək olar. Fərdin beynəlxalq cinayət məs'uliyyəti beynəlxalq hüququn müstəqil institutudur və o, dövlətin məs'uliyyəti institutundan fərqlidir. Dövlətin beynəlxalq cinayətin törədilməsində iştirakı olmadığı halda bu xüsusat özünü daha aydın təzahür etdirir. Fiziki şəxsin cinayət məs'uliyyətinin yaranması üçün onun dövlətlə əlaqəsi heç bir hüquqyaradıcı əhəmiyyət kəsb etmir. Fərdin beynəlxalq hüquqi məs'uliyyəti zamanı ilk növbədə onun bəşər cəmiyyətinin bir üzvü kimi şəxsi davranışı əsas götürülür.[24]

Mə'lum olduğu kimi Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 91-ci maddəsinə əsasən delikvent dövlət silahlı qüvvələri tərkibində olan şəxslərin törətdikləri cinayətə görə məs'uliyyət daşıyır və zəruri hallarda ziyanı ödəməlidir. L.Kondorelli beynəlxalq humanitar hüquq normalarına əsaslanaraq bir qədər fərqli mövqedə dayanır: "dövlətin silahlı qüvvələrinin hərbçiləri tərəfindən beynəlxalq humanitar hüquq normalarının pozulması beynəlxalq hüquqa görə həmin dövlətin məs'uliyyətini meydana çıxarır. Bu o deməkdir ki, dövlət zərər çəkmiş dövlət qarşısında silahlı qüvvələrinin hər bir hərbi qulluqçusu tərəfindən tərədilmiş hüquqazidd hərəkətə görə məs'uliyyət daşımalıdır".[25]

Beynəlxalq Cinayət Məhkəməsi Statutunun 25-ci maddəsi fərdi cinayət məs'uliyyəti haqqında daha geniş müddəa nəzərdə tutur. Belə ki, məhkəmənin yurisdiksiyasına aid olan cinayəti törətmiş şəxs fərdi məs'uliyyət daşıyır və Statuta müvafiq olaraq cəzalandırılmalıdır. Eyni zamanda Statutda göstərilir ki, "Statutun fərdi cinayət məs'uliyyətinə aid heç bir müddəası dövlətin beynəlxalq hüquq üzrə məs'uliyyətinə tə'sir göstərmir" (mad. 25, hissə 4).

Yə'ni vəzifəli şəxsin cinayət məs'uliyyətinə cəlb edilməsi həmin şəxsin beynəlxalq və ya milli məhkəmə tərəfindən mühakimə edilməsindən asılı olmayaraq dövləti beynəlxalq hüquqi məs'uliyyətdən azad etmir.

---

23 Bax. Колосов Ю.М. Ответственность государств.-М., 1989.с.26; Рыбаков Ю.М. Вооруженная агрессия-тягчайшее международное преступление. М., 1980.-с.177.

24 Блищенко И.П., Фисенко И.В. Международный уголовный суд. М., "ЮНИТИ". 1998. с. 43.

25 Luigi Condorelli. L'imputation a l'Etat d'un fait internationalement illicite: solutions classiques et nouvelles tendances. - RCADI, vol. 189 VI, 1984,pp.145-149.

Bu xüsusat Beynəlxalq Hüquq Komissiyasında keçirilən müzakirələrdə də dəfələrlə təsdiqini tapmışdır.[26]

Beləliklə, demək olar ki, fiziki şəxslərin beynəlxalq cinayət məs'uliyyəti iki aspektə malikdir. O bir tərəfdən dövlətin siyasi məs'uliyyətinin formasıdır, digər tərəfdən isə konkret fiziki şəxslərin beynəlxalq hüquq normalarını pozmasından törəyən cinayət məs'uliyyətidir.

Beynəlxalq hüquq nəzəriyyəsində uzun müddət belə bir fikir hökm sürmüşdür ki, dövlət funksiyalarını yerinə yetirən şəxs özünün vəzifə fəaliyyətinə görə məs'uliyyət daşıya bilməz. Bu mövqe H.Kelsen tərəfindən də fəal müdafiə olunmuşdur. O, dövlətlərin suverenliyi prinsipinə əsaslanaraq belə hesab edirdi ki, heç bir dövlət başqa dövlət üzərində yurisdiksiya tələb etmək hüququna malik deyildir.[27] Bu mövqe özünü təcrübədə də göstərirdi.

İlk dəfə Vyana konqresində iştirakçı olan dövlətlər Fransa dövlət başçısını cəzalandırmaq barədə qərar qəbul edərək Napaleonu Müqəddəs Yelena adasına sürgün etməklə bu mövqenin əksinə çıxdılar.

Birinci Dünya müharibəsindən sonra dövlətin yüksək vəzifəli şəxslərinin məs'uliyyətə cəlb edilməsi barədə dövlətlərin razılığı özünün ifadəsini Versal müqaviləsinin 227-ci maddəsində tapdı.[28] Bu konsepsiya 2-ci Dünya müharibəsi ilə əlaqədar sənədlərdə təsbit olunmuşdur. Yuqoslaviya Beynəlxalq hərbi tribunalı Nizamnaməsində konkret şəxsin vəzifəsindən asılı olaraq cinayət məs'uliyyəti dairəsindən heç bir istisnaya yol vermir. Müttəhimin rəsmi statusu, o, dövlət və ya hökumət başçısı olsa belə onu beynəlxalq cinayət məs'uliyyətindən azad etmir və cəza tədbirinin yüngülləşdirilməsi üçün əsas ola bilməz. BCM Statutunun 27-ci maddəsinin 2-ci hissəsində öz əksini tapmış normada da şəxsin tutduğu vəzifəyə görə cinayət məs'uliyyətindən azad olunması istisna olunur. Nizamnamədə həmçinin, rəhbər heyət üçün onların tabeliyində olan şəxslər tərəfindən törədilmiş beynəlxalq humanitar

---

26 Бах. Ежегодник Комиссии международного права. 1976, T.II, ч. II. С.40; Доклад Комиссии международного права о работе ее сорок шестой сессии. 2 мая-22 июня 1994 г. Генеральная Ассамблея. Офис. Отчеты. Сорок девятая сессия. Доп. № 10(A/49/10) с.127-130

27 Kelsen H. Principles of International Law. New York - London, 1967,p. 211 - 212

28 Галенская Л.Н., Петровский Ю.В. Ответственность физических лиц за совершение международных преступлений.// Советский ежегодник международного права 1971. М., 1973.с. 122.

hüququn ciddi pozuntularına görə heç bir istisnaya yol verilmir. Yə'ni rəhbər vəzifəli şəxs öz tabeliyində olanların hüquqazidd hərəkətlərini bildiyi və ya bunları bilməli olduğu halda onların qarşısının alınması üçün heç bir tədbir görməmişsə, o, cinayət məs'uliyyəti daşımalıdır.

Dövlətin aktları onun vəzifəli şəxslərinin fəaliyyəti olduğundan təqsirə görə ancaq dövlətə sanksiya tətbiq edilməsi ilə kifayətlənmək olmaz. Belə hallarda cinayətkar əməlin təşkilatçıları, rəhbərləri, icraçıları-konkret fiziki şəxslər də cəzalandırılmalıdır. Beynəlxalq hərbi cinayətlərin törədilməsinə görə əsas hərbi cinayətkarlardan başqa dövlətin cinayətkar əmrlər verən, bu əmrləri icra edən vəzifəli şəxsləri də məs'uliyyət daşıyır. Yüksək vəzifəli mə'murların göstəriş və sərəncamlarının icrası üçün əmrlər vermiş şəxslərin məs'uliyyəti əsas hərbi cinayətkarların məs'uliyyətindən fərqlidir. Bu cəhətdən cinayətkar əmrin icrası hallarında məs'uliyyət məsələsi mühüm əhəmiyyət kəsb edir.

Təcrübədə şəxsin cinayəti törətməyə məcbur edilməsi halları da mövcuddur. Bu cür məcburiyyət fiziki və ya psixoloji (mə'nəvi) ola bilər. Şəxsin cinayətin törədilməsinə məcbur edilməsi onu məs'uliyyətdən azad edir. Çünki onun əməlində cinayət tərkibinin zəruri ünsürü olan təqsir olmur.

Cinayətkar əmr verən şəxsin məs'uliyyəti şübhə doğurmur. Çünki vəzifəli şəxsin əməli iki tələbi-tabeliyində olan şəxsin hüquqauyğun davranışını tə'min etmək və hüquqamüvafiq fəaliyyət göstərmək tələbini pozur. Bu cür əmri icra edən şəxslərin məs'uliyyətinə gəldikdə isə bir çox ölkələrin daxili hüququnda bu məsələ müxtəlif səpkidə həll edilir.

İngilis-sakson hüquq sistemi bu problemin həllində uzun bir yol keçmişdir. Belə ki, 1660-cı ildə Axtelle Case işi üzrə məhkəmə belə qərara gəlmişdir ki, əgər əmr xəyanət ifadə edirsə, onda ona əməl etmək də xəyanətdir.[29]

1715-ci ildə tərtib edilmiş Hərbi Məcəllədə isə müəyyən edilirdi ki, əmrin icra edilməməsi ölümlə cəzalandırılır. Düzdür sonradan (1749) bu müddəada "əmr" sözü "hüquqauyğun əmr" sözü ilə əvəz edilmişdir.[30]

---

29 Cyprian T., Sawicki J. Prawo Norymberskie. Warszawa - Krakow, 1948.s.335.

30 Yenə orada s.335.

1944-cü il Britaniya Hərbi Qanunlar Külliyatının 14-cü fəslinin 443-cü maddəsində göstərilirdi ki, döyüşən dövlətin hökuməti və ayrı-ayrı komandirləri tərəfindən verilən əmrlərin icrası ilə əlaqədar hərbi əməliyyatların aparılması normalarının pozulması əməlin hərbi cinayət xarakterini aradan qaldırmır.[31]

ABŞ-da qüvvədə olan Quru müharibələri aparılması qaydalarının 992-ci maddəsinə əsasən silahlı qüvvələrin üzvləri ancaq qanuni əmrləri yerinə yetirməyə borcludur. 509-cu paraqrafda isə göstərilir ki, əmrin yerinə yetirilməsinə görə hüquq pozğunluğu əməlin cinayət xarakterini aradan qaldırmır. Müqəssir əmrin cinayət xarakterli olmasını bilməmişsə belə bu onu məs'uliyyətdən azad etmir.

Fransa qanunvericiliyinə görə əmrin yerinə yetirilməsi məs'uliyyəti istisna edir. Lakin bu norma hərbi cinayətkarlara şamil edilmir. Fransa Cinayət Məcəlləsinin 237-ci maddəsində göstərilir ki, hökmün və əmrin icrası ilə əlaqədar adam öldürmək və ya ağır bədən xəsarəti yetirilməsi cinayət hesab edilmir. Bu maddəni tətbiq edərkən hakimlər iki şərti nəzərə almalıdırlar: əmr hüquqauyğun olmalıdır və səlahiyyətli orqan tərəfindən verilməlidir.

Cinayətkar əmrin icraçısına görə məs'uliyyət prinsipi bir çox ölkələrin qanunvericiliyində nəzərdə tutulmuşdur.[32]

Maraqlıdır ki, Almaniyanın müharibəyə qədərki qanunları və 2-ci Dünya müharibəsi dövründə qüvvədə olan qanunlarına görə əmr məs'uliyyətdən azad olunmaq üçün əsas hesab olunmamışdır. 1872-ci il Almaniya Hərbi Məcəlləsinin (1940-cı il dəyişiklikləri ilə) 47-ci maddəsinə əsasən əgər xidmət zamanı əmrin icrası ilə əlaqədar cinayət qanunu pozulmuşsa rəis tək məs'uliyyət daşıyır. Tabelikdə olanlar yalnız iki halda məs'uliyyət daşıyır:1) əgər o verilmiş əmrin tələbini aşmışsa; 2) əgər o, əmrdə ümumi və ya hərbi cinayət törətmək məqsədi güdən fəaliyyət nəzərdə tutulduğunu bilmişsə.[33]

Əsas hərbi cinayətkarların mühakimə edilməsi üçün Beynəlxalq Hərbi Tribunalın yaradılması haqqında 8 avqust 1945-ci il London sazi-

---

31 Glueck Sh. War Criminals: their Prosecution and Punishment. N.Y., 1944,p.149.

32 Вах.Галенская Л.Н., Петровский Ю.В. Ответственность физических лиц за совершение международных преступлений. // Советский ежегодник международного права 1971. М., 1973.с. 124.

33 Bax. Greenspan M. The Modern Law of Labd Warfare. Los Angeles, 1959,p. 489-492.

şinə görə şəxs əmr əsasında fəaliyyət göstərsə belə öz əməllərinə görə məs'uliyyət daşımalıdır.[34]

Nürnberq Hərbi Tribunalının Nizamnaməsinin 8-ci maddəsi ilə müəyyən edilmişdir ki, müqəssirin hökumət sərəncamı və ya rəisin əmrinə görə fəaliyyəti onu məs'uliyyətdən azad etmir, lakin tribunal ədalət mühakiməsinin maraqları tələb etdiyi hallarda bunu cəzanı yüngülləşdirmək üçün əsas hesab edə bilər.[35]

Yuqoslaviya Beynəlxalq Tribunalının Nizamnaməsində də tabelikdə olan şəxslərin öz cinayətkar hərəkətlərini hökumətin və ya yüksək vəzifəli şəxsin əmri əsasında törətməsi onların məs'uliyyətini aradan qaldıran hal kimi nəzərdə tutulmamışdır.[36]

Göstərilənlərlə yanaşı belə bir sual meydana çıxa bilər: hansı əmr cinayət xarakterli əmr hesab olunmalıdır? Burada yeganə bir cavab vermək mümkündür. Beynəlxalq hüquq normalarını pozan, ona zidd olan əmr cinayətkar xarakterli əmr hesab olunur. Əmrin xarakterinin müəyyən edilməsində daxili hüquq normaları deyil, beynəlxalq hüquq normaları əsas götürülməlidir. Çünki daxili hüquqla beynəlxalq hüquq ziddiyyət təşkil edə bilər.

Lakin daxili hüququn göstərişlərini yerinə yetirən şəxs beynəlxalq hüququ bilməyə də bilər. Bu onu məs'uliyyətdən azad edirmi? Mə'lum olduğu kimi daxili hüquq qanunu bilməməyə görə şəxsi məs'uliyyətdən azad etmir. Bu prinsip beynəlxalq hüquqda da tam tətbiq olunur.

Silahlı qüvvələrin şəxsi hey'əti müharibənin beynəlxalq qanunları və adətləri haqqında xəbərdar edilməlidir.[37] Digər tərəfdən müharibə aparılması qaydaları elementar davranışı nəzərdə tutur. Burada yaralı, xəstə, hərbi əsir, mülki vətəndaşlarla humanist rəftar ifadə olunmuşdur. Şübhəsiz, hər bir şəxs beynəlxalq hüququ bilməsə də başa düşür ki, müdafiəsiz adamların öldürülməsi, girovların güllələnməsi, əmlakın talanı cinayətdir. Bu cür əmri icra edən şəxs məs'uliyyətdən azad edilə bilməz, çünki bu cür əmrin cinayət xarakteri açıq hiss olunur. Daxili hüqu-

---

34 Hans-Heinrich Jescheck.War Crimes.- Bernhardt (ed.), Encyclopedia of Public International Law, vol.4, 1982, p. 297.

35 "Нюрнбергский процесс" Сборник материалов, т.I Госюриздат, 1954, с. 79-84.

36 Международное публичное право. Сборник документов. т. 2. М., "БЕК" 1996. с. 102.

37 Вах. Фредрик Де Мулинен. Право войны. Руководство для вооруженных сил. ММКК. 1993.

qa istinad etmək də beynəlxalq məs'uliyyətdən azad olunmaq üçün əsas ola bilməz. Çünki, daxili qanun dövlətin qoşulduğu beynəlxalq normalara uyğun olmalı və beynəlxalq hüququn imperativ normaları ilə ziddiyyət təşkil etməməlidir.

Hazırda beynəlxalq humanitar hüququn ciddi pozuntularını törətmiş şəxslərin cinayət məs'uliyyətinə cəlb edilməsi sahəsində həm beynəlxalq, həm də milli səviyyədə çox mühüm sənədlər qəbul edilir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin həm ümumi, həm də xüsusi hissəsində fiziki şəxslərin törətdiyi beynəlxalq cinayətlərə görə cinayət məs'uliyyətinə aid müddəalar nəzərdə tutulmuşdur. Xüsusi hissədə "Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə olan cinayətlər"in ayrıca bölmədə nəzərdə tutulmasının bu kateqoriyadan olan cinayətləri törətmiş şəxslərin məs'uliyyətə cəlb edilməsi və cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir.

Həmin fakt eyni zamanda onu təsdiq edir ki, Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir və beynəlxalq hüququn sunt pacta servanda prinsipinə sadiqdir.

Fəsil XVIII

BEYNƏLXALQ HUMANİTAR HÜQUQ POZUNTULARININ BEYNƏLXALQ SƏVİYYƏDƏ QARŞISININ ALINMASI

1. Nürnberq Beynəlxalq Hərbi Tribunalı

İkinci Dünya müharibəsinin başlanması, xüsusən də faşist Almaniyasının Sovet İttifaqına hücumundan sonra bu müharibəni başlamış hərbi cinayətkarların cəzalandırılması ideyası bir neçə beynəlxalq hüquqi aktda öz ifadəsini tapdı. SSRİ XİN-nin 25 noyabr 1941-ci il[1] və 27 aprel 1942-ci il[2] notalarında, sonra isə 14 oktyabr 1942-ci il tarixli "Avropanın işğal edilmiş ölkələrində hitlerçi qəsbkarların və onların əlbirlərinin törətdikləri cinayət əməllərinə görə məs'uliyyəti haqqında Sovet hökumətinin müraciəti"ndə[3] hərbi cinayətkarların cəzalandırılması məqsədilə xüsusi beynəlxalq tribunalın yaradılması haqqında fikirlər öz ifadəsini tapmışdı. Faşist hərbi cinayətkarları üzərində məhkəmə prosesinin zəruriliyi 30 oktyabr 1943-cü ildə Moskva Konfransında qəbul edilmiş "Hitlerçilərin törətdikləri vəhşiliklərə görə məs'uliyyəti haqqında" Bəyannamədə daha geniş şəkildə rəsmi təsbitini tapdı. Burada əhalinin öldürülməsi, kütləvi e'damı və ya tələf edilməsində təqsirli olan alman zabit və əsgərlərinin dairəsi müəyyənləşdirilirdi.[4] 1945-ci ilin fevral ayında keçirilmiş Krım konfransının və 1945-ci ilin iyul-avqust aylarında keçirilmiş Potsdam konfransının sazişlərində də faşist hərbi cinayətkarlarının ədalətli və tezliklə mühakimə edilməsinin vacibliyi öz əksini tapdı. Nəhayət, 8 avqust 1945-ci ildə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa hökumətləri arasında Avropa ölkələri əsas hərbi cinayətkarlarının məhkəməyə verilməsi və cəzalandırılması haqqında bağlanmış sazişə əsasən Nürnberq Beynəlxalq Tribunalı tə'-

1 Внешняя политика Советского Союза в период Отечественной войны. Т.1. М., 1946.с.195-215.

2 Yenə də orada. s. 228-269.

3 Yenə də orada. s. 314-310.

4 Yenə də orada. s. 418-419.

sis edildi və onun təşkili və iş prinsiplərini müəyyən edən Nizamnaməsi qəbul olundu.[5]

Tribunal 4 üzv və onun müavinlərindən ibarət idi. Tribunalın üzv və müavinlərinə ittihamçılar, müttəhimlər və ya müdafiəçilər tərəfindən e'tiraz edilə bilməzdi.

Tribunalın Nizamnaməsində onun yurisdiksiyası və ümumi prinsipləri müəyyənləşdirilmişdi. Tribunal aşağıda göstərilən cinayətlərdən birini törətmiş əsas alman hərbi cinayətkarlarını mühakimə etmək və cəzalandırmaq səlahiyyətinə malik idi:

a) sülhə qarşı cinayətlər: təcavüzkar müharibənin və ya beynəlxalq müqavilə, saziş və e'timadnamələri pozmaqla müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması və ya yuxarıda sadalanan fəaliyyətin hər hansı birinin həyata keçirilməsinə yönəlmiş ümumi planda və qəsdlərdə iştirak etmək;

b) hərbi cinayətlər: müharibə qanun və ya adətlərini pozmaq. Bu pozuntularla işğal olunmuş ərazinin mülki əhalisini öldürmək, işgəncə vermək, qula çevirmək və ya başqa məqsədlə aparmaq, hərbi əsirlər və ya dənizdə olan şəxsləri öldürmək və ya onlara işgəncə vermək; girovları öldürmək; ictimai və ya şəxsi əmlakı talamaq; şəhər və kəndləri mə'nasız yerə dağıtmaq; hərbi zərurətlə əlaqədar olmayan virançılıq və başqa cinayətlər;

v) insanlığa qarşı cinayətlər: müharibəyə qədər və ya müharibə zamanı mülki əhaliyə qarşı törədilmiş adamöldürmə, işgəncə vermə, qula çevirmə, sürgün və başqa qəddarlıqlar və ya siyasi, irqi və ya dini motivlərə əsasən mülki əhalini tə'qib etmə.

Tribunalın ümumi prinsiplərinə əsasən müttəhimin vəzifə mövqeyi, onların dövlət başçısı və ya müxtəlif hökumət idarələrinin məs'ul mə'murları olması məs'uliyyətdən azad olunma və ya cəzanın yüngülləşdirilməsi üçün əsas hesab edilə bilməzdi. Müttəhimin hökumət və ya rəisin əmrinə əsasən fəaliyyət göstərməsi də məs'uliyyətdən azad edən hal kimi nəzərdə tutulmurdu.

Hər hansı qrup və ya təşkilatın ayrıca üzvünün işinə baxarkən Tribunal müttəhimin üzvü olduğu qrup və ya təşkilatı cinayətkar təşkilat hesab etmək səlahiyyətinə malik idi. Tribunal bu və ya digər qrup və ya təşkilatı cinayətkar təşkilat hesab etdikdən sonra Tribunalın tə'sisçisi

---

5 Действующее международное право. т. 3.М., 1997. с. 761-770.

olan ölkələrin milli hakimiyyəti həmin qrup və təşkilata üzv olan şəxsləri məhkəmə məs'uliyyətinə cəlb etmək səlahiyyətinə malik olurdu. Belə hallarda qrup və ya təşkilatın cinayətkar xarakteri sübut olunmuş hesab edilir və mübahisə edilə bilməzdi.

Nizamnaməyə müvafiq olaraq işlərin istintaqı və əsas hərbi cinayətkarların ittihamı üzrə Komitə yaradılmışdı.

İstintaq, zəruri sübutları toplayıb məhkəməyə kimi və ya məhkəmə vaxtı təqdim etmək, ittiham aktını hazırlamaq müttəhim və şahidlərin ilkin dindirilməsini aparmaq, məhkəmədə ittihamçı kimi çıxış etmək baş ittihamçıların vəzifəsinə daxil idi.

Nizamnamədə eyni zamanda müttəhimlər üçün zəruri olan prosessual tə'minatlar da nəzərdə tutulmuşdu.

Müttəhimlərə alman imperializminin dünyada hökmranlığının müəyyən edilməsi məqsədilə:

— təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması və aparılması, yə'ni sülhə qarşı cinayətə;

— məcburi əməyə cəlb edilməsi üçün hərbi əsirlərin və işğal edilmiş ərazilərdəki dinc əhalinin Almaniyaya aparılması, girovların öldürülməsi və onlara işgəncə verilməsi, ictimai və şəxsi mülkiyyətin qarət edilməsi, şəhər və kəndlərin məqsədsiz dağıdılması, hərbi zərurət olmadan viran edilməsi, yə'ni hərbi cinayətlərə görə;

— siyasi, irqi, dini motivlərə və mülki əhaliyə qarşı törəf etmə, əsarət altına alma, sürgün və digər qəddar tədbirlər törətməyə, yə'ni insanlığa qarşı cinayətlərə görə ittiham e'lan edilmişdi.

Tribunal 20 noyabr 1945-ci ildə işinə başlamışdı. Müttəhimlər özlərinin seçdiyi və ya tribunalın tə'yin etdiyi alman vəkilləri ilə tə'min olunmuşdular. Məhkəmə prosesində 403 açıq iclas keçirildi. İclaslarda müttəhimlərdən başqa 116 şahid dindirilmiş, 10 minlərlə yazılı şahid ifadələrinə baxılmış, 4 mindən çox sübut əhəmiyyətli sənəd araşdırılmışdır.

30 iyul 1946-cı ildə əsas ittihamçıların çıxışı başa çatmış 30 sentyabr-1 oktyabr 1946-cı ildə hökm e'lan edilmişdi. Tribunal müttəhimləri Avstriya, Çexoslovakiya, Polşa, Danimarka, Norveç, Belçika, Yuqoslaviya, Yunanıstan, SSRİ və başqa dövlətlərə qarşı cinayətlər törətməkdə təqsirli hesab etdi. Tribunal Q.Qerinqi, İ.Ribbentropu, V.Keyteli, E.Koltenbrunneri, A.Rozenberqi, Q.Frankı, V.Friki, Y.Ştreyxeri, F.Zaukeli, A.Yodlu, A.Zeys-İnkvartı və M.Bormanı (qiyabi) ölüm cəzasına məhkum etdi. R.Qess, V.Funk və E.Reder ömürlük həbs cəzası-

na, B.Şirak, A.Şpeyer — 20 il, K.Noyrat — 15il, K.Dyonits — 10 il həbs cəzasına məhkum edildi. İflic olmuş Q.Kruppun işi dayandırıldı, R.Ley Nürnberq həbsxanasında həyatına qəsd etdi. Q.Friç, F.Panen və Q.Şaxt bəraət qazandılar.

Məhkum olunanlar bağışlanmaq haqqında vəsatət qaldırdılar. Vəsatət Nəzarət Şurası tərəfindən rədd edildikdən sonra həyatına qəsd etmiş Qerinqdən başqa ölüm cəzasına məhkum edilənlər barəsində 16 oktyabr 1946-cı il tarixə keçən gecə Nürnberq həbsxanasında hökm icra edildi.

Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsində tanınmış və onun hökmlərində öz əksini tapmış prinsiplər BMT Baş Məclisinin 11 dekabr 1946-cı il və 27 noyabr 1947-ci il tarixli qətnamələrində beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri kimi təsdiq olundu. Həmin prinsiplər aşağıdakılardır:

I) beynəlxalq hüquqa müvafiq olaraq cinayət kimi tanınan hər hansı əməli törtmiş hər bir şəxs ona görə məs'uliyyət daşıyır və cəzalandırılmalıdır;

II) beynəlxalq hüquqa müvafiq olaraq cinayət kimi tanınan hər hansı əmələ görə dövlətdaxili hüquqda cəza nəzərdə tutulmaması həmin əməli törətmiş şəxsi beynəlxalq hüquq üzrə məs'uliyyətdən azad etmir;

III) beynəlxalq hüquqa müvafiq olaraq cinayət kimi tanınan hər hansı əməli törtmiş hər bir şəxsin dövlət başçısı və ya hökumətin məs'ul vəzifəli şəxsi kimi hərəkət etməsi, həmin şəxsi beynəlxalq hüquq üzrə məs'uliyyətdən azad etmir;

IV) hər hansı şəxsin, onun üçün şüurlu seçim faktiki olaraq mövcud olduğu hallarda öz hökumət və ya rəisinin əmrini yerinə yetirməklə əlaqədar fəaliyyət göstərməsi onu beynəlxalq hüquq üzrə məs'uliyyətdən azad etmir;

V) beynəlxalq hüquqi cinayətdə təqsirlənən hər bir şəxsin işinə fakt və hüquq əsasında ədalətli baxılması hüququ vardır;

VI) aşağıda sadalanan cinayətlər beynəlxalq hüquqi cinayət kimi cəzalandırılır:

a) sülhə qarşı cinayətlər:

1) təcavüzkar müharibənin, yaxud beynəlxalq müqavilə, saziş və ya tə'minatın pozulması ilə müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması;

2) 1-ci yarımbənddə göstərilən hər hansı fəaliyyətin həyata keçirilməsinə yönəlmiş ümumi plan və ya qəsddə iştirakçılıq;

b) müharibə cinayətləri:

Müharibə adət və qanunlarını pozma, o cümlədən işğal olunmuş ərazilərdə yaşayan mülki şəxslərin öldürülməsi, onlarla qəddar rəftar və onları qul kimi işlətmək və yaxud digər məqsədlə aparma, hərbi əsir və ya dənizdə olan şəxsləri öldürmə və ya onlarla qəddar rəftar, girovları öldürmək və ya kənd və şəhərləri qarət etmək, yaxud hərbi zərurətlə bəraət qazandırılmayan dağıtmaq.

v) bəşəriyyətə qarşı cinayətlər:

Mülki əhalini öldürmə, tələf etmə, əsarət altına alma, köçürmə və onlara qarşı digər qeyri-insani hərəkətlər törətmək və ya sülhə qarşı cinayət, hərbi cinayət törədilərkən və ya onlarla əlaqədar olaraq mülki əhalini siyasi, irqi və ya dini motivlərə görə tə'qib etmək;

VII) sülhə qarşı cinayət, hərbi cinayət və ya bəşəriyyətə qarşı cinayət törətməkdə iştirakçılıq beynəlxalq hüquqi cinayətdir.[6]

2. Tokio Beynəlxalq Hərbi Tribunalı

Mə'lum olduğu kimi 3 sentyabr 1945-ci ildə İkinci Dünya müharibəsi militarist Yaponiyanın məğlubiyyəti ilə başa çatdı. Yapon militaristləri xalqlara qarşı ağır cinayətlər törətmişdilər. Bununla əlaqədar olaraq Podstam Konfransı yapon hərbi cinayətkarlarının məs'uliyyətə alınması barədə məsələyə də baxmışdı. 1945-ci ilin dekabr ayında SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin Moskvada keçirilən müşavirəsində Uzaq Şərq və Yaponiya üçün İttifaq Şurası təşkil edilməsi barədə razılaşma əldə edildi. Uzaq Şərq Komissiyasının qərarına əsasən yapon hərbi cinayətkarlarının həbs edilməsi, mühakimə edilməsi və cəzalandırılması məsələləri müəyyənləşdirilmişdi. 19 yanvar 1946-cı ildə müttəfiq dövlətlərin hökumətləri arasında danışıqlara əsasən onların baş komandanları Uzaq Şərq üçün Beynəlxalq Tribunal Nizamnaməsini təsdiq etdi. Həmin Nizamnamə Nürnberq Tribunalı Nizamnaməsi ilə analoji qaydada tərtib olunmuşdu. Nizamnaməyə əsasən Tribunal "Uzaq Şərqdə əsas hərbi cinayətkarlar üzərində ədalətli və çevik mühakimənin həyata keçirilməsi və onların cəzalandırılması üçün" tə'sis olunmuşdu. Yaponiyanın 28 rəhbər dövlət xadimi Tribu-

6 Bax. Международное публичное право. Сборник документов. т. 2. М.. 1996. 101-102.

nalın mühakiməsinə verildi. Onlar arasında baş nazir, nazirlər və yüksək hərbi komandirlərin nümayəndələri var idi. Tribunal 20 müttəhim haqqında ittiham hökmü çıxardı. 7 nəfər ölüm cəzasına, 16 nəfər ömürlük, iki nəfər isə 20 və 7 il müddətinə həbs cəzasına məhkum edildi. 22 dekabr 1948-ci il tarixdə ölüm cəzasına məhkum edilmiş şəxslər barəsində hökm icra edildi. Nürnberq Tribunalı kimi Tokio Tribunalı hökmlərində nəzərdə tutulmuş müddəaların da beynəlxalq hüquqda məs'uliyyət institutunun inkişafı üçün mühüm əhəmiyyəti oldu.

3. Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı

Keçmiş Yuqoslaviya və Ruanda ərazisindəki münaqişələr zamanı külli miqdarda insan tələfatı və beynəlxalq humanitar hüququn kobud surətdə pozulması BMT Təhlükəsizlik Şurasını fövqəl'adə qaydada Beynəlxalq Cinayət Tribunalı tə'sis etməyə məcbur etdi.

Təhlükəsizlik Şurası beynəlxalq cinayət törətmiş fiziki şəxslərin cinayət məs'uliyyətinə cəlb edilməsi üçün ad hoc qaydasında ilk dəfə 23 fevral 1993-cü il tarixli 808 №-li və 25 may 1993-cü il tarixli 827 №-li qətnamələrə əsasən "1991-ci ildən keçmiş Yuqoslaviya ərazisində törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məs'uliyyət daşıyan şəxsləri cəzalandırmaq üzrə Beynəlxalq Tribunal" (Yuqoslaviya Beynəlxalq Tribunalı) yaratdı. Təhlükəsizlik Şurası qərarını əsaslandırmaq üçün BMT Nizamnaməsinin VII fəslinə istinad etmişdir. Bu fəslin müddəaları sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları baş verdikdə Təhlükəsizlik Şurasının səlahiyyətlərini nəzərdə tutur. Qərarda göstərilirdi ki, hərbi cinayətkarların cəzalandırılması sülhün bərpası və qorunmasına xidmət edəcəkdir. BMT Nizamnaməsində Təhlükəsizlik Şurasının bu cur Tribunallar tə'sis etmək səlahiyyətinə aid müddəalar nəzərdə tutulmamışdır. Lakin adi qaydada müqavilə əsasında bu cür tribunalların yaradılması çox vaxt tələb edəcəkdi. Çox güman ki, belə bir şəraitdə tribunalın yaradılmasının gecikdirilməsi onun səmərəliliyinin azalmasına səbəb olacaqdı. Bu cəhətdən BMT Təhlükəsizlik Şurasının fəaliyyəti təqdirəlayiq hesab edilməlidir.

Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının sabiq sədri Antonio Kasseze sonradan bu barədə yazırdı: "Avropa qitəsi II Dünya müharibəsindən sonra keçmiş Yuqoslaviyada baş vermiş, belə geniş miqyaslı və belə qəddarlıqla həyata keçirilən kütləvi adamöldürmə, geniş yayılmış və müntəzəm olaraq törədilən zorlama və "etnik təmizləmə" görmə-

mişdi. BMT Təhlükəsizlik Şurası belə hesab etdi ki, bu cür vəziyyət beynəlxalq sülh və təhlükəsizlik üçün qorxu törədir. Ona görə bu cür pozuntuları dayandırmaq və onların vurduğu ziyanı ödəmək ümidilə yardımçı məhkəmə orqanı kimi Beynəlxalq Tribunalı tə'sis etdi".[7]

Yuqoslaviya Beynəlxalq Tribunalının Nizamnaməsi 34 maddədən ibarətdir.[8] Nizamnamə onda nəzərdə tutulmuş cinayətlərə münasibətdə predmet yurisdiksiyasını (ratione materiae) müəyyən edir. Yuqoslaviya Beynəlxalq Tribunalının predmet yurisdiksiyasına 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntuları, müharibə qanun və adətlərinin pozulması, genosid, bəşəriyyətə qarşı cinayətlər aid edilmişdir. Belə ki, Nizamnamənin 2-ci maddəsində 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntuları, 3-cü maddədə müharibə qanun və adətlərinin pozulması, 4-cü maddədə genosid, 5-ci maddədə isə bəşəriyyətə qarşı cinayətlər nəzərdə tutulmuş və əlamətləri müəyyənləşdirilmişdir. Məsələn, 2-ci maddə Tribunalın yurisdiksiyasına Cenevrə Konvensiyasının ciddi pozuntularını aid etmişdir. Həmin ciddi pozuntulara Cenevrə Konvensiyalarına müvafiq olaraq himayədə olan şəxslər və əmlaka qarşı törədilmiş aşağıdakı hərəkətlər şamil edilmişdir:

1) qəsdən adamöldürmə;

2) bioloji eksperimentlər daxil olmaqla işgəncə vermə və qeyri-insani rəftar etmə;

3) qəsdən ağır əzab və ya ciddi əlillik və ya sağlamlığa ziyan yetirmə;

4) hərbi zərurətlə əlaqədar olmayan qeyri-qanuni, özbaşına və iri miqyasda həyata keçirilən dağıntı və əmlak mənimsəməsi;

5) hərbi əsir və mülki şəxsləri düşmən dövlətin silahlı qüvvələrində xidmət etməyə məcbur etmə;

6) hərbi əsir və mülki şəxsləri qəsdən qərəzsiz və normal mühakimə icraat hüququndan məhrum etmə;

7) mülki şəxsləri qanunsuz deportasiya etmə, köçürmə və ya həbs etmə;

8) mülki şəxsi girov götürmə.

---

7 Предисловие бывшего председателя Международного уголовного трибунала по бывшей Югославии // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.695.

8 Международное публичное право. Сборник документов. Т.2. М., "БЕК". 1996.с.102-107.

Tribunal göstərilən əməllərin birbaşa icraçıları ilə yanaşı bu barədə əmr verən şəxsləri də mühakimə etmək səlahiyyətinə malikdir.

Nizamnamənin 3-cü maddəsində nəzərdə tutulan müharibə qanun və adətlərinin pozulması cinayətinə artıq əzab yetirmək üçün nəzərdə tutulmuş zəhərli maddələr və ya başqa silah növlərinin tətbiqi, şəhər, qəsəbə və ya kəndlərin hərbi zərurətlə bəraət qazandırılmayan mə'nasız viran edilməsi və ya dağıdılması, müdafiə olunmayan şəhər, kənd, mənzil və ya binalara hücum və ya hər hansı vasitə tətbiq olunmaqla onları atəşə tutma, ibadətgah, dini ayinlərin icra yerlərinin, təhsil, bədii və elmi müəssisələrin, tarixi abidə, bədii və elmi əsərlərin ələ keçirilməsi, dağıdılması və ya qəsdən zədələnməsi kimi əməllər aid edilmişdir. Həmin maddədə göstərilir ki, orada nəzərdə tutulmuş əməllər bu cür pozuntuların tam siyahısı deyildir. Yə'ni Tribunal müharibə adət və qanunlarını pozan digər əməllərə görə də mühakimə həyata keçirə bilər. Nizamnamənin 4-cü maddəsi genosid cinayətinə həsr edilmişdir. Genosid cinayətinə aid edilmiş əməllər "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulanları demək olar ki, tam əks etdirir: "Genosid cinayəti hər hansı bir milli, etnik, irqi və ya dini qrupu bir qrup kimi tamamilə və ya qismən məhv etmək niyyətilə törədilən aşağıdakı əməllərdən biridir:

a) belə bir qrup üzvlərinin öldürülməsi;

b) belə bir qrupun üzvlərinə ciddi bədən xəsarəti və ya əqli pozğunluq yetirilməsi;

v) qəsdən hər hansı belə bir qrup üçün onun tamamilə və ya qismən fiziki məhvinə yönəlmiş həyat şəraitinin yaradılması;

d) belə bir qrupun içərisində doğumun qarşısının alınmasına yönəlmiş tədbirlər;

e) zorla uşaqların bir qrupdan başqa bir qrupa verilməsi".[9]

Nizamnamənin 5-ci maddəsində bəşəriyyətə qarşı cinayətlər nəzərdə tutulmuş və həmin cinayətlər beynəlxalq və ya daxili xarakterli silahlı münaqişə zamanı törədilməsindən asılı olmayaraq Tribunalın səlahiyyətlərinə aid edilmişdir. Bu cinayətlərə hər hansı mülki əhalini

— öldürmə;

— tələf etmə;

---

9 Genosid cinayəti haqqında ətraflı mə'lumat üçün bax: L.H.Hüseynov. Genosid cinayətinin tərkib ünsürləri // Hüquqi dövlət və qanun 1999. №8. s.38-40.

— əsarət altına alma;
— deportasiya etmə;
— həbs etmə;
— işgəncə vermə;
— zorlama;
— siyasi, irqi və dini motivlərə görə tə'qib etmə;
— digər qeyri-insani hərəkətlər aid edilmişdir.[10]

Tribunalın şəxs üzərində yurisdiksiyası (ratione personae) hüdudunun müəyyən edilməsi məsələsi də mühüm əhəmiyyət kəsb edir. Tribunalın nizamnaməsinə əsasən onun yurisdiksiyası fiziki şəxslərə fərdi olaraq şamil edilir. Fiziki şəxslər fərdi cinayət məs'uliyyəti daşıyırlar. Bu yurisdiksiya cinayətin iştirakçıları ilə birlikdə onu planlaşdıranlara, təhrikçilərə və digər iştirakçılara da şamil edilir. Şəxsin tutduğu vəzifə onun cinayət məs'uliyyətindən azad edilməsinə əsas vermir. Şəxsin rəsmi statusu, o lap dövlət və ya hökumət başçısı və yaxud yüksək səviyyəli vəzifəli şəxs olsa belə, onu beynəlxalq cinayət məs'uliyyətindən azad etmir və cəza tədbirinin azaldılması üçün əsas ola bilməz. Komandirin onun tabeliyində olan şəxslər tərəfindən törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə cinayət məs'uliyyəti daşımasında heç bir istisnaya yol verilmir. Lakin bunun üçün rəhbər şəxsin öz tabeliyində olanların hüquqa zidd hərəkətlərini bilməsi və yaxud bunlardan xəbəri olması və bu hərəkətlərin qarşısını almaq üçün heç bir tədbir görməməsi tələb olunur.

Tabelikdə olan şəxslərin cinayət hərəkətlərini hökumətin və ya yüksək vəzifəli şəxsin əmri ilə törətməsi onları məs'uliyyətdən azad etmir.

Yuqoslaviya Beynəlxalq Tribunalının ərazi yurisdiksiyası (ratione loci) keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikası ərazisi, yə'ni quru ərazisi, hava məkanı və ərazi sularına şamil edilir.

Tribunalın zaman yurisdiksiyası (ratione ocmporis) 1 yanvar 1991-ci ildən sonrakı dövrü əhatə edir.

Nizamnamənin 9-cu maddəsinə əsasən hərbi tribunal və milli məhkəmələr beynəlxalq humanitar hüququn ciddi pozuntusunu törədən şəxslərin mühakiməsinin paralel yurisdiksiyasını nəzərdə tutur. Bu o

10 Ətraflı mə'lumat üçün bax: Мари-Клод Роберж. Юрисдикция специальных Трибуналов для бывшей Югославии и для Руанды в отношении преступлений против человечности и геноцида // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.735-770.

deməkdir ki, təkcə cinayətin törədildiyi ərazinin milli məhkəmələri deyil, hər hansı dövlətin milli məhkəməsi beynəlxalq humanitar hüquq normalarını pozmuş şəxsi mühakimə etmək səlahiyyətinə malikdir. Başqa sözlə, həmin müddəa ilə universal yurisdiksiya müəyyən edilmişdir. Bu da çoxsaylı cinayət işlərinin öhdəsindən gəlmək üçün mühüm əhəmiyyət kəsb edir. Keçmiş Yuqoslaviya ərazisində müharibə cinayəti törətmiş şəxslərin bir sıra Avropa ölkələri məhkəmələri tərəfindən mühakimə edilməsi faktı mövcuddur. 1994-cü ilin noyabr ayında Kopenhagendə (Danimarka) məhkəmə R.Sariçi xorvatların serb hərbi əsirləri üçün düşərgəsində ölümlə nəticələnən işgəncələr verməkdə təqsirli hesab edərək 8 il müddətinə həbs cəzasına məhkum etmişdir. 1997-ci ildə Münhen (AFR) məhkəməsi N.Cayiçi Bosniyada müharibə zamanı müsəlmanları kütləvi surətdə öldürməkdə iştirakçılıqda təqsirli hesab edərək 5 il müddətinə həbs cəzasına məhkum etmişdir. Analoji qaydada Zalsburqda(Avstriya) bosniyalı serb D.Svetkoviçin mühakimə edilməsi üçün məhkəmə prosesi keçirilmişdir.[11]

Milli məhkəmələrin universal yurisdiksiya əsasında hərbi cinayətkarları mühakimə etməkdə iştirakı beynəlxalq humanitar hüququn ciddi pozuntularının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir və böyük perspektivə malikdir.[12]

Yuqoslaviya Beynəlxalq Tribunalı milli məhkəmələr üzərində üstünlüyə malikdir. Mühakimə icraatının istənilən mərhələsində Tribunal rəsmi surətdə milli məhkəmələrdən işin onun yurisdiksiyasına verilməsini tələb edə bilər.

Nizamnamənin 10-cu maddəsində non bis in idem prinsipi təsbit olunmuşdur. Bu prinsipə əsasən şəxs eyni cinayətə görə iki dəfə mühakimə oluna bilməz. Şəxs Tribunal tərəfindən məhkum olunduqdan sonra o, heç bir halda milli məhkəmələr tərəfindən eyni əmələ görə mühakimə edilə bilməz. Şəxs Tribunalın yurisdiksiyasına şamil edilmiş hər hansı cinayət əməlinə görə milli məhkəmələr tərəfindən mühakimə edilibsə, o sonradan Tribunal tərəfindən iki halda mühakimə edilə bilər:

---

11 Вах. Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк. 1999. с.67,95.

12 Вах. Томас Градицкий. Личная уголовная ответственность за нарушение международного гуманитарного права, применяемого в ситуации немеждународного вооруженного конфликта // Международный Журнал Красного Креста. Март 1998. № 20. С.53-58.

1) mühakimə edilən şəxsin törətdiyi əməl adi cinayət kimi tövsif edilmişsə;

2) milli məhkəmə icraatı qərəzsiz və müstəqil olmayıb, müqəssiri beynəlxalq cinayət məs'uliyyətindən qorumaq məqsədi daşımışsa. Nizamnamənin 11-ci maddəsinə əsasən Tribunal: 1) İki birinci instansiya Palatası və Apellyasiya Palatası; 2) Prokuror; 3) Dəftərxanadan ibarətdir. Tribunalda hər Məhkəmə Kamerasında 3, Apellyasiya Kamerasında 5, cəmi 11 hakim fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, Yuqoslaviya Tribunalının Apellyasiya Kamerası eyni zamanda Ruanda Beynəlxalq Tribunalı üçün də həmin funksiyanı yerinə yetirir.

Prokuror müstəqil fəaliyyət göstərir. O, BMT Baş Katibinin təqdimatına əsasən Təhlükəsizlik Şurası tərəfindən 4 il müddətinə tə'yin olunur. Yuqoslaviya Beynəlxalq Tribunalının ittihamçısı eyni zamanda Ruanda Beynəlxalq Tribunalı ittihamçısı vəzifəsini yerinə yetirir.

1999-cu ilin may ayına olan mə'lumata əsasən Yuqoslaviya beynəlxalq tribunalı 25 ittiham hökmü çıxarmış və 84 nəfəri mühakimə etmişdir. Məsələn, Drajen Yerdemoviç (IT-96-22) hərbi cinayətlər törətməkdə təqsirli bilinərək 5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. 1998-ci ilin avqust ayında, o, cəza çəkmək üçün Norveçə göndərilmişdir.

Mkrsic və başqalarının işi (Vukovar xəstəxanası IT-95-13a) 20 noyabr 1991-ci ildə xəstəxanada müalicə olunanlardan ibarət 260 nəfərin öldürülməsi faktı ilə əlaqədar Yuqoslaviya Xalq Ordusunun təqsirli şəxsləri barəsində başlanmışdır. İş üzrə hakimlər belə qənaətə gəlirlər ki, Nizamnamənin 3-cü maddəsi münaqişənin beynəlxalq və ya daxili münaqişə olmasından asılı olmayaraq tətbiq olunmalıdır.

Yuqoslaviya Beynəlxalq Tribunalı tərəfindən baxılmış Duşko Tadiçin işində bir çox hüquqi məsələlər öz həllini tapdığına görə həmin iş üzərində nisbətən ətraflı dayanmağı məqsədəmüvafiq hesab edirik.

1991-1992-ci illərdə milliyyətcə serb olan Duşko Tadiç, Bosniya və Hersoqovinada bosniyalı serblər tərəfdən döyüşlərdə iştirak etmiş və zorlama, adam öldürmə, işgəncə vermə və qeyri-insani rəftar kimi əməllər törətməklə beynəlxalq humanitar hüququn ciddi pozuntularına yol vermişdi. Yuqoslaviya Beynəlxalq Tribunalı yaradıldıqdan sonra o, məs'uliyyətdən yaxa qurtarmaq üçün Almaniyaya köçmüş və orada sığınacaq taparaq qaçqınlar arasında gizlənmişdi. Mə'lum olduğu kimi Almaniya Cinayət Məcəlləsi universial yurisdiksiyanı nəzərdə tutur. Yə'ni CM-in 6-cı maddəsinə əsasən Almaniyanın tərəfdar çıxdığı bey-

nəlxalq müqavilələrdə nəzərdə tutulmuş cinayətlər onun ərazisindən kənarda və vətəndaşı olmayan şəxslər tərəfindən törədilmiş olsa belə Almaniya milli məhkəmələri həmin cinayətləri törətmiş şəxsləri mühakimə etmək səlahiyyətinə malikdirlər. Məhz universial yurisdiksiya prinsipinə əsaslanaraq Almaniya hökumət orqanları Duşko Tadiçə qarşı cinayət işi başlamış və onu beynəlxalq humanitar hüququn ciddi pozuntularını törətməkdə təqsirli hesab etmişdir. 1994-cü ildə Yuqoslaviya Beynəlxalq Tribunalı cinayət işlərinə baxmaqda milli məhkəmələrə nisbətən üstünlük hüququna malik olmasından istifadə edərək, Nizamnamənin 9-cu maddəsinə müvafiq olaraq Yuqoslaviya Beynəlxalq Tribunalı D.Tadiçin işini vermək barədə xahişlə Almaniyaya müraciət etdi. Yuqoslaviya Beynəlxalq Tribunalının həmin xahişi alınan vaxt artıq D.Tadiç haqqında ibtidai istintaq başa çatdırılmışdı.

Məhkəmədə D.Tadiç məs'uliyyətdən qurtarmaq üçün Yuqoslaviya Beynəlxalq Tribunalının yurisdiksiyasına e'tirazını bildirdi. D.Tadiçin e'tirazları aşağıdakılarda ifadə olunmuşdu:

a) Tribunal qeyri-qanuni yaradılıb. Belə ki, BMT Təhlükəsizlik Şurasının bu cür səlahiyyəti yoxdur;

b) Tribunalın Nizamnaməsi ilə müəyyənləşdirilmiş işlərə baxmaqda tribunalın üstünlüyə malik olması hüququ qeyri-qanunidir;

v) Tribunal onun işinə münasibətdə yurisdiksiyaya malik deyil. Çünki ona qarşı ittiham verilən Nizamnamənin 2, 3 və 5-ci maddələri ancaq beynəlxalq silahlı münaqişələrə aiddir. Onun təqsirləndiyi cinayətlər isə sübut edilsə belə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı törədilib.

Yuqoslaviya Beynəlxalq Tribunalının Məhkəmə Palatası bütün ilkin e'tirazları rədd etmiş və 10 avqust 1995-ci ildə D. Tadiçin işinə baxmaqda yurisdiksiyaya malik olmasını bəyan etmişdi. Məhkəmə Palatasının qərarı ilə razılaşmadığını bildirən müqəssir tribunalın yuxarı Apellyasiya Palatasına şikayət vermiş və tribunalın yurisdiksiyasına qarşı e'tirazına yenidən baxılmasını tələb etmişdi. Həmin şikayətə əsasən Apellyasiya Palatası D. Tadiçin işinə baxmışdı.

Müqəssirin Tribunalın yaradılmasına e'tirazı aşağıdakıları əhatə edirdi:

1) BMT Nizamnaməsi hazırlanarkən BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII fəslinə əsasən ona bu cür məhkəmə orqanı yaratmaq səlahiyyəti verilməmişdir. Beynəlxalq humanitar hüquq normalarının kobud pozulması həmişə mövcud olmuş, lakin heç vaxt bu

cür orqan yaradılmamışdır;

2) Tribunal qeyri-qanuni yaradılmışdır, çünki hüququn ümumi prinsipinə əsasən məhkəmə qanun və ya beynəlxalq müqavilə əsasında yaradılmalıdır;

3) qeyri-qanuni hərəkətlərin törədilməsindən sonra ad hoc məhkəmələrinin yaradılması qanuna ziddir;

4) Yuqoslaviya Beynəlxalq Tribunalının yaradılması keçmiş Yuqoslaviyada sülhün bərpa edilməsinə kömək edə bilməz. Ona görə də, BMT Təhlükəsizlik Şurasının həmin tribunalı yaratmaq məqsədi əhəmiyyətini itirir.

Yuqoslaviya Beynəlxalq Tribunalının Apellyasiya Palatası qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurasının səlahiyyəti həqiqətən qeyri-məhdud deyil. Nizamnamənin VII fəslinə əsasən Təhlükəsizlik Şurasının sülhə təhlükənin mövcudluğunu müəyyən etmək üzrə əsas səlahiyyəti belə BMT Nizamnaməsinin məqsəd və prinsipləri çərçivəsində fəaliyyət göstərməsi ilə məhdudlaşır. Lakin Yuqoslaviya hadisələrinə münasibətdə BMT Təhlükəsizlik Şurasının səlahiyyətlərinin hüdudları haqqında məsələ mövcud deyil, çünki həmin ərazidəki silahlı münaqişə sülhün pozulmasıdır (və ya sülhə təhlükədir).

Apellyasiya Palatası daha sonra qeyd etmişdir ki, BMT Nizamnaməsi bu cür tədbirin seçilməsi imkanını, yə'ni xüsusi orqan yaradılmasını istisna etmir. Nizamnamənin 41-ci və 42-ci maddələri sülhün bərpasının tə'min edilməsi tədbirlərini seçməkdə BMT Təhlükəsizlik Şurasına geniş imkanlar verir. Həm də Nizamnamənin 41-ci maddəsi ilə müəyyən edilmiş tədbirlərin siyahısı tamamlanmış deyildir. Apellyasiya Palatasının mövqeyinə görə həmin maddədə hansı tədbirlərin tətbiqinə yol verilməməsi (hərbi) öz dəqiq əksini tapıb. Yol verilən tədbirləri seçmək imkanı isə BMT Təhlükəsizlik Şurasının ixtiyarına verilmişdir.

Apellyasiya Palatasının fikrincə, əgər BMT Təhlükəsizlik Şurası qəbul etdiyi qərarların həyata keçirilməsinə köməklik göstərilməsi üçün üzv dövlətlərə müraciət etmək səlahiyyətinə malikdirsə, öz qərarlarının yerinə yetirilməsinin tə'min edilməsi üçün hər hansı yardımçı orqanı da yarada bilər.

Apellyasiya Platasının mövqeyinə görə BMT Təhlükəsizlik Şurası özünün sülhü və təhlükəsizliyi qorumaq funksiyasının tə'mini vasitələrindən biri kimi məhkəmə orqanları yarada bilər. Lakin göstərilənlər elə şərh olunmamalıdır ki, BMT Təhlükəsizlik Şurası BMT Nizamna-

məsi ilə ona verilmiş məhkəmə xarakterli səlahiyyətlərini yaratdığı orqana həvalə edir. Çünki BMT-də məhkəmə funksiyasına yalnız onun başqa ali orqanı — Beynəlxalq Məhkəmə malikdir.

D.Tadiçin digər e'tirazlarının mahiyyəti üzrə Apellyasiya Palatası göstərmişdir ki, BMT Nizamnaməsinin 39-cu maddəsinə əsasən bu və ya digər hallarda hansı fəaliyyətin seçilməsi səlahiyyəti məhz Təhlükəsizlik Şurasına məxsusdur.

"Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktın 14-cü maddəsində məhkəmənin "yalnız qanun əsasında yaradılması" ifadəsinin işlədilməsi o demək deyil ki, məhkəmə yalnız hüquqazidd aktların törədilməsinə kimi yaradılmalıdır. Bu ifadə o deməkdir ki, məhkəmə yalnız səlahiyyətli orqan tərəfindən yaradılmalıdır və o, öz fəaliyyətində ədalətli mühakimə tələblərini tə'min etməlidir. Apellyasiya Palatası göstərmişdir ki, bu mövqe həmin maddəyə 1988-ci ildə İnsan Hüquqları üzrə komitənin verdiyi şərhdə də təsdiq olunur. Bundan əlavə, əks mövqenin təsdiqi Nürnberq və Tokio Hərbi Tribunalları qərarlarının tanınmamasına səbəb olardı. Çünki həmin tribunallar da müqəssirlər tərəfindən cinayət əməllərinin törədilməsindən sonra yaradılmışdır. Palata qeyd etmişdir ki, Yuqoslaviya Beynəlxalq Tribunalı BMT Nizamnaməsi əsasında yaradılmış və ədalətli mühakimə tə'min etmək üçün bütün zəruri olanlarla tə'min edilmiş, yə'ni qanun əsasında yaradılmışdır.

Nizamnamədə müəyyən edildiyi kimi Tribunalın milli məhkəmələrə münasibətdə üstünlüyə malik olmasının dövlətlərin suverenliyini pozduğuna görə qeyri-qanuni olması dəlili də rədd edilmişdir. Həmin dəlili nəzərdən keçirərkən Məhkəmə Palatası göstərmişdir ki, suverenliyin pozulması haqqında məsələ qaldırmaq hüququ dövlətə mənsubdur, müttəhim dövləti təmsil etmədiyinə görə onun bu cür hüququ yoxdur. Bu zaman Məhkəmə Palatası öz nəticələrində bə'zi məhkəmə presedentlərinə, o cümlədən, ABŞ Vilayət məhkəməsinin general Noryeqanın işi üzrə qərarına əsaslanmışdır.

Lakin Apellyasiya Palatası Məhkəmə Palatasının həmin nəticəsini rədd etmiş və göstərmişdir ki, beynəlxalq hüquqda istinad edilən doktrina tətbiq edilə bilməz. Çünki beynəlxalq hüquq məhz dövlətlərin suverenliyinə əsaslanır. Milli məhkəməni hərbi tribunalların əvəz etməsinin hüquqauyğunluğu BMT Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndi ilə əsaslandırıla bilər. Burada BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq fəaliyyət göstərməsi

və tədbir görməsi nəzərdə tutulur. Apellyasiya Palatasının fikrincə, Yuqoslaviya Beynəlxalq Hərbi Tribunalının milli məhkəmə üzərində üstünlük hüququna malik olmasının müəyyən edilməsində məqsəd təhlükəli beynəlxalq cinayətkarların üzərində məhkəmə prosesinin saxtalaşdırılmasının qarşısının alınmasına, cinayətkarların məs'uliyyətdən yayınmamasının tə'mininə yönəlmişdir. Yuqoslaviya Beynəlxalq Tribunalının Nizamnaməsinin 9 və 10-cu maddələri məhz həmin məsələlərə həsr olunmuşdur.

Müttəhimin növbəti dəlili onun ittiham olunduğu əməllərin beynəlxalq silahlı münaqişə zamanı törədildiyi qeyd olunduğu halda, iştirakısı olduğu münaqişənin qeyri-beynəlxalq münaqişə olmasıdır.

Məhkəmə Palatası 10 avqust 1995-ci il tarixli qərarında göstərmişdir ki, Beynəlxalq Cinayət Tribunalı Nizamnaməsində nəzərdə tutulmuş hər üç növ cinayət həm beynəlxalq, həm də qeyri-beynəlxalq münaqişələr zamanı törədilə bilər. Ona görə də, həmin işə münasibətdə hansı münaqişənin mövcud olmasının əhəmiyyəti yoxdur. Apellyasiya Palatasına şikayətdə müttəhim göstərmişdir ki, ümumiyyətlə Yuqoslaviyada silahlı münaqişə olmamışdır. Həmin e'tirazla əlaqədar Apellyasiya Palatası qeyd etmişdir ki, dövlətlərarası, dövlətlə mütəşəkkil silahlı qruplar arasında və ya bu cür qruplar arasında münasibətlərdə silahlı qüvvələrə müraciət edildiyi hər bir halda silahlı münaqişə mövcud olur. Beynəlxalq humanitar hüquq silahlı qüvvələrə müraciət edildiyi vaxtdan fəaliyyətə başlayır və sülh müqaviləsi bağlanana, qeyri-beynəlxalq silahlı münaqişə hallarında isə, münaqişə sülh yolu ilə həll edilənə kimi davam edir. Apellyasiya Palatası qeyd etmişdir ki, keçmiş Yuqoslaviyada silahlı münaqişə 1991-ci ildə başlanmış və 1992-ci ildən sonra da davam etmişdir. Deməli, müttəhim öz cinayətlərini silahlı münaqişə zamanı törətmişdir.

Bosniyadakı münaqişənin beynəlxalq və ya qeyri-beynəlxalq silahlı münaqişə hesab edilməsi ilə əlaqədar Apellyasiya Palatası xatırlatmışdır ki, BMT Təhlükəsizlik Şurası Yuqoslaviya ərazisində həm beynəlxalq, həm də qeyri-beynəlxalq münaqişənin olmasını qəbul etmiş və hər iki münaqişə zamanı törədilmiş cinayətlərə görə təqsirli olanları mühakimə etmək üçün Beynəlxalq Cinayət Tribunalı yaratmışdır. Lakin baxılan işə münasibətdə Apellyasiya Palatası mahiyyət etibarı ilə Məhkəmə Palatasının mövqeyini rədd etmiş və qərara almışdır ki, həmin halda söhbət qeyri-beynəlxalq münaqişədən gedir.

Apellyasiya Palatası işə ətraflı baxdıqdan sonra belə nəticəyə gəlmişdir ki, qeyri-beynəlxalq silahlı münaqişələr zamanı beynəlxalq hu-

manitar hüququn adət normalarının pozulması cinayət tə'qibini tələb edən beynəlxalq cinayətdir.

Göstərilənlərə əsasən, Apellyasiya Palatası 2 oktyabr 1995-ci ildə qərara almışdır ki, Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı D.Tadiçin işi üzrə yurisdiksiyaya malikdir.[13]

Qeyd etmək lazımdır ki, D.Tadiçə qarşı Cenevrə Konvensiyalarının ciddi pozuntusuna, müharibə adət və qanunlarını pozmağa və bəşəriyyətə qarşı cinayət törətdiyinə görə 31 (kifayət qədər sübut olmadığına görə imtina edilən 9 ittiham istisna olmaqla) ittiham verilmişdi. O, 11 ittiham üzrə təqsirli bilinmiş, qalan əməllər ancaq beynəlxalq silahlı münaqişələr zamanı törədildikdə cinayət hesab edildiyinə görə, həmin ittihamlar üzrə D. Tadiç mühakimə olunmamışdır. Nəticədə, D.Tadiç 7 may 1997-ci ildə 21 il həbs cəzasına məhkum olunmuşdur.[14] İ.P.Blişenko və C. Doria D.Tadiçin işi üzrə Apellyasiya Palatasının qərarını aşağıdakılara görə əhəmiyyətli hesab edirlər:

1) Cinayət Tribunalının yurisdiksiyası müəyyən edilərkən dövlətlərin suverenliyinə riayət olunmasının zəruriliyinin təsdiq olunması;

2) Qeyri-beynəlxalq silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüququn adət normalarının hər hansı pozuntusunun beynəlxalq cinayət hesab olunması;

3) BMT Nizamnaməsinin BMT Təhlükəsizlik Şurasının səlahiyyətlərinə aid müddəalarının təfsiri, yə'ni Təhlükəsizlik Şurasının öz fəaliyyətində BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə istinad etməli olmasının təsdiq olunması.[15]

Tribunalın Nizamnaməsinin 27-ci maddəsinə əsasən azadlıqdan məhrumetmə cəzasının icrası Beynəlxalq Tribunalın özü tərəfindən hər dəfə tə'yin olunmuş dövlətin ərazisində həyata keçirilir. Həmin dövlət qabaqcadan cəza çəkəcək konkret şəxsi qəbul etməyə hazır olduğunu BMT Təhlükəsizlik Şurasına bildirmiş dövlətlərin siyahısından tə'yin edilir. Cəzanın çəkilməsi zamanı beynəlxalq səviyyədə tanınmış standartlara tam riayət olunmalıdır.

---

13 The Prosecutor v. Dusko Tadic. Case No IT-91-1-AR72. Appeal on Jurisdictio (Oct.2,1995) // ILM. 1996.Vol. 35.No.1.P.32-73

14 Bax.Prosecutor v. Tadic. Case No. IT-94-1-T. International Criminal Tribunal for Fomer Yugoslavia. May 7, 1997 // AJIL. 1997. Vol.91. No.4. P.718-721.

15 Блищенко И.П., Дориа Ж. Прецеденты в международном публичном и частном праве. М., МНИМП. 1999. с.291-292.

4. Ruanda Beynəlxalq Cinayət Tribunalı

Ruanda Beynəlxalq Cinayət Tribunalının yaradılmasının zəruriliyini təsdiq edən faktlar yüzlərlədir. Təkcə 1994-cü il aprel ayının 6-da Ruanda və Burundi prezidentlərinin Tanzaniyada keçirilən sülh danışıqlarından geri qayıdarkən Kiqali aeroportu yaxınlığında onların təyyarələrinin partladılmasından bir neçə saat sonra bəşər tarixində ən qəddar genosid törədilməsinə başlanmış və nəticədə Ruandada 500 mindən artıq adam öldürülmüşdü. Mə'lumdur ki, genosid qabaqcadan planlaşdırılmışdı və onun alovlanması üçün bir qığılcım kifayət idi.[16]

1994-cü ilin iyul ayında Ruanda vətənpərvərlər cəbhəsi tərəfindən qələbə əldə edildikdən sonra milli birlik hökuməti yaradıldı. Ruanda Beynəlxalq Birliyin diqqətini genosid və kütləvi adamöldürməkdə təqsirli olan şəxslərin hansı ölkədə olmasından asılı olmayaraq cəzalandırılmasına cəlb etmək və beynəlxalq tribunal yaradılması üçün BMT Təhlükəsizlik Şurasına müraciət etdi.[17]

"1 yanvar 1994-cü ildən 31 dekabr 1994-cü il tarixə qədər olan müddətdə Ruanda ərazisində törədilmiş genosid və beynəlxalq humanitar hüququn digər ciddi pozuntularında təqsirli olan şəxslərin və qonşu dövlətlərin ərazilərində genosid və digər belə pozuntular törətmiş Ruanda vətəndaşlarının mühakimə edilməsi üzrə Beynəlxalq Cinayət Tribunalı" (Ruanda Beynəlxalq Tribunalı) 1994-cü ilin noyabr ayının 8-də BMT Təhlükəsizlik Şurasının 955 №li qətnaməsi əsasında tə'sis olunmuşdur.[18]

Lakin Ruanda Beynəlxalq Tribunalının yaradılması haqqında 955 №-li qətnamə qəbul edilərkən Ruanda qətnamənin əleyhinə səs verdi və aşağadakı dəlilləri gətirdi:

Əvvəla, Ruanda ratione temporis yurisdiksiyasının ancaq 1994-cü ili əhatə etməsinə razı deyildi və bildirirdi ki, genosid cinayəti baş verməmişdən əvvəl uzunmüddətli hazırlıq prosesi getmiş və bu vaxt törədilən cinyətlər tribunalın yurisdiksiyasından kənarda qalır.

---

16 Bax. Крис Майна Питер. Международный уголовный трибунал по Руанде: призвать убийц к ответу. // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.805.

17 Doc. ONU S/1994/115 от 29 сентября 1994 г.

18 The United Nations and Rwanda.1993-1996. The United Nations Blue Books Series, Volume X. Department of Public Information The United Nations, New York.1996.pp.387-394.

İkinci, Tribunalın strukturuna e'tiraz edilirdi və göstərilirdi ki, Prokuror və Apellyasiya Kamerası hakimlərinin Yuqoslaviya Beynəlxalq Tribunalı ilə ümumi olması Tribunalın işinə mənfi tə'sir göstərəcək.

Üçüncü, Tribunalın genosidlə əlaqədar yaradılmasına baxmayaraq onun Nizmanaməsində Tribunalın genosid cinayətlərinə münasibətdə xüsusi üstünlüyü qeyd olunmamışdır.

Dördüncü, hakimlərin tə'yin edilməsi prosesində genosidi həyata keçirən rejimi dəstəkləyən dövlətlərin iştirak etməsi müəyyən tərəddüd yaradır.

Beşinci, ölkə Ruanda Beynəlxalq Tribunalının cəzalandırdığı şəxslərin taleyi ilə bağlı qərar qəbul edəcək üçüncü dövlətlərdə cəza çəkməsinə e'tiraz edir və məhkumların Ruandada cəza çəkmələrini tələb edirdi.

Altıncı, Ruanda ölüm cəzasının ölkədə ləğv edilmədiyi halda Tribunalın cəza sistemində nəzərdə tutulmaması ilə razılaşmırdı.

Yeddinci, Tribunalın iş yerinin Ruandada olması tələb olunurdu.[19]

Ruanda Beynəlxalq Tribunalının yaradılması gedişində siyasi-hüquqi fikir ayrılıqlarının mövcud olmasına baxmayaraq hazırda Tribunalın gördüyü işlər Afrika dövlətləri tərəfindən dəstəklənir və ona hərtərəfli yardım göstərilir.[20]

Ruanda Beynəlxalq Tribunalının Nizamnaməsi 32 maddədən ibarətdir.[21]

Ruanda Beynəlxalq Tribunalı və Yuqoslaviya Beynəlxalq Tribunalının əksər müddəaları biri-birinə uyğun olsa da, onların yurisdiksiyasında müəyyən fərqlər də vardır. Belə ki, Ruanda Beynəlxalq Tribunalı ratione materiae yurisdiksiyasına genosid, insanlığa qarşı cinayətlər və Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddənin və II Əlavə Protokolun pozuntuları aid edilmişdir. Hər iki beynəlxalq tribunalın genosid cinayətini nəzərdə tutan maddəsində heç bir fərq yoxdur.

Yuqoslaviya Beynəlxalq Tribunalının insanlığa qarşı cinayətləri nə-

---

19 Вах. Оливье Дюбуа. Национальные уголовные суды Руанды и Международный трибунал. // Международный Журнал Красного Креста. Ноябрь-декабрь. 1997. № 19. с. 832-835.

20 Вах. Дзиена Вембу. Международный уголовный трибунал по Руанде. Роль Суда в современной африканской действительности.// Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.803-804.

21 Международное публичное право. Сборник документов. Т.2. М., "БЕК". 1996.с.109-117.

zərdə tutan 5-ci maddəsində sadalanan əməllərin "xarakterca həm beynəlxalq, həm də daxili silahlı münaqişə zamanı və hər hansı mülki əhaliyə qarşı yönəldilmiş" olduqda cinayət məs'uliyyətinə səbəb olması nəzərdə tutulduğu halda, Ruanda Beynəlxalq Tribunalı Nizamnaməsinin 3-cü maddəsində həmin əməllərin "hər hansı mülki əhaliyə qarşı milli, siyasi, etnik, irqi və ya dini əsasda geniş miqyaslı və ya sistematik hücumun bir hissəsi kimi" törədildikdə cinayət məs'uliyyətinə səbəb olması təsbit olunmuşdur.

Ruanda Beynəlxalq Tribunalının Nizamnaməsində 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntuları, müharibə qanun və adətlərini pozmanı nəzərdə tutan xüsusi maddələr öz əksini tapmamışdır. Lakin həmin Nizamnamənin 4-cü maddəsində Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddənin və II Əlavə Protokolun pozulmasını nəzərdə tutan cinayətlər nəzərdə tutulmuşdur. Bu da Ruanda hadisələri ilə əlaqədar cinayətlərin qeyri-beynəlxalq xarakterli silahlı münaqişə zamanı törədilməsi ilə əlaqədardır.

Tribunal həmin cinayətləri törətmiş və ya törədilməsi barədə əmr vermiş şəxsləri mühakimə etmək səlahiyyətinə malikdir. Göstərilən maddədə cinayət kimi qiymətləndirilən əməllərə:

1) adamların həyatına, sağlamlığına, fiziki və ya psixi durumuna qarşı zorakılıq, o cümlədən qəsdən adamöldürmə, habelə qəddar rəftar, məsələn, işgəncə, ləyaqəti alçaltma və ya bədən cəzasının istənilən forması;

2) kollektiv cəzalar;

3) girov götürmə;

4) terrorizm aktları;

5) zorlama, məcburi fahişəlik və əxlaqsız hərəkətlərin istənilən forması;

6) hərbi soyğunçuluq;

7) sivil millətlər tərəfindən tanınmış zəruri məhkəmə tə'minatları olmaqla qanunauyğun tə'sis olunmuş məhkəmə tərəfindən çıxarılmış qərar olmadan mühakimə etmək və cəza tətbiq etmək;

8) bu hərəkətlərdən hər hansı birini törətməklə hədələmə şamil edilmişdir. Eyni zamanda Nizamnamədə göstərilir ki, siyahıda həmin əməllər tam əhatə olunmamışdır.[22]

22 Ətraflı mə'lumat üçün bax: Фредерик Хархофф. Международное судебное преследование военных преступлений // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.771-780.

Ruanda Beynəlxalq Tribunalı Nizamnaməsində ratione personae — şəxsi yurisdiksiya Yuqoslaviya Beynəlxalq Tribunalı Nizamnaməsində olduğu kimi eyni qaydada nəzərdə tutulmuşdur.

Ruanda Beynəlxalq Tribunalının ərazi yurisdiksiyası — ratione loci quru ərazi və hava məkanı daxil olmaqla Ruanda ərazisinə, həmçinin Ruanda vətəndaşları tərəfindən törədilmiş beynəlxalq humanitar hüquq pozuntularına münasibətdə qonşu dövlətlərin ərazilərinə də şamil edilir. Yə'ni artıq Ruanda Beynəlxalq Tribunalının ərazi yurisdiksiyası Ruanda ərazisindən kənara çıxır və qonşu dövlətlərin ərazisində törədilmiş cinayətlərə də şamil edilir.

Ruanda Beynəlxalq Tribunalının ratione temporis yurisdiksiyası konkret zamanı, yə'ni 1 yanvar 1994-cü ildən 31 dekabr 1994-cü il tarixə kimi olan dövrü əhatə edir.

Yuqoslaviya Beynəlxalq Tribunalının Nizamnaməsində olduğu kimi Ruanda Beynəlxalq Tribunalının Nizamnaməsi də paralel yurisdiksiyanı nəzərdə tutur. Burada fərq yalnız ondan ibarətdir ki, Yuqoslaviya Beynəlxalq Tribunalı Nizamnaməsində "milli məhkəmələr üzərində üstünlük" yurisdiksiyası nəzərdə tutulursa, Ruanda Beynəlxalq Tribunalı Nizamnaməsində "bütün dövlətlərin milli məhkəmələri üzərində bu cür üstünlük"olması qeyd olunur.

Ruanda Beynəlxalq Tribunalının Məhkəmə Kamerası 2 sentyabr 1998-ci il tarixdə ilk hökmünü çıxarmış və Tabo kommunnası burqomistri Jan-Pol Akeyzanı genosidə və insanlığa qarşı cinayət törətməkdə 9 bənd üzrə təqsirli hesab etmişdir (TPIR-96-4-T). O, ömürlük həbs cəzasına məhkum olunmuşdur.

4 sentyabr 1998-ci ildə Ruandanın sabiq baş naziri Jan Kambanda genosid cinayətini törətməyə görə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilmişdir (ICTR-97-23-I).

Omar Seruşaqo genosid və insanlığa qarşı cinayət törətməyə görə 5 fevral 1999-cu ildə 15 il müddətinə azadlıqdan məhrum edilmişdir (ICTR-98-39-I).

1999-cu ilin mart ayına kimi Ruanda Beynəlxalq Tribunalı tərəfindən 45 nəfər haqqında 28 hökm çıxarılmışdır.

5. Ad hoc Beynəlxalq Cinayət Tribunallarının əhəmiyyəti

Ad hoc Beynəlxalq Cinayət Tribunallarının yaradılması yolu ilə beynəlxalq humanitar hüququn ciddi pozuntularını törətmiş şəxslərin cina-

yət məs'uliyyətinə cəlb edilməsinin böyük siyasi, mə'nəvi və təcrübi əhəmiyyəti olmuşdur.

Əvvəla, tribunalların çıxardığı hökmlər bir çox cinayətlərin, o cümlədən genosid, hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər sahəsində məhkəmə təcrübəsinin artmasına səbəb olur.

İkinci, beynəlxalq hüquqda birbaşa şəxsi cinayət məs'uliyyəti prinsipi müəyyənləşdirilir. Yə'ni beynəlxalq məhkəmə orqanları beynəlxalq hüququ pozan şəxcləri, hətta bu cinayət bir dövlətin ərazisi hüdudlarında baş verdikdə belə mühakimə edə bilərlər.

Üçüncü, tribunalların yaradılması Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması üçün zəmin hazırlayır və onun zəruriliyini bir daha təsdiq edir.

Dördüncü, beynəlxalq cinayətin törədilməsinin qarşısının alınmasında tribunalların böyük əhəmiyyəti olacaqdır. Belə bir məşhur ifadə mövcuddur: "Qanuna hörmət polis qarşısında qorxudan başlanır". Bu ifadə silahlı münaqişələrə münasibətdə də işlədilə bilər. Şübhəsiz ki, silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarına könüllü surətdə riayət edənlər vardır. Lakin e'tiraf edilməlidir ki, əksəriyyət mümkün cəzadan ehtiyat edərək qanunun tələblərini yerinə yetirirlər.

Beşinci, beynəlxalq tribunalların fəaliyyəti ingilis-sakson və kontinental hüquq sistemlərinin yaxınlaşmasına, qovuşmasına yardım göstərəcəkdir.

Altıncı, tribunalların fəaliyyəti milli barışığın əldə edilməsində əhəmiyyətli rol oynaya biləcək. Çünki yalnız özbaşnalıqlara son qoyulduğu, cinayətkarların qanuni cəzasını aldığı təqdirdə milli barışığın əldə edilməsi mümkündür.

Z. Meron haqlı olaraq qeyd edir ki, "beynəlxalq tribunalın neçə qəddarlıq faktını araşdırması deyil, mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Onların nizamnamələri, prosedur və sübutetmə qaydaları, iş təcrübəsi hüququn inkişafı üçün stimul yaradır".[23]

Beynəlxalq tribunalların fəaliyyəti nəticəsində mühüm hüquqi nəticələr əldə edilmiş, vəhşiliklər törətmiş bir çox cinayətkarlar layiqli cəzalarını almışlar. Lakin göstərilən müsbət cəhətlərə baxmayaraq ad hoc tribunalların yaradılması beynəlxalq humanitar hüquq pozuntusu və ümu-

23 Theodor Meron. The International Criminalization of Internal Atrocities // American Journal of International Law, Vol. 89, 1995, p. 555.

miyyətlə beynəlxalq cinayət törətmiş şəxslərin məs'uliyyətə cəlb olunması problemini həll etmir. Beynəlxalq Birlik Yuqoslaviya və Ruandada törədilmiş cinayətlərdə təqsirli olan şəxslərin mühakimə edilməsinin təşkili üçün güc və vəsait tapsa da, çox vaxt buna nail olmaq çətindir. Kampuçiya, İraq və keçmiş SSRİ ərazisində baş vermiş münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının kobud surətdə pozulması, şəhər və kəndlərin heç bir zərurət olmadan vəhşicəsinə dağıdılması, mülki əhalinin və mülki obyektlərin məhv edilməsi, hərbi əsirlərlə qeyri-insani rəftar və sair faktların göz qabağında olmasına baxmayaraq həmin cinayətlərə görə cinayət mühakiməsi həyata keçirilməmişdir. Oxşar vəziyyətlərdə miqyası e'tibarı ilə münaqişələrin neqativ humanitar nəticələrinin adekvatlığına baxmayaraq müəyyən seçimə yol verilməsi aydın görünür. Bu cür hallar isə təəssüf hissi doğurmaqla yanaşı bir çox cinayətkarlarda məs'uliyyətdən yayınmaq inamı da yaradır. Fikrimizcə, daim fəaliyyət göstərən Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması beynəlxalq cinayətlərin qarşısının alınmasında mühüm rol oynayacaqdır.

Fəsil XIX

BEYNƏLXALQ CİNAYƏT MƏHKƏMƏSİ: TARİXİ, YURİSDİKSİYASI, TƏŞKİLİ VƏ CƏZA MƏSƏLƏLƏRİ

1. Beynəlxalq Cinayət Məhkəməsinin tarixi və təşkili

Beynəlxalq Cinayət Məhkəməsi anlayışının özündə həmin orqanın 3 əsas səciyyəvi cəhəti əksini tapmalıdır. Əvvəla, BCM beynəlxalq orqan olmalıdır. Bunun üçün kriteriya kimi tətbiq olunan hüququn xarakteri əsas götürülür. Lakin A. İ. Poltarak belə hesab edir ki, tribunalların beynəlxalq xarakteri tətbiq olunan hüquqla, onun beynəlxalq saziş əsasında yaradılması faktı ilə deyil, Beynəlxalq Birliyin Tribunalın Nizamnaməsi və hökmlərinə tərəfdar çıxması ilə müəyyən olunur.[1] Y. A. Reşetovun mövqeyinə görə isə, cinayətin Beynəlxalq Birliyə vurduğu ziyan nə qədər yüksəkdirsə məhkəmə baxışının həqiqətən beynəlxalq xarakter daşıması bir o qədər çox tələb olunur.[2] Fikrimizcə, BCM-in beynəlxalq xarakterini səciyyələndirən əlamətləri ayrı-ayrılıqda dəlil kimi təqdim etmək düzgün deyil. Göstərilən əlamətlərdən hər biri məhkəmənin beynəlxalq xarakterini təsdiq edir. Ona görə də, bu əlamətlər kompleks şəkildə qəbul edilməli və BCM-in beynəlxalq xarakterinin səciyyəvi cəhətləri kimi tanınmalıdır. Əsas cəhət isə dünya dövlətləri tərəfindən BCM Statutunun qəbul edilməsidir. Çünki dövlət Məhkəmənin Statutunu ratifikasiya etdikdən sonra onun yurisdiksiyasını tanıyır və öz üzərinə müvafiq beynəlxalq hüquqi öhdəliklər götürür. Statutda öz əksini tapmış cinayətlərin beynəlxalq cinayət olması isə artıq heç bir şübhə doğura bilməz. Məhkəmənin beynəlxalq orqan olması onun beynəlxalq hüquq subyektliliyinə malik olmasında da öz təzahürünü tapmalıdır.

İkincisi, BCM cinayət mühakimə orqanı olmalıdır. Bu həmin orqanın məqsədindən irəli gəlir. Yə'ni həmin orqanda baxılan işlər Beynəl-

1 Полторак А.И. Нюрнбергский процесс. М., 1966. с. 20.

2 Решетов Ю.А. Борьба с международными преступлениями против мира и безопасности. М., 1991, с.195-196.

xalq Birlik tərəfindən cinayət kimi qiymətləndirilən əməllər olmalıdır. BCM heç bir halda siyasi xarakterli məsələlərə baxmamalıdır.

Nəhayət, BCM məhkəmə orqanı olmalıdır. Bu orqanda fiziki şəxslərin əməllərinə hüquqi qiymət verilməli və təqsirli olanlara əməllərinə müvafiq olaraq cinayət cəzası tə'yin olunmalıdır. Bu əlamətlər BCM-in Statutunun 1-ci maddəsində öz əksini tapmışdır. Orada göstərilir ki, BCM Beynəlxalq Birliyin diqqətini cəlb edən daha ciddi cinayətlərə görə məs'uliyyətə cəlb edilməli olan şəxslər haqqında yurisdiksiyanı həyata keçirməyə səlahiyyətli olan daimi orqandır. Nəzərə almaq lazımdır ki, burada söhbət yalnız Statutda ifadəsini tapmış cinayətlərdən gedir. BCM milli məhkəmələri əvəz etmir, onları tamamlayır.

BCM-in yaradılmasını beynəlxalq humanitar hüquq sahəsində üç hakimiyyət qolunun fəaliyyətilə əlaqələndirənlər də vardır. Mə'lum olduğu kimi Monteskye "Qanunun mahiyyəti haqqında" əsərində hakimiyyətin üç qolunu fərqləndirmiş və onların daha yaxşı fəaliyyət göstərməsi üçün səlahiyyətlərinin biri-birindən dəqiq fərqləndirilməsini zəruri hesab etmişdir. Jak Strun bu bölgünü beynəlxalq humanitar hüquq sahəsinə tətbiq edərək göstərir ki, burada qanunverici hakimiyyət qanunların mətnlərini hazırlayan beynəlxalq konfranslara; icra hakimiyyəti həmin qanunları imzalamış dövlətlərin hökumətlərinə; dəqiq müəyyənləşdirilmiş məhkəmə hakimiyyəti isə yaradılan beynəlxalq tribunallara aiddir.[3]

Beynəlxalq Cinayət Məhkəməsi yaradılması ideyası mütəfəkkir və hüquqşünaslar tərəfindən uzun müddət əvvəl irəli sürülmüşdür. Lakin bu ideyaların reallaşması üçün siyasi şərait o qədər də əlverişli olmamışdır. BCM-in yaradılması istiqamətində ilk təşəbbüs II Dünya müharibəsindən əvvəl olmuşdur. Dünya ictimaiyyətinin beynəlxalq terrorizmlə mübarizəni gücləndirmək və bu məqsədlə beynəlxalq cinayət məhkəməsi yaradılması tələbinə əsasən Millətlər Cəmiyyəti 1937-ci ildə "Terrorizmin qarşısının alınması və ona görə cəza" haqqında Konvensiya qəbul etdi. Konvensiyada Beynəlxalq Cinayət Tribunalı Statutu öz əksini tapmışdı. Lakin yalnız bir dövlət (Hindistan) Konvensiyanı ratifikasiya etdiyinə görə həmin Konvensiya qüvvəyə minmədi. 1948-ci ildə BMT Baş Məclisi Beynəlxalq Hüquq Komissiyasına genosid və

---

3 Жак Струн. Международная уголовная юрисдикция, международное гуманитарное право и гуманитарная деятельность // Международный Журнал Красного Креста. Ноябрь-декабрь 1997. № 19.с.725-726.

bu kimi cinayət törətmiş şəxslərin işlərinə baxan hüquqi orqan yaradılması məsələsinə baxılmasını təklif etdi. Bu təklifə müvafiq olaraq 1948-ci il genosid cinayətinin qarşısının alınması və ona görə cəza Konvensiyasının və 1973-cü il aparteid cinayətinin qarşısının alınması və ona görə cəza Konvensiyasının müvafiq olaraq 6-cı və 5-ci maddələrində həmin konvensiyalarda nəzərdə tutulmuş cinayətlərə görə milli yurisdiksiya ilə yanaşı alternativ kimi beynəlxalq cinayət məhkəməsi yurisdiksiyası da (həmin yurisdiksiyanı tanıyan dövlətlər üçün) nəzərdə tutulmuşdur.

1990-cı ilin avqustunda İraqın Küveytə müdaxiləsi ilə əlaqədar beynəlxalq cinayət törətmiş şəxslərin tə'qibi üçün məhkəmə yaradılması aktual problemə çevrildi. Hətta bu məsələ BMT-nin müzakirəsinə verildi. Belə ki, Lüksemburqun xarici işlər naziri Avropa Birliyinin Nazirlər Şurasının sədri kimi çıxış edərək BMT-nin Baş katibinə İraq liderinin fərdi məs'uliyyətə verilməsi və beynəlxalq məhkəmədə mühakimə edilməsi imkanını nəzərdən keçirməyi xahiş etdi.[4]

1992-ci il BMT-nin Beynəlxalq Hüquq Komissiyası 44-cü sessiyasında beynəlxalq cinayət yurisdiksiyası haqqında məsələ üzrə işçi qrup yaratdı. İşçi qrupuna beynəlxalq cinayət məhkəməsi haqqında təklif hazırlamaq həvalə olundu. Komissiya aşağıdakı təklifləri hazırladı:

— beynəlxalq cinayət məhkəməsi çoxtərəfli müqavilə əsasında yaradılmalıdır;

— onun yurisdiksiyası beynəlxalq xarakterli cinayətlərlə məhdudlaşdırılmalıdır;

— ilk vaxtlar məhkəmə məcburi yurisdiksiyaya malik olmamalıdır.

BMT Baş Məclisi 16 noyabr 1992-ci il tarixli qətnamə əsasında Komissiyaya təklif etdi ki, İşçi qrupunun mə'ruzəsi əsasında Beynəlxalq Cinayət Məhkəməsinin statutunun layihəsini hazırlamağa başlasın. Komissiya tərəfindən hazırlanmış layihənin qəbul edilməsi, yə'ni Beynəlxalq Cinayət Məhkəməsinin tə'sis edilməsi məqsədilə 1998-ci il iyun ayının 15-dən iyul ayının 17-dək İtaliyanın paytaxtı Roma şəhərində BMT-nin Diplomatik Konfransı keçirildi. Konfransda 160 dövlət, o cümlədən Azərbaycan Respublikasının nümayəndə hey'əti də iştirak etdi. Azərbaycan Respublikası da daxil olmaqla 120 dövlət Statutun qə-

4 Bax. Letter from Mr.Poss, President-in-Office of the Council of Ministers of the European Communities, to the Secretary-General of the United Nations. 16 April 1991. http://www.un.org/icty/ pathtc.htm.

bul edilməsi lehinə, yeddi dövlət, o cümlədən ABŞ, Çin, Hindistan, İsrail, İraq və s. Statutun əleyhinə səs verdi. 21 dövlət bitərəf mövqe tutdu. Səsvermədən sonra Azərbaycan Respublikası adından Yekun sənədini Azərbaycanın BMT-dəki nümayəndəsi Eldar Quliyev imzalamışdır.[5]

BMT-nin Baş katibi Kofi Annan Beynəlxalq Cinayət Məhkəməsi Statutunun qəbul edilməsini müvəffəqiyyətli addım kimi qeyd edərək göstərmişdir ki, "onun məqsədi — ümumdünya cəzasızlıq mədəniyyətinə son qoymaqdır. Elə bir mədəniyyətə ki, orada bir nəfəri öldürəni yüz min nəfəri öldürəndən daha asan məs'uliyyətə cəlb etmək olurdu".[6]

Qeyd etmək lazımdır ki, yekun sənədinin imzalanması dövlətlərin üzərinə heç bir hüquqi vəzifə qoymur. Statutun qüvvəyə minməsi üçün 60 dövlətin onu imzalayıb ratifikasiya sənədini BMT Baş katibinə təqdim etməsi tələb olunur. Altmışıncı dövlət ratifikasiya sənədini təqdim etdikdən 60 gün sonra Statut qüvvəyə minəcəkdir.

Statut qüvvəyə mindikdən sonra ona qoşulan dövlət üçün Statut ratifikasiya sənədinin depozitə verilməsindən 60 gün sonra qüvvəyə minir. Dövlət Statutun iştirakçısı olmaqla onun yurisdiksiyasını qəbul edir.

BCM-in Statutu preambula, 13 hissə və 128 maddədən ibarətdir. I hissə — Məhkəmənin tə'sisi (mad. 1-4); II hissə — Yurisdiksiya, icraata qəbul və hüququn tətbiqi (mad. 5-21); III hissə — Cinayət hüququnun ümumi prinsipləri (mad. 22-33); IV hissə — Məhkəmənin tərkibi və işlərinin idarə olunması(mad. 34-52); V hissə-İstintaq və cinayət mühakiməsi (mad. 53-61); VI hissə-Məhkəmə baxışı (mad. 62-76); VII hissə — Cəza tədbirləri (mad. 77-80); VIII hissə-Şikayət və yeni baxış (mad. 81-85); IX hissə — Beynəlxalq əməkdaşlıq və məhkəmə yardımı(mad. 86-102); X hissə — İcra (mad. 103-111); XI hissə — İştirakçı Dövlətlər Assambleyası (mad. 112-113); XII hissə — Maliyyələşmə (mad. 113-118); XIII hissə-Yekun müddəalar (mad. 119-128) adlanır.[7]

---

5 Rauf Quliyev., Samirə Məmmədova. Roma Konfransı və Beynəlxalq Cinayət Məhkəməsi // Hüquqi dövlət və qanun. 2000. № 3 s. 41.

6 Kofi Annan. Partnerships for Clobal Community. Annual Report on the Work of the Organization 1998. United Nations.1999.p 63-64.

7 Вах.Дипломатическая конференция полномочных представителей под эгидой Организации Объединенных Наций по учреждения международного уголовного суда. Римский Статут Международного Уголовного Суда. ООН, 1998.A/CONF.183/9.

Statuta əsasən BCM beynəlxalq hüququn müstəqil subyektidir, yə'ni BMT və beynəlxalq hüququn digər subyektləri ilə münasibətlərini beynəlxalq münasibətlərin bərabər hüquqlu subyekti kimi müqavilələr əsasında qurur. Məhkəmə Haaqada (Niderland) yerləşəcək. Məhkəmə üzv dövlətlərin hər hansı birinin ərazisində, xüsusi saziş əsasında isə istənilən dövlətin ərazisində funksiya və səlahiyyətlərini həyata keçirə bilər.

2. Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası

Yurisdiksiya (lat. jurisdictio—mühakimə icraatı, mühakimə etmə) həm məhkəmə aidiyyəti, mühakimə etmək hüququ, hüquqi məsələləri həll etmək, həm də dövlət orqanının səlahiyyətinin şamil edildiyi hüquq sahəsini bildirir.[8] BCM-in yurisdiksiyası dedikdə, bu orqanın Statutu ilə müəyyən edilmiş səlahiyyətlərinə müvafiq olaraq işlərə baxmaq və onları həll etmək hüququ başa düşülür.

BCM-in yurisdiksiyasına aşağıdakı cinayətlər aiddir:

1. Genosid cinayəti;
2. Bəşəriyyətə qarşı cinayətlər;
3. Müharibə cinayətləri;
4. Təcavüz cinayətləri.

Beynəlxalq Hüquq Komissiyası ümumi beynəlxalq hüquq üzrə göstərilən cinayətlərdən əlavə dövlətlərin müqavilələrə müvafiq olaraq müəyyən etdikləri cinayətləri də layihədə məhkəmənin yurisdiksiyasına şamil etmişdi. Lakin Dipomatik Konfransda dövlətlərin nümayəndələri bu təklifi rədd etdilər.[9] Statutun 6-cı maddəsində genosid, 7-ci maddəsində bəşəriyyətə qarşı cinayətlər, 8-ci maddəsində müharibə cinayətlərinin geniş tərkibi verilmişdir.

Statutun məqsədlərinə görə, "genosid" hər hansı milli, etnik, irqi və ya dini qrupu qəsdən tamamilə və ya qismən məhv etməyə yönəlmiş aşağıdakı hərəkətlərdən birini ifadə edir:

a) bu qrupun üzvlərinin öldürülməsi;

---

8 Словарь иностранных слов. М., Русский язык. 1985. с. 597.

9 Уильям Шабас. Международный уголовный суд: исторический шаг в деле борьбы с безнаказанностью // Московский журнал международного права. 4/1999/36. с.16

b) bu qrupun üzvlərinə ciddi bədən xəsarətləri, yaxud əqli pozğunluq yetirilməsi;

v) bu qrupun üzvləri üçün qəsdən onun tam və ya qismən fiziki məhvinə yönəlmiş həyat şəraitinin yaradılması;

q) bu qruplar arasında uşaq doğumunun qarşısının alınmasına yönəlmiş tədbirlərin görülməsi;

ğ) uşaqların zorla bir insan qrupundan digərinə verilməsi.

Göründüyü kimi 9 dekabr 1948-ci ildə Baş Məclis tərəfindən qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və ona görə cəza haqqında" Konvensiyada təsbitini tapmış anlayışla Statutda verilmiş anlayış arasında fərq yoxdur. Konvensiyanın 3-cü maddəsində əlavə olaraq nəzərdə tutulur ki, "aşağıdakı əməllər cəzalandırılır:

1) genosid;

2) genosid törətmək məqsədilə sui-qəsd;

3) genosidə birbaşa və açıq təhrikçilik;

4) genosidə cəhd;

5) genosiddə iştirak etmək".

Konvensiyanın müddəalarına əsasən sadalanan əməllərdən hər hansı birini törətmiş şəxslər vəzifə mövqeyindən asılı olmayaraq cəzalandırılmalıdırlar.[10]

Bəşəriyyətə qarşı cinayətə aid olan əməllər ancaq onlar "geniş miqyasda və hər hansı mülki şəxslərə qarşı törədilmiş" olduqda Məhkəmənin yurisdiksiyasına düşür. Həmin cinayətlərlə bağlı hüququn inkişafında irəliyə doğru əhəmiyyətli bir addım atılmışdır. Belə ki, Nürnberq, Yuqoslaviya Beynəlxalq Tribunalları Nizamnaməsində həmin cinayətlərin silahlı münaqişələr zamanı törədilməsi cinayətin tərkibinin yaranması üçün əsas şərtlərdən biri hesab olunurdu. Statutda isə bəşəriyyətə qarşı cinayətlərin tərkibinin yaranması üçün onların silahlı münaqişələr zamanı törədilməsi zəruri deyildir. Statutun 7-ci maddəsində göstərilir ki:

"1. Bu Statutun məqsədlərinə görə, "bəşəriyyət əleyhinə cinayət" əgər bu cür hücum qəsdən törədilərsə, hər hansı mülki şəxslərə qarşı genişmiqyaslı və müntəzəm hücumlar çərçivəsində həyata keçirilən aşağıdakı hərəkətlərdən birini ifadə edir:

a) adam öldürmə;

---

10 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı. "Azərbaycan". 1998. s. 110-111.

b) tələf etmə;

v) köləyə çevirmə;

q) deportasiya, yaxud əhalinin yerini məcburi dəyişdirmə;

ğ) həbsxanaya salma, yaxud beynəlxalq hüququn əsas normalarına zidd olaraq fiziki azadlıqlardan başqa cür amansız məhrum etmə;

d) işgəncələr;

e) zorlama, seksual kölelik rəftarı, fahişəliyə məcbur etmə, məcburi hamiləlik, məcburi sterilizasiya (dölsüzləşdirmə), yaxud hər hansı digər eyni ağır formada seksual zorakılıq;

ə) həmin bənddə göstərilən hər hansı əməllərlə, yaxud Məhkəmənin yurisdiksiyası altına düşən başqa cinayətlərlə əlaqədar hər hansı eyniləşmiş qrup, yaxud birliyi siyasi, irqi, milli, etnik, mədəni, dini, 3-cü bənddə müəyyən olunduğu kimi gender, yaxud beynəlxalq hüquqa müvafiq olaraq hər yerdə yolverilməz hesab edilən başqa motivlərlə tə'qib etmə;

j) adamların məcburi itkin düşməsi;

z) aparteid cinayəti;

i) qəsdən güclü iztirablara səbəb olma və yaxud ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər anoloji xarakterli qeyri-insani hərəkətlər.

2. Birinci bəndin məqsədlərinə görə:

a) "Hər-hansı mülki şəxsə hücum" dövlətin və ya təşkilatın bu cür hücumun törədilməsinə yönəlmiş siyasətinin həyata keçirilməsi və ya bu cür siyasətə kömək məqsədilə hər hansı mülki şəxsə tətbiq olunan 1-ci bənddə göstərilən əməllərin çoxsayda törədilməsi ilə əlaqədar davamlı davranışını bildirir;

b) "tələf etmə" qəsdən əhalinin müəyyən hissəsini məhv etməyə yönəlmiş həyat şəraitinin yaradılması, xüsusən ərzaq məhsulları və dərman əldə etməkdən məhrum etməni əhatə edir;

v) "köləyə çevirmə" insanlara münasibətdə hər hansı səlahiyyətin və ya mülkiyyət hüququ ilə bağlı bütün səlahiyyətlərin həyata keçirilməsini, o cümlədən bu səlahiyyətlərin insanlarla, xüsusən qadın və uşaqlarla ticarət zamanı həyata keçirilməsini əhatə edir;

q) "deportasiya, yaxud əhalinin yerinin məcburi dəyişdirilməsi", köçürmə, yaxud digər məcburi tədbirlərin obyekti olan şəxslərin qanuni yaşadıqları rayondan beynəlxalq hüquqla yol verilən əsaslar olmadan zorla köçürülməsini ifadə edir;

d) "işgəncə" həbsdə, yaxud ittihamçının nəzarəti altında olan şəxsə

qəsdən fiziki, yaxud psixi iztirab, yaxud güclü ağrı verməyi əhatə edir; lakin yalnız qanuni sanksiya nəticəsində meydana çıxan, bu sanksiyalardan ayrılmaz olan, yaxud təsadüfən meydana gələn iztirab və ağrılar işgəncə hesab edilmir.

e) "məcburi hamiləlik" hər hansı əhalinin etnik tərkibinin dəyişdirilməsi, yaxud beynəlxalq hüququn digər ciddi pozuntularını törətmək məqsədi ilə məcburi qaydada hamilə olmuş hər-hansı qadının qeyri-qanuni azadlıqdan məhrum edilməsini ifadə edir. Bu anlayış heç bir halda hamiləliklə bağlı milli qanunvericiliyə zidd təfsir olunmamalıdır;

ə) "tə'qib" hər-hansı qrupa və birliyə mənsubiyyət əlamətinə görə beynəlxalq hüquqa zidd olaraq əsas hüquqlardan qəsdən və ciddi məhrum etmə deməkdir;

j) "aparteid cinayəti", bir irqi qrupun digər irqi qrup, yaxud qruplar üzərində ağalığı və sistematik zülm rejiminin institutlaşdırılması konteksində və bu cür rejimi saxlamaq məqsədi ilə törədilmiş, öz xarakterinə görə 1-ci bənddə göstərilənlərlə anoloji olan qeyri-insani hərəkətləri ifadə edir;

z) "adamların məcburi itkin düşməsi" — adamları uzun müddət ərzində qanuni müdafiədən məhrum etmək məqsədi ilə sonradan bu cür azadlıqdan məhrum etməni e'tiraf etməkdən, yaxud bu adamların taleyi və olduğu yer haqqında mə'lumat verməkdən boyun qaçırmaqla dövlət, yaxud siyasi təşkilat tərəfindən, yaxud onların icazəsi və yardımı, yaxud razılığı ilə həbs edilməsi, tutulması və ya oğurlanmasını ifadə edir.

3. Bu Statutun məqsədlərinə görə "gender" terminin cəmiyyət konteksində hər iki cinsə — qadın və kişiyə aid olması anlaşılır. "Gender" termini yuxarıda göstəriləndən fərqli hər-hansı bir mə'nanı ifadə etmir.

Statuta əsasən hərbi cinayətlər "plan və ya siyasət çərçivəsində yaxud belə cinayətlər geniş miqyasda törədildikdə" məhkəmənin yurisdiksiyasına düşür. Həmin cinayətlər dörd kateqoriyaya ayrılır. İlk iki kateqoriya beynəlxalq silahlı münaqişələr zamanı törədilən cinayətlər, digər iki kateqoriya isə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı törədilən cinayətlərdir. Qeyri-beynəlxalq silahlı münaqişələr zamanı törədilən əməllərin də hərbi cinayət kimi nəzərdə tutulması hüquqda irəliləyiş kimi qiymətləndirilməlidir. Statutda hərbi cinayət kimi nəzərdə tutulmuş əməllər əsasən Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollarda ciddi pozuntular kimi ifadəsini tapmış əməllərdir. Eyni za-

manda beynəlxalq humanitar hüquqda ciddi pozuntu hesab edilməmiş əməllər də hərbi cinayətlərə şamil edilmişdir. Məsələn, silahlı qüvvələrə uşaqları cəlb etmə, işğalçı dövlətin işğal etdiyi ərazilərdə öz vətəndaşlarını yerləşdirməsi, işğal edilmiş ərazidə yaşayan əhalinin həmin ərazi hüdudunda, ya da onun sərhəddindən kənara deportasiya edilməsi və s. hərbi cinayət kimi ilk dəfə beynəlxalq hüquqi sənədlərə daxil edilmişdir. Lakin kimyəvi, bakterioloji, nüvə silahlarının tətbiqinin, yaxud artiq əzab yetirən silahlara ümumi qadağanın, hərbi əsirlərin və mülki şəxslərin repatriasiyasının əsassız gecikdirilməsinin, mülki əhali və mülki obyektlərə ziyan yetirən qeyri-seçim xarakterli hücumun Statutda cinayət kimi ifadəsini tapmaması təəssüf doğurur.

Qeyd olunduğu kimi qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı törədilmiş hərbi cinayətlər də Məhkəmənin yurisdiksiyasına aid edilmişdir. Eyni zamanda göstərilir ki, bu müddəa hökumətin dövlətdə hüquq və qaydanı qorumaq və ya bərpa etmək sahəsində cavabdehliyinə və ya dövlətin vahidliyi və bütövlüyünü bütün qanuni vasitələrlə müdafiə etməsinə xələl gətirmir. Statutun 8-ci maddəsinə əsasən:

"1. Məhkəmə hərbi cinayətlərə münasibətdə, xüsusən onlar plan yaxud siyasət çərçivəsində törədildikdə və ya bu cür cinayətlərin geniş-miqyaslı törədilməsi zamanı yurisdiksiyaya malikdir.

2. Bu Statutun məqsədlərinə görə, müharibə cinayətləri aşağıdakıları ifadə edir:

a) 12 avqust 1949-cu il Cenevrə Konvensiyasının ciddi şəkildə pozulması, o cümlədən Cenevrə Konvensiyalarının müddəalarına uyğun olaraq mühafizə olunan şəxslərə və əmlaka qarşı aşağıdakı hərəkətlərdən biri:

1) qəsdən adam öldürmə;

2) bioloji eksperimentlər də daxil olmaqla işgəncələr, yaxud qeyri-insani rəftar;

3) qəsdən güclü iztirablar, ciddi bədən xəsarətləri, yaxud sağlamlığa ziyan yetirmə;

4) hərbi zərurətlə əlaqədar olmayan əmlakın qeyri-qanuni, mə'nasız və genişmiqyaslı məhvi və mənimsənilməsi;

5) hərbi əsir, yaxud digər mühafizə olunan şəxsi düşmən dövlətin silahlı qüvvələrində xidmətə məcbur etmə;

6) qəsdən hərbi əsir, yaxud digər mühafizə olunan şəxsi ədalətli və normal mühakimə icraatı hüququndan məhrum etmə;

7) qeyri-qanuni deportasiya, yerdəyişmə, yaxud azadlıqdan qeyri-qa-

nuni məhrum etmə;

8) girovlar götürmə.

b) beynəlxalq hüquq çərçivəsində təsbit edilmiş, beynəlxalq silahlı münaqişələrdə tətbiq edilən qanun və adətlərin digər ciddi pozuntuları, o cümlədən aşağıdakı hərəkətlərdən hər hansı biri:

1) qəsdən ümumiyyətlə mülki əhaliyə və yaxud bilavasitə hərbi əməliyyatlarda iştirak etməyən ayrı-ayrı şəxslərə hücum etmə;

2) qəsdən mülki obyektlərə, yə'ni hərbi məqsədlər daşımayan obyektlərə hücum etmə;

3) qəsdən silahlı münaqişələrə dair beynəlxalq hüquq üzrə mülki şəxslər və mülki obyektlərin istifadə etdikləri müdafiəyə malik olduqları müddətdə humanitar yardım göstərən, yaxud Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, sülhün qorunması missiyası ilə fəaliyyət göstərən şəxsi hey'ətə, obyektlərə, materiallara, bölmələrə, yaxud nəqliyyət vasitələrinə zərbə endirmək;

4) konkret və bilavasitə gözlənilən ümumi hərbi üstünlüklə açıq-aşkar mütənasib olmadığı halda, bu cür hücumun mülki şəxslərin təsadüfi məhvinə, yaxud şikəst olmasına, yaxud mülki obyektlərə ziyan vurulmasına, yaxud ətraf mühitə genişmiqyaslı, uzunmüddətli və ciddi ziyan vurulmasına səbəb olacağı mə'lum olduqda, qəsdən bu cür hücum etmək;

5) müdafiəsiz və hərbi məqsədlər daşımayan şəhər, kənd, yaşayış yerləri və binalara hücum, yaxud onları hər hansı vasitələrlə atəşə tutmaq;

6) silahı yerə qoymuş, yaxud artıq müdafiə vasitələrinə malik olmayan, qeyd-şərtsiz təslim olmuş kombatantı öldürmək və ya yaralamaq;

7) parlamentar bayraqdan, milli bayraqdan, düşmən dövlətin, yaxud BMT-nin forma və hərbi fərqlənmə nişanları, habelə Cenevrə Konvensiyaları ilə müəyyən olunmuş fərqlənmə nişanlarından adamların məhvinə gətirib çıxaran və ya onların fiziki şikəstliyinə səbəb olan qeyri-düzgün istifadə etmək;

8) işğalçı dövlət tərəfindən düzgün və ya yanaqı surətdə öz mülki əhalisinin bir hissəsinin işğal edilmiş əraziyə köçürülməsi, yaxud işğal olunmuş ərazinin əhalisinin bir hissəsinin bu ərazinin sərhədləri daxilində və ya onun sərhədlərindən kənara deportasiya etmək, yaxud köçürmək;

9) qəsdən hərbi məqsədlər daşımayan dini, təhsil, incəsənət, elm və yaxud xeyriyyəçilik məqsədləri üçün tə'yin olunmuş binalara, tarixi abidələrə, xəstəxanalara, yaxud xəstələrin və yaralıların cəmləşdikləri

yerlərə zərbələr endirmək;

10) düşmən tərəfin hakimiyyəti altına düşən şəxslərin fiziki şikəstliyinə səbəb olan, yaxud onların üzərində müvafiq şəxsin tibbi, diş müalicəsi, yaxud xəstəxana müalicəsi zərurəti ilə əsaslandırılmamış və maraqlarına uyğun gəlməyən ölümə səbəb olan, yaxud bu şəxsin və ya şəxslərin sağlamlığına ciddi təhlükə yaradan hər hansı tibbi və elmi eksperimentlər aparmaq;

11) düşmən millətə və ya orduya mənsub olan şəxsləri xəyanətkarlıqla öldürmək və ya yaralamaq;

12) aman verilməyəcəyi barədə bəyanət vermək;

13) bu cür məhvetmə və ya zəbt etmənin hərbi zərurətin qəti tələbindən irəli gəldiyi hallar istisna olmaqla, düşmənin əmlakını məhv etmək və ya zəbt etmək;

14) düşmən tərəfin vətəndaşlarının məhkəmədə hüquq və iddialarını ləğv edilmiş, dayandırılmış, yaxud yolverilməz e'lan etmək;

15) hətta müharibə başlanana qədər döyüşən tərəflərdə hərbi xidmətdə olduğu halda belə, düşmən tərəfin vətəndaşlarını öz ölkələrinə qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur etmək;

16) hətta hücumla alınsa belə, şəhər və ya yaşayış məntəqəsini qarət etmək;

17) zəhər və ya zəhərlənmiş silah tətbiq etmək;

18) boğucu, zəhərləyici və ya digər qazlar və istənilən anoloji maddə, material və vasitələri tətbiq etmək;

19) sərt üzlüyü bütün özəyi örtməyən, yaxud kəsikləri olan örtüklü güllələr tipli asan parçalanan, yaxud insan bədənində yastılaşan güllələrdən istifadə etmək;

20) bu silahlar, bu döyüş sursatları, bu texnika və bu müharibənin aparılma qaydası ümumi qadağanın predmetidirsə və 121-ci və 123-cü maddələrdə öz əksini tapmış müddalara uyğun olaraq, düzəlişlər yolu ilə bu Statuta əlavələrə daxil edilmişdirsə, həddən artıq böyük ziyana və ya lazımsız iztirablara səbəb olan yaxud öz mahiyyətinə görə silahlı münaqişələr haqqında beynəlxalq hüquq normalarının pozulması xarakterli olan silah, döyüş sursatları və texnika, habelə müharibənin aparılma qaydalarından istifadə etmək;

21) insan ləyaqətinin alçaldılması, o cümlədən təhqiredici və alçaldıcı rəftar;

22) özündə Cenevrə Konvensiyalarının kobud surətdə pozulmasını ifadə edən zorlama, seksual köle kimi istifadə, fahişəliyə məcbur etmə, Statutun 7-ci maddəsinin 2-ci (f) bəndində müəyyən edildiyi kimi

məcburi hamiləlik, məcburi sterilizasiya və bütün digər növ seksual zorakılıqlar;

23) mülki şəxslərdən və ya digər mühafizə altında olan şəxslərdən müəyyən məntəqələrin, rayonların, yaxud silahlı qüvvələrin hərbi əməliyyatlardan müdafiəsi üçün istifadə etmək;

24) Cenevrə Konvensiyaları ilə müəyyən olunmuş fərqləndirici nişanlardan beynəlxalq hüquqa uyğun olaraq istifadə edən binalara, materiallara, tibbi müəssisələrə və nəqliyyat vasitələrinə, habelə tibbi hey'ətə qəsdən zərbə endirmək;

25) Cenevrə Konvensiyaları ilə müəyyən edilmiş qaydada kömək çatdırılmasına qəsdən maneçiliklər yaradılması da daxil olmaqla, müharibənin aparılması vasitəsi kimi yaşayış üçün zəruri olan predmetlərdən qəsdən məhrum etmə yolu ilə mülki əhalini aclığa düçar edən hərəkətlər etmək;

26) 15 yaşınadək olan uşaqların milli silahlı qüvvələrin tərkibinə toplanılması və ya cəlb edilməsi, yaxud onlardan döyüş əməliyyatlarında aktiv iştirak üçün istifadə etmək;

v) qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının dördü üçün də eyni olan 3-cü maddənin kobud şəkildə pozulması, o cümlədən: silahı yerə qoymuş hərbi qulluqçular və xəstələr, yaralanma, həbsdə olma, yaxud hər hansı digər səbəbdən sıradan çıxmış şəxslər də daxil olmaqla, hərbi əməliyyatlarda aktiv iştirak etməyən şəxslərə qarşı törədilmiş aşağıdakı hərəkətlərdən hər hansı biri:

1) həyatına və şəxsiyyətinə qəsd, o cümlədən hər hansı formada qətlə yetirmə, şikəst etmə, qəddarcasına davranma və işgəncə vermək;

2) insan ləyaqətinin alçaldılması, o cümlədən təhqiredici və alçaldıcı rəftar;

3) girovlar götürmək;

4) məcburiliyi tanınmış məhkəmə tə'minatlarına riayət etməklə, məhkəmə tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilən ilkin məhkəmə istintaqı olmadan hökmlər çıxarmaq və onları icra etmək;

q) 2 (s) bəndi qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə tətbiq edilir və buna görə də nizamsızlıq, ayrı-ayrı və təsadüfi zorakılıq aktları və digər anoloji xarakterli daxili qaydaların pozulması və gərginliklərin yaranması hallarına tətbiq edilmir.

ğ) beynəlxalq hüquq çərçivəsində müəyyən edilmiş, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə tətbiq olunan qayda və adətlərin

digər kobud pozuntuları, o cümlədən:

1) qəsdən ümumiyyətlə mülki əhaliyə zərbə endirmək, habelə qəsdən hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmək;

2) qəsdən Cenevrə Konvensiyaları ilə müəyyən olunmuş fərqlədirici nişanlardan istifadə edən binalara, materiallara, tibbi müəssisələrə və nəqliyyat vasitələrinə, habelə tibbi hey'ətə zərbə endirmək;

3) qəsdən silahlı münaqişələrdə beynəlxalq hüquq üzrə mülki şəxslər və mülki obyektlərin istifadə etdikləri müdafiəyə malik olduqları müddətdə humanitar yardım göstərən, yaxud Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, sülhün qorunması missiyası ilə fəaliyyət göstərən hey'ətə, obyektlərə, materiallara, bölmələrə, yaxud nəqliyyat vasitələrinə zərbə endirmək;

4) qəsdən hərbi məqsədlər daşımayan dini, təhsil, incəsənət, elm və yaxud xeyriyyəçilik məqsədləri üçün tə'yin olunmuş binalara, tarixi abidələrə, xəstəxanalara və xəstələrin və yaralıların cəmləşdikləri yerlərə zərbələr endirmək;

5) hətta onlar hücumla alınmışdırsa belə, şəhərləri və yaşayış məntəqələrini qarət etmək;

6) o cümlədən, hər 4 Cenevrə Konvensiyasının 3-cü maddəsinin kobud surətdə pozulması olan zorlama, seksual kölə kimi istifadə etmə, fahişəliyə məcbur etmə, 7-ci maddənin 2-ci (1) bəndində müəyyən edilmiş qaydada məcburi hamiləlik, məcburi sterilizasiya və bütün digər növ seksual zorakılıqlar;

7) 15 yaşına çatmamış uşaqları silahlı qüvvələrin, yaxud qrupların tərkibinə toplamaq və ya cəlb etmək, yaxud onları döyüş əməliyyatlarında aktiv iştirak etmək üçün istifadə etmək;

8) əgər müvafiq mülki əhalinin təhlükəsizliyi mülahizələri və hərbi xarakterli qaçılmaz zərurət bunu tələb etmirsə, münaqişə ilə bağlı səbəblərə görə mülki əhalinin köçürülməsi barədə qərar vermək;

9) düşmənin kombatantını xəyanətkarcasına öldürmək, yaxud yaralamaq;

10) aman olmayacağı barədə bəyanat vermək;

11) münaqişədə olan digər tərəfin onun hakimiyyəti altında olan şəxslərin fiziki şikəstliyinə səbəb olma, yaxud onlar üzərində tibbi, diş müalicəsi, yaxud xəstəxana müalicəsi zərurəti ilə əsaslandırılmayan və onun maraqları ilə uyğun gəlməyən ölümə səbəb olan, yaxud bu şəxsin

və ya şəxslərin sağlamlığına ciddi təhlükə yaradan hər-hansı növ tibbi və elmi eksperimentlərin keçirilməsi;

12) bu cür məhvetmə və ya zəbt etmənin hərbi zərurətin qəti diktəsindən irəli gəldiyi hallar istisna olmaqla, düşmənin əmlakının məhv edilməsi və ya zəbt edilməsi.

d) 2 (e) bəndi qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə tətbiq edilir və buna görə də nizamsızlıq, ayrı-ayrı və təsadüfi zorakılıq aktları və digər anoloji xarakterli daxili qaydaların pozulması və gərginliklərin yaradılması hallarına tətbiq edilmir. O, bir iştirakçı dövlətin ərazisində baş verən hərbi münaqişələrə münasibətdə, hakimiyyət orqanları ilə mütəşəkkil silahlı qruplar arasında və ya bu cür qrupların öz aralarında uzunmüddətli hərbi münaqişə getdiyi hallarda tətbiq edilir.

3(s) və 2(d) bəndlərində heç bir şey hökumətin dövlətdə qanun və qaydanın bərpa edilməsi və qorunmasına və ya dövlətin vahidliyi və ərazi bütövlüyünün bütün qanuni vasitələrlə müdafiəsinə görə məs'uliyyətinə toxunmur".

Dövlət Statutun iştirakçısı olmaqla onun yurisdiksiyasını tanıyır. Statutun 124-cü keçid maddəsinə əsasən Statuta qoşulmuş dövlət onun ərazisində və ya vətəndaşları tərəfindən törədilmiş müharibə cinayətləri üzrə BCM-in yurisdiksiyasını Statutun həmin dövlət üçün qüvvəyə mindiyi vaxtdan 7 il müddətinə qəbul etmədiyini bəyan edə bilər. Bu keçid müddəası Fransanın tələbi ilə Statuta salınmışdır. Beləliklə, müharibə cinayətləri üçün digərlərinə nisbətən fərqli rejim müəyyən edilmişdir. Mari — Klod Roberj bu cəhəti ciddi mə'yusluqla qəbul edir.[11]

A. Kryukov isə belə hesab edir ki, dövlətlərin Statutun 124-cü maddəsinə istinad etməsi müharibə cinayətlərinin qarşısının alınmasının beynəlxalq mexanizminin səmərəliliyini azaldacaqdır. Lakin dövlətin BCM-in yurisdiksiyasını tanıyıb-tanımamasından asılı olmayaraq, o, Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar əsasında üzərinə götürdüyü öhdəliyə müvafiq olaraq daxili qanunvericilikdə ciddi pozuntuların qarşısının cinayət hüquqi vasitələrlə alınmasını tam tə'min etməlidir. Bu da müharibə cinayətlərinə münasibətdə Statuta qoşular-

11 Мари Клод Роберж. Новый Международный Уголовный Суд. Предварительная оценка. // Московский журнал международного права. Специальный выпуск. декабр 1999.с.135.

kən qeyd-şərt edilməsinin əhəmiyyətsizliyinə dəlalət edir.[12] U.Şabas da bu xüsusatın çox da böyük geri çəkilmə olmadığını qeyd edir. O, göstərir ki, müharibə cinayətləri beynəlxalq ittihamçının diqqətini cəlb edəcək dərəcədə ciddi olduqda onlar bəşəriyyətə qarşı cinayət kimi tövsif oluna bilər. Ona görə də, Statutun 124-cü maddəsinə istinad edib, müharibə cinayətləri üzərində yurisdiksiyanın tanınmaması həmin cinayətləri törətmiş şəxslərin cinayət məs'uliyyətindən kənarda qalması ehtimalını azaldır.[13]

Təcavüz cinayətləri Statuta daxil edilsə də, onun anlayışı müəyyənləşdirilməmişdir. Qərara alınmışdır ki, təcavüz cinayətinin məzmununu müəyyən edən müddəa müvafiq qaydada qəbul edildikdən sonra Məhkəmə həmin cinayətlə əlaqədar yurisdiksiyanı həyata keçirəcəkdir. Təcavüz cinayətinin anlayışının müəyyən edilməsi məsələsi Beynəlxalq Hüquq Komissiyasında da uzun müddət müzakirə olunmuş, lakin göründüyü kimi burada hələlik tam yekdillik əldə edilməmişdir.[14] Əslində təcavüzün anlayışı BMT Baş Məclisi tərəfindən müəyyənləşdirilib.[15]

1991-ci ildə isə təcavüz anlayışı cinayət kimi BMT-nin Beynəlxalq Hüquq Komissiyasının 43-cü sessiyasında dördüncü oxunuşda qəbul edilmiş "Sülhə və bəşəriyyətin təhlükəsizliyinə qarşı cinayət məcəlləsi layihəsi"nin 15-ci maddəsinə daxil edilmişdir. Düzdür, təcavüzün cinayət kimi məcəlləyə daxil edilməsi də mübahisəsiz keçməmişdir.[16]

15-ci maddəyə əsasən təcavüz bir dövlətin digər dövlətin suverenliyi, ərazi toxunulmazlığı və siyasi müstəqilliyinə qarşı və ya BMT Nizamnaməsinə uyğun olmayan hər hansı başqa tərzdə silahlı qüvvə tət-

---

12 Арчил Крюков. Пресечение военных преступлений на международном уровне. // Имплементация международного права на национальном уровне. Материалы семинара. Баку. 1999. с. 94-95.

13 Уильям Шабас. Международный уголовный суд: исторический шаг в деле борьбы с безнаказанностью // Московский журнал международного права. 4/1999/36. С.20.

14 Вах. Ежегодник Комиссии Международного права 1991. т. 1. Краткие отчеты о заседаниях сорок третьей сессии 29 апреля-19 июня 1991 года. ООН. Нью-Йорк,1993.

15 Определение агрессии. Резолюция, принятая XXIX сессией Генеральной Ассамблеи ООН, 14 декабря 1974 г. // Действующее международное право. Т.2. М., 1997.с.199-201.

16 Ежегодник Комиссии Международного Права.1991. т. 1. Краткие отчеты о заседаниях. Сорок третьей сессии 29 апреля-19 июня 1991 г. ООН. Нью-Йорк. 1993. с. 447-456.

biq etməsidir. Nizamnaməni pozaraq dövlətin birinci olaraq silahlı qüvvə tətbiq etməsi prima facie təcavüz aktına sübutdur. Təcavüz aktının mövcud olub-olmamasını müəyyən edərkən Təhlükəsizlik Şurası silahlı hücumun və onun nəticələrinin kifayət qədər ciddi xarakter daşımamasına görə onu təcavüz aktı kimi qiymətləndirməyə bilər.

Həmin maddədə, həmçinin nəzərdə tutulur ki, yuxarıda göstərilən müddəalara müavafiq olaraq müharibənin e'lan edilməsindən asılı olmayaraq aşağıdakı hərəkətlərdən hər hansı biri təcavüz aktı kimi tövsif ediləcəkdir:

a) dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisinə müdaxiləsi və ya hücumu, yaxud bu müdaxilə və ya hücumun nəticəsi olan və necə müvəqqəti xarakter daşımasından asılı olmayaraq hər hansı işğal və ya onun bir hissəsinin bu cür ilhaqı;

b) dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisini bombardman etməsi və ya dövlətin başqa dövlətin ərazisinə qarşı hər hansı silah tətbiq etməsi;

v) dövlətin liman və sahillərinin başqa dövlətin silahlı qüvvələri tərəfindən mühasirəsi;

q) dövlətin silahlı qüvvələrinin digər dövlətin quru, dəniz və hava qüvvələrinə, dəniz və ya hava donanmasına hücumu;

ğ) qəbul edən dövlətlə bağlanmış saziş əsasında başqa dövlətin ərazisində yerləşən bir dövlətin sazişdə nəzərdə tutulmuş şərtləri pozmaqla silahlı qüvvə tətbiq etməsi və sazişin qüvvədə olduğu müddət qurtardıqdan sonra bu cür ərazilərdə olmanın hər hansı formada davam etdirilməsi;

d) başqa dövlətin sərəncamına verilmiş ərazisindən həmin dövlət tərəfindən üçüncü dövlətə qarşı təcavüz aktının törədilməsi üçün istifadə edilməsinə yol verilməsi ilə əlaqədar dövlətin fəaliyyəti (fəaliyyətsizliyi) ;

j) başqa dövlətə qarşı yuxarıda sadalanan aktlara bərabər ciddi xarakter daşıyan silahlı qüvvə tətbiqi aktını həyata keçirən silahlı banda, qrup, qeyri-nizami qüvvələr və ya muzdlu əsgərlərin dövlət adından və ya dövlət tərəfindən göndərilməsi və ya dövlətin bu cür hərəkətlərdə mühüm iştirakı;

z) Təhlükəsizlik Şurasının Nizamnamə müddəalarına müvafiq olaraq təcavüz aktı kimi tövsif etdiyi hər hansı əməl.[17]

---

17 Сборник важнейших документов по международному праву. Часть I. Общая. М., 1996. С.445-446.

Təcavüz anlayışının həm siyasi, həm də beynəlxalq cinayət aspektində müəyyənləşdirilməsinə baxmayaraq, həmin anlayışlarla bağlı mübahisəli məqamlar həll edilməmiş qalır.[18]

Fikrimizcə, mübahisənin mahiyyəti təcavüzün anlayışında deyil, onun müəyyən edilməsinin müstəsna olaraq Təhlükəsizlik Şurasının səlahiyyətinə aid edilməsindədir. Əgər təcavüz faktını Təhlükəsizlik Şurası müəyyən edəcəkdirsə, onda Məhkəmənin müstəqillik prinsipi pozulur. Təhlükəsizlik Şurasının daimi üzvləri olan dövlətlər isə bu faktın BCM tərəfindən müəyyən edilməsi ilə razılaşmaq, yə'ni özlərinin müstəsna səlahiyyətlərindən geri çəkilmək istəmirlər.

Cinayətin elementləri Məhkəmənin genosid, bəşəriyyətə qarşı cinayətlər və müharibə cinayətlərini nəzərdə tutan maddələrinin təfsiri və tətbiqinə kömək edir. Onlar İştirakçı Dövlətlərin Assambleyasının üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Cinayətin Elementlərinə düzəlişləri aşağıdakılar təklif edə bilərlər. a) hər hansı iştirakçı dövlət; b) mütləq səs çoxluğu ilə qərar qəbul etmiş hakimlər; s) Prokuror.

Bu cür düzəlişlər iştirakçı dövlətlərin Assambleyasının üzvlərinin 2/3 səs çoxluğu ilə qəbul edilir. Cinayətin Elementləri və onlara düzəlişlər bu Statuta uyğun olur.

Beynəlxalq hüquqda hamılıqla qəbuledilmiş dövlət suverenliyi prinsipinə əsasən hər bir dövlət öz ərazisində məhkəmə yurisdiksiyasını həyata keçirməkdə sərbəstdir və onun bu hüququ heç bir dövlət və təşkilat tərəfindən məhdudlaşdırıla bilməz. Bu prinsipin mahiyyəti BCM-də öz ifadəsini tapmışdır. Belə ki, Statutda nəzərdə tutulmuş cinayətlər üzrə mühakimə icraatını həyata keçirmək vəzifəsi ilk növbədə dövlətlərin üzərinə düşür. Bu o deməkdir ki, BCM yalnız dövlətlərin mühakimə edə bilmədikləri və ya mühakimə etmək istəmədikləri şəxslərin törətdikləri cinayət işlərinə baxacaq. Yə'ni, Məhkəmə "tamamlama" prinsipi əsasında fəaliyyət göstərəcəkdir. Bu prinsip insan hüquqları sahəsində qəbul olunmuş müqavilələrin ruhuna bir qədər yaxındır. Həmin müqavilələrə əsasən beynəlxalq orqanlar yalnız müdafiənin daxili hüquqi vasitələri tükəndikdən sonra ayrı-ayrı vətəndaşlardan şikayət

18 Bax: İbayev V. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn jus cogens prinsipləri prizmasında. Bakı. 1999. s. 22-42.

qəbul edə bilər.[19] Bir çox hallarda milli məhkəmələr siyasi hakimiyyətin strukturlarında mühüm vəzifələr tutan vətəndaşlarını mühakimə etmək arzusunda olmur. Yaxud silahlı münaqişə və ya hər hansı digər səbəbdən ölkənin milli hüquq sisteminin dağılması və fəaliyyət göstərmək imkanında olmaması da mümkündür. Eyni zamanda milli məhkəmələr BCM-in yurisdiksiyasına düşən cinayətlər üzrə ayrı-ayrı şəxsləri cinayət məs'uliyyətindən qorumaq üçün saxta proseslər də keçirə bilər. Belə hallarda BCM tamamlayıcı mühakimə orqanı kimi yurisdiksiyasına aid olan cinayətlər üzrə mühakiməni həyata keçirəcəkdir. Göstərilənlərdən əlavə milli məhkəmələrdə keçirilən mühakimə prosesi qərəzsiz, müstəqil olmadıqda və ya beynəlxalq hüquq normaları ilə tanınmış qaydada keçirilmədikdə BCM öz yurisdiksiyasını başlaya bilər. Lakin dövlətin milli məhkəməsi törədilmiş cinayət üzrə müvafiq icraata başlayıbsa, BCM həmin cinayət üzrə yurisdiksiyanı icra edə bilməz. Bu cəhəti beynəlxalq cinayət mühakiməsi icraatında dövlətlərin suverenliyi prinsipinin gözlənilməsi nöqteyi-nəzərindən irəliyə doğru atılmış uğurlu addım hesab etmək olar. Belə ki, Yuqoslaviya və Ruanda ad hoc Beynəlxalq Cinayət Tribunallarının Nizamnamələrində tribunalın milli məhkəmələr üzərində üstünlüyü nəzərdə tutulmuşdur. Həmin tribunallar mühakimə icraatının istənilən mərhələsində rəsmi surətdə milli məhkəmələrdən işin onun yurisdiksiyasına verilməsini tələb edə bilər. Məsələn, Yuqoslaviya Beynəlxalq Tribunalı milli məhkəmə üzərində üstünlük prinsipinə əsaslanaraq Almaniya məhkəməsində icraata qəbul edilmiş Tadiçin işinin öz yurisdiksiyasına aid olmasına əsaslanıb icraatına götürmüşdü.[20]

Ruanda Beynəlxalq Tribunalının işində isə əks mövqe müşahidə olunmuşdur. Həmin Tribunal öz yurisdiksiyasına aid olan işin milli məhkəmənin icraatında olmasına e'tiraz etməyərək icraatının davam etdirilməsinə razılıq vermişdir.[21]

19 Факультативный протокол I к Международному Пакту о гражданских и политических правах от 19 декабря 1966 г. // Права человека. Сборник международных документов М., Юридическая литература.1998.с.44; Европейская Конвенция о защите прав человека и основных свобод от 4 ноября 1950 г.// Права человека.Сборник международных документов М., Юридическая литература.1998.с.75.

20 Prosecutor v. Dusko Tadic aka Dule (IT-94-1-AR72), August 10,1995.

21 Уильям Шабас. Международный уголовный суд: исторический шаг в деле борьбы с безнаказанностью // Московский журнал международного права. 4/1999/36. с.22.

Dövlətlər beynəlxalq hüquqa əsasən milli məhkəmələr vasitəsilə təkcə öz vətəndaşları olan hərbi cinayətkarları deyil, həmçinin onunla heç bir bağlılığı olmayan, lakin ərazisində olan cinayətkarları da mühakimə edə bilər. Hazırda "universal yurisdiksiya" adlanan bu prinsip geniş yayılmaqdadır və dövlətlərin cinayət qanunvericiliyində öz əksini tapır.

Ratione temporis yurisdiksiyasına əsasən BCM yalnız Statut qüvvəyə mindiyi tarixdən sonra törədilmiş cinayətlərə münasibətdə yurisdiksiyaya malikdir.

Hər hansı dövlət Statutun 12-ci maddəsinin 3-cü bəndinə əsasən bəyanət verməyibsə, Statut qüvvəyə mindikdən sonra ona qoşularsa, Məhkəmə yalnız Statutun müvafiq dövlət üçün qüvvəyə mindiyi andan sonra törədilmiş cinayətlər barəsində öz yurisdiksiyasını tətbiq edə bilər.

Statutun 12-ci maddəsinin 3-cü bəndində göstərilir ki, Məhkəmə yurisdiksiyasının Statutun iştirakçısı olmayan dövlət tərəfindən tanınması tələb edilirsə, həmin dövlət Katibə bəyanat təqdim etməklə müvafiq cinayət barəsində Məhkəmənin yurisdiksiyasının həyata keçirilməsini tanıya bilər.

Dövlət həmin Statutun iştirakçısı olmaqla 5-ci maddədə qeyd edilmiş cinayətlərə münasibətdə Məhkəmənin yurisdiksiyasını tanıyır.

BCM Statutunda təsbit edilmiş cinayətlər üzrə yurisdiksiyanı aşağıdakı hallarda icra edə bilər:

1. Statutun iştirakçısı olan dövlət cinayətin törədildiyi ehtimal edilən vəziyyəti ittihamçıya çatdırdıqda;

2. BMT Nizamnaməsinin VII fəslinə uyğun olaraq Təhlükəsizlik Şurası cinayətin törədildiyini ehtimal etdiyi vəziyyət barədə ittihamçıya mə'lumat verdikdə;

3. İttihamçı öz təşəbbüsü ilə istintaqa başladıqda.

Bunlar onu göstərir ki, məhkəmədə cinayət işini qaldırmaq üçün müraciət etmək səlahiyyəti olan üç subyekt vardır: 1) İştirakçı dövlət; 2) Təhlükəsizlik Şurası; 3) İttihamçı. Əgər müraciət İştirakçı dövlət və ya Təhlükəsizlik Şurası tərəfindən edilibsə, ittihamçı istintaqa başlamazdan əvvəl belə müraciətin əsaslı olmasını müəyyən etməlidir. Əgər ittihamçı istintaqa başlamağı qərara alarsa o, BCM-in İlkin Təhqiqat Palatasından icazə almalıdır.

Cinayətin törədildiyi ehtimal edilən vəziyyət Statutun iştirakçısı olan dövlət tərəfindən ittihamçıya çatdırıldıqda və ya ittihamçı öz tə-

səbbüsü ilə istintaqa başladıqda BCM aşağıdakı hallarda yurisdiksiyanı icra edə bilər:

1. Cinayət Statutun iştirakçısı olan dövlətin ərazisində törədildikdə;

2. İttiham edilən şəxs Statutun iştirakçısı olan dövlətin vətəndaşı olduqda.

İştirakçı dövlət məhkəmənin yurisdiksiyasına düşən bir və ya bir neçə cinayətin törədilməsi ehtimal olunan vəziyyəti Prokurora verib, həmin cinayətləri törətməyə görə bir və ya bir neçə konkret şəxsə ittiham təqdim olunmasının vacibliyinin müəyyən edilməsi üçün təhqiqat keçirilməsi xahişi ilə ona müraciət edə bilər.

Vəziyyət çatdırılarkən mümkün qədər konkret müvafiq şərait göstərilir və müraciət edən dövlətin sərəncamında olan təsdiqedici sənədlər əlavə olunur.

Prokuror Məhkəmə yurisdiksiyası çərçivəsində, ehtimal edilən cinayətlər haqqında mə'lumat əsasında prorio motu istintaq başlaya bilər.

Prokuror alınmış mə'lumatın ciddiliyini qiymətləndirir. Bu məqsədlə, o, dövlətlərdən, BMT orqanlarından, dövlətlərarası və qeyri-dövlət təşkilatlardan və ya digər münasib hesab etdiyi mənbələrdən əlavə mə'lumat tələb edə və Məhkəmənin yerləşdiyi yerdə yazılı və yaxud şifahi şəhadətnamələr ala bilər.

Əgər Prokuror istintaqın başlaması üçün kifayət qədər əsasın olması qərarına gələrsə, xahişini əsaslandıran toplanılmış materiallarla birgə İlkin İcraat Palatasına istintaqın aparılmasına razılıq verilməsi üçün müraciət edir. Zərər çəkmişlər Sübütetmə və Prosedura Qaydalarına müvafiq olaraq İlkin İcraat Palatasına təqdimat verə bilərlər.

İlkin İcraat Palatası müraciət və onu əsaslandıran materialları öyrəndikdən sonra bu cinayət işinin Məhkəmənin yurisdiksiyası altına düşməsi və istintaqın başlanması üçün lazımi əsasların olması nəticəsinə gələrsə, o, Məhkəmənin yurisdiksiyaya və işin icraata qəbul oluna bilməsinə dair sonrakı qərarlarına xələl gətirmədən, istintaqın başlamasına razılıq verir.

İlkin İcraat Palatasının istintaqa sanksiya verilməsinə rədd cavabı Prokurorun eyni vəziyyətə aid yeni faktlar və şəhadətlər əsasındakı sonradan müraciət etmək imkanını istisna etmir.

İlkin təhqiqatlardan sonra Prokuror təqdim edilmiş mə'lumatların istintaq üçün lazımi əsaslara malik olmaması qərarına gələrsə, o, mə'lumatı təqdim edənləri bu haqda xəbərdar edir. Bu, yeni şəhadətlər və faktlar əsasında eyni vəziyyətə dair sonrakı mə'lumatın Prokuror tərəfindən araşdırılması ehtimalını istisna etmir.

BCM icraatında olan cinayət işinin istintaq və ya baxışını BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq etdiyi müraciəti əsasında 12 ay müddətində dayandıra bilər. Təhlükəsizlik Şurası 12 aydan sonra öz xahişini təkrarlaya bilər. Bu da BMT üzvü olan dövlətlərin dünyada sülh və təhlükəsizliyə görə cavabdehliyi Təhlükəsizlik Şurasının üzərinə qoymaları və özlərinin onun qərarlarını yerinə yetirəcəkləri barədə öhdəliyi ilə bağlıdır.

BCM aşağıdakı hallarda işi icraata qəbul etmir:

a) dövlət istintaq aparmaq və ya lazımi tərzdə cinayət tə'qibinə başlamaq iqtidarında olmadığı və ya bunu arzulamadığı hallar istisna olmaqla, eyni iş üzrə yurisdiksiyaya malik olan dövlət tərəfindən istintaq aparıldıqda və ya cinayət tə'qibi başlanmış olduqda;

b) qəbul edilmiş qərarın dövlətin lazımi tərzdə cinayət tə'qibinə başlamaq iqtidarında olmaması və ya bunu arzulamamasının nəticəsi olması halları istisna olmaqla iş, ona dair yurisdiksiyaya malik dövlət tərəfindən istintaq edildikdə və dövlət bu işin aid olduğu şəxsə qarşı cinayət tə'qibinə başlamamaq qərarına gəldikdə;

v) işin aid olduğu şəxs həmin ərizənin predmeti olan hərəkətə görə mühakimə edilmişdirsə;

q) iş Məhkəmənin sonrakı hərəkətlərini doğruldacaq qədər ciddi deyildirsə.

Hər hansı konkret işə baxılmasını dövlətin arzulamadığını müəyyən etmək üçün BCM, beynəlxalq hüquqla tanınmış lazımi prosessual normaları nəzərə alaraq, əgər bu mümkündürsə, aşağıda qeyd edilən amillərdən biri və ya bir neçəsinin mövcudluğunu müəyyən edir:

a) məhkəmə baxışı müvafiq şəxsin BCM-in yurisdiksiyasına aid cinayətlərə görə cinayət məs'uliyyətindən qorumaq məqsədi ilə keçirilmiş, və ya keçirilir, yaxud milli qərar bu məqsədlərlə çıxarılmışdır;

b) məhkəmə baxışının keçirilməsində müvafiq şəxsi ədalət mühakiməsinə vermək niyyətinə uyğun olmayan vəziyyətə gətirib çıxarmış əsassız kecikdirilmələrə yol verilmişdir;

v) işin məhkəmə baxışı müstəqil və qərəzsiz keçirilməyib və ya keçirilmir, baxışın keçirilmiş və ya keçirildiyi qayda yaranmış şəraitdə müvafiq şəxsin ədalət məhkəməsinə verilməsi niyyətlərinə uyğun gəlmir.

Hər hansı işdə dövlətin iqtidarsızlığını müəyyən etmək üçün BCM, müvafiq dövlətin milli məhkəmə sisteminin tamamilə və ya qismən

dağılması və ya olmaması səbəbindən müttəhimi mühakimə edə və ya lazımi sübutların və şahid ifadələrinin öz sərəncamına ala bilməməsini və yaxud məhkəmə baxışını hər hansı digər səbəblərdən həyata keçirə bilməməsini nəzərə alır.

Vəziyyət Məhkəməyə verildikdə və Prokuror istintaqın başlanması üçün məntiqi əsasların olduğunu müəyyən etdikdə Prokuror istintaqa başladıqdan sonra bütün iştirakçı dövlətlərə və mövcud informasiyaları nəzərə alaraq adətən, həmin cinayət barəsində öz yurisdiksiyasını həyata keçirmək hüququna malik dövlətlərə bildiriş göndərir. Prokuror bildirişi dövlətlərə tam məxfi halda göndərə bilər və əgər Prokuror zəruri hesab edirsə, həmçinin şəxslərin mühafizəsi, sübut və dəlillərin məhv edilməsi və bə'zi şəxslərin qaçıb gizlənməsinə mane olmaq məqsədləri ilə dövlətlərə təqdim edilən mə'lumatı məhdudlaşdıra bilər.

Bildiriş almış dövlət bir ay müddətində Məhkəməyə bildirişdə göstərilmiş informasiyaya aid, Statutun 5-ci maddəsində göstərilən cinayətləri əks etdirə bilən cəzalandırılan cinayət əməllərinə görə yurisdiksiyasında olan vətəndaş və ya digər şəxslərə qarşı istintaq aparıldığı və ya başa çatdığı haqqında mə'lumat verə bilər. İlkin icraat Palatasının Prokurorun ərizəsi əsasında istintaqın aparılmasına icazə verdiyi hallar istisna olmaqla, bu dövlətin xahişi əsasında Prokuror bu şəxslərə qarşı istintaqı dövlətə təhvil verir.

Prokuror istintaqı təhvil verdikdə müvafiq dövlət tərəfindən aparılan istintaq və tətbiq edilən sonrakı digər məhkəmə tə'qibi tədbirlərinə dair vaxtaşırı mə'lumat verməsini xahiş edə bilər. Bu növ suallara cavab verərkən iştirakçı dövlətlər əsassız gecikdirmələrə yol verməməlidirlər.

İlkin İcraat Palatası qərar çıxarana qədər və ya Prokuror istintaqı təhvil verdikdən sonra istənilən vaxt vacib sübutların alınması üçün əlverişli imkanlar olduqda və ya bu cür sübutların gələcəkdə yığılmasına ciddi təhlükə olacağı halda istisna qaydada İlkin İcraat Palatasından sübutların saxlanılması məqsədilə istintaq aparmaq üçün icazə verilməsini xahiş edə bilər.

BCM cinayət işinə birinci instansiya qaydasında baxmazdan əvvəl həmin işi mühakimə etmək səlahiyyətində olduğunu təsdiqləməlidir.

Statutun 21-ci maddəsi BCM-in tətbiq etdiyi hüququ nəzərdə tutur. Məhkəmə:

a) birinci növbədə Statutu, cinayətin elementlərini və özünün Sübutetmə və Prosedura Qaydalarını;

b) ikincisi, müvafiq hallarda, tətbiq edilə bilən beynəlxalq müqavilələri, beynəlxalq silahlı münaqişələr hüququnun ümumtanınmış prinsipləri də daxil olmaqla, beynəlxalq hüquququn prinsip və normalarını;

v) bu mümkün olmadığı hallarda Məhkəmə dünyanın hüquq sistemlərinin milli qanunlardan götürülmüş ümumi prinsipləri, o cümlədən Statuta, beynəlxalq hüquqa və beynəlxalq norma və standartlara zidd olmamaq şərti ilə adi şəraitdə bu cinayətə dair öz yurisdiksiyasını icra edə biləcək dövlətlərin milli qanunlarını tətbiq edir.

Məhkəmə prinsip və normaları əvvəlki qərarlarda təfsir edildiyi kimi tətbiq edə bilər.

Hüququn tətbiq və təfsir edilməsi beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına uyğun olmalı, Statutun 7-ci maddəsinin 3-cü bəndində müəyyən edilmiş gender əlamətinə görə, yaş, irq, dərinin rəngi, dil, din və ya dini e'tiqad, siyasi və ya digər baxışlar, milli, etnik və ya sosial mənşə, əmlak, silk və ya digər əsaslarla fərq qoyulmasına imkan verməməlidir.

3. Cinayət hüququnun ümumi prinsipləri

Beynəlxalq Cinayət Məhkəməsi Statutunda III hissə cinayət hüququnun ümumi prinsiplərinə həsr olunub. Eyni əmələ görə iki dəfə mühakimənin yolverilməzliyi prinsipi bu hissəyə daxil edilməmişdir. Bu onunla izah olunur ki, bir çox hüquqşünaslar bu prinsipi prosessual hüquqa aid edir.[22]

Fikrimizcə, bu prinsipin cinayət hüququnun digər prinsiplləri ilə bir yerdə nəzərdən keçirilməsi heç bir yanlışlığa səbəb olmaz.

"Eyni əmələ görə iki dəfə mühakimə etmək olmaz" prinsipi (non bis in idem) Statutun 20-ci maddəsində nəzərdə tutulmuşdur. Statutda nəzərdə tutulan hallar istisna olmaqla cinayət tərkibinin əsasını təşkil edən əmələ görə Məhkəmə tərəfindən təqsirli hesab edilmiş və ya bəraət almış heç kəs yenidən mühakimə edilə bilməz. Məhkəmə tərəfindən təqsirli bilinərək mühakimə olunmuş, yaxud bəraət almış şəxs başqa məhkəmələr tərəfindən də eyni əmələ görə mühakimə oluna bilməz. Burada iki hal istisna təşkil edir:

a) başqa məhkəmədə işə baxılması şəxsin Məhkəmənin yurisdiksi-

22 Лукашук И.И.,Наумов А.В. Международное уголовное право. М., Спарк. 1999.с.102.

yasına aid olan iş üzrə cinayət məs'uliyyətindən mühafizəsi məqsədi güdməsi;

b) Məhkəmə baxışının müstəqil və ya qərəzsiz və beynəlxalq hüquqla tanınan normalara müvafiq keçirilməməsi və keçirildiyi qaydanın mövcud şəraitdə, həmin şəxsi ədalət mühakiməsinə vermək məqsədlərinə cavab verməməsi.

"Qanundan kənar cinayət yoxdur" prinsipinə (nulla crimen sine lege) əsasən şəxsin əməli törədilən vaxt Məhkəmənin yurisdiksiyasına aid olan cinayəti təşkil etmirsə, həmin şəxs Statuta əsasən cinayət məs'uliyyəti daşımır. Cinayət anlayışı dəqiq şərh olunmalıdır və anologiya üzrə tətbiq olunmamalıdır. Şübhəli hallar istintaq altında olan şəxsin xeyrinə həll edilməlidir. Statutun 22-ci maddəsində həmçinin, nəzərdə tutulur ki, həmin maddə hər hansı əməlin beynəlxalq hüquq üzrə cinayət kimi tövsif edilməsini istisna etmir.

Retroaktivliyin yolverilməzliyi (Ratione personae) prinsipinə əsasən heç kəs Statutun qüvvəyə minməsinə qədər olan əməllərə görə, Statuta əsasən cinayət məs'uliyyətinə cəlb edilə bilməz.

Müvafiq məsələ barəsində qəti hökm və ya qərar qəbul edilməmişdən əvvəl həmin məsələyə tətbiq edilə biləcək qanun dəyişikliyi olarsa, haqqında istintaq, məhkəmə tədqiqatı aparılan və yaxud təqsirli hesab edilmiş şəxs üçün daha əlverişli qanun tətbiq edilir.

Məhkəmə fiziki şəxslər üzərində yurisdiksiyaya malikdir. Bu yurisdiksiya iştirakçı dövlətlərin vətəndaşları və iştirakçı dövlətin ərazisində cinayət törətmiş şəxslərə şamil edilir. Məhkəmənin yurisdiksiyasına düşən cinayət törətmiş şəxs fərdi məs'uliyyət daşıyır və Statuta müvafiq olaraq cəzalandırılmalıdır.

Statutun 25-ci maddəsində göstərilir ki, şəxs Məhkəmənin yurisdiksiyası altına düşən cinayətə görə cinayət məs'uliyyəti daşıyır və cəzalandırılmalıdır, əgər həmin şəxs:

a) belə cinayəti fərdi şəkildə, başqa şəxslə birlikdə və ya həmin başqa şəxsin cinayət məs'uliyyətinə cəlb edilib edilməməsindən asılı olmayaraq, başqa şəxs vasitəsi ilə törədirsə;

b) bu cinayət törədildikdə və ya onun törədilməsinə sui-qəsd olduqda, belə cinayəti törətməyə əmr edir, təhrik edir və ya sövq edirsə;

v) həmin cinayətin törədilməsini asanlaşdırmaq məqsədi ilə əməkdaşlıq edir, təhrik edir və yaxud onun icrası üçün vasitələrin təqdim edilməsi də daxil olmaqla, hər hansı başqa bir üsulla onun icrasına və yaxud ona sui-qəsdə kömək edirsə;

q) vahid məqsədlə fəaliyyət göstərən bir qrup şəxsin belə cinayəti törətməsinə və yaxud cinayətə sui-qəsdinə hər hansı başqa tərzdə kömək edirsə, belə köməklik bilə-bilə edilməli və yaxud:

1) bu cür fəaliyyət və ya məqsəd Məhkəmənin yurisdiksiyası altına düşən cinayətin törədilməsi ilə bağlı olduqda, cinayət fəaliyyətini və yaxud qrupun cinayətkar məqsədini dəstəkləmək məqsədi daşıdıqda; yaxud

2) qrupun cinayət törətmək niyyəti dərk edildikdə;

ğ) genosid cinayətinə münasibətdə, birbaşa və aşkar şəkildə başqaları genosid törətməyə təhrik edildikdə.

d) belə cinayətin törədilməsinə sui-qəsd, onun törədilməsində mühüm addım sayılan hərəkətlər etməsinə baxmayaraq, həmin şəxsin məramından asılı olmayaraq, cinayət başa çatdırılmamış qaldıqda. Bununla bərabər, şəxs cinayətin törədilməsi cəhdindən imtina edirsə və ya başqa hər hansı tərzdə cinayətin başa çatdırılmasının qarşısını alırsa, əgər həmin şəxs tamamilə və könüllü olaraq cinayətkar məqsədindən imtina edirsə bu Statuta uyğun olaraq cəzalandırılmamalıdır.

Statutun fərdi cinayət məs'uliyyətinə aid olan maddələrindən heç biri dövlətin beynəlxalq hüquq məs'uliyyətinə tə'sir etmir.

Məhkəmə 18 yaşına çatmamış şəxslər üzərində yurisdiksiyaya malik deyil.

Statut vəzifə mövqeyindən asılı olmayaraq bütün şəxslərə eyni dərəcədə şamil edilir. Xüsusən, hökumət və ya dövlət başçısı, hökumət və ya parlament üzvü, seçilmiş nümayəndə və ya hökumətin vəzifəli şəxsi kimi vəzifə mövqeyi bu Statuta əsasən heç bir halda şəxsi cinayət məs'uliyyətindən azad etmir və öz-özlüyündə hökmün yüngülləşdirilməsi üçün əsas vermir.

Milli və ya beynəlxalq hüquqa əsasən şəxsin vəzifə səlahiyyəti ilə bağlı ola bilən immunitetlər və xüsusi prosessual normalar Məhkəmənin bu cür şəxslər barəsində yurisdiksiyasının həyata keçirilməsinə maneə törətməməlidir.

Statutun 28-ci maddəsi komandir və digər rəislərin məs'uliyyətini nəzərdə tutur. Statuta əsasən Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərə görə cinayət məs'uliyyətinin digər əsaslarına əlavə olaraq aşağıdakı halda hərbi komandir və ya hərbi komandir kimi səmərəli fəaliyyət göstərən şəxs, onun səmərəli komandanlığı və nəzarəti altında olan və ya şəraitdən asılı olaraq, bu şəxslərin hakimiyyəti altında və

nəzarətində olan qüvvələr tərəfindən onların bu qüvvələr üzərində nəzarətin lazımi qaydada həyata keçirilməməsi nəticəsində törədilmiş, Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərə görə məs'uliyyət daşıyır:

1) həmin hərbi komandir və yaxud şəxs bu qüvvələrin cinayət törətdiklərini və ya törətmək niyyətində olduqlarını bilirdi və ya həmin şəraitdə bilməli idi;

2) hərbi komandir və ya şəxs öz səlahiyyətləri daxilində bu əməllərin törədilməsinin qarşısını almaq, yaxud onlara son qoymaq və ya həmin məsələləri istintaq və cinayət tə'qibindən ötrü səlahiyyətli orqanlara vermək üçün bütün lazımi və məntiqi tədbirləri görməmişdir.

Rəis və tabeçilikdə olan şəxsin yuxarıda göstərilməmiş münasibətlərinə gəldikdə, rəis öz səlahiyyətlərini lazımi qaydada icra etməməsi nəticəsində, onun effektiv hakimiyyəti və nəzarəti altında olanlar tərəfindən törədilmiş Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərə görə cinayət məs'uliyyəti daşıyır, bu şərtlə ki:

a) rəis tabeliyində olan şəxslər tərəfindən bu cür cinayətlərin törədilməsini və ya törətmək niyyətinin olmasını bilmiş yaxud bunu dəqiq əks etdirən informasiyaya şüurlu olaraq əhəmiyyət verməmişdirsə;

b) cinayətlər rəisin səmərəli məs'uliyyəti və nəzarəti altına düşən fəaliyyətə toxunduqda;

v) rəis öz səlahiyyətləri çərçivəsində bu əməllərin törədilməsinin qarşısını almaq və ya onlara son qoymaq, yaxud həmin məsələləri istintaq və cinayət tə'qibi üçün səlahiyyətli orqanlara verməkdən ötrü bütün lazımi və məntiqə uyğun tədbirlər görmədikdə.

Məhkəmənin yurisdiksiyasına düşən cinayətlərə müddət tətbiq olunmur.

Əgər başqa hal nəzərdə tutulmayıbsa, şəxs yalnız məhkəmənin yurisdiksiyası altına düşən cinayətin obyektiv cəhətini xarakterizə edən əməli qəsdən və şüurlu surətdə törətdikdə cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır.

Statutun 30-cu maddəsinə əsasən şəxsin o halda qəsdi olur ki:

a) əmələ münasibətdə — şəxs bu əməli törətməyə hazırlaşır;

b) nəticəyə münasibətdə — şəxs bu nəticəyə nail olmağa hazırlaşır və ya başa düşür ki, hadisələrin adi axarında o, baş verəcəkdir.

Burada "şüurlu surətdə" ifadəsi şəraitin mövcud olmasını və ya nəticənin hadisələrin adi axarında baş verəcəyini başa düşməyi ifadə edir.

"Bilmək" və "bilik" müvafiq qaydada təfsir olunmalıdır.

Statutda cinayət məs'uliyyətindən azad edilmə üçün nəzərdə tutulan əsaslardan əlavə, şəxs cinayət məs'uliyyətindən o hallarda azad olunur ki, onun hərəkətləri baş verən zaman:

a) bu şəxs onun davranışının xarakterini, yaxud öz hərəkətlərini qanunun tələblərinə uyğunlaşdırmaq imkanından məhrum edən psixi xəstəlik və ya psixikasının pozulmasından əziyyət çəkirsə;

b) əgər şəxs intoksikasiya nəticəsində məhkəmənin yurisdiksiyası altına düşən cinayət hərəkəti törədə biləcəyini, bu cür hərəkətin törədilmə təhlükəsinin olduğunu bildiyi halda könüllü surətdə özünü intoksikasiya vəziyyətinə salmamışsa və bu şəxs onu öz davranışının qeyri-hüquqiliyini və ya xarakterini dərk etmək, yaxud öz hərəkətlərini qanunun tələblərinə uyğunlaşdırmaq imkanından məhrum edən intoksikasiya vəziyyətində olmuşsa;

v) bu şəxs özünü və ya başqa şəxsləri və yaxud hərbi cinayətlər zamanı özünün və ya başqa şəxslərin yaşaması üçün xüsusilə mühüm əhəmiyyət kəsb edən əmlakı, yaxud hərbi xarakterli tapşırığın yerinə yetirilməsi üçün xüsusilə zəruri əmlakı qaçılmaz və qeyri-hüquqi güc tətbiqindən bu şəxsi və ya əmlakı təhdid edən təhlükə ilə mütənasib üsullarla müdafiə etmək üçün düşünülmüş hərəkət etmişdirsə, şəxsin güc tətbiqi ilə həyata keçirilən müdafiədə iştirakı öz-özlüyündə cinayət məs'uliyyətindən azad edilmə üçün əsas ola bilməz;

q) Məhkəmənin yurisdiksiyası altına düşən cinayəti ehtiva etməsi təxmin edilən əməl şəxsin qarşısını almaq istədiyi ziyandan artıq ziyan vurmaq istəməməsi şərti ilə, onun və ya digər şəxslər üçün labüd ölüm təhlükəsinə, yaxud labüd bədən xəsarətlərinə, yaxud bu cür xəsarətlər yetirmənin davam etməsinə məcburi cavab reaksiyasıdırsa və bu şəxs təhlükənin aradan qaldırılması üçün vacib və düşünülmüş tədbirlər görmüşdürsə, bu cür təhlükə:

1) ya digər şəxslər tərəfindən həyata keçirilə;

2) ya da bu şəxsin iradəsindən asılı olmayan digər vəziyyətlərdən yarana bilər.

3) baxdığı işlərə münasibətdə Statutda nəzərdə tutulan cinayət məs'uliyyətindən azad edən halların tətbiq edilə bilməsini məhkəmə müəyyən edir.

Statutun 32-ci maddəsinə əsasən faktda yanılma yalnız həmin cinayətin zəruri subyektiv cəhətini istisna etdiyi halda cinayət məs'uliyyətindən azad edilmə üçün əsas sayılır.

Müəyyən tip davranışların məhkəmənin yurisdiksiyası altına düşən cinayət olub olmamasına münasibətdə hüquqi yanlışlıq cinayət məs'uliyyətindən azad edilmə üçün əsas deyildir. Lakin hüquqda yanılma həmin cinayətin zəruri subyektiv cəhətini istisna etdikdə, bu cinayət məs'uliyyətindən azad edilmə üçün əsas ola bilər.

Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərin hökumətin, mülki və ya hərbçi rəisin əmri ilə törədilməsi aşağıdakı hallar istisna olmaqla, şəxsi cinayət məsuliyyətindən azad etmir:

a) müvafiq hökumətin və ya rəisin göstərişini yerinə yetirmək bu şəxsin qanuni vəzifəsidirsə;

b) bu şəxs əmrin qeyri-qanuniliyini bilməmişdirsə;

v) əmr açıq-aşkar qeyri-qanuni olmamışdırsa.

Statuta əsasən, genosid cinayətlərinin və bəşəriyyət əleyhinə cinayətlərin törədilməsi haqqında əmrlər açıq-aşkar qeyri-qanunidir.

4. Məhkəmənin təşkilati quruluşu və işlərinin idarə olunması

Statuta əsasən BCM aşağıdakı orqanlardan ibarət olacaqdır:

1. Rəyasət Hey'əti;
2. Apellyasiya Palatası, Məhkəmə İcraatı Palatası (1-ci instansiya), İlkin Tədqiqat Palatası;
3. İttiham İdarəsi;
4. Katiblik.

Bütün hakimlər öz səlahiyyətlərini daimi əsaslarla yerinə yetirən Məhkəmə üzvü kimi seçilirlər və öz səlahiyyətlərinin başlandığı vaxtdan bu əsaslarla öz funksiyalarını yerinə yetirmək üçün Məhkəmənin sərəncamında olurlar. Rəyasət Hey'ətinə daxil olan hakimlər öz funksiyalarını seçildikləri andan daimi əsaslarla yerinə yetirirlər. Rəyasət Hey'əti Məhkəmənin işinin həcmini nəzərə alaraq, məhkəmənin hakimləri ilə məsləhətləşmələr əsasında vaxtaşırı digər hakimlərdən hansı həcmdə öz funksiyalarını daimi əsaslarla yerinə yetirmək tələb olunması barədə qərar qəbul edə bilər. Məhkəmə 18 hakimdən ibarət olur.

Rəyasət Hey'əti Məhkəmənin adından çıxış edərək lazımlılığı, yaxud zəruriliyi səbəblərini göstərməklə hakimlərin sayının artırılması barədə təklif qəbul edə bilər. Katib tə'xirə salınmadan hər hansı bu cür təklifi bütün iştirakçı dövlətlər arasında yaymalıdır. Təklif sonradan İş-

tirakçı Dövlətlərin Assambleyasının iclasında baxılır. Bu cür təklif iştirakçı dövlətlərin iclasında 2/3 səs çoxluğu ilə bəyənilirsə qəbul edilmiş sayılır və İştirakçı Dövlətlərin Assambleyasının qərarı ilə müəyyən olunmuş vaxtda qüvvəyə minir.

Rəyasət Hey'əti həmçinin, Məhkəmənin işinin həcmi yol verirsə, istənilən vaxt hakimlərin sayını 18-dən az olmamaq şərti ilə azaldılmasını təklif edə bilər. Bu cür təklif qəbul olunduqdan sonra hakimlərin sayı tədricən, fəaliyyətdə olan hakimlərin səlahiyyət müddətinin bitməsi vaxtı ilə zəruri həddə qədər azaldılır.

Hakimlər onların namizədliyinin irəli sürüldüyü dövlətlərdə ali hakim vəzifəsinə tə'yin olunmaq üçün tələblərə cavab verən, qərəzsiz və müstəqil, yüksək mə'nəvi keyfiyyətlərə malik olan şəxslər sırasından seçilirlər.

Məhkəmənin tərkibinə seçilmək üçün hər bir namizəd aşağıdakılara malik olmalıdır:

1) Cinayət və prosessual hüquq sahəsində mö'təbər səriştəyə və cinayət mühakiməsi sahəsində hakim, prokuror, vəkil və ya başqa analoji keyfiyyətdə zəruri iş təcrübəsinə;

2) beynəlxalq humanitar hüquq, insan hüquqları kimi müvafiq beynəlxalq hüquq sahələrində mö'təbər səriştəyə, həmçinin Məhkəmənin fəaliyyət predmetinə aid olan peşəkar hüquq fəaliyyətində geniş təcrübəyə.

Hər bir namizəd Məhkəmənin tərkibinə seçilmək üçün ən azı məhkəmənin işgüzar dillərindən birini bilməli və onda sərbəst danışmalıdır.

Məhkəmənin tərkibinə seçilmək üçün namizəd bu Statutun iştirakçısı olan hər bir dövlət tərəfindən, yaxud

1) bu dövlətdə mövcud olan məhkəmə vəzifəsinə tə'yin edilmək üçün namizədin irəli sürülməsinə uyğun olaraq; və ya

2) Beynəlxalq Məhkəmənin Statutunda Beynəlxalq Məhkəmənin tərkibinə namizəd irəli sürülmək üçün nəzərdə tutulan proseduralara uyğun olaraq irəli sürülür.

Seçkilər keçirilən zaman hər bir iştirakçı dövlət bu dövlətin vətəndaşı olması məcburi olmayan, lakin hər bir halda hər hansı üzv dövlətin vətəndaşı olan bir namizəd irəli sürə bilər. Seçkilərin keçirilməsi üçün namizədlərin 2 siyahısı tərtib edilir. A siyahısı cinayət və prosessual hüquq sahəsində mö'təbər səriştəyə və cinayət mühakiməsi sahəsində hakim, prokuror, vəkil və ya başqa analoji keyfiyyətdə zəruri iş təcrü-

bəsi olmaq kimi tələblərə cavab verən namizədlərin adlarından ibarətdir. V siyahısı beynəlxalq humanitar hüquq, insan hüquqları kimi müvafiq beynəlxalq hüquq sahələrində mö'təbər səriştəyə, həmçinin Məhkəmənin fəaliyyət predmetinə aid olan peşəkar hüquq fəaliyyətində geniş təcrübəyə malik olmaq kimi tələblərə cavab verən namizədlərin adlarından ibarətdir. Hər iki siyahı üçün kifayət edən keyfiyyətlərə malik olan namizəd hansı siyahıya düşməsini öz seçiminə görə müəyyən edə bilər. Məhkəmənin tərkibinə ilk seçkilərdə A siyahısından doqquzdan az olmayaraq, V siyahısından isə 5-dən az olmayaraq hakimlər seçilir. Sonrakı seçkilər məhkəmənin tərkibində A və V siyahısından keçmiş hakimlərin proporsiyalarını saxlamaq üçün keçirilir.

Hakimlər İştirakçı Dövlətlərin Assambleyasının iclasında gizli səsvermə yolu ilə seçilir. Səsvermədə olan və iştirak edən üzv dövlətlərin 2/3-dən çoxunun daha artıq səsini qazanmış 18 namizəd məhkəmənin tərkibinə seçilmiş hesab edilir. Əgər birinci turda səsvermənin gedişində lazımi sayda hakim seçilməmişdirsə qalan yerlər dolana kimi növbəti səsvermə turları keçirilir. Məhkəmənin tərkibində eyni bir dövlətin iki vətəndaşı ola bilməz. Məhkəmənin tərkibinə münasibətdə iki və daha artıq dövlətin vətəndaşı hesab edilə bilən şəxs bu şəxsin, adətən öz mülki və siyasi hüquqlarından istifadə etdiyi dövlətin vətəndaşı sayılır. İştirakçı dövlətlər hakimlərin seçilməsi zamanı məhkəmənin üzvlərinin tərkibində aşağıdakıların tə'min olunmasının zəruriliyini nəzərə alır:

1) dünyanın əsas hüquq sistemlərinin təmsil olunması:

2) ədalətli coğrafi təmsilçilik; və

3) məhkəmənin tərkibində qadın və kişi cinslərinin ədalətli təmsilçiliyi.

İştirakçı dövlətlər məhkəmənin tərkibində xüsusi məsələlər üzrə, o cümlədən, qadınlara, yaxud uşaqlara qarşı zor tətbiqinə dair məsələlər üzrə hüquqi fəaliyyət təcrübəsinə malik olan şəxslərin olmasının zəruriliyini nəzərə alır, lakin bununla məhdudlaşmırlar.

Hakimlər öz vəzifələrində 9 il qalırlar və yenidən seçilmək hüququna malik deyildirlər. İlk seçkilərdə hakimlərin püşkatma ilə seçilən 1/3 hissəsi vəzifələrində 3 il müddətində qalırlar; hakimlərin püşkatma ilə seçilən 1/3 hissəsi vəzifələrində 6 il müddətində qalırlar, yerdə qalanlar isə vəzifələrində 9 il ərzində qalırlar. 3 il müddətinə seçilmiş hakim tam müddətə yenidən seçilmək hüququna malikdir. Məhkəmə, yaxud Apellyasiya Palatasına tə'yin edilmiş hakim həmin Palatada dinləməsi başla-

nılmış hər hansı məhkəmə yaxud apellyasiya baxışının başa çatmasına qədər öz vəzifəsində qalır. Vakansiyalar açılarkən onların tutulması üçün sekçilər keçirilir. Vakansiyanı doldurmaq üçün seçilmiş hakim öz sələfinin səlahiyyət müddəti bitənədək vəzifədə qalır və əgər bu müddət 3 ildən azdırsa, tam müddətə yenidən seçilə bilər.

Sədr, sədrin birinci və ikinci müavinləri hakimlərin mütləq əksəriyyətinin səs çoxluğu ilə seçilirlər. Onlar öz funksiyalarını 3 il müddətində və yaxud bu müddətlərdən hansının tez bitməsindən asılı olaraq özünün hakim kimi səlahiyyətlərinin bitməsinə qədər icra edirlər. Onlar bir dəfə yenidən seçilə bilərlər. Əgər Sədr yoxdursa və ya kənarlaşdırılmışdırsa, sədrin birinci müavini Sədri əvəz edir. Əgər Cədr və sədrin birinci müavini yoxdursa və ya kənarlaşdırılmışdırsa, sədrin ikinci müavini Cədri əvəz edir. Sədr, sədrin birinci və ikinci müavinləri Rəyasət Hey'ətini təşkil edir və aşağıdakılara görə cavabdehlik daşıyırlar:

— Prokuror dəftərxanası istisna olmaqla məhkəmənin işlərinin lazımi qaydada idarəçiliyi;

— Statutla onun üzərinə qoyulmuş digər funksiyalar.

Hakimlərin seçilməsindən sonra məhkəmə mümkün qədər tez, öz tərkibində şö'bələri təşkil edir. Apellyasiya şö'bəsi sədr və daha 4 hakimdən, məhkəmə şö'bəsi azı 6 hakimdən və ilkin icraat şö'bəsi azı 6 hakimdən ibarət olur. Hakimlərin şö'bələrin tərkibinə tə'yin olunması hər bir şö'bənin üzərinə qoyulan funksiyanın xarakteri, hər bir şö'bədə cinayət hüququ və prosesi, beynəlxalq hüquq sahəsində mütəxəssis olan optimal sayda hakimin ola bilməsi üçün seçilmiş hakimlərin sərişləsi və təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Məhkəmə şö'bəsi və ilkin icraat şö'bəsi başlıca olaraq, cinayət işləri üzrə məhkəmə araşdırmalarının aparılması sahəsində təcrübəyə malik olan hakimlərdən ibarət olur.

Məhkəmənin məhkəmə funksiyaları hər bir şö'bədə palatalar tərəfindən həyata keçirilir. Apellyasiya palatası Apellyasiya şö'bəsinin bütün hakimlərindən ibarət olur. Məhkəmə Palatasının funksiyaları məhkəmə şö'bəsinin üç hakimi tərəfindən həyata keçirilir. İlkin İcraat Palatasının funksiyaları ya İlkin İcraat şö'bəsinin üç hakimi tərəfindən, ya da Statuta, Sübutetmə və Prosedura Qaydalarına uyğun olaraq bu şö'bənin bir hakimi tərəfindən həyata keçirilir.

Məhkəmə şö'bəsi və ilkin icraat şö'bəsinə təyin olunmuş hakimlər bu şö'bələrdə öz funksiyalarını 3 il müddətinə və bu müddətin bitməsi zamanı müvafiq şö'bədə artıq dinləmələri başlamış istənilən işə baxıl-

masının bitməsinə qədər yerinə yetirirlər.

Apellyasiya şö'bəsinə tə'yin olunmuş hakimlər bu şö'bədə öz funksiyalarını bütün səlahiyyət müddətləri ərzində həyata keçirirlər.

Apellyasiya şö'bəsinə təyin olunmuş hakimlər öz funksiyalarını yalnız bu şö'bədə həyata keçirirlər. Rəyasət Hey'əti Məhkəmənin iş həcminin səmərəli nizamlanması maraqlarının tələb etməsi qənaətinə gəldikdə, heç bir halda iş üzrə ilkin icraatda iştirak etmiş hakimin eyni iş üzrə Məhkəmə Palatasında dinləmələrdə iştirak etmək hüququna malik olmaması şərti ilə, bu maddədə heç bir şey məhkəmə şö'bəsinin hakiminin ilkin icraat şö'bəsinə və əksinə tə'yin olunmasını istisna etmir.

Hakimlər öz funksiyalarını yerinə yetirərkən müstəqildirlər. Hakimlər onların hakimlik funksiyalarını yerinə yetirməyə mane olan, yaxud onların müstəqilliyinə şübhə doğura bilən heç bir fəaliyyətlə məşğul olmurlar. Məhkəmənin olduğu yerdə öz funksiyalarını daimi əsaslarla yerinə yetirməsi tələb olunan hakim özünü heç bir digər professional xarakterli məşğuliyyətə həsr etməməlidir.

Rəyasət Hey'əti Prosedura və Sübutetmə Qaydalarına müvafiq olaraq hakimi öz xahişi ilə Statutla üzərinə qoyulmuş funksiyaları yerinə yetirməkdən azad edə bilər.

Hakim bu və ya digər əsaslarla onun qərəzsizliyinin məntiqi şübhə altına qoyula biləcəyi ilə bağlı işə baxılmasında iştirak etmir. Bunlardan başqa, əgər bu hakim əvvəllər həmin işlə məhkəmədə hər hansı formada, yaxud milli səviyyədə bu işə aid istintaq altında olan və ya məhkəmə tə'qibinə mə'ruz qalmış şəxsin iştirakı ilə olan cinayət işi ilə bağlı olmuşsa, həmin bəndə müvafiq olaraq işə baxılmasından kənarlaşdırılır. Hakim, həmçinin, Sübutetmə və Prosedura Qaydalarında nəzərdə tutula bilən digər əsaslarla da işə baxılmasından kənarlaşdırılır.

Prokuror, yaxud istintaq altında olan, yaxud haqqında məhkəmə araşdırması aparılan şəxs bu bəndə uyğun olaraq hakimə e'tiraz barədə vəsatət verə bilər. Hakimə e'tirazla bağlı istənilən məsələ hakimlərin mütləq səs çoxluğu ilə həll edilir. E'tiraz edilən hakimə həmin məsələ üzrə öz qeydlərini təqdim etmək hüququ verilir, lakin o qərar qəbul edilməsi prosesində iştirak etmir.

Prokuror dəftərxanası məhkəmənin ayrıca orqanı kimi müstəqil fəaliyyət göstərir. O, Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlər haqqında hər hansı informasiya və təqdim edilmiş situasiyaların alınmasına, onların öyrənilməsinə, Məhkəmədə istintaqının və cinayət mühakiməsinin həyata keçirilməsinə cavabdehlik daşıyır. Dəftərxananın əməkdaşları hər hansı xarici mənbədən göstərişlər tələb etmir və

onları yerinə yetirmirlər. Dəftərxanaya Prokuror tərəfindən rəhbərlik edilir. Prokuror şəxsi hey'ət, bina və onun sərəncamında olan sair ehtiyatlar da daxil olmaqla Dəftərxanaya rəhbərlik və idarəetmə üzrə bütün səlahiyyətlərə malikdir. Prokurora, Statuta müvafiq olaraq, Prokurorun yerinə yetirməli olduğu hər hansı hərəkəti yerinə yetirmək səlahiyyətinə malik olan bir və ya bir neçə prokuror müavini köməklik göstərir. Prokuror və prokuror müavini müxtəlif dövlətlərin vətəndaşları olmalıdır. Onlar tam məşğulluq əsasında işləyir.

Prokuror və prokuror müavinləri yüksək mə'nəvi keyfiyyətlərə, yüksək ixtisasa və cinayət işləri üzrə təhqiqat, yaxud istintaqın aparılması sahəsində geniş praktiki təcrübəyə malik olan şəxslər olmalıdırlar. Onlar məhkəmənin işgüzar dillərindən azı birini tam bilməli və onda sərbəst danışmalıdırlar. Prokuror iştirakçı dövlətlərin Assambleyasının üzvlərinin mütləq səs çoxluğu ilə, gizli səsvermə yoluyla seçilir. Prokurorun müavinləri Prokuror tərəfindən təqdim edilmiş namizədlər siyahısından eyni qaydada seçilirlər. Prokuror hər bir prokuror müavini vəzifəsinə tə'yin olunmaq üçün 3 namizəd irəli sürür. Əgər onların seçilməsi zamanı daha qısa səlahiyyət müddəti nəzərdə tutan qərar qəbul olunmazsa, Prokuror və prokuror müavinləri doqquz il müddətinə seçilirlər və yenidən seçilə bilməzlər. Nə Prokuror, nə də prokurorun müavinləri onların prokuror funksiyalarının yerinə yetirilməsinə mane ola bilən, yaxud onların müstəqilliyini şübhə altına alan heç bir fəaliyyətlə məşğul olmurlar. Onlar peşə fəaliyyətinin başqa heç bir növü ilə məşğul olmurlar. Rəyasət Hey'əti Prokuroru, yaxud onun müavinini öz xahişi ilə bu və ya digər konkret işdə iştirak etməkdən azad edə bilər. Nə Prokuror, nə də prokuror müavinləri hər hansı bir əsasla onların qərəzsizliyini məntiqi şübhə altına ala bilən heç bir işdə iştirak etmirlər. Əgər onlar əvvəllər bu işdə Məhkəmədə, yaxud istintaq altında olan və ya məhkəmə tə'qibinə mə'ruz qalmış şəxsə aidiyyatı olan, bu işlə əlaqəli cinayət işinə milli səviyyədə baxılarkən hər hansı keyfiyyətdə iştirak etmişdirsə, onlar işdə iştirak etməkdən kənarlaşdırılır. Prokuror, yaxud prokuror müavininə e'tirazla bağlı istənilən məsələlər Apellyasiya Palatası tərəfindən həll edilir.

Prokuror və onun müavinlərinin müstəqilliyi özünü onda təzahür etdirir ki, onlar Məhkəmə tərəfindən deyil, Statutun iştirakçısı olan dövlətlər tərəfindən seçilirlər.[23]

23 Лукашук И.И.,Наумов А.В. Международное уголовное право. М., Спарк.1999.с.105.

Katiblik işlərin idarə olunması və məhkəməyə xidmətin qeyri-məhkəmə aspektlərinə cavabdehlik daşıyır. Katibliyə məhkəmənin əsas inzibati vəzifəli şəxsi olan Katib rəhbərlik edir. Katib öz funksiyalarını Məhkəmənin sədrinin rəhbərliyi altında həyata keçirir. Katib və katibin müavini yüksək mə'nəvi keyfiyyətlərə, yüksək səriştəyə malik olur və Məhkəmənin işgüzar dillərindən heç olmasa birini tam bilir və onda sərbəst danışır. Hakimlər İştirakçı Dövlətlərin Assambleyasının istənilən tövsiyəsini nəzərə almaqla, Katibi gizli səsvermə ilə mütləq səs çoxluğu ilə seçirlər. Əgər bu cür zərurət yaranarsa və Katibin tövsiyəsi ilə hakimlər eyni qayda ilə katibin müavinini seçirlər. Katib 5 illik səlahiyyət müddətinə seçilir, bir dəfə yenidən seçilə bilər və tam məşğulluq əsasında işləyir. Katibin müavini öz vəzifəsində 5 illik səlahiyyət müddətində, yaxud hakimlərin mütləq səs çoxluğu ilə müəyyən edilmiş daha qısa müddətdə qalır.

Hakim, Prokuror, prokuror müavini, Katib, yaxud katib müavini ciddi xətaya, yaxud Statut üzrə üzərinə düşən vəzifəni yerinə yetirərkən ciddi pozuntuya yol verdikdə və ya həmin vəzifələri yerinə yetirməyə qadir olmadıqda vəzifədən azad edilir.

Məhkəmənin rəsmi dilləri ingilis, ərəb, ispan, çin, rus və fransız dilləridir. Məhkəmənin qərarları, həmçinin məhkəmə tərəfindən baxılmış əsas məsələlər üzrə digər qərarları rəsmi dillərdə çap edilir. Sübutetmə və Prosedura Qaydaları ilə müəyyən edilmiş kriteriyalara uyğun olaraq Rəyasət Hey'əti Statutun müddəalarına görə, Məhkəmənin hansı qərarlarının əsas məsələlər üzrə olmasını müəyyən edir. Məhkəmənin işçi dilləri ingilis və fransız dilləridir. Sübutetmə və Prosedura Qaydalarında digər rəsmi dillərin işgüzar dillər kimi istifadə edilə bilməsi halları müəyyən edilir. Baxışda iştirak etmiş tərəflərdən hər hansı birinin, yaxud baxışda iştirak etməyə razılıq verilmiş dövlətin xahişi ilə, Məhkəmə həmin tərəfə və ya dövlətə Məhkəmənin fikrincə, bu cür razılığın kifayət qədər əsaslı olması şərti ilə ingilis, yaxud fransız dilləri ilə yanaşı istənilən digər dildən istifadə etməyə razılıq verir.

Sübutetmə və Prosedura Qaydaları İştirakçı Dövlətlərin Assambleyasının 2/3 səs çoxluğu ilə qəbul olunduqdan sonra qüvvəyə minir. Sübutetmə və Prosedura Qaydalarına aşağıdakılar düzəlişlər təklif edə bilərlər.

a) istənilən iştirakçı dövlət;

b) mütləq səs çoxluğu ilə hakimlər;

v) prokuror.

Bu cür düzəlişlər iştirakçı dövlətlərin Assambleyasının 2/3 səs çoxluğu ilə qəbul edildikdən sonar qüvvəyə minir.

Sübutetmə və Prosedura Qaydalarının qəbul edilməsindən sonra Məhkəmənin Sübutetmə və Prosedura Qaydalarının nəzərdə tutmadığı konkret vəziyyət ilə qarşılaşdıqda, tə'xirəsalınmaz zərurət halında hakimlər 2/3 səs çoxluğu ilə iştirakçı dövlətlərin Assambleyasının öz növbəti sessiyasında, yaxud xüsusi sessiyasında onları təsdiq edənə, dəyişənə, yaxud düzəliş edənə qədər tətbiq olunan müvəqqəti qaydalar qəbul edə bilər.

Sübutetmə və Prosedura Qaydaları, onlara düzəlişlər və istənilən müvəqqəti qayda Statuta uyğun olmalıdır. Sübutetmə və Prosedura Qaydalarına düzəlişlər, həmçinin müvəqqəti qaydalar istintaq altında olan və haqqında məhkəmə təhqiqatı aparılan, yaxud təqsirli hesab edilmiş şəxslərin ziyanına olaraq, retroaktiv tətbiq olunmur. Statutla Sübutetmə və Prosedura Qaydaları arasında ziddiyyət yarandıqda, Statut üstün qüvvəyə malikdir.

5. İstintaq və cinayət tə'qibi

Prokuror ona təqdim edilmiş mə'lumatları qiymətləndirərək əgər Statuta müvafiq hərəkətlərin edilməsi üçün məntiqi əsasların olmamasını müəyyən etmirsə istintaqa başlayır. İstintaqın başlanması haqqında qərar qəbul edərkən Prokuror aşağıdakı məsələlərə baxır:

a) Prokurorun sərəncamında olan mə'lumat Məhkəmənin yurisdiksiyası altına düşən cinayətin törədilməsi və ya törədilməkdə olmasını güman etməyə məntiqi əsaslar verirmi;

b) mə'lumat icraata qəbul edilməlidirmi, yaxud icraata qəbul ediləcəkmi;

v) cinayətin ağırlığı və zərərçəkmişlərin maraqlarını nəzərə almaqla istintaqın aparılması ədalət mühakiməsinin maraqlarına cavab verməyəcəyi barədə tutarlı əsaslar varmı.

Əgər Prokuror tədbirlər görülməsi üçün məntiqi əsaslar olmamasını və onun qərarının yalnız yuxarıdakı (v) bəndində göstərilən fikirlərə əsaslanırsa, bu barədə İlkin İcraat Palatasına mə'lumat verir.

Prokuror cinayətin ağırlıq dərəcəsi, zərərçəkmişlərin maraqları və güman edilən cinayətkarın yaşı və yaxud iqtidarsızlığı, habelə onun güman edilən cinayətdə rolu nəzərə alınmaqla, cinayət tə'qibi ədalət mühakiməsinin maraqlarına cavab vermədikdə, cinayət tə'qibinin başlanılması üçün kifayət qədər əsaslar olmaması qənaətinə gələ bilər. Belə

halda Prokuror İlkin İcraat Palatasını, vəziyyəti təqdim edən dövləti, yaxud Təhlükəsizlik Şurasını gəldiyi nəticələr və bu cür nəticələr üçün əsaslar barədə xəbərdar edir. Prokuror istənilən vaxt istintaqın başlanması və ya cinayət tə'qibi barədə qərarına yeni faktlar, yaxud mə'lumatlar əsasında yenidən baxa bilər. Prokurorun səlahiyyət və vəzifələrinə aşağıdakılar aiddir:

a) həqiqətin müəyyən olunması üçün istintaqı elə aparır ki, Statuta uyğun olaraq, cinayət məs'uliyyətinin yaranıb-yaranmaması barədə bütün faktlar və sübutlar əhatə olunsun və bu zaman həm təqsirlilik, həm də təqsirsizlik barədə halları eyni bərabər qaydada araşdırır.

b) Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərin səmərəli istintaq və cinayət tə'qibini tə'min etmək üçün e'tibarlı tədbirlər görür, bu zaman 3-cü maddənin 7-ci bəndində müəyyən edildiyi kimi gender amili, yaş və sağlamlıq vəziyyəti, habelə cinayətlərin xarakterini, xüsusən seksual zorakılıq, gender zorakılığı, yaxud uşaqlara qarşı zorakılığın xarakteri də daxil olmaqla şahidlər və zərərçəkmişlərin maraqları və şəxsi mənafelərinə riayət edir;

v) şəxslərin Statutdan irəli gələn bütün hüquqlarına tam riayət edir.

İlkin İcraat Palatası tərəfindən verilmiş razılığa əsasən Prokuror aşağıdakıları edə bilər:

a) sübutlar toplamaq və öyrənmək;

b) istintaq altında olan şəxslərin, zərərçəkmişlərin və şahidlərin gəlməsini tələb etmək və onları dindirmək;

v) hər hansı dövlət, yaxud hökumətlərarası təşkilat, yaxud mexanizmi, onların müvafiq səlahiyyətləri və ya mandatlarına uyğun olaraq yardım göstərməyə əmin etmək;

q) Statuta zidd olmayan hər hansı dövlət, hökumətlərarası təşkilat, yaxud şəxs tərəfindən əməkdaşlığı asanlaşdıran saziş və ya müqavilələr bağlamaq;

ğ) əgər sənəd və mə'lumatı vermiş şəxs buna razılıq vermirsə, yalnız yeni sübutlar almaq məqsədilə Prokuror tərəfindən gizliliyi saxlanmaq şərtilə alınmış sənəd və mə'lumatın icraatın hər hansı mərhələsində açılmamasına tə'minat vermək;

d) hər hansı bir şəxsin müdafiəsi, yaxud sübutların saxlanılması, mə'lumatların gizliliyinin qorunması üçün zəruri tədbirləri görmək və ya görülməsini xahiş etmək.

Bu Statuta uyğun olaraq həyata keçirilən istintaqa münasibətdə şəxslər:

a) özünə qarşı şahidlik etməyə, yaxud öz təqsirini e'tiraf etməyə məcbur edilməməlidir;

b) hər hansı formada məcburiyyətə, təzyiq və ya hədə-qorxuya, işgəncə, yaxud digər qəddar və ya qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftar və ya cəzaya düçar edilməməlidir; və

v) əgər dindirmə bu şəxsin tam başa düşmədiyi dildə, yaxud onun danışmadığı dildə aparılırsa, pulsuz olaraq səriştəli tərcüməçinin köməyindən və ədalətlilik tələblərinin qorunması üçün zəruri olan tərcümədən istifadə etməlidir;

q) əsassız saxlamaya, yaxud həbsə mə'ruz qalmamalıdır, həmçinin Statutda müəyyən edilmiş əsaslar və proseduralardan başqa azadlıqdan məhrum edilməyə mə'ruz qalmamalıdır.

Bu və ya digər şəxsin Məhkəmənin yurisdiksiyası altına düşən cinayəti törətməsini güman etməyə əsaslar olduqda və bu şəxs tə'cili olaraq ya Prokuror, ya da Statutun 9-cu hissəsinə uyğun olaraq göndərilmiş vəsatət əsasında milli hakimiyyətlər tərəfindən dindirilməli olduğu hallarda, bu şəxs dindirmə başlayanadək ona bildirilməli olan aşağıdakı hüquqlara malikdir:

a) dindirmə başlayanadək onun Məhkəmənin yurisdiksiyası altına düşən cinayəti törətməsinin güman etməyə əsaslar olması haqqında xəbərdar edilməsi;

b) bu cür susmanın təqsirlilik, yaxud təqsirsizliyin müəyyən olunmasında nəzərə alınmamalı olması şərtilə susmanı saxlamaq;

v) öz seçimi əsasında hüquqi yardımdan istifadə etmək, yaxud, əgər bu şəxs hüquqi yardımdan istifadə etmirsə, ədalət mühakiməsinin maraqlarının tələb etdiyi hallarda və əgər bu şəxs bu cür yardımın haqqını ödəmək üçün kifayət qədər imkana malik deyildirsə istənilən halda hər hansı haqq ödəmədən ona tə'yin edilmiş hüquqi yardımı almaq;

q) əgər şəxs öz iradəsi ilə vəkil xidmətindən istifadə etmək hüququndan imtina etməmişdirsə, vəkilin iştirakı ilə dindirilmək.

İlkin İcraat Palatası Prokurorun müraciəti əsasında, istintaqın başlanmasından sonra istənilən vaxt Prokuror tərəfindən təqdim olunmuş bu müraciət və sübutları, yaxud digər mə'lumatları nəzərdən keçirərək aşağıdakıları müəyyən edirsə bu və ya digər şəxsin həbsinə order verir;

a) həmin şəxsin Məhkəmənin yurisdiksiyası altına düşən cinayəti törətməsini güman etməyə məntiqi əsaslar vardır;

b) həmin şəxsin həbs edilməsi aşağıdakılara görə zəruridir:

1) onun məhkəmə baxışına gəlməsini tə'min etmək üçün;

2) bu şəxsin istintaq, yaxud məhkəmə baxışı üçün hədə-qorxu, yaxud maneçilik törətməməsini tə'min etmək üçün;

3) müvafiq hallarda şəxs tərəfindən bu cinayətin davam etdirilməsinin, yaxud onunla bağlı olan, Məhkəmənin yurisdiksiyası altına düşən və eyni hallarla əlaqədar olan cinayətin törədilməsinin qarşısının alınması üçün.

Həbs orderində aşağıdakılar göstərilir:

a) şəxsin adı və şəxsiyyətini müəyyən edən hər hansı digər müvafiq mə'lumat;

b) Məhkəmənin yurisdiksiyası altına düşən və törədilməsi güman edilən cinayətə konkret istinad;

v) güman edildiyi kimi, bu cinayəti təşkil edən faktların qısa şərhi.

Həbs orderi Məhkəmə başqa sərəncam verməyənədək qüvvədə qalır.

Həbs orderi əsasında Məhkəmə ibtidai həbs, yaxud şəxsin həbs edilməsi və onun sərəncama verilməsini tələb edə bilər.

Prokuror cinayətlərə istinadları dəyişdirməklə, yaxud onları digər cinayətlərə istinadlarla tamamlamaqla, İlkin İcraat Palatasına həbs orderində dəyişikliklər etmək xahişi ilə müraciət edə bilər. Əgər İlkin İcraat Palatası həmin şəxsin bu formada göstərilmiş cinayətləri törətməsini güman etməyə məntiqi əsasların olmasına inanarsa, həbs orderində müvafiq dəyişikliklər edir.

Həbs orderinin tələb edilməsinə alternativ kimi Prokuror İlkin İcraat Palatasına həmin şəxsin gəlməsi barədə əmr verilməsi xahişi ilə müraciət edə bilər. Əgər İlkin İcraat Palatası həmin şəxsin ehtimal edilən cinayətləri törətməsini güman etməyə məntiqi əsasları olmasına və əmrin həmin şəxsin gəlməsi üçün kifayət edən tədbir olmasına əmin olarsa, əgər bu milli qanunvericilikdə nəzərdə tutulmuşdursa, müəyyən şərtlərlə və ya heç bir şərtsiz azadlığı məhdudlaşdıran (tutmadan fərqli) kəlmə haqqında əmr verilə bilər. Əmrdə aşağıdakılar göstərilir:

a) şəxsin adı və şəxsiyyətini müəyyən edən istənilən digər mə'lumat;

b) şəxsin gəlməsinin dəqiq tarixi;

v) həmin şəxsin törətməsi güman edilən, məhkəmənin yurisdiksiyası altına düşən cinayətə konkret istinad; və

q) bu cinayəti təşkil etməsi güman edilən faktların dəqiq xülasəsi.

Gəlmə haqqında əmr bilavasitə müvafiq şəxsə təqdim edilir.

Hər hansı şəxsin ibtidai həbsi və yaxud həbs edilib təhvil verilməsi

barədə xahiş almış dövlət dərhal müvafiq şəxsin öz qununvericiliyinə və Statutun 9-cu hissəsinin müddəalarına uyğun olaraq həbs edilməsi üçün addımlar atır.

Həbsə məruz qalmış şəxs dərhal bu dövlətin qanunvericiliyinə uyğun olaraq aşağıdakıların müəyyən edilməsi üçün həbsdə saxlanıldığı dövlətin səlahiyyətli məhkəmə orqanına təhvil verilir:

a) order bu şəxsə münasibətdə verilmişdirmi;

b) bu şəxs müvafiq proseduralara əməl olunmaqla həbs edilmişdirmi; və

v) bu şəxsin hüquqlarına riayət olunmuşdurmu.

Həbs olunan həbsdə saxlanıldığı dövlətin səlahiyyətli orqanlarına Məhkəməyə verilənə qədər müvəqqəti azadlığa buraxılması üçün vəsatət verə bilər.

Hər hansı bu cür vəsatətə baxarkən həbsdə saxlanılma yerinin dövlətinin səlahiyyətli orqanı güman edilən cinayətin ağırlığı nəzərə alınmaqla, müvəqqəti azad etməyə haqq qazandıran fövqəl'adə və müstəsna halların mövcud olması, həbsdə saxlanma yeri dövlətinin bu şəxsin məhkəməyə verilməsi öhdəliyinin yerinə yetirə bilməsini tə'min edən e'tibarlı tə'minatların olmasını nəzərdən keçirir.

İlkin İcraat Palatası müvəqqəti azadlığa buraxılma haqqında istənilən vəsatət barədə xəbərdar edilir. Palata həbsdə saxlama yeri dövlətinin səlahiyyətli orqanına tövsiyələr verə bilər. Həbsdə saxlama yeri dövlətinin səlahiyyətli orqanı qərarını çıxaranadək bu tövsiyələri, o cümlədən bu şəxsin qaçmasının qarşısının alınması üzrə tədbirlərə dair istənilən tövsiyəni nəzərə almalıdır. Şəxsin məhkəməyə verilməsi, yaxud könüllü və ya gəlmə haqqında əmrə əsasən məhkəməyə gəlməsindən sonra İlkin İcraat Palatası şəxsə onun törətdiyi güman edilən cinayətlər barəsində və məhkəmə baxışının başlanmasına qədər həbsdən müvəqqəti azad edilməsi haqqında, vəsatət vermək hüququ daxil olmaqla, Statutla nəzərdə tutulmuş hüquqları barədə məlumat verilməsinə əmin olmalıdır.

Haqqında həbs orderi verilmiş şəxs məhkəmə baxışının başlanmasına qədər müvəqqəti olaraq həbsdən azad edilmə haqqında vəsatət verə bilər. İlkin İcraat Palatası məhkəmə baxışına qədər Prokuror tərəfindən istintaqın yubadılması ilə əlaqədar heç kəsin əsassız olaraq həbsdə saxlanılmamasını tə'min edir. Bu cür yubanmalar yarandıqda Məhkəmə şəxsin müəyyən şərtlərlə, yaxud heç bir şərtsiz həbsdən azad edilməsi barədə məsələyə baxa bilər. Zərurət yarandıqda İlkin İcraat Pala-

tası həbsdən azad edilmiş şəxsin iştirakını tə'min etmək üçün həbsə order verə bilər.

Şəxsin Məhkəməyə təhvil verilməsi, yaxud onun özünün könüllü şəkildə Məhkəməyə gəlməsindən sonra ağlabatan müddət ərzində İlkin İcraat Palatası Prokurorun əsasında məhkəmə baxışının keçirilməsinə nail olmağa çalışdığı ittihamın təsdiqi ilə bağlı dinləmələr keçirir. Dinləmələr Prokurorun və müttəhimin, habelə onun müdafiəçisinin iştirakı ilə aparılır. Prokuror əsasında məhkəmə baxışı keçirmək istədiyi ittihamın təsdiq edilməsi üçün dinləmələri aşağıdakı hallarda müttəhim olmadan həyata keçirə bilər:

a) şəxs özünün məhkəmədə iştirak etmək hüququndan istifadə etməkdən imtina etdikdə;

b) həmin şəxsə qarşı irəli sürülən ittihamlar və bu ittihamların təsdiqi üçün dinləmələrin keçirilməsinə öz münasibəti barədə mə'lumat verilməsindən ötrü məhkəməyə gəlməsinin tə'min edilməsi üçün bütün məntiqi addımlar atıldığı halda şəxsin gizləndiyi və ya onun olduğu yeri müəyyən etmək mümkün olmadıqda.

İlkin İcraat Palatası ədalət mühakiməsinin maraqlarına cavab verməsi qənaətinə gəldiyi hallarda həmin şəxslər müdafiəçi vasitəsi ilə təmsil oluna bilərlər.

İlkin İcraat Palatası dinləmələr əsasında şəxsin ittiham olunduğu hər bir cinayəti törətməsini güman etməyə ciddi əsaslar yaradan kifayət qədər sübutların olub olmamasını müəyyən edir. Qərarına əsaslanaraq İlkin İcraat Palatası:

a) kifayət qədər sübutlar müəyyən etdiyi ittihamları təsdiq edir və şəxsi təsdiq olunmuş ittihamlarla bağlı məhkəmə baxışının həyata keçirilməsi üçün bu və ya digər məhkəmə palatasına verir;

b) kifayət qədər sübutlar müəyyən etmədiyi ittihamları təsdiq etmir;

v) dinləmələri saxlayır və Prokurordan aşağıdakıların mümkünlüyünə baxmağı xahiş edir:

1) bu və ya digər konkret ittihama münasibətdə əlavə sübutların təqdim edilməsi, yaxud istintaqın davam etdirilməsi;

2) təqdim edilmiş sübutların məhkəmənin yurisdiksiyası altına düşən digər cinayətlərin törədilməsi faktını müəyyən etməsini güman etdikdə, ittihamın dəyişdirilməsi.

İlkin İcraat Palatası ittihamı təsdiq etmədikdə prokuror sonradan həmin ittihamın təsdiq edilməsi barədə əlavə sübutlarla yenidən müraciət edə bilər.

İttihamın təsdiq edilməsindən sonra və məhkəmə baxışının başlanmasına qədər Prokuror İlkin İcraat Palatasının razılığı və müttəhimə xəbər verilməsindən sonra ittihamı dəyişə bilər. Əgər Prokuror əlavə ittiham irəli sürmək, yaxud ittihamı daha ciddi ittihamla əvəz etmək istəyirsə, onda dinləmələr keçirilməlidir. Məhkəmə baxışının başlanmasından sonra Prokuror Məhkəmə Palatasının razılığı ilə ittihamı çıxara bilər. Əvvəllər verilmiş istənilən order İlkin İcraat Palatası tərəfindən təsdiq olunmamış, yaxud Prokuror tərəfindən geri götürülmüş istənilən ittihama münasibətdə qüvvəsini itirir. İttihamın təsdiq edilməsindən sonra Rəyasət Hey'əti sonrakı araşdırmalar üçün cavabdehlik daşıyan məhkəmə palatası yaradır.

6. Məhkəmə baxışı

Statuta əsasən məhkəmə tərəfindən başqa qərar qəbul edilməsə məhkəmə baxışının yeri Məhkəmənin olduğu yerdir.

Ümumi qaydaya əsasən müttəhim məhkəmə baxışında iştirak etməlidir. Məhkəmə baxışında iştirak edən müttəhim məhkəmə baxışının gedişini pozmaqda davam edərsə, müstəsna hallarda Məhkəmə Palatası müttəhimi kənarlaşdıra bilər. Belə hallarda müttəhim üçün əlaqə vasitələrindən istifadə etməklə məhkəmə zalından kənarda olmaqla baxışın gedişini izləmək və müdafiəsinə göstərişlər vermək imkanı yaradılır. Məhkəmə Palatası təhqiqatın ədalətli və sür'ətli olması və müttəhimin hüquqlarının tam tə'min olunması, zərərçəkmiş və şahidlərin hüquqlarının mütləq qorunması zərurətinin nəzərə alınmasını tə'min etməlidir.

İşin Statuta uyğun olaraq dinlənilməsi üçün tə'yin olunmasından sonra işə baxacaq Məhkəmə Palatası tərəflərlə məsləhətləşir, təhqiqatın ədalətli və sür'ətli həyata keçirilməsi üçün zəruri olan prosedur qaydaları, məhkəmə baxışının gedişində istifadə olunacaq dili və ya dilləri müəyyənləşdirir. Məhkəmə Palatası, həmçinin baxışa lazımi qaydada hazırlaşmaq üçün açılmamış sənədlərin, yaxud informasiyaların məhkəmə baxışının başlamasına qədər açılması məsələsinə də baxır.

Məhkəmə Palatası tələbat olduqda öz funksiyalarını səmərəli və düzgün yerinə yetirmək üçün ilkin məsələləri İlkin İcraat Palatasına, yaxud, ilkin icraat şö'bəsinin sərəncamında olan hakimə verə bilər. Müvafiq hallarda Məhkəmə Palatası tərəflərə xəbərdarlıq etməklə bir-

dən çox müttəhimə qarşı ittihamın birləşdirilməsi, yaxud ayrılması barədə sərəncam verə bilər.

Məhkəmə baxışı açıq aparılır. Lakin Məhkəmə Palatası sübut kimi təqdim edilməli olan həssas, yaxud gizli mə'lumatın qorunması üçün xüsusi hallarda bə'zi iclasların qapalı keçirilməsinin tələb olunduğunu müəyyən edə bilər.

Məhkəmə baxışı başlayarkən Məhkəmə Palatası müttəhimə bundan əvvəl İlkin İcraat Palatasında təsdiq edilmiş ittihamnaməni oxuyur. Məhkəmə Palatası müttəhimin ittihamın mahiyyətini başa düşməsinə əmin olmalıdır. O, müttəhimə öz təqsirini e'tiraf etmək, yaxud öz təqsirsizliyini bəyan etmək imkanı verir. Məhkəmə baxışının gedişində sədrlik edən hakim təhqiqatın aparılmasına dair, o cümlədən onun düzgün və qərəzsiz aparılmasının tə'min olunması üçün göstərişlər verə bilər. Sədrlik edən hakimin bütün göstərişlərinə əməl etməklə, tərəflər sübutlar təqdim edə bilərlər.

Statut təqsirin e'tiraf edilməsi halında qüvvədə olan proseduranı müəyyənləşdirmişdir. Belə ki, müttəhim öz təqsirini e'tiraf etdikdə Məhkəmə Palatası aşağıdakıları müəyyənləşdirməlidir:

a) müttəhim özünü təqsirli bilməsinin xarakterini və nəticələrini dərk edirmi;

b) bu e'tiraf müttəhim tərəfindən müdafiəçisi ilə uzunmüddətli məsləhətləşmələrdən sonra könüllü edilmişdirmi;

v) təqsirini boynuna alma işin aşağıdakılarda ifadə olunmuş halları ilə təsdiq olunurmu:

1) Prokuror tərfindən təqdim edilmiş və müttəhimin e'tiraf etdiyi ittihamları əks etdirən sənədlərdə;

2) Prokuror tərəfindən təqdim olunmuş ittihamı qüvvətləndirən və müttəhimin qəbul etdiyi istənilən materiallarda;

3) Prokurorun, yaxud müttəhimin təqdim etdikləri istənilən digər sübutlarda, məsələn şahidlərin ifadələrində.

Əgər Məhkəmə Palatası yuxarıda göstərilən şərtlərə əməl olunması qərarına gələrsə, o şəxsin təqsirini boynuna almasına, haqqında e'tiraf edilmiş cinayətin edilməsini sübut etmək üçün lazım olan mühüm əhəmiyyətli halları müəyyən edən təqdim olunmuş bütün əlavə sübutlarla birlikdə baxır və müttəhimi bu cinayətin törədilməsinə görə məhkum edə bilər. Məhkəmə Palatası həmin şərtlərə əməl olunması qənaətinə gəlmirsə, o, e'tirafın baş verməməsinə əsaslanır və bu halda o işə baxılmasının Statutla nəzərdə tutulmuş adi proseduralarına əsasən məh-

kəmə təhqiqatının davam etdirilməsi haqqında sərəncam verir və bu işi digər Məhkəmə Palatasına verə bilər.

Məhkəmə palatası ədalət mühakiməsinin maraqlarının, xüsusən zərərçəkmişlərin maraqlarının, işin hallarının daha geniş şərh olunmasını tələb etməsi qənaətinə gələrsə aşağıdakıları edə bilər:

a) Prokurora şahid ifadələri də daxil olmaqla əlavə sübutların təqdim olunması xahişi ilə müraciət etmək;

b) işə baxılmasının Statutla nəzərdə tutulan adi proseduralarına əsasən məhkəmə təhqiqatının davam etdirilməsinə sərəncam verə bilər və bu zaman o, təqsirini boynuna almanın baş verməməsinə istinad edərək, işi başqa məhkəmə palatasına verə bilər.

Təqsirsizlik prezumpsiyası məsələləri də Statutda öz əksini tapmışdır. Hər kəs onun təqsiri Məhkəmədə tətbiq olunan qanuna əsasən sübut olunana qədər təqsirsiz hesab edilir. Müttəhimin təqsirini sübut etmək vəzifəsi Prokurorun üzərinə düşür. Müttəhimi məhkum etmək üçün Məhkəmə əmin olmalıdır ki, müttəhim təqsirlidir və bu məntiqi əsaslarla şübhə doğurmur.

Statutun 67-ci maddəsində müttəhimin hüquqları öz əksini tapmışdır. Hər hansı ittihamın araşdırılması zamanı müttəhimin Statutun müddəaları nəzərə alınmaqla açıq dinləmələr, qərəzsiz şəkildə aparılan ədalətli dinləmələr və tam bərabərlik əsasında azı aşağıdakı tə'minatlara hüququ var:

a) ona e'lan edilən ittihamın məzmunu, əsasları və xarakteri barədə müttəhimin tam şəkildə başa düşdüyü və danışdığı dildə tə'cili qaydada və ətrafı mə'lumat almaq;

b) öz müdafiəsini hazırlamaq üçün lazımi vaxt və imkana malik olmaq, habelə seçdiyi müdafiəçi ilə konfidensiallıq şəraitində, sərbəst ünsiyyətdə olmaq;

v) əsassız ləngimələrsiz mühakimə olunmaq;

q) öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya tə'yin etdiyi müdafiəçi vasitəsi ilə müdafiə etmək, əgər müdafiəçisi yoxdursa bu hüquq barədə mə'lumatlandırılmaq, ədalət mühakiməsinin maraqlarının tələb etdiyi və onun müdafiəçinin xidmətinin haqqını ödəmək imkanı olmadıqda hər bir halda məhkəmənin ona tə'yin etdiyi müdafiəçiyə malik olmaq;

ğ) onun əleyhinə ifadələr vermiş şahidlərə suallar vermək və bu şahidlərin dindirilməsi, habelə onun əleyhinə ifadə verən şahidlər üçün mövcud olan şərtlərlə, onun xeyrinə ifadə verən şahidlərin çağırılması

və dindirilməsi hüququna malik olmaq. Müttəhim, həmçinin öz müdafiəsi üçün dəlillər gətirmək və Statuta əsasən yolverilən hesab edilən digər sübutlar təqdim etmək;

e) məhkəmədə işə baxılması üçün, yaxud məhəkəməyə təqdim edilmiş sənədlərin tərtib edilməsi zamanı istifadə edilmiş dil müttəhimin tam həcmdə başa düşdüyü və onun danışığı dil deyildirsə, məhkəmə baxışının ədalətlilik tələblərinə cavab verməsi üçün zəruri olan tərcümələr almaq və pulsuz olaraq səriştəli tərcüməçinin göməyindən istifadə etmək;

ə) ifadə verməyə, yaxud özünü təqsirli bilməyə məcbur edilməmək və bu cür susmanın təqsirlilik, yaxud təqsirsizliyin həll edilməsinə tə'sir etməməsi şərti ilə susmağa davam etmək;

j) and qəbul etmədən öz müdafiəsi üçün yazılı və şifahi bəyanatlarla çıxış etmək;

z) əksini sübut etmək vəzifəsindən, yaxud təkzib etmək vəzifəsindən azad olmaq.

Statutda nəzərdə tutulmuş istənilən digər informasiyanın açılmasına əlavə olaraq, Prokuror mümkün qədər tez olmaqla, sərəncamı və nəzarəti altında olan, onun fikrincə müttəhimin təqsirsizliyini təsdiq edən, yaxud təsdiq etməli olan, yaxud təqsirini yüngülləşdirən, yaxud ittiham sübutlarının həqiqiliyinə tə'sir edə bilən halların olması barədə sübutları müdafiəyə təqdim edir. İstənilən şübhələr Məhkəmə tərəfindən həll edilir.

Məhkəmə zərərçəkmişlərin və şahidlərin şəxsi həyatının və layaqətlərinin toxunulmazlığı, fiziki və psixi rifahının, təhlükəsizliyinin qorunması üçün e'tibarlı tədbirlər görür. Sübutların və mə'lumatların açılması hər hansı şahid, yaxud onun ailə üzvlərinin təhlükəsizliyi üçün ciddi təhlükə yarada bildiyi hallarda Prokuror iş üzrə dinləmələrin başlamasına qədər olan istənilən prosessual hərəkətlərin həyata keçirilməsi məqsədi ilə bu sübut və mə'lumatları açmaya və bunun əvəzində onların xülasəsini təqdim edə bilər. Göstərilən tədbirlər elə həyata keçirilməlidir ki, bu müttəhimin hüquqlarına və məhkəmə baxışının ədalətli və qərəzsiz aparılmasına zidd olmasın və ziyan vurmasın.

İfadə verməyə başlamazdan əvvəl hər bir şahid Cübutetmə və Prosedura Qaydalarına uyğun olaraq öz üzərinə düzgün ifadə vermək vəzifəsi götürür. Bir qayda olaraq şahidlər məhkəmə iclasında şəxsən ifadə verirlər. Statutun müddəalarının və ya beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının pozulması nəticəsində alınmış sübutlar yolverilməz

hesab edilir.

Məhkəmə ədalət mühakiməsinin həyata keçirilməsinə qarşı qəsdən törədilmiş aşağıdakı cinayətlərə münasibətdə yurisdiksiyaya malikdir:

a) düzgün ifadə vermək öhdəliyi götürdükdən sonra yalan ifadələr verilməsi;

b) bilə-bilə yalan, yaxud saxtalaşdırılmış sübutlar təqdim edilməsi;

v) şahidə hüquqa zidd tə'sir göstərmə, şahidin iştirakına və ya ifadə verməsinə maneə yaratma və ya mane olma, ifadə verməsinə görə şahiddən əvəz çıxmaq üçün ona təzyiq göstərmək, yaxud sübutları məhv etmə, saxtalaşdırma və ya bu sübutların toplanılmasına mane olma;

q) vəzifəli şəxsi öz vəzifəsini yerinə yetirməməyə, yaxud lazımsız qaydada yerinə yetirməyə inandırmaq, yaxud məcbur etmək məqsədi ilə məhkəmənin vəzifəli şəxsinə maneə yaratmaq, onu qorxutmaq, yaxud ona qeyri-qanuni tə'sir göstərmək;

ğ) bu və ya digər vəzifəli şəxsin öz vəzifələrini yerinə yetirməsinə görə əvəz çıxmaq kimi məhkəmənin vəzifəli şəxsinə tə'sir göstərmək;

d) məhkəmənin vəzifəli şəxsi kimi öz rəsmi vəzifəsi ilə əlaqədar olaraq hədə qorxu ilə tələb etmə, yaxud rüşvət alma.

Məhkəmə Palatasının bütün hakimləri məhkəmə baxışının hər bir mərhələsində və bütün iclaslarda iştirak edirlər. Rəyasət Hey'əti ayrı-ayrı hallarda mövcud imkanları nəzərdə almaqla Palatanın bu üzvü artıq iştirak edə bilmədikdə Məhkəmə Palatası üzvünü əvəz edən bir və ya daha çox ehtiyat hakimlər tə'yin edir.

Məhkəmənin qərarı onun sübutları və işin bütün gedişini qiymətləndirməsi əsasında qəbul edilir. Qərar ittihamı nəzərdə tutan sənədlərdə, yaxud ittihamı nəzərdə tutan sənədlərə hər hansı düzəlişlərdə ifadəsini tapmış fakt və hallardan kənara çıxmamalıdır. Məhkəmə öz qərarını yalnız ona təqdim edilmiş və məhkəmə baxışının gedişində nəzərdən keçirilmiş sübutlarla əsaslandırmalıdır.

Məhkəmə öz qərarını yekdilliklə qəbul etməyə çalışır, bu mümkün olmadıqda isə qərar hakimlərin əksəriyyəti tərəfindən qəbul edilir.

Məhkəmə Palatasının iclası gizli saxlanılır.

Qərar yazılı formada çıxarılır və Məhkəmə Palatasının nəticələrinin sübutlar və rə'ylər əsasında tam və əsaslandırılmış şərhini ehtiva edir. Çıxarılan qərar vahid olur. Yekdilliyin olmadığı halda Məhkəmə Palatasının qərarı çoxluğun və azlığın rə'yini əks etdirir. Qərar və ya onun xülasəsi açıq iclasda e'lan olunur.

Məhkəmə zərərçəkmişə dəymiş ziyanın ödənilməsi və ya reabilita-

siya, kompensasiya, restitusiya da daxil olmaqla zərərçəkmişə aid olan prinsipləri müəyyən edir. Bu əsasla Məhkəmə daxil olmuş xahişlərə cavab olaraq, yaxud müstəsna hallarda öz təşəbbüsü ilə öz qərarında zərərçəkmişlərə, yaxud onlara münasibətdə vurulmuş ziyan, zərər və xərclərin miqyas və ölçüsünü müəyyən edə bilər və hansı prinsiplər əsasında fəaliyyət göstərməsini bəyan edir.

Məhkəmə bilavasitə məhkum edilmiş şəxsin zərərçəkmişə, yaxud zərərçəkmişlərə münasibətdə reabilitasiya, kompensasiya və restitusiya da daxil olmaqla dəymiş ziyanın lazımi formada ödəməsi haqqında qərar çıxara bilər. Müvafiq hallarda Məhkəmə Statuta əsasən yaradılmış məqsədli fonda ziyanın ödənilməsi qaydasında məbləğlərin verilməsi haqqında qərar çıxara bilər.

Qərar çıxarmazdan əvvəl Məhkəmə müttəhimdən, zərərçəkmişdən, digər maraqlı şəxslərdən, yaxud maraqlı dövlətlərdən, yaxud onların adından təqdimatları tələb edə və onları nəzərə ala bilər.

Müttəhimin təqsiri müəyyən olunduğu hallarda, Məhkəmə Palatası cəzanın tə'yin edilməsinə aidiyyəti olan məhkəmə baxışı zamanı təqdim edilmiş sübutlar və verilmiş təqdimatları nəzərə almaqla müvafiq cəza tə'yin edilməsi haqqında məsələyə baxır. Hökm açıq və lazım olduqda müttəhimin iştirakı ilə e'lan edilir.

7. Cəza və onun icrası

Məhkəmə Statut üzrə yurisdiksiyasına aid olan cinayəti törətməkdə təqsirli bilinmiş şəxsə aşağıdakı cəza tədbirlərindən birini tə'yin edə bilər:

a) illərin sayı ilə hesablanan, ən çoxu 30 ili aşmamaqla müəyyən müddətdə azadlıqdan məhrum etmə, yaxud

b) cinayətin müstəsna ağır xarakteri və onu törətməkdə təqsirli bilinmiş şəxsin fərdi keyfiyyətlərinə görə buna bəraət qazandırıldığı hallarda ömürlük həbs cəzası.

Azadlıqdan məhrumetmə ilə yanaşı Məhkəmə aşağıdakıları tə'yin edə bilər:

a) Sübutetmə və Prosedura Qaydaları ilə nəzərdə tutulmuş kriteriyalara əsasən cərimə;

b) üçüncü şəxslərin bona fide hüquqlarına ziyan gətirmədən cinayət nəticəsində düzünə və ya yanakı yolla əldə edilmiş gəlirlər, əmlak və aktivlərin müsadirə edilməsi.

Cəza tədbirlərinin müəyyən olunması zamanı Məhkəmə Sübutetmə

və Prosedura Qaydalarına uyğun olaraq cinayətin ağırlığı və məhkumun şəxsiyyəti kimi amilləri nəzərə alır.

Azadlıqdan məhrumetmə formasında cəza tə'yin edərkən Məhkəmə bu cür müddət varsa Məhkəmənin qərarı üzrə ibtidai həbsdə saxlama müddətini hesaba alır. Məhkəmə cinayətin əsasında duran əməllə əlaqədar olaraq başqa cür həbsdə olmanın hər hansı müddətini hesaba ala bilər.

Əgər şəxs birdən çox cinayətə görə məhkum edilirsə, Məhkəmə hər bir cinayətə görə ayrıca cəzanı və azadlıqdan məhrumetmənin müddəti cəmini göstərməklə ümumi cəzanı tə'yin edir. Bu müddət ayrılıqda tə'yin olunmuş ən sərt cəzada nəzərdə tutulmuş müddətdən az olmamalı və 30 il azadlıqdan məhrumetmə cəzasından, müstəsna hallarda isə ömürlük azadlıqdan məhrumetmə növündə cəzadan ağır olmamalıdır.

İştirakçı Dövlətlərin Assambleyasının qərarı ilə Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərdən zərərçəkmişlərin ailələrinin maraqları naminə Məqsədli Fond yaradılır. Məhkəmə cərimələr və ya müsadirələr yolu ilə götürülmüş pul vəsaitləri və digər əmlakın Məqsədli Fonda verilməsi haqqında sərəncam verə bilər. Məqsədli Fond iştirakçı Dövlətlərin Assambleyasının müəyyən etdiyi kriteriyalara uyğun olaraq idarə olunur.

Azadlıqdan məhrumetmə qaydasında cəza Məhkəməyə haqqında hökm çıxarılmış şəxsi qəbul etməyə hazır olması barədə mə'lumat vermiş dövlətlər arasında məhkəmənin müəyyən etdiyi dövlətdə çəkilir. Dövlət hökm çıxarılmış şəxsi qəbul etməyə hazır olması barədə bəyanat verən zaman Məhkəmə ilə razılaşma üzrə qəbuletmənin şərtlərini göstərə bilər. Konkret işdə azadlıqdan məhrumetmə qaydasında cəzanın çəkilməsi üçün tə'yin olunmuş dövlət dərhal Məhkəmə tərəfindən edilmiş tə'yinatla razılaşıb-razılaşmaması barədə Məhkəməyə mə'lumat verir.

Dövlətin tə'yin olunması üzrə öz səlahiyyətlərini həyata keçirərkən məhkəmə aşağıdakıları nəzərə alır:

a) ədalətli bölüşdürmə prinsipinə uyğun olaraq iştirakçı dövlətlərin azadlıqdan məhrumetmə qaydasında cəzanın icra edilməsinə görə məs'uliyyəti bölüşdürmələri prinsipini;

b) məhbuslarla münasibətdə geniş tanınmış beynəlxalq müqavilə standartlarının tətbiq edilməsini;

v) haqqında hökm çıxarılmış şəxsin rə'yini;

q) haqqında hökm çıxarılmış şəxsin vətəndaşlığını;

ğ) haqqında hökm çıxarılmış şəxsə və ya cinayət hallarına və ya cəzanın səmərəli icra edilməsinə aid olan və hökmü icra edən dövlətin tə'yin edilməsi zamanı nəzərə alınmalı olan digər amilləri.

Əgər heç bir dövlət tə'yin edilməmişdirsə, azadlıqdan məhrumetmə qaydasında cəza Məhkəmənin yerləşdiyi dövlətin, yə'ni Niderlandın təqdim etdiyi həbsxana müəssisəsində çəkilməlidir.

Məhkəmə istənilən vaxt haqqında hökm çıxarılmış şəxsin digər dövlətin həbsxanasına köçürülməsi barədə qərar qəbul edə bilər. Haqqında hökm çıxarılmış şəxs istənilən vaxt Məhkəməyə onun hökmü icra edən dövlətdən köçürülməsi barədə vəsatətlə müraciət edə bilər.

Azadlıqdan məhrumetmə qaydasında cəzanın təyin edilməsi haqqında hökm bütün iştirakçı dövlətlər üçün məcburidir və onlar hökmü heç bir halda dəyişdirə bilməzlər. Yalnız Məhkəmə hər hansı şikayət və ya yenidən baxma haqqında vəsatət üzrə qərar qəbul etmək hüququna malikdir. Hökmü icra edən dövlət hökm çıxarılmış şəxsə hər hansı bu cür vəsatətlə müraciət etməyə mane olmur. Azadlıqdan məhrumetmə qaydasında cəzanın icra edilməsi Məhkəmənin nəzarəti altında həyata keçirilir və məhbuslarla rəftar geniş tanınmış beynəlxalq müqavilə standartlarına uyğun olmalıdır. Azadlıqdan məhrumetmə şəraiti hökmü icra edən dövlətin qanunvericiliyi ilə tənzim olunur və məhbuslarla rəftar haqqında geniş tanınmış beynəlxalq müqavilə standartlarına uyğun olmalıdır. Bu şərait heç bir halda hökmü icra edən dövlətdə analoji cinayətlər törətməyə görə məhkum olunanların həbsdə saxlanılmalarından az və ya çox əlverişli olmamalıdır.

Haqqında hökm çıxarılmış şəxslər və Məhkəmə arasında yazışmalar maneəsiz və konfidensialdır.

Hökmü icra edən dövlətin vətəndaşı olmayan şəxs cəzasını çəkdikdən sonra əgər hökmü icra edən dövlət bu şəxsə öz ərazisində qalmağa icazə vermirsə, həmin dövlət qanunvericiliyinə uyğun olaraq, bu şəxsi qəbul etməli olan dövlətə və ya bu zaman şəxsin bütün arzularını nəzərə almaqla, onu qəbul etməyə razı olan dövlətə verir.

Hökmü icra edən dövlət, həmçinin öz qanunvericiliyinə uyğun olaraq şəxsi, məhkəmə tə'qibi və ya hökmün icrası məqsədilə ona təslim etmə və ya sərəncamına təqdim etmə haqqında xahişlə müraciət edən dövlətə verə bilər.

Hökmü icra edən dövlət Məhkəmənin çıxardığı hökm üzrə cəzanın müddəti bitənə qədər şəxsi azadlığa buraxa bilməz. Yalnız Məhkəmə

cəza müddətinin hər hansı azaldılması haqqında qərar qəbul etmək hüququna malikdir və şəxsi dinləyərək bu məsələ üzrə qərar çıxarır. Əgər şəxs cəza müddətinin üçdə ikisini və ya azadlıqdan ömürlük məhrumetmə halında 25 ilini çəkmişdirsə, məhkəmə şəxsə münasibətdə çıxardığı hökm üzrə tə'yin edilmiş cəzanın müddətinin azaldılması məsələsini həll etmək üçün hökmü nəzərdən keçirir. Hökmün nəzərdən keçirilməsi yuxarıda göstərilmiş müddət çatanadək həyata keçirilə bilməz. Hökm nəzərdən keçirilərkən məhkəmə aşağıdakı amillərdən birinin və yaxud bir neçəsinin olduğunu müəyyən edərsə, cəza müddətinin azaldılması barədə qərar çıxara bilər:

a) Məhkəmənin həyata keçirdiyi istintaq və cinayət tə'qibində şəxsin Məhkəmə ilə əməkdaşlıq etmək barədə ilkin mərhələdə ifadə olunmuş hazırlığı;

b) digər hallarda Məhkəmənin qərar və əmrlərinin icrasının tə'min edilməsində şəxs tərəfindən könüllü yardım göstərilməsi haqqında qərarların qüvvəsinin şamil edildiyi və zərərçəkmişin maraqları üçün istifadə oluna biləcəyi aktivlərin yerlərinin üzə çıxarılmasında köməklik göstərməsi;

v) cəzanın azaldılması üçün əsas olmağa kifayət edən açıq və mühüm şərait dəyişikliyinə dəlalət edən digər amillər.

U.Şabas Statutda ölüm cəzasının istisna edilməsi, ömürlük həbs cəzasının yenidən baxılmaq şərti ilə yalnız müstəsna dərəcədə ağır cinayətlərə görə tətbiq olunmasını insanpərvərliyin nümunəsi kimi qiymətləndirmişdir.[24]

Təqsirli bilinmiş şəxs həbsdən qaçırsa və hökmü icra edən dövləti tərk edirsə, bu dövlət məhkəmə ilə məsləhətləşmələrdən sonra qüvvədə olan ikitərəfli və ya çoxtərəfli razılaşmalara uyğun olaraq bu şəxsin olduğu dövlətə təhvil vermə haqqında və ya Məhkəməyə şəxsin təhvil verilməsi haqqında vəsatət qaldırmaq xahişi ilə müraciət edə bilər. Məhkəmə şəxsin cəzasını çəkdiyi və ya onun tə'yin etdiyi digər dövlətə gətirilməsi barədə sərəncam verə bilər.

8. Şikayət və təkrar baxış

Apellyasiya şikayətləri verilməsi üçün iki kateqoriya subyektlər fərqləndirilir. Prokuror məhkəmə qərarlarından aşağıdakı əsaslardan

24 William A.Schabas, Sentencing and the International Tribunals: For a Human Rights Approach, (1997) 7 Duke Journal of Comparative and International Law 461-517.

hər hansı birinə əsasən apellyasiya verə bilər:

1) prosessual səhv;

2) faktda səhv;

3) hüquqda səhv

Təqsirli bilinmiş şəxs, yaxud həmin şəxsin adından Prokuror aşağıdakı əsaslardan hər hansı biri ilə apellyasiya verə bilər:

1) prosessual səhv;

2) faktda səhv;

3) hüquqda səhv

4) məhkəmə baxışının və ya qərarın ədalətli olmasına, yaxud bu baxışa və ya qərara inama tə'sir edən istənilən digər əsas.

Sübutetmə və Prosedura Qaydalarına uyğun olaraq Prokuror və ya təqsirli bilinmiş şəxs çıxarılmış hökmün törədilmiş cinayətlə uyğun olmaması əsasına görə hökmdən şikayət verə bilər.

Apellyasiya Palatası Sübutetmə və Prosedura Qaydalarına müvafiq olaraq, xahişə əsasən, bu barədə qərar çıxarmırsa, şikayət özü-özlüyündə baxışın dayandırılmasına səbəb olmur.

Zərərçəkmişin nümayəndəsi, məhkum edilmiş və ya Statuta uyğun olaraq qəbul edilmiş qərar nəticəsində ziyan çəkmiş bona fide mülkiyyətçi Sübutetmə və Prosedura Qaydalarında nəzərdə tutulmuş qaydada ziyanın ödənilməsi haqqında qərardan şikayət edə bilər.

Apellyasiya Palatası Məhkəmə Palatasının bütün səlahiyyətlərinə malikdir. Apellyasiya Palatası şikayət verilən məhkəmə baxışının qərar və hökmə inamı şübhə altına qoya biləcək dərəcədə ədalətsiz olması, yaxud şikayət verilmiş qərar və ya hökmün çıxarılması zamanı faktda, yaxud hüquqda ciddi səhvlər, yaxud prosessual pozuntulara yol verilməsi qənaətinə gəlirsə o, aşağıdakıları edə bilər:

a) qərarı və ya hökmü dəyişdirə və ya ləğv edə bilər;

b) başqa Məhkəmə Palatasında yeni məhkəmə baxışının aparılması haqqında sərəncam verə bilər.

Həmin məqsədlə Apellyasiya Palatası işin faktiki tərəfi ilə əlaqədar məsələni aydınlaşdırmaq və sonradan Apellyasiya Palatasına müvafiq rə'y təqdim etmək məqsədilə ilkin Məhkəmə Palatasına qaytara, yaxud məsələni aydınlaşdırılması üçün özü sübütlar tələb edə bilər. Əgər qərar və ya hökmdən yalnız məhkum edilmiş və ya bu şəxsin adından Prokuror şikayət edirsə, onda bu qərar və ya hökm şəxsin ziyanına dəyişdirilə bilməz. Əgər hökmdən şikayət verilən zaman Apellyasiya Palatası çıxarılmış hökmün törədilmiş cinayətə müvafiq olmaması nəticə-

sinə gəlirsə, hökmü dəyişdirə bilər.

Apellyasiya Palatasının qərarı hakimlərin səs çoxluğu ilə qəbul edilir və açıq iclasda e'lan edilir. Qərarda onun çıxarılmasının əsasları göstərilir. Yekdillik olmadığı halda Apellyasiya Palatasının qərarında çoxluğun və azlığın rə'yi şərh olunur, lakin hər bir hakim hüquqi məsələ üzrə xüsusi, yaxud narazı rə'ylə çıxış edə bilər.

Prokuror Apellyasiya Palatasına ittiham hökmünün çıxarılması haqqında yekun qərara, yaxud hökm üzrə cəzaya aşağıdakı əsaslarla yenidən baxmaq üçün vəsatət verə bilər:

a) yeni sübutlar aşkar edildikdə;

b) məhkəmə baxışının gedişində nəzərə alınmış və ittihamedici hökmün asılı olduğu həlledici sübutun yalan, qondarma və ya saxtalaşdırılmış olmasına dəlalət edən yeni faktlar tapıldıqda;

v) ittihamedici hökmün çıxarılmasında və ya ittihamın təsdiq edilməsində iştirak etmiş bir hakim, yaxud bir neçə hakim həmin işə baxarkən bu hakimi və hakimləri vəzifəsindən kənarlaşdırmaq üçün əsas verən, kifayət qədər ağır xətaya, yaxud öz vəzifələrinin ciddi pozulmasına yol verdikdə.

Apellyasiya Palatası əsassız hesab edərsə vəsadəti rədd edir. Əgər Apellyasiya Palatası vəsatətin mahiyyət üzrə əsaslı olmasını müəyyən edərsə, zəruri hallarda aşağıdakıları edə bilər:

a) yenidən ilk məhkəmə palatasını toplamaq;

b) yenidən məhkəmə palatası formalaşdırmaq;

v) tərəfləri dinləyərək qərarın yenidən baxılmalı olub-olmaması barədə qərar qəbul etmək üçün həmin işə münasibətdə yurisdiksiyanı özündə saxlamaq.

Qanunsuz tutmaya, və ya həbsdə saxlamaya mə'ruz qalmış hər bir kəs iddia gücünə malik olan kompensasiya hüququna malikdir.

9. İştirakçı Dövlətlərin Assambleyası

Statutun 112-ci maddəsi İştirakçı Dövlətlərin Assambleyasına həsr olunmuşdur. İştirakçı Dövlətlərin Assambleyası hər bir iştirakçı dövlətin müavinləri və məsləhətçilərinin müşayiət etdiyi bir nümayəndədən ibarətdir. Statutu və ya Yekun aktını imzalamış dövlətlər Assambleyada müşahidəçi ola bilərlər. Assambleya hazırlayıcı komissiyanın tövsiyələrinə baxır və müvafiq hallarda onları təsdiq edir, məhkəmələrin işləriin idarə olunması məsələləri üzrə inzibati icmalı Rəyasət Hey'əti-

nə, Prokurora, Katibə təqdim edir, Məhkəmənin büdcəsini nəzərdən keçirir və qəbul edir, hakimlərinin sayının dəyişdirilməsinə zərurət olub-olmamasını həll edir, əməkdaşlığa dair müxtəlif məsələlərə baxır və Statutla müəyyənləşdirilmiş digər funksiyaları yerinə yetirir. Assambleyanın tərkibində üç il müddətinə seçilmiş sədr, sədrin iki müavini və 18 üzvünün daxil olduğu Büro vardır. Büro ədalətli coğrafi bölgü kriteriyaları və dünyanın əsas hüquq sistemlərinin təmsil olunması nəzərə alınmaqla nümayəndəlik xarakterinə malikdir. Assambleya yoxlama, qiymətləndirmə və istintaq aparılmasında Məhkəmənin səmərəliliyini və qənaətcilliyini artırmaq məqsədilə müstəqil nəzarət mexanizmlərinin yaradılması daxil olmaqla, zəruri olan köməkçi orqanlar yarada bilər. Assambleyada hər bir iştirakçı dövlət bir səsə malikdir. Assambleya bütün məsələləri konsensus əsasında həll etməyə çalışır. Əgər konsensusa nail olmaq mümkün olmazsa iştirakçı dövlətlərin mütləq səs çoxluğunun səsvermə üçün kvorum təşkil etməsi şərtilə, mahiyyət məsələləri üzrə qərarlar səsvermədə iştirak edən dövlətlərin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Prosedur məsələləri üzrə qərarlar səsvermədə iştirak edən və səs verən iştirakçı dövlətlərin adi səs çoxluğu ilə qəbul edilir.

10. Beynəlxalq əməkdaşlıq

İştirakçı dövlətlər Məhkəmənin yurisdiksiyasına düşən cinayətlərin istintaqı və təqsirli şəxslərin tə'qib olunmasında əməkdaşlıq etməlidirlər. Dövlətlər milli qanunvericiliklərində Məhkəmə ilə əməkdaşlıq formalarının hüquqi ifadəsini tapması üçün tədbirlər görməlidirlər.

BCM Statutu şəxsin Məhkəməyə verilməsini ətraflı tənzimləyir. Bu zaman "vermə" ilə "təslim etmə" arasında fərq qoyulur. "Vermə" dedikdə, dövlətin şəxsi Məhkəməyə təqdim etməsi başa düşülür. "Təslim etmə" dedikdə isə, müqavilə və milli qanunvericilik əsasında şəxsin bir dövlətdən başqasına verilməsidir. Bu fərq mühüm hüquqi əhəmiyyətə malikdir. Mə'lum olduğu kimi təslim etmə dövlətin qanunvericiliyi və beynəlxalq müqavilələrlə tənzimlənir. Azərbaycan Respublikasının Konstitusiyasının 53-cü maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Bu öz əksini Azərbaycan Respublikası CM-nin 13-cü maddəsində də tapmışdır. Orada göstərilir ki, xarici dövlətin ərazisində cinayət törətmiş Azərbaycan Respublikasının və-

təndaşları xarici dövlətə verilə bilməz. Həmin şəxslərin cinayət məs'uliyyətinə cəlb olunması məsələsi Azərbaycan Respublikası cinayət qanunvericiliyinə müvafiq qaydada həll olunmalıdır. CM-nin 13. 2 maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş və Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, cinayət məs'uliyyətinə cəlb edilməsi yaxud tə'yin edilmiş cəzanın icrası üçün Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətə verilə bilər.

Statuta daxil edilmiş ideyanın mahiyyəti ondadır ki, təslim etmə haqqında dövlətin qanun və müqavilələrinin şəxsin Məhkəməyə göndərilməsi ilə birbaşa əlaqəsi yoxdur.[25]

Fikrimizcə, Statutda "vermə" və "təslim etmə" anlayışlarının fərqləndirilməsi beynəlxalq cinayət törətmiş şəxslərin Məhkəməyə verilməsi proseduranın sadələşdirilməsi məqsədinə xidmət edir.

11. Maliyyə məsələləri

Əgər başqa hal nəzərdə tutulmayıbsa, Məhkəməyə və İştirakçı Dövlətlərin Assambleyasının sessiyalarına, o cümlədən Assambleyanın Bürosu və köməkçi orqanlarının iclaslarına aid olan bütün maliyyə məsələləri Statut, Maliyyə əsasnamələri və İştirakçı Dövlətlərin Assambleyasının qəbul etdiyi qaydalarla tənzimlənir.

Məhkəmənin və İştirakçı Dövlətlərin Assambleyasının, o cümlədən onun Bürosu və köməkçi orqanlarının iclaslarının məsrəfləri Məhkəmənin vəsaiti hesabına ödənilir.

Məhkəmənin və İştirakçı Dövlətlərin Assableyasının, o cümlədən onun Bürosu və İştirakçı Dövlətlərin Assambleyası tərəfindən qəbul edilən büdcədə nəzərdə tutulmuş köməkçi orqanlarının məsrəfləri aşağıdakı mənbələr hesabına ödənilir:

a) iştirakçı dövlətlər tərəfindən həyata keçirilən əlavə ödəmələr;

b) Birləşmiş Millətlər Təşkilatının, xüsusən Təhlükəsizlik Şurası tərəfindən vəziyyətlərin verilməsi ilə bağlı çəkilmiş məsrəflərlə əlaqədar təqdim etdiyi və Baş Məclis tərəfindən təsdiq edilməli olan vəsait.

---

25 Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк. 1999.с.

Məhkəmə əlavə vəsait qismində, İştirakçı Dövlətlərin Assambleyası tərəfindən qəbul edilmiş müvafiq kriteriyalar əsasında hökumətlərin, beynəlxalq təşkilatların, ayrı-ayrı şəxslərin, korporasiyaların və ya digər qurumların könüllü ödəmələrini qəbul və istifadə edə bilər.

Məhkəmənin məhkəmə funksiyalarına aid olan istənilən mübahisəsi Məhkəmənin qərarı ilə tənzimlənməlidir.

Statutun təfsiri və ya tətbiqinə münasibətdə iki və ya daha artıq iştirakçı dövlət arasında meydana çıxan və meydana çıxdığı andan üç ay ərzində danışıq yolu ilə tənzimləyən istənilən digər mübahisə İştirakçı Dövlətlərin Assambleyasına verilir. Assambleya mübahisənin həlli üçün özü sə'y göstərir və ya mübahisənin, onun Statutuna uyğun olaraq Beynəlxalq Məhkəməyə verilməsi də daxil olmaqla, bu mübahisənin həlli vasitələrinin sonrakı tətbiqinə münasibətdə tövsiyələr verə bilər.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi BMT-nin Nyu-Yorkdakı qərargahında 2000-ci ilin dekabr ayının 31-dək imzalanmaq üçün açıq olacaqdır.

12. Beynəlxalq Cinayət Məhkəməsinin əhəmiyyəti

Beynəlxalq Cinayət Məhkəməsi Statutunun qüvvəyə minməsi təkcə beynəlxalq hüquqa deyil, həm də dövlətlərin daxili hüququna, hər şeydən əvvəl isə onun cinayət və cinayət prosessual hüququna ciddi tə'sir göstərəcəkdir. İlk növbədə milli hüquq sistemi BCM ilə əməkdaşlığa uyğunlaşdırılmalı, Statutda nəzərdə tutulmuş cinayət tərkibləri milli hüquq sisteminə daxil edilməlidir.

BCM-in fəaliyyəti dövlətlərdə cinayət mühakiməsinin səviyyəsinin yüksəldilməsinə, ədalət mühakiməsinin daha yüksək standartlarına nail olunmasına, "əsil prosesin" tə'min olunmasına, bütün proses iştirakçılarının hüquqlarına riayət olunmasına kömək edəcəkdir.

BCM-in yaradılması eyni zamanda böyük xəbərdaredici funksiyanı yerinə yetirir. Artıq iştirakçı dövlətlərin vətəndaşları törədəcəkləri beynəlxalq cinayətlərə görə mühakimə olunacaqlarının reallığını hiss edəcək, beynəlxalq humanitar hüquq normalarının yerinə yetirilməsinə daha məs'uliyyətlə yanaşacaqlar.

BCM-in yaradılması himayədə olan şəxslərin mühafizəsinin tə'min olunmasında mütərəqqi əhəmiyyət kəsb edəcəkdir.

Beləliklə, BCM-in yaradılması beynəlxalq cinayət hüququnun inki-

şafında yeni mərhələnin başlanğıcını göstərir. Bununla belə gələcəkdə də onun tətbiqində əsas rol milli ədliyyənin üzərinə düşəcəkdir.[26]

BCM-in yaradılmasının əhəmiyyəti həm də ondadır ki, bu Məhkəmə BMT-nin orqanının qərarı ilə deyil, dövlətlərin iradələrinin razılaşdırılması ilə beynəlxalq müqavilə əsasında yaradılır.[27] Dövlətlərin BCM ilə əməkdaşlıq etməsinə dair əlavə sazişin bağlanmasına ehtiyac qalmır. Çünki əməkdaşlıq məsələləri ilə əlaqədar müddəalar BCM-in Statutunda nəzərdə tutulmuşdur. BCM yaradılmasında ad hoc tribunalların təcrübəsindən istifadə edildiyinə görə Məhkəmə daha təkmil bir orqan olacaqdır. BCM-in Statutunda daxili münaqişələr zamanı törədilmiş bir çox əməllərin beynəlxalq cinayət kimi nəzərdə tutulması həmin cinayətlərlə mübarizədə Məhkəmənin mühüm rol oynayacağına dəlalət edir. Nəhayət, BCM Statutunda bir çox cinayət tərkiblərinin daha konkret nəzərdə tutulması, Statuta əsasən cinayətlərin ünsürlərinin qəbul olunacağı, mühakimə icraatının İştirakçı Dövlətlərin Assambleyası tərəfindən qəbul ediləcək Sübutetmə və Prosedura Qaydalarına əsasən aparılacağı da BCM-in beynəlxalq cinayətlərin qarşısının alınmasında əhəmiyyətinin mühümlüyünə dəlalət edir.

26 Бах. Лукашук И.И., Наумов А.В. Международное уголовное право. М., Спарк.. 1999.с. 110-111.

27 Асатур А.А. Развитие международного уголовного права и деятельность международных уголовных судов. // Московский журнал международного права.2/2000/38.с.290.

Fəsil XX

AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT QANUNVERİCİLİYİNDƏ BEYNƏLXALQ HUMANİTAR HÜQUQ NORMALARININ POZULMASINA GÖRƏ MƏS'ULİYYƏT

1. Ümumi müddəalar

Son illər Azərbaycan Respublikasının beynəlxalq səviyyədə bağlanmış müqavilələrə qoşulması ilə xarakterikdir. Beynəlxalq humanitar hüquq sahəsində 12 avqust 1949-cu il tarixli "Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftara dair", "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" Cenevrə Konvensiyaları[1] və 14 may 1954-cü il tarixli "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Haaqa Konvensiyasına[2] Azərbaycan Respublikası 21 aprel 1993-cü il tarixli 573 [1]-li sənədə əsasən qoşulmuşdur. Beynəlxalq humanitar hüququn əsas müddəaları həmin Konvensiyalarda, 8 iyun 1977-ci ildə qəbul edilmiş Cenevrə Konvensiyalarına I və II Əlavə Protokollarda öz ifadəsini tapmışdır. Beynəlxalq humanitar hüququn mənbələrinə, həmçinin müharibə aparılmasının metod və vasitələrini məhdudlaşdıran bir çox başqa müqavilə və konvensiyalar da aid edilir. Heç şübhə yoxdur ki, həmin müqavilələrə nə qədər çox dövlət qoşularsa silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarına riayət edilməsi ehtimalı da bir o qədər artacaqdır. Lakin dövlətlərin müqavilələrə qoşulması faktı özü-özlüyündə o demək deyildir ki, həmin müqavilələrdə nəzərdə tutulmuş prinsiplərə avtomatik riayət olunacaqdır.

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi beynəlxalq hüququn qədim prinsiplərindəndir. Bu prinsip "pacta sunt servanda"(müqavilələrə riayət olunmalıdır) adəti formasında yaranmışdır.

---

1 Bax.1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə protokollar. Bakı.1999.

2 YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı. Azərbaycan.1998. s. 259-284.

İ.İ.Lukaşuk belə hesab edir ki, beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi olmadan beynəlxalq hüquq özünün hüquqi xarakterini itirmiş olardı. Beynəlxalq hüququn hüquqi qüvvəsinin mənbəyi məhz həmin prinsipdədir. O zəruri hüquq (jus necessarium) kateqoriyasına aiddir.[3]

Dövlətlərin beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi müasir beynəlxalq hüquqda rəsmi təsbitini tapmışdır. BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində iştirakçı dövlətlər "müqavilə və beynəlxalq hüququn digər mənbələrindən yaranan öhdəliklərə hörmət və ədalətliliyə riayət etmək şəraiti" yaradacaqlarını, beynəlxalq müqavilə üzrə könüllü olaraq üzərlərinə götürdükləri öhdəliklərə ciddi surətdə əməl edəcəklərini bəyan etmişlər.[4]

1969-cu il "Beynəlxalq müqavilə hüququ haqqında" Vyana Konvensiyasında bu prinsip "hər bir qüvvədə olan müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir" kimi ifadə olunmuşdur.[5]

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 16-cı maddəsində "beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək" başqa dövlətlərlə münasibətin prinsipi kimi e'lan edilmişdir.[6]

Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsində Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurması öz əksini tapmışdır.

Beynəlxalq müqavilələr və beynəlxalq müqavilələrlə dövlətin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi prinsipi haqqında müddəalar Azərbaycan Respublikası Konstitusiyasının digər maddələrində də öz ifadəsini tapmışdır. Konstitusiyanın 148-ci maddəsinin 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ay-

---

3 Лукашук И.И. Международное право. Общая часть.М., 1996. "БЕК". с. 288.

4 Устав Организации Объединенных Нации и Статут Международного Суда. ООН. 1993.с.10.

5 Международное публичное право. Сборник документов.т.1. М., "БЕК" 1996.с.73.

6 Qətiyyətin tən'tənəsi. Sənədli xronika. Bakı.1995. s.205.

rılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsində isə göstərilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Göstərilənlər Azərbaycan Respublikasının beynəlxalq müqavilələr əsasında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi əzmində olduğunu təsdiq edir.

Lakin göstərilənlərlə yanaşı Azərbaycan Resspublikasının Cenevrə Konvensiyalarına qoşulması Konvensiyada ciddi pozuntu kimi nəzərdə tutulmuş əməllərin dövlətin cinayət qanunvericiliyində öz əksini tapmasını tələb edir. Xose Luis Fernandes Flores haqlı olaraq qeyd edir ki, dövlətin daxili qanunvericiliyində ciddi pozuntuların cinayət kimi nəzərdə tutulmaması dövlətin özünün beynəlxalq öhdəliyinə riayət etməsinə dəlalət edir.[7]

Müəllif daha sonra qeyd edir ki, digər pozuntulara görə məs'uliyyət prinsip e'tibarı ilə cinayət məs'uliyyəti deyildir.[8]

Fikrimizcə, bu mövqe ilə razılaşmaq olmaz. Çünki başqa hansı pozuntulara görə fiziki şəxslərin cinayət məs'uliyyətinin müəyyən edilməsi dövlətin öz işidir. Yə'ni dövlət Cenevrə Konvensiyasında ciddi pozuntu kimi nəzərdə tutulmamış əmələ görə dövlətdaxili qanunvericiliklə cinayət məs'uliyyəti müəyyən edə bilər.

2. Dövlətin beynəlxalq humanitar hüquq üzrə öhdəlikləri

Beynəlxalq humanitar hüquq normalarının əksəriyyəti özü icra olunan normalardır. Yə'ni onların tətbiqi üçün xüsusi tədbirlərin görülməsinə ehtiyac yoxdur. Bununla belə Cenevrə Konvensiyaları və onlara Əlavə Protokolların bə'zi müddəalarının icra olunması üçün dövlətlər implementasiya tədbirləri görməlidirlər. İmplementasiya tədbirləri dedikdə, beynəlxalq humanitar hüquqa aid sazişlərin prinsip və normalarının milli səviyyədə konkretləşdirilməsi üçün hüquqi və ya praktiki xarakterli xüsusi tədbirlərin görülməsi başa düşülür. Bütün Cenevrə Kone-

7 Хосе Луис Фернандес Флорес. Пресечение нарушений права войны, совершаемых отдельными лицами // Пресечение нарушений международного гуманитарного права. Сборник статьи. М., МККК. 1998. с. 42.

8 Yenə orada. s. 43.

vensiyaları üçün ümumi olan 1-ci maddədə nəzərdə tutulur ki, "Razılığa gələn Yüksək Tərəflər hər hansı bir şəraitdə Konvensiyaya riayət edəcəklərini və riayət etməyə məcbur edəcəklərini öhdələrinə götürürlər".[9]

Dövlətlər implementasiya tədbirlərini artıq dinc vaxtı həyata keçirməlidirlər ki, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüququn özü icra olunmayan normaları dərhal fəaliyyətə başlasın.[10] Belə bir təsəvvür yarana bilər ki, silahlı münaqişə zamanı hüquqi münasibətləri nizama salan normalara dinc dövrdə diqqət yetirmək zərurəti yoxdur. Lakin dinc dövrdə beynəlxalq humanitar hüququn implementasiyası üzrə tədbirlərlə bağlı irəliyə doğru addımlar atılmazsa, onda silahlı münaqişələr zamanı onun müddəalarına həqiqətən riayət olunacağını gözləmək olmaz. Cenevrə Konvensiyaları artıq sülh vaxtı dövlətlərin müvafiq tədbirlər görmək öhdəliyini nəzərdə tutur.

Cenevrə Konvensiyaları və Əlavə Protokollar əsasında milli səviyyədə dövlətlərin qəbul etməli olduqları qırxa qədər tədbiri qeyd etmək olar.[11] Lakin biz onlardan yalnız beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə məs'uliyyət məsələlərini tədqiq etməyə çalışacağıq.

Cenevrə Konvensiyaları və əlavə protokollara müvafiq olaraq həmin müqavilənin iştirakçısı olan dövlətlər milli səviyyədə "ciddi pozuntular"ın və ya "hərbi cinayətlər"in qarşısını almalıdırlar. Ciddi pozuntular I CK-nın 50-ci, II CK-nın 51-ci, III CK-nın 130-cu, IV CK-nın 147-ci və I Əlavə Protokolun 11, 85, 86-cı maddələrində nəzərdə tutulmuşdur. CK-ları və I Əlavə Protokola əsasən dövlətlər üçün ancaq beynəlxalq silahlı münaqişələr zamanı baş vermiş ciddi pozuntuların qarşısının milli səviyyədə alınması öhdəliyi nəzərdə tutulmuşdur. Lakin bir sıra dövlətlərin, məsələn, Belçika, Kanada, İspaniya, Finlandiya, Ni-

---

9 Женевские конвенции от 12 августа 1949 года и дополнительные протоколы к ним. М., МККК. 1994. с. 3.

10 Мария-Тереса Дутли, Кристина Пелландини. Международный Комитет Красного Креста и система пресечения нарушений норм международного гуманитарного права. // Пресечение нарушений международного гуманитарного права. Сборник статьи. М., МККК. 1998. с.75.

11 Пьер Апраксин. Меры, принимаемые государствами на национальном уровне в целях выполнения обязательств, вытекающих из договоров по международному гуманитарному праву, и роль Консультативной службы международного Комитета Красного Креста./Имплементация международного гуманитарного права на национальном уровне. Материалы семинара. 27-28 апреля 1999г. Баку. с. 80.

derland, və İsveçin cinayət qanunvericiliklərində Cenevrə Konvensiyaları və I Əlavə Protokolun ciddi pozuntusu kimi tövsif olunmuş əməllərin beynəlxalq silahlı münaqişə və ya qeyri-beynəlxalq silahlı münaqişə zamanı törədilməsindən asılı olmayaraq onlar cinayət kimi nəzərdə tutulmuşdur.[12]

Qeyd etmək lazımdır ki, elmi doktrina da bu mövqedən çıxış edir.[13]

Bu cür pozuntuların qarşısının beynəlxalq səviyyədə alınması məsələsinə toxunarkən qeyd etmək lazımdır ki, keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq Tribunalları Cenevrə Konvensiyalarının ciddi pozuntuları ilə əlaqədar işlərə baxmaq səlahiyyətinə malikdirlər. Bu səlahiyyət Yuqoslaviya Beynəlxalq Tribunalı Nizamnaməsinin 5-ci, Ruanda Beynəlxalq Tribunalı Nizamnaməsinin 4-cü maddələrində öz ifadəsini tapmışdır.[14]

Təcrübə göstərir ki, dörd Cenevrə Konvensiyası üçün ümumi olan 3-cü maddənin ciddi surətdə pozulması, yə'ni qeyri-beynəlxalq xarakterli münaqişələr zamanı törədilən beynəlxalq humanitar hüququn ciddi pozuntuları cinayət məs'uliyyətinə səbəb olur. Bu fakt Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın Apellasiya kamerasının 2 oktyabr 1995-ci il tarixdə Tadiçin işi üzrə çıxardığı qərarla da təsdiq olunur.[15]

17 iyul 1998-ci ildə Romada qəbul edilmiş Beynəlxalq Cinayət Məhkəməsi Statutuna müvafiq olaraq məhkəmə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntuları ilə əlaqədar işlərə baxmaq səlahiyyətinə malikdir. Statuta əsasən dörd kateqoriya hərbi cinayətlər nəzərdə tutulmuşdur. Bunlardan iki kateqoriya-Cenevrə Konvensiyalarının ciddi pozuntuları və beynəlxalq münaqişələr zamanı tətbiq olunan müharibə adət və qa-

---

12 Bax.Томас Градицкий. Личная уголовная ответственность за нарушение международного гуманитарного права, применяемого в ситуации немеждународного вооруженного конфликта // Международный Журнал Красного Креста. Март.1998. №20. С.46-53

13 Bax.Дениза Платтнер. Уголовные санкции за нарушения международного гуманитарного права, применяемого в ситуации немеждународных вооруженных конфликтов // Пресечение нарушений международного гуманитарного права. Сборник статьи. М., МККК. 1998. с.75.

14 Международное публичное право. Сборник документов. т. 2. М., "БЕК" 1996.с.103,110.

15 Bax.Affaire N IT-94-1-AR72, Decision de la Chambre d'Appel relative a l'exception prejudicielle sur la competnce dans l'affaire Tadic, paraqraphes 65-142, 2 octobre 1995.

nunlarının digər ciddi pozuntusunu nəzərdə tutan cinayətlərdir. Üçüncü və dördüncü kateqoriya hərbi cinayətlər bütün Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddənin pozulması və qeyri-beynəlxalq xarakterli münaqişələr zamanı tətbiq olunan müharibə adət və qanunlarının pozulmasını nəzərdə tutan cinayətlərdir.[16]

Bə'zi dövlətlərin Cinayət Məcəllələsində silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının ciddi pozuntularının beynəlxalq və qeyri-beynəlxalq xarakterli münaqişələr zamanı törədilməsi xüsusi olaraq fərqləndirilir. Məsələn, Tacikistan Respublikası Cinayət Məcəlləsinin 403-404-cü maddələrində bu hal xüsusi olaraq nəzərdə tutulmuşdr. Azərbaycan Respublikası Cinayət Məcəlləsində beynəlxalq humanitar hüquq normalarının ciddi pozuntularına görə cinayət məs'uliyyətinin nəzərdə tutulması həmin pozuntuların beynəlxalq və ya qeyri-beynəlxalq münaqişələr zamanı törədilməsi əlamətinə görə fərqləndirilmir. Həmin məs'uliyyəti nəzərdə tutan normalarda pozuntuların ancaq silahlı münaqişə zamanı baş verməsi əlaməti əsas götürülür. CM-nin "Müharibə cinayətləri" fəsilində verilmiş qeyddə göstərilir ki, bu fəsildə nəzərədə tutulmuş istər beynəlxalq, istərsə də daxili silahlı münaqişə zamanı hərbi əməliyyatların planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması ilə əlaqədar olaraq törədilmiş əməllər müharibə cinayətləri hesab olunur. Beynəlxalq və ya daxili silahlı münaqişə zamanı törədilməsi əlamətlərindən asılı olmayaraq beynəlxalq humanitar hüquq pozuntularının cinayət kimi nəzərdə tutulması mütərəqqi bir hal kimi qeyd olunmalıdır. A.İ.Lukaşov Belorus Respublikası CM-də nəzərdə tutulan "silahlı münaqişə" anlayışının həm beynəlxalq, həm də qeyri-beynəlxalq silahlı münaqişələri ehtiva etdiyini təsdiq edir.[17]

Beynəlxalq humanitar hüququn ciddi pozuntularının cinayət qanunvericiliyinə daxil edilməsi ilə yanaşı, bu cür pozuntuların qarşısının alınması sahəsində öhdəliklərin tam yerinə yetirilməsi üçün qanunveri-

---

16 Дипломатическая конференция полномочных представителей под эгидой Организации Объединенных Наций по учреждению международного уголовного суда. Рим. Италия 15 июня - 17 июля 1998. ООН. 1998. с. 7-12.

17 Лукашов А. И., Саркисова Э.А. Уголовный Кодекс Республики Белорусь. Сравнительный анализ и комментарий. Минск. Тесей. 2000. С. 166.

cilikdə bə'zi ümumi prinsiplərin nəzərdə tutulması mühüm əhəmiyyət kəsb edir.

3. Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin beynəlxalq cinayətlərin qarşısının alınmasına yönəlmiş ümumi prinsipləri

Yeni qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin beynəlxalq humanitar hüquq pozuntuları ilə bağlı bə'zi müddəalarına münasibətimizi bildirmək istərdik. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, son dövrlərdə qəbul edilmiş digər qanunlar kimi Azərbaycan Respublikasının CM-də də beynəlxalq hüquqi aspektlər daha geniş şəkildə öz ifadəsini tapmışdır. Məcəllənin 1.2. maddəsində göstərilir ki, "bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır".

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 mart 2000-ci il tarixli "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının qorunması sahəsində məhkəmələrin fəaliyyəti haqqında" 1 №-li qərarında göstərilir ki, "məhkəmələrin diqqəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının tə'min edilməsini dövlətin ali məqsədi e'lan etmiş Azərbaycan Respublikasının Konstitusiyası, habelə dövlətimizin qoşulduğu beynəlxalq sazişlərdən irəli gələn müddəaların dönmədən həyata keçirilməsindən ibarət vəzifələrinə cəlb edilməlidir... Məhkəmələr (hakimlər) qərarlar qəbul edərkən dövlətimizin qoşulduğu beynəlxalq sazişlərə birbaşa istinad etməlidirlər".

Sözsüz ki, gələcəkdə Azərbaycan Respublikasının tərəfdar çıxacağı yeni beynəlxalq müqavilələrin müddəaları cinayət hüquqi məsələlərə toxunacaqsa cinayət hüququ sahəsində müstəqil fəaliyyət göstərə bilməz. Onların əsasında müvafiq qanunlar qəbul edilməklə CM-nə əlavə və dəyişikliklər etmək zəruri olacaqdır.

4. Universal yurisdiksiya

Cinayət qanununun Azərbaycan Respublikası ərazisindən kənarda törədilən cinayətlərə görə qüvvəsini nəzərdə tutan 12-ci maddəsində

bə'zi beynəlxalq hüquqi məsələlər öz əksini tapmışdır. Belə ki, 12.1-ci maddəyə əsasən Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məs'uliyyətinə cəlb edilirlər. Burada bir neçə məqama diqqət yetirilməsi zəruridir. Əvvəla, göstərilən norma non bis in idem (eyni əmələ görə iki dəfə cəzalandırmaq olmaz) prinsipini nəzərdə tutur. İkinci, vətəndaşlığı olmayan şəxslərin cinayət məs'uliyyəti onların Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşamasından asılı vəziyyətə qoyulur. Əgər onlar Azərbaycan Respublikasında daimi yaşayırlarsa onda Azərbaycan Respublikasından kənarda törətdikləri cinayətlərə görə Azərbaycan Respublikası vətəndaşları üçün müəyyən edilmiş qaydada məs'uliyyət daşıyırlar. Həmin şəxslər Azərbaycan Respublikasında daimi yaşamırlarsa onda əcnəbilər üçün müəyyən edilmiş qaydada cavabdehlik daşıyırlar. Üçüncü, Azərbaycan Respublikası vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əməllərə görə yalnız həmin əməl həm Azərbaycan Respublikası qanunvericiliyinə, həm də əməlin ərazisində törədildiyi dövlətin qanunvericiliyinə görə cinayət kimi qiymətləndirildikdə cinayət məs'uliyyəti daşıya bilər. Yə'ni cinayət məs'uliyyətinin yaranması üçün əməlin hər iki dövlətdə cinayət kimi nəzərdə tutulması tələb olunur. BQXK nümayəndələrinin mövqeyinə görə, bu Cenevrə Konvensiyaları və Əlavə Protokollarla da müəyyən edilmiş, beynəlxalq hüquqda nəzərdə tutulan universal yurisdiksiyanın həyata keçirilməsi öhdəliyi ilə ziddiyyət təşkil edir.[18]

Həmin mövqe ilə o halda razılaşmaq mümkündür ki, beynəlxalq cinayətlər və digər cinayətlərə münasibət fərqləndirilməmiş olsun. Beynəlxalq cinayətlərə görə şəxsin cinayət məs'uliyyətinə cəlb edilməsi üçün, onun törətdiyi əməlin hər iki dövlətin cinayət qanunvericiliyində nəzərdə tutulması zəruri deyildir. Digər cinayətlərə münasibətdə isə CM-də öz əksini tapmış müddəa tətbiq olunmalıdır.

---

18 Пресечение военных преступлений на национальном и международном уровне. Общие принципы уголовного права. (Рабочий документ). Москва. 29-31 мая 2000. с.14-15.

12.3. maddəsinin məzmunundan isə görünür ki, beynəlxalq cinayətlər üzrə cinayət məs'uliyyətinin yaranması həmin cinayətlərin törədilməsi yerindən asılı deyildir: "Sülh və bəşəriyyət əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məs'uliyyətinə cəlb edilir və cəzalandırılır".

3 dekabr 1973-cü il tarixdə BMT Baş Məclisinin 3074 (XXVIII) saylı qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"ndə müəyyən edilmişdir ki, hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məhkəmə məs'uliyyətinə cəlb olunmalı və müqəssir sayıldıqda cəzalandırılmalıdırlar".[19]

Hər bir dövlət öz vətəndaşlarını hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə görə mühakimə etmək hüququna malikdir.

Beynəlxalq humanitar hüquq hərbi cinayətlərlə əlaqədar milli məhkəmələrin yurisdiksiyasının universallığı prinsipini nəzərdə tutur. Yurisdiksiyanın universallığı aut judicare, aut dedere (ya cəzalandır, ya da ver) prinsipindən irəli gəlir. Həmin prinsip I CK-nın 49, II CK-nın 50, III CK-nın 129, IV CK-nın 146-cı maddələri və I Əlavə Protokolun 85-ci maddəsinin 1-ci bəndində öz ifadəsini tapmışdır. Bu prinsipə müvafiq olaraq dövlət hərbi cinayəti törətməkdə şübhəli olan və ya bu cinayətin törədilməsi barədə əmr vermiş şəxsi axtarmalı və vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq məhkəmə məs'uliyyətinə almalıdır. Eyni zamanda dövlət həmin şəxsi məhkəmə məs'uliyyətinə cəlb etməsi üçün daha çox əsası olan dövlətə mühakimə edilməsi üçün verə bilər.

19 Beynəlxalq müqavilələr toplusu. Bakı. Azərbaycan. 1998. s. 116.

12.2-ci maddəyə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdikləri halda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda və bu cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, bu Məcəllə əsasında cinayət məs'uliyyətinə cəlb oluna bilərlər.

Azərbaycan Respublikası CM-nin 12. 4-cü maddəsində sülhməramlı hərbi birləşmələrin tərkibinə daxil olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinə mənsub hərbi hissələrin hərbi qulluqçuları Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri cinayətə görə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə başqa hal nəzərdə tutulmamışsa, bu Məcəllə əsasında cinayət məs'uliyyətinə cəlb edilirlər müddəası nəzərdə tutulmuşdur.

BMT-nin rəhbərliyi altında həyata keçirilən sülhü qoruma və sülhü bərpa etmə tədbirləri zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə cavadehlik məsələsi beynəlxalq hüquqda son dövrlərdə daha çox müzakirə olunan məsələlərdəndir. BQXK belə bir mövqedən çıxış edir ki, BMT-nin rəhbərliyi altında həyata keçirilən hərbi əməliyyatlar zamanı beynəlxalq humanitar hüquq normalarına sözsüz riayət olunmalı və hərbi əməliyyatlara BMT rəhbərlik etdiyi üçün həmin normaların tə'min olunmasına görə cavabdehlik daşımalıdır. BMT nümayəndələrinin mövqeyinə görə isə, BMT Cenevrə Konvensiyalarına əsasən münaqişədə nə "tərəf", nə də "dövlət" hesab oluna bilməz. BMT beynəlxalq təşkilat kimi mahiyyət e'tibarı ilə 1949-cu il Konvensiyalarının iştirakçısı olmaq və onun müddəalarına riayət etmək öhdəliklərini üzərinə götürmək imkanına malik deyildir. Özünün hüquq subyektliliyinə baxmayaraq BMT dövlət deyil və ona görə də, bu konvensiyaların dövlətin üzərinə qoyduğu bir çox öhdəlikləri yerinə yetirmək üçün zəruri olan hüquqi və inzibati səlahiyyətlərə malik deyildir. Nəhayət, formal cəhətdən BMT Cenevrə Konvensiyalarının iştirakçısı ola bilməz. Çünki BMT kimi beynəlxalq təşkilatın konvensiyaların iştirakçısı olması konvensiyaların özündə nəzərdə tutulmamışdır. Özünün prinsipial mövqeyini saxlamaqla BMT eyni zamanda beynəlxalq humanitar hüquq normalarının sülhü qorumaq üzrə qüvvələrə tətbiq olunması səviyyəsinin yüksəldilməsinə, öz kontingentini BMT-nin sərəncamına göndərmiş dövlətlərin həmin normaların həyata keçirmə qaydalarını təkmilləşdirməsinə cəhd edir. Bu məqsədlə "BMT qüvvə-

ləri nizamnaməsi"nə aşağıdakı müddəa daxil edilmişdir: "BMT qüvvələri hərbi qulluqçuların davranışını tənzimləyən əsas beynəlxalq konvensiyaların ruhuna hörmət və prinsiplərinə riayət edir". Beləliklə, BMT-nin sərəncamına verilmiş qoşunların beynəlxalq humanitar hüquq normalarına hörmət etməsinin tə'mini üzrə cavabdehlik öz kontengentini vermiş dövlətin üzərinə düşür. Bu müddəa BMT-nin sərəncamına hərbi birləşmələr göndərilərkən BMT ilə hərbi birləşmələri təqdim edən dövlət arasında bağlanmış müqavilələrdə də öz əksini tapır.[20]

CM-nin 12.5 maddəsinə əsasən bu Məcəllənin 12.1-12.4-cü maddələrində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tə'yin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz.

5. Cinayət törətmiş şəxslərin verilməsi

Beynəlxalq huquq və cinayət hüququnda cinayətkarların verilməsi dedikdə, cinayət törətmiş və ya onu törətməkdə şübhəli hesab edilən şəxsin cinayət məs'uliyyətinə cəlb edilməsi və ya ona münasibətdə ittiham hökmünün icra olunması üçün bir dövlət tərəfindən başqa dövlətə verilməsi başa düşülür. Cinayət Məcəlləsində cinayət törətmiş şəxslərin geri verilməsi barədə xüsusi normanın nəzərdə tutulması da təqdirəlayiq haldır. Müharibə cinayəti törətmiş şəxslərin verilməsi ilə əlaqədar beynəlxalq səviyyədə bağlanmış müqavilələrdə nəzərdə tutulan məsələlər milli qanunvericilikdə də öz əksini tapmışdır. "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyanın[21] 2-ci maddəsində iştirakçı dövlətlər hərbi cinayət törətmiş şəxslərin beynəlxalq hüquqa müvafiq olaraq təhvil verilməsi üçün şərait yaradılmasına yönəldilmiş qanunvericilik və digər xarakterli bütün lazımi daxili tədbirləri görməyi öhdələrinə götürürlər. BMT Baş Məclisinin qəbul etdiyi "Hərbi cinayətlərdə, bəşəriyyətə

---

20 Bu barədə ətraflı bax: Симпозиум по вопросам гуманитарной деятельности и осуществления операций по поддержанию мира. Отчет. М., МККК. 1995.

21 Azərbaycan Respublikası 31 may 1996-cı ildə 98-IQ №-li sənədlə həmin konvensiyaya qoşulmuşdur.

qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"ndə də hərbi cinayətkarların verilməsi barədə müddəalar öz əksini tapmışdır.[22]

CM-nin 13.1 maddəsinə əsasən xarici dövlətin ərazisində cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşları xarici dövlətə verilə bilməz. Həmin şəxslərin cinayət məs'uliyyətinə cəlb olunması məsələsi Məcəllənin 12-ci maddəsinə müvafiq qaydada həll edilir. Göstərilən müddəa Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsində nəzərdə tutulan prinsipə əsaslanır. Həmin prinsipə əsasən Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

CM-nin 13.2 maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş və Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, cinayət məs'uliyyətinə cəlb edilməsi yaxud tə'yin edilmiş cəzanın icrası üçün Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətə verilə bilərlər.

Cinayətkarların verilməsi haqqında beynəlxalq müqavilələr çoxtərəfli (məsələn, Avropa Şurasının "Cinayətkarların verilməsi haqqında" 1957-ci il Avropa Konvensiyası, Müstəqil Dövlətlər Birliyi üzvü olan dövlətlərin qəbul etdiyi "Hüquqi yardım və mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında" 1994-cü il Konvensiyası) və ya ikitərəfli (məsələn, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında "Hüquqi yardım və mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında" 22 dekabr 1992-ci ildə bağlanmış müqavilə) ola bilər.

CM-nin 13.3 maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda cinayət törətmiş şəxslər xarici dövlətə verilmirsə və həmin əməl(hərəkət və ya hərəkətsizlik) Cinayət Məcəlləsinə əsasən cinayət sayılırsa, onlar Azərbaycan Respublikasında cinayət məs'uliyyətinə cəlb olunurlar.

CM-nin 13.4 maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə cinayət törətmiş şəxslərin geri verilməsinə dair digər müddəalar müəyyən olunduqda, beynəlxalq müqavilələr tətbiq edilir.

22 Beynəlxalq müqavilələr toplosu. Bakı. 1998.s.115-117.

Cinayətkarların verilməsi məsələsi ilə əlaqədar Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı müqavilələrin sayı getdikcə artır. Həmin məsələlərə elmi doktrinada da xüsusi diqqət yetirilir.[23]

6. Əmrin və ya sərəncamın yerinə yetirilməsi

Cinayət Məcəlləsində əmrin və sərəncamın yerinə yetirilməsi ilə əlaqədar xüsusi maddənin nəzərdə tutulması beynəlxalq humanitar hüquq nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.[24]

Beynəlxalq hərbi cinayətlərin törədilməsinə görə əsas hərbi cinayətkarlardan başqa dövlətin cinayətkar əmrlər verən, bu əmrləri icra edən vəzifəli şəxsləri də məs'uliyyət daşıyır. Yüksək vəzifəli mə'murların göstəriş və sərəncamlarının icrası üçün əmrlər vermiş şəxslərin məs'uliyyəti əsas hərbi cinayətkarların məs'uliyyətindən fərqlidir. Bu cəhətdən cinayətkar əmrin icrası hallarında məs'uliyyət məsələsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası CM-nin ümumi hissəsində əmrin icrası ilə bağlı müddəanın nəzərdə tutulması beynəlxalq humanitar hüquq baxımından mütərəqqi haldır. CM-nin 40-cı maddəsinə əsasən müəyyən edilmiş qaydada verilmiş və icrası şəxs üçün məcburi olan əmr və ya sərəncamı yerinə yetirərkən həmin şəxs tərəfindən bu Məcəllə ilə qorunan obyektlərə zərər vurulması cinayət sayılmır. Belə zərərə görə qanunsuz əmr və ya sərəncam vermiş şəxs cinayət məs'uliyyəti daşıyır. Göstərilən vəziyyət CM-də ilk dəfədir ki, özünün qanuni həlli qaydasını tapmışdır. Qeyd etmək lazımdır ki, rəis tərəfindən verilmiş əmr və sərəncamın yerinə yetirilməsi ilə əlaqədar olaraq cinayət qanunu ilə qorunan maraqlara ziyan vurulmasının qanuniliyinin qiymətləndirilməsi ilə bağlı məsələlərə təcrübədə çox rast olunur. Bu əksər hallarda hərbi qulluqçular və daxili işlər orqanlarının əməkdaşları ilə bağlı olur. Təqdirəlayiq haldır ki, 11 noyabr 1999-cu ildə qəbul edilmiş "Polis haqqında" Qanunda qeyri-qanuni əmrin icrası ilə bağlı müddəalar öz əksini tapmışdır. Qanunun 13-cü maddəsinə əsasən "polis əməkdaşı öz

---

23 Лукашук И. И., Наумов А. В. Выдача обвиняемых и осужденных в международном уголовном праве. М., 1998.

24 Бах. Морис Обер. Вопрос о приказах старших войсковых начальников и ответственности командиров // Пресечение нарушений международного гуманитарного права. Сборник статьи. М., МККК. 1998. с.115.

səlahiyyətlərini həyata keçirərkən bilavasitə və birbaşa rəisinə tabedir. Polis əməkdaşı, həmçinin tabelik üzrə yuxarı rəisin əmr və göstərişlərini icra etməyə borcludur. Hər hansı vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə, polis əməkdaşı xidməti üzrə tabeliyi olmayan polisin yuxarı rütbəli şəxsinin əmr və göstərişlərini icra etməyə borcludur.

Polis əməkdaşı açıq-aşkar qanuna zidd əmr və göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu barədə polisin rəhbərliyinə mə'lumat verməlidir.

Açıq-aşkar qanunsuz əmri və ya göstərişi icra etməmək məs'uliyyətə səbəb olmur. Belə əmri və ya göstərişi icra edən polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məs'uliyyət daşıyır".[25]

Əmr və sərəncam dedikdə, rəisin tabeleyində olan şəxsə verdiyi icrası məcburi olan tələb başa düşülür. Bu tələb həm şifahi və ya yazılı olmaqla birbaşa və vasitəçiliklə verilə bilər. Əmr və sərəncam rəisin iradəsini ifadə etməsidir. Əmr və sərəncamın məcburiliyi, tabelikdə olan şəxslərin onun qanuniliyinə inamına görə onlar bu və ya digər hərəkətin (hərəkətsizliyin) törədilməsi üçün icraçı tərəfindən əsas kimi qəbul olunur. Onların hüquqi qüvvəsi icra fəaliyyətinin özündən yüksəkdir. Ona görə də, qanunsuz əmr və ya sərəncamın nəticələrinə görə məs'uliyyət onları verən rəisin üzərinə qoyulur.

Bilə-bilə qanunsuz əmri və ya sərəncamı yerinə yetirməklə qəsdən cinayət törətmiş şəxs ümumi əsaslarla cinayət məs'uliyyətinə cəlb olunur. Burada artıq cinayətin törədilməsində rolların bölüşdürülməsi ilə iştirakçılıq mövcud olur. Rəis qəsdən törədilmiş cinayətin təşkilatçısı kimi (mad. 32. 3) , tabelikdə olan şəxs isə icraçı kimi çıxış edir (mad. 32. 2).

İştirakçılıqla törədilmiş cinayətə görə cəza tə'yin edilərkən iştirakçılardan hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakteri və dərəcəsi, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyəti, vurulmuş zərərin həcminə və xarakterinə onun tə'siri nəzərə alınır.

Cəzanı yüngülləşdirən və ya ağırlaşdıran hallar iştirakçılardan birinə aid olduqda, cəza tə'yin edilərkən yalnız həmin şəxsə münasibətdə nəzərə alınır.

---

25 Azərbaycan Respublikasının Qanunvericilik toplosu. № 11 30 noyabr 1999. s.2283

Tabeçilikdə olanın rəisdən asılı olması və onun davranışının bu və ya digər dərəcədə rəisin əmrinin tə'sirinə mə'ruz qalması cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər (mad. 59. 1. 6; 59. 1. 7).

Qanunsuz əmr və ya sərəncamın yerinə yetirilməməsi cinayət məs'uliyyətinə səbəb olmur.

7. Müddətin tətbiq edilməməsi

Cenevrə Konvensiyaları və I Əlavə Protokol hərbi cinayətlərə müddətin tətbiq edilməməsi ilə bağlı heç bir norma nəzərdə tutmamışdır. Lakin beynəlxalq hüquq beynəlxalq cinayətlərə müddətin keçməsi ilə əlaqədar cinayət məs'uliyyətindən azadetmə müddəlarının tətbiq edilməməsini tələb edir. BMT Baş Məclisinin 26 noyabr 1968-ci il tarixli 2931 (XXIII) saylı qətnaməsi ilə qəbul edilmiş "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyasının 1-ci maddəsinə əsasən hərbi cinayətlər törədildiyi vaxtdan asılı olmayaraq onlara heç bir müddət tətbiq edilmir.[26] Azərbaycan Respublikası 31 may 1996-cı ildə həmin konvensiyaya qoşulmuşdur.

1949-cu il Cenevrə Konvensiyalarında ciddi pozuntular kimi müəyyənləşdirilmiş əməllərə müddətin tətbiq edilməməsi Avropa Şurası tərəfindən 25 yanvar 1974-cü ildə qəbul edilmiş "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında" Avropa Konvensiyasının 1-ci maddəsində də öz əksini tapmışdır.[27]

CM-nin müddətin keçməsi ilə bağlı cinayət məs'uliyyətindən azadetməni nəzərdə tutan 75.1. maddəsinə əsasən cinayət törətdiyi gündən həmin maddə ilə müəyyən edilən müddətlər keçdikdə şəxs cinayət məs'uliyyətinə cəlb edilə bilməz.

Cinayət məs'uliyyətinə cəlb etmə müddəti dedikdə, cinayət qanununda nəzərdə tutulan və cinayət törədildikdən sonra keçməsi ilə cinayət törətmiş şəxsin cinayət məs'uliyyətinə cəlb edilməkdən azad edən müddət başa düşülür. Müddət institutunun tətbiqinin maddi-hüquqi əsasını uzun vaxt keçməsi nəticəsində törədilmiş cinayətin ictimai təh-

---

26 Beynəlxalq müqavilələr toplusu. Bakı.1998.s.114.

27 Защита прав человека и борьба с преступностью. Документы Совета Европы. М., 1998. с. 75.

Onu da qeyd etmək lazımdır ki, neytral dövlətin öz vətəndaşlarına münaqişələrdə muzdlu kimi iştirakı qadağan etmək vəzifəsi yoxdur.[39] Muzdlu anlayışı I Əlavə Protokolun 47-ci maddəsində öz ifadəsini tapmışdır. Həmin maddəyə əsasən muzdlunun kombatant və ya hərbi əsir statusu almaq hüququ yoxdur. Eyni zamanda muzdlu elə bir şəxsdir ki:

a) silahlı münaqişədə vuruşmaq üçün ölkə daxilindən və ya xaricdən xüsusi olaraq cəlb edilmişdir;

b) faktiki olaraq, döyüş əməliyyatlarında bilavasitə iştirak edir;

v) əsasən şəxsi mənfəət götürmək niyyəti ilə döyüş əməliyyatlarında iştirak edir və həqiqətən də, münaqişədə iştirak edən Tərəfdən və ya bu tərəfin tapşırığı ilə ona həmin tərəfin silahlı qüvvələrinə daxil olub, eyni rütbə və vəzifələri daşıyan döyüşçülərə və'd edilən və ya ödənilən haqdan xeyli artıq maddi haqq və'd edilmişdir;

q) nə münaqişədə iştirak edən Tərəfin vətəndaşı, nə də münaqişədə iştirak edən Tərəfin nəzarət etdiyi ərazinin daimi sakini deyildir;

ğ) münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin üzvü deyildir; və

j) münaqişədə iştirak edən tərəf olmayan Dövlət tərəfindən onun silahlı qüvvələrinin üzvü kimi rəsmi vəzifələri icra etməyə göndərilməmişdir.

I Əlavə Protokolda muzdlunun fərqləndirilməsi üçün müəyyənləşdirilmiş şərtlər muzdlular kateqoriyasına daxil edilməli olan şəxslərin dairəsini olduqca məhdudlaşdırır. Yə'ni olduqca asanlıqla muzdlunun kambatant statusu almaq imkanı yaranır. E. David həmin məsələləri şərh edərkən tipik bir ingilis yumorunu xatırladır: "Özünü tə'rifdən kənarlaşdıra bilməyən hər bir muzdlu öz vəkili ilə birlikdə güllələnməyə layiqdir".[40] BMT Baş Məclisinin 44-cü sessiyasında 4 dekabr 1989-cu il tarixli qətnamə (44/34) ilə qəbul edilmiş "Muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və tə'limi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya[41] muzdluluqla mübarizədə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası 30 sentyabr 1997-ci il tarixli 366-IQ №-li sənədlə həmin Konvensiyaya qoşulmuşdur. Konvensiyada

39 Лукашук И. И. Международное право. Особенная часть. М., БЕК. 1998. с. 310.

40 Эрик Давид. Принципы вооруженных конфликтов. М. МККК. 2000. с. 344.

41 Действующее международное право.т.2. М., 1997.с.812-819.

muzdlu anlayışı daha da dəqiqləşdirilmiş və genişləndirilmişdir. Konvensiyanın 1-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq həmin termin həm də:

1) hökumətin devrilməsi və ya dövlətin konstitusiya qaydasını başqa cür sarsıtmaq, yaxud dövlətin ərazi bütövlüyünü pozmağa yönəldilmiş zorakılıq hərəkətlərində birgə iştirak üçün həmin dövlətdə və ya xaricdə xüsusi olaraq cəlb edilən;

2) bu cür hərəkətlərdə iştirak etməklə başlıca olaraq mühüm qazanc almaq arzusunu və belə ödəniş və'dlərini rəhbər tutan və ya maddi mükafat ödənilməsinə həvəslənən;

3) həmin hərəkətlərin yönəlmiş olduğu dövlətin vətəndaşı və ya orada daimi yaşamayan;

4) Dövlət tərəfindən inzibati vəzifələri yerinə yetirmək üçün göndərilməmiş;

5) həmin hərəkətlərin ərazisində törədildiyi dövlətin silahlı qüvvələrinin şəxsi hey'ətinin tərkibinə daxil olmayan şəxsləri də əhatə edir.

Göstərilən anlayışın sonuncu bəndləri muzdlunun hərbi müşavir və tə'limatçılardan fərqləndirilməsinə imkan verir. Hərbi müşavir və tə'limatçılar ikitərəfli saziş əsasında silahlı qüvvələrin yaradılması, hərbi kadrların hazırlınması və qoşunun tə'limi, bə'zən isə döyüş əməliyyatlarının təşkili və aparılması üçün başqa dövlətlərə göndərilir.[42] Onu da qeyd etmək lazımdır ki, muzdlunun xarakterik cəhətlərindən biri onun münaqişədə olan tərəflərin silahlı qüvvələrinin tərkibinə daxil olmamasıdır. 1982-ci ildə BMT Təhlükəsizlik Şurası Argentinanın Britaniya ordusunda xidmət edən qurkların muzdlu hesab edilməsi barədə müraciətini müzakirə etmişdir. Britaniya nümayəndəsi həmin iddiamı rədd etmiş və sübut etmişdir ki, Nepal ilə bağlanmış sazişə müvafiq olaraq qurklar Britaniya nizami qoşunlarının tərkib hissəsini təşkil edirlər.[43] 1989-cu il Beynəlxalq Konvensiyasına əsasən muzdlunun cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və tə'limi (mad. 2) , muzdluluğun özü (mad. 3, bənd 1) və həmin cinayətdə iştirak etmək (mad. 4) də cinayət kimi qiymətləndirilmişdir.

Konvensiyaya əsasən göstərilən əməllərin aradan qaldırılması və onlarla mübarizə məqsədilə iştirakçı dövlətlər milli qanunvericilikdə

---

42 Калугин В. Ю., Павлова Л. В., Фисенко И. В. Международное гуманитарное право. Минск Тесей. 1999. с. 97

43 BYIL. 1982.Vol. 53.P. 418

həmin cinayətlərin törədilməsinə görə cinayət məs'uliyyəti nəzərdə tutmalıdır (mad 5, bənd 3).

CM-nin 115-ci maddəsi müharibə qanunlarını və adətlərini pozmağa görə cinayət məs'uliyyətini nəzərdə tutur. 115. 1-ci maddəyə əsasən əsirləri, beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxsləri əsir götürmüş tərəfin silahlı qüvvələrində xidmət etməyə, habelə düşmən dövlətin vətəndaşlarını öz ölkələrinə qarşı yönəlmiş hərbi əməliyyatlarda iştirak etməyə məcbur etmə cinayət kimi nəzərdə tutulmuşdur.

Həmin maddədə nəzərdə tutulmuş şəxslərin dairəsinin müəyyən edilməsi məqsədilə beynəlxalq humanitar hüquqa müraciət edilməsini zəruri hesab edirik. Beynəlxalq humanitar hüquqa əsasən işğal olunmuş ərazilərdə və ya hərbi əməliyyatlar aparılan rayonlarda silahını təhvil verən və ya özünümüdafiə vasitələrindən məhrum olan şəxslər, yaralılar, xəstələr, gəmi qəzasına uğrayanlar, tibbi, sanitar hey'əti və ruhanilər, hərbi əsirlər, mülki əhali, hərbi əməliyyatlar zamanı beynəlxalq müdafiədən istifadə etmək hüququ olan şəxslər beynəlxalq humanitar hüquqla müdafiə olunan şəxslərə aid edilir. "Silahını təhvil verən və ya özünümüdafiə vasitələrindən məhrum olan şəxs"in anlayışı I Əlavə Protokolun 41-ci maddəsinin 2-ci hissəsində verilmişdir. Burada göstərilir ki, "aşağıdakı hallarda hər hansı şəxs sıradan çıxmış sayılır:

a) düşmən Tərəfin hakimiyyəti altında olduqda;

b) əsir düşmək niyyətini açıq ifadə etdikdə;

s) huşu özündə olmadıqda və ya yaralanma və ya xəstələnmə nəticəsində hər hansı başqa şəkildə sıradan çıxaraq özünü müdafiə etməyə qadir olmadıqda, bu şərtlə ki, həmin şəxs göstərilən bütün hallarda hər hansı düşmənçilik hərəkətindən çəkinsin və qaçmağa cəhd göstərməsin".

Beynəlxalq humanitar hüquqda "yaralı" və "xəstə" dedikdə, zədələnmə, xəstəlik və ya fiziki və ruhi nasazlıq və əlillik nəticəsində tibbi yardıma və qulluğa ehtiyacı olan və hər hansı düşmənçilik hərəkətindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Bu terminlər, həmçinin zahılara, yeni doğulmuş körpələrə və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən digər şəxslərə, məsələn, taqətsiz şəxslərə və hamilə qadınlara da aiddir.

"Gəmi qəzasına uğrayanlar" dedikdə, onların və ya onları daşıyan gəminin və ya uçuş aparatının düçar olduğu fəlakət nəticəsində dənizdə və ya başqa sularda təhlükəyə məruz qalan və hər hansı düşmənçi-

lik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur.

"Tibbi, sanitar hey'ət" dedikdə, münaqişədə iştirak edən tərəflərin yalnız yaralıların, xəstələrin, gəmi qəzasına uğrayanların axtarılması, toplanması, daşınması, diaqnoz qoyulması və ya müalicəsi, o cümlədən ilk tibbi yardım göstərilməsi, habelə xəstəliklərin profilaktikası üçün yaratdığı və ya tibbi birləşmələri idarə etmək üçün tə'yin etdiyi şəxslər nəzərdə tutulur. Belə tə'yinatlar həm daimi, həm də müvəqqəti ola bilər. Həmin termin aşağıdakıları əhatə edir:

1) Birinci və İkinci Konvensiyalarda göstərilən hey'ət də daxil olmaqla, münaqişədə iştirak edən tərəfin həm hərbi, həm də mülki tibbi hey'əti və mülki müdafiə təşkilatlarına təhkim olunmuş hey'ət;

2) Milli Qırmızı Xaç (Qırmızı Aypara, Qırmızı Şir və Günəş) Cəmiyyətlərinin və digər milli könüllü yardım cəmiyyətlərinin münaqişədə iştirak edən Tərəfin lazımi qaydada tanıdığı və səlahiyyət verdiyi tibbi hey'ət;

3) tibbi birləşmələrin və ya tibbi nəqliyyat vasitələrinin tibbi hey'əti.

"Dini hey'ət" yalnız öz dini vəzifələrini yerinə yetirən və münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinə təhkim olunan həm hərbi, həm də mülki şəxslərdir.

"Hərbi əsirlərlə rəftar haqqında" Konvensiyanın 4-cü maddəsinə əsasən düşmən əlinə keçmiş aşağıdakı kateqoriyalardan birinə mənsub olan şəxslər bu Konvensiyanın mə'nasına görə hərbi əsir sayılırlar:

1) Münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinin tərkib hissəsini təşkil edən milis və ya digər könüllü dəstələrin üzvlərinə.

2) Münaqişədə iştirak edən tərəfə mənsub olan, öz ərazisində və ya onlardan kənarda, hətta bu ərazi işğal edilsə belə, fəaliyyət göstərən mütəşəkkil müqavimət hərəkatının üzvləri, bu şərtlə ki, onların tabeliyində olanlara görə məs'uliyyət daşıyan başçısı olmalı, uzaqdan seçilən müəyyən fərqləndirici nişanı olmalı, açıq şəkildə silah gəzdirməli, öz əməliyyatlarını müharibə qanunlarına və adətlərinə uyğun aparmalıdırlar.

3) Əsirlikdə saxlayan Dövlətin tanımadığı Hökumətə və ya hakimiyyət orqanlarına özlərini tabe hesab edən nizami silahlı qüvvələrin üzvlərinə.

4) Silahlı qüvvələrin bilavasitə üzvləri olmayan, lakin həmin qüvvələr tərəfindən verilmiş icazə ilə onları müşayət edən şəxslərə.

5) Münaqişədə iştirak edən tərəfin beynəlxalq hüququn hər hansı

müddəalarına görə güzəştli rəftardan daha faydalana bilməyən ticarət donanması gəmilərinin hey'ət üzvlərinə.

6) Yaxınlaşmaqda olan düşmənə müqavimət göstərmək məqsədilə özü-özünə silaha sarılan, nizami silahlı dəstələr yaratmağa macal tapmayan işğal edilməmiş ərazinin sakinlərinə, bu şərtlə ki, onlar silahı açıq şəkildə gəzdirsinlər və müharibə qanunları və adətlərinə riayət etsinlər.

Mülki əhali bütün mülki şəxslərdən ibarət olanlar hesab olunur. Mülki şəxs isə münaqişədə iştirak edən tərəfin silahlı qüvvələrinə aid olmayan şəxslərdir. Yə'ni "Hərbi əsirlərlə rəftar haqqında" Konvensiyanın 4-cü maddəsində nəzərdə tutulan şəxslər kateqoriyasına aid olmayanlardır.

Beynəlxalq müdafiədən istifadə edən digər şəxslər dedikdə, həmin CK-ya əsasən beynəlxalq mühafizədən istifadə edən şəxslər, məsələn, BQXK-nin üzvləri, Hami Dövlətin funksiyalarını həyata keçirən nümayəndələri, başa düşülməlidir.

IV Cenevrə Konvensiyasının 51-ci maddəsinə əsasən işğalçı dövlət himayədə olan şəxsləri öz silahlı və ya köməkçi qüvvələrində xidmət etməyə məcbur edə bilməz. Orduya könüllü surətdə daxil olmağa yönəlmiş təzyiq və ya təbliğat qadağandır.

115-ci maddədə öz əksini tapmış müddəa Cenevrə Konvensiyalarının ciddi pozuntusu kimi nəzərdə tutulmuşdur. Belə ki, III Cenevrə Konvensiyasının 130-cu maddəsində "hərbi əsiri düşmən dövlətin silahlı qüvvələrində xidmətə məcbur etmək", IV Cenevrə Konvensiyasında isə "himayədə olan şəxsi düşmən dövlətin silahlı qüvvələrində xidmətə məcbur etmək" Konvensiyaların ciddi pozuntusu kimi nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsinin 115.2-ci maddəsində bu Məcəllənin 115.1 maddəsində nəzərdə tutulmuş şəxslərə işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə və ya onların üzərində tibbi, bioloji və ya başqa tədqiqatlar aparma, o cümlədən daxili orqanları köçürmə üçün çıxarma və ya öz qoşunlarını və ya obyektləri hərbi əməliyyatlardan qorumaq məqsədilə onlardan sipər kimi istifadə etmə, yaxud belə şəxsləri girov saxlama və ya mülki əhalini məcburi işlərə cəlb etmə və ya digər məqsədlər üçün qanuni yerləşdiyi yerlərdən məcburi köçürmə ağırlaşdırıcı hal kimi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin

ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya mə'ruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz. Göründüyü kimi işgəncələrin, qəddar və ləyaqəti alçaldan rəftar və cəzanın yolverilməzliyi Konstitusiyada öz təsbitini tapmışdır.

CM-nin 115.2 maddəsində cinayət kimi nəzərdə tutulmuş əməllər Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir sıra beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Həmin sənədlərdən biri də Azərbaycan Respublikasının 31 may 1996-cı ildə (№ 101-IQ) qoşulduğu BMT Baş Məclisi tərəfindən 10 dekabr 1984-cü il qətnaməsi ilə qəbul edilmiş və 26 iyun 1987-ci ildə qüvvəyə minmiş "İşgəncələr və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə" Konvensiyadır.[44] Heç kəsin işgəncəyə, qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranışa və cəzaya mə'ruz qoyulmaması tələbi beynəlxalq hüquqi sənədlərdə ilk dəfə 10 dekabr 1948-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin 5-ci maddəsində öz ifadəsini tapmışdır.[45] Sonradan bu hüquq daha da inkişaf etdirilmiş və BMT Baş Məclisi tərəfindən 16 dekabr 1966-cı il tarixdə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 7-ci maddəsində əksini tapmışdır.[46] Burada göstərilir ki, "heç kəs qəddar, insanlıqdan kənar işgəncələrə, yaxud onun ləyaqətini alçaldan davranışa, yaxud cəzaya mə'ruz qalmamalıdır. O cümlədən, heç bir şəxs üzərində onun razılığı olmadan tibbi, yaxud elmi təcrübə aparıla bilməz". BMT tərəfindən bu sahədə qəbul edilən sənədlərdən biri də 9 dekabr 1975-ci il "Bütün şəxslərin işgəncələrdən və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiə olunması haqqında" Bəyannaməsidir. Göstərilənlərlə yanaşı işgəncələrin, qəddar və ləyaqəti alçaldan rəftarın yolverilməzliyi eyni zamanda regional beynəlxalq hüquqi sənədlərdə də ifadəsini tapmışdır. Avropa Şurası tərəfindən 4 noyabr 1950-ci ildə qəbul edilmiş və 3 sentyabr 1953-cü ildə qüvvəyə minmiş "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 3-cü maddəsinə əsasən heç kəs iş-

44 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı. 1998. s. 164.
45 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı. 1998. s. 2.
46 İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı. 1998. s. 17.

gəncələrə, qeyri-insani rəftara və ya ləyaqəti alçaldan cəzaya mə'ruz qalmamalıdır.[47] Təqdirəlayiq haldır ki, Avropa Şurası 3-cü maddədə nəzərdə tutulmuş hüququn tə'mini məqsədilə 26 noyabr 1987-ci ildə "İşgəncələr və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Konvensiya qəbul etmişdir. Həmin konvensiyaya əsasən işgəncələr və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi yaradılmışdır.[48] Göstərilən sənədlərin tam və hərtərəfli dərk olunması üçün ilk növbədə "işcəncə", "qeri-insani rəftar", "ləyaqəti alçaldan rəftar" anlayışlarının aydınlaşdırılması tələb olunur. Konvensiyanın 1-ci maddəsində onun məqsədləri üçün "işgəncə" termini hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən mə'lumat almaq, yaxud onun e'tirafına nail olmaq, onu və ya başqa şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu və ya başqa şəxsi qorxutmaq və ya məcbur etmək, yaxud dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya onların baxəbərliyi, yaxud göz yumması ilə hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən güclü fiziki, yaxud mə'nəvi ağrı və ya əzab yetirən hərəkətlər deməkdir. Bu anlayışa qanuni sanksiyalar nəticəsində törəyən, bu sanksiyaların ayrılmaz tərkib hissəsi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və əzablar daxil edilmir. Konvensiyada işgəncə anlayışından başqa digər anlayışların izahı verilməmişdir. Avropa Məhkəməsinin bu sahədə işi təqdirəlayiqdir. Yunanıstanın Birləşmiş Krallığa qarşı işi üzrə 5 noyabr 1969-cu il qərarında Strasburq orqanları ilk dəfə bu anlayışlar arasında fərqləri müəyyənləşdirmişdir. Qərarda göstərilir ki, bütün işgəncələr qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, qeyri-insani rəftar isə həmçinin ləyaqəti alçaldan hesab olunmalıdır. Qeyri-insani rəftar anlayışı ən azı konkret vəziyyətdə bəraət qazandırılmayan, qəsdən kəskin mə'nəvi və ya fiziki əzab yetirən hərəkətləri əhatə edir".İşgəncə" anlayışı isə mə'lumat yaxud e'tirafın alınması və ya cəza tə'yin edilməsi məqsədilə törədilən qeyri-insani rəftarı təsvir etmək üçün istifadə olunur və bu cür rəftarın qəddar formasıdır. Fərdlə rəftar və ya onun cəzalandırılma-

47 Защита прав человека и борьба с преспутностью. Документы Совета Европы. М., Спарк. 1998. с. 35.

48 Защита прав человека и борьба с преспутностью. Документы Совета Европы. М., Спарк. 1998. с. 85-102.

sı bu şəxsi başqaları qarşısında kobud surətdə alçaltdıqda, yaxud onu öz iradəsi və ya vicdanına qarşı hərəkət etməyə məcbur etdikdə ləyaqəti alçaldan kimi qiymətləndirilir.

Avropa Məhkəməsi İrlandiyanın Birləşmiş Krallığa qarşı işi üzrə 18 yanvar 1978-ci il tarixli qərarında isə bu üç anlayışı aşağıdakı kimi fərqləndirmişdir:

1. İşgəncə: ciddi və kəskin əzab doğuran, qəsdən törədilmiş qeyri-insani rəftardır;

2. Qeyri-insani rəftar: güclü fiziki və mə'nəvi əzab yetirmədir;

3. Ləyaqəti alçaldan rəftar: qurbanda qorxu hissi, ağrılar və onu alçalda, rüsvay edə və onun fiziki və ya mə'nəvi gücünü qıra bilən natamamlıq hissi yaratmağa yönəlmiş pis rəftardır.[49]

Fikrimizcə, 115.2 maddəsində tövsifedici əlamət kimi işlədilmiş "qəddar" və "qeyri-insani rəftar" ifadələri öz mahiyyətinə görə eyniyyət təşkil edir. Burada beynəlxalq konvensiyada olduğu kimi "qeri-insani rəftar" və ya "ləyaqəti alçaldan rəftar" ifadələrinin işlədilməsi daha yaxşı olardı.

III Cenevrə Konvensiyasına əsasən hərbi əsirlərlə hər zaman humanist rəftar edilməlidir. Əsirlikdə saxlayan Dövlətin öz ixtiyarında olan hərbi əsirin ölümünə səbəb olan və ya hərbi əsirin səhhəti üçün ciddi təhlükə yaradan bu və ya digər qanunsuz hərəkət və ya fəaliyyətsizliyi qadağandır və Konvensiyanın kobud surətdə pozulması kimi qiymətləndirilir. Heç bir hərbi əsir onun tibbi, stomotoloji və ya xəstəxana müalicəsi ilə bağlı mülahizələr və onun maraqları baxımından özünü doğrultmayan fiziki xəsarətə və ya hər hansı xarakterli tibbi və ya elmi təcrübəyə mə'ruz qoyula bilməz.

Eyni qaydada, hərbi əsirlər hər zaman zorakılıq əməllərindən və ya hədələnməkdən, təhqirlərdən və ya kütlənin maraqlarından qorunmalıdırlar.

"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanununu insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparılmaqla xəstədə olmayan və ya zədələnən orqan və (və ya) toxumaların donorun orqan və (və ya) toxumaları ilə əvəz edilməsi

---

49 Bax. Гомьен Д., Харрис Д., Зваак Л. Европейская Конвенция о правах человека и Европейская Социальная Хартия. Право и практика.М.,1998. С.133-151.

məsələlərini tənzimləyir. Qanunun 5-ci maddəsinə əsasən donordan orqan və (və ya) toxumaların götürülməsi mütəxəssis həkimlərin konsiliumu nəticəsində müəyyən edilir və donorun yazılı razılığı əsasında həyata keçirilir. Hər hansı şəxsi orqan və (və ya) toxumaların götürülməsinə məcbur edənlər qanunvericiliyə uyğun olaraq məs'uliyyət daşıyırlar.[50]

Göründüyü kimi qanunvericilikdə şəxsin orqan və ya toxumaların götürülməsi üçün onun razılığı əsas hesab olunur. Lakin Cenevrə Konvensiyası hərbi əsirlikdə olanların razılığı olduqda belə onların orqan və toxumalarının transplantasiyasını qadağan edir. Bu da düşmənin hakimiyyəti altında olan şəxslərin donor kimi istifadə edilməsi üçün məcbur edilmə ehtimalının qarşısının alınması üçün zəruridir.

Bundan əlavə, I Əlavə Protokolun 51-ci maddəsinin 7-ci bəndinə əsasən mülki əhalinin mövcudluğundan və ya yerdəyişməsindən müəyyən məntəqələrin və ya ərazilərin hərbi əməliyyatlardan qorunması üçün, xüsusən hərbi obyektlərin hücumdan müdafiə edilməsi və ya hərbi əməliyyatların pərdələnməsi, dəstəklənməsi və ya əngəllənməsi üçün istifadə olunmamalıdır.

Göstərilən müddəalar 30 iyun 1999-cu il tarixli "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsindədə öz əksini tapmışdır. Həmin maddəyə əsasən "hərbi əsirlər barəsində aşağıdakılar qadağandır:

1) həyata, sağlamlığa və cismani toxunulmazlığa qəsd, o cümlədən hər hansı şəkildə qətl, zorlama, cismani xəsarət yetirmə, tibbi və ya elmi eksperimentlər aparma, qəddar rəftar və işgəncələr;

2) insan ləyaqətinə qəsd, o cümlədən təhqiramiz və alçaldıcı rəftar;

3) hərbi əməliyyatlarda sipər kimi istifadə etmə;

4) beynəlxalq hüququn təsdiq etdiyi məhkəmə tə'minatları gözlənilməklə qanun üzrə lazımi qaydada tə'sis edilmiş məhkəmənin qərarı olmadan məhkumetmə və cəzanı icra etmə".[51]

IV Cenevrə Konvensiyasının 51-ci maddəsinə əsasən himayədə olan şəxslər onları hərbi əməliyyatlarda iştiraka sövq edən hər hansı işi görməyə məcbur edilə bilməzlər.

---

50 "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan qəzeti, 23 yanvar 2000-ci il.

51 Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. Cild II. Bakı. 1997. s. 508-509.

IV Cenevrə Konvensiyasının 49-cu maddəsinə əsasən isə səbəblərindən asılı olmayaraq, himayədə olan şəxslərin işğal edilmiş ərazidən işğalçı dövlətin ərazisinə və ya işğal edilib-edilməməsinə baxmayaraq hər hansı digər dövlətin ərazisinə fərdi və ya kütləvi surətdə qovulması, habelə deportasiya edilməsi qadağandır.

CM-nin 115.3 maddəsində isə Cinayət Məcəlləsinin 115.1 və 115.2-ci maddəsində nəzərdə tutulmuş əməllər şəxslərin ölümünə və ya sağlamlığına ağır zərbə vurulmasına səbəb olduqda daha ağırlaşdırıcı hal kimi müəyyən edilmişdir.

CM-nin 115.4 maddəsi həmin Məcəllənin 115.1 maddəsində göstərilən şəxsləri qəsdən öldürməyi ən ağırlaşdırıcı hal kimi nəzərdə tutur.

CM-nin 116-cı maddəsi silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə məs'uliyyəti nəzərdə tutur. Həmin maddəyə əsasən silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, yə'ni:

116.0.1. mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;

116.0.2. ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;

116.0.3. sülh məramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardımın göstərilməsinə cəlb olunmuş şəxsi hey'ətə, o cümlədən Qırmızı Xaç və Qızıl Aypara fərqləndirici emblemləri olan hey'ətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmə;

116.0.4. hərbi əməliyyatların aparılması üsulu kimi əhali arasında yaranmış aclıqdan istifadə etmə;

116.0.5. yetkinlik yaşına çatmayanları silahlı qüvvələrə cəlb etmə;

116.0.6. hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar törətmə;

116.0.7. müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə;

116.0.8. hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə;

116.0.9. müvəqqəti barışıq haqqında və ya həlak olanların və yaralıların döyüş meydanlarından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozma;

116.0.10. mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə;

116.0.11. hərbi əməliyyatlar bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma;

116.0.12. dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə;

116.0.13. hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirkar üçün aşkar surətdə dayandırmış, həmçinin silahı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmə;

116.0.14. işğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmə;

116.0.15. hərbi əsirlərin və mülki şəxslərin vətənə qaytarılmasını əsassız olaraq gecikdirmə;

116.0.16. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmə;

116.0.17. zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə;

116.0.18. bu Məcəllənin 115.1-ci maddəsində göstərilən şəxsləri beynəlxalq hüquq normalarına zidd olaraq həbs etmə və ya başqa cür azadlıqdan məhrum etmə, habelə prosessual hüquqlardan məhrum etmə cinayət kimi müəyyənləşdirilmişdir.

Mühüm dağıntılara səbəb ola bilən müharibənin aparılması metodlarından və üsullarından istifadə etmənin cinayət kimi qiymətləndirilməsi beynəlxalq humanitar hüquqda hər hansı silahlı münaqişə zamanı münaqişədə iştirak edən tərəflərin müharibə aparılması üsulları və vasitələrini seçmək hüququnun qeyri-məhdud olmaması ilə əlaqədardır. Həddsiz ziyan və lüzumsuz iztirablar gətirən silahın, mərminin, maddənin və müharibə aparılması üsullarının tətbiqi qadağan olunur.

Ətraf mühitə qəsdən geniş, uzunsürən və ciddi ziyan vurma I Əlavə Protokolun 35-ci maddəsi ilə qadağan olunur. Burada göstərilir ki, təbii mühitə geniş miqyaslı, sürəkli və ciddi ziyan vurmaq məqsədi güdən və ya labüd surətdə buna səbəb olan müharibə aparılması üsullarının və vasitələrinin tətbiqi qadağandır. Ətraf mühitə ziyan vurmanın qadağan olunması beynəlxalq səviyyədə bağlanmış xüsusi konvensiyalarda da öz əksini tapmışdır. Bu cəhətdən BMT tərəfindən 10 dekabr 1976-cı ildə qəbul edilmiş "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi

və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunanmasının qadağan edilməsi haqqında" Konvensiya, BMT tərəfindən 10 oktyabr 1980-ci il tarixdə qəbul edilmiş "Həddsiz zərərli sayıla bilən və ya seçilməz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiya və ona Əlavə Protokollar xüsusi əhəmiyyət kəsb edir.[52]

Himayə məqsədli Qırmızı Xaç və Qızıl Aypara fərqləndirici emblemləri olan hey'ətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmənin cinayət kimi qiymətləndirilməsi ilə əlaqədar onu qeyd etmək lazımdır ki, həmin emblemlərin meydana çıxması döyüş bölgələrində yaralı və xəstələrə kömək göstərməklə məşğul olan tibbi birləşmələrin fərqləndirilməsi və onların fəaliyyəti üçün təhlükəsiz şəraitin yaradılması ilə bağlı olmuşdur. 1863-cü ildə sonradan Beynəlxalq Qırmızı Xaç Komitəsinə çevrilən Yaralılara Yardım Göstərmək üzrə Beynəlxalq Komitənin təşəbbüsü ilə ağ fonda qırmızı xaç təsviri olan nişan yaralılara kömək cəmiyyətinin fərqləndirici nişanı kimi qəbul edilmişdir.

1864-cü ildə fəaliyyətdə olan orduda yaralılar haqqında Konvensiyanı qəbul etmiş Diplomatik konfrans hərbi sanitar xidmətinin neytrallığını müəyyən etdi. Həmin konfransda ağ fonda qırmızı xaç nişanı ordu sanitar xidməti hey'əti və əmlakını fərqləndirmək üçün qəbul edildi.

Qırmızı Aypara emblemi ilk dəfə 1876-cı ildə Rusiya-Türkiyə müharibəsi zamanı Osmanlı imperiyası tərəfindən tibbi xidməti fərqləndirmək üçün istifadə olunmuş və İran tərəfindən istifadə olunan (1980-ci ilə kimi) Qırmızı şir və günəş emblemi ilə birlikdə 1929-cu il Cenevrə Konfransında qəbul edilmişdir. I CK-na əsasən Qırmızı Xaç və Qırmızı Aypara emblemi silahlı münaqişə zamanı himayədən istifadə edən şəxs və əmlakın fərqləndirilməsi üçün istifadə olunur. Kombatantlar həmin emblemlə fərqləndirilən şəxslərə və əmlaka hörmətlə yanaşmalı və onlara hücum etməməlidir.[53]

Hərbi əməliyyatların aparılması üsulu kimi əhali arasında yaranmış aclıqdan istifadə etmənin cinayət kimi qiymətləndirilməsi I Əlavə Protokolun 54-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş mülki əha-

---

52 Bax. Защита окружающей среды в международном гуманитарном праве. Сборник статей. М., МККК.1995.

53 Bax. Эмблема. История и современность. Статьи и документы. М., МККК. 1998.

li arasında aclıqdan müharibə üsulu kimi istifadənin qadağan edilməsinə əsaslanır.

Yetkinlik yaşına çatmayanları silahlı qüvvələrə cəlb etmənin cinayət hesab edilməsi beynəlxalq humanitar hüququn uşaqları xüsusi himayəyə götürməsi ilə bağlıdır. Beynəlxalq humanitar hüquqa əsasən uşaqlara xüsusi hörmət göstərilir və onların hər hansı nalayiq qəsdlərdən müdafiəsi tə'min edilir. Münaqişədə iştirak edən tərəflər uşaqları onların yaşına və ya hər hansı başqa səbəbə görə tələb olunan müdafiə və köməklə tə'min edirlər.

Münaqişədə iştirak edən tərəflər on beş yaşına çatmamış uşaqların döyüş əməliyyatlarında bilavasitə iştirak etməməsi üçün əməli cəhətdən mümkün olan bütün tədbirləri görməli və xüsusən, onları öz silahlı qüvvələrinə cəlb etməkdən çəkinməlidirlər. Münaqişədə iştirak edən tərəflər on beş yaşına çatmış, lakin on səkkiz yaşı tamam olmamış şəxsləri cəlb edərkən, daha yaşlılara üstünlük verməyə çalışmalıdırlar.

Hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar etmənin cinayət kimi qiymətləndirilməsi bu cür əməllərin hərbi zərurətlə əlaqədar olmayaraq törədilməsi ilə bağlıdır. Beynəlxalq humanitar hüquq hərbi zərurətlə bağlı olmayan bu kimi hərəkətləri qadağan edir.

Beynəlxalq humanitar hüquqa görə münaqişədə iştirak edən tərəflərin qorunmayan yerləri hər hansı vasitə ilə həmləyə mə'ruz qoyması qadağandır.

Münaqişədə iştirak edən tərəfin müvafiq hakimiyyət orqanları silahlı qüvvələrin təmas zonalarında və ya onun yaxınlığında yerləşən və düşmən tərəfin işğalı üçün açıq olan hər hansı yaşayış məntəqəsinin qorunmayan yer olduğunu bəyan edə bilər. Belə yer aşağıdakı şərtlərə uyğun gəlməlidir:

a) bütün döyüşçülər, eləcə də mobil döyüş vasitələri və mobil hərbi ləvazimat təxliyə edilməlidir;

b) stasionar hərbi qurğulardan və ya tikililərdən düşmənçilik məqsədilə istifadə edilməməlidir;

s) nə hakimiyyət orqanları, nə də əhali düşmənçilik hərəkətlərinə yol verməməlidir;

d) hərbi əməliyyatlara yardım məqsədilə heç bir hərəkətə yol verilməməlidir.

Müharibədə iştirak edən tərəflərin öz hərbi əməliyyatlarını saziş əsasında silahsızlaşdırılmış zona statusu verdikləri əraziyə genişləndirməsi, əgər bu, həmin sazişin müddəalarına ziddirsə, qadağan edilir.

Belə sazişin predmeti adətən aşağıdakı şərtlərə uyğun gələn hər hansı zona olur:

a) bütün döyüşçülər, eləcə də mobil döyüş vasitələri və mobil hərbi ləvazimat təxliyə edilməlidir;

b) stasionar hərbi qurğulardan və ya tikililərdən düşmənçilik məqsədilə istifadə edilməməlidir;

s) nə hakimiyyət orqanları, nə də əhali düşmənçilik hərəkətlərinə yol verməməlidir;

d) hərbi sə'ylərlə bağlı olan hər bir fəaliyyətə son qoyulmalıdır.

Hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmənin cinayət kimi qiymətləndirilməsi ilk növbədə I Əlavə Protokolun 53-cü maddəsində nəzərdə tutulmuş müddəalara əsaslanır. Həmin maddəyə əsasən xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkəti, belə obyektlərdən hərbi sə'yləri dəstəkləmək məqsədilə istifadə olunması, belə obyektlərin qisas obyektlərinə çevrilməsi qadağan olunur. Eyni zamanda 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Konvensiya və I Protokol, 26 mart 1999-cu il tarixdə həmin Konvensiyaya əlavə olaraq qəbul edilmiş II Protokolda mədəni sərvətlərin silahlı münaqişələr zamanı mühafizəsi və bu mühafizənin pozulması ilə əlaqədar məs'uliyyətə səbəb olan hallar öz əksini tapmışdır.

II Protokol "ciddi pozuntu kimi" qiymətləndirilən əməllərin siyahısını nəzərdə tutur.[54] Bu ciddi pozuntulara aşağıdakılar aid edilir:

1. Güclü mühafizə altında olan mədəni obyektləri hücum obyektinə çevirmək;

2. Güclü mühafizə altında olan mədəni obyektlər və bilavasitə onlara qovuşan yerləri hərbi əməliyyatlara kömək üçün istifadə etmək;

3. 1954-cü il Haaqa Konvensiyası və II Protokolun mühafizəsi altında olan mədəni sərvətlərin iri miqyasda məhvi və ya mənimsənilməsi;

---

54 Юрий Коробовский. Новые договоры в области международного гуманитарного права. // Имплементация международного гуманитарного права на национальном уровне. Материалы семинара. 27-28 апреля 1999г. Баку. с. 80.

4. 1954-cü il Konvensiyası və II Protokolun mühafizəsi altında olan mədəni sərvətləri hücum obyektinə çevirmək;

5. 1954-cü il Konvensiyasının mühafizəsi altında olan mədəni sərvətlərə qarşı oğurluq, soyğunçuluq və ya qeyri-qanuni mənimsəmə, vandalizm aktları törətmə.

II Protokol cinayətin birbaşa icraçılarından başqa digər iştirakçıların da məs'uliyyətini nəzərdə tutur.

Müvəqqəti barışıq haqqında və ya həlak olanların və yaralıların döyüş meydanlarından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozmanın cinayət kimi qiymətləndirilməsi Cenevrə Konvensiyaları müddəaları ilə həmahənglik təşkil edir.

"Döyüşən silahlı qüvvələrdə yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" II Cenevrə Konvensiyasının 15-ci maddəsinə əsasən münaqişədə iştirak edən tərəflər hər bir vaxt, xüsusən döyüşdən sonra yaralıları və xəstələri tapıb toplamaq, onları qarətdən və pis rəftardan qorumaq, onlara lazımi qayğını tə'min etmək, cəsədləri yığıb toplamaq və onların qarət olunmasına yol verməmək üçün tə'xirə salmadan bütün mümkün tədbirləri görməlidirlər.

Hər dəfə şərait imkan verdikcə, döyüş meydanında tərk edilmiş yaralıları toplamaq, dəyişdirmək və nəql etmək üçün müvəqqəti barışıq və ya atəşkəs əldə olunmalı və ya yerli sazişlər bağlanılmalıdır.

Mülki əhaliyə və ya ayrı-ayrı mülki şəxslərə hücumlar etmənin cinayət kimi qiymətləndirilməsi IV Cenevrə Konvensiyası və I Əlavə Protokolun mülki əhalinin mühafizəsini nəzərdə tutan müddəalarına əsaslanır. Həmin normalara əsasən mülki əhali, eləcədə ayrı-ayrı mülki şəxslər hücum obyekti ola bilməzlər. Mülki əhalini qorxutmaq məqsədilə zorakılıq etmək və ya zorakılıqla hədələmək qadağandır.

Mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə mühüm zərər vura bilən təhlükəli qüvvəyə malik olan qurğulara hücumlar etmənin cinayət hesab edilməsi I Əlavə Protokolun 56-cı maddəsinə əsaslanır. Həmin maddəyə əsasən tərkibində təhlükəli qüvvələr olan qurğular və tikililər, məsələn, beton və torpaq bəndlər, atom-elektrik stansiyaları, hətta hərbi obyekt olduqları hallarda da əgər onlara edilən hücum təhlükəli qüvvələrin çıxmasına və daha sonra mülki əhali arasında ağır itkilərə səbəb ola bilərsə, hücuma mə'ruz qalmamalıdır.

Hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirli üçün aşkar surətdə dayandırmış şəxsə basqın etmənin cinayət kimi qiymətləndirilməsi

beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilir. Çünki müharibənin əsas məqsədi düşmən üzərində hərbi üstünlük əldə etməkdən ibarətdir. Hərbi üstünlük əldə etmək nöqteyi-nəzərdən düşmənin öldürülməsi, yaralanması və əsir götürülməsi ekvivalent hesab edilir. Yə'ni hər üç halda düşmən sıradan çıxmış və döyüş qabiliyyətini itirmiş olur. Bu cəhətdən açıq surətdə hərbi əməliyyatlarda iştirakını dayandırmış şəxsə hücum edilməsi hərbi nöqteyi-nəzərdən heç bir üstünlüyə səbəb olmur. Lakin humanitar münasibət cəhətdən şəxsi əsir götürmək onu yaralamaqdan və yaralamaq isə öldürməkdən daha əlverişli hesab edilir. Bu cəhətdən hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirli üçün aşkar surətdə dayandırmış şəxsə basqın etmə cinayət məs'uliyyətinə səbəb olur.

İşğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmə beynəlxalq humanitar hüquqa əsasən qadağan olunur.

Hərbi əsirlərin və mülki şəxslərin vətənə qaytarılmasını əsassız olaraq gecikdirmə beynəlxalq humanitar hüququn ciddi pozuntusu hesab edilir. Hərbi əsirlərin repatriasiya məsələləri III Cenevrə Konvensiyasının 109-119-cu maddələrində nəzərdə tutulmuşdur. Burada üç kateqoriya şəxslər fərqləndirilir:

— ağır yaralı və ağır xəstə olan hərbi əsirlər onların yola çıxmalarını mümkün edən tədbirlər görüldükdən sonra səhhətləri imkan verən kimi dərhal vətənə qaytarılmalıdır. Konvensiyanın 112-ci maddəsinə əsasən bu cür şəxslərin repatriasiyası haqqında qərar Qarışıq Tibbi Komissiya tərəfindən qəbul edilir.

— qalan bütün hərbi əsirlər "döyüş əməliyyatları qurtaran kimi" azad edilməli və vətənə qaytarılmalıdır.

— müharibənin qurtarmasını gözləmədən tərəflər humanizmdən irəli gələn mülahizələrə əsasən qarşılıqlı əsasda hərbi əsirləri dəyişməklə repatriasiya etməyə çalışmalıdırlar.

Bir qayda olaraq hərbi əsirlərin repatriasiyadan imtina etmək hüququ yoxdur.

Himayədə olan mülki əhali hər hansı vaxt vətənə qaytarıla bilər, döyüş əməliyyatları qurtardıqda isə onlar hökmən reapatriasiya olunmalıdırlar.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş müharibə vasitələrini və ya üsullarını silahlı münaqişələrdə tətbiq etmə cinayət kimi müəyyənləşdirilmişdir.

Beynəlxalq humanitar hüquqa əsasən hər hansı silahlı münaqişə za-

manı münaqişədə iştirak edən tərəflərin müharibə aparılması üsullarını və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir. Həddsiz ziyan və lüzumsuz iztirablar gətirən silahın, mərminin, maddənin və müharibə aparılması üsullarının tətbiqi qadağan edilir. Burada "həddsiz ziyan və lüzumsuz iztirab" ifadəsi hərbi nöqteyi-nəzərdən heç bir səmərə gətirməyən, lakin artıq əzaba və ziyana səbəb olan konkret döyüş vasitələrinə şamil edilir.

Müharibə aparılmasının qadağan olunmuş vasitələri bir qayda olaraq beynəlxalq səviyyədə qəbul olunmuş konvensiyalarda nəzərdə tutulur. Azərbaycan Respublikası həmin konvensiyalara qoşulduğu təqdirdə onlarda nəzərdə tutulmuş məhdudiyyətlərə riayət etməlidir. Bu cür konvensiyalardan Azərbaycanın 9 noyabr 1999-cu il tarixdə qoşulduğu "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" 1992-ci il 30 noyabr tarixli Konvensiyanı göstərmək olar.

Müharibə aparılmasının məhdulaşdırılmış üsullarına isə xəyanətin qadağan edilməsini, tanınmış emblemlərdən sui-istifadəni, qeyri-seçim xarakterli hücumları, heç kəsə aman verilməməsi barədə əmr verilməsini və s. misal göstərmək olar.

Cinayət Məcəlləsinin 117-ci maddəsi silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr verməyə görə məs'uliyyəti nəzərdə tutur.

114.1 maddəsinə əsasən, rəis və ya vəzifəli şəxs tərəfindən silahlı münaqişə zamanı tabeliyində olanlara bu Məcəllənin 115-116-cı maddələrində nəzərdə tutulan cinayətlərin qarşısının alınması məqsədilə öz səlahiyyətləri dairəsində bütün imkanlardan qəsdən istifadə etməmə cinayət kimi nəzərdə tutulmuşdur.

Rəisin məs'uliyyətindən danışarkən hər bir halda nəzərə almaq lazımdır ki:

— rəisin tabeliyində başqa şəxslər olmalıdır;

— rəis cinayət törədildiyini və törədilmə prosesində olduğunu bilib və ya bilməli idi;

— rəisin malik olduğu səlahiyyət cinayətkar əməlin qarşısının alınması və onun aradan qaldırılması üçün kifayət etməlidir.

I Əlavə Protokolun 86-cı maddəsinin 2-ci hissəsində rəisin tədbir görməməsi ilə əlaqədar norma nəzərdə tutulmuşdur. Burada göstərilir ki, Konvensiyaların və ya bu Protokolun tabelikdə olan şəxs tərəfindən pozulması faktı onun rəislərini, əgər onlar həmin vaxt mövcud olmuş

şəraitdə tabelikdə olan bu şəxsin belə pozuntunu törətməsi və ya törətmək istəməsi qənaətinə gəlməyə imkan verən mə'lumata bələd və ya malik olmuşsa və əgər onlar həmin pozuntunu aradan qaldırmaq və ya qarşısını almaq üçün öz səlahiyyətləri daxilində əməli cəhətdən mümkün olan bütün tədbirləri görməmişlərsə, vəziyyətindən asılı olaraq, cinayət və ya intizam məs'uliyyətindən azad etmir.

CM-nin 117.2 maddəsində döyüş bölgələrində heç kəsin sağ buraxılmayacağını bəyan etmə və ya bu barədə tabeliyində olan şəxsə və ya bu Məcəllənin 115-116-cı maddələrində nəzərdə tutulan cinayətlərin edilməsinə yönəldilən bilə-bilə cinayətkar əmr və ya sərəncam vermə cinayət kimi nəzərdə tutulmuşdur.

"Heç kimin salamat buraxılmaması barədə əmr" beynəlxalq humanitar hüququn tələblərini pozur, himayədə olan şəxslərin mühafizəsini tə'min etmir və eyni zamanda hərbi zərurətlə əlaqədar olmayan artıq insan tələfatına səbəb olur.

CM-nin 118-ci maddəsinə əsasən döyüş meydanında ölmüş və ya yaralanmış şəxslərin əmlakını talamağa (hərbi soyğunçuluq) görə cinayət məs'uliyyəti nəzərdə tutulmuşdur. I Əlavə Protokolun 34-cü maddəsi silahlı münaqişə ilə əlaqədar ölənlərin cəsədlərinə hörmətlə yanaşılmasını və onlara məxsus əmlakın vətənə qaytarılmasını tələb edir. Cenevrə Konvensiyalarına əsasən hərbi soyğunçuluq qadağan olunur.

CM-nin 119-cu maddəsi müdafiə olunan nişanlardan sui-istifadə edilməsinə görə məs'uliyyəti nəzərdə tutur. 119. 1 maddəsinə əsasən hərbi əməliyyat rayonunda Qırmızı Xaç və ya Qırmızı Aypara nişanlarını daşımaq hüququ olmayan şəxslər tərəfindən həmin nişanları daşıma, habelə müharibə zamanı Qırmızı Xaç və Qırmızı Aypara bayraqlarından və ya nişanlarından və ya sanitariya köçürmə nəqliyyat vasitələrinin rəngindən sui-istifadə etmə cinayət kimi nəzərdə tutulmuşdur.

Silahlı münaqişə qurbanları və onlara yardım göstərən hey'əti müdafiə üçün işlədildiyinə görə Qırmızı Xaç və Qırmızı Aypara emblemi xüsusi əhəmiyyət kəsb edir. Bu cəhətdən emblem həmişə və hər yerdə hörmətlə qarşılanmalıdır. I Cenevrə Konvensiyası həmin emblemlərdən istifadə etmək hüququna malik olmayan şəxslərin onlardan istifadə etməsini qadağan edir. Həmçinin Konvensiya onlardan sui-istifadə etmənin qarşısının alınması və bu cür istifadənin aradan qaldırılması üçün dövlətlərin öhdəliyini nəzərdə tutur. Dövlət bu məqsədlə zəruri normativ xarakterli tədbirlər görməlidir. Emblemlərdən xaincəsinə istifadə edilməsi ən ağır sui-istifadə hesab olunur. Xaincəsinə istifadə et-

mək düşmənin e'tibarını qazanmaq və onu inandırmaq məqsədilə emblemdən istifadə edilməsidir. Bu zaman düşmən hərbi üstünlük qazanmaq üçün emblemdən istifadə edir, öz qüvvələrini tibbi obyekt, nəqliyyat vasitəsi və hey'ət kimi qələmə verir. Emblemlərdən xaincəsinə istifadə ölüm və başqa ağır xəsarətlərə və ya sağlamlığa ciddi ziyan yetirilməsinə səbəb olduqda beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qiymətləndirilir.

CM-nin 119.2 maddəsində ağ bayraqdan, Birləşmiş Millətlər Təşkilatının bayraq, nişan və ya geyimlərindən, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları ilə müdafiə olunan fərqləndirici nişanlardan sui-istifadə etmə, bu əməllər zərərçəkmiş şəxsin ölümə və ya sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda cinayət kimi nəzərdə tutulmuşdur.

Həmin maddədə nəzərdə tutulmuş müddəalar I Əlavə Protokolun 37-ci maddəsində öz ifadəsini tapmışdır. Beynəlxalq humanitar hüquqda xəyanət (sui-istifadə) qadağan olunduğu halda hərbi hiylələrə icazə verilir. Xəyanət düşmənə verilmiş və'din yerinə yetirilməməsini, həm də beynəlxalq səviyyədə tanınmış vasitələrdən istifadə edilməklə düşməni aldatmağı nəzərdə tutursa, hərbi hiylədə düşmənə verilmiş və'din pozulmasından söhbət getmir. Hərbi hiylənin ən çox yayılmış növü maskalanmaqdır.

Azərbaycan Respublikası CM-də göstərilən normaların nəzərdə tutulması Azərbaycan Respublikasının öhdəsinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirməsini və gələcəkdə beynəlxalq humanitar hüquq normalarına riayət olunacağını təsdiq edir.

ƏDƏBİYYAT

Beynəlxalq hüquqi sənədlər:

1. Beynəlxalq müqavilələr toplusu. Bakı — 1998.
2. YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı — 1998.
3. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar. Bakı — 1999.
4. Действующее международное право. Москва — 1996-97. Т. 1, 2, 3.
5. Защита прав человека и борьба с преступностью. Документы Совета Европы. Москва. "Спарк" -1998.
6. Международные акты о правах человека. Сборник документов. Москва. "НОРМА-ИНФРА. М" — 2000.
7. Международное право. Ведение военных действий. Сборник Гаагских Конвенций и иных соглашений. Москва. МККК. -1999.
8. Международное право в документах. Москва. "НОРМА-ИНФРА-М"-1997.
9. Международное публичное право. Сборник документов. Москва. "БЕК" -1996. Т. 1,2.
10. Права человека. Сборник международных документов. Москва ."Юридическая литература" 1998.
11. Сборник важнейших документов по международному праву. Часть I общая. Москва-1996.

Dərsliklər:

1. Hüseynov L. H. Beynəlxalq hüquq. Bakı. "Hüquq ədəbiyyatı" — 2000.
2. Калугин В. Ю. , Павлова Л. В. , Фисенко И. В. Международное гуманитарное право. Минск "Тесей" 1999.
3. Лукашук И. И., Наумов А. В. Международное уголовное право. Москва. "Спарк" — 1999.
4. Лукашук И. И. Международное право. Особенная часть. Москва".БЕК" -1997.
5. Лукашук И. И. Международное право. Общая часть. Москва".БЕК" — 1997.
6. Международное публичное право. Под ред. : Бекяшева К. А. Москва-1999.
7. Международное право. От. ред. : Колосов Ю. М. , Кузнецов В. И. Москва -1995.

8. Международное уголовное право. Под об. ред. : Кудрявцева. Москва "Наука" 1999.

9. Право человека. От. ред. : Лукашева Е. А. Москва".НОРМА-ИНФРА. М" -1999.

10. Тиунов О. И. Международное гуманитарное право. Москва".НОРМА-ИНФРА. М" -1999.

Xüsusi ədəbiyyat:

1. Jan Pikte. Beynəlxalq humanitar hüququn inkişafı və prinsipləri. Bakı. BQXK-1999.

2. İbayev V. Ə. Beynəlxalq humanitar hüquqda məs'uliyyət məsələləri. Bakı".Elm" — 2000.

3. Paşazadə A. Qafqazda islam. Bakı — 1991.

4. Альма Б. А. Права и обязанности медицинского персонала в вооруженных конфликтах. Москва. МККК -1995.

5. Анри Дюнан. Воспоминание о битве при Сольферино. Москва. МККК-1995.

6. Блищенко И. П. , Дориа Ж. Прецеденты в международном публичном и частном праве. Москва".МНИМП" — 1999.

7. Блищенко И. П. , Фисенко И. В. Международный уголовный суд. Москва. "ЮНИТИ" 1998.

8. Гусейнов Л. Г. Международные обязательства государств в области прав человека. Баку. "Hüquq ədəbiyyatı" — 1998.

9. Гусейнов Л. Г. Международная ответственность государств за нарушения прав человека. Киев. 2000.

10. Дети и война. Сборник статей. Москва. МККК — 1995.

11. Действия международного Комитета Красного Креста в случае нарушений международного гуманитарного права. Москва. МККК — 1994.

12. Деятельность в случае вооруженного конфликта. Руководство для Национальных обществ Красного Креста и Красного Полумесяца. Москва. МККК-1993.

13. Жан Пикте. Международный Комитет Красного Креста: уникальное учреждение. Москва. МККК — 1997.

14. Защита окружающей среды в международном гуманитарном праве. Сборник статей. Москва. МККК. — 1995.

15. Имплементация международного гуманитарного права. Статьи и документы. Москва. МККК. — 1998.

16. Комитеты или другие органы, создаваемые для содействия имплементации международного гуманитарного права на национальном уровне. Отчет о совещании экспертов. Москва. МККК — 1998.

17. Комментарий к Дополнительным протоколам от 8 июня 1977

года к Женевским конвенциям от 12 августа 1949 года. Комментарий к Дополнительному протоколу II. Москва. МККК — 1998.

18. Кристоф С. Основные понятия и институты международного гуманитарного права как система защиты человека. Москва. МККК — 1997.

19. Международное движение Красного Креста и Красного Полумесяца. Сборник уставов и других документов. Москва. МККК — 1995.

20. Морис Обер. Вопрос о приказах старших войсковых начальников и ответственности командиров. Москва. МККК-1994.

21. Мулинен Ф. Де. Право войны и вооруженные силы. Москва. МККК-1993.

22. Основополагающие принципы Красного Креста. Комментарий Жана Пикте. Москва. МККК. -1997.

23. Перрюшу Р. Международная ответственность национальных обществ Красного Креста и Красного Полумесяца. Москва. МККК — 1995.

24. Правовая защита эмблем красного креста или красного полумесяца. Москва. МККК — 1995.

25. Прекратите использовать детей в качестве солдат! Москва — 1998.

26. Пресечение нарушений международного гуманитарного права. Статьи. Москва. МККК — 1998.

27. Пустогаров В. В. Федор Федорович Мартенс. Юрист дипломат. Москва-1999.

28. Пьер Буасье. Первые годы Красного Креста. Москва. МККК — 1994.

29. Розмари Аби-Сааб. Гуманитарное право и внутренние конфликты. Истоки и эволюция международной регламентации. Москва. МККК — 2000

30. Симпозиум по вопросам гуманитарной деятельности и осуществления операций по поддержания мира. Отчет. Под ред. : Палванкара У. Москва МККК — 1995.

31. Франсуаза Крилль. Международное гуманитарное право о защите женщин. Москва. МККК — 1994.

32. Франсуаза Бори. Возникновение и развитие международного гуманитарного права. Москва. МККК — 1994.

33. Фредерик Де Мулинен. Право войны. Руководство для вооруженных сил. Москва. МККК — 1993.

34. Фредерик Морис и Жан де Куртен. Действия МККК в интересах беженцев и гражданских перемещенных лиц. Москва. МККК — 1994.

35. Фриц Кальсховен. Ограничения методов и средств ведения войны. Москва. МККК — 1994.

36. Фриц Кальсховен. Беспристрастность и нейтральност в гуманитарном праве и практике. Марион Х. Т. Нейтральность и беспристрастность. Москва. МККК — 1995.

37. Ханс-Петер Гассер. Международное гуманитарное право. Введение. Москва. МККК. — 1995.

38. Ханс-Петер Гассер. Запрет на акты террора в международном гуманитарном праве. Москва. МККК — 1994.

39. Шиндлер Д. Международный Комитет Красного Креста и права человека. Москва. МККК — 1994.

40. Эмблема. История и современность. Статьи и документы. Москва. МККК -1998.

41. Эрик Давид. Принципы права вооруженных конфликтах. Москва. МККК — 2000.

42. Юридические советники в вооруженных силах. Статьи. Москва МККК -1999.

Jurnal məqalələri:

1. Hüseynov L.H. Azərbaycan Respublikasının milli qanunvericiliyi və beynəlxalq humanitar hüquq // Qanun. -1996. № 6.

2. İbayev V.Ə. Beynəlxalq humanitar hüquqda fiziki şəxslərin cinayət məs'uliyyəti // Hüquqi dövlət və qanun. 2000. № 3.

3. İbayev V.Ə. Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi // Hüquqi dövlət və qanun. 2000. № 6.

4. İbayev V. Ə. Beynəlxalq humanitar hüquqda müharibə aparılması vasitələrinin məhdudlaşdırılmasının tənzimlənməsi problemləri // Hüquqi dövlət və qanun. 2000. № 11-12.

5. İbayev. V. Ə. Beynəlxalq humanitar hüquq və silahlı qüvvələr // Hərbi bilik. 2000. № 3.

6. İbayev V. Ə. Beynəlxalq humanitar hüququn anlayışı // Hərbi bilik. 2000. № 4

7. İbayev V. Ə. Beynəlxalq humanitar hüququn mənbələri // Hərbi bilik. 2000. № 5.

8. İbayev V. Ə. Beynəlxalq humanitar hüququn prinsipləri // Hərbi bilik. 2000. № 6.

9. İbayev V. Ə. Müharibə qurbanlarının beynəlxalq hüquqi mühafizəsi // Advokat +. 2001. № 1.

10. Апраксин П. Международное гуманитарное право и прав человека: сходства, различия, взаимодополняемость // Права человека в России: декларации, нормы и жизнь.

11. Апраксин П. Меры, принимаемые государствами на национальном уровне в целях выполнения обязательств, вытекающих из договоров по МГП, и роль консультативной службы МККК // Московский журнал международного права. Специальный выпуск 1999 г.

12. Асатур А. А. Развитие международного уголовного права и деятельность международных уголовных судов // Московский журнал международного права. 2/2000/38.

13. Батырь В. А. Актуальные проблемы имплементации норм МГП в законодательстве Российской Федерации // Московский журнал международного права. Специальный выпуск 1999 г.

14. Вембу Д. Международный уголовный трибунал по Руанде. Роль Суда в современной африканской действительности // Московский журнал международного права. Ноябр-декабр 1997.

15. Градицкий Т. Личная уголовная ответственность за нарушение международного гуманитарного права, применяемого в ситуации немеждународного вооруженного конфликта // Московский журнал международного права. Март 1997.

16. Де Кастро А. Г. Ф. Международно-правовая регламентация внутренных вооруженных конфликтов // Московский журнал международного права. 1/2000/37.

17. Калугин В. Ю. Национальный орган содействия имплементации МГП на внутригосударственном уровне: опыт Республики Беларусь // Московский журнал международного права. Специальный выпуск 1999 г.

18. Лукьянцев Г. Е. Две системы защиты прав человека — два комиссара по правам человека // Московский журнал международного права. 2/2000/38.

19. Молчанов С. Н. Об использовании понятий "культурные ценности" и "культурное наследие (достояние)" // Московский журнал международного права. 2/2000/38.

20. Пархитько В. П. Как Сталин отводил меня от международного гуманитарного права // Московский журнал международного права. 2/2000/38.

21. Пфаннер Т. Создание постоянного уголовного суда // Московский журнал международного права. Март 1998.

22. Рассказов Л. П. , Упоров И. В. Понятие и принципы ответственности в международном праве // Московский журнал международного права. 2/2000/38.

23. Роберж М. К. Новый международный уголовный суд. Предварительная оценка // Московский журнал международного права. Специальный выпуск 1999г.

24. Роберж М. К. Юрисдикция специальных Трибуналов для бывшей Югославии и для Руанды в отношении преступлений против че-

ловечности и геноцида // Московский журнал международного права. Ноябр-декабр 1997.

25. Струн Ж. Международная уголовная юрисдикция, международное гуманитарное право и гуманитарная деятельность // Московский журнал международного права. Ноябр-декабр 1997.

26. Тавернье П. Опыт Международных уголовных трибуналов по бывшей Югославии и Руанде // Московский журнал международного права. Ноябрь-декабрь 1997.

27. Тузмухамедов Б. Р. МГП и международные военные операции по поддержанию и восстановлению мира // Московский журнал международного права. Специальный выпуск 1999г.

MÜNDƏRİCAT

Ön söz 3

Fəsil I.

Humanizm ideyalarının yaranması və inkişafı 7
1. Bəşər tarixində humanizm və müharibə ideyalarına münasibət məsələləri 7
2. Azərbaycanda humanizm ideyalarının yaranması və inkişafı 18
3. İslamda beynəlxalq humanitar hüquq məsələləri 30

Fəsil II.

Beynəlxalq humanitar hüququn anlayışı 42

Fəsil III.

Beynəlxalq humanitar hüququn prinsipləri və mənbələri 62
1. Beynəlxalq humanitar hüququn prinsipləri 62
2. Beynəlxalq humanitar hüququn mənbələri 70

Fəsil IV.

Beynəlxalq humanitar hüququn digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi 82
1. Beynəlxalq humanitar hüquq və dövlətdaxili hüquq 82
2. Beynəlxalq humanitar hüquq və insan hüquqları 87
3. Beynəlxalq humanitar hüquq və beynəlxalq təhlükəsizlik hüququ 93
4. Beynəlxalq humanitar hüquq və beynəlxalq cinayət hüququ 96
5. Beynəlxalq humanitar hüquq və beynəlxalq ekologiya hüququ 98

Fəsil V.

Beynəlxalq humanitar hüququn tətbiqi 101
1. Beynəlxalq humanitar hüququn müxtəlif vəziyyətlərə görə tətbiqi 101
2. Beynəlxalq humanitar hüququn zamana görə tətbiqi 112
3. Beynəlxalq humanitar hüququn ayrı-ayrı şəxslərə münasibətdə tətbiqi 115
4. Beynəlxalq humanitar hüququn əraziyə görə tətbiqi 118

Fəsil VI.
Hərbi əməliyyatların iştirakçıları. Mülki və hərbi obyektlər. 122
1. Kombatantlar və onlara bərabər tutulan şəxslər 122
2. Qeyri-kombatantlar 129
3. Hərbi əsirlər 129
4. Casuslar 131
5. Hərbi kəşfiyyatçılar 137
6. Muzdlular 137
7. Könüllülər 144
8. Hərbi müşavir və tə'limatçılar 144
9. Parlamentyorlar (elçi) 145
10. Mülki və hərbi obyektlər 146

Fəsil VII.
Silahlı münaqişə qurbanlarının beynəlxalq hüquqi mühafizəsi
(Cenevrə hüququ) 150
1. Yaralı və xəstələrin, gəmi qəzasına uğrayanların mühafizəsi 152
2. Tibbi hey'ətin mühafizəsi 158
3. Hərbi əsirlərin mühafizəsi 172
4. Mülki əhalinin mühafizəsi 187

Fəsil VIII.
Müharibə aparılması vasitə və metodlarının məhdudlaşdırılması
(Haaqa hüququ) 204
1. Müharibə aparılması vasitələrinin məhdudlaşdırılması 207
2. Müharibə aparılması metodlarının məhdudlaşdırılması 227

Fəsil IX.
Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması 244

Fəsil X.
Silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi 256

Fəsil XI.
Beynəlxalq humanitar hüquqda neytrallıq 264

Fəsil XII.
BMT tərəfindən həyata keçirilən əməliyyatlar zamanı beynəlxalq hu-
manitar hüququn tətbiqi 274

Fəsil XIII.
Beynəlxalq humanitar hüquq və silahlı qüvvələr 289

Fəsil XIV.
Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara hərəkatı 301
1. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara hərəkatı və onun tərkib hissələri 301
2. Beynəlxalq Qırmızı Xaç Komitəsi 303
3. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası 316
4. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətləri 318
5. Azərbaycan Qızıl Aypara Cəmiyyəti 319
6. Beynəlxalq Qırmızı Xaç Komitəsi və Azərbaycan 321

Fəsil XV.
Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara emblеminin hüquqi mühafizəsi 324
1. Emblemin yaranma tarixi 324
2. Emblemin funksiyaları 326
3. Emblemdən istifadə və onun mühafizəsi 328

Fəsil XVI.
Beynəlxalq humanitar hüququn yerinə yetirilməsi və ona riayət olunmasına nəzarət 334
1. Beynəlxalq humanitar hüququn implementasiyasının anlayışı 334
2. Ümumi prinsiplər 337
3. Dövlətlərin rolu 339
4. Hami dövlətlərin rolu 343
5. Beynəlxalq humanitar hüquqa riayət olunmasına nəzarət 351

Fəsil XVII.
Beynəlxalq humanitar hüququn pozulmasına görə məs'uliyyət 356
1. Dövlətlərin məs'uliyyəti 356
2. Fiziki şəxslərin cinayət məs'uliyyəti 361

Fəsil XVIII.
Beynəlxalq humanitar hüquq pozuntularının beynəlxalq səviyyədə qarşısının alınması 371

1. Nürnberq Beynəlxalq Hərbi Tribunalı 371
2. Tokio Beynəlxalq Hərbi Tribunalı 375
3. Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı 376
4. Ruanda Beynəlxalq Cinayət Tribunalı 387
5. Ad hoc Beynəlxalq Cinayət Tribunalının əhəmiyyəti 390

Fəsil XIX.

Beynəlxalq Cinayət Məhkəməsi: tarixi, yurisdiksiyası, təşkili və cəza məsələləri 393
1. Beynəlxalq Cinayət Məhkəməsinin tarixi və təşkili 393
2. Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası 397
3. Cinayət hüququnun ümumi prinsipləri 415
4. Məhkəmənin təşkilati quruluşu və işlərinin idarə olunması 420
5. İstintaq və cinayət tə'qibi 427
6. Məhkəmə baxışı 433
7. Cəza və onun icrası 438
8. Şikayət və təkrar baxış 441
9. İştirakçı Dövlətlər Assambleyası 443
10. Beynəlxalq əməkdaşlıq 444
11. Maliyyə məsələləri 445
12. Beynəlxalq Cinayət Məhkəməsinin əhəmiyyəti 446

Fəsil XX.

Azərbaycan Respublikası cinayət qanunvericiliyində beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə məs'uliyyət 448
1. Ümumi müddəalar 448
2. Dövlətin beynəlxalq humanitar hüquq üzrə öhdəlikləri 450
3. Azərbaycan Respublikası cinayət qanunvericiliyinin beynəlxalq cinayətlərin qarşısının alınmasına yönəlmiş ümumi prinsipləri 454
4. Universal yurisdiksiya 454
5. Cinayət törətmiş şəxslərin verilməsi 458
6. Əmrin və sərəncamın yerinə yetirilməsi 460
7. Müddətin tətbiq edilməməsi 462
8. Beynəlxalq cinayətlərə görə məs'uliyyətin zəruriliyi 464
9. Cinayət Məcəlləsinin xüsusi hissəsində nəzərdə tutulan cinayətlər 465

Ədəbiyyat 486

Nəşriyyatın direktoru **S.Əliyev.**

"Hüquq ədəbiyyatı" nəşriyyatının kompüter mərkəzində yığılaraq səhifələnmiş, 10.07.2001-ci il tarixdə çap edilmişdir.
Formatı 60 × 90 $^{1}/_{16}$. Şərti çap vərəqi 31.
Sifariş 27. Tirajı 500. Sərbəst qiymət.

"Hüquq ədəbiyyatı" nəşriyyatı,
Bakı, A.Məhərrəmov küç. 4.
Tel. 31–62–54.